ULUSLARARASI "TÜRK DÜNYASINDA MİLLÎ MÜCADELE VE EDEBİYAT" SEMPOZYUMU BİLDİRİLERİ

Azerbaycan/Bakü, 12-15 Haziran 2019

Türk Dil Kurumu Yayınları

ULUSLARARASI “TÜRK DÜNYASINDA MİLLÎ MÜCADELE VE EDEBİYAT” SEMPOZYUMU BİLDİRİLERİ

Azerbaycan/Bakü, 12-15 Haziran 2019

YUNUS EMRE ENSTİTÜSÜ
TİKA
MİLLÎ MÜCADELE'NİN YÜZÜNCÜ YILI

Uluslararası “Türk Dünyasında Millî Mücadele ve Edebiyat” Sempozyumu (Bakü: 2019)

Uluslararası “Türk Dünyasında Millî Mücadele ve Edebiyat” Sempozyumu bildirileri: 12-15 Haziran 2019, Bakü / Yayıma hazırlayanlar: Reşide Gürses, Mehman Hasanlı, Nurane Tağıyeva.--Ankara: Türk Dil Kurumu, 2022.

474 s.: fotoğ.; 24 cm.— (Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu Türk Dil Kurumu Yayınları; 1477)

ISBN 978-975-17-5192-8

1.Toplantılar, Edebiyat 2. Türk Edebiyatı, İnceleme -- Millî Mücadele Dönemi 3. Edebiyat, Azerbaycan -- İnceleme I. Gürses, Reşide (yay. haz.) II. Hasanlı, Mehman (yay. haz.) III. Tağıyeva, Nurane (yay. haz.)

810.41

Türk Dil Kurumu Yayınları

ULUSLARARASI "TÜRK DÜNYASINDA MİLLÎ MÜCADELE VE EDEBİYAT" SEMPOZYUMU BİLDİRİLERİ

Azerbaycan/Bakü, 12-15 Haziran 2019

Ankara, 2022

Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu
Türk Dil Kurumu Yayınları: 1477

ULUSLARARASI
"TÜRK DÜNYASINDA MİLLÎ MÜCADELE VE EDEBİYAT"
SEMPOZYUMU BİLDİRİLERİ
Azerbaycan/Bakü, 12-15 Haziran 2019

*

Yayıma Hazırlayanlar:
Dr. Reşide GÜRSES
Mehman HASANLI
Nurane TAĞIYEVA

*

İnceleyiciler:
Prof. Dr. Nezahat ÖZCAN
Doç. Dr. Erdoğan KUL

*

Metin Denetimi:
TDK - AYK Uzmanı Dr. Reşide GÜRSES

*

Sayfa ve Kapak Tasarımı:
TDK - Esra YILMAZOĞLU

*

Baskı:
Birinci Baskı: Ankara, 2022 Haziran
ISBN: 978-975-17-5192-8
DOI: 10.24155/tdk.kitap.02

*

Dağıtım:
Türk Dil Kurumu
Atatürk Bulvarı No.: 217
06680 Kavaklıdere / ANKARA
Telefon: +90 (312) 457 52 00
Belgegeçer: +90 (312) 468 07 83
Genel ağ: http://tdk.gov.tr

*

©5846 sayılı Yasa'ya göre
eserin bütün yayın, çeviri ve alıntı hakları
Türk Dil Kurumuna aittir.

İÇİNDEKİLER

ÖN SÖZ - MİLLİ MÜCADİLƏDƏN DÖVLƏT MÜSTƏQİLLİYİNƏ VƏ
DAHA GENİŞ ÜFÜQLƏRƏ DOĞRU ● 11
İsa HƏBİBBƏYLİ

AÇIŞ KONUŞMALARI ● 15
Ramazan KORKMAZ ● 17
Cihan ÖZDEMİR ● 19
Feyzi ERSOY ● 21
Teoman TİRYAKİ ● 23

FOTOĞRAFLAR ● 27

BİLDİRİLER ● 31
SƏİD FAİQ ƏBASIYANIĞIN NƏSRİNDƏ UTOPİK CƏMİYYƏT ● 33
Səməni ABBASOVA

ŞEYX QALİB YARADICILIĞI FÜZULİ ƏNƏNLƏRİ KONTEKSTİNDƏ ● 39
Gülər Sabirqızı ABDULLAYEVA

TÜRK ROMANINDA MİLLİ MÜCADİLƏ SƏHİFƏSİ ● 45
Hanım ABDULLAYEVA

XIX-CU YÜZİLDƏN BU GÜNÜMÜZƏ TÜRK-ERMƏNİ MÜNASİBƏTLƏRİ
TARİXİ GERÇƏKLİYİN BƏDİİ İNİKASI MÜSTƏBİSİNDƏ ● 55
Nazile ABDULLAZADE

ƏLİ BƏY HÜSEYNZADƏ YARADICILIĞINDA GÖZƏLLİK VƏ İŞIQ ● 61
İlhamə Muxtarqızı AĞAZADƏ

KÜÇÜK AĞA ROMANINDA MİLLÎ ÜLKÜNÜN SEMBOLİK YÜZÜ: KÜÇÜK AĞA ● 69
Yeliz AKAR

XX-Cİ ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN VƏ TÜRKİYƏ ƏDƏBİYYATINDA "DASTAN" ANLAYIŞI ● 85
Gülnar AXUNDOVA

BURHAN CAHİD MORQAYANIN *ARXA CƏHBƏ (CEHBE GERİSİ)* ROMANINDA MÜHARİBƏ MOTİVİ ● 93
Eşqanə BABAYEVA

ƏBDÜRƏHİM BƏY HAQVERDİYEV YARADICILIĞINDA MİLLİ OYANIŞ RUHUNUN BƏDİİ İFADƏSİ ● 99
Pərvanə BƏKİRQIZI (İSAYEVA)

XX-Cİ ƏSRDƏ MİLLİ VARLIĞINI QORUYAN XALQININ MİLLİ MÜCADİLƏSİ VƏ MÜASİR ƏDƏBİYYAT ● 103
Turanə Faiqqızı CABBARZADƏ

TÜRKİYƏNİN AZADLIQ MÜBARİZƏSİ CƏFƏR CABBARLI YARADICILIĞINDA ● 107
Nərmin CAHANGİROVA

İKİ TÜRK VATANI, İKİ TÜRK YAZARI, İKİ TÜRK ROMANI, TEK İDEAL: "HÜRRİYET" ● 113
Rıdvan CANIM

MİLLİ MÜCADİLƏNİN TARIK BUĞRANIN TARİXİ ROMANLARINDA BƏDİİ ƏKSİ ● 121
Arzu DADAŞOVA

MİLLÎ MÜCADELE RUHUNUN ÇOCUK TİYATROLARINA YANSIMASI ● 131
Mutlu DEVECİ - İpek YILDIZ

ÇİN HALK CUMHURİYETİ'NİN ORTA VE BATI ASYA'DA EĞİTİM FAALİYETLERİ: ULUSLARARASI EĞİTİM ÇERÇEVESİNDE ULUSAL EĞEMENLİĞE YANSIMALARI ● 143
Hakan DİLMAN

TÜRK DÜNYASINDA MİLLÎ MÜCADELE'NİN YORULMAZ KALEMİ: CENGİZ DAĞCI ● 155
Öztürk EMİROĞLU

GÜLTƏKİN POEZİYASINDA MİLLİ MÜCADİLƏ MOTİVLƏRİ ● 161
Bədirxan ƏHMƏDLİ

MODERNİZMİN FƏLSƏFİ-ESTETİK, ƏDƏBİ HADİSƏ KİMİ TƏŞƏKKÜLÜ ● 171
Dilarə ƏLİYEVA

ADR (AHC) DÖNEMİNDE DİL, KÜLTÜR, EĞİTİM MESELELERİ ● 175
Könül ƏLİYEVA

HÜSEYN CAVİD MÜCADİLƏSİ: HƏYATDA VƏ SƏNƏTDƏ ● 181
Lütviyyə ƏSGƏRZADƏ

TÜRK MİLLİ MÜCADİLƏSİ MƏHƏMMƏD İQBALIN ƏSƏRLƏRİNDƏ ● 195
Bəsirə ƏZİZƏLİYEVA

SEYFƏDDİN DAĞLI SATİRALARINDA ƏZİZ NESİN YARADICILIĞININ TƏSİRİ ● 201
Maya HƏSƏNLİ

M. K. ATATÜRK ÇAĞDAŞ AZƏRBAYCAN ZİYALILARININ ARAŞDIRMALARINDA ● 207
Kəminə HƏVİLQIZI

ŞEYX QALİBİN HÜSN VƏ EŞQ MƏSNƏVİSİNDƏ İDEALLA VARLIQ ARASINDA ƏLAQƏ SİNTEZİ ● 213
Xuraman HÜMMƏTOVA

ÖMƏR FAİQ NEMANZADƏNİN TÜRKÇÜLÜK İDEOLOGİYASI ● 223
Aybəniz HÜSEYNOVA

MİLLÎ MÜCADELE DÖNEMİ MARAŞ VE KIRMIZI ŞERİTLİ İSTİKLAL MADALYASI ● 227
Elçin İBRAHİMOV

SOVET DÖVRÜNDƏ NAXÇIVANDA YARANAN ƏDƏBİYYATDA QƏRB ƏDƏBİ ƏNƏNƏSİNİN ZƏİFLƏMƏSİNİN SƏBƏBLƏRİ VƏ NƏTİCƏLƏRİ ● 231
Nərgiz İSMAYILOVA

UMGÜLSÜM SADIQZADƏ VƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ ● 239
Xavər KƏRİMLİ

YAVUZ AKPINARIN ARAŞDIRMALARINDA NAMIQ KAMALIN AZƏRBAYCAN ELMİ-ƏDƏBİ İRSİNDƏKİ İZLƏRİ ● 243
Pərvanə KƏRİMOVA

YABAN'IN YABANLIĞI ● 253
Ramazan KORKMAZ - Mutlu DEVECİ

TÜRK DÜNYASININ BÖYÜK MÜTƏFƏKKİRİ VƏ İDEOLOQU ƏHMƏD BƏY AĞAOĞLU ● 267
Şəhla MƏCİDOVA

AZƏRBAYCAN ƏDƏBİYYATINDA VƏ ƏDƏBİ TƏNQİDİNDƏ ATATÜRK ● 273
Tahirə MƏMMƏD

XX-Cİ ƏSRİN ƏVVƏLİ AZƏRBAYCAN ƏDƏBİYYATINDA QADIN OBRAZLARI MİLLİ MÜCADİLƏ KONTEKSTİNDƏ (SEVİL, ALMAZ, GÜLBAHAR) ● 279
Seyidnisə MƏNƏFOVA

XX-Cİ ƏSRİN ƏVVƏLLƏRİNDƏ NAXÇIVANDA APARILAN MİLLİ MÜCADİLƏNİN BƏDİİ İNİKASI ● 285
Nizami MURADOĞLU

MÖVLUD SÜLEYMANLI *KÖÇ* ROMANINDA MİLLİ MÜCADİLƏNİN MƏTNALTI İFADƏSİ ● 293
Telli MURADOVA

TÜRK MİLLİ MÜCADİLƏSİ VƏ CƏFƏR CABBARLI ● 299
Məhəmmədəli MUSTAFAYEV

TÜRK DÜNYASININ MİLLİ MÜCADİLƏSİ ƏDƏBİYYATIMIZDA ● 307
Göyərçin Abidqızı MUSTAFAYEVA

MİLLİ MÜCADİLƏNİN ÜÇLÜ DÜSTURU – TÜRKLƏŞMƏK, İSLAMLAŞMAQ, AVROPALAŞMAQ ● 313
Səməddinqızı İnci NAĞIYEVA

TÜRK ŞİİRİNDE ATATÜRK İMGESİ ● 319
Mərziyyə NƏCƏFOVA

1918-1920-Cİ İLLƏRDƏ ZƏNGƏZURDA BAŞ VERMİŞ FACİƏLƏR ƏYYUB ABASOVUN *ZƏNGƏZUR* ROMANINDA ● 323
Hacı NƏRİMANOĞLU

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN QURULMASINDA QAFQAZ İSLAM ORDUSUNUN FƏALİYYƏTİNİN BƏDİİ TƏQDİMİ ● 339
Minahanım Tekeli NURİYEVA

ƏHMƏD BƏY AĞAOĞLU VƏ ONUN *SƏRBƏST İNSANLAR ÖLKƏSİNDƏ* ƏSƏRİ ● 347
Aygün ORUCOVA

HÜSEYİN NİHAL ATSIZ VE DEĞERLER EĞİTİMİ ● 355
Cihan ÖZDEMİR - Fahri TEMİZYÜREK - Betül ŞIHLAROĞLU YILDIRIM

XX-Cİ ƏSRİN ƏVVƏLLƏRİNDƏ ƏDƏBİYYATDA MİLLİ MÜBARİZƏ ● 359
Leyla PİRİMOVA

AZƏRBAYCAN QADINI VƏ AZƏRBAYCAN XALQININ MİLLİ MÜCADİLƏ ƏZMİ ● 367
Səadət QARAYEVA

CƏLİL MƏMMƏDQULUZADƏ YARADICILIĞINDA MİLLİ MÜCADİLƏ VƏ İSTİQLAL MOTİVLƏRİ ● 375
Ramiz QASIMOV

ÇAĞDAŞ AZƏRBAYCAN NƏSRİNDƏ MİLLİ BİRLİK İDEYALARININ TƏCƏSSÜMÜ ● 383
Gülnar QƏMBƏROVA

CƏLİL MƏMMƏDQULUZADƏNİN HEKAYƏLƏRİNDƏ MİLLİ MÜBARİZƏ RUHUNUN TƏLQİNİ YOLLARI ● 389
Mehri QULİYEVA

ANAMIN KİTABI ESERİNDE “TÜRKLEŞMEK”, “İSLAMLAŞMAK” VE “MUASIRLAŞMAK” İZLERİ ● 395
Paşa QULUZADƏ

MÜCADİLƏDƏN DOĞAN ƏDƏBİYYAT ● 405
Ərkinaz RƏSULZADƏ

X. ƏDİBİN MİLLİ MÜCADİLƏ MÖVZULU NƏSRİNDƏ REALİST VƏ MİFOLOJİ SURƏTLƏR ● 413
Aygün RÜSTƏMOVA

MİR CƏLAL NƏSRİ VƏ TÜRK ƏDƏBİYYATI ● 419
Ülkər SƏLİMOVA

AZƏRBAYCAN ƏDƏBİYYATINDA TÜRK ƏSGƏRİ OBRAZINA BAXIŞ ● 425
Salidə ŞƏRİFOVA

AHMET CEVAT VE MİLLÎ MÜCADELE ● 433
Aydan UMUDOVA ÇEVİK

BƏDİİ NƏSRDƏ "MİLLİ TARİX" MODELİNİN STRUKTURU VƏ EPİK TƏHKİYƏ TEXNOLOGİYASI ● 443
Maral YAQUBOVA

ANAYASA VƏ Ə. AĞAOĞLUNUN SƏRBƏST İNSANLAR ÖLKƏSİNDƏ ƏSƏRİ ● 459
Afaq YUSİFLİ - Yeganə HÜSEYNOVA

Ə. HÜSEYNZADƏNİN PUBLİSİSTİKASINDA QURTULUŞ SAVAŞI DÖNƏMİNİN TARİXİ REALLIQLARININ METAFORİK TƏQDİMİ ● 465
Toğrul YUSİFLİ

SONUÇ BİLDİRGESİ ● 471
"ULUSLARARASI TÜRK DÜNYASI'NDA MİLLÎ MÜCADELE VE EDEBİYAT" SEMPOZYUMU SONUÇ BİLDİRGESİ ● 473

ÖN SÖZ

MİLLİ MÜCADİLƏDƏN DÖVLƏT MÜSTƏQİLLİYİNƏ VƏ DAHA GENİŞ ÜFÜQLƏRƏ DOĞRU

Azərbaycanla Türkiyənin dostluğu, qardaşlığı təkcə XX-ci əsrin əvvəllərindəki milli mücadilə dövründə deyil, tarixin bütün dövrlərinə mövcud olmuşdur. Bu birliyi ən yaxşı şəkildə Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əliyev xarakterizə etmişdir: "Bir Millət, İki Dövlət!". Azərbaycanla Türkiyə Bakıda, Ankarada və dünyanın hər yerində tək millət iki dövlət olmağın nümunəsini göstərməkdə davam edir. Bu günlərdə Naxçıvan Muxtar Respublikasında Türkiyə Cümhuriyyəti ilə Azərbaycan dövlətinin birlikdə keçirdikləri "Sarsılmaz qardaşlıq" adlı hərbi təlimlər həmin birliyin daha bir parlaq təzahürüdür. Bizim münasibətlərimizi doğru ifadə edən bu addımlar dünyanın digər ölkələrinə belə bir sarsılmaz qardaşlığın mövcud olduğunu nümayiş etdirir. Müstəqilliyin həm Türkiyədə, həm Azərbaycanda bizə bəxş etdiyi xoşbəxtlikdən böyük nemət yoxdur. Türkiyə ilə Azərbaycan dünyaya bir olmağın, əsl qardaş olmağın nümunəsini göstərir və bizim bundan böyük idealımız, mənəvi sərvətimiz, dəstəyimiz ola bilməz. Azərbaycan-Türkiyə qardaşlığı və birliyi dünya üçün mükəmməl bir örnəkdir. Bu örnəyin mahiyyətində iqtisadi, siyasi mənafelərdən qat-qat daha çox dərin mənəvi dəyərlər dayanır. Çünki bizim xalqlarımızın dili, dini, mənəviyyatı, adətənənəsi, taleyi, dostu, düşməni də eynidir. Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin dediyi kimi:

Bir ananın iki oğlu,
Bir ağacın iki qolu,
O da ulu, bu da ulu,
Azərbaycan-Türkiyə!

Türkiyədə 100 il bundan əvvəl, 19 mayda Mustafa Kamal Atatürkün başçılığı ilə İstiqlal savaşına başlamışdır. Nəticə etibarilə bu proses Türkiyənin ərazi bütövlüyünün qorunub saxlanılması və müstəqil Respublika quruluşlu dövlətin yaradılması ilə nəticələnmişdir. Müasir Türkiyə Mustafa Kamal Atatürkün başlatdığı türk xalqının qəhrəmanlıq mübarizəsinin möhtəşəm yekunudur. Bu gün Türkiyə dünya dövlətləri arasında böyük yeri və söz sahibi olan qüdrətli bir ölkədir. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayip Ərdoğan türk xalqının dəstəyi ilə müasir Türkiyə dövlətini böyük idealların işığında yeni hədəflərə doğru qətiyyətlə aparmaqdadır.

Məlum olduğu kimi, Azərbaycanda da 100 il öncə milli mücadilə hərəkatı başlamışdı. Nəticədə 1918-ci ilin 28 mayında Şərqdə ilk demokratik Respublika məhz Azərbaycanda qurulmuşdur. Ümumilikdə XX-ci əsrin əvvəlləri xalqlar və ölkələr üçün milli mücadilə dövrüdür. Dünyada bu prosesə Asiyanın oyanışı da deyirlər. İrandakı Məşrutə hərəkatı da milli azadlıq xarakteri daşıyırdı. Azərbaycan da da bir sıra cərəyanlar mövcud idi. Hümmətçilər, yəni bolşeviklər 1904-cü ildə öz təşkilatlarını qurmuşdular. Əli bəy Hüseynzadə həm Türkiyədə, həm Azərbaycanda türkçülüyün, turançılığın əsasını qoyanlardan biri olmuşdur. Onun fəaliyyətinin böyük bir hissəsi Türkiyə ilə, bir qismi isə Azərbaycanla bağlı olmuşdur. Əli bəy Hüseynzadə Bakıda *Füyuzat* jurnalını çap etdirmişdir. O vaxta qədər isə Türkiyədə tibb təhsili almış, İttihad və Tərəqqi partiyasının qurucularından biri olmuşdur. *Füyuzat* jurnalı türkçülüyün, turançılığın beşiyidir. Eyni zamanda, XX əsrin ən əvvəllərində *Molla Nəsrəddin* jurnalı da var idi. *Molla Nəsrəddin* jurnalı mənada turançılığın deyil, ölkə bu coğrafiyasındakı insanların milli oyanışını, istiqlalını ön plana çəkən məktəb idi. Başqa bir tərəfdə eserlər və menşeviklər siyasi mübarizə cəbhəsində idilər.

Türkiyədə də XX-ci əsrin əvvəllərində müxtəlif fikir axınları mövcud idi və mübarizənin nəticəsi heç də asan əldə olunmamışdır. Ermənilər 31 mart 1918-ci ildə Azərbaycanda böyük qırğınlar törətmişdilər. Şaumyanın və onun ətrafındakı 26 Bakı komissarının fəaliyyəti yüzlərlə günahsız insanın ölümünə öldürülməsinə səbəb olmuşdur. Eyni xəyanəti, cinayətləri ermənilər Türkiyədə də həyata keçirmişdilər. Qars, Ərdahan, Ərzurumdan Vana qədər erməni zülmünün nişanələri bu gün də qalmaqdadır. Bolşeviklərin əli ilə Azərbaycanda və Türkiyədə milli mücadilənin qarşına çıxarılan ermənilər böyük dövlətlərin əlaltısı funksiyasını icra etmişlər. Amma bütün bunlara baxmayaraq, qəhrəman Azərbaycan və Türkiyə xalqları bu əngəlləri aşaraq müstəqil dövlət qurmağı bacardılar. Cəmi 23 il yaşasa da Şərqdə ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti quruldu, 1923-cü ilə qədər Türkiyədə aparılan hərbi-siyasi mübarizə Türkiyə Cümhuriyyətinin elanı ilə nəticələndi.

Azərbaycan 1991-ci ildə yenidən müstəqillik qazandıqdan sonra Türkiyə ilə əlaqələrdaha da genişləndirilmiş və möhkəmləndirilmişdir. XX-ci əsrin əvvəllərində böyük demokrat ədib Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsərində irəli sürdüyü ideallar, dövlət müstəqilliyi ideyasının zəruriliyini meydana qoymuşdur. XX-ci əsrin sonlarında Azərbaycan xalqının ulu öndəri, görkəmli dövlət xadimi Heydər Əliyevin əsasını qoyduğu müstəqil dövlətçilik təlimi müstəqilliyin əbədiyyətə qədər mövcud olacağına təminat verir. Türkiyə xalqının apardığı milli mücadilə bu gün dünyanın güclü dövlətlərindən biri olan Türkiyə Cümhuriyyətinin yaradılması ilə nəticələnmişdir. Azərbaycanın da milli mücadiləsi bugünki müstəqil və inkişaf edən Azərbaycanı yaradıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin Türkiyə ilə sarsılmaz qardaşlıq ittiffaqı dünya birliyində hər iki ölkənin mövqelərinin daha möhkəmləndirilməsinə xidmət edir. Azərbaycan Prezidentinin apardığı məqsədyönlü siyasət, həyata keçirilən neft və qaz layihələri Azərbaycanı qısa bir müddətdə dünyanın qabaqcıl dövlətləri sırasına çıxarmışdır. Eyni sözləri böyük məmnuniyyətlə Türkiyə Cümhuriyyəti haqqında da demək olar. Azərbaycan və Türkiyə həqiqətən bir ananın iki oğlu kimi bir-birini ürəkdən dəstləkləyir, bir-birinin yanındadır. Azərbaycan və Türkiyə birliyindən yaranan sağlam güc dünyada açıq savaşın deyil, barış, inkişaf və tərəqqinin inkişaf etdirilməsinə töhfələr verir. Türkiyə və Azərbaycan regionda sülhün, ədalətin, sabitliyin, inkişafın qarantıdır. Milli mücadiləmizin tarixinə həsr olunmuş Beynəlxalq elmi konfrans təkcə tariximizi öyrənmək baxımından deyil, bu gün Türkiyə və Azərbaycan ziyalılarının, elm adamlarının birliyini dünyaya göstərmək üçün də əhəmiyyətlidir. Biz Mustafa Kamal Atatürkün və Heydər Əliyevin qoyduğu əmanəti daha da möhkəmləndirməliyik. Dostluğumuzu, qardaşlığımızı daha da möhkəmləndirən bu konfrans eyni zamanda təcrübələrimizi də zənginləşdirəcək elm adamlarının qarşısında geniş üfüqlərin açılmasına kömək edəcəkdir.

İsa HƏBİBBƏYLİ
Azerbaycan Millî İlimler Akademisi
Başkan Yardımcısı

AÇIŞ KONUŞMALARI

MİLLÎ MÜCADELE'Yİ ANLAMAK

Ramazan KORKMAZ[*]

İnsan, geçmişini anarak kendi içinde oturmayı öğrenen/başaran bir varlıktır. İnsan dışında hiçbir varlık kendi içinde oturmayı başaramamış ve dolayısıyla bir tarihî perspektife sahip olamamıştır. Millî Mücadele'nin 100'üncü yılında geçmişi anmak, geleceğe yönelik umutlarımızı artırmaktadır. Gandi, *"Türkler İngilizleri yeninceye kadar biz onları Tanrı zannediyor idik…"* der. Mustafa Kemal Atatürk önderliğinde yürütülen ve başarıya ulaşarak mazlum milletlere umut örneği olan Millî Mücadele'nin dünya için çok büyük bir anlamı vardır. Çünkü 100 yıl önceki gibi dünya yeni bir paylaşımın eşiğindedir. Emperyalizm, 100 yıl önce paylaştıkları sömürge kaynaklarını tüketmiş ve şimdi yeni kaynaklar aramakta ve cetvelle yeni haritalar çizmek istemektedirler. Bu yüzden Balkanlarda yapılan medeniyet soykırımı hâlâ hafızalardaki tazeliğini korumaktadır. Kendi perspektiflerince isimlendirdikleri Ortadoğu, cehennemi bir kan gölüne çevrilmiştir. Akdeniz, yeni kuşatmaların üssü hâline getirilmektedir. Kafkasya ve Orta Asya, barut fıçısı gibi, yeni kuşatma hamlelerine *gerekçe laboratuvarı* gibi görülmektedir.

Tarih, ders alınmaz ise tekerrür eder. 100 yıl önceki sömürgeci güçler, daha azgın bir iştiha ile dünyanın geleceğine saldırmaktadırlar. Küreselleşme maskesi ile dünya kaynaklarını yağmalamak isteyen emperyalislerin, hiçbir insani değer endişesi yoktur. Onlar için kazanmak, yalnızca kazanmak ve ne pasına olursa olsun kazanmak düsturu esastır. 100 yıl önce cehenneme çevirdikleri coğrafyamıza yine yeni donanmalar, ajanlar, lejyonerler göndermekte, içimizden Truva atları satın alarak köleleştirici hamleler yapmak istemektedir.

Bütün bu emperyalist hamlelere karşı, yüzyılın örnek uyanışını model almalıyız… Millî Mücadele, emperyalist planların/hesapların yırtılıp çöpe atıldığı, kutsal bir dirilişin öyküsüdür. Bu kutsal öyküyü yazan Gazi Mustafa Kemal Atatürk başta olmak üzere tüm mücadele yoldaşlarını anmalı ve daha derin anlamalıyız. En zor zamanlarda, siyasi sınırlarımızın ötesindeki kardeşlerimizden, dostlarımızdan gelen yardımları, bilmeli ve bu fedakârlıkları

[*] Prof. Dr., KÜNİB Başkanı.

modellemeliyiz. Emperyalizmin en korktuğu şey, öldürücü silahlar değil, ruhları alevlendiren ve bir ülküye yönelten millî uyanışlardır.

Yüzyılın örnek uyanışına saygı duruşu niteliği de taşıyan Bakü'deki "Türk Dünyasında Millî Mücadele ve Edebiyat" konulu Sempozyum'u düzenleyen TİKA, Yunus Emre Enstitüsü, Azerbaycan Millî İlimler Akademisi, Türk Dil Kurumu ve Kafkasya Üniversiteler Birliği'ne teşekkür ediyorum. Özellikle Azerbaycan Millî İlimler Akademisi Başkan Vekili Prof. Dr. İsa HƏBİPBƏYLİ, Türk Dil Kurumu Başkan Yardımcısı Prof. Dr. Feyzi ERSOY, Bakü Yunus Emre Enstitüsü Müdürü Doç. Dr. Cihan ÖZDEMİR ve TİKA Bakü Koordinatörü Teoman TİRYAKİ Beylere rüyayı gerçek kılan çabalarından dolayı şükranlarımı sunuyor; Millî Mücadele'yi başlatan ve başaran tüm kahramanları saygıyla ve minnetle anıyorum.

Cihan ÖZDEMİR[*]

Sayın Azerbaycan Millî İlimler Akademisi Başkanı, T.C. Bakü Büyükelçiliğimizin kıymetli temsilcileri, Sayın Türk Dil Kurumu Başkan Yardımcısı, Sayın KÜNİB Başkanı, Sayın TİKA Bakü Program Koordinatörü, kıymetli akademisyenlerimiz, değerli basın mensupları ve saygıdeğer konuklar!

"Uluslararası 'Türk Dünyasında Millî Mücadele ve Edebiyat' Sempozyumu"na hoş geldiniz.

Millî Mücadele, Türk dünyasında hem savaşların yaşandığı dönemde hem de savaş sonrası ortaya konulan sanat ve edebiyat yapıtlarında sosyokültürel anlamda toplum üzerinde derin izler bırakmıştır. Türkiye'de de özellikle Kurtuluş Savaşı'nı destekleyen yazarlar, şairler ve aydınlar, eserleriyle millî kimlik bilincinin uyandırılmasını ve "Millî Mücadele" anlayışının benimsenmesini sağlayarak halka ulaştırılmasında önemli bir rol aldılar.

Millî Mücadele Dönemi'ne yakından tanıklık eden sanat, edebiyat ve bilim insanları yaşananlara kayıtsız kalmayarak ortaya koydukları eserlerde, dönemin önemli olaylarını genç kuşaklara aktararak ölümsüzleştirdiler. Günümüzde de bu döneme ait eserlerin akademik çalışmalar ışığında araştırılarak yeniden değerlendirilmesi genç kuşaklarda vatan, millet sevgisinin oluşmasında ve tarih bilincinin gelişmesinde etkili olacaktır.

Birbirine çok yakın zamanlarda gerçekleşen, ülkelerimizin tarihini derinden etkileyen olaylardan olan Azerbaycan Halk Cumhuriyeti'nin kuruluşunun 101'inci ve Millî Mücadele'nin 100'üncü yılında Azerbaycan'ın başkenti Bakü'de düzenlendiğimiz Sempozyum'da emeği geçen tüm kurum, kuruluş ve akademisyenlerimize teşekkür ediyor, Sempozyum'un başarılı bir şekilde geçmesini temenni ediyorum.

---

[*] Doç. Dr., Bakü Yunus Emre Enstitüsü Müdürü.

Feyzi ERSOY[*]

İlimler Akademisinin değerli başkanı, Büyükelçiliğimizin kıymetli temsilcileri, Sayın Yunus Emre Enstitüsü Müdürü, Sayın TİKA Program Koordinatörü, Sayın KÜNİB Başkanı, Sempozyum'a Türkiye ve Azerbaycan'dan iştirak eden değerli bilim adamları, hepinizi saygıyla selamlıyorum. Öncelikle Azerbaycan'da yeniden bulunuyor olmanın ve böylesi nezih bir ortamda güzide bir toplulukla birlikte olmanın verdiği mutluluğu belirtmek istiyorum.

Değerli bilim adamları, Türk milleti hepimizin bildiği gibi tarih sahnesinde önemli roller üstlenmiş, gelmiş geçmiş en büyük milletlerden biridir. Bu büyük millet, tarihte öylesine etkili olmuştur ki bugün için Çin, Rus, Moğol, Arap, Fars ve Avrupa tarihlerinin Türk milletinden bahsedilmeden yazılması mümkün değildir.

Bununla birlikte tarihte milletimizin sıkıntıya düştüğü, acılar ve dramlar yaşadığı anlar da yok değildir. Biz Türkiye Türkleri açısından düşündüğümüzde 1918-1922 yılları arası belki de tarihte gördüğümüz en dip noktadır. Özellikle Mondros ile Anadolu'nun işgali, aziz milletimizin en acılı günlerini yaşamasına sebep olmuştur. Ancak, bilindiği gibi en dip noktalar aynı zamanda yükselişin de başlangıcıdır. İşte neredeyse 1908'den 1922'ye kadar sürekli savaşan Türk milleti de bu şartlar altında bile silkinip ayağa kalkmasını bilmiş; bunun sonucunda da Millî Mücadele'nin ve Kurtuluş Savaşı'nın başkahramanı Gazi Mustafa Kemal Atatürk'ün *"... temeli kültürdür."* diye nitelendirdiği Türkiye Cumhuriyeti ortaya çıkmıştır.

Peki, bu acılı ve sıkıntılı yıllarımız acaba edebiyatımıza ne derece yansımıştır? *Türk Dili* dergisinin "Türk Romanında Kurtuluş Savaşı Özel Sayısı" başlıklı 298. sayısı Temmuz 1976'da yayımlanmıştır. Buradaki bilgilere göre bizim 1922 ile 1976 yılları arasında Kurtuluş Savaşı Dönemi'ni, Millî Mücadele'yi yansıtan romanlarımızın sayısı otuzu bile bulmamaktadır. Yıl şimdi 2019'dur. Bu sayıyı ne derece artırabildik ne derece kaliteli eserler ortaya koyabildik, tartışılmalıdır.

Sayıları az da olsa bizim *Ateşten Gömlek, Sodom ve Gomore, Yaban, Üç İstanbul* ve *Küçük Ağa* gibi son derece başarılı eserlerimiz de mevcuttur.

---

[*] Prof. Dr., Türk Dil Kurumu Başkan Yardımcısı.

Bu eserlerde, o zorlu yılların en gerçekçi kesitlerini bulmak mümkündür. İstanbul'un işgali, azınlıkların ve Türklerin işgal karşısındaki tutumları, cepheler, cephe gerisinde yaşananlar, Kuva-yı Milliye ve ona karşı takınılan tutumlar bu eserlerde başarıyla işlenmiştir. Ancak bu eserlerin sayısı mutlaka arttırılmalı, ayrıca bunlar tiyatroya ve sinemaya da yansıtılmalıdır.

Tabii, Türk milletinin tarihteki sıkıntılı yılları yalnızca Türkiye Türklerinin yaşadığı bu acı günlerle sınırlı kalmamıştır. Özellikle 19'uncu ve 20'nci yüzyılda Sovyetler Birliği sınırları içerisinde yaşayan Türklerin geçirdiği sıkıntılı süreç maalesef daha uzun sürmüştür.

İşte bugün Azerbaycan'da değerli bilim insanlarıyla hep birlikte "Türk Dünyasında Millî Mücadele ve Edebiyat"ı konuşacağız. Azerbaycan Türkleri de hiç şüphesiz "Millî Mücadele"nin en çetin örneklerini sergilemişlerdir. *"Bir Millet İki Devlet"* şeklinde nitelendirdiğimiz Azerbaycan ve Türkiye Türkleri, yaşadıkları en zorlu anlarda birbirlerine hem maddi hem de manevi olarak her zaman yardımcı olmuşlardır.

Yaşananları milletimizin hafızasında canlı tutmakta fayda vardır. Ancak bu konuda maalesef millet olarak çok başarılı olamıyoruz. İnsanların olduğu gibi milletlerin de karakterleri, iyi ve kötü huyları vardır. Pek çok iyi karakterimiz var ama bu çabuk unutma meselesi galiba millet olarak bizim kötü bir huyumuz. Bırakın 18'inci ve 19'uncu yüzyılı, 1900'leri bile unutuyoruz. Bakınız bu kötü huyumuzdan, yıllar önce Bilge Kağan da şikâyet ediyor. 732 tarihinde kardeşi Kültigin adına diktirdiği bengü taşta Türk milletine seslenirken *"Bir todsar açlık tosık ömez sen."* yani *"Bir doysan açlığı bir daha düşünmezsin."* diyor ve Türk milletini açık bir şekilde uyarıyor.

Değerli dostlar, geçmişimizi unutmamalıyız. Büyük milletlerin hafızaları da büyük olur. Bu hafızayı canlı tutmak gerekir. Bu canlı tutuşun önemli bir yolu da edebiyattan ve sanattan geçer. Geçmişte yaşadığımız bu acı günleri, mutlaka edebiyata ve sanata başarılı bir şekilde yansıtmalıyız.

Sözlerime burada son verirken başta Cihan Bey olmak üzere Sempozyum'un düzenlemesinde emeği geçen herkese teşekkür ediyor; başarılı ve verimli bir Sempozyum geçirmemizi temenni ediyorum.

Teoman TİRYAKİ[*]

Azerbaycan Hanlıkları ve Osmanlı Devleti arasındaki kardeşlik ilişkilerini günümüze taşıyan Türkiye ve Azerbaycan'ın Millî Mücadele yıllarını ve edebiyatımızdaki yerini konu alan Sempozyum'da; değerli tarihçilerimizi, edebiyatçılarımızı ve bilim adamlarını selamlıyorum.

Kurtuluş Savaşı'nın 100. yılında, ülkelerimizin Millî Mücadelelerinin yeniden gündeme getirilerek toplumlarımızın bilinçlendirilmesi, tarihî gerçeklerin gün yüzüne çıkarılması ve Millî Mücadelelerimizin edebiyatımızdaki yeri konusunda müzakerelerin yapılacağı Sempozyum'a katılımlarınızdan dolayı teşekkürlerimi sunuyorum. Tarihin her döneminde birbirlerine destekte bulunan Azerbaycan ve Türkiye Türkleri, 20. yüzyılda da ülkelerimizin istiklal mücadelelerinde her türlü yardımda bulunmuştur. Anadolu'da yürütülen kurtuluş mücadelesine Azerbaycan aydınlarının destek vermek üzere 1917 yılında organize ettiği *Kardeş Kömeği* mecmuası çalışması, Ahmet Cevat, Cafer Cabbarlı başta olmak üzere sayısız Azerbaycanlı edip ve şairin eserlerine konu olan iki ülkenin istiklal ve kurtuluş mücadelesi, Kafkas İslam Ordusu terkibinde Azerbaycan'ın kurtuluş davasına katılan ve şehit olan kahraman Anadolu evlatları ve Çanakkale Zaferi için kanlarından ve canlarından geçen Azerbaycanlı yiğitler, iki ülkenin sanat, edebiyat, fikir ve siyaset tarihine isimlerini yazdıran Ali Bey Hüseyinzade, Ahmet Ağaoğlu gibi şahsiyetler tarihimizin birer şanlı örneği olarak kardeşlik bağlarımızı sonsuza kadar asla unutturmayacaktır.

Bu bağlamda, aynı kaderin ve tarihsel misyonun taşıyıcısı olan Azerbaycan Hanlıkları ve Osmanlı Devleti arasında yardımlaşma geleneğinin devamı olarak 20. yüzyılda Cumhuriyet'imizin kurucusu Mustafa Kemal Atatürk'ün önderliğinde yürütülen istiklal mücadelemizin unutulmaz kılınması ve yeni nesillere anlatılması açısından edebiyatımızın müstesna yeri bulunmaktadır.

Millî Mücadele Dönemlerinde Türk insanının ve askerinin kahramanlığını, vatanseverlik ruhunu anlatan eserler ortaya koymuş başta Mehmet Akif Ersoy, Mithat Cemal Kuntay, Kemalettin Kamu, Yakup Kadri gibi birçok unutulmaz edebiyatçılarımızı anlamak ve anlatmak çok önemlidir.

---

[*] Türk İşbirliği ve Koordinasyon Ajansı (TİKA) Bakü Program Koordinatörü.

Ülkelerimiz arasında var olan ve "İki Devlet, Bir Millet" söylemiyle özdeşleşen gönül köprüsünün güçlendirilmesi ve istiklal mücadelesi tarihimizin edebiyatımızdaki yerinin karşılıklı olarak akademik düzeyde araştırılmasını, bu konuda ortak çalışmaların ve iş birliklerinin arttırılmasını hedefleyen Sempozyum'un gerçekleşmesinde emeği geçenlere teşekkürlerimi sunuyor, Sempozyum'un başarılı geçmesini diliyorum.

FOTOĞRAFLAR

BEYNƏLXALQ
"TÜRK DÜNYASINDA
MİLLİ MÜCADİLƏ
VƏ ƏDƏBİYYAT"
Simpoziumu
TİKA

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
TİKA
2018

BEYNƏLXALQ
"TÜRK DÜNYASINDA
MİLLİ MÜCADİLƏ
VƏ ƏDƏBİYYAT"

BİLDİRİLER

SƏİD FAİQ ƏBASIYANIĞIN NƏSRİNDƏ UTOPİK CƏMİYYƏT

*Səməni ABBASOVA**

İstənilən dövrdə ideal cəmiyyət qayğısı, bərabər sistem düşüncəsi olub. Mövcud şərtlərdə və həyatda özünü yaxşı hiss etməyən şəxs onları düzəldə biləcək yeni bir toplumda yaşamaq istəyir. Yaşadığı həyatda qarşısına çıxan neqatif hallar onu xəyalında mövcud olmayan bir ölkə, bir həyat qurmağa yönləndirir. Burada yazıçı təxəyyülü işin içinə girir, çünki bundan sonra meydana gələn quruluş, forma məhz yazıçı təxəyyülü əsasında gerçəkləşir. *Utopiya* yazarı mövcud strukturları tənqid edərək onlara alternativ daha yaxşı bir quruluş irəli sürür. Bu yazıçının özü və yaşadığı toplum üçün düşündüyü cəmiyyətin yeni bir modelidir. Mövcud sistemin qüsurlu tərəflərini tənqid edib, ideal həyat tərzini əks etdirən bu sosial layihələr, bu yeni cəmiyyət modeli "utopiya" adlanır. Ədalətli həyat, utopik cəmiyyət arzusu Renessans dövründə formalaşmağa başlamış və sonrakı əslərdə də birbirlərindən təsirlənərək günümüzə qədər gəlmişdir. Yunanca "mövcud olmayan yaxşı yer" anlamına gələn *Utopiya* termini Renessans dövrünün təmsilçilərindən olan *Tomas Murun* adı ilə bağlıdır. O, 1516-cı ildə yazdığı *Ütopya* əsəri ilə ideal bir dövlət quruluşunu irəli sürür. Şərqdə isə utopiya ənənəsinin inkişafını Platondan təsirlənən Fərabinin adı ilə bağlamaq olar. *Fəzilətli şəhər* əsərində ideal bir dövlət quruluşu önə sürən Fərabiyə görə insanlar bir-birlərinə köməklik edərək birgə yaşamalıdırlar (Yumuşak 2012: 50).

Türk ədəbiyyatında utopiyalara XIX-cu əsrin ikinci yarısından etibarən rast gəlmək mümkündür. XX-ci əsrdə utopik ünsürlərin olduğu əsərlərin sayı isə getdikcə artır. Bunun haqqında danışarkən İsmayıl bəy Qaspiralinin "*Dərürrahat müsəlmanları"* əsərini qeyd etmək lazımdır. Bu əsərdəki Darürrahat türk ədəbiyyatında ilk utopik ölkədir (Yumuşak 2012: 55). Bu əsər türk ədəbiyyatında ilk utopik əsər olmaqla yanaşı, həm də Şərq və Qərb utopiyasının sintezini də özündə birləşdirir.

* Bakı Dövlət Universiteti; s*amani_abbasova@hotmail.com*

"Sərvəti-fünun" dövründə də bu ənənə davam edirdi. Bu dövrün təmsilçilərinin utopik ölkə konsepti "*Yaşıl yurd"* adlanırdı (Yumuşak 2012: 55). Dövrün sosial və siyasi şərtlərinin cəmiyyətdə yaratdığı təsir, bu məsələlərin azad şəkildə danışılmaması və s. onların əsərlərində bədbinliklə müşahidə olunurdu. Bu reallığı qəbul edə bilməyərək toplumdan qaçma arzusu olaraq qarşımıza çıxan "Yaşıl yurd" konsepti Sərvəti-fünunçuların utopik cəmiyyət arzusu kimi özünü biruzə verir.

Daha sonra Ziya Göyalpın "Turan" şeirində, "*Qızılalma*" əsərində də utopik elementlər nəzərə çarpır: "*Vətən nə Türkiyədir türklərə, nə Türkistan,/ Vətən böyük və müəbbət bir ölkədir Turan*" deyərək dünyada olan bütün türkləri bir araya gətirəcək ideal bir cəmiyyətin xəyalını qurur (Yumuşak 2012: 57).

Cümhuriyyətin elanından sonra da türk ədəbiyyatında yaranan əsərlərdə utopik ünsürlərin, elementlərin olduğunu görə bilərik. *Əhməd Ağaoğlunun Sərbəst insanlar ölkəsi,* Y. Q. Qaraosmanoğlunun *Ankara,* P. Səfanın *Yalnızıq* və s. kimi romanları da utopik izlər daşıyır. Cümhuriyyət dövrünün və müasir türk ədəbiyyatının ən ümidli insanlarından biri olan S. F. Əbasıyanıq da əsərlərində insan və həyata dair optimistliyini əks etdirmişdir. Bu optimistlik zaman zaman yeni sosial münasibətlərin mövcud olduğu və xoşbəxt insanların olduğu ideal bir cəmiyyətdə yaşamaq arzusundan qaynaqlanır.

Səid Faiqin nəsri "*təpədən dırnağadək sevgi"* ilə yoğrulub desək yanılmarıq. Yazıçının utopiya konsepsiyasının mərkəzində insan dayanır. "*İnsansız heç bir şeyin gözəlliyi yoxdur. Hər şey onun sayəsində onunla gözəldir."* (Abasıyanık 2012e: 29) – deyən yazıçı Çexov üslubunda sadə bir tərzdə yazılmış əsərlərində şəhər və adada yaşayan insanların dünyasını və həyatını işləyir.

Bütün utopiyaların təməlində mövcud sosial quruluşun şərtlərindən narazılıq, daha yaxşı və daha ideal toplumda yaşamaq və yaratmaq prinsipləri dayanır. Səid Faiqdə görünən ütopik dünya da müəyyən prinsiplər əsasında formalaşır.

1) İnsanlar arasında zəngin və ya yoxsul fərqi qoyulmadan, bərabərliyin hökm sürdüyü bir cəmiyyətdə yaşamaq prinsipi. *Havada bulud* kitabına daxil olan "Ay işığı" hekayəsində iki avara dostun söhbəti fonunda görmək mümkündür. Bu dostlardan birini qəzetdə getdiyi iş görüşməsindəki dialoqda da bu xüsusiyyətin əks olunduğunu görə bilərik.

"Yani nasıl bir dünya arzuluyorsunuz?

- Nasıl bir dünya mı? Haksızlıkların olmadığı bir dünya… İnsanların hepsinin mesut olduğu, hiç olmazsa iş bulduğu, doyduğu bir dünya… Hırsızlıkların, başkalarının hakkına tecavüz etmelerin bol bol bulunmadığı…

- Pardon efendim! Bol bol bulunmadığı ne demek? Hiç bulunmadığı bir dünya…" (Abasıyanık 2012b: 20-21).

Səid Faiqin bütün yaradıcılığının əsas mərkəzində insan dayanır. Təbiətə, insanlara və ətrafında baş verən hadisələrə biganə qala bilməyən Səid Faiq hər zaman bir yazıçı həssaslığı ilə ətrafında olanları müşahidə edir və qələminə yansıdır. Onun sosial problemləri həll etmək və əks etdirmək kimi bir məqsədi yoxdur. O da bizim kimi sıradan bir insandır. Duyarlı və həssas insan. Ona görə də çevrəsində baş verən kiçik bir hadisə belə yazıçını təsirləndirir, onu qələmə sarılmağa sövq edir. İnsanı əsərlərinin mərkəzinə qoyan yazıçı onlar arasında heç bir fərq qoymadan onları sevir, onların da xoşbəxt olduğu bir dünyanın olmasını arzulayır. Yazıçıya görə bütün insanlar sevgiyə layiqdirlər və insanların sosial qayğılardan uzaq və xoşbəxt yaşaması bərabərliyin hakim olduğu bir cəmiyyətdə mümkündür. Bərabərlik düşüncəsinin mövcud olduğu bu cəmiyyətin əksi "Çelme" hekayəsində, *Mədarı-məişət motoru* adlı romanında da özünü biruzə verir. Romanın əsas qəhrəmanlarından olan Fəxrinin dostu Fəxrəddin Asimlə dialoqu da əslində yazıçının arzuladığı, görmək istədiyi ideal cəmiyyətə, uğurlu gələcəyə bir işarədir: *"Bu dünya ergeç, hatta benim bile ümit etmediğim şekilde, insanı hayretlere garkedecek şekilde, düzelecektir"* (Abasıyanık 2012d: 110). Yazdığı əsərlərində hər zaman həyata optimist baxış, optimist ruh hakimdir. O, bir gün yaşadığı bu cəmiyyətin yenidən bərpasına, utopiyaya dönüşəcəyinə inanır.

2) Səid Faiqin utopik dünyasında insanın çevrəsinə, digər varlıqlara, həyata yönəlik müsbət bir münasibət özünü göstərir. Səid Faiq hər zaman insanları müşahidə etməyi sevən, bu müşahidədən zövq duyan bir yazıçı olmuşdur. Ancaq bəzən ətrafında baş verən hadisələr onu bütün mənliyiylə dərindən yaralayır, olanlara bir yazıçı həssaslığı ilə yanaşır. Səid Faiqin insanlara qarşı sevgisində dini, irqi, sosial mənsubiyyətin heç bir önəmi yoxdur. O, insanları və yaşadığı cəmiyyəti də bu cür görmək istəyir. Bütün insanların bərabər olduğu bir cəmiyyət onun arzusudur. Yazıçı özünə və yaradıcılığına hakim kəsilən bu insan sevgisini bütün insanlarda görmək istəyir. Bütün insanların qeyd-şərtsiz birbirlərinə kömək etdiyi, bir-birlərinə anlayışla və həssaslıqla yanaşacağı düşüncəsi də yazarın əslində insanlara olan inamını, ümidini öldürmür. "Uyuz xəstəliyi arxasından xəyal" hekayəsində küçədə dolaşan uyuz xəstəliyindən əziyyət çəkən bir uşaq obrazı yaradır. Bu uşaq həmin dövrdə minlərlə uşaqdan sadəcə biridir. İnsanların bu xəstə uşaqlara laqeyid münasibəti yazarın diqqətindən yayınmır. Öz istirahət və əyləncələrindən qalmayan insanların küçədə yaşayan, xəstəlikdən əziyyət çəkən bu uşaqları görməzdən gəlmələri, yanlarından ötüb keçmələri yazıçını düşündürür. Lakin eyni zamanda müsbət bir düşüncənin, arzunun xəyalını qurur. İnsanların bir-birlərinə daha diqqətli, daha duyarlı olduğu bir dünyanın xəyalını qurur: *"Bir kadın*

bu çocuğu alıp evine götürüyor, uyuz merhemini sürüyor, üç beş gün evinde tutuyor, sonra isterse yine mikrobun kaynadığı sokağa onu tertemiz bırakıyor" (Abasıyanık 2012c: 22).

3) Səid Faiqin utopiyasında əxlaq qanun qaydaları qeyri-dini mahiyyət kəsb edir. Səid Faiqə görə insan sevgisi bütün tanrısal sevgilərdan daha üstün və dəyərlidir. "Elə bir hekayə"də söylədiyi bu sözlər:

> *"Günün birinde bir ahlakımız olacak ki hiçbir kitap yazmadı. Bir ahlakımız, bugün yaptıklarımıza, yapacaklarımıza, düşündüklerimize, düşüneceklerimize hayretler içinde bakan bir ahlakımız. O zaman seninle daha uzun dostluklar edeceğiz patlak göz. O zaman hiç merak etme. Dostum Panco da bana hak verecektir. Kilise ahlakından söz açmayacak. Dostluğun olağanüstü güzelliğini çocuklarına anlatacaktır"* (Abasıyanık 2012a: 8-9).

Sevgi, dostluq, bütün insani, mənəvi dəyərlər Səid Faiq hekayələrinin əsas prinsipləridir. Təsadüfi deyildir ki, "Bir insanı sevməklə başlar hər şey" sözləri də Səid Faiq yaradıcılığının leytmotivi kimi səslənir.

4) Onun əsərlərindəki utopik cəmiyyət mücərrəd deyil, konkret-real məkan olaraq da qarşımıza çıxır. Ütopiyaların bölgüsünə diqqət yetirsək müxtəlif prinsiplər əsasında təsnif olunduğunu görərik. Məs: siyasi utopiyalar, tarixi utopiyalar, fəlsəfi utopiyalar, konkret və mücərrəd utopiyalar. Forma və məzmun baxımından da utopiyalar iki qrupa bölünür. Forma baxımından utopiyalar 1) *Sənətsəl/Edəbi,* 2) *Fəlsəfi/Elmi,* 3) *Mifoloji/Dini* olaraq üç qrupa bölünür. *Ədəbi utopiyalarda* danışılan utopiyanın ideallığı və ya reallaşacağı istiqamətində bir iddia yoxdur. Və ya belə bir iddia varsa belə onun nədən ideal olmasının səbəbləri göstərilmir. *Fəlsəfi/elmi/siyasi utopiyalarda* təsvir edilən utopiyaların reallaşa biləcəyi iddiası vardır və bu ideala necə çatmaq lazımdır? sualına cavab tapmaq mümkündür. Mifoloji/dini utopiyalarda önə sürülən utopiyaların keçmişdə mövcud olması və ya gələcəkdə mövcud olmasına dair bir inanc var. "*Alemdağda bir ilan var"* hekayəsində yazıçının təsvir etdiyi utopiya mücərrəd xarakter deyil konkret xarakter daşıyır. Alemdağ real məkan olaraq qarşımıza çıxır.

"Alemdağda bir ilan var" hekayəsində modern həyatın reallığının açıq şəkildə bəlli olduğu İstanbulla Aləmdağ qarşılaşdırılır. Kapitalistləşən dünyada gündən-günə dəyişən İstanbulla təbiiliyini qoruyub saxlayan, qəhrəmanın gözündə bir sığınacaq olan Aləmdağ real məkan olaraq qarşılaşdırılır və müqayisə edilir.

> *"Günlerden pazartesi. Yine hava karlı. Yine İstanbul çirkin. İstanbul mu? Çirkin şehir. Pis şehir. Hele yağmurlu günlerinde. Başka günler güzel mi, değil; güzel değil. Başka günler de köprüsü*

balgamlıdır. Yan sokakları çamurludur, molozludur. Geceleri kusmukludur. Sokaklar dardır. Esnafı gaddardır. Zengini lakayttır" (Abasıyanık 2012a: 24-25).

Yazıçı İstanbulun təbiəti ilə insanların xarakterini eyniləşdirir. İstanbulun özü, havası necə çirkindirsə, insanları da bir o qədər qəddar və laqeyiddir. Aləmdağ isə real utopik məkan olaraq qarşımıza çıxır. Alemdağı yazıçının utopik cəmiyyət konsepti də adlandıra bilərik.

"Güzel yer, güzel yer Alemdağ. Şu saatte on beş metrelik ağaçlarıyla, Taşdelen'iyle, yılanıyla… Ama kış günü yılanlar inindedir. Olsun. Hava Alem-dağ'da ılıktır. Güneş yaprakları kıpkızıl ağaçların içine doğmuştur. Gökten parça parça ılık bir şeyler yağmakta, çürümüş yaprakların üstüne birikmektedir" (Abasıyanık 2012a: 25).

Yazıçı üçün ilanlarıyla belə Aləmdağ İstanbuldan daha üstündür.

5) İnsanın mərkəzdəki sıxlıqdan qaçaraq şəhərdən kənar, "yadlaşma"dan uzaq bir məkan kimi kənd və ya qəsəbədə yaşama arzusu da yazıçının utopik cəmiyyət konseptinin bir parçasıdır. "Şəhərləşmə" nin təsiri olmayan bu kənd və qəsəbələr onun üçün müasir dövrün reallığında utopiyadır. Yazıçı həm də həmin dövrdə Demokrat partiyasının hakimiyyətə gəlməsiylə kapitalistləşmənin təsirindən qaynaqlanan narahatlığını dilə gətirir. 1952-ci ildə nəşr olunan "Son quşlar" kitabına daxil olan eyniadlı hekayəsində söylədiyi fikirlər günümüz üçün də aktualdır:

"Dünya değişiyor dostlarım. Günün birinde gökyüzünde güz mevsiminde artık esmer lekeler göremeyeceksiniz. Günün birinde yol kenarlarında toprak anamızın koyu yeşil saçlarını da göremeyeceksiniz. Bizim için değil ama çocuklar, sizin için kötü olacak Biz kuşları ve yeşillikleri çok gördük. Sizin için kötü olacak. Benden hikâyesi..." (Abasıyanık 2012e: 7).

Kapitalistləşmənin hökmran olduğu bu dünya yazıçını qorxudur. İnsanları və uşaqları düşünən yazıçı təbiətin gözəlliklərindən məhrum bir dünyanın olacağından narazılıq edir. Ona görə də şəhərdən uzaq kənd və qəsəbədə olan yaşam tərziylə şəhərdə olan yaşam tərzini qarşılaşdırır və şəhərləşmədən uzaq bir həyatı daha üstün hesab edir.

Utopiyalar, həyata aid sosial, iqtisadi, dini bir çox tərəfi düşünülərək formalaşmışlar. Utopiyalar haqsızlığın, bərabərsizliyin, istismarın olduğu dövrlərə tarixə qarşı bir üsyan, etiraz olaraq da qarşımıza çıxır. Yazdığı hekayələrlə modern türk hekayəçiliyinin öndə gələn simalarından biri olan Səid Faiq də yaratdığı əsərlərdə zaman-zaman arzuladığı utopik cəmiyyəti təsvir etmişdir.

Qaynaqlar

Abasıyanık, Sait Faik (2012a). *Alemdağda Var Bir Yılan*. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları.

----- (2012b). *Havada Bulut*. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları.

----- (2012c). *Mahalle Kahvesi*. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları.

----- (2012d). *Medarı Maişet Motoru*. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları.

----- (2012e). *Son kuşlar*. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları.

Yumuşak, Firdevs Canbaz (2012). "Ütopya, Karşı-Ütopya ve Türk Edebiyatında Ütopya Geleneği". *Bilig*, *Türk Dünyası Sosyal Bilimler Dergisi*, 61: 47-70.

ŞEYX QALİB YARADICILIĞI FÜZULİ ƏNƏNƏLƏRİ KONTEKSTİNDƏ

*Gülər Sabirqızı ABDULLAYEVA**

Türk ədəbiyyatının ölməz sənətkarlarından olan Şeyx Qalib yaratdığı lirik şeirlər ilə təsəvvüf poeziyasını zənginləşdirmişdir. Şairin lirik poeziyası onun Füzuli ənənlərindən bəhrələnməsindən xəbər verir.

Qəlb şairi kimi tanınan Füzuli orta əsr şairlərinin demək olar ki, hamısına təsir etmişdir. Bu baxımdan Məhəmməd Füzulinin və Şeyx Qalibin divanınındakı şeirlərin əsas hissəsini lirik qəzəllər təşkil edir. Hər iki şairin lirik qəzəllərində təbiət hadisələrinə, təbiət aləminə müraciətin özünəməxsus yeri var. Bilirik ki, bütün dövrlərdə şairlər şeirlərinin təsir gücünü artırmaq üçün güllərlə gözəllər arasında bir oxşarlıq axtarmış, onları bir-birinə təşbeh etməklə bu gözəlliyi və yazdıqları şeirlərin təsir gücünü daha da qüvvətli etməyə çalışmışlar. Odur ki, bu müqayisəni gülün müxtəlif formaları üzərində həyata keşirməyə çalışan şairlər güllərlə gözəlləri birbirinə oxçatmış və onlara şeirlər söyləmişlər. İstər M. Füzuli, istərsə də Şeyx Qalib divaninda da güllərə mürciət və onlara xitab lirik qəzəllərin ifadə gözəlliyini artıran maqamlardan biridir.

Orta əsr şairlərinin tez-tez müraciət etdiyi təbiət o mövzularından biri də gül obrazıdır. İstər şifahi ədəbiyyatda, istərsə də yazılı ədəbiyyatda gül obrazına müxtəlif yöndən yanaşma, onlardan bir vasitə kimi istifadəyə demək olar ki, bütün dövrlərdə rast gəlirik. M. Füzuli deyir:

Canə basdım qönçəvəş peykahıhı, ey tazə gül,
Dözmək üçün hicrinə düzdüm dəmirdən bir könül.

Vəh nə şairsən ki, oddan su çıxardın, sudan od,
Tərlədib rüxsarını gül-gül qılanda tabi-mül (1, 207).

Xalq ədəbiyyatında güllərlə bağlı yaranan rəvayətlər özlərində müəyyən qədər də olsa, yarıhəqiqət olan müxtəlif əhvalatları yaşatmaqdadır.

* AMEA Nizami Gəncəvi adına Ədəbiyyatı İnstitutu Türk xalqları Ədəbiyyatı şöbəsinin dissertantı; *guler32114@gmail.com*

Babalarımızın düşüncəsindən süzülüb gələn güllərlə bağlı rəvayətlərin hər birinin xalq yaddaşında özünün yeri və tutumu var, onunlarla bağlı olan inam və etiqadlar indi də yaşamaqdadır.

Xalq yaddaşından süzülüb gələn çiçək və güllərlə bağlı əfsanələr və rəvayətlər bu gün də öz fünksiyasını itirməmiş, ədəbiyyatda məhəbbət simvoluna çevrilərək şairlərimizin ilham mənbəyi olmuşlar.

Belə bir rəvayətlərdən biri də bənövşə və lalə gülü ilə bağlı mövcuddur. Rəvayətdə deyilir ki, bənövşə bir qız, lalə isə bir oğlan imiş. Onlar bir-birini sevib əhd-peyman bağlayırlar ki, baharın ilk günü çəmənzarda görüşsünlər. Vaxt-vədə yetişəndə bənövşə əhdinə vəfalı çıxaraq cəmənliyə -görüş yerinə gəlir. Lakin göy üzündə heç bir günəş hərarəti görməyən bənövşənin üzünü sazaq vurmuş, rüzgar onun böynunu əymiş, söyuq isə onu gömgöy etmişdir. O, söz verdiyi üçün dönüklük edib geriyə də dönməmişdir. Daş dibinə çəkilib soyuqda, şaxtada sevgilisi laləni gözləmişdir. Lalə isə günəşli, çiçəkli yaz gününü gözləmiş, o, görüş yerinə gəldikdə bənövşəni soyuqdan göyərmiş və daş dibinə çəkilib boynunu bükmüş bir halda sevgilisinin yolunu gözləyən görmüşdür. Lalə öz vəfasızlığına, əhdinə, peymanına dönüklüyü üçün özünü qınamış, yanıb yaxılmışdır. Ürəyinin qanı üzünə çıxmışdır. Bənövşə isə başını qaldırıb ona baxmamış kədərinə küsmüşdür. O vaxtdan bəri bu çıçəklərə boynu bükük bənövşə və bağrı qara lalə deyilmişdir (2, 42).

Verib beyazi arak-veş güli piyaleyi tab?
Misalı laleyi ebri dirəng edr mehtab.

Çəməndə zövrakı laleyilə seyr edər jalə
Zəminə öylə hücüm etti mevcri ezhar (3, 59).

Baharın gəlişi gul busələrini hər tərəfə yaydı, behiştə-cənnətə yol açdı, hər tərəfi yaqut rənginə boyadı.

M. Füzuli belə deyir:

Bağə girdim. Səri-kuyin anıb əfğan etdim,
Gül örüb, yadın ilə çaki-giriban etdim.

Baxuban nərgizə, əyyar gözün qıldım yad,
Nərgisi naləvü əfğanıma heyran etdim (1, 229).

Bildiyimiz kimi ədəbiyyatda təbiət ünsürlərinə müraciət, onlardan bəhrələnmə, onlara təşbeh edilməsi və s. bu kimi müraciət formaları aşiqin hisslərini, daxili aləmini ifadə etmək üçün şairin istifadə etdiyi bir vasitədir. İstər klassik ədəbiyyatda, istərsə divan ədəbiyyatında, istərsə də cağdaş ədəbiyyatda güllər məhəbbət, sevgi, vüsal, hicran funksiyası daşıyır. Sevgi rəmzini özündə daşıyan gül, rənginin, qoxusunun, təzəliyinin, zərifliyinin, qönçə halında olmasının, açılmasının müxtəlifliyi ilə daha çox anlamları özündə yaşatmaqdadır. Şair təbiətin gözəlliklərinin poetik düşüncənin fonunda oxucuya

təqdim edir. Bu istifadədə müəllif poeziya dilini canlı xalq dilinə yaxınlaşdırıb oxucuya çatdırmağı bir vəzifə kimi qarşısına qoyur. Təbiətlə bağı yazılan əsərlər haqqında İsgəndər Pala yazır. *"Bizim klassik ədəbiyyatımız təbiətlə iç-içə yaşayır. Belə ki, insanların təbiətdən qopmadıqları, şəddadi məkanlar içinə sığışıb qalmadıqları, torpaqla ünsiyyətlərini qoparmadıqları o dönəmlərin misraları, əlbəttə təbiət tərənnümləriylə dolu olacaqdır."* (4, 245).

M. Füzuli yaradıcılığında *"Bülbülü-dil gülşəni-rüxsarın eylər arizu/ Tutiyi-can ləli-şəkkərbarın eylər arizu (Bülbül gülzarlığı arzuladığ kimi, tuti də şirin sözlünün arzusunda)"* olduğunu deyir.

Söz sənətkarları da gülün bu özəlliklərindən, məna çalarlarından istifadə etməklə onun şəninə söz qoşmuş, güllərdəki gözəlliyi canlı və obrazlı ifadələrlə daha da rəngarəng edərək dilə gətirmişlər. Bu haqda türk tədqiqatçısı yazır: *"Türklər arasında əski dövrlərdən bəri bilinməkdə olan dül ədəbiyyatımızda yoğun kullanılan motiflərdən biridir. Farsca genel anlamı çiçek olan gül, güli badam (badam çiçəyi), güli yasəmən (yasəmən çiçəyi) kimi ifadələrlə eyni mənada kullanılmışdır"* (5, 234-238). Güllər divan şeirində əhmər-qırmızı, sarı, təzə, tər, gülü rəna (içi qırmızı bayırı sarı) lalə (bağrı qan) və s. adlarla ədəbiyyatda tərif olunur. Şeyx Qalib gulün qırmızılığını yaqutla müqayisə edərək deyir:

Rəvgani gullə deyil nuri cəral yaqut,
Badei rəngi xna tutmaz ayaıs yaqut (3, 218).

Məcazi olaraq sevgili mənasında işlədilən gül insan gözəlliyinin bütün xüsusiyyətlərini ortaya qoyur. Buna görə də gözəlin – sevgilinin üzü və yanaqları həmişə gülə bənzədilir. Onun ağzı qönçə olan gül ilə müqayisə edilir, sevgilinin ətrinin gül qoxuması mənasında da işlədilməsi məlumdur. Sevgilinin şirin, dadlı sözlərini "ağzı şəkər", "dili qənd", "gülbe-şəkər" kimi ifadlələrlə də vəsf olunur*." Ədəbiyyatda belə bir ideya, fikir də formalaşıb ki, qızılgülün ətrində Məhəmməd (ə.s) nuru var". "Doğu ədəbiyyatında bilhissə gözəlliyi ilə adından sıkca söz edilən gül, türklər tərəfindən da əski dövrlərdən bəri bilinməkdə olub ədəbiyyatımızda yoğun kullanılan motivlərdən biridir. Farscadan gələn anlamı çiçək olan gül güli-badam (badam çoçəyi), gülü-yasəmən (yasəmən çiçəyi) kimi ifadələrlə eyni mənada kullanılmışdır."* (6, 219)

M. Füzulidə:

Çıxdı yaşıl pərdədən, ərz eylədi rüxsarı gül,
Simdi mirati- zəmiri-pakdən jəngar gül.

Cam dut saqi ki, gülbünlər gül izhar etdilər,
Sən dəxi bir gülbəni- rənasan, et izhar gül (1, 44).

Ş. Qalibdə:

Gülşən efruz olacaq şöylei ahi bülbül,
Rəngi gül rövgani qəndili fena gəldi mənə.

Hüsnünün nəqşi ber-ab olduğun anla cana,
Lövhi ruyumda demə xətti bəqa gəldi mənə (3, 352).

Həm klassik ədəbiyyatda, həm də divan ədəbiyyatında gül və bülbül adları qoşa çəkilir. Bu adlar ədəbiyyatda həm aşiqi, həm də sevgilini vəsf edirlər. Gül-bülbul əhvalatı, onlar arasında olan eşq macərası şairlər tərəfindən müxtəlif təfərrüatlarla canlandırılır. Gül həm özü, həm yarpaqları, həm də tikanları ilə aşiqi yandırıb yaxmaqdadır. Qalib yaradıcılığında bülbül, ah, fəryad, fəğan, nalə, kədər kimi funksiyaları özündə daşıyır.

Qalib deyir:

Dağı dilin o şüxi gül endam tazələr,
Gülzari nəşəyi bir iki cam tazələr (3, 407).

və ya

Gülzari zəmirində sənin bülbülü şiraz
Sad rəşk ilə dastan zeni feryadi fəğan (3, 59).

Başqa bir qəzəlində:

Pertevi suzişi gör şölei ahi bülbül,
Bir şərar ilə edər göncəyi xəndanı çıraq (3, 60).

Bildiyimiz kimi gülün kölgəsi və tikanları aşiqin birinci rəqibidir. Çünki gülün kölgəsi, yarpaqları məşuqəyə aşiqdən daha yaxındır. Odur ki, aşıq gülün kölgəsini və yarpaqlarını özünə qarşı həmişə rəqib hesab edir. Bu fikrin davamı kimi biz XIX-cu əsr Azərbaycan ədəbiyyatını görkəmli qəzəl şairi S. Ə. Şirvani yaradıcılığı ilə üst-üstə düşdüyini görürük.

Şaxi-gul qoyma sala sayə sənə bağ içrə,
Bu nəzakətlə, gülüm, incidər ol sayə səni (7, 574).

Ona görə ki, o həm aşiqi gülə yaxınlaşmağa qoymayaraq, aşiqə əzab verir, həm də özü sevgiliyə çox yaxın olduğu üçün aşıq onun qədər yaxın ola bilmədiyinə görə əzab çəkir. Bundan başqa gülün tikanları bülbülün ona yaxınlaşmasına imkan verməməsi, gülün min bir bəhanə ilə bülbülü özündən uzaqlaşdıraraq, əğyarın bülbülə gülməsini, onun qarşısında naz ilə oynamasını müəllif belə ifadə edir.

Aman ey növbahar naz ta'rif eyle insaf et,
*Seri rahnda nergis goz dikup imad ayak bas*ma (3, 290).

və ya

Növbahar eylədi gül busələri pertövi mey
Açdı yol cənnəti firdovsiyə surağı yaqut.

Müəllif bu beytində göstərir ki, gülbahar fəslinin, yəni növbaharın tez gəlməsinin səbirsizliklə gözləyir, çünki onun ilk gəlişinə sevinənlərdən ən birincisi bağçada qış yuxusuna getmiş, gözləri xumar olan, sevinən düllər olacaq.

Düşdü bənövşə şöləsi avazi bülbüliyan
*Meyxaneyi baharda bir gül oçağı v*ar (3, 396).

Qalib yaradıcılığında *"bu bağın bülbülüyanı", "Güli nəzzareden fanusi gülgün eyləmişlərdir."* Çünki baharın ilk müjdəçisi güllərdir, gülün bağ-bağçanin bəzəyi olmasını vurğulamaqla, onun hər məclisin yaraşığı olmasından söz açır. Bülbül həmişə gülün eşqi ilə nalə edib, onun həsrəti ilə yaxasını parça-parça etməsinə bütün şairlərin yaradıcılığında təsadüf edilir. Şair həm də bülbülün gülün ayağına bütün bağ-bağçanı səltənət etməsini, onun yerinin tabaklar üzərində-başda olmasını vurğulayır.

Təsəvvüf poeziyasında gülün müxtəlif funksiyalar daşıdığını bilirik. Bu ifadələrdən biri də gülün sirr saxlamaq mənasını ifadə etməsidir. Qönçə gülün xəlvət halında olduğu, yəni onda bütün sirlərin gizləndiyini bildirir. *"Gül-bergi xınası qönçeyi nur"* (8, 29). Amma açılmış gül isə artıq təsəvvüf poeziyasına görə birlik aləmindən ayrılaraq bu aləmə qovuşub sirlərin faş olunlmasından xəbər verir. Buna görə də ədəbiyyatda "yaxası dar", "yuxulu gül" kimi ifadələrin işlədilməsi qonçə gül anlamını verir ki, bu da təsəvvüf poeziyasında "gülün sirr saxlamaq" xəlvət mənasında işlədilməsidir.

Rəvgani gullə deyil nuri cəral yaqut,
Badei rəngi xna tutmaz ayaıs yaqut (3, 218).

Şair sevgilinin üzünü bahar fəsli ilə müqayisə edərək, onun rəvnəqini yaquta bənzədir, gözəl biçimdə olan sevgilinin kirpiklərini "kalemi naveki müjgandan olduğunu, hətta bu gözəlliyikdə gülün yarpağının heyranı" olduğunu da deməkdən çəkinmir. Şair deyir: *"Yaqut veli sühangu",* şair gözəlin yanağının gül rəngi, günəşi isə gözünün qanıdır. Şair "Hüns və Eşq" məsnəvisində deyir: *"Əlinin xınası yüzündən bir şəfəq kimi"*, *"Gül bengi xınası qönçəyi nur"* deyir.

Təsəvvüf poeziyasında gülün təmizliyinə, saflığına edilən təşbehlərdən biri də peyğəmbərlərə edilən təşbehdir. Məsələn ədəbiyyatda Yusuf peyğəmbərin üzünün gözəlliyinin gül ilə müqaisəsi, onun qanlı köynəyinin qoxusu gül ətrinə bənzədilmışdır, Məhəmmədin (s.ə.s) tərindən gül qoxusunun gəlməsi və s. bu kimi təşbehler poeziyada ifadə vasitəsi kimi işlənməkdədir. Bütün bunlar haqqında başqa bir məqalədə söz açılacaq.

Qaynaqlar

1. *Füzüli.Əsərləri*. Altı cilddə, IV C., Bakı: Şərq-Qərb nəşriyyatı. 2005.
2. Aynur Koşak. "Necati beyin 'Menekşe kasidesi' ekseninde menekşenin öyüsü". *I Uluslararası Türk dili ve edebiyati sempozyumu 15-17 Nisan*, Kocaeli. 2009. s. 42.
3. *Şeyx Qalib divanı*. Haz.: Naci Okşu. Ankara: Türkiye Diyanet Vakfi Yayınları, 2011. 955 s.
4. Isgəndər Pala. *Ensklopedik Divan Şeirləri Sözlüyü*. İstanbul, 2002, 245.
5. Turan Şərafətdin. *Bayazid II*., V, İstanbul, 1992.
6. Cemal Kurnaz, "Gül". *TDV İslam Ansklopedisi*, C. 14, İstanbul. 1996.
7. *S. Ə. Şirvani. Əsərləri.* I. C., Bakı: Azərbaycan CCR Elmlər Akademiyası Nəşriyyatı. 1967.
8. *Şeyx Qalib*. Haz.: Orhan Okay və Hüseyn Ayan. İstanbul. 2000.

TÜRK ROMANINDA MİLLİ MÜCADİLƏ SƏHİFƏSİ

*Hanım ABDULLAYEVA**

Məlum olduğu kimi türk ədəbiyyatı humanizmi, insan gözəlliyini, dərin ictimai mətləbləri əks etdirməsi ilə dünyanın ən möhtəşəm ədəbiyyatları siyahısındadır. Bu ədəbiyyatdan yüzlərlə nümunələr müxtəlif dillərə tərcümə edilmiş, bütün dünyada yayılmışdır. Şərqdə, həmçinin Qərbdə elə bir mədəni ölkə yoxdur ki, orada tanınmış türk şair və yazıçılarının əsərləri oxunmasın. Türk ədəbiyyatının dünya ədəbiyyatına təsiri barədə az yazılmamış, az tədqiqat işləri aparılmamışdır. Həmçinin bu təsir qarşılıqlı xarakter daşıyır. Türkiyə ədəbiyyatı da dünya ədəbiyyatının bəşəri ideyalarından və forma zənginliyindən bəhrələnmişdir.

Zaman ötdükcə ədəbiyyat məzmununa və formasına görə dəyişir, inkişaf edir və zənginləşir. Ədəbiyyat tarixinin dövrləşdirilməsini şərtləndirən mühüm səbəblərdən biri də məhz budur. İlkin mərhələsi eramızdan əvvəl II-ci əsrdə çin dilinə tərcümə edilmiş türk ədəbi nümunələrinə söykənən türk ədəbiyyatı bir sıra tarixi inkişaf mərhələlərindən keçərək, XIX-cu əsrdə tam yeni bir mərhələyə qədəm qoymuşdur. Uzun əsrlər boyu ortaq ərəb-fars-türk ədəbiyyatı çərçivəsində mövcud olan Türkiyə ədəbiyyatı bu dövrdən sonra fərqli inkişaf konsepsiyasına başlamışdır. Bu yeniləşmənin başlıca səbəbi Osmanlı İmperatorluğuna Avropa təsirinin güclənməsi idi. Yenidən dirçələn ədəbiyyatda bir yandan qədim ədəbi ənənələrə sadiqliq duyulurdusa, digər tərəfdən Qərbi Avropa ədəbiyyatının təsiri ilə yeni ədəbi janrlar, dramaturgiya və s. yaranırdı.

XIX-cu əsrdə Osmanlı dövlətinin idarəçiliyində olan Orta Şərq regionunda Qərb dövlətlərinin bilavasitə təsirilə baş verən bir sıra iqtisadi və siyasi gərginliklər həmin ərazidə köklü siyasi, iqtisadi, mədəni və ədəbi reformaların tətbiqini qaçılmaz edirdi. Bu dövrdə Qərb dövlətləri, xüsusilə ABŞ, İngiltərə və Fransa Osmanlı imperatorluğuna yaxından maraq göstərirdi. Bunun əsas səbəbi isə Osmanlı dövlətini parçalamaq istəyi idi. Təəssüf ki, Osmanlı

* Azerbaycan Millî İlimler Akademisi, Şarkiyat Enstitüsü, Türk Filolojisi Bölümü araştırma görevlisi; *mehivaqo@mail.ru*

imperatorluğunun əvvəlki əzəmətini itirməsi işğalçı qüvvələrə müsbət zəmin imkanı yaradırdı. Belə ki, o dövrdə beynəlxalq qüvvələrin təzyiqi altında çökməkdə olan Osmanlı imperatorluğunda daxili və xarici problemlər ortaya çıxmış, digər ölkələrin hərbi müdaxiləsi nəticəsində məhv olmaq təhlükəsi ilə qarşı- qarşıya qalmışdır.

Sivilizasiya tarixində baş verən əhəmiyyətli dəyişikliklər və inkişafla şərtlənən müstəvidə Türkiyə ədəbiyyatı başlanğıcdan günümüzə qədər üç önəmli dövrə bölünür. Bu dövrlər; daha çox xalq dastanları və mifik rəvayətlərdən ibarət erkən dövr türk ədəbiyyatı, ortaq İslami mədəniyyət çərçivəsində inkişaf edən klassik dövr türk ədəbiyyatı və 1839-cu ildə Tənzimatla başlayan qərbləşmə prosesi üzərində qurulan yeni dövr türk ədəbiyyatı adı altında tanınır.

Bütün bu fərqli adlandırmalara ortaq bir zaman bucağı prizmasından baxmaq daha doğru olar. Onda türk ədəbiyyatının bütünlüyünün Türkiyə tarixinin fasiləsiz gedişatından qaynaqlandığını görmüş olarıq. Ümumiyyətlə, ədəbiyyat elə bir ümmandır ki, burada hər hansı bir ədəbi növün, janrın yaranma və ya sıradan çıxma tarixlərini konkret illər çərçivəsinə salmaq bir qədər yanlış yanaşmadır.

Bir cəmiyyətin mədəniyyət və incəsənət nümunələrini tədqiq edərkən, hər şeydən əvvəl həmin cəmiyyətin iqtisadi və sosial mühitini nəzərə almaq lazımdır. Belə ki, bu mədəni nümunələr təkbaşına, məhsulu olduqları toplumdan kənarda mövcud ola bilməzlər. Axı onları yaradan insan cəmiyyətin hər hansı bir fərdi olmaqla yanaşı, həm də mövcud cəmiyyətin formalaşmasına və inkişafına bu və ya digər formada təsir edən bir faktordur. Və istər- istəməz yaradılan bütün mədəniyyət nümunələri, xüsusilə ədəbi əsərlər öz dövrlərinin tarixi, sosial, mədəni və iqtisadi həyatının tədqiqinə işıq tutur.

Xüsusilə qeyd etməliyik ki, XIX-cu əsr Türkiyə ədəbiyyatının da yeni dövrü idi. Ədəbiyyat tarixi hər bir millətin yüz illər boyu yaratdığı ədəbi əsərləri və bu əsərləri yaradan ədibləri, ədəbiyyatın keçdiyi inkişaf yolunu, onun çiçəklənmə və tənəzzül səbəblərini öyrənən elm sahəsidir.

"Ədəbiyyat tarixi ümumiyyətlə, tarixin, daha dəqiq desək, mədəniyyət tarixinin çox mühüm qismidir. Bir millətin uzun əsrlər boyu yaşadığı təkamülü göstərən bütün fikirləri tədqiq edərək onu ədəbi ruha ən yaxın şəkildə yaşatmağa çalışan canlı bir tarix şöbəsidir." (Kabaklı I: 25).

Türkiyə ədəbiyyatı aşağıdakı tarixi inkişaf mərhələlərini keçmişdir

1. İslama qədərki türk ədəbiyyatı:
   a. Sözlü ədəbiyyat
   b. Yazılı ədəbiyyat

2. İslamın qəbulundan sonrakı türk ədəbiyyatı:
   a. Divan ədəbiyyatı
   b. Xalq əəbiyyatı
3. Qərbin təsirilə yaranan türk ədəbiyyatı (Yeni dövr türk ədəbiyyatı):
   a. Tənzimat ədəbiyyatı
   b. Sərvəti-Fünun ədəbiyyatı
   c. Fəcri-Ati ədəbiyyatı
   d. Milli dövr ədəbiyyatı
   e. Cümhuriyyət dövrü ədəbiyyatı
   f. 1940-cı ildən bu günə qədərki ədəbiyyatı

Milli Mücadilə dönəmi Türkiyə tarixinin ən parlaq səhifələrindəndir. 15 May 1919-cu ildə yunan işğalına qarşı başlayan və üç il fasiləsiz olaraq davam edən Qurtuluş Savaşını təsvir edən və bu savaşa yazdıqları ilə qatılan sənətçilərin əsərləriylə meydana gələn Milli mücadilə dövrü türk ədəbiyyatının dil və sənətkarlıq baxımından Milli ədəbiyyat dönəminin davamı kimi də xarakterizə edilə bilər. Balkanlarda və Birinci Dünya müharibəsində ard-arda məğlub olan Osmanlı imperatorluğu get-gedə Anadoluya sıxışdırılmışdır. Bütün bunlardan cana dayon mübariz türk xalqı şiddətli bir mübarizəyə başlayır və düşmənləri öz torpaqlarından çıxarmağı bacarır.

Bu müqəddəs bir mücadilə idi. Nəinki ordu, bütün türk xalqı, geniş kütlənin bütün təbəqələri bacardığı qədər mübarizəyə öz töhfəsini vermişdir. Məhz xalqın sarsılmaz əzmi nəticəsində Avropanın "xəstə adam" adlandırdığı, artıq son dönəmini yaşayan qoca Osmanlı imperatorluğu parlaq qələbə qazana bilmişdir. Şair və yazıçılar belə öz qələmləri ilə mücadiləyə qatılmışdılar. Ordunu ürəkləndirən, xalqı çoşduran, buraxılmış səhvləri ittiham edən və yeni üfüqlər açan yüzlərcə ədəbi əsərlər yaranırdı. Bu dövr ədəbiyyatı xalq, millət, dövlət olaraq var olmaq, ayaqda qalmaq kimi ülvi duyğuların bədii təcəssümü idi. Əsas məqsəd mübarizənin hiss və həyəcanını artırmaq, xalqın səfərbərliyini təmin etməkdən ibarət idi. Milli Mücadilə dövrü türk ədəbiyyatı iki istiqamətdə inkişaf etmişdir. Birincisi Milli Mücadilənin davam etdiyi üç il ərzində yaranan ədəbiyyat, ikincisi isə həmin dövrü təsvir edən, lakin daha irəli zamanlarda yazılmış ədəbi əsərlərdən ibarətdir.

Milli mücadilə dövrü ədəbiyyatı istər poeziya, istərsə də nəsr sahəsində dəyərli əsərlər vermişdir. Bu əsərlər vətənpərvərlik ruhunu aşılayan dəyərli ədəbi nümunələr olmaqla yamaşı, həm də həmin dövrün tarixini araşdırmaq baxımından da çox dəyərlidir.

Məlumdur ki, XIX-cu əsrdən etibarən Türkiyə ədəbiyyatı genişçaplı ədəbi məktəblər və cərəyanlar üzərində qurulmuşdur. Həyatı əksetdirmə

üsulları bir-birinə yaxın yazıçıların, ədəbi qrup və məktəblərin yaradıcılığı üçün səciyyəvi olan fundamental ideya-məzmun və estetik prinsiplərin məcmusunu, həmçinin yaradıcılıq proqramının məqsəd, mövzu, janr və üslub uyğunluğunu ifadə edən anlayışa ədəbi cərəyan deyilir. (https://az.wikipedia.org/wiki/%C6%8Fd%C9%99bi_c%C9%99r%C9 %99yan)

Elmi ədəbiyyatda məktəb, metod və yaxud üslubun sinonimi mənasında da işlədilir. Milli Mücadilə dövründə yazıb- yaradan sənətkarların əksəriyyəti "Sərvəti-Fünun" və "Fəcri-ati" ədəbi məktəbində və "Milli ədəbiyyat" ədəbi cərəyanında toplaşan şair və yazıçılar idi.

Janr etibarilə Milli Mücadilə dövrünün ədəbiyyatı çoxşahəli deyil. Belə ki, yalnız dörd janr; şeir, publisistik məqalə, hekayə və roman janrlarında bu dövrü təcəssüm etdirən əsərlər qələmə alınmışdır.

Milli Mücadilənin davam etdiyi zaman kəsiyində (1919- 1922) yalnız bir roman yazılmışdır. Bu, Xalidə Ədib Adıvarın *Atəşdən köynək* romanıdır. Bu dövrü təcəssüm etdirən digər romanların hamısı daha irəli tarixlərdə qələmə alınmışdır. Milli Mücadiləni böyük ustalıqla, bədii-estetik cəhətdən yüksək sənətkarlıqla təsvir edən bir neçə roman örnəyi aşağıdakılardır:

Vurun Kahpeye (1926) - Halide Edib Adıvar
Dikmen Yıldızı (1927) - Aka Gündüz
Halas (1929) - Mehmet Rauf
Yaban (1932) -Yakup Kadri Karaosmanoğlu
Ankara (1934) - Yakup Kadri Karaosmanoğlu
Üç İstanbul (1938) - Mithat Cemal Kuntay
Biz İnsanlar (1939) - Peyami Safa
Esir Şehrin İnsanları (1956) - Kemal Tahir
Var Olmak (1957) - İlhan Tarus
Esir Şehrin Mahpusu (1961) - Kemal Tahir
Kalpaklılar (1962) - Samim Kocagöz
Hükûmet Meydanı (1962) - İlhan Tarus
Doludizgin (1963) - Samim Kocagöz
Küçük Ağa (1963) - Tarık Buğra
Kurtlar Sofrası (1963) - Attilâ İlhan
Yorgun Savaşçı (1965) - Kemal Tahir
Küçük Ağa Ankara'da (1966) - Tarık Buğra
Kutsal İsyan (1966) - Hasan İzzettin Dinamo
Vatan Tutkusu (1967) - İlhan Tarus
Sahnenin Dışındakiler (1973) - Ahmet Hamdi Tanpınar
Toz Duman İçinde (1974) - Talip Apaydın
Sırtlan Payı (1975) - Attilâ İlhan
Yüzbaşı Selahattin'in Romanı (1975) - İlhan Selçuk

Vatan Dediler (1976) - Talip Apaydın

Nəsrin və bütövlükdə XIX əsr türk ədəbiyyatının ən böyük yeniliyi və qazancı roman janrının ədəbiyyata gəlişi idi.

Türkiyə ədəbiyyatşünaslığında klassik, eləcə də XIX-cu əsrin sonlarına qədərki dövrdə ədəbi növ olaraq nəsrin varlığı – yoxluğu məsələsinə dair bir-birinə zidd fikirlər mövcuddur. Nəsrin varlığını qəbul edən türk və dünya türkoloqları, eləcə də keçmiş sovet türk ədəbiyyatı mütəxəssisləri arasında bu növün janr və formalarına, o cümlədən roman janrına, onun təşəkkül etdiyi zaman diliminə, formalarına və nəzəri- estetik problemlərinə münasibət birmənalı olmamışdır.

Bizə görə, roman janrının türk ədəbiyyatında yeni olmasına baxmayaraq, dəyərli mövqe tutmasına əsas səbəb türk ədəbiyyatının hələ ilkin dövrlərdən güclü nəsr ənənəsinə malik olmasıdır. Əsasən, siyasi proqramlaşdırma istiqamətində Tənzimat fərmanı ilə başlayan qərbləşmə cəhdləri şübhəsiz ən böyük əksini ədəbiyyatda tapmışdır. Beləliklə, yeni dövr Türkiyə ədəbiyyatı təxminən yüz əlli illik bir zamanı əhatə edən sıxıntılı, eyni zamanda da sürətli və gərgin bir şəkildə meydana çıxan yeniliyə şahidlik etmişdir.

Düşüncənin azad olması və irəliləməsi üçün nəsrin inkişaf etdirilməsi lazımdır. Güclü nəsr bir millətin intellektual inkişaf səviyyəsinin göstəricisidr. Düşüncə və fəlsəfi fikir baxımından kasad bir dildə böyük nəsr nümunələri yaradıla bilməz. Nəsrin inkişaf tarixi də nəzmdən fərqlidir. Bir millətin mədəni səviyyəsini tanıtmaq və öyrənmək baxımından nəsrlə yazılan əsərlərin əhəmiyyəti daha çoxdur. Milli xüsusiyyətlər, əsasən, böyük nəsr yazarlarının fikir və mühakimələrində ortaya çıxır. Bu fikirləri araşdıraraq bir millətin mənəvi dəyərlərini və xüsusiyyətlərini görmək mümkündür.

Mövcud güclü nəsr ənənəsi Tənzimatla birlikdə gələn yeni ədəbi axımın qarşısında nəinki tab gətirdi, həmçinin özünəməxsus və dəyərli ədəbi nümunələr verdi. Xüsusilə roman janrı bu dövrün dəyərli qazanclarından idi. Belə ki, bu janr nəsr nümunələri arasında həm ifadə baxımından, həm fikri oxucuya çatdırmaq baxımından, həm də ədəbi- texniki baxımından geniş spektrli bir janrdır. Roman janrı meydana gəldiyi dövr, şərait və ədəbiyyatdan olan gözləntilərin bədii inikasıdır. Belə ki, həm Avropada, həm də Türkiyə ədəbiyyatında yaranması və təşəkkülü prossesinə nəzər saldıqda görürük ki, həmin dövr yaranması lazım olan janrlardan biri də məhz elə roman janrı idi. Əhalinin bütün təbəqələrinə, xüsusilə saray ədəbiyyatını həm dil, həm də sosial vəziyyətlərinə görə oxuyub anlaya bilməyən aşağı təbəqəsinə sirayət edə bilən onların istək və arzularını ifadə edə bilmək baxımından roman janrı geniş imkanlara malik idi. Texniki baxımdan roman janrı yazıçının qarşısında geniş üfüqlər açırdı. Belə ki, fikirlərini həm özünün, həm də obrazlarının dili

ilə anladaraq əsərin bütövlüyünü, oxunaqlığını təmin etmək üçün bədii boyalardan, peyzajlardan, dahilərin fikirlərindən, yeri gəldikçə xalq və klassik ədəbiyyatı nümunələrindən örnəklər gətirirdi. Geniş sərhədlərə malik roman janrı həmçinin ədəbiyyat tənqidçiləri və nəzəriyyəçilər üçün də əlverişli janrdır. İnkişaf tempinə görə də roman digər ədəbi janrlardan fərqlənir. Belə ki, daim inkişafda olan bu janr onu tədqiq edən nəzəriyyəçilər və ədəbi tənqidçilər üçün hər zaman maraqlıdır. Özü- özlüyündə hər roman bir tədqiqat obyektidir. Aparılan bu qədər elmi araşdırmalara baxmayaraq, roman janrının yaranması, təşəkkülü və keçdiyi tarixi inkişaf yolu hələ də tədqiqatçıların qarşılaşdığı önəmli suallardan biridir. Romanın bir janr olaraq araşdırılmasının özünə məxsus çətinlikləri vardır. Bu ələxsüs mövzunun təkrarsız mahiyyətindən irəli gəir. Roman inkişafını tamamlamamış və hələ də inkişafda olan yeganə ədəbi janrdır. Necə deyərlər, onun tamlığını təmin edən ünsürlər gözümüzün qarşısında iş başındadır (M. Bahtin 2001: 164).

Güclü nəsr ənənəsinə malik olmasına baxmayaraq, yeni türk ədəbiyyatının nəsri, xüsusilə roman janrı ilkin təşəkkül dönəmində, əlbəttə ki, müəyyən əksikilikləri ilə diqqəti çəkir. Bu da sırf janrın texniki göstəriciləri ilə bağlı idi. Bilirik ki, hər bir ədəbi janr konkret nəzəri qəliblərə tabedir. Ilk romanların yazılmasından əvvəl oxucu artıq dünyamiqyaslı romanların tərcüməsi ilə tanış idi. Ilk roman isə Ş. Saminin 1872-ci ildə nəşr etdirdiyi *Təəşşüqi-Tələt və Fitnət* romanıdır. *"Yeni yaranan romanlar əsasən ailə-məişət, eşq və əxlaq məsələlərini əhatə edirdi"* (Tanpınar 1956: 271). Sonra yazılan romanlar daha yeni mövzularla əhatə olunmağa başladı.

Milli Mücadilə dövrü romanı mövzu, üslub, sujet xətti, dili, bədii təsvir və ifadə vasitələrinin işlənməsi baxımından ümumilikdə türk roman yaradıcılığında xüsusi yer tutur. Qurtuluş Savaşını anlatan bu romanlar qəhrəmanın hiss-həyəcanını, mübarizənin ağri-acısını, qələbəyə sonsuz inam və ümid hissini, milli birlik məfkurəsini, dosta sədaqəti və digər humanist duyuğuların rəngli boyalarla və yüksək sənətkarlıqla təsvir edildiyi dəyərli nəsr nümunələridir.

İstər Milli Mücadilə dövrünün, istərsə də Xalidə Ədib Adıvar yaradıcılığının şah əsəri hesab edilən *Atəşdən köynək* romanı janrın həm nəzəri həm də bədii-estetik tələblərini artıqlamasıyla ödəmişdir.

Romanın daha bir özəlliyi məhz Qurtuluş Savaşı gedən dönəmdə yazılmasıdır. Roman xatirə romanı uslubunda qələmə alınmışdır. Belə ki, baş qəhrəman Peyaminin Cəbhəçi xəstəxanasında beynindəki güllənin çıxarılması üçün cərrahi əməliyyatı gözləyərkən qələmə aldığı xatirələrindən ibarətdir. Əsər real tarixi hadisələrə əsaslanır. Romanın dili zəngindir, canlı bədii tablolara yer ayrılmış, bədii təsvir və ifadə vasitələrindən məharətlə istifadə edilmişdir.

Baş qəhrəman Peyami zəngin bir ailənin oğludur. Əslən İzmirdən olan onun dostu Camal isə Birinci Dünya müharibəsində yaralanmış bir zabitdir. Camal Peyamini minbaşı İhsanla tanış edir. Bu gəncləri birləşdirən xeyli ortaq nöqtə var idi. Romanın irəliləyən hissələrinəd artıq bu üç dost bir yerə toplaşaraq ana yurdum mövcud acınacaqlı vəziyyətini müzakirə edirdilər. Camalın İzmirdə yaşayan Aişə adında bacısı vardır. Hadisələrin gedişatında məlum olur ki, Camal dostu Peyami ilə bacısı Aişəni evləndirmək üçün onu İstanbula çağırır, amma Peyami onunla evlənmək istəmir. Əlbəttə ki, bu vəziyyət Aişənin qüruruna toxunur və bundan sonra heç bir vəchlə Peyami ilə evlənməyəcəyinə söz verərək İzmirdə başqa bir adamla nigaha daxil olur. Aişənin timsalında müəllif əsl türk qadınının bədii portretini təsvir etmişdir. Sevgisinə rəğmən, qürurunu üstün tutan Aişə həm müəllifin, həm də geniş oxucu kütləsinin dərin rəğbətini qazana bildirmiştir.

Bədii konfliktin Peyami - Camal - Aişə üçbucağı ətrafında cərəyan etdiyi bir vaxtda; 1929-cu il 15ində İzmir yunanlar tərəfindən işğal edilir. Qanlı döyüşlərdə Aişənin oğlu və həyat yoldaşı qəddarcasıan süngülənir. Aişə özü də qolundan yaralanır. İzmir hadisələri zamanı üç dost Peyami, Camal və İhsan İstanbulda idilər. Təbii ki, Camal ailəsini itirən zavallı bacısını orada tək qoya bilməzdi. Aişə də İstanbula onların yanına gəlir. İzmir hadisələri bütün Türkiyədə, o cümlədən paytaxt İstanbulda geniş əks- səda doğurmuşdur. əhali hiddət içərisində idi. Sultanəhməd meydanında böyük bir mitinq təşkil edilir. Sanki xalq ölkəni xilas edincəyə qədər savaşmağa söz vermişdir. Məhz bu mitinqdən sonra təsirlənən gənclər çoxdan ürəklərində yığışıb qalan vətəni qurtarmaq hissi ilə meydana atılırlar. Camal və İhsan Anadoluya keçirlər. Bu hadisələr romanda o qədər real, o qədər canlı təsvir edilir ki, sanki oxucu özü də o dəhşəti yaşayır. Lakin bu ağrı-acının içərisində qəribə bir sevinc də var idi. Düşməndən azad olma, Vətəni qoruya bilmək kimi ülvi hisslər geniş xalq kütləsinin qələbə və ümid hissini əsla sönməyə qoymurdu. Camal və İhsanın ardınca Aişə və ağır tif xəstəliyi keçirən Peyami də min bir əziyyətlə Anadoluya gələrək onlara qoşulurlar. Beləliklə müqəddəs amal uğrunda bir qrup yaratmış olurlar.

Milli mücadilə savaşına qarşı çıxan cahil kəndlilərə müqəddəs amal uğrunda düşməyi, var olmaq məfkurəsi ətrafında birləşməyə çağırırlar. Bu elə, Xalidə Ədib Adıvarın romanı yazmaqda özünün məqsədi və əsərin ana ideyası idi. Qəhrəmanlarının dili ilə müəllif özü xalqı mübarizəyə çağırırdı.

Artıq romanın mübarizənin işərisində baş verən hissələri ilə tanış oluruq. Peyami tərcüməçi kimi Milli Müdafiə qərargahında çalışır, Aişə isə tibb bacısı kimi Əskişəhərə təyinat alır. Bütün hərarəti ilə anladılan romanda məhəbbət, dostluq kimi ülvi hisslər də nəzərə çatdırılır. Belə ki, Peyami və İhsan hər ikisi

Aişəyə dərin məhəbbətlə aşiq olurlar. Məhz bundan sonra qəhrəmanların dərdi daha da artır. Əgər, indiyə qədər onları düşündürən yalnız Vətənin bölünməzliyi idisə, bu çətin məhəbbət üçbucağı onlar üçün əsl atəşdən köynəyə çevrilir.

İhsan Metristəpədə sinəsindən güllə yarası alır. Xəstəxanada yer olmadığı üçün onu bir otelə yerləşdirirlər. Xəstəyə qulluğu isə Aişə etməli olur. Bir müddət ərzində aralarında xoş səmimi münasibətyaranır. Nəticədə İhsan Aişəyə saf sevgisini etiraf edir və onunla evlənmək istədiyini bildirir. Bu sevgi qarşılıqlı idi. Lakin müəyyən səbəblərdən Aişə bu evliliyə etiraz edir.

Aldığı güllə yarasından sonra bir müddət dincəlmək üçün Ankaraya ailəsinin yanına gedən İhsanı burada əmisi qızı ilə evləndirmək istəyirlər. Lakin İhsan bu nigaha razı olmur. Romanın bu hissəsi qəhrəmanların gələcək həyatlarına kardinal şəkildə dəyişmiş olur. Belə ki, yenidən cəbhəyə yola düşən İhsan qatara minərkən səmimi şəkildə əmisi qızı ilə görüşür və onu üzündən öpür. Təəssüf ki, Aişə bu səmimiyyəti düz başa düşmür və onların arasında sevgi hisslərinin olduğunu düşünərək İhsana olan sevgisinin üzərindən birdəfəlik xətt çəkir. Indi onun yeganə sevgisi İzmirin düşməndən qurtuluşudur.

Məhəbbətlərin ən gözəli vətənə, millətə, xalqa olan məhəbbətin tərənnümü və təbliği *Atəşdən köynək* romanının əsas qayəsini təşkil edirdi.

Müharibənin qızğın anında İhsan yüksək təpəlik ərazidə ağır yaralanaraq, Peyaminin qollarında can verir. Ihsanın şəhid olduğunu eşidən Aişə də özünü qızğın döyüşlərin getdiyi əraziyə atır və aldığı yaralardan şəhid olur. Bu mübarizədə Aişənin qardaşı Camal da çəhid olmuşdur. Dost itkisi, nakam sevgililərin acı sonu, vətəni xilas etmək kimi hisslərin çulğalandığı bu hissələri oxuduqca oxucu hiddətlənir, duyğulanır, düşmənə nifrəti, vətənə məhəbbəti birə-min artmış olur.

Peyami, Aişə və minbaşı İhsanı yan-yana dəfn edir. Indi həyatda onun yalnız bir məqsədi var: İzmirə hərkəsdən əvvəl daxil olmaq, orada qələbə bayrağını sancmaq və bunu məzarda yatan Aişəyə anlatmaqla onun sevgisini qazanmaq.

Baş qəhrəman Peyaminin xatirələri burada bitir. Elə romanın finalı da özü kimi oxucunu həm həyəcanlandırır, həm də təsirləndirir. Belə ki, əməliyyatdan sonra Peyaminin əşyaları arasında onun xatirə dəftərini araşdıran xəstəxana işçiləri, əslində bütün hadisələrin Peyaminin təxəyyülünün məhsulu olduğu qənaətinə gəlirlər. Bəli, nə Aişə, nə Camal, nə də İhsan minbaşı adında şəxslərə sənədlərdə rast gəlinmir.

Məncə, romanı ölümsüzləşdirən də məhz bu məqam idi. Müəllif böyük ustalıqla müharibənin dəhşətini anlatmış olur. Birmənalı şəkildə müharibələr bəşəriyyəti məhv edir. İnsanların hiss, həyəcan və duyğularını öldürür. Həm əsərin adı, həm də hadisələrin Peyaminin təxəyyülü olması simvolik səciyyə

daşıyır. Bu hadisələr real da ola bilərdi. Lakin Xalidə Ədib Adıvar bu metodla oxucuya çatdırmaq istəyib ki, insan beynindəki amal uğrunda mübarizəyə qalxışarsa, mütləq qələbə çalacaq. Necə ki, Peyaminin timsalında əzmkar türk xalqı mücadiləni qazandı.

Qaynaqlar

1. Adıvar, H. E. (2016) *Ateşten Gömlek.* İstanbul: Can Yayınları.
2. Bahtin, M. (2001). *Karnavaldan Romana Edebiyyat Teorisinden Dil Felsefesine Seçme Yazılar*. İstanbul: Ayrıntı Yayınları.
3. Kabaklı, A. (2008) *Türk Edebiyatı. I cilt. İ*stanbul: Türk Edebiyatı Vakfı Yayınları.
4. Tanpınar, Ahmet Hamdi. (2013) *XIX. Asır Türk Edebiyatı Tarihi.* İstanbul: Dergâh Yayınları.
5. https://az.wikipedia.org/wiki/%C6%8Fd%C9%99bi_c%C9%99r%C9%99yan

XIX-CU YÜZİLDƏN BU GÜNÜMÜZƏ TÜRK-ERMƏNİ MÜNASİBƏTLƏRİ TARİXİ GERÇƏKLİYİN BƏDİİ İNİKASI MÜSTƏBİSİNDƏ

*Nazile ABDULLAZADE**

Giriş

XX-ci yüzillik Azərbaycan xalqının həyatında ən dəhşətli işgəncələr, qırğınlar, qaçqınlıq, soyqırım, mənəvi genosid dövrü olmuşdur. Tarix boyu *"... ac xəyallarında 'Böyük Ermənistan' mifini yaradan, ancaq gerçəkləşdirməyə gücü yetməyən, böyüklük yükünün altına girmiş bu kiçik xalq özünü içindən çıxılmaz bir hala salmışdır. Kölə xülyasından törəmiş böyüklük, qədimlik iddialarını elmi təməllərə dayandırmaq, uydurduqları böyük yalanları maskalamaq və qədim dövr tarixini öz xeyirlərinə dəyişdirmək üçün Yaxın Şərq xalqlarının maddi və mənəvi mirasını acgözlüklə mənimsəyiblər"* (Qiyasi, 2004: 3). 1905-ci ildə erməni millətçilərinin törətdiklər sivilizasiya tarixində misli görünməmiş vəhşiliklər təkrar 1918-1920-ci, 1988-ci illərdə qisasçılıq məqsədilə törədilmişdir.

Bu illər ərzində erməni tarixində − dərsliklərdə, kütləvi informasiya vasitələrində, hətta bədii ədəbiyyatda, kinofilmlərdə, uşaqlar üçün nəğmələrdə belə erməni-türk münaqişəsi başlıca mövzuya çevrildiyi halda, Azərbaycanda bu barədə söz açmaq qadağan olunur, tarixi həqiqətlərin olduğu kimi yazılmasına imkan verilmirdi. Buna baxmayaraq, erməni məkri, ermənilərin Azərbaycan xalqına qarşı düşmənçilik və qəsbkarlıq niyyəti, soydaşlarımıızın zor gücünə dədə-baba yurdlarından qovulması, talan və işğalçılığı təkcə tarixi mənbələrdə, insanların yaddaşında, qəbir daşlarının, müqəddəs abidələrin qalıqlarında deyil, damarlarında türk qanı axan, əli qələm tutan hər bir ziyalının yaradıcılığında da qan yaddaşı kimi qorunub saxlanmışdır. Dünyaya meydan oxuyan türkün faciəsi–tarixi gerçəklik, bəzən tarixin zamanın hökmü ilə gizli saxladığı mətləblər bədii təhlil süzgəçindən də keçirilmiş, ədəbi-bədii nümunələrdə erməni rəzalətindən yana-yana söz açılmışdır.

* Azərbaycan Dövlət Pedaqoji Universiteti, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Ədəbiyyat və onun tədrisi metodikası kafedrasının müdiri, Bakı/Azərbaycan; *nazile.s.m.d@mail.ru*

Türk-erməni həqiqətləri tarixin gizli səhifələrindən boylansa da, həyatın müxtəlif sahələrində öz qanlı izini qoymuş olsa da, bədii əsərlərdə bu taleyüklü məsələyə yanaşım istər savaşın baş verdiyi dövrdə, istərsə də savaş bitəndən sonra müxtəlif olmuşdur. Ədəbiyyatda savaş mövzusunun zaman distansiyası məsələsinə prof. Akif Hüseynli fərqli rakursda yanaşır və bunu yanlış qənaət adlandırır. Tənqidçi yazır: *"Məlumdur ki, müharibə haqqında ən yaxşı əsərin, adətən, müharibə başa çatandan, həyatın özündə problem həllini tapandan sonra yarana biləcəyini deyirlər. Bu mülahizəni tez-tez Qarabağ savaşına da aid edirlər və bildirirlər ki, bu mövzuda da böyük əsərlərin meydana çıxması üçün göünür, müəyyən vaxt keçməlidir, yəni gözləyirik ki, sanki sonu görünməyən münaqişə həll olunsun, davanın səbəbi və nəticələri tam bəlli olsun. Yalnız bundan sonra yazıçılarımız qələmə sarılıb müharibə haqqında dəqiq söz deyə, onun geniş təsvirini verə bilərlər"* (Hüseynli, 2014: 9). Böyük rus yazıçısı L. Tostoyun *Hərb və sülh* romanını misal çəkən A. Hüseynli Rusiya-Fransa vuruşmasında Tolstoyun heç dünyaya gəlmədiyini və ancaq yarım əsr sonra "xalqının vətən uğrunda vuruşmasını əsl epik əzəmətlə" əks etdirə bildiyini deyir. Lakin elə əsərlər də olub ki, məhz münaqişənin baş verdiyi dövrdə həqiqəti deyə bilib. XX-ci əsrin əvvəllərində M. M. Nəvvab *1905-1906-cı illərdə ermənimüsəlman davası* əsərini tarixin qanlı səhifəsi kimi miras qoymuşdur.

Əsərin giriş hissəsində yazıçı hələ xanlıqlar dövründə ermənilərlə müsəlmanların birgə yaşadıqlarını, bir-biri ilə alış-veriş etdiklərini, hətta İbrahim xanın (Qarabağ xanı – N. A.) erməni məliklərindən Məlik Şahnəzərin qızı Hurizad xanımı özünə kəbinli arvad etdiyini təəssüflə xatırlayır. *"Zahirləri ilə batinləri bir olmayan"*, *"zahirən özlərini dost kimi göstərsələr də batinləri ədavətli olan"* ermənilərin həmişə zərər çəkdiklərini xislətlərindəki ədavətlə, kinlə bağlayır. Müəllif, erməni millətçiləri və onların havadarlarının niyyətlərini öz əməlləri ilə ifşa edir, Müasir saqqallı erməni quldurlarının əcdadlarını türklərə qarşı birləşdirmiş mərkəzlərin-qımdatxanaların osmanlı və Azərbaycan türklərinə qarşı təbliğat, təxribat, sui-qəsd, silahlı toqquşmalarda lazımi hərbi sursatın, çar məmur və zabitlərinin ələ keçirilməsini, bu məqsədlə erməni təbəqələrindən pul toplamaqla məşğul olduqlarını göstərir. *"Osmanlı və Azərbaycan türklərinə qarşı təbliğatda, təxribatda, sui-qəsddə, eləcə də silahlı toqquşmalarda istifadə etmək üçün lazımi hərbi sursatın, çar məmur və zabitlərinin rüşvətlə ələ keçirilməsi məqsədilə varlı erməni təbəqələrindən pul toplamaq qımdatların əsas vəzifəsi idi"* (Şərifli 1993: 3).

1905-1906-cı illərdə Qafqazda erməni-müsəlman davasının tarixini, ermənilərin törətdikləri təsvirəgəlməz qırğınları əks etdirən dəyərli mənbələrdən biri o qanlı illərin canlı şahidi olan Mir Möhsün Nəvvabın *Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və ictimai tarixləri* əsəridirsə, digəri M. S.

Ordubadinin tarixi sənədlər əsasında yazdığı *Qanlı sənələr* əsəridir. Tarixi romanlar müəllifi kimi tanınan M. S. Ordubadi 1911-ci ildə çap etdirdiyi bu əsəri yazarkən özünün müşahidələri ilə yanaşı, "özü qədər etibar etdiyi" müxbirlərin göndərdiyi məktub və sənədlərdən, dövri mətbuatdan da istifadə etmişdir. Tarixi-bədii salnamə kimi *Qanlı sənələr* əsəri ilk səhifələrdən oxucunu dəhşət, rəzalət, vəhşət və ağılagəlməz vəhşiliklərlə üz-üzə qoyur. İnsan adını daşıyan hər hansı bir adamın belə qanlı faciə, qırğın törədə biləcəyi heyrət doğurur. Ermənilər İrəvan şəhərində müsəlmanlara olmazın zülmlər verir, yandırır, əzalarını kəsir, uşağa, qocaya, qadına, xəstəyə rəhm etmir, insanlara verdikləri fiziki cəzalar bəs deyimiş kimi, mənən alçaldır, təhqir edirdilər. Müsəlmanların müqəddəs ziyarət yeri olan Allah evinə–məscidə və müsəlmanlar yaşayan məhəllələrə od vurulub yandırılmasına dözməyən yazıçı, yəqin ki, göz yaşları axıda-axıda yazır: *"İrəvan mahalı bir yanar dağa, vulkana dönüb, nəcib islam millətini yandırmaqda idi. Budurmu erməni mədəniyyəti, budurmu özünü Avropaya 'mədəni xalq' kimi tanıdan 'məzlum ermənilər?' "*

Erməni-türk münasibətlərinin yenidən alovlandığı ötən əsrin son onilliklərində çağdaş Azərbaycan ədəbiyyatında, xüsusilə nəsrdə türk soyqırımına, azərbaycanlıların tarixi torpaqlardan deportasiyasına, ermənin yalançı xülyalarının gerçəkləşməsinə xidmət edən oyunlarını ifşa edən birbirindən maraqlı əsərlər meydana gəldi. A. Rəhimovun *İkili dünyam*, M. Süleymanlının *Erməni adındakı hərflər*, N. Məmmədlinin *Zəngulə*, N. Qarayevanın *Daş hasar*, Ə. Əmirlinin *Ölü doğan şəhər*, E. Mehrəliyevin *90-cı illər*, S. Rüstəmxanlının *Ölüm zirvəsi* romanları, H. Mirələmovun "Xəcalət", M. Abdullanın "Erməni kölgəsi", F. Məmmədlinin "Ruhun qisası" povestləri, K. Nəzirlinin "Erməni gəlini" hekayəsi və s. əsərlərdə erməni şovinizminin iç üzü açılmış, məharətlə maskalanmış "şirindil", siyasətcil, bəzənsə yazıq görkəmli tipik erməni surətləri yaradılmışdır (Abdullazadə 2015: 240). Eyni sözləri təkrarlanan faciənin bədii şərhini vaxtında verən M. Orucun *Köç*, A. Abbasın *Dolu*, K. Əfsəroğlunun *Çadır* romanı və bir çox zamanla ayaqlaşan, həqiqəti, reallığı sözlə zamanın üzünə çırpa bilən əsərlər haqqında demək olar. Bu əsərlərin gücü baş verən hadisələrin yazıçının şahidi olması, ağrı-acıların psixoloji sarsıntı, yanğı ilə verilməsindədir. *Köç* romanında uşaq vaxtı gördüyü hadisələri sənətsal fonda qələmə aldığı tarix təkrarlandı; müharibədən sonrakı dövrdə insanlar dədə-baba torpaqlarından ermənilər tərəfindən amansızcasına qovulurdu. *Köç* – əslində qovulma, zorla yurddan uzaqlaşma hadisələri dəhşəti ilə göz önündə canlandırır. Vaqonlara doldurulub sürgün edilən insanlar, bir-birindən ayrı düşən ailələr, təhqir, xəcalət, namussuzluq o qədər təbii detallarla, sarsıdıcı faktlarla təsvir edilir ki, ermənilərin azərbaycanlıların başına açdıqları oyun kino lenti kimi göz önündə canlanır.

Tarixi olayın bədii təsvrini E. Mehrəliyevin *90-cı illər* romanında da görürük. Torpaqların satıldığı, heysiyyətin, namusun itirildiyi, milli mənliyə, şəxsiyyətə təcavüz edildiyi bir zamanda bütün bunları ədəbiyyata gətirib geniş oxucu kütləsinə təqdim etməyin özü yazıçıdan milli təəssübkeşlikdən əlavə, hünər, cəsarət tələb edirdi. Yazıçı bu əsərdə həyatı hər üzü ilə ədəbiyyata gətirir; erməni xisləti bədii təxəyyülün gücü ilə deyil, reallığın təsviri ilə iç üzünü açır. Sakit, dinc, əlində yabası-baltası belə olmayan camaatın ev-eşiyindən vəhşicəsinə qovulması, divan tutulması tükürpədici faklarla oxucunu o illərin şahidi edir.

Eyni fikri *Çadır* romanı ilə bağlı da vurğulaya bilərik. *Çadır* – su buraxmayan parçadan düzəldilən müvəqqəti yaşayış, daldalanma yeridir. Yazıçının təsvir etdiyi çadır və ona sığınan insanların acınacaqlı taleyi bir yurdun, obanın, vətən torpağının taleyidir. İstidən ilan mələyən arana sürgün edilən dağ adamlarını sanki sudan çıxarıb oda atıblar. Cadar-cadar olmuş torpağın üzü də bu insanlara acımır, çat verən torpağın bağrı yarılıb çıxan ilanın çadıra yol lması qaçqınların ağrı-acısına daha bir qorxu əlavə etməklə ermənin biçdyi faciəni dolğunlaşdırır. *Çadır* – qaçqınlıq həyatında insanın ümidlərinin ölmədiyini, inamın az da olsa, həyatın hər üzü ilə davam etdiyini oxucuya acı lövhələrlə təqdim edir. Çadırda çaldırılan toy da əsl toya bənzəmir. Toy – bir ailənin qurulması, nəslin davamı, törənin inkişafıdır. Toy – insanların sabaha güvəni, sevinci, yeni həyatın doğuluşudur. Lakin bu toyda həsrət, nisgil, qəriblik var, sanki bu toyu edənlər özlərinin sevgisini, həyəcanlarını, çırpıntılarını çadıra gömdüklərinə görə bir-birindən utanır.

S. Rüstəmxanlının *Ölüm zirvəsi* romanında olayların kökü tarixin dərinliklərində axtarılır. Gəncə xanı Cavad xanın, Gəncə camaatının ruslarla vuruşmada məğlubiyyətinin səbəblərini yazıçı rusun texnikasının gücü kimi, xanlığın tənəzzülünü bütövlükdə Azərbaycanın tənəzzülü, ikiyə parçalanması kimi təqdim edir. Tənqidçi T. Salamoğlu yazır: *"Roman öz oxucusuna təlqin edir ki, məsələ erməni-gürcü məsələsi deyil. Məlumdur ki, hər kəs odu öz qabağına çəkir. İndi kim necə bacarırsa, elə çəkir. Biri mərdlik, kişilik qanunlarını əsas tutur, o birisi xəyanəti öz 'şərəf isi'nə, yaşam, mövcudluq vasitəsinə çevirir. Məsələ ondadır ki, gərək milli-ruhi birlik olsun. Gərək ermənidən qabaq biz özümüz özümüzün qədir-qiyməini bilək. Özümüzün özümüzə elədiyimizi fələk də gəlsə (nəinki erməni!), bizə eləyə bilməz. Bunun üçün vətəndaş düşüncəsi milli amala çevrilməlidir. Çevirə bilirikmi? Nadir şahın səhvlərindən Cavad xanlar, İbrahim xanlar ibrət ala bilmədi. Onların səhvləri bizə qarşı oldumu? Yəqin ki, yox. Olsaydı, indi yaşadığımız Qarabağ itkisi, ağrısı ilə üz-üzə qalmazdıq. Barı bundan sonra..."*

"Səhvimizin adı unutqanlıqdır, tarixi yaddaşsızlığımızdır; ümumən tarixi yaddaşa laqeyd münasibətimiz, tarixi yaddaşımızı bərpa etmək kimi həyati zərurətə biganəliyimizdir" (Salamoğlu, 2014: 32). Erməni xisləti, ermənileşmə,

erməni qadınının türkün əcəli sindromu F. Məmmədlinin "Ruhun qisası" və M. Abdullanın "Erməni kölgəsi" povestlərində çılpaqlığı ilə görünür. Ermənin vətənin torpağına, suyuna, havasına göz dikməsindən də ağır faciə var; türkün heysiyyətini, mənliyini, kişiliyini, ruhunu alıb ermənileşdirmək. Erməni qadınının uzaqgörən siyasəti zəli kimi mənəviyyatımızı, ruhumuzu, əxlaqımızı yolundan sarpdırır. Kövrək, səmimi hisslər belə erməni qadınının məkrilə çılğın ehtirasa, vəhşi "sevgi"yə çevrilir. Hər iki əsərdə ermənileşmə ümumi sosial bəlaya çevrilir və faciənin nöqtəsini təşkil edir. N. Məmmədlinin *Zəngulə* romanında ermənin türkün başına gətirdiyi fiziki işgəncələrlə yanaşı, insanlığa yaraşmayan, əxlaq normalarından kənar hərəkətləri bir daha bu millətin hər bir nümayəndəsinin vəhşi heyvandan da yırtıcı, qəddar olduğunu göstərir. Əsir aldıqları azərbaycanlıları Xankəndi yaxınlığında tövləyə yerləşdirən ermənilər qızgəlinin başına olmazın oyunlar açır, əllərində oyuncağa çevirir. Bu azmış kimi, dirilərlə bərabər ölülərdən də qisas alırlar; onların cəsədlərini əsir soydaşlarının gözü qarşısında yandırır, erməni cənazəsinin üstündə cavan əsgərlərin boyunlarını qurbanlıq qoyun kimi bir-birinə bağlayıb vururlar. Heç bir yırtıcının belə cinsindən olan yırtıcıya qarşı etmədiyini erməni edir.

Erməni rəzalətini, erməni nifaqını hamıdan əvvəl duyub çəkinmədən "dilə gətirən", "fil qulağında yatanları" ayıltmağa çağıran M. Süleymanlının *Erməni adındakı hərflər* romanını soyqırımın köklərinin və səbəblərinin araşdırılması baxımından tarixi-bədii ensiklopediya adlandırsaq, yanılmarıq. Türkün tarixi Zəngibasar, Vedibasar, Göycə, İrəvan, Uluxanlı, Qaraqoyunlu torpaqları, Qaraxaç-Qarakas, Candar, Borçalı yaylaqlarında özünə vətən yaradan ermənin iç üzünü obrazın dili ilə açan yazıçı elə *"...acı həqiqətlərə, elə yaralı mətləblərə toxunur, elə məsələlər qaldırır ki,... bu duyğular ən azı 50 il bundan əvvəl dilə, qələmə gəlsəydi, kitablara çevrilsəydi, heç olmasa bu mövzuda yazılan üç-beş əsərimiz−M. S. Ordubadi, M. M. Nəvvab, Y. V. Çəmənzəminli, Ə. Abbasovun əsərləri həyəcan təbili kimi çalınıb vərəq-vərəq, səhifə-səhifə ən azı tarixi tədris edən müəllimləri yerindən tərpətsəydi, ermənilər 'dənizdən-dənizə' şüarı ilə silahlananda biz 'Kür, Araz, Ararat/Nə gözəldir bu həyat,/ Qardaş olub/Hayastan, Azərbayca' ... mahnısını xorla, sevinə-sevinə oxumasaydıq, başımızın altına qoyulan balıncın, başımızın üstündən asılan qılıncın nə demək olduğunu vaxtında dərk edə bilsəydik, itkilərimiz, ağrılarımız indikindən qat-qat az olardı, faciələr içində çırpına-çırpına qalmazdıq"* (Yaqub 2012: 12).

Bu gün Azərbaycan nəsrində türk-müsəlman soyqırımı mövzusunda yaranan hər bir əsər hələ də səngiməyən torpaqlarımızın işğalı, milli-mədəni abidələrimizin dağıdılması, əsgər ölümü, əsir qızgəlinin fəryadına vətəndaş yanğısı, sənətkar fəryadı və türk oğlu türkün qanla yazılmış salnaməsi kimi dəyərlidir.

Qaynaqlar

1. Abdullazadə, N. (2015). "Çağdaş Azərbaycan nəsrində türk soyqırımı mövzusu tarixi gerçəkliyin bədii inikası kontekstində". *Heydər Əliyevin anadan olmasınıın 92-ci və hakimiyyətə gəlişinin 22-ci ildönümünə həsr olunmuş "Uydurma erməni soyqırımı: yalanlar, iftiralar. Türk müsəlman soyqırımı: faktlar, həqiqətlər" II Beynəlxalq Elmi konfransı.* AMEA. *Səs* qəzeti. Azərbaycan Universiteti. s. 239-244.
2. Hüseynli, A. (2014). "Erməni xisləti və torpağın həqiqəti". *"Müasir Azərbaycan və Türkiyə ədəbiyyatında erməni məsələsi" Beynəlxalq elmi konfransın materialları*. Bakı. 253 s.
3. Qiyasi, C., Bozyel İ. (2007) *Erməni mənəvi terroru*. Bakı. 36 s.
4. Nəvvab, M. M. (1993). *1905-1906-ci illərdə erməni-müsəlman davası*. Bakı: Azərbaycan nəşriyyatı. 123 s.
5. Salamoğlu, T. (2014). Müasir Azərbaycan nəsrində "erməni məsələsi" tarixi və çağdaş zaman kontekslərində./"Müasir Azərbaycan və Türkiyə ədəbiyyatında "erməni məsələsi" Beynəlxalq Elmi Konfransın materialları. Bakı. 251 s.
6. Şərifli, K. (1993). "Qanlı-qadalı illərin dəyərli abidəsi". M. M. Nəvvabın *1905-1906-cı ilərdə erməni-müsəlman davası* əsərinə ön söz. Bakı: Azərbaycan nəşriyyatı. 123 s.
7. Yaqub, Z. (2012). *And olsun əsrə*. Bakı: Elm və təhsil. 21 s.

ƏLİ BƏY HÜSEYNZADƏ YARADICILIĞINDA GÖZƏLLİK VƏ İŞIQ

*İlhamə Muxtarqızı AĞAZADƏ**

XIX-cu əsrin sonu, XX-ci əsrin əvvəllərində Azərbaycanda, bütün türk dünyasında tanınan demokratik fikirli, milli şüurlu ziyalılardan biri də Əli bəy Hüseynzadə olmuşdur. O, xalqı maarifə, mədəniyyətə, elmə, milli birliyə, müstəqilliyə çağıran fikirləri sayəsində "dahi, türklüyün peyğəmbəri" səviyyəsinə yüksəlmişdir. AMEA-nın müxbir üzvi Yaşar Qarayev yazmışdır: "Bütün dövrlərdə mənəvi mədəniyyətin tarixi missiyası bir də milli-maarifçilik olub. Bəşəriyyəti tərəqqiyə və humanitar intibahlara həmişə maarifçilər hazırlayıb. İstiqlal və suverinlik idealı həmişə ədəbi-nəzəri fikirdə formalaşıb, yalnız sonra dövlət təfəkkürü, sosial-inzibati qurum və siyasi rejim gerçəkliyi kəsb edib. Indiki suveren Azərbaycanın da mənəvi memarları Axundzadələr və Zərdabilər, Əlibəylər və Ağaoğlular, Sabirlər və Cavidlər, Nərimanovlar və Üzeyirbəylər, Cabbarlılar və Vurğunlar olmuşlar." (6, 238).

Bəhs etdiyimiz dövr bütün türk dünyasının oyanması, türkçülüyün təşəkkülü dövrü hesab olunur. Türkçilik ideyalarının yayılması ən çox Əli bəy Hüseynzadənin adı ilə bağlıdır. XIX-çu əsrin sonlarından intişar tapan mətbuat yeni əsrin əvvəllərində daha mütəşəkkil fəaliyyət göstərməyə başlayır, xalqın maariflənməsi və milli dirçəlişi uğrunda mübarizə sistemli xarakter alır. Əli bəy Hüseynzadə və yaxın məsləkdaşı Əhməd bəy Ağaoğlu "Həyat" və *Füyuzat* səhifələrində nəşr etdikləri yazıları ilə Azərbaycanda türkçülük ideyalarının yayılmasındakı müstəsna xidmətləri ilə seçilirlər. Əli bəyin jurnalist kimi fəaliyyəti mətbuat tariximizin dəyərli bir mərhələsidir. Hüseynzadə irsinin araşdırıcıları ədibin 1906-1907-ci illərdə nəşr etdiyi *Füyuzat* məcmuəsi ilə, Azərbaycan ədəbiyyatının, mətbuatının tarixində çox dərin bir iz buraxmasını xüsusi olaraq vurğulamışlar. O, Azərbaycan ədəbiyyatında romantizmin əsasını qoyanlardan olmuşdur. Müstəqillik işığında Əli bəy Hüseynzadə irsini dəyərləndirən akademik İsa Həbibbəyli ədibi "ədəbiyyatda və sənətdə romantik ağırlıqlı realist" adlandırır (2, 10).

* AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Uşaq ədəbiyyatı şöbəsinin böyük elmi işçisi, Filologiya üzrə fəlsəfə doktoru; *iahmadova@inbox.ru*

Milli-azadlıq hərəkətinin mücahidi Əli bəy görkəmli tədqiqatçı alim, publisist, ictimai xadim, pedaqoq, nasir, şair, tərcüməçi, mütəfəkkir, filosof, rəssam, həkim kimi çalışmışdır. Sovet dövründə onun haqqında yaranmış fikirləri nəzərə almasaq, bu günədək Əli bəy Hüseynzadənin fəaliyyətinə böyük dəyər verilmiş, türkçülüyün ədibin çoxcəhətli yaradıcılığını birləşdirən ən ali idealı, həyatının qayəsi olması diqqətə çatdırılmış, fəaliyyətini türkçülük, islamçılıq və Avropaçılıq konteksində təhlil etmişlər. Həm Şərq, həm də Qərb tarixinin, mədəniyyətinin, elminin mütərəqqi keyfiyyətlərini qarşılıqlı şəkildə öyrənmək, inkişaf etdirmək XX-ci əsrin əvvəllərində ziyalı və təfəkkür sahiblərini düşündürən başlıca problem idi. Əli bəy Hüseynzadə "Kasablanka faciəsi və Osmanlı-İran komediyası" əsərində yazırdı: "Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, elm və maariflərinə, kəşf və ixtiralarına müraciət etmək istəyiriz, özlərinə deyil. Biz istəyiriz ki, İslam ölkəsinə onların beyinləri, dimağları girsin, boğazları, mədələri girməsin. Biz istəyiriz ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın." (3, 268). Göründüyü kimi, türkçülüyün peyğəmbəri hesab olunan Əli bəy böyük dramaturq M. F. Axundovun hələ XIX-çu əsrdə başladığı ideyalarının davamçısı kimi çıxış edir. O, hər zaman Şərq və Avropa dəyərlərinin uğurlu şəkildə sintez olunmasına çalışıb. Bu fikirlər onun Bakıda, Tiflisdə, Peterburqda Türkiyədə nəşr olunan publistik yazılarında da öz əksini tapmışdır.

"Biz insanız" deyə müasirlərinə səslənən Ə. Hüseynzadə hər zaman insanlara və insanlığa böyük məhəbbət bəsləmişdir, odur ki, böyük mütəfəkkir şairin həm publisistikasını, həm də bədii yaradıcılığını insanpərvərlik duyğusu çevrələmişdir. "Heyrət, yaxud bir mələyin insanlara xitabı" şeirində bunu aydın görürük:

Səmadan bir mələk heyrətlə der: İnsanlar! İnsanlar!
Nədir bu, ruyi-ərzi qaplıyor al qanlar, insanlar!
Şəhid etdiyiniz ixvanınızdan almasın fəryad!
Əcəb kimdir şu xunalud olan bicanlar, insanlar!
Ölən kim, öldürən kim, zülm edən kim, ağlayan kimdir?
Bir az fikir eyləyin: Sizdən degilmi onlar? İnsanlar! (3, 31).

Sülhün tərafdarı olan ədib; bütün dünyaya, insanlığa səslənir, qan-qırğına qarşı etirazını ucaldır. Təxminən yüz il bundan qabaq səsləndirilmiş bu fikirlər, demək olar ki, dünyanın yarısını cənginə almış müharibə və terorların çoxaldığı bu günümüzdə də öz aktuallığını qoruyub saxlayır. Yaradıcılığını əhatələyən bu cür fikirlər Əli bəy Hüseynzadənin böyüklüyünü ortaya qoyur. Əli bəyin türkliyə xidmətini ətraflı şəkildə araşdırmış AMEA-nın müxbir üzvi Ə. Mirəhmədov yazırdı: *"Onun yaradıcılıq yolu ədəbiyyat, mətbuat, fəlsəfəyə xidmət, sosial kredosu Azadlıq, Milli tərəqqi naminə birliyə çağırmaqdır.*

Bir sözlə, bunların canı, kökü mayası −Məhəbbətdir. Insana məhəbbət!..” (2, 79). Bu böyük məhəbbət Əli bəyin bütün irsini əhatə etmək gücündədir.

Uşaqlıqdan babası Şeyx Əhmədin himayəsində yaşayan Əli bəy Tiflisdə mükəmməl təhsil almışdır. Dövrünün savadlı adamlarından olan Şeyx Əhmədin Əli bəyin həyatında müstəsna rolu olmuşdur. Burada çoxlu dil öyrənən Əli bəy Qərb (Avropa) və Şərq (islam) mədəniyyətinə də dərindən yiyələnmişdi. Böyük ziyalı bu illəri belə xatırlayır: “*Əvvəla, mən Tiflisdə şeyxülislamların təhti-idarəsində bulundum, təhsili ibtidaimi orada keçirdim. Bu təhsili-ibtidaim “Qurani-Kərim”in qiraəti və farsiibarə, Tarixi-Nadir və Gülüstani-Sədinin mütaliəsinə münhəsir qaldı... Bir uşağın bu surətlə öz ana dili ta ibtidaidən ehmal olunub, ona zorla əcnəbi dilləri təhsil etdilərsə, nə nəticə hasil olur?.. İştə əməyim boşa getdi. Çünki türk olduğum halda, türkcə bilmədim. Müsəlman olduğum halda Quranı anlamadım... Sonra isə gimnaziyada çalışmamızın böyük bir qismi havaya getdi*” (3, 168). “Nümunə məktəbi” məqaləsində kiçik yaşlı uşaqlara ana dili əvəzinə, əcnəbi dillərini kor-koruna öyrətməyin əleyhinə çıxır. Əli bəy dərk edirdi ki, orta əsrdən qalan köhnə tipli ilahiyyat və şəriət dərslərinin keçirildiyi mollaxanaları dünyəvi elmin və müasir biliklərin yayıldığı yeni tipli təlim və tədris ocağına çevirmək vacibdir. Hüseynzadənin əsas və ümdə məqsədi türk-müsəlman xalqları arasında elm, maarif və mədəniyyətin inkişafına nail olmaq və həmin xalqlar arasında milli birlik yaratmaq idi. Hüseynzadənin həyatı, elmi və bədii yaradıcılığı, publisitikası haqqında dəyərli araşdırmaların müəllifi Azər Turanın təbirincə desək: “*Əli bəy bütün türklərin anlayacağı ortaq ədəbi türkcənin tərəfindəydi. Azərbaycan ədəbi dili də Əli bəyə görə, həmin dil sisteminin tərkibində intişar tapmalıydı. Onun təklif etdiyi, tətbiqinə çalışdığı dil bütün yaxın Şərqə türk mədəniyyətini və problemlərini daşımaq gücündəydi.*” (1)

Türkçülüyün böyük ideoloqu elm və biliklə dünyanın xilas olması fikrinə inanmışdır. Milli mücahid çalışırdı ki, bu məktəblərdə milli dil, onun tarixi, qrammatikası və abidələri öyrənilsin. Məhz bu illərdə Azərbaycanda yeni tipli maarifçi realist tipli uşaq ədəbiyyatı nümunələri, anadilli ilk dərsliklər yaradılır. O dövrdə fəaliyyət göstərən məktəblərdən biri də Ə. Hüseynzadənin də müəllim və müdir kimi çalışdığı “Səadət” məktəbi idi. 1909-cu ildə *Tərəqqi* qəzetində dərc edilmiş “Yazımız, dilimiz ikinci ilimiz” məqaləsində Əli bəy “Səadət” məktəbi üçün hazırlanmış “İkinci il” kitabındakı qüsur hesab etdiyi fikirlərini təqdim etmişdir: “*Bir kərə ‘İkinci il’in nə şerində, nə də nəsrində ədəbiyyat nümunələrindən məşahiri-üdəbanın ətfala məxsus kəlamından belə əsər yoxdur*” (3, 293). Böyük pedaqoq demək istəmişdir ki, kitabda uşaqların yaşına, səviyyəsinə uyğun, rahat anlaya biləcəyi nümunə yoxdur. Dərslikdə yer almış müəlliflərin imla qaydalarına dair təkliflərini rədd edən Hüseynzadə əlifbanın dəyişdirilməsinə də etirazını bildirmişdir. Məzmun və

ifadə gözəlliyini əsas götürən müəllif bədii-estetik cəhətdən zəif hesab etdiyi şeirlərin dərslikdən çıxarılmasının tərafdarı idi. Zaman Əsgərli bu barədə yazır: "*'İkinci il' dərsliyindəki uşaqlar üçün şeir nümunələrinə Ə. Hüseynzadə 'Sənət sənət üçündür.' prinsipi, yaxud romantik poeziyanın yüksək estetik tələbləri baxımından yanaşırdı*" (3, 74). Əli bəyin 1926-cı ildə Bakıda keçirilən I Beynəlxaq Türkoloji Qurultayı zamanı səsləndirdiyi fikirləri də maraq doğurur: "Xəta edərək zənn etmiş idim ki, doğrudan doğru yüksək şeylərə müraciət etmək kafidir. Xeyir! Əvvəla aşağılara enmək lazım idi". (3, 299) Böyük mütəfəkkir zamanında çox doğru buyurub ki, ədəbiyyat xalqa enmədikcə yüksələ bilməz. Xalqdan güc alan sənət əbədi yaşamaq hüququ qazanır.

Azərbaycan Milli Hərəkatının görkəmli xadimi Əli bəy Hüseynzadənin azadlıq mücadiləsini əks etdirən ideyaları uşaqlara həsr etdiyi əsərlərdə də öz əksini tapmışdır. O, bu əsərlərində millətin səadəti uğrunda yorulmadan mübarizə aparan və bu yolda rast gəldiyi bütün çətinlikləri aradan qaldırmağa çalışan milli mücahid kimi görünür. "Bilgin qız və arı" (23 fevral 1935) şeirində səsləndirdiyi fikirlər bəşəriyyəti, bütün türk dünyasını düşündürür:

Qız (Yalnız)!
İstər bir fərd olsun, istər bir məşər,
Hürriyyəti fəda edəməz bəşər?
Əbədi barışa yol bulmaq için
Təsanüdü əsas tanımaq istər!
Məsud olamayız, olsaq da arı
İnsanlığın yolu, ülgüsü ayrı!
Kamalin bulduğu yoldadır işıq
Bu işıqdır türkün qutlu şüarı!.. (3, 48).

İşığın, ziyanın türkləri, ümumiyyətlə bütün bəşər övladını – "*zülməti-qəflətdə bulunan külliyyətiavamı*" qurtaracağına inanırdı. O, anlayırdı ki, yalançı "beynəlmiləl nəğməsi" oxuyan "Marksizm dininə" inanan, qan qoxuyan insanların-arıların işi peşəsi xalqı sancmaqdır, yaralamaqdır. Azadlıq hərakatının genişləndiyi, milli şüurun oyandığı dövrdə bu cür fikirlər şübhəsiz ki, uşaqlarda milli özünüdərk, milli kimlik ideyaları aşılamışdır. Düşməni tanımağa, millətin qurtuluşu yolunda ayıqsayıq olmağa istiqamətləndirmişdir.

Ə. Hüseynzadənin uşaqlara həsr elədiyi "Xoruz və ququ quşu", "Xoruzun nəğmeyi-iqazı" adlı başqa bir şeirində də bu düşüncələrinə sadiq qaldığını görürük: "Artıq yetməzmi uyğu! Dan yıldızı doğur! Oyanır yahu! Oyanın, gözəl bir nəğmə dinləyu!" (3, 45). Daim yenilik axtarışında olan ədibin milli istiqlal uğrunda apardığı mücadiləsi gəncliyə çox böyük müsbət təsir göstərirdi.

Maraqlı orasıdır ki, Əli bəy uşaqlara həsr etdiyi bədii parçaları ömrün ixtiyar çağlarında qələmə almışdır. Qızı Feyzavərə xitabən yazdığı "Bağçamın ağacları" (1936) şeiri alleqorik səpkidədir:

Xızırdan nişandır yaşıl yarpağım,
Haqqın sevgisilə yanar çırağım,
Umrana, rifaha işarətəm bən:
Sülhə əlamətdir dalım, budağım!.. (Zeytun) (3, 50).

Bu şeirdə meyvə ağaclarının dili ilə onların xüsusiyyətləri obrazlı bir şəkildə sadalanır. Şair ağacların insana faydalı cəhətlərini verməklə, eyni zamanda dövrün aktual problemlərinə də diqqət çəkir. Əli bəy çox gözəl bilirdi ki, böyük tərbiyəvi əhəmiyyət daşıyan uşaq əsərlərinin müvəffəqiyyət qazanmasın ən mühüm şərti onun dilinin sadə, aydın, yığcam və səlis olmasındadır. Digər şeirlərə nisbətən "Bağçamın ağacları"nın dili daha sadə, aydın, uşaqalr üçün anlaşıqlıdır. Görünür, Ə. Hüseynzadə artıq bu şeirləri yazdığı zaman arzusunda olduğu ümumtürk dili, ümumtürk əlifbası ilə bağlı fikirləri həyata keçirməyin mümkün olmadığını anladığındandır ki, ömrünün son illərində yazdığı şeirlər daha çox Azəri türkcəsində qələmə alınmışdır. Uşaqlara həsr elədiyi şeirlərdə də ittihad, birləşmək, xalqı əsarətdən qurtarmaq ideyaları əsas götürülür.

Ədibin araşdırıcılarından olan filologiya üzrə fəlsəfə doktoru Ofeliya Bayramlının verdiyi bilgiyə görə, həyatının son dövrlərində yazdığı şeirlərini "Gözəllik və işıq" adı altında nəşr etdirmək istəsə də, əcəl buna imkan verməmişdir (2, 26). Dünyanı gözəlliyin, işığın, elmin, maarifin xilas edəcəyinə son nəfəsinədək inanmış, müqəddəs bildiyi bu yoldan usanmamışdır.

Əli bəy dünyanın müxtəlif dillərini və elmlərini, ədəbiyyat və incəsənətini dərindən bilmişdir. Çoxlu dil bilməsi tərcüməçilkilə də məşğul olmasına imkan vermişdir. O, alman şairi Bodenştedtin "Ömər Xəyyam" haqqındakı əsərini, Hötenin *Faust*, ingilis şairi Con Miltonun *İtirilmiş cənnət* əsərlərindən bəzi hissələri və Heynenin bir şeirini tərcümə edərək İstanbul mətbuatında çap etdirmişdir. Bu əsərlərin də heç şübhəsiz ki, yetişməkdə olan gənc nəslin təlim-tərbiyyəsində əhəmiyyətli rolu olmuşdur.

Fransız dilində də epopeya deyərkən öncə qədim dövrlərdə yazılan –*İlliada, Odisseya, Gilqamış, Ramayana, Mahabharata* və başqa şifahi xalq ədəbiyyatı nümunələri nəzərdə tutulur.

İkinci anlamı isə yazılı ədəbiyyatla bağlanır. Birinci anlamda işlədilən epopeya sözü Türkiyə və Azərbaycan türkcəsində "dastan" termini ilə eynilik daşıyır.

"Dastan" anlayışını Fransız dilində yazılan ədəbi nümunələrdə axtarsaq, orada "epopee", "epique", "epos", "chanson de geste" kimi qarşılıqlarını tapa bilərik. Dastan ərəblərdə əsatir, Qərbdə isə "myth (mit, mif)" olaraq da adlandırılır. Hətta maraqlı məqamlardan da biri odur ki, tufanla, daşqınla bağlı yaradılan mifləri dastan janrına daxil edən bir sıra tədqiqatçılarımız da vardır.

Şifahi xalq ədəbiyyatında yer alan dastan janrı yarandığı ərazinin özəlliklərini, tarixin əsas və önəmli hadisələrini, xalqın adət-ənənələrini özündə əks etdirmə baxımından önəm daşıyaraq bir sıra özəllikləri özündə cəmləşdirir:

1. Anonimlik bütün folklor nümunələrində olduğu kimi, burada da özünü göstərir.
2. Müəyyən bir xalqın, tayfanın özəlliklərini təcəssüm etdirir.
3. Ümumilikdə, mənzum, şeir şəklindədir. İlk yaranarkən dastanın mənzum şəkildə olması fikrini irəli sürən xeyli sayda araşdırmaçılar var.
4. Müasir dövrə nəsr şəklində çatmışdır.
5. Qəhrəmanları fövqəladə, qeyri-adi özəlliklərə malikdir.
6. Müəyyən tarixi hadisələri, adət-ənənələri, dünyagörüşü özündə əks etdirir.

II. Azərbaycan folklorşünaslığında dastan anlayışı

Azərbaycan ədəbiyyatında, əsasən, aşıq sənətinin yaradıcılığına məxsus olan "dastan"; "nağıl", "qissə", "boy", "oğuznamə", "hekayət" və bu kimi adlarla da adlandırılmışdır. Dastanın məzmunu nağıl şəklində ifadə olunduğu üçün bir çox türk xalqlarında "nağıl dastan" və ya əksinə, "dastan nağıl" olaraq adlandırılmışdır.

Hətta aşıqların bir çoxu qoşduğu və ya ifa etdiyi dastanları nağıl adlandırmış, nağıllara isə dastan janrından fərqləndirmək üçün "qara nağıl" adını vermişdir. Bu janrın adı bolşevik inqilabından sonra "dastan" olaraq işlədilməyə başladıldı.

Elmi əsərlərdə daha çox qəhrəmanlıqla bağlı olub geniş həcmə malik olan bu janr "epos" olaraq adlandırılır.

> *"Azərbaycan folklorşünaslığında 'epos' anlayışı, demək olar ki, bütün hallarda sintaqmatik mətn mənasında götürülmüş, onun düşüncə modeli (paradiqmatik sistem) mənasına, ümumiyyətlə, əhəmiyyət verilməmişdir. Halbuki epos ilk növbədə epik yaddaş – gerçəkliyin etnosun fiziki-mənəvi təcrübəsində 'aprobasiya olunaraq', düşüncəsində yaratdığı obrazlar sistemidir"* (Rzasoy 2013: 16).

"Epos", yunan sözü olub təhkiyə, rəvayət, söz deməkdir. Bu söz termin kimi ilk dəfə olaraq, Aristotelin *Poetika* əsərində verilmişdir.

Geniş mənada epos, bədii ədəbiyyatın üç əsas növündən biri olub növ olaraq "epik növ" formasında işlədilir. Bu ədəbi növ özündə nağılı, novellanı, qəhrəmanlıq dastanını, romanı, povesti, hekayəni və b. janrları əhatə edir.

Dar mənada olanda isə yalnız qəhrəmanlıq dastanı kimi başa düşülür. Mifoloji düşüncədən gerçək tarixi hadisələrə qədər özündə eyni tərzdə, qəhrəmanlıq pafosunda ehtiva edən janra "epos" deyilir.

Məsələn, *Kitabi-Dədə Qorqud, Koroğlu* əsərləri epos sayılır. Lakin bununla yanaşı, bu əsərlərin dastan adlandırılması da səhv sayılmır. Lakin hər hansısa məhəbbət dastanını "epos" adlandırmaq düzgün olmaz. Çünki eposlarda qəhrəmanlığın əski vacib amildir. "Epos" termini böyük əsərlər anlamında da işlədilir.

Azərbaycan folklorlorşünaslığında dastan janrı XX əsrdən başlayaraq daha da geniş şəkildə öyrənilməyə başlandı. "Dastan yaradıcılığımız haqqında", "Dədə Qorqud" boyları haqqında (I məqalə)", "Dədə Qorqud" boyları haqqında (II məqalə)", "Dastanlar", "Bir tarixi həqiqətin eposdakı izləri", "Dastanlarımızın bir növü haqqında" və sair araşdırmaların müəllifi folklorşünas M. Təhmasib araşdırmalarında həm "epos", həm də "dastan" terminlərindən istifadə etmişdir.

"Dastan" sözü çoxmənalı söz kimi bacarıq, məharət, hiylə nümayiş etdirən, həm də qəhrəmanlıq, sevgi macərasını əks etdirən əhvalat deməkdir. Bir istilah kimi bu söz musiqi havası, melodiya və b. mənalarda işlənməkdədir. Bu sözün ikinci dərəcəli mənaları da az deyil ki bunlar da sabit mənalar olmamışdır. Müxtəlif əsərlərdə bu mənaların bəzisi tez-tez və geniş şəkildə işlənmiş, bəziləri isə unudulmuşdur. Lakin belə mənalar nə qədər çox olsa da, dastandan bütün əsrlərdə daha çox ədəbi istilah kimi istifadə edilmiş, indi də edilməkdədir. Geniş mənada isə bədii əsər mənasını daşıyan bu sözü əhvalat, hekayət, macəra, tərifnamə, tərcümeyi-hal, eyni zamanda rəvayət, hətta xalq romanı, xalq kitabı mənalarını daşımışdır (Təhmasib 1972: 57). "Dastan" eyni zamanda "boy", "qol", "qissə", "nağıl" da adlandırılmış, zaman keçdikcə onun janr xüsusiyyəti başqa ədəbi nümunələrlə müqayisədə araşdırılıb öyrənildikcə o, spesifik xüsusiyyətlərə malik bədii nümunə kimi xalq ədəbiyyatında elə dastan adı ilə sabitləşmişdir. *"Həmişə olmuş əhvalat, baş vermiş hadisə, tarixi həqiqət kimi"* qəbul edilmişdir. (Təhmasib 1972: 61).

Ondan sonrakı tədqiqatçılar da məhz "dastan" terminə üstünlük vermişlər.

III. Türkiyə folklorşünaslığında dastan anlayışı

Türkiyə ədəbiyyatında dastan termini türk ədəbiyyatında birdən çox nəzm şəkli və janrı içərisində işlədilmişdir. Belə ki, dastana hekayə, nağıl, sərgüzəşt, mənzum hekayə (qissə), roman, heyvan nağılları anlamlarında da rast gəlinir.

Dastan janrı Türkiyə ədəbiyyatında əfsənalərdən sonra meydana gələn ən qədim nəzm şəklində olan janrdır. Sonradan bu janr həqiqətlərə yaxın olan həyat hekayələri ilə bağlandı və real təəssüratı oyatmağa başladı.

Məsələn, Türkmənistanda qəbirdən çıxan Goroğlu ilə müqayisədə Azərbaycan ədəbiyyatındakı Koroğlu real tarixi hadisələrlə bağlıdır.

Türkiyə ədəbiyyatında şəkilcə qoşmaya bənzədilən, dördlüklərinin sayının, mövzu və anlatım formasına görə fərqli olan dastanlar hər zaman diqqət mərkəzində olmuşdur. Bu mövzuda Əhməd Tələt Onay, Mehmed Fuad Köprülü, Rıza Tevfik, Əhməd Rasim, Pertev Naili Boratav, Mehmet Halit Bayrı, Dehri Dilçin, Sadeddin Nüzhet Ergun, Ali Balım, Şükrü Elçin, Hikmet Dizdaroğlu, Kemal Zeki Gencosman, M. Fahrettin Kırzıoğlu, Cahit Öztelli, Hikmet İlaydın, Cem Dilçin və başqaları tədqiqatlar aparmışdır.

Türk ədəbiyyatında dastan sözünü XIX əsrin sonu −XX-ci əsrin əvvələrindən başlayaraq, M. Fuad Köprülü, Rza Nur, Zəki Vəlidi Togan Türkoloji sahəsindəki tədqiqatlarında "legenda (əfsanə)", "epopeya" qarşılığında vermişlər.

Ziya Göyalpın "*Türk Töresi* (*Türk Adəti*)" və "*Türk Medeniyyeti Tarihi* (*Türk Mədəniyyəti Tarixi*) adlı əsərlərində "mənqəbə" və "üsture" kəlimələrinin işlədilməsinə baxmayaraq, dastan "epopeya" qarşılığında verilməyə başlanıldı. Fuad Köprülü isə öz tədqiqatlarında "milli dastan" sözünü işlətmişdir.

Türkiyə ədəbi mənbələrində "dastan" termini ilə bağlı axtarışlar apararkən 3 anlayışla qarşılaşırıq:

> *1. Qədim dövrlərdə mövzusunu tanrı, tanrıça, yarı tanrı və qəhrəmanlarla bağlı fövqəladə hadisələrin təşkil etdiyi şeir ve epopeya,*
>
> *2. Bir qəhrəmanlıq hekayəsini və ya bir hadisəni özündə cəmləşdirən, qoşma şəklində, on bir hecalı xalq şeiri,*
>
> *3. Müasir türk ədəbiyyatında ənənvi dastanlardan fərqlənən uzun qəhrəmanlıq şeiri* (*Türkçe Sözlük*, 1988: 363).

Türk dili və ədəbiyyatı tarixində dastan janrının əsərlərini ifadə etmək üçün, müxtəlif zamanlarda müxtəlif sözlərin işləndiyini qeyd edən Yıldırım, *"… bunların içinde yabancı kaynaklı bir kelime olmasına rağmen en çok kullanılan ve bir terim olarak işletilenin destan olduğu …"* görüşüne yer vermekte ve ayrıca, *"Edebiyatımızda 'destan' sözü, bugün, daha çok kahramanlık temalarının ağır bastığı manzum, manzum-mensur veya mensur eserler için kullanılan edebî bir terimdir."* (Yıldırım 1998: 149) deyir.

Bəzi türk tədqiqatlarında məhəbbət dastanları *hekayə, xalq hekayəsi* olaraq da verilir. Türkiyə ədəbiyyatında xalq hekayəsi ilə dastan anlayışları arasında fərqlər, sərhədlər mövcuddur. Həmin sərhədlər dastanları hekayələrdən fərqləndirir. Dastanlar türklərin tarixində dərin iz buraxmış önəmli hadisələri əks etdirir.

Dastançı-aşıq (ozan) saz, qopuz müşayiəti ilə həmin hadisələri, yəni dastanı nəql edir. Xalq hekayələrində tarixiliyin olması önəm daşımır. Bu he-

kayələrdə məhəbbət mövzusu üstünlük təşkil edir. Dastanlar müəyyən bir dairəni təşkil edərlər. Xalq hekayələrində isə belə bir dairədən söz gedə bilməz, mövzu bir düzxətti təşkil edər: qəhrəman aşiq olur - sevgilisinə qovuşmaq üçün maceralara atılır və qovuşur (*Fərhad və Şirin*, *Əsli və Kərəm'*də qəhrəmanlar qovuşa bilmir).

Xalq hekayələrində qəlibləşmiş ifadələr, məsəllər, lətifə, dua bəddua, bilməcə və s. nümunələr öz əksini tapır və dastanla müqayisədə üstünlük təşkil edir. Bəzi dastanlar da bu janrlardan xali deyil.

XVI-cı əsrdən dastan janrının yerini tutan xalq hekayələri bu janrın özəllikləri də daşımaqda davam edir. Azərbaycan ədəbiyyatında bu janr nümunələrini "məhəbbət dastanları" adı ilə özündə cəmləşdirir. Türk xalq dastanlarını araşdıran Boratov da məhz dastan və xalq hekayələri haqqında ayrı-ayrılıqda bəhs etsə də, hər iki janr nümunələrinin oxşar məqamlarının da olduğunu danmır.

Türkiyə ədəbiyyatında "dastan" ilə paralellik təşkil edən sözlərdən də biri "namə" terminidir. Məsələn; *Saltuqnamə, Danişməndnamə* və başqa mənsur dastan mətnlərinin adlarında da bu terminə rast gəlirik.

"Bitik", "kitab" kimi adlar da "dastan" termini ilə paralellik təşkil edir. Məsələn, "Ulu xan Ata bitiyi", "*Kitabi Dədə Qorqud* (*Dədə Qorqud Kitabı*)" kimi dastanlarda "bitik" və "kitab" sözlərinə ad daxilində rast gəlirik.

Dastan anlayışı yeni bir mahiyyət qazanaraq türklərin müsəlman olmadan öncəki tarix, dil və ədəbiyyatın tədqiqində yeni bir çıxış nöqtəsi olmuşdur. Radlov, Potanin kimi alimlərin araşdırmaları da türklərin ilk dastan dövrünə işıq salmışdır.

Nəticə

Araşdırmamızdan belə nəticəyə gəldik ki, həm Azərbaycan, həm Türkiyə ədəbiyyatında dastan janrı müxtəlif adlarla adlandırılmış, bu janr epos, hekayə və bir çox terminlərlə araşdırmalara cəlb edilmişdir. Lakin əksər tədqiqatlarda "dastan" termini ilə adlandırılan bu janr nümunələrinin qədimliyi isə danılmazdır.

Qaynaqlar

1. *Dastani Əhməd Hərami* (2004). Bakı: Şərq-Qərb. 120 s.
2. Əfəndiyev, Paşa (2012). *Azərbaycan şifahi xalq ədəbiyyatı.* Bakı: Elm və təhsil. 600 s.
3. Əliquliyev, R. - Şükürlü, S. - Kazımova, S. (2009). *Elmi fəaliyyətdə istifadə olunan əsas terminlər.* Bakı: Informasiya Texnologiyaları. 201 s.
4. Gökalp, Ziya (1976). *Türk Töresi.* İstanbul: Güneş Matbaacılık. 141 s.

5. Oğuz, Öcal (2004). “Destan Tanımı ve Eski Türk Destanları”. *Millî Folklor.* Yıl: 16. Sayı: 62.

6. Rzasoy, Seyfəddin (2013*). Əbülqazi “Oğuznamə”sində mif və ritual.* Bakı: Nurlan. 172 s.

7. Təhmasib, M. H. (1972). *Azərbaycan Xalq Dastanları (Orta Əsrlər)*. Bakı.

8. *Türkçe Sözlük I*, (1988), Ankara: Türk Dil Kurumu Yayınları.

9. Yıldırım, Dursun, (1998), *Türk Bitiği*, Ankara: Akçağ Yayınları.

BURHAN CAHİD MORQAYANIN *ARXA CƏHBƏ (CEHBE GERİSİ)* ROMANINDA MÜHARİBƏ MOTİVİ

*Eşqanə BABAYEVA**

Giriş

XX-ci əsrin əvvəlləri dövrün ictimai-siyasi mürəkkəbliyi ilə xüsusi ilə diqqəti cəlb edir. Birinci dünya müharibəsi, Balkan savaşları, istiqlaliyyət uğrunda mübarizə, siyasi çəkişmələr, nəhayət Cümhuriyyətin qurulması kimi önəmli hadisələrin baş verməsi, əlbəttə ki, ədəbiyyatın da əsas mövzusuna çevrilmişdir. Xüsusi ilə də müharibə motivi, türk xalqının öz istiqlaliyyəti uğrunda mübarizəsi ədəbi əsərlərin əsas mövzusu olmuşdur. Xüsusən poeziyada, Mehmed Əmin Yurdaqulun "mən bir türkəm/dinim cinsim uludur" sətirləri, Mehmet akif Ərsoyun istiqlaliyyət marşı bu duyğuların ən önəmli tərənnümlərinin ifadəsidir. Demək olar ki, şair və yazıçıların hər birisi bu mövzuya bu və ya digər dərəcədə toxunmuşdur. Poeziyada olduğu kimi, nəsrdə də bu mövzu əsərlərin leytmotivinə çevrilmişdir. Xalidə Ədib Adıvar, Yaqub Qədri Qaraosmanoğlu, Peyami Səfa və s. kimi yazıçıların əsərlərində bu mövzu özünəməxsus şəkildə əks olunmuşdur. Müharibə mövzusuna toxunan yazıçılardan biri də Burhan Cahid Morqaya olmuşdur. Onun, *Yüzbaşı Cəlal* (1933), *Ehtiyat zabiti* (1933), *Dünkilərin romanı* (1934), *Arxa cəhbə (Cəhbə gerisi)* (1934) kimi romanlarında müharibə mövzusuna müraciət olunmuşdur.

Burhan Cahid Morqayanın ədəbi şəxsiyyəti

Cümhuriyyət dövrü türk ədəbiyyatında özünəməxsus yeri olan yazıçılardan biri də Burhan Cahid Morqayadır. O, 1892-ci ildə İstanbulda dünyaya gəlmiş, Mərcan Edadisi, daha sonra isə Məktəb-i Mülkiyyədə oxumuşdur. O, 1909-cu uldən başlayaraq elmi-publisistik məqalələr dərc etdirmiş, *Qaragöz* və *Koroğlu* adlı qəzetləri nəşr etmişdir. Bununla yanaşı, yazıçı *Sərvət-i Fünun, Yeni qəzet, Son poçt, Milliyyət* və s. kimi qəzetlərdə çalışmış, çoxsaylı elmi-publisistik, tənqidi məqalələri ilə öz imzasını tanıtmışdır

* Fil.f.d., dos.; AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Türk xalqları ədəbiyyatı şöbəsi aparıcı elmi işçi Gənc Alim və Mütəxəssislər Şurasının sədri; eshqane@mail.ru

O, yazı həyatına 1922-ci ildə başlamış, 1930-cu ildə isə Türkiyənin ən çox oxunan yazıçıları arasına daxil olmuşdur. Çoxsahəli yaradıcılığa malik olan Burhan Cahid elmi-publisistik məqalələri ilə yanaşı, bir-birindən maraqlı romanları ilə də tanınır.

Onu da qeyd edək ki, bu romanlar ideya-məzmun baxımından müxtəliflik kəsb edir. Yazıçının çap olunan əsərləri bunlardır.

1. *Bizans Akşamları (Hasbihaller, Hikâyeler, Fantaziler)*, İstanbul: 1338, İkdam Matbaası, 95 s.
2. *Coşkun Gönül* (Roman), İstanbul: 1925, Burhan Cahit Matbaası, 444 s.
3. *Aşk Bahçesi* (Roman), İstanbul: 1925, Burhan Cahit Matbaası, 221+3 s.
4. *Hüsam Efendi'nin Kızı* (Uzun Hikâye). İstanbul: 1925, Suhûlet Matbaası, 16 s.
5. *Gönül Yuvası* (Roman), İstanbul: 1926, Burhan Cahit Matbaası, 303+1 s.
6. *Kızıl Serâb* (Roman), İstanbul: 1926, Vatan Matbaası, 388+3 s.
7. *Karagöz'ün Fıkraları*, İstanbul: 1926, Hacivat Matbaası, 216 s.
8. *Ayten* (Roman), İstanbul: 1927, Burhan Cahit Matbaası, 340 s.
9. *Harb Dönüşü* (Roman), İstanbul: 1928, Burhan Cahit Matbaası, 360 s.
10. *Hizmetçi Buhranı* (Roman), İstanbul: 1928, Hâmid Matbaası, 105+7 s.
11. *Adam Sarrafı* (Piyes), İstanbul: 1929, Kanaat Matbaası, 111 s.
12. *Komşumun Romanı*, İstanbul: 1929, Köroğlu Matbaası, 160 s.
13. *Gaazî Mustafa Kemâl*, İstanbul: 1930, Kanaat Matbaası, 80 s.
14. *Aşk Politikası*, İstanbul: 1930, Burhan Cahit Matbaası, 200 s.
15. *İzmir'in Romanı* (Tarihî Roman), İstanbul: 1931, 79 s.
16. *Şeyh Zeynullah* (Roman), İstanbul: 1931, Köroğlu Matbaası, 256 s.
17. *Köy Hekimi* (Roman), İstanbul: 1932, İkbâl Matbaası, 320 s.
18. *Bir Çatı Altında* (Roman), İstanbul: 1932, 318 s.
19. *Gaazî'nin Dört Süvarisi* (Tarihî Roman), İstanbul: 1932, 64 s.
20. *İhtiyat Zabiti* (Tarihî Roman), İstanbul: 1933, Kanaat Kütüphanesi, 336 s.
21. *Yalı Çapkını* (Roman), İstanbul: 193l, Akşam Matbaası, 141 s.
22. *Yüzbaşı Celâl* (Roman), İstanbul: 1933, Köroğlu Matbaası, 211 s.
23. *Düğün Gecesi* (Roman), İstanbul: 1933, Akşam Matbaası, 484 s.
24. *Mudanya-Lozan-Ankara* (Tarihî Roman), İstanbul: 1933, 85 s.
25. *Gâvur İmam* (Tarihî Piyes), İstanbul: 1933, Devlet Basımevi, 26 s.
26. *Cebhe Gerisi* (Roman), İstanbul: 1934, Cemâl Azmî Matbaası, 344 s.

27. *Dünküler'in Romanı*, İstanbul: 1934, Ahmet Saîd Matbaası, 351 s.

28. *Gurbet Yolcusu* (Roman), İstanbul: 1934, Ahmet Saîd Matbaası, 303 s.

29. *Kır Çiçeği* (Roman), İstanbul: 1934, Ahmet Saîd Matbaası, 351 s.

30. *Patron* (Roman), İstanbul: 1935 Kanaat Matbaası, 384 s.

31. *Sevenler Yolu* (Roman), İstanbul: 1937, Kenan Basımevi ve Klişe Fabrikası, 288 s.

32. *Nişanlılar* (Roman), İstanbul: 1937, İnkılâp Kitabevi, 116 s.

33. *Atatürk'ün İki Cephesi*, İstanbul: 1939, Kanaat Kitabevi, 63 s. Resimli.

34. *Yaprak Aşısı*, (Roman), İstanbul: 1939, Kenan Basımevi ve Klişe Fabrikası, 156 s.

35. *Köydeki Dost*, (Roman), İstanbul: 1940, Köroğlu Matbaası, 186 s. 32 (Çimen 2006: 21).

Xalqın rəğbətini qazanan bu əsərlər, Morqayanın özü tərəfindən nəşr edilsə də, yazıçının vəfatından sonra uzun müddət unudulmağa məhkum edilmişdir. Son vaxtlar isə Morqaya romanlarına diqqət yetirilməyə başlamış, onun *Könül yuvası*, "*Aytən*", "*Sevənlər yolu*" və s. kimi romanları latın əlifbası ilə yenidən nəşr edilmişdir.

Yazıçı, 1946-cı ildə vəfat etmişdir.

Burhan Cahid Morqayanın *Arxa cəhbə* romanı

Burhan Cahid Morqayanın *Yüzbaşı Cəlal* (1933), *Ehtiyat zabiti* (1933), *Dünkilərin romanı* (1934), *Cəhbə gerisi* (1934) kimi romanlarında müharibənin panaromik lövhələri və savaşın aclıq, səfalət, özbaşınalıq kimi mənfi təzahürləri öz əksini tapmışdır.

Yazıçının, diqqəti cəlb edən romanlarından biri də *Cəhbə gerisi* (*Arxa cəhbə*) adlı əsəridir. Romanda hadisələr I-ci Dünya müharibəsindən milli mübarizənin başlandığı illərə qədərki mərhələni – təxminən beş illik dövrü əhatə edir. Əsərin əsas qəhrəmanı yüzbaşı Farukun kəşfiyyatçı kimi fəaliyyət göstərməsi, hadisələrin birbaşa içərisində olması, oxucuya müharibənin gedişatını izləməyə imkan verir. İşi ilə əlaqədar olaraq Berlin, Şam və digər ölkələrə gedən Farukun dilindən müharibə dəhşətləri ifadə olunur. Göstərilir ki, müharibə şiddətlə davam etdikcə, insanlar ümidsizliyə qapılır, aclıq, səfalət hökm sürür, kəndlərdə bütün kişilər əsgərliyə getdiyi üçün əkin-biçin işinə qadınlar baxır, yaşlı və şikəst kişilər isə kəndə nəzarət edirlər. Müharibənin qaranlıq üzü real bədii lövhələrlə öz əksini tapır:

"Anadolunun kənd və qəsəbələri skletə dönmüşdülər.... İllərcə qaz və şəkər üzü görməyənlər vardı" (Morkaya 1933: 221)...

"Beləcə, türkün vətəni 1914-cü ildən 1918-ci ilə qədər bu hadisələr, bu hislər, bu həyəcanlar içində çalxalandı. Buna görə də türk balaları Çanaqqalada, türk paşaları isə Berlin, Roma və Rusiyada can verdilər" (Morkaya 1933: 224). Və ya;

"Arxa cəhbə eynilə böyük yanğın gecəsinin sabahı kimi, hər yer yurdsuz-yuvasız, ac, çılpaq insanlarla dolmuşdu. Kəndlər tamamilə boşalmış, bağlar xarabəyə çevrilmiş, tarlaları alaq basmışdı...

Xəstəxanalar xəstə və şikəst əsgərlərlə dolmuşdu" (Morkaya 1933: 338).

Burada, eyni zamanda yaralı əsgərlərin baxımsızlıqdan ölməsi kimi faktlara da yer verilmişdir.

"- Nə vaxt yaralandınız?

- Filistində yanımda ingilis mərmisi partladı. Qolumdan yaralandım. Bəlkə də sağalacaqdı, amma cəhbədə baxan olmadı. Xəstəxanaya gələndə isə artıq qanqren olmuşdu, kəsdilər.

Minbaşı Faruk, gənc zabitə rəğbət hissi ilə baxırdı. Yanında duran həkim əyilib, yavaşca qulağına pıçıldadı:

- Əksəriyyətində belə olur. Düşmənin qopara bilmədiyi qol və ayaqları baxımsızlığın ucbatından biz kəsib atırıar" (Morkaya 1933: 233).

Bu əsərlərdə, konflikt millətlərarası, hərbi deyil, daha çox varlı-kasıb, ac-harın təbəqələr arasında qurulmuşdur. Müharibə vaxtı insanların bir qismi məhrumiyyət dolu həyat sürərkən, digər bir qisim isə yaranan özbaşınalıqdan, hərc-mərclikdən istifadə edib, kirli yollarla varlanıb, "hərb zəngini"nə çevrilmişdir. Nümunəyə baxaq:

"Xalqın çörəyinə torpaq qarışdırıldığı deyilirdi. Bu səfalət virus kimi ətrafa yayıldıqca qəribə söhbətlər də danışırdılar. Bəzi nüfuzlu adamlar ölkəyə gətirilməyən şəkər, ipək, qəhvə kimi şeyləri hardansa tapıb gətirir, baha-baha satıb, varlanırdı. İstanbulun kənar məhəllələrində kasıb xalq təbəqəsi qazsızlıqdan, qaranlıqda, soyuqda ac və çılpaq yatarkən, bəzi kübar məhəllələrdə səhərə qədər toy-düyün, əyləncə sürərdi. Hətta varlıların bir-biriylə yarış edib ovuc dolusu pul xərclədikləri də danışılırdı" (Morkaya 1933: 32).

Nümunədən verdiyimiz kimi, bir tərəfdə aclıq, yoxsulluq, digər tərəfdə isə rüşvət, harınlıq, əxlaqsızlıq hökm sürür. İdarə etmənin (xüsusən nəqliyyat) səlahiyyətləri hərbiyə verildiyi üçün, əksər zabitlər, yüzbaşılar belə milli hisslərini bir kənara buraxıb, vaqonlarla gizlincə mal gətirir və birdənbirə

var-dövlət sahibinə çevrilirlər. Bu biznes əsərlərdə "vaqon ticarəti" adıyla göstərilir. Və ya bəzi açıqgözlü, hiyləgər insanlar hərbi mükəlləfiyyəti olan saf, təmiz insanları tora salıb, bu çirkinliyə alət edirlər. Bu problem minbaşı Faruk bəy-Şəkərzadə Haqqı bəy obrazlararası münasibətlərində də özünü göstərir. Faruk bəy nə qədər vəzifəsini layiqincə yerinə yetirməyə çalışsa da, Şəkərzadə Haqqı bəylə, Dilrüba xanımın toruna düşür. Evinə, ailəsinə bağlı olan minbaşı Faruq bəy, özü də bilmədən yavaşyavaş milli-mənəvi dəyərlərindən qopur. Varlı adamların hesabına, müxtəlif çirkin yollarla özünə vardövllət yığmağa çalışan Dilrüba xanım Faruku da yolundan çıxarıp, bu işlərə alət etməyə çalışır. Bu çirkablara bulaşan Faruk yanlış yolda olduğunu başa düşüb böyük peşimançılıq hissi keçirir. Bu çirkabdan qurtuluşu Anadoluya sığınmaqda görən qəhrəman bir neçə dostu ilə bərabər İstanbuldan ayrılıb, Anadoludakı hərəkata qoşulur. Qeyd edək ki, əsərdə qadın qəhrəmanları, xüsusən də Farukun həyat yoldaşı Narin xanım da diqqəti cəlb edir. Ziyalı bir türk qadını olan Narin, eyni zamanda fədakar bir anadır. Dilrüba xanımla bağlı məsələlərdən xəbərdar olub, nə qədər əzab-əziyyət çəksə də Farukun dəyişəcəyini, yenidən ailəsinə bağlanacağını, korşalmış milli duyğularının oyanacağına inanır və bunun üçün mübarizə aparır. Əsərin sonunda əməlllərində peşiman olan Farukun hərbi vəzifəsini şərəflə həyata keçirməsi üçün Anadoluya yollandığını, Narin xanımın isə onu yola saldığını görürük. Gördüyümüz kimi, yazıçı qəhrəman və mühit problemini qoyaraq, Farukun simasında bəzən sarsılsa da, milli duyğuları qalib gələn, Anadolunu qurtarmaq üçün ora üz tutan türk zabitinin simvollaşmış obrazını yaradır.

Nəticə

Yuxarıda qeyd etdiyimiz kimi, Cümhuriyyət dövrü Türkiyənin həm ictimai-siyasi, həm də ədəbimədəni həyatında önəmli dəyişikliklərin ortaya çıxdığı bir dövrdür. Təsadüfi deyil ki, 1920-ci ildən sonra yaranan ədəbiyyat Cümhuriyyət ədəbiyyatı kimi tarixə keçmişdir. Əlbəttə ki, bu ədəbiyyatı hazırlayan milli zəminlər hələ daha öncələr yaranmış, türk oğlunun istiqlaliyyəti uğrunda mübarizəsi, qoşulduğu müharibələr ədəbiyyata da öz əksini tapmışdır. Tədqiqatdan da bəlli olduğu kimi, dövrün ictimai-siyasi hadisələrini əsərlərində əks etdirən önəmli yazıçılardan biri də Burhan Cahid Morqaya olmuşdur. Tədqiqata cəlb etdiyimiz, *Arxa cəhbə* romanından da göründüyü kimi, B. Cahid bu mövzuya xüsusi həssaslıqla yanaşmış, müharibə dəhşətlərini, bu dəhşətlərin insan psixologiyasına təsirini xüsusi sənətkarlıqla əks etdirmişdir.

Onu da qeyd edək ki, Burhan Cahid Morqayanın yaradıcılığı tədqiqatlardan bir qədər kənarda qalmışdır. Türkiyədə, B. Cahidlə bağlı ilk tədqiqatlar 2000-ci ildə başlamış, bir neçə magistr dissertasiyası yazılmışdır. Azərbaycan türkologiyasında isə B. C. Morqaya yaradıcılığı ilk dəfə olaraq bu məqalədə tədqiqata cəlb edilmişdir.

Qaynaqlar

Burhan Cahit (1933). *Cephe Gerisi*, İstanbul: Kanaat Kütüphanesi.

Çelik, Yakup (2004). *Burhan Cahit Morkaya'nın Harf İnkilabına Kadar Yayınladığı Romanları Üzerine Bir İnceleme.* Yüksek Lisans Tezi (Basılmamış). Kırıkkale: Kırıkkale Universitesi.

Çetintaş, Burak (2005).*"Bir Hayat: Burhan Cahid Morkaya"*. Kitap-lık. İstanbul. Yapı Kredi Yayınları. Ocak. Sayı: 79. ss. 63-75.

Çimen, Hatice (2006). *Burhan Cahit Morkaya'nin Romanlarinda Kadin Tipleri.* Yüksek Lisans Tezi (Basılmamış). İstanbul: Marmara Universitesi.

Demir, Recai (2010). *Burhan Cahit Morkaya'nın Romanlarında Sosyal, Siyasî ve Kültürel Meseleler*. Yüksek Lisans Tezi (Basılmamış). İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü

Erceyes, Salih (2005). *Tarihî Açıdan Atatürk Dönemi İktisat Politikaları*. Erciyes Üniversitesi Sosyal Bilimler Enstitüsü.

Ercilasun, Bilge (1997). *Yeni Türk Edebiyatı Üzerine* İncelemeler. Ankara: Akçağ Yayınları. Morkaya,

Yılmaz, Ayfer (1997). "Popüler Edebiyat ve Safvet Nezihi". *Çağdaş Türk Edebiyatına Eleştirel Bir Bakış/Nevin Önberk Armağan*. Ankara: (Yayına Hazırlayan: Mehmet Ölmez). Simurg Kitapçılık ve Yayıncılık.

ƏBDÜRƏHİM BƏY HAQVERDİYEV YARADICILIĞINDA MİLLİ OYANIŞ RUHUNUN BƏDİİ İFADƏSİ

*Pərvanə BƏKİRQIZI (İSAYEVA)**

Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Ə. Haqverdiyevin yaradıcılığı xalq ruhuna yaxınlığı, tarixi yaddaşa bağlılığı ilə seçilir. Ədəbiyyatımızın və teatr sənətimizin inkişafındakı xidmətləri onu həm müasirləri, həm günümüzün informasiya və sistem nəzəriyyələri ilə yüklənmiş ədəbi-nəzəri fikrininin diqqət mərkəzindədir.

Ə. Haqverdiyev bir pərdəli, xəyali dram adlandırdığı *Qırmızı qarı*, *Mütrüb dəftəri*, *Dəccalabad*, *Xortdanın cəhənnən məktubları* əsərlərində obrazları həm mifoloji strukturuna uyğun detallarla işləmiş, eyni subyekti simvol və işarə kimi təqdim etməklə yanaşı həm də çarizmin müstəmləkə və işğalçılıq siyasətinə qarşı münasibətini də incə ehyamlarla göstərmişdir.

Xortdanın cəhənnən məktubları'nda Qırmızı qarı obrazı adının həm əsas, həm də asılı tərəfinin elementlərini müstəqim şəkildə mühafizə edə bilir. Bədii mətndən bəlli olur ki, bir çox məmləkətlərin yüzillik düzənini pozan Qırmızı qarı məlum ölkənin xanədanlığı üçün də təhlükə yaradır. Qırmızı qarı səhnəyə elə ilk anlardan daxil olur. Padşahın taxtına əyləşən qarını öldürmək istəyən gözətçilər onun qeyri-adi gücü qarşısında məyus olurlar. Qırmızı qarının hər gəlişi yeni bir faciənin olacağından xəbər verirdi. Qırmızı qarının adındakı rəng elementi sovet hakimiyyəti və qızıl ordunun rəmzi kimi əsərdə işarə funksiyası daşıyır. Bu müəllifin heç də alt qatda saxladığı detal deyil.

Mifoloji təfəkkürə görə, zəmanə qarı insanların taleyini qatıb-qatışdırır. *"Ona heç bir silah kar etməyir. Güllə vururlar, öldürməyir. Xəncər ətini kəsməyir."* (Əbdürrəhim bəy Haqverdiyev 2005: 234) Dramda güllə dəyməyən, qılınc kəsməyən, göz görə-görə qeyb olan qarı hələ heç kimsəylə dinibdanışmayanda, sadəcə görüntüsü ilə vahimə yaradana qədər mifoloji mətnlərdəki mifik mahiyyətini qoruyub saxlayır. Bundan sonra dramın əsas, alt qatdakı

* AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsinin baş elmi işçisi, Filologiya elmləri doktoru; bekirqizi69@mail.ru

mahiyyəti üzə çıxır. Qırmızı qarının Padşahla görüşü artıq onu mifik qarı, Ulu Ana kompleksində uzaqlaşdırıb, daşıdığı rəng işarətinin əhatəsinə daxil edir. *Qırmızı qarı*'da Ə. Haqverdiyev rəng simvolikası ilə mifoloji qarı obrazını birləşdirərək zəmanə qarının obrazını tamamlayır. Bu məqamda onu dünyanın nizamını pozan, xaos yaradan, inqilabi hadisələrin müjdəçisi və hərəkət verici qüvvəsi kimi qəbul etmək olur. Qarının "Mən qırmızı tufan elçisiyəm. O tufan bu saatda Yer üzündə əsməkdədir. Onun qarşısında padşahlar taxtı davam gətirməyib, birbəbir sərnigun olmuşlar" sözləri daşıdığı funksiyanı açıq şəkildə ifadə edir. Semiotik işarə kimi qırmızı rəng sadəcə qarının adında deyil, həmçinin məmləkəti bürüyən tufanın, kütlənin önündə gedən Ağ atlı oğlanın geyimində də istifadə edilir. Zənnimizcə, qırmızı libaslı oğlanın ağ atın belində gəlişini təsvir edərkən müəllif əsərə nağıl elementləri də daxil etsə də, əsərdə cəmiyyətə və yeni düzənə qarşı Ə. Haqverdiyevin şəxsi görüşləri də yer almış olur. *"Tufanın qabağında bir nəfər oğlan, özü də qırmızı libasda! Ağ atın ayaqları yerə dəyməyir və qabağında heç bir qüvvə davam gətirməyir"*. Nağıl qəhrəmanı kimi ədalətin bərqərar olmasına çalışan Ağ atlı oğlan *xəyali dram*'da dağıdıcı funksiyası ilə əks mövqedən çıxış edir, həmçinin xalqın təsəvvüründə formalaşan obrazın transformasiyası baş verir. Finalda Qırmızı qarının söylədikləri dramın əsas ideyasını açıqlayır*: "Qırmızı tufan bu məmləkəti də aldı. İndi daha mənim burada vəzifəm bitdi..."* (Əbdürrəhim bəy Haqverdiyev 2005: 237). Qarının sözləri həm mətnin daşıdığı ideoloji məna həm də qarı obrazının mifoloji strukturu ilə bütünləşir. Oxşar motivi, yəni zəmanə qarının bütün dünyanı, aləmi idarə etmək gücündən bəhs edən mifoloji mətnlərdə də izləmək olar.

Mifoloji mətndə zəmanə qarının əyirdiyi ip onun dünyanın nizamını, insanların taleyini əllərində saxlamasına işarədir. Nağıllarda rastlaşdığımız "Fatma nənənin cəhrəsi" ifadəsi də arxaik anlamda eyni motivlə üst-üstə düşür.

Y. Lotman yazırdı: *"Simvolda hər zaman arxaiklik mövcuddur. Hər bir mədəniyyət də arxaik funksiyalar yerinə yetirəcək mətn qatlarına ehtiyac duyur"* (1992: 79). Ə. Haqverdiyev də *Qırmızı qarı* dramında məhz bu mövqedən çıxış edərək, arxaik kökləri olan mifoloji-simvolik obrazlara müraciət edərək onun vasitəsi ilətd XX-ci əsrin əvvəllərindən başlayaraq güclənməkdə olan inqilabi əhval ruhiyyənin hazırladığı dəyişimi göstərir. Ə. Haqverdiyev mövcud üsul-idarənin yerlərdəki idarəçiliyini obrazların dili ilə ifşa edirdi. "Xortdanın cəhənnəm məktubları'nda Qocaqurd mahalının bəyi onu baykot edən camaatı *"gedib dönüb rus olması"* ilə qorxudur. Camaatı qorxudan isə *"müsəlmanlıqda bu camaatın haqqında bir neçə zülm eləyib,əgər dönüb rus olsa, gərək cəmi Qocaqurd mahalının əhli evindən-eşiyindən əl çəkib, arvad-uşağın əlindən tutub mahaldan çıxa. Yoxsa burada dolanmaq mümkün olmaz"* (Əbdürrəhim bəy Haqverdiyev 2005: 72).

Deməli, əhalini qorxudan çarizmin müstəmləkələrdəki özbaşnalığı və siyasəti idi. Hekayənin "Cəhənnəm" başlığı altında verilən hissəsindəki "Cicim ocağı" başlığı altında verilən bölümündə *"... neçə müddət bundan əqdəm İki dövlət arasında sərhəd qoymaq lazım gəldi. Bu dövlətlərdən birisi şərqli və o birisi qərbli idi. Hər bir tərəf sərhədə öz vəkillərini göndərmişdilər."*- deyə başladıqları mətn Gülüstan müqaviləsinə işarədir və onun acı nəticələrinə qarşı etiraz kimi səslənir. Əsərin sonunda səslənən *"Rus qoşunu cəhənnəmə dolur. Bundan sonra gərək hamımız cəhənnəmdən baş götürüb qaçaq."* ifadəsi də müəllif mövqeyinin açıq təzahüri idi. İmperator İkinci Nikolayın cəhənnəmə təşrif etməsini eşidən Xortanın Odabaşıya dediiyi – Əmi oğlu, tez olun, buradan məni çıxardın. Bunlar ki buraya sahibləndilər, məni başburtsuz görüb əziyyət edəcəklər.

Xortdanın cəhənnəm məktubları'na sonradan əlavə edilən "Odabaşının hekayəsi", əlbəttə, əsərin ümumi strukturuyla bütünləşmir. Belə ki, əsər boyu Xortdanın cəhənnəmdə gördükləri Tiflis – Şuşa yolunda qarşılaşdığı və ya eşitdiklərinin sonluğudur; burada realist baxışlar və xalq təfəkküründən gəlmə ənənəvi təsəvvürlər bir-birini tamamlayır. Odabaşının nəql elədiyi hekayət isə müəllifin müasiri olduğu dövrün gerçəkliklərəiydi. Bu gerçəklik əsərin finalında da əksini tapır; cəhənnəm əhlini təşvişə salan rus qoşununu görcək o biri dünyadan geri dönən Xortdanın yeni hökumətə münasibəti belə səslənir: "*Biz də öz cəzamıza müntəzir olarıq"* (Əbdürrəhim bəy Haqverdiyev 2005: 125).

Ə. Haqverdiyevin "Mütrüb dəftəri", "Dəccalabad", hekayələrində də çarizmin müstəmləkə siyasəti əksini tapır. rusun qoşununun Ərdəbildə yerləşməsini "insaniyyət", "mürüvvət", "həmiyyət", "ittihad", "namus", "qeyrət", "mədəniyyət" sözlərinin yasaqlanması kimi qəbul etmək Ə. Haqverdiyev və onun kimi düşüncə adamlarını narahat edirdi. Çünki *"Bundan sonra əlbəttə gərək 'millət' sözü ortalığa çıxmasın!"* demək Ə. Haqverdiyevin problemə münasibətini də aydınlaşdırır.

Azərbaycan dramaturgiyasında Şərq ədəbi ənənələrini qoruyub saxlayan, xalq təfəkküründə yaşayan əsatiri görüşləri, mifoloji obrazları yeni tipli ədəbiyyatla ahəngdar şəkildə çulğaşdıran Ə. Haqverdiyev əslində XX-ci əsrdə insan-nəfs qarşıdurmasını ədəbiyyatımıza gətirən ilk müəllif olmuşdur. *Xortdanın cəhənnəm məktubları*'na sonradan əlavə edilən "hekayəsi", əlbəttə, əsərin ümumi strukturuyla bütünləşmir. Belə ki, əsər boyu Xortdanın cəhənnəmdə gördükləri Tiflis-Şuşa yolunda qarşılaşdığı və ya eşitdiklərinin sonluğudur; burada realist baxışlar və xalq təfəkküründən gəlmə ənənəvi təsəvvürlər bir-birini tamamlayır. Odabaşının nəql elədiyi hekayət isə müəllifin müasiri olduğu dövrün gerçəkliklərəiydi. Bu gerçəklik əsərin finalında da əksini tapır; cəhənnəm əhlini təşvişə salan rus qoşununu görcək o biri dünyadan geri dönən Xortdanın yeni hökumətə münasibəti belə səslənir: *"Biz də öz cəzamıza müntəzir olarıq"* (Əbdürrəhim bəy Haqverdiyev 2005: 125).

Qaynaqlar

1. Haqverdiyev, Əbdürrəhim (2005). *Seçilmiş əsərləri*. I cild. Bakı: Lider nəşriyyatı.
2. Haqverdiyev, Əbdürrəhim (2005). *Seçilmiş əsərləri*. II cild. Bakı: Lider nəşriyyatı.
3. Ю. М. Лотман (1992). *Избранные статьи в трех томах. Т-1.Статьи по семиотике и типологии культуры*.Таллин.

XX-Cİ ƏSRDƏ MİLLİ VARLIĞINI QORUYAN XALQININ MİLLİ MÜCADİLƏSİ VƏ MÜASİR ƏDƏBİYYAT

*Turanə Faiqqızı CABBARZADƏ**

Azərbaycan türklərinin XX-ci əsr boyunca üzləşdiyi xəyanətlərin izləri sadəcə tarixin yaddaşında deyil, bu nankorluğu yaşayan xalqımızın yaddaşında da silinməz izlər buraxmışdır. Əsrin əvvəllərində olduğu kimi, XX-ci əsrin səksəninci illərində də pusquda dayanıb "əlverişli məqam" gözləyən erməni vandalları içərilərində illərlə yetişdirdiyi türk-müsəlman düşmənçiliyini yenidən gündəmə gətirdilər. Bu hərəkatın ilk mərhələsi tarixi torpaqlarımızdan xalqımızın deportasiyası ilə başlandı. Bu xəyanət Azərbaycan ədəbiyyatında son illərdə qələmə alınan *Erməni adındakı hərflər...* (Mövlud Süleymanlı) romanında öz bədii əksini tapır. Mövlud Süleymanlının ədəbiyyatımızdakı kimliyi milli duyğuları, şərəfli tariximizə bağlılığı və bu hislərlə qələmə aldığı əsərlərdə paralizə olunmuş yaddaşları oyatması ilə xarakterizə oluna bilər. Müəllifin *Köç*, *Ceviz qurdu*, *Dəyirman* əsərlərində hələ üstüörtülü şəkildə verdiyi fikirlər *Erməni adındakı hərflər...* romanında daha aydın, səbəb və nəticə olaraq tamlıqda verilir. Romanda ata-baba torpaqlarından uzaqlaşdırılan soydaşlarımızın faciəsi ilə yanaşı xalqımızın adət-ənənəsi, minillik tarixi öz əksini tapır.

İlk öncə əsərin adına diqqət edək: *Erməni adındakı hərflər…* Müəllif əsərin adını kimya müəllimi Siranuşun yerli xalqa qarşı çağırış kimi səslənən *"Erməni adındakı hərflərin min qat sayı qədərində hamı ölüb dirilməlidir ki, Ermənistan yaşasın…"* (1, 46) sözlərindən alır. Bu düşüncənin ərsəyə gətirdiyi düşmənçiliyin ilk nümunəsi yetmişinci illərin ortalarına kimi türk kəndlərindən dəri yığan Apedin timsalında - onun arabasının təkərlərindəki "SKİZBUNK (başlanğıc)" və ağacdan asdığı "erməni tarixi"ndə əksini tapır: *"papaq alanlar, dəri gətirənlər əvvəlcə gərək bu yazılara baxaydı, Apedin suallarına cavab verəydi, yalnız ondan sonar alver etmək mümkündü…*

* AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Kiçik elmi işçi; turana.cabbarova@mail.ru

Apedin alveri elə budu, təki erməni tarixini öyrənən olsun". Müəllif tarixi torpaqlarımıza, milli kimliyimizə qarşı yönələn bu düşmənliyin ən alt qatlarda necə hazırlanmasını papaqçı Apedin misalında açıq-aydın diqqətimizə çatdırır. Kimya müəllimi Siranuşun türk düşməni kimi yetişdirdiyi gənclərin 80-ci illərin sonunda bu torpaqlarda apardığı təmizləmə siyasəti sadəcə özünüqoruma deyildi, həm də vətən yaratmaq istəyindən doğmuşdu.Romanda müəllif vətən anlayışını belə izah edir: *"Vətən də quş yuvası kimi dimdikdə daşınır, duyğularla qurulur, ya da vətən də ata-anası varmış kimi doğulur, böyüyür, oğluuşağıtək daşına, qayasına, dağına, dərəsinə, suyuna, dənizinə ad verilir. Ona görə də vətənin öz dili olur"* (1, 85). Mövlud Süleymanlı yaradıcılığını mif və ədəbiyyat kontekstində öyrənən P. Bəkirqızının qənaətinə görə *"Yazıçının vətən anlayışı ilə dərin yığan Apedin 'harda çörək var, ora vətəndi' atalar məsəli arasındakı fərq əslində milli kimliyi ortaya çıxaran önəmli faktorlardan biridi, 'İpə sarılmış tarix...'in kökləri, Apedin ağacdan asılan tarix səifələri yeni tarix yaratmaqdan başqa bir şey deyildi"* (3, 23). Bu saxta tarixi yaratmaq yolunda Ulubabyan kimi, Acaryan kimi elmli adamların türk milli kimliyinə qarşı dərindən-dərindən işlədiyi düşmənçilik dərsləri öz bəhrəsini verdi. İlk öncə İmirxanlının qardaşı qətlə yetirildi. Müəllif həm qətlə yetirənləri, həm də bu qırğınlara göz yumanların adını çəkir. Bunu kiçik bir pritçanın misalında verən yazıçı konkret olaraq söz açdığı düşmənçilikdə barmağı olan şeytanın istiqamətini göstərməkdən də çəkinmir.

Mövlud Süleymanlı əsərin strukturunda müasir ədəbiyyatşünaslıqda tez-tez gündəmə gələn intertekstuallıqdan da istifadə edir. Müəllif həm özünün səksəninci illərdə qələmə aldığı hekayələrindən, əsərlərindən gizli və açıq şəkildə yeni mətnə daxil edir. Bu improvizələr romanda artıqlıq yaratmır, əksinə ümumi məzmun ilə vəhdət təşkil edir. Bir yazıçı kimi Mövlud Süleymanlı yeni yazı texnikasına dəb xatirinə müraciət etmir, onun əsas, baş mətni türklüyün dünəni, bu günü və gələcəyinə istiqamətlənir. Əsərlərinin mövzu və süjetində türk dastançılıq ənənəsindən gələn motivlərdən bəhrələnən müəllif bu dəstixətti son illərdəki yaradıcılığında da davam etdirir. *Erməni adındakı hərflər...* romanında M. Süleymanlı övladı olduğu torpaqlardan deportasiya edilən soydaşlarımızın qarşılaşdığı xəyanəti türk toplumuna qarşı irimiqyaslı hərakatın nəticəsi kimi təqdim edir. Lakin əsərin əvvəlində proloq əvəzi kimi verilən "Sonun başlanğıcında" sadalananı coğrafiyanın bir gün yenə türkmüsəlman torpaqları kimi tanınacağı duyğusu adresata mətnə yeni baxış fikrini də aşılayır. Əsərdə Azərbaycan tarixi ilə bağlı tədqiqatlar aparan tarixçi-alim İqrar Əliyevin də adı çəkilir: *"Balacahunlunun qoca boynunu yerə soxum, İqrar Əliyevin qorxusundan bildiyini də demədi"* (1, 91).

Bədii mətində tez-tez adı çəkilən akademik Acaryan zənnimizcə, erməni dilçisi, etimoloqu akademik R. Acaryanın proobrazıdır. R. Acaryanın 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultaydakı cıxışı haqqında dilçi Tofiq Hacıyev yazırdı: *"Acaryan özü türkcə o qədər təmiz bilmiş ki, məsələn,*

başqa türk respublikalarından gələn nümayəndələrin çoxu rus dilində çıxış etdikləri halda, o qurultaya məruzəsini mükəmməl Türkiyə türkcəsində elədi" (2, 124).

Mövlud Süleymanlı akademik Acaryanın türk dilinə və türklüyə münasibətinini erməni Ulubabyanın dili ilə verir: *"bizi saxlayan türklər oldu, deyərdi, əlimiz rusların əlinə çatanacan türklər qorudu bizi",* bütün bu kəndləri qarış-qarış gəzdi, həmişə də *"bizim burada izimiz yoxdu, biz burda yoxuq"*, dedi... *"... biz Qafqazda olmamışıq, olacağıq amma"* (1, 42). Yazıçı tarixi hadisələrə, bu günə dünəndən boylanır. Baş verən hadisələri unutqanlığımızla əlaqələndirir və *"Tarixdən vaxtında danışmaq lazımdı."* (1, 48) deyərək, ziyalılarımızı və alimlərimizi ittiham edir. Qınından çıxmayan qılıncla, qundağını yerə vurmadan açılmayan tüfəng arasında heç bir fərq görünmür. XX-ci əsrin 80-ci illərində İrəvan xanlığının torpaqlarında sonradan məskunlaşan ermənilərin törətdikləri vandallıqlar və soyqırım siyasəti illərlə hazırlanan Böyük Ermənistan xülyasının tərkib hissəsi idi. Bu ideyalarla yaşayan toplumun qədim və köklü bir mədəniyyətin üzərinə gəlməsi mövcud ictimai-siyasi vəziyyətlə də bağlı idi. XX-ci əsrin əvvəlləri Osmanlı Türkiyəsində hakimiyyətə və dövlətə qarşı xəyanət edən ermənilər əsrin sonlarında zəifləyən və dağılmaqda olan Sovet ittifaqının müsəlman-türklərinə qarşı torpaq iddiası ilə çıxış etdi. Rus dövlətçilik ənənəsinin davam etdiriyi siyasəi üzrə yerli xalqın silahlarının yığılması münaqişəni düşmənlərimizin xeyrinə həll etdi. M. Süleymanlı Aşıq Ayvazın sazı yerdən tüfəng kimi götürüb düşmən üstünə getməsini təsvir edərkən "Koroğlu" havalarından çalmasını xalqın hələ ölməyən döyüş ruhuna işarə edir. Qaraca müəllimin *"Öləndə də sazı bayraq kimi tutmalısan!"* sözləri aşıq Ayvazın ruh halını da "Koroğlu" havalarına kökləyir. Romanda müəllifin *"... bayraq ona görə lazımdı ki, altına girəsən, havasına yığışasan, ...bayrağımız yoxdu, onun yerinə sazımız var!"* (1, 55) fikrinin fərqli kursivlə verilməsi belə müəllif ideyasına xidmət edir. Əsər boyu əsas ideyanın Qaraca müəllimin, İmirxanlının, Aşıq Ayvazın, Qarakəlləoğlunun və s. dilindən verilməsi xalqın dövlətlə deyil, milli kimliyi ilə bütünləşməsinə işarədir. XX-ci əsrin dəyişən ictimaisiyasi durumları Qafqazda türk etnosuna qarşı ilk deportasiyaları sərhəd məntəqələrdən onların köçürülməsi ilə başlasa da, əsrin sonlarına doğru daha sərt formada ortaya çıxdı. Bunun səbəbini müəllif belə izah edir: *"Düşünmək əziyyətdi deyə düşünməyənlər çoxdu, bu da bir cür köləlikdi, yəni əgər özünçündə olsa düşünmək istəmirsənsə hara dartırlar ora getməlisən. Güclə getməksə yüyənin kimlərinsə əlində olmağıdı. Köləliyin əvvəli zəbt olunmaqdan başlayır"* (1, 130). Romanda hadisə zamanı və məkanı tez-tez dəyişir. Bəzən ardıcıl, bəzən də retrospeksiyanın üstünlük təşkil zaman dünənlə bu günü qarşılaşdırır. İdeoloji savaşda itirdiklərimiz, içərisində qızıl var deyə sındırılan qoç heykəllər, unutdurulan milli kimlik o torpaqlarda türkün zamanını dayandırdı, məkanını isə daraldıb yox etdi.

Akademik Balacahunlunun *"... mənim yazdığım tarix də özümə bənzəyir, özümüz necəyiksə bu xalqın tarixini də o cür yazdıq"* (1, 133) fikri müəllifin yaşadığı cəmiyyətə və xalqın öndə gedənlərinə qarşı yönəlir. *Erməni adındakı hərflər...* romanında Qərbi Azərbaycandan, İrəvan xanlığının ata-baba torpaqlarından deportasiya edilən insanların sadəcə faciəsini əks etdirmir, bu insanların yaşadıqları təbiətlə bütünləşməsini, adət-ənənəyə bağlılığını, bu coğrafiyanın etnoqrafik özəlliklərini də real boyalarla verir. Milli kimliyi, mədəniyyəti və ənənəyə bağlılığı ilə seçilən xalqımızın gələcəyə gedən yolunun azadlıq sədaları altında verilməsi Amasiya, Sirak ovalığı, Çubuqlu yaylası, Dərələyəz, Vedibasar kimi tarixi torpaqlarımızı yaddan çıxmağa qoymur.

Qaynaqlar

1. Mövlud Süleymanlı. *And olsun əsrə...* Bakı: Elm və təhsil. 2012 526 s.
2. Hacıyev Tofiq. *Türklər üçün ortaq ünsiyyət dili*. Bakı: Təhsil. 2013. 248 s.
3. Pərvanə Bəkirqızı. *"Milli kimliyimizə və dövlətçiliyimizə yönələn erməni təcavüzünün bədii mətndə folklor motivləri ilə ifadəsi (Mövlud Süleymanlının **Erməni adındakı hərflər** romanı, "Teymurlar" povesti əsasında)". "Folklor və dövlətçilik" mövzusunda III Respublika Elmi Konfransının materialları*. Bakı: Elm və təhsil. 2019. ss. 21-29.

TÜRKİYƏNİN AZADLIQ MÜBARİZƏSİ CƏFƏR CABBARLI YARADICILIĞINDA

*Nərmin CAHANGİROVA**

Giriş

XX-ci əsr Azərbaycan ədəbiyyatının, mədəniyyətinin unudulmaz simalarından olan Cəfər Cabbarlının zəngin yaradıcılığının, çoxsahəli fəaliyyətinin bu gün də araşdırılmasına, tədqiq edilməsinə geniş ehtiyac duyulur. Bu il anadan olmasının 120 illiyi tamam olan Cəfər Cabbarlının yubileyi bir çox elm ocaqlarında, universitetlərdə, yazıçılar ittifaqında qeyd olunur, böyük sənətkar Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, yazıçı və dramaturq kimi dəyərləndirilir, onun yaradıcılığının ideya-estetik əsasları və müasirliyi haqqında qiymətli mülahizələr mətbuatda əksini tapır.

Yaradıcılığa *Qurtuluş* məcmuəsindəki müsabiqə üçün göndərdiyi "Qürub çağı bir yetim" şeiri ilə başlayan Cəfər Cabbarlı ədəbi yaradıcılığını müxtəlif sahələrdə inkişaf etdirmiş, hekayələr yazmış, lakin ən böyük uğurlarını dram əsərləri ilə qazanmışdır. Teatra böyük önəm verən, mədəniyyətin inkişafında teatrın əlahiddə rolu olduğunu düşünən gənc Cəfər Cabbarlı sonradan bu janrın ən gözəl nümunələrini yaratmağa müvəffəq olmuşdur. Ədibin həyat və fəaliyyətinin tədqiqatçısı A. Rüstəmli onun cumhuriyyətdən əvvəl yazdığı cib dəftərçəsində teatr haqqındakı qeydlərini oxuculara təqdim etmiş və bu qeydlərdən ədibin dramaturgiyaya, teatra marağının təsadüfi olmadığı aşkar edilmişdir. Onun ürəyi demək olar ki, daim teatrla döyünmüşdür. İctimai yüksəliş üçün teatrın vacibliyini vurğulayan ədib yazırdı: *"Teatro, ölkənin bulunduğu mədəni yüksəkliyi, mədəniyyət dərəcəsini göstəriyor. Teatro yüksək bədii bir dərəcədədirsə ölkə də ümumən gözəl inkişaf etmişdir. Mədəniyyət elm və sənətdən ibarətdir. Teatro isə sənətin başqa qismlərini birləşdiriyor"* (Rüstəmli 2018, Cabbarlı *Cib dəftərçəsi*).

Müxtəlif gərgin siyasi hadisələr fonunda yaşayan və ədəbi fəaliyyətini durmadan davam etdirən Cəfər Cabbarlının yaradıcılığında tarixi-siyasi

* AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Filologiya üzrə fəlsəfə doktoru; nermincahangirova83@gmail.com

hadisələr bədii təxəyyülün gücü ilə əks olunmuşdur. Çar Rusiyasının, Azərbaycan Xalq Cümhuriyətinin və Sovet İttifaqının ədəbi həyata olan təsirini birbaşa hiss edən Cəfər Cabbarlı həyat həqiqətlərini insanlara daha geniş ampulada çatdırmaq, yeni, müasir düşüncələrini asanlıqla ötürülməsinə nail olmaq üçün teatrın ən yaxşı vasitə olduğunu dərk edir, mənzumələr, hekayələrlə yanaşı ilk pyeslərini yazır.

Romantik dünyagörüşü ilə qələmə aldığı *Vəfalı Səriyyə*, ədibin bu sahədəki ilk qələm təcrübəsi olur və *Solğun çiçəklər* pyesi 1916-cı ildə İsmailiyyə binasında səhnəyə qoyulur. Daha çox sosial problemlərin qabardıldığı bu əsərlərdən sonra müəllif tarixi dram janrına maraq göstərmiş və dövrün ictimai-siyasi hadisələrinin əks olunduğu *Nəsrəddin şah* pyesini yazmaqla tarixi dram janrına keçid etmişdir. Bundan sonra C. Cabbarlının o dövr üçün böyük əks-sədaya səbəb olan *Ulduz və ya Trablis müharibəsi* (1917) və *Ədirnə fəthi* (1917) pyesləri ərsəyə gəlmişdir. Azərbaycan Xalq Cumhuriyyəti qurulduqdan sonra istiqlal mübarizəsinə həsr olunmuş əsərlərə, azadlıq mübarizəsinin tərənnümünə xüsusi yer verilir ki, C. Cabbarlının pyesləri də bu cəhətdən maraqla qarşılanır. *Ulduz və ya Trablis müharibəsi* və *Ədirnə fəthi*, eləcə də C. Cabbalının bu gün əlimizdə olmayan *Bakı müharibəsi* pyesləri opera va balet teatrında oynanılan tamaşalar sırasında yer alır, Türk düşüncəsinə yer verdiyi üçün bu əsərlər xüsusi rəğbətlə qarşılanır. Tarixi hadisələrə, baş verənlərə biganə qalmayan Cəfər cabbarlı Türkiyənin yaşadığı siyasi gərginlikləri, müharibələri, qəhrəman türk əsgərlərinin vətən mücadiləsini, sevgini və xəyanətini dram müstəvisinə gətirmiş və bu müxtəlif xətləri birləşdirməyə müvəffəq olmuşdur.

Azadlıq müharibəsi dram əsərlərində

Osmanlı-İtaliya müharibəsindən bəhs edilən *Ulduz* pyesində C. Cabbarlının düşüncəsində olan dəyişiklik; millətçilik, türkçülük, islamçılıq dünyagörüşünün ilk əsərlərində özünü göstərən romantik təfəkkürü üstələməsi aydın görünür. Əsərin iki əsas xətti var, müəllif Trablis uğrunda gedən mübarizəni məhəbbət macərası ilə daha da rəngləndirmiş və iki gənc arasındakı məhəbbəti vətən məhəbbəti ilə həmahəng verməyə nail olmuşdur. Beləliklə də gənc dramaturq tarixi xronikadan qaçıb, əlavə süjetlətlə pyesi zənginləşdirməklə əsərin bədii dəyərini yüksəltmişdir. Ramiz, Ulduz, Şəmsə obrazları ilə dostluq, yoldaşlıq, ailə dəyərləri, sədaqət, nəciblik kimi ali hisslərin gücü və tarixi mübarizədə onların əhəmiyyəti vurğulanmışdır.

*"**Ulduz və ya Trablis müharibəsi** və **Ədirnə fəthi** C. Cabbarlının türkçülük ideyalarının yüksək bədii səviyyədə estetik təcəssümü olmaqla bərabər, sənətkarın islam xalqlarının birliyinin onların taleyində həlledici faktorlardan olduğunu sübut edən əsərdir"* (https://525.az 03.04.19). Tarixi hadisələr fonunda Cəfər Cabbarlı türk millətçiliyini və islami dəyərləri təbliğ edərək

zülmə, ədalətsizliyə, xainliyə laqeyd qalmayacağını, sonadək mübarizə aparacağını vurğulamışdır. Diqqət edərsək, bu fikirlər əslində bu pyeslərdən az sonra qurulacaq olan AXC-nin prinsiplərinin ikisini özlüyündə əks etdirir. Və bunlar millət, azadlıq, hürr olmaq duyğularını bəsləyən bir gəncin haqq bağıran səsi idi.

Pyes sanki ziddiyyətlər üzərində qurulmuş, müəllif müxtəlif xarakterli obrazları qarşılaşdırmaqla sanki zidd cəbhələri xarakterizə edirdi. Ramiz, Ulduz, Ənvər hər nə qədər sevgi, igid, qorxmazlıq rəzmzi kimi verilirdisə Haris, Xalid xəyanətkar, işğalçı, qorxaq sifətləri ilə təqdim olunur, müəllif sanki obrazlarının simasında qoruyan, azadlıq mübarizəsi aparan Şərqlə işğalçı Qərbi zidd qütblərdə qarşılaşdırılır. Bu mübarizədə haqqın tərəfində olanlar, eşqinə, sevgisinə sadiq qalanlar qələbə çalır, müvəffəqiyyət qazanır. *Ulduz*'da hadislər sevgi macərası, Ulduz və Ramizin hekayəsi ilə başlasa da müəllif əsas diqqətini müharibəyə yönəldir. Əsər yazıldığı dövrün real mənzərəsini yaratmaq, vətən sevgisini, mübrizəyə çağırış ruhunu aşılaması baxımından bu gün də dəyərlidir. Ulduzun "xəyanəti" Ramizin Trablisə italyanlarının hücum xəbərini alması və ölümə getməsi üçün bir fürsət yaradır.

> *"R a m i z. Tapdım, Xalid! Yoldaşları oyat, yanıma çağır, sözüm var. (Xalid gedir.) Gözəl təsadüf, ölüm arayırdım, iştə ölüm! Üzərimdə olan çirkin quldur adını silmək, igid bir əsgər kimi düşmənlərlə çarpışıb vətənim üçün ölmək! Pak əsgərə yaxşı bir ölüm arayırdım. Budur istədiyim ölüm. Könüllü gedəcəyəm!"* (Cabbarlı 2005: 132).

Pyesdə maraq doğuran obrazlardan biri də Harisdir. Ərəb kimi təqdim edilən bu xəyanətkar pul, var dövlət və hakimiyyət üçün torpağını, dostluğunu satmaqdan çəkinmir. Lakin C. Cabbarlının digər ərəbləri xeyirxah, sədaqətli təsvir etməsi, hadisələrin açılmasında əlahiddə rollarını da qeyd etməsi millət anlayışına birmənalı yanaşmanın düzgün olmadığının sübutudur. Pyesdə müsəlman xalqlarının birliyi ideyası zamanın diktə etdiyi zərurət kimi təqdim edilir. Osmanlı-İtaliya savaşı həm Şərq-Qərb həm islam-xristian savaşı kimi də dəyərləndirlə bilər.

C. Cabbarlı tarixin xronikasını verməmişdirsə də, hadisələrin təsvirində tarixi həqiqətə sadiq qalmışdı. Trablis uğrunda mübarizədə türklərin əvvəlcə məğlubiyyətlərə düçar olması, geri çəkilmək məcburiyyətində qalması əsərdə müharibədə cərəyan edən hadisələrin reallığa uyğun təsvirindən xəbər verir. İtalyanlarla müharibədə türklərin qarşılaşdığı çətinliklərdən qurtarmasında türk əsgərinin müxtəlif ərəb ölkələrindən gəlmiş könüllülərlə birliyinin, məhz bu birlik hesabına qələbənin təmin edilməsi də tarixin həqiqətlərinə tam uyğundur. C. Cabbarlı başlanğıcdan qoyduğu problemin həllini hərb meydançalarının təsviri ilə paralel aparır, bu xətlərin hər ikisi finalda xeyirin qələbəsi ilə nəticələnir.

Ulduz'un sanki davamı olaraq qələmə alınan və yazıldığı müddətdən tamaşalardan düşməyən *Ədirnə fəthi* pyesi C. Cabbarlının fəaliyyətində türkçülük ideyalarının daha da gücləndiyinin sübutudur. Bu illərdə ədibin türk ordusunun igidliyi və şücaətini vəsf edən *Bakı müharibəsi'*də yazılmış və dəfələrlə tamaşaya qoyulmuşdu. Xüsusən, Nuru paşanın obrazının yaradıldığı bu əsər Bakının erməni daşnaklarının hücumundan qurtulmasına və Nuru paşanın qəhrəmanlığına həsr olunur.

Gənc ədibin "6 pərdəli facieyi-inqilabi" adlandırıdığı *Ədirnə fəthi* pyesi sanki Trablis müharibəsinin davamıdır. Türk xalqının azadlıq mübarizəsinin başqa bir şanlı səhifəsi 1912-1913-cü illərdə Ədirnənin bolqarlar tərəfindən 7 ay mühasirədə qalmasından sonrakı həlledici döyüşdən bəhs edilən pyesdə millət və din anlayışları mübarizənin əsas hərəkətverici qüvvəsi kimi təqdim edilir. *Ulduz*'da hadisələr İstanbul və Trablis, burada isə İstanbul və Ədirnə arasında baş verir, hər iki əsərin əsas ideyası türk əgərinin igidlik və şücaətini vəsf etmək, vətən sevgisisnin hər bir hissdən, eşqdən, nifrətdən, intiqamdan yüksək olduğunu vurğulamağa çalışmışdır. *Ulduz*'da olduğu kimi burada da ziddiyyətlər çoxdur, sevgi-nifrət, dostluq-xəyanət, düzlük-riyakarlı iç-içə işlənərək insan qəlbinin nələrə qadir olduğunu, şəxsi hisslərin necə böyük bəlalara səbəb ola biləcəyini göstərməsi baxımından şox uğurlu alınmışdır. *"Tutkuların və kişisel menfaatlerin insanı kendi milletinə düşman yapabiləceğini, şeytani entrikalara sürüklüyebileceğini göstermesi bakımından eser, Cabbarlının önceki eserlerinden daha şümüllü və daha derli-toplu görüntü verir."* (Uygur 2002: 142) *Ədirnə fəthi*'ndə müəllif daha da irəli gedərək şəxsi inrtriqaların vətənə xidmət qarşısında arxa plana keçdiyini, vətən sevgisinindən yüksək heç nə olmayacağını çox dəqiq ifadə etmişdir.

> *"X a l i d. Mən səni öldürməyə gəldim. Lakin sənin vətənə olan məhəbbətin və ərliyin, məni fikrimdən büsbütün daşındırdı. Artıq, mən də ər olmaq istəyirəm, mən də sizə qoşulub vətən yolunda ölümə getmək istəyirəm.*
>
> *R ü f ə t. Pəki, madam ki, sən günahını etiraf edib, onu silmək üçün vətən yolunda ölümə gedliyorsan, get... Minlərlə xüsusiyyət vətənimdə yaşayan türk ümumiyyətinə fəda... Mən vətən üçün ölmək istəyən bir türkü azaltmaq istəməm və artıq sənə dolaşmam.*
>
> *X a l i d. Mən qabaq sənlə yoldaş idim, şimdi oldum qardaş. Bilirəm, sən vətən yolunda mütləq ölümə gedirsən və heç bir şeydən qorxmayırsan. Yüzdə 99 diriliyin təhlükədədir"* (Cabbarlı 2005: 180).

Əsərdə diqqət çəkən məqamlardan biri də zidd qütblərdə verilən dini obrzaların xalqın düşüncələrinə olan təsiridir. Satqın, riyakar Moll Sübhan kimi fanatiklərdənsə xalqı inqilaba, mübarizəyə səsləyən Molla Hacıbaba kimi insanların köməyilə mübarizənin daha ardıcıl və qətiyyətli ola biləcəyi,

insanların mübarizə əzminin yüksələcəyi aydın görünür. *Ədirnə fəthi*'ndə ölkənin siyasi vəziyyəti, cəbhədə və xalq içində baş verənlər Ənvər, Rüfət, Xalid, Şeyxülislam arasındakı diqaloqlarda açılır. Müəllif dram əsəri olduğundan dolayısı olsa gərək hərb meydanlarının təsvirindənsə, hadisələrin mahiyyətinə varmağa və çıxı nöqtəsi aranmasına maraq göstərir.

Yazıçının bu gün əlimizdə olmayan, ədibin həbsi zamanı məhv olunan əlyazmaları içində olan *Bakı müharibəsi* dramında 1918-ci ilin martında Bakıda baş verən qanlı hadisələr, erməni daşnaklarının azərbaycanlılara qarşı etdiyi zülmlər təsvir olunub. Əsərdə Nuru Paşanın başçılığı ilə xilaskar türk ordusunun şəhəri erməni vəhşilərindən xilas etməsindən bəhs olunur. Pyesdə faciənin səbəbləri, məqsədi müəyyənləşdirilmiş, erməni vəhşiliyi, erməni qəddarlığı reallığa dayalı, inndırıcı, tünd boyalarla əks etdirilmişdir. Əsər 1919-cu il sentyabrın 16-da, Bakının qurtuluşunun ildönümündən bir gün sonra Azərbaycan Dövlət Teatrında tamaşaya qoyulub. *"**Bakı müharibəsi** onun müəllifinin şəxsiyyət bütövlüyündən, sözündə və işində dəqiqliyindən, operativliyindən, mərdanəliyindən və alicənablığından soraq verən, vaxtında qələmə alınmış dəyərli səhnə əsəridir. **Bakı müharibəsi**, Azərbaycanın XX-ci əsrin əvvəllərində ən ağır, ziddiyyətli dövrünü bədii çalarda və dramatik tonda özndə əks etdirən tarixidir."* (Rüstəmli 2018: 55).

Nəticə

Gördüyümüz kimi Cəfər Cabbarlı yaradıcılığının ilk illərində türklüyün rəşadətini, hər nə olursa olsun vətən uğrunda qandan, candan keçmənin mükün olduğunu ən yaxşı şəkildə göstərmişdir. Əsərlər tənqidlərə məruz qalıb, müəllifinə çoxsaylı təzyiqlərə gətirsə də da heç bir hiss C. Cabbarlının qəlbindəki mücadilə ruhunu söndürə bilməmişdir.

Qaynaqlar

1. Cabbarlı, Cəfər (2005). *Əsərləri*. Dörd cilddə. II cild. Bakı: Şərq-Qərb Yayınları.
2. Rüstəmli, Asif (2018). *Cəfər Cabbarlı və milli istiqlal hərəkatı*. Bakı: Gənclik Yayınları.
3. Salamoğlu, Təyyar (2019). *Cəfər Cabbarlı dramaturgiyası.* https://525.az/site/?name=xeber& news_id=117680#gsc.tab=0
4. Uygur, Erdoğan (2002). *Cafer Cabbarlının Hayatı ve Eserleri Üzerine Bir Araştırma*. Doktora Tezi. Ankara: Ankara Üniversitesi.

İKİ TÜRK VATANI, İKİ TÜRK YAZARI, İKİ TÜRK ROMANI, TEK İDEAL: "HÜRRİYET"

*Rıdvan CANIM**

Türk tarihinin en önemli kırılma noktalarından biri olan "Millî Mücadele" veya "Kurtuluş Savaşı" yılları, hâliyle Türk edebiyatına yansımış ve birbirinden kıymetli eserlerin ortaya çıkmasına sebep olmuştur. Dolayısıyla Türk edebiyatında yirminin üzerinde romancı Millî Mücadeleyi, diğer adıyla Kurtuluş Savaşı'nı anlatan eser kaleme almıştır. Tarık Buğra'nın *Küçük Ağa* adlı romanına geçmeden önce bu eserleri ve yazarlarını isim olarak da olsa hatırlamakta fayda görüyorum. Bu süreçte ortaya çıkan romancıların başında elbette o dönemi bilfiil yaşayan bir isim gelir: Halide Edib Adıvar. Onun *Ateşten Gömlek* ve *Vurun Kahpeye* adını taşıyan romanları ile başlayan bu yazın sürecinde bilhassa Yakup Kadri'nin *Sodom ve Gomor*e, *Ankara* ve *Yaban* romanları; Nazım Hikmet'in *Kuva-yı Milliye*; Hasan İzzettin Dinamo'nun *Kutsal İsyan/Millî Kurtuluş Savaşı'nın Gerçek Hikâyesi, Anadolu'da Bir Yunan Askeri*; Mehmet Rauf'un *Halas* (Kurtuluş), Peyami Safa'nın *Biz İnsanlar, Sözde Kızlar, Bir Akşamdı* adlı romanları, İlhan Tarus'un *Var Olmak, Hükûmet Meydanı, Vatan Tutkusu* adlı romanları; Mithat Cemal Kuntay'ın *Üç İstanbul*; Kemal Tahir'in *Yorgun Savaşçı* ve *Esir Şehrin İnsanları* ve *Esir Şehrin Mahpusu* adlı romanları; Talip Apaydın'ın *Toz Duman İçinde*, *Vatan Dediler* ve *Köylüler* adını taşıyan romanları; Samim Kocagöz'ün *Doludizgin* ve *Kalpaklılar* adını taşıyan romanları; İlhan Selçuk'un *Yüzbaşı Selahaddin'in Romanı*; Bekir Büyükarkın'ın *Bozkır'da Sabah*; Turgut Özakman'ın *Şu Çılgın Türkler* ve *19 Mayıs 1919* adlı romanları; Attila İlhan'ın *O Sarışın Kurt, Kurtlar Sofrası, Dersaadette Sabah Ezanları, Allah'ın Süngüleri ve Sırtlan Payı* adlı romanları; A. Hamdi Tanpınar'ın *Sahnenin Dışındakiler;* Reşat Nuri Güntekin'in *Yeşil Gece* ve *Eski Hastalık* adlı romanları, Münevver Ayaşlı'nın *Pertev Bey'in Üç Kızı*, Ayla Kutlu'nun *Bir Göçmen Kuştu O* ve *Emir Bey'in Kızları* adlı romanları; Ercüment Ekrem Talu'nun *Kan ve İman*; Ayşe Kulin'in *Veda*,

* Prof. Dr., Trakya Üniversitesi Edebiyat Fakültesi Türk Dili ve Edebiyatı Bölümü, Edirne; ridvancanim@trakya.edu.tr

Celal Hafifbilek'in *Ankara 1920*; Yılmaz Karakoyunlu'nun *Üç Aliler Divanı* ve *Çiçekli Mumlar Sokağı* adlı romanları, Ferzan Gürel'in *İzmir'in İşgalinden Kurtuluşa*, Hıfzı Topuz'un *Çamlıca'nın Üç Gülü*, Mustafa Yıldırım'ın *Ulus Dağına Düşen Ateş*, Mehmet Coral'ın *İzmir: 13 Eylül 1922*; Esat Mahmut Karakurt'un *Allahaısmarladık*; Burhan Cahit Morkaya'nın *Nişanlılar*; Mükerrem Kamil Su'nun *Dinmez Ağrı*; Şükûfe Nihal'in *Yalnız Dönüyorum*; Kamil Yazgıç'ın *Türk Yıldızı Emine*; Abidin Daver'in *Mülazimin Romanı* (Sevinç 2009: 2040) ve Tarık Buğra'nın *Küçük Ağa* romanı "Millî Mücadele" temasını ele alıp işleyen eserler olarak dikkati çeker. Şunu özellikle belirtelim ki "roman" olmasa da Ömer Seyfettin'in "hikâye" formunda kaleme aldığı eserlerinde "Millî Mücadele" hareketinin güçlü bir anlatımla ve ısrarla ele alındığı, çeşitli olaylar bağlamında hadisenin yazar tarafından diri tutulmaya çalışıldığı, bir millî bilinç oluşturma çabası içerisinde olunduğu unutulmamalıdır.

Kırgız yazarı Cengiz Aytmatov'un *Gün Uzar Yüzyıl Olur* ve Tarık Buğra'nın *Küçük Ağa* romanları, ülkemizde özellikle son yıllarda adından sıkça söz edilen iki eser olarak dikkat çekmektedir. Özellikle ve öncelikle edebiyat çevrelerinde gündeme gelen ve tartışılan bu romanların değişik açılardan mukayese edilebileceğini düşündük... Bugün yaşadıkları topraklar ayrı da olsa bu iki çağdaş Türk yazarının tarihî bir takım hadiseleri günümüze taşıma, yorumlama biçimleri, olaylara ve insanlara bakış tarzları, örf, âdet ve gelenek gibi ortak yönlerinin bulunması, daha da önemlisi her iki romanda da olayların -doğrudan veya dolaylı olarak- "hürriyet" fikri çevresinde işlenmiş olması, bizi böyle bir karşılaştırmaya sevk etmiştir. Şunu da hemen belirtelim ki iki eserde üzerinde durduğumuz ve mukayese etmeye çalıştığımız bu benzerlik ve benzemezlik unsurları, herhangi bir etkileşim sonucu ortaya çıkmış değildir. Benzerlikler belki de yazarların konuları seçiş, ele alış ve işleyiş tarzlarından kaynaklanmış olabilir. Amacımız mümkün olduğu ölçüde sıradan benzerlikleri dikkate almamak, her iki esere de ortak bir bakış açısı ile bakabilmektir.

Gün Uzar Yüzyıl Olur romanında eski bir savaşçı ve aynı zamanda çalışkan bir demiryolu işçisi olan Boranlı Yedigey Jangeldi'nin tabii çevresiyle birlikte yaşantısı anlatılır. Yedigey, 1917 Bolşevik İhlitâli'nden sonra meydana gelen sosyal karışıklıklar nedeniyle Sarı Özek Bozkırı'na gelmiş ve burada tanıştığı Kazangap'ın ısrarıyla da Sarı Özek Bozkırı'na yerleşmiştir. Çerçeve olay olarak isimlendirebileceğimiz ana hadise ise kısaca, Boranlı Durağı (köyü) demiryolu işçilerinden Kazangap'ın ölümü ve Cenazesinin Yedigey ile yakınları tarafından defnedilmesi işidir. Zaman zaman geriye dönüşlerle anlatılan bütün diğer olaylar zinciri, bu bir günlük defn işi içerisinde yer alır. Romana böyle bir ismin verilmiş olması da herhâlde bundan olsa gerek.

Gün Uzar Yüzyıl Olur romanında mekân olarak seçilen Sarı Özek Bozkırı (Malakumdıçap Bölgesi) hemen hiç değişmeyen klişe bir yapıyla ve

genellikle olaylar zincirini teşkil eden halkalar arasında sık sık karşımıza çıkar. Çerçeve olayın mekân birliğini sağlamak açısından tekrarlandığı kanaatinde olduğumuz bu yapı, roman boyunca: *"Bu yerlerde trenler doğudan batıya, batıdan doğuya gider gelirlerdi, bu yerlerde demiryolunun iki yanında Sarı Özek Bozkırı, Sarı kumlu geniş bozkırların bomboş orta bölgesi uzanıyordu. Bu yerlerde meridyenlerin Greenwhich'ten başlayarak sayılması gibi, bütün uzaklıklar demiryoluna göre hesaplanırdı. Trenler ise doğudan batıya, batıdan doğuya gider gelirlerdi…"* şeklinde âdeta bir nakarat hâlini alır. Çerçeve olayın genel mekânı olarak isimlendirdiğimiz Sarı Özek Bozkırı'nda birtakım küçük birim mekânlar da vardır ki bunlar da olay zincirinin her bir halkasının mekânı olarak ortaya çıkar.

Küçük Ağa romanı, Millî Mücadele yıllarındaki Akşehir'in ayrıntılı bir tasviri ile başlar. Bunu hemen hemen hadiselerin ikinci plandaki kişisi Çolak Salih'in cepheden dönüşü izler. Roman boyunca çeşitli entrikaların içinde yer alacak olan Salih, bir kolunu Güney Cephesi'nde bırakmıştır. Hemen her şeyini savaşların alıp götürdüğü anası ise, Salih'i bu şekilde karşısında görünce şuurunu da kaybeder. Savaşların açtığı yaralar, bu bölümde bütün trajik unsurlarıyla gözler önüne serilir. Yunan işgaline öncelikle maruz kalan yerlerden biri olan Akşehir ve çevresinin bir başka özelliği de, küçümsenmeyecek sayıda Rum azınlığın yerleşim alanı olmasıdır. Her Türk ailesi, değişik cephelerde en az bir iki ferdini şehid verirken ve bir o kadarı da işe yaramaz hale gelirken, söz konusu bu azınlıklar cephe gerisinde devletin sağladığı imkânlardan azami ölçüde istifade ederler. Bununla da yetinmeyerek kucağında oturdukları devlet babanın sakalını yolmaya kalkarlar. Niko da bunlardan biridir. Çolak Salih-Niko ilişkisi, roman boyunca değişik bakış açılarıyla yan yana getirilir. Niko, Pontus-Rum fikri peşinde idealist bir Rumdur. Başlangıçta Niko ile Rum meyhanesinde içki içmesi, Çolak Salih'e yadırganacak bir durum olarak görünmez. Fakat bir süre sonra, Niko'nun gerçek düşüncelerini öğrenince, bu çocukluk arkadaşından bazı dersler alması gerektiğini anlar. Kuşkusuz çevresinin Salih'e karşı tavırları da bunda önemli rol oynar.

İstanbullu Hoca'nın (Mehmet Reşit) Akşehir'e gelişi, romanın en önemli hadiselerinden biridir. Hoca, maddi ve manevi bütün ilimleri tahsil etmiş ve kendisini mükemmel bir şekilde yetiştirmiştir. Zekidir, teşkilatçıdır, aynı zamanda kuvvetli bir hatiptir. Hoca, İstanbul'daki Padişah Hükûmeti tarafından Akşehir bölgesindeki halkı öncelikle Kuva-yı Milliye hareketine karşı uyanık tutmak, sonra da Yunan birliklerine karşı girişilecek taarruzlarda halktaki millî duyguları harekete geçirecek ve moral desteği sağlayacak bir kişi olarak gönderilmiştir. Aynı günlerde Doktor Haydar Bey, Akşehir'e gelir. Hoca, özellikle Cuma konuşmalarıyla halkı aydınlatmaya çalışırken Doktor Haydar Bey ve birkaç arkadaşı çevresinde de Kuva-yı Milliye hareketi filizlenir.

Bölgedeki merkezî otorite boşluğu ise kısa sürede çok sayıda yerli eşkıyanın türemesine sebep olmuştur. Zaman zaman köylere ve kasabalara baskınlar düzenleyip, yerleşim merkezini yağma eden Çakırsaraylı da bunlardan biridir. Gün geçtikçe İstanbullu Hoca ile Kuva-yı Milliye yanlıları arasındaki gerginlik artar. Hocanın çevresindeki nüfûzunun yayılmasına daha fazla göz yumulmayacağına inanan kuvvacılar, İstanbullu Hoca'yı ortadan kaldırmaya karar verirler. Bu arada Hoca da evlenir. Böyle bir durumda Hoca, Akşehir'i terk ederek Çakırsaraylı'nın yanına kaçar. Burada sakalını keser, kıyafetini değiştirir ve "Küçük Ağa" adını alır. Artık İstanbullu Hoca yoktur.

Uzun süre Çakırsaraylı'nın yanında kalan Küçük Ağa, daha sonra kendisini aramaya gelen Salih'le beraber Çerkez Ethem'in kardeşi Çerkez Tevfik'in birliklerine katılırlar. Bir anda kendini çeşitli entrikaların içinde bulan Küçük Ağa, bu zaman içerisinde Çerkez Ethem ile de tanışma fırsatı bulur. Tevfik Bey ve Çerkez Ethem'in Batı Cephesi Kumandanı ismet Pasa (İnönü) ile ihtilafları da son haddine varmıştır. Aslında Çerkez Ethem ve kardeşi de Yunanlılara karşı savaşırlar. Sorun, İsmet Paşa'nın kendilerini emri altına almak istemesi, onların da İsmet Paşa'yı böyle bir konuda beceriksiz ve vasıfsız bulmalarından kaynaklanır. Durum böyle olunca, İsmet Paşa'yı destekleyen Ankara Hükûmeti'ne de muhalif olurlar. Küçük Ağa bu harekete katılmaz. Çerkez Ethem'e ihanet pahasına Kuva-yı Milliye hareketini destekler. Çerkez Ethem birlikleri Kütahya'da baskına uğrayınca Çerkez Ethem de Yunanlılara sığınır.

Küçük Ağa'nın Ankara'ya gönderilmesi, yeni hükûmetin kurulma çalışmalarına katılması, tekrar Akşehir'e dönüşü, ilk defa gördüğü oğlu Mehmet'le veremden ölmek üzere olan eşi Emine'ye kavuşması olayların birer birer çözülüşünden ibarettir. Roman, Emine'nin ölümüyle biter.

Küçük Ağa romanında ele alınan tarihî hadisenin bir gerçekliği vardır. Bir milletin belli bir zaman kesitinde topyekûn yaşamış olduğu tarihî hadiseler, şahıs kadrosuyla birlikte romana girmiştir. Buna karşılık *Gün Uzar Yüzyıl Olur* romanında söz konusu hadiselerin yaşanmadığını iddia etmek de oldukça güçtür. "Efsane" diye okuyucunun nazar-ı dikkatine sunulan "Nayman Ana" hadisesi bile, tarihî gerçekliğin tecrid edilemeyeceği bir yapıda sunulur. Çünkü söz konusu hadisenin yaşanabilirliği de bir gerçektir. Bunların *Küçük Ağa*'da cereyan eden tarihî hadiselerle birçok yönden farklı olduğu ortadadır. Her şeyden önce, her ikisinde de fantastik öğeler bulunmakla beraber, halkın gerçek yaşantısı dile getirilir. Aytmatov'un, tarihî olanı günümüze uyarlama ve yorumlamadaki ustalığı, başarısı o topraklardaki Türk ve Müslüman varlığını bütün dünyaya duyurmak için yeterlidir.

Küçük Ağa'da Çolak Salih'in cepheden dönüşünü anlatan bölümlerde savaş sonrası insan manzaraları birtakım trajik unsurlarla verilir. Aynı manzara,

Gün Uzar Yüzyıl Olur romanında II. Dünya Savaşı sonrası için verilmektedir. Öyleyse aksiyonun zuhuru için gerekli şartlardan biri olan mekânın ve hatta zamanın farklı olması, savaş hadisesinin netice itibariyle meydana getirdiği ortamı pek etkilemiyor. Her iki mekânda da savaş sonrası insan manzaraları küçük ayrıntılar dışında aynıdır. Kolu, bacağı, eli, ayağı kopmuş kör, topal, sakat insanlar, şuurunu yarı yarıya cephede bırakmış gençler, umutsuzluğun ve yaşamaktan usanmışlığın, kadere boyun eğmişliğin ortaya çıkardığı insan kalabalıkları... Fakirlik, açlık, sefalet ve hastalıkların kol gezdiği, harabeye dönmüş şehirler, kasabalar ve köyler… Cephe gerisinde eli ayağı tutmayan yaşlılar, dul kadınlar, genç kızlar ve küçük yetimler...

Gün Uzar Yüzyıl Olur romanındaki Nayman Ana tipine çorak Anadolu topraklarının hemen her yerinde rastlamak mümkündür. Bu bakış açısıyla da Çolak Salih'in anası ile Nayman Ana arasında bir benzerlik düşünülebilir. Nayman Ana; kocasını tamamen, oğlunu ise yarı yarıya kaybetmiş bir duldur. Bu kayıplar düşman saldırıları sonucunda meydana gelmiştir. Salih'in anası da duldur. Savaşlar kocasını, kardeşlerini, çocuklarını alıp götürmüştür. Her İki kadın da şuurunu yarı yarıya kaybetmiş tiplerdir. Nayman Ana'nın oğlu Jolaman gibi Çolak Salih de eksiktir. Cephede bir kolunu bırakmıştır. Fakat Salih bir yönüyle Jolaman'a benzemez. Onun kolunu kaybetmesine karşılık, kaybetmediği şeyleri de vardır, imanı, düşmanlarına boyun eğmeyişi, onlarla mücadelesi, mîllî his ve heyecanları, daha sonraları onu Jolaman'dan farklı kılan unsurlar hâline gelir.

Başka bir yaklaşımla Çolak Salih ile Abutalib arasında da bir ilgi kurulabilir, Abutalib, savaşta esir düşmüş, sonra geri dönüp gelmiş biridir. Çevresinde, esaretinden dolayı kendisine her fırsatta hücumlar yapılır. Cepheden dönüşünde Akşehir'de Çolak Salih için düşünülen şeyler de hemen hemen aynıdır. Salih, başlangıçta kolunu kaybetmesini anlamsız bulurken, sonraları bu, onun için gurur duyulan bir eksiklik hâline gelmiştir.

Romandaki fonksiyonları açısından Mehmet Reşid (Küçük Ağa) ile Öğretmen Abutalib Kuttıbayev arasında da bazı benzerlikler bulmak mümkündür. Her şeyden önce ikisi de aydın kişilerdir. Bu iki şahsiyetin eşleri de özellikle kaderleri açısından ilginç benzerlikler gösterir. Küçük Ağa, millî mücadele yıllarının o en hareketli günlerinde Kuva-yı Milliye hareketine karşı olmasından dolayı Akşehir'i terketmek zorunda bırakılırken, geride eşi Emine ve doğmak üzere olan bir çocuğu kalır. Bu ayrılışın getirdiği ıstırap dolu günler ve geceler roman boyunca sürüp gider. Bu arada doğru olmasa da- Küçük Ağa'nın ölüm haberi gelir. Dul kalan Emine yaşlı biriyle evlendirilir. Aynı şekilde Abutalib Kuttıbayev de II. Dünya Savaşı'nda partizanlarla savaşmıştır. Savaş hatıralarını yazdığı gerekçesiyle tutuklanıp götürüldükten bir süre sonra onun da Boranlı'ya ölüm haberi gelir. Zaripa da iki yetimiyle dul kalır.

Tüm sıkıntıları ile yalnız başına kalan Zaripa'ya bir ara Yedigey kalbi bir temayül gösterirse de, bu saf bir sevgi olarak başlar ve sona erer. Küçük Ağa'nın bir din adamı olmasına karşılık öğretmen Abutalib, romanda Ruslar tarafından öldürülen Kazak-Kırgız aydınlarının bir sembolü olarak verilir. *"Bilindiği gibi Bolşevik ihtilâlinden sonra uyanan esir milletlerin yetiştirdiği fikir adamları ve şâirleri Ruslar tarafından sudan sebeplerle memleketlerinden sürülmüş ya da Abutalib örneğinde olduğu gibi öldürülmüşlerdir!"* (Kolcu 1987). Zaripa, çocukları Daul ve Ermek, aynı şekilde Emine ve oğlu Mehmet, belki her iki esere de dekoratif unsur olarak girmiş şahsiyetlerdir ama genel hadiseler zincirinde dramatik unsurları sergileyen tiplerdir. Bütün bunların, realitenin ifadesi olup olmadığı bizi pek ilgilendirmiyor. Ancak, anlatılanların gerçeklik duygusunu taşıması elbette önemlidir.

Gün Uzar Yüzyıl Olur romanındaki ilginç tiplerden biri de Kazangap'ın oğlu Sabitcan'dır. Kazangap, Sarı Özek Bozkırı'nda doğruluğun, inancın ve çalışkanlığın sembolüdür. Kazangap'ın toprağa bağlı, çalışkan, namuslu, dürüst, kafası çalışan, geleneklerinin sıkı sıkıya takipçisi ve şahsiyetli bir kişi olmasına karşılık, oğlu Sabitcan farklıdır. O, belirli bir zevki ve anlayışı olmayan, millî duyuş ve hissediş erdemliğinden yoksun, züppeliğin, köksüzlüğün insan tipine aksetmiş bir numûnesi olarak karşımıza çıkar. Sabitcan, öğrenimini devlet yatılı okulunda yapmış, -kafa yapısı itibariyle- gerçek mankurt Jolaman'dan farkı olmayan biridir. Biri gerçekten işkencelerle, beyne uygulanan tazyiklerle köleleştirilmiş, mankurt hâline getirilmiş, diğeri -Sabitcan- ise, rejimin eğitim sistemi ile mankurtlaştırdığı, robottan farksız, beyni yıkanmış bir tip olarak karşımıza çıkar. Sabitcan, sanki duyularını ve hislerini kaybetmiş, ruhsuz bir varlıktır. Tıpkı Çolak Salih'in cepheden dönüş günlerinde olduğu gibi...

Gün Uzar Yüzyıl Olur romanında, çalışkan demiryolu işçisi Boranlı Yedigey ile Sabitcan arasındaki konuşmalar, kişilerin dünyaya bakış açıları ve dünyayı yorumlayış tarzları yönünden son derece çarpıcıdır. Ana-Beyit Mezarlığı'nın uzay projesi gereğince ortadan kaldırılması planlandığında Yedigey buna şiddetle karşı çıkar. Hatta *"Bir tarih yatıyor orada."* diyerek Sabitcan'dan da ağzı laf yapan bir kişi olarak yardım ister. Sabitcan ise *"Eski masallara fazla kapılmışsın sen Yedigey. Adamlar burada dünya çapında uzay işleriyle uğraşıyorlar. Sen de tutturmuşsun 'Anabeyitimiz, anabeyitimiz' diyorsun. Kim dinler seni? Kimin işine yarar senin Anabeyitin?"* şeklinde cevaplar bunu. Aslında bu şaşılacak bir şey değildir. Çünkü yukarıda da sözünü ettiğimiz gibi, roman boyunca Sabitcan karşımıza rejimin ve tekniğin mankurtlaştırdığı bir tip olarak çıkar. Böyle bir kafada birtakım değer hükümlerinin hiçe sayılması, bu tarz düşünmenin çağdaşlaşma ve ilerlemenin bir gereği olarak kabul görmesi son derece olağandır. Şahıslardan biri Anabeyit

mezarlığını ölüleriyle birlikle hemen bütün değer hükümlerinin gömüldüğü bir yer olarak telakkî ederken, bir diğeri -Sabitcan- fazla değil, bir sonraki nesil, galaksiler arası turların yapıldığı böyle bir çağda, bu gibi düşünce ve kaygıları bir "masal" olarak nitelendirebilmektedir. Değer hükümlerinin böylesine tepetaklak edildiği ve hemen her hadisenin materyalist bir bakış acısıyla değerlendirildiği bir çağda ve toplumda, bütün olup bitenlere -mantıklı bile olsa- Yedigey misali gelenekçi bir tavırla karşı çıkış, meselelere ne ölçüde çözüm getirebilir? Yazar, bu soruya yine kendi eserinde düşündürdüğü şahısların ağzından cevaplar vermeye çalışır. Kişisel direniş ve karşı çıkışlarla toplumlarda değişen değer hükümlerinin önüne geçilemeyeceği gerçeği vurgulanmak istenirken, olaylara büsbütün ilgisiz kalınamayacağı da hadiselerin en can alıcı noktaları yakalanarak ve yanyana getirilerek sezdirilmeye çalışılır. Aynı şekilde insan unsurunun hiçbir zaman dekoratif unsur olarak görülmemesi gerektiği imajının verilmesine de gayret edilir.

Gün Uzar Yüzyıl Olur romanında çerçeve konu veya olay içerisinde ele alınıp işlenen olaylar zincirindeki her bir halka, birtakım efsane ve masallara dayanır. Aynı durum *Küçük Ağa* romanı için söz konusu değildir, fakat tabii Aytmatov'un bunları ele alarak gerçek bir olay gibi işlemesi, her birinin önceki nesillerden kalan birer deney olmasından kaynaklanır. Aslında folklorik malzeme bir şekliyle de geçmez Aytmatov'un eserinde. Yani efsane, salt efsane olarak yer almaz. Belki efsanevî malzemenin değerlendirilmesi ve yorumlanması vardır. Aynı şekilde romanda dünya dışı bir uygarlıkla bağlantı kurulması, ütopik bir düşüncenin ürünü olarak karşımıza çıkar. Bugün "bilim kurgu tarzı" diye nitelendirilen bu saha da aynı gerekçeyle ele alınır; Emperyalist güçler tarafından oyuncak hâline getirilen gezegenimizin durumu, XXI. yüzyılın eşiğinde insan yeteneğinin sınırsızlığı, çelişkileri, silahsızlanma adı altında girişilen silahlanma yarışları ve dolayısıyla maddî kaynakların ve beyin enerjisinin bilinçsizce harcanması roman boyunca, özellikle uzay çalışmaların anlatıldığı bölümlerde bütün çarpıklığıyla gözler önüne serilir.

Aytmatov'un *Gün Uzar Yüzyıl Olur* romanı her ne kadar görünen tarafıyla Kırgızların ya da Kazakların kültürel varoluş ve ayakta kalış macerasının tipik anlatımı olsa da; esasen bu roman tüm Orta Asya halklarının asırlar süren siyasi ve kültürel anlamda varoluş mücadelesinin, özgürlük arayışının hazin hikâyesi; bu coğrafyalara hâkim olan sistemle ne pahasına olursa olsun cedlerinden miras kalan kadim kimliği kaybetmek istemeyen insanların destansı mücadelesinin edebî metinlere yansımasıdır.

Tarık Buğra'nın *Küçük Ağa* romanı da esasen bir milletin millet olarak bir varoluş savaşı bağlamında siyasal, sosyal ve elbette kültürel açıdan verdiği mücadelenin hikâyesi olarak adlandırılabilir.

Sonuç olarak şunu söyleyebiliriz ki bu çağdaş iki Türk yazarı, bugün vatanları ayrı olsa da, biri yıldız savaşları projelerinin yapıldığı böyle bir çağda inançların, geleneklerin, göreneklerin ve birtakım kıymet hükümlerinin şanlı ve kutlu direnişini insan çapında abideleştirirken, bir diğeri, *Küçük Ağa* romanında, muammalarla dolu tarihî bir dönemi, bir milletin ömrü içerisinde dönüm noktası olması cihetiyle ele alıp, tarih sahasındaki hakikî yerine oturtabilmeyi, roman çapında gerçekleştirebilme başarısını göstermiştir.

Kaynaklar

Aytmatov, Cengiz (1982). *Gün Uzar Yüzyıl Olur*. Çev.: Mehmet Özgül. İstanbul: Cem Yayınları. 344 s.

Buğra, Tarık (1977). *Küçük Ağa*. İstanbul: Kervan Yayınları. 4. bs. 530 s.

Kolcu, A. İhsan (1987). *Millî Romantik Duyuş Tarzı ve Cengiz Aytmatov'un Eserlerinde Milliyet Unsurları.* Bitirme Tezi. Erzurum: Atatürk Üniversitesi.

Sevinç, Canan (2009). "Atatürk Dönemi (1923-1938) Türk Romanında Millî Mücadele". *Turkish Studies-International Periodical for the Languages, Literature and History of Turkish or Turkic*. Volume: 4/I-II. Winter. 2040.

MİLLİ MÜCADİLƏNİN TARIK BUĞRANIN TARİXİ ROMANLARINDA BƏDİİ ƏKSİ

*Arzu DADAŞOVA**

Giriş

Bir millətin millət kimi var olmasında ən vacib faktorlardan biri müstəqillikdir. Hər millətin tarixində müstəqilliyin qazanılması və qorunması uğrunda gedən mübarizə dastanları ilə rastlaşmaq mümkündür. Türk tarixinin ən şanlı səhifələrindən biri olan Milli Mücadilə dövrü də bunlardan biridir.

Bu yazıda türk xalqının min illik tarixində var olmaq uğrunda gedən mübarizədən bəhs ediləcək, Milli Mücadilənin Tarık Buğranın tarixi romanlarından olan *Küçük Ağa* və *Küçük Ağa Ankarada* romanlarında bədii əksi veriləcəkdir.

XX-ci əsrin I-ci yarısı Türkiyənin ictimai-siyasi və ədəbi-mədəni həyatında köklü dəyişikliklərin baş verdiyi mürəkkəb tarixi bir mərhələdir. XX-ci əsrin əvvəllərində artıq zəifləməkdə olan Osmanlı dövləti bir sıra torpaqlarını itirmişdi. 1918-ci ildə Osmanlı dövləti Mondros sülh müqaviləsini imzalayaraq Birinci Dünya müharibəsindən çıxır. Osmanlı dövləti süqut etdikdən sonra, türk xalqının böyük oğlu Mustafa Kamalın rəhbərliyi altında milli azadlıq hərəkatı başlayır.

Anadoluda Qurtuluş Savaşı 1919-cu ildə Atatürkün Samsuna gəlməsi ilə başladı. Atatürk qısa bir zamanda xalq kütlələrini və xalqa sadiq nizami qüvvələri birləşdirərək ingilis, fransız və yunanlılara qarşı mübarizəyə başlayır və qalib gəlir. Beləliklə 1923-cü ildə TBMM-i Türkiyəni respublika elan edir, Atatürk isə ölkənin prezidenti seçilir.

Bu dönəm ölkənin ictimai-siyasi həyatında olduğu kimi ədəbi həyatında da dəyişikliklərin müşahidə olunduğu dövrdür. Əsrin əvvəllərində dörd qitədə geniş əraziyə malik Osmanlı kimi qüdrətli dövlətin zəifləyərək qərb dövlətləri tərəfindən işğal altında olması türk millətində müstəqillik, vətənpərvərlik,

* Azərbaycan Milli Elmlər Akademiyası Şərqşünaaslıq İnstitutu Türk filologiyası şöbəsinin kiçik elmi işçisi və dissertantı; d.arzu@bk.ru

milli təəssübkeşlik hislərinin daha da qabarmasına səbəb olmuşdur. Ədəbiyyatda bu dönəmin tarixi hadisələrini Milli azadlıq uğrunda mübarizəni əks etdirən yazıçılar nəsli yetişmişdir. Cümhuriyyətin elan olunmasından sonra yazıçı və şairlər yazdıqları əsərlərlə türk xalqında milli ruhu yüksəltmiş, xalqı vətənin azadlığı uğrunda mübarizəyə səsləmişlər.

Cəmiyyətin hər təbəqəsindən olan insanların iştirakı ilə qazanılmış bu savaşda türk xalqının fədakarlığı, çəkdiyi əzablar, acılar unudulmamışdır. Bu mübarizədə sadə xalq hər nə qədər geri planda hadisələrdən uzaq verilsə də, bu mübarizənin bütün yükünü daşıyan, bütün bu çətinliklərə sinə gərən xalq olmuşdur.

Qurtuluş Savaşı da adlandırılan türk tarixində yeni bir dövrün başlanğıcı olan və sonda Türkiyə Cümhuriyyətinin yaranması ilə nəticələnən bu dövrün hadisələri türk ədəbiyyatında ən çox müraciət olunan mövzulardan olmuşdur. Bu illərdə Milli Mücadilədən bəhs edən bir çox romanlar qələmə alınmışdır: *Ateşten Gömlek, Vurun Kahpeye, Sodom ve Gomore, Dikmen Yıldızı, Ankara, Esir Şehrin İnsanları, Yorgun Savaşçı, Toz Duman İçinde, Kutsal İnsan* və s. 1922-ci ildən müasir dövrümüzə qədər Milli Mücadilədən bəhs edən bir çox roman yazılmışdır. Yazılan romanlar ədəbiyyatşünaslar tərəfindən müxtəlif qruplaşdırılmışdır. Ömer Türkeş isə Milli Mücadilə romanlarını üç dövrə ayıraraq təsnif etmişdir (Canan 2009: 2014):

1. 1920-1950,
2. 1950-1980,
3. 1980-dən sonra.

I-ci mərhələdə yaranmış nümunələrin tarixi əsər olub olmaması barədə türk ədəbiyyatşünaslığında mübahisələr mövcuddur. Məsələn Sadık Kemal Tural, türk ədəbiyyatının nəzəri məsələlərinə həsr etdiyi *Zamanın Elinden Tutmak* adlı kitabında Qurtuluş Savaşına dair yazılmış bəzi nümunələrin tarixi əsər olmadığı qənaətinə gəlir. Başqa bir tədqiqatçı Gürsel Korat isə bədii əsərlərdə tarixiliyi fərqli şəkildə qəbul edir. Onun düşüncəsinə görə, hər tarixi açıqlayan nümunəni tarixi əsər saymaq olmaz, əgər əsərlərdə tarixi şəxsiyyətlərin fəaliyyətləri və sözləri ön plana keçərsə, bu siyasi təbliğat və reklamdan başqa bir şey deyil. Müəllif bu baxımdan, H. E. Adıvarın, K. Tahirin, Y. Kadrinin Qurtuluş Savaşı mövzusunda yazdığı əsərləri Atatürkün təbliği kimi qəbul edir (Gürsel 2009: 24).

Başqa bir ədəbiyyatşünas M. Doğan türk romanında Milli Mücadilənin təfərrüatı ilə ələ alınıb işlənməməsi qənaətindədir və klassikləşmiş Milli Mücadilə romanının olmamasından şikayətlənir.

Araşdırmaçı bu əksiklikləri aşağıdakı kimi qruplaşdırır:

1. Milli Mücadilə romanların bir qismində hadisələr fonunda təsvir olunmuşdur.

2. Milli Mücadilə yeni yaranmış cümhuriyyətin prizmasından təqdim olunmuşdur.

3. Din adamları Milli Mücadilə əleyhdarı kimi təsvir olunmuşdur.

4. Romanlarda tək yönlü yanaşma hakimdir. Hadisələri tərəfsiz yanaşma yox dərəcəsindədir (Canan 2009: 2015).

Milli Mücadilə illərində cərəyan edən hadisələr ədəbiyyatda ilk olaraq H. E. Adıvarın *Ateşten Gömlek və Vurun Kahpeye* romanlarında öz əksini tapmışdır. Bu romanların çoxunda hadisələr Qurtuluş Savaşı illərində cərəyan etsə də, romanın əsas mövzusu Qurtuluş Savaşı deyil. Bu romanlarda Milli Mücadilə cərəyan edən hadisələrin fonunda təsvir olunmuşdur.

1950-ci illərdən sonra isə Milli Mücadilə dövrü hadisələri Kemal Tahir, İlhan Tarus, Samim Kocagöz, Talip Apaydın, Tarık Buğranın tarixi romanlarında öz əskini tapmağa başlayır.

Tarık Buğranın *Küçük Ağa* romanında Milli Mücadilənin bədii əksi

Qurtuluş Savaşı türk ədəbiyyatında ən çox müraciət olunan mövzular arasında yer alır. Milli Mücadilə dövrü hadisələrinin əks olunduğu əsərlər arasında Tarık Buğranın romanlarının adını çəkməmək olmaz. Bu yazıda məqsədimiz Tarık Buğranın tarixi romanlarında Milli Mücadilənin necə əks olunduğunu təsbit edib diqqətinizə çatdırmaqdır.

Tarık Buğra yazılarının birində belə deyir: *"Hər bir yazıçının daxilində onun üçün yaşadığı, onun üçün var olduğu əsas mövzusu vardır. Mənimki Qurtuluş Savaşı oldu"* (Buğra 1976: 113).

Tarık Buğranın Milli Mücadilədən bəhs edən romanları *Küçük ağa, Küçük Ağa Ankarada* və *Firavun İmanı* romanlarıdır. Tarık Buğranın romanlarında Milli Mücadiləyə ilk dəfə olaraq fərqli yöndən yanaşma görürük. Digər qurtuluş Savaşı romanlarından fərqli olaraq bu üç romanda məsələlər insan və millət yönündən baxılaraq, yazılmışdır. Tarık Buğra bu romanda tarixi yöndən Milli Mücadilədə insanın yeri, millətin yeri suallarının cavabını ortaya qoymağa, tarixi gerçəkliyi obyektivlik prizmasından əks etdirməyə çalışmışdır.

Tarık Buğra *Küçük Ağa* romanını yazmağı planlaşdırarkən özündən əvvəlki Qurtuluş Savaşı ilə bağlı yazılan romanları araşdırmış və müəyyən əksikliklər təsbit etmişdir. T. Buğraya görə bir roman yazıçısı bir alim kimi obyektiv olmalıdır. Bunun əksi insan üçün xəyanət sayılır. O, *Küçük Ağa* romanını da bu inancına görə yazdığını qeyd edir (Buğra 1976: 113).

Yazıçının Qurtuluş Savaşı ilə bağlı fikirləri sual edilərkən o epik əsər deyil, dramatik əsər yazmağı sevdiyini və *Küçük Ağa*'nı yazarkən dramatik növə müraciət etdiyini söyləyir. Romanın ön sözündə Peyami Safaya dediyi kimi *"... məqsədim dastan yaratmaq deyil, sadəcə atamın dəftərlərində adlarını gördüyüm İstanbullu hoca, Topal Gazi, Ali Emminin qəhrəmanlıqlarını romanımda əks etmirdəkdir"* (Buğra 1976: 113). Yazıçı *Küçük Ağa Ankara'da* və *Firavun İmanı* romanlarında da bu mövzunu və tarixi mərhələni davam etdirmişdir.

1963-cü ilə qədər rəsmi tarix heç bir yazıçı tərəfindən araşdırılmamış, Milli Mücadiləyə qarşı olanlar heç bir yazıçı tərəfindən tərəfsiz ələ alınmamışdır. Bu dövrdə rəsmi ifadədən kənarlaşaraq müxalif qüvvələri də dinləyərək, onların fikirlərinin səbəbini aydınlaşdıran, tarixi bu qədər ciddi şəkildə araşdıran yazıçı Tarık Buğra olmuşdur.

Yazıçının fikrincə Milli Mücadilənin başlanğıcında bu mübarizəyə qarşı çıxan qüvvələr günahlandırılmamalı, onların da içində vətən sevgisi, dövlət şüuru, dini birlik vardır.

Xain olmak asan deyil, vətən xaini olmaq heç də asan şey deyil. Kuva-yı Milliyəyə inanmayanlara xain demək asan olmamalıdır. Altı yüz il dimdik var olmuş, şah mədəniyyət qurmuş bir dövlətin insanları qurtuluş üçün bir başqa hakimiyyəti, dövləti bir anda qəbul edə bilməzdi, bir tarixi yenisi ilə əvəz etmək asan deyildi. T. Buğra *Küçük Ağa* romanını məhz bu fikir ayrılıqlarının olduğu dövründə yazır. *Küçük Ağa* bu ziddiyətlər üzərinə qurulmuş bir əsərdir. Romanın əsas qəhrəmanlarında olan İstanbullu Hoca əsərin başlarında din adamı və Kuva-yı Milliyəyə qarşı çıxanlardan olmuşdur. Müxalif qüvvələr onu dərhal asılası bir adam kimi görürlər. Lakin yazıçı əsərdə zamanla onun da Kuva-yı Milliyəcilər kimi vətəninə bağlı bir şəxs olduğunu oxuyucuya göstərə bilir.

1963-cü ildə nəşr olunan əsər, bu dövrdə yazılan digər romanlardan fərqli olaraq Ankarada deyil, yazıçının doğulub böyüdüyü Anadolunun bir qəsəbəsi olan Akşəhərdə cərəyan edən hadisələrdən bəhs edir. Əsərdə Qurtuluş müharibəsində arxa cəbhədə Kuvayı-Milliyənin necə yaranıb genişləndiyi nəql olunur. Yazıçı hadisələri mərkəzdən deyil, kənardan həm də cəmiyyətin hər təbəqəsindən olan insanların iştirakı ilə təsvir etməyə çalışmışdır. Əsərin yazılmasında yazıçı tarix kitablarından və atasının xatirə dəftərlərindən yararlanmışdır.

Tarık Buğra romanlarının ana xəttini müstəqillik, milliyətçilik, milli mübarizə kimi ideyalarının təşkil etməsinin əsas səbəbini, hələ uşaq yaşlarında Akşəhərdə şahid olduğu hadisələrə bağlayır və fikirlərini belə açıqlayır.

> *"1921-ci ildə üç yaşımda Akşəhərdə idim. O, illərdən mənə heç bir zaman yaddaşımdan silinməyəcək görüntülər qalmışdır:*

evimizin qarşısındakı boş ərzidə gördüyüm əsgərlər, onlara su verməyim, əsgərlərin burada qazan qaynadıb, paltar yumağı, evimizin arxa pəncərəsindən görünən məktəbin həyətindəki xəstəxanada yaralıların inləməsi, atamın gah gəlib, gah getməsi, ətrafdakı insanların müharibə ilə bağlı sözləri və qorxmaları. Bu müharibə idi." (Buğra 1976: 113).

İstiqlal savaşı sadəcə xarici düşmənlərə qarşı verilən mübarizə olmamışdır. Bu günlərdə Türkiyə daxildən də parçalanmışdır. Osmanlı xarici düşmənlərlə yanaşı daxilində də parçalanmış qüvvələrlə mübarizə aparıb, var olmağa çalışırdı.

Əsər kiçik bir Anadolun qəsəbəsi olan Akşəhərin təsviri ilə başlayır. Akşəhərdə hər evdə 4 il əvvəl evini, ailəsini, uşağını geridə qoyub, I dünya müharibəsinə gedən əsgərlərin yolunu gözləyənlər vardı. Qadınların evdə, qocaların çayxanalarda toplanıb, gözlədikləri türk məhəlləsində dərin bir səssizlik hökm sürürdü. "Gavur mahallesi" adlandırılan yunanların yaşadığı bu məhəllədə isə abuhava tamam başqaydı. Sanki dərin hüznə qərq olmuş türk məhəlləsindən fərqli olaraq, buradakı evlərin damları narıncı rəngə boyadılmış, Minasın, Yorgonun meyxanalarından ətrafa musiqi, qəhqəhə səsləri yayılırdı. Bu səslər isə sanki qaranlığa qərq olmuş müsəlman məhəlləsində yaşayan türkləri hürküdürdü.

Akşəhərin romanda ən incə ayrıntısına qədər təsvir olunmasının əsas səbəblərindən biri; Tarık Buğranın buralı olması, ilk və orta təhsilini burda alması və hələ 3 yaşında burada şahid olduğu hadisələrdir. Yazıçı bu şəhərə həm də romanın əsas qəhrəmanlarından biri olan, Hələbdə, Kutul Əmmarə cəbhəsində döyüşüb yaralı geri qayıdan Salehin gözüylə baxır. Saleh əsərdə Osmanlı imperiyasının girdiyi son döyüşdən geriyə qalan Anadolu əsgərini təmsil edir. O, Osmanlının böyük ümidlərlə qatıldığı I Dünya Müharibəsindən bitmiş, sağ qolunu itirmiş, üzünün sağ tərəfi də tanınmaz hala gəlmiş, çökmüş halda geri qayıdır. Yazıçı Osmanlının hökmranlığının artıq zəifləyib, yox olma təhlükəsi altında olmasını, sağ qolunu və üzünü itirmiş bir əsgərlə müqayisə edir.

Tarık Buğra yazılarının birində Çolaq Salehi "Küçük Ağa"dan çox sevdiyini dilə gətirir. O, Salehi çökmüş, Osmanlının siması kimi təsvir edir. Çolaq Salehin onun həyatında xüsusi yeri vardır. Çolaq Saleh obrazı Akşəhərdə atasının dostu olan "Topal Gazi" deyilən qəhrəmanın prototipidir. Yazıçının xatirələrindən də aydın olur ki, bu şəxs onun atasının yanına gəlib, oturar, iki dost içki içib, dərdləşərdilər. O, xaritələrində bu haqda belə yazır:

"Bəzi axşamlar atamı otağında 'Topal Gazi' deyilən bir kişiylə qədəh toqquşduran görürdüm. Bu da mənim qürurumа toxunurdu. Atam sayılb seçilən böyük adam idi, bu isə pis geyimli töküntünün

biri. Qazidən kimə nə? Qazi sözünü yalnız Mustafa Kamal Paşaya yaraşdırmaq mümkündür. Qısacası atamın onunla dostluğu qururuma toxunurdu və bir gün buna atama söylədim. Elə həmin anda atam mənə bir silləsə vurdu və səsi qulaqlarında cingildədi. Sən onun kim olduğunu bilirsən? Qısaca axşam evə gələndən sonra onun tarixçəsini mənə danışdı. 'Topal Gazi'nin vətəni uğrundə bu hala düşdüyünü anladım" (Buğra 1976: 113-114).

Müharibədən həyatı tamam puç olmuş vəziyyətdə qayıdan Salehi uşaqlıq dostu Niko qarşılayır. Niko artıq əvvəlki deyildi, uşaqlıqda ondan güclü olan Salehi, yeni həyatında dəstəkləmiş kimi görünsə də, o, indi Salehi psixoloji olaraq əzməyə çalışırdı. Saleh isə artıq Nikonun türklərlə yunanları eyni görmədiyini onun nitqindəki *"*sizinkilər", "bizimkilər" sözündən hiss etmişdir.

Üzünün tanınmaz hala düşməsi, sağ qolunun itirməsindən sonra sevdiyi qızla evlənmə xəyallarını da puç edir. Salehin bu fədakarlığını qəhrəmanlıq kimi qiymətləndirən birilərinin olmaması onu daha da kədərləndirir. Bu müharibədə məğlubiyyətin nə qədər acı bir şey olduğunun Akşəhərə gələndən sonra başa düşür. Hətta Ali emminin ona tez-tez söylədiyi sözlər də bunu təsdiq edir. *"Böyük Osmanlı sultanlığı səndən betər oldu"* (Kırılmış 2013: 395).

Milli Mücadilə dövrü romanlarında eləcə də *Küçük Ağa* romanında türklərlə bərabər, yunan, erməni yəhudi kimi milli azlıqlardan da bəhs olunur. Türk dilində "öteki" adlandırılan bu milli azlıqlar Osmanlı dövlətinin xüsusi təbəəsi olaraq sosial həyatlarını tam rahat şəraitdə yaşayırdılar. Hətta onlar müharibəyə belə getmirdilər. Uzun illər Osmanlının təbəsində yaşayan yunan və ermənilər də yaranmış vəziyyətdən istifadə edərək türklərə qarşı cəbhə almışlardır.

İttifaq dövlətlərinin Dolmabaxça önündə yerləşməsini güc və dəstək kimi qəbul edərək bunu özləri üçün avantaja çevirmişlər. Yunanlar işğalçıların dəstəyinə güvənərək əsrlərdir bir torpaqda yaşadıqları, heç bir yad münasibət göstərmədikləri türklərə qarşı düşmən mövqeyinə keçirlər. Bütün bu sadalananları *Küçük Ağa* romanındakı Niko obrazının timsalında görmək mümkündür. Uşaqlıqdan Niko ilə Saleh bir yerdə böyümüş, hətta Nikoya "Salehin Nikosu" deyə səslənmişlər. Indi isə Salehə "Nikonun Salehi" deyirlər. Özünü dəyərsiz bilən Saleh yunanların meyxanasında içki içib, əylənməklə gününü keçirir. Salehin yunanların yanında olması isə Akşəhərlilərin qəzəbinə səbəb olurdu. Bir gün Saleh yunanların türklərə qarşı keçirdikləri gizli iclasda eşitdikləri onu dərindən sarsır və onlardan uzaqlaşır. Bu hadisə sanki onun yenidən doğuşu olur, o sanki vətəninin, millətinin işğala məruz qaldığını yeni anlayır. Vətən yolunda çox şeyini qurban verən Saleh şahid olduğu hadisələrə biganə qala bilməzdi, o, yenidən ayağa qalxıb, vətənin müdafiəsinə qatılır. İlk olaraq içkini atır, bir müddət hər kəsdən və hər şeydən uzaqlaşaraq sol eli ilə atış

təlimlərinə başlayır. Artıq Salehin özünə güvəni yaranmış və o kuvvacıların sırasına keçərək dəstə başçısı "Çolaq Saleh" olmuşdur. Bunu ilk eşidən Ali emmi ona artıq *"pis çolak"* deyil, *"oğlum"* deyə səslənir. Salehin tək istəyi isə vətənin işğalçı qüvvələrdən azad edilməsi və Niko kimi xəyanətkarlarla hesablaşmaq olur. Həm də İstanbullu hocanın Kuvvacıların sırasına keçməsində onun xüsusi rolu olmuşdur.

Romanın bir başqa qəhrəmanı isə Osmanlının gücünü təmsil edən İstanbullu Hocadır. Onun bura göndərilməsində əsas məqsəd xalqın İstanbul hökuməti və saraya bağlı qalmasını təmin etmək idi. O, Osmanlı hökümətinə bağlı olduğu kimi Akşəhər xalqını da dövlətə bağlı qalmağa çağırır. İstanbullu Hoca nəinki xalqın, hətta qəsəbənin tanınmış şəxslərinin də rəğbətini qazanmış olsa da, doğru yolda olmaması xəbərdarlıqlarına məhəl qoymurdu. Doktor Heydər bəyin bacısı ilə evlənməsi onun Akşəhərdə gücünə güc qatır. Doktor Heydər isə onun Milli Mücadiləyə qatılmasının tərəfdaşlarına faydasının nə qədər böyük olacağını bilirdi. İstanbullu Hocanın yolundan dönməyəcəyini bilən Kuvayı-milliyə onun üçün ölüm qərarı çıxarır. Bu qərardan sonra o həyat yoldaşını və doğacaq uşağını qoyub qaçmağa məcbur olur. O, Çakırsaraylının yanına sığınır. Bundan sonra İstanbullu Hocanın daxili aləmində başqa hər şeyi dəyişir. İlk olaraq onun din adamı olmasını işarə edən saqqalını kəsib, belinə silah alaraq Kuvayı-milliyə tərəfdarlarına qoşulur. Bundan sonra hamı onu *Küçük Ağa* adlı dəstə başçısı olaraq tanıyır. O, Salehlə qüvvələrini birləşdirərək vətəni, milləti uğrunda milli mübarizəyə başlayır. Saleh isə İstanbullu Hocanın ölüm xəbərini Akşəhərə çatdırır. "Küçük Ağa"nın namı gündən-gün artaraq Ankaraya qədər gedib çıxır.

İstanbullu Hoca yazıçının Akşəhərdə gördüyü, eşitdiyi və müşahidələri nəticəsində yaratdığı bir obrazdır. Digər Qurtuluş Savaşı romanlarından fərqli olaraq *Küçük Ağa* romanında din xadimləri mənfi obraz kimi təqdim olumamışdır.

Milli Mücadilə sadəcə əsgərlərin mübarizəsi deyildi. Bu müqəddəs mübarizəyə Türk millətinin hər təbəqəsindən olan insanların dəstək olduğunu romanda görmək mümkündür. Yazıçı xalqın fikirlərini qəsəbənin ağsaqqallarından olan Ali emminin timsalında oxuyucuya təqdim edir. Sadə xalqı təmsil edən Ali emmi görüb keçirmiş, ağıllı, doğru qərar verən biri olaraq, Milli Mücadilənin ən çətin günlərində türklərə səbrli, mətanəli olmağı məsləhət görür.

Tarık Buğra Qurtuluş Savaşını sadəcə Küçük ağa və Salehin düşüncələrinin timsalında təsvir etmir. O, bu mübarizənin qazanılmasında qəsəbənin ziyalılarının da rolu olduğunu qeyd edir. Yazıçı Doktor Heydər bəyi İstiqlal Savaşında Kuvayı-milliyəni dəstəkləyən obraz kimi təsvir edir.

Tarık Buğraya görə Milli Mücadilənin əsas qəhrəmanları Kuva-yı milliyəçilərdir. Milli Mücadilə kiçik fədakar dəstələrin xarici işğalçılara qarşı mübarizəyə qalxması nəticəsində başlayır. Zamanla bu dəstələr böyüyərərək birləşib Kuva-yı milliyəni yardırlar. Əgər dönəmi iki qütbə bölsək, bir qütbü Kuva-yı Milliyə tərəfdarları, digər qütbü isə Kuva-yı Milliyə əleyhdarları təşkil edəcəkdir. Dövrün siyasi mübarizəsi də bu iki qrup arasındakı mübarizədən başlayır. Kuva-yı Milliyəçilər çox imkansızlıqlarla qarşılaşmış, xalq üçün büyük fədakarlıqlar etsələr də, xalqın onları qəbul etməsi bir anda baş verəcək şey deyildi. Yazıçıya görə xalq onları qəbul edəcək məlumata bilgiyə sahib deyildi. Kuvayı-milliyə dəstələri özünü xalqa isbatlamalıdır. Bir müddət sonra bir-birinin ardınca əldə olunan uğurlar nəticəsində xalq onları dəstəkləməyə başlayaraq, İstanbul hökümətini arxasına alacaqdır.

Tarık Buğranın romanlarında İstanbul və oradakı hakimiyyət təsvir olunmamışdır. Yazıçı bu siyasi dövrü daha çox qəsəbələr ətrafından təsvir etməyə üstünlük vermişdir. Bu da onu xalqa daha da yaxınlaşdırmışdır. O heç vaxt padişahı tənqid etməyib, onun əksinə çıxış etməmişdir.

Tarık Buğra *Küçük Ağa* romanında Milli Mücadilənin qazanılmasında rolu olan, müxtəlif şəxslər tərəfindən yaradılan dəstələrə qarşı böyük rəğbət vardır. O dövrdə ölkədə vahid idarəçiliyin olmaması, müxtəlif dəstələrin yaranmasına səbəb olmuşdur. "Çerkez Ethem"in dəstəsini bunlara nümunə göstərə bilərik. *Küçük Ağ*a romanında "Çerkez Ethem" tipi Milli Mücadilənin başlanğıcında Çapanoğlu üsyanının yatırılmasında millətinə və dövlətə kömək etmişdir. Daha sonra isə "Çerkez Ethem", ona dəyər verilməməsini düşünərək Ankara hökümməti ilə əlaqələrini kəsərək bolşeviklərlə yaxınlaşır. Amma Tarık Buğra Ethemi özünə məxsus tərzdə qiymətləndirmişdir. O qeyd edir ki, Ethemin sondakı münasibəti daha əvvəldə xalqı üçün etdiyi xidmətləri unutdurmamalıdır. Bu fikrinə görə də müxtəlif tənqidlərlə qarşı-qarşıya qalmışdır.

Roman Milli Mücadilə mövzulu romanlardan fərqli olaraq *"Ankara mərkəzli"* bir anlayışla yazılan roman olmamışdır. Yazıçı hadisələri, Milli Mücadilənin vacib mərkəzlərindən olan Akşəhər pəncərəsindən baxaraq ələ almışdır.

Milli Mücadilə türklərin siyasi tarixdə xüsusi bir yerə sahibdir. Bu dönəm Osmanlı kimi şah dövlətin, mədəniyyətin çöküşü, ondan sonra isə yeni bir dövlətin doğuşu kimi ziddiyyətli bir dövrü əhatə edir. T. Buğra *Küçük Ağa* romanını bu ziddiyyətlər üzərində qurmuşdur. Burada yazıçı iki yol arasında qalan türk millətindən bəhs edir. Tarık Buğra Qurtuluş Savaşına cəbhədən, Ankaradan yəni siyasi yöndən deyil, türk insanını qələbəyə gedən zaman içində dəyərləndirir, mühakimə edir. İstanbullu Hoca Küçük Ağalığa gedən yolda

Çolaq Saleh kimi çox ağrılı, acılı günlər keçirir. Bu fədakarlıqların hamısı böyük qurtuluşu, möcüzə qələbəni türk insanına, millətinə bəxş etmək üçün idi.

Romanın əsas fikri, millətin və dövlətin müstəqilliyinin Ankara hökümətinin idarəçiliyinə bağlı olmasıdır. Romanda Çolaq Saleh, İstanbullu Hoca, Doktor Haydar, Ali emmi, Reis bey obrazları millətinə və milliyyətinə bağlı müsbət obrazlar olaraq qarşımıza çıxır. Yazıçı Çolaq Saleh və İstanbullu Hocanı vətən və millət yolunda həyatlarını qurban verən əsl türk oğlu kimi oxuyucusuna təqdim edir.

Qaynaqlar

1. Buğra, Tarık, (2008). *Küçük Ağa*, 12. Basım, İstanbul, İletişim Yayınları.
2. Buğra, Tarık, (1976). "Kurtuluş Savaşı: Niçin ve Nasıl?", *Türk Dili*, *Türk Romanında Kurtuluş Savaşı Özel Sayısı.* S. 298, s. 113-116.
3. Doğan, Mehmet H. (1976). "Türk Romanında Kurtuluş Savaşı". *Türk Dili, Türk Romanında Kurtuluş Savaşı Özel Sayısı*. S. 298, s. 7-40.
4. Korat, Gürsel (2009). "Romanda Tarih". *Kitaplık*. Sayı: 129, Ankara, ss. 23-28.
5. Kırılmış, İlknur Tatar (2013). "Tarihi Romanlarda Değişen Bakış Açısı, Küçük Ağa ve Küçük Ağa Ankarada". *Uluslararası Sosyal Araştırmalar Dergisi*. Cilt: 6, Sayı: 28, ss. 390-402.
6. Sevinç, Canan (2009). "Atatürk Dönemi (1923-1938) Türk Romanında Millî Mücadele", *International Periodical for the Languages, Literature and History of Turkish or Turkic.* Cilt: 4/1-II, ss. 2012-2040.

MİLLÎ MÜCADELE RUHUNUN ÇOCUK TİYATROLARINA YANSIMASI

*Mutlu DEVECİ**
*İpek YILDIZ***

Giriş

Bağımsızlığın vazgeçilmezliği, vatanın kutsallığı fikriyle perçinlenen millî mücadele süreci, Türk milletinin tarih sahnesindeki seyrini ve yazgısını değiştiren bir dönem olur. Ulusumuzun mazisindeki bu çetin mücadele, öncesi ve sonrasıyla Türk tarihinde anılırken toplumsal belleğin kalıcı ürünleri olan edebî metinlerde de kendisini gösterir. Kurtuluş mücadelesi boyunca yaşananların edebiyatımızda, farklı türlerde, dönemin gerçekliğini yansıtan bir tutumla işlendiği görülür. Bu gerçekliğin edebî sahada yankısını bulduğu farklı bir tür de çocuk tiyatrolarıdır.

Hayatın belli bir kesitinin veya insanı etkileyen, insanı ilgilendiren bir durumun sahne ortamına aktarılmasıyla bireyi kendi hayatına dair düşünsel bir farkındalığa taşıyan tiyatro aynı zamanda bir bilinci aşılamanın da en etkili ve eğlenceli yoludur. Toplumsal ve bireysel sorumlulukları, kültürel kimliği, insanî değerleri kazandırmaya yönelik bir faaliyet olan tiyatro, kişisel gelişime katkı sunmanın yanında toplumsal değerlere dair bütünleştirici fonksiyonuyla da önemli bir sanat dalıdır. Bu sanatın yetişkin insanlara yol gösterici, onları bilinçlendirici yönü değer kazanırken zaman içerisinde çocuklar için de faydalı bir tür olacağı fikri öne çıkarak çocuklara yönelik tiyatro faaliyetleri de çoğalmıştır.

1. Tiyatro Çocuk İlişkisi

İnsanın doğumu ile birlikte önünde hazır bulduğu dünyaya uyum sağlama, ona katılarak öznesi olma süreci çocuk yaşlarda başlar. Farklı dönemlerde farklı algılarla şekillendirdiği bu hazır dünyayı, oyunlar ile kendine dönüştürmeye çalışır. Çocukluk dönemlerinden itibaren kimi zaman hayalî

* Doç. Dr., Fırat Üniversitesi, İnsani ve Sosyal Bilimler Fakültesi, Türk Dili ve Edebiyatı Bölümü, Elâzığ; mdeveci@firat.edu.tr
** Dr., Sivas Cumhuriyet Üniversitesi, Eğitim Fakültesi, Türkçe ve Sosyal Bilimler Eğitimi Bölümü, Sivas; ipekyildiz85@hotmail.com

kimi zaman da gerçeğe yakın görünümleri ile bu oyunların, insanın kendilik yaratımında şekillendirdiği ilk tiyatro örnekleri olduğu söylenebilir. Eylem ve durumları oyunlaştırarak dünya sahnesine çıkan çocuk için aldığı rol, onun çevreye katılımını sağladığı gibi belleğinde taşıyacağı anıların da belirleyicisi olur. Gelecek kuşağın gelişimine katkı sunması açısından düşünüldüğünde, çocuk tiyatroları, kültür aktarımının başat faaliyetlerinden biri olduğu gerçeği yadsınamaz.

Inbound International Students to China, 2011-2016. China Power:

https//chinapower.csis.org/china-international-students adresinden alınmıştır. [Erişim 18 Mayıs 2019]

Jakimovski, J. (2011). The human capital as a factor in the sustainable development. *Skola biznisa*. 72-85.

Kerry, D. (2008). "China's Foreign Policy: what Does It Mean for U.S. Global Interests?" A. V. Monroe içinde, *China's Foreign Policy and Soft Power Influence* (s. 6). New York: Nova Science Publishers, Inc.

Lye, L. F. (2013). "China's External Relations and Global Governance". G. WANG, & Y. ZHENG içinde, *China: Development and Governance* (s. 393-394). Singapur: World Scientific Publishing, Co. Pte. Ltd.

National Geographic Style Manuel. National Geographic: https://sites.google.com/a/ngs.org/ngsstyle-manual/home/A/asian adresinden alındı. [Erişim 12 Mayıs 2019]

National Geographic Style Manuel. National Geographic Society: https://sites.google.com /a/ngs.org/ngs-style-manual/home/A/asian adresinden alındı. [Erişim 12 Mayıs 2019]

Nye, J. J. (2004). *Soft Power The Means to Success in World Politics.* New York: Public Affairs.

OECD. (2001). *The well-being of Nations The Role of Human and Social Captal.*

Šlaus, I. & Jacobs, G. (2011). "Human Capital and Sustainability". *Sustainability*. 97-154.

Statistical report on international students in China for 2018. Ministry of Education: en.moe.gov.cn adresinden alınmıştır. [Erişim 31 Mayıs 2019]

UNESCO (1991). *Guidelines for Curriculum and Textbook Development in International Education.* UNESCO.

UNESCO (2006). *Global education digest 2006: Comparing education statistics across the world.* Paris: UNESCO.

UNESCO (2019). *Global Flow of Tertiary-level students*. UNESCO UIS: uıs.unesco.org adresinden alınmıştır. [Erişim 23 Mayıs 2019]

Zhao, L. (2013). "China's Higher Education Reform". G. WANG, & Y. ZHENG içinde, *China: Developmnt and Governance* (s. 396-397). Singapur: World Scientific Publishing, Co. Pte. Ltd.

Zhou, Y. & Luk, S. (2016). "Establishing Confucius Institutes: a tool for promoting China's soft power?". *Journal of Contemporary China*. 628-642.

TÜRK DÜNYASINDA MİLLÎ MÜCADELE'NİN YORULMAZ KALEMİ: CENGİZ DAĞCI

*Öztürk EMİROĞLU**

Giriş

Türk dünyası edebiyatlarında Cengiz Dağcı'nın eserlerinde, savaş, sürgün, tehcir veya zorunlu göç, millî şuur, millî mücadele gibi kavramların çok işlendiği ve bu kavramlar etrafında kurgulanan olayların gerçeklik bağlamında özel bir önemi olduğu görülür. Romanlarını ve hikâyelerini yaşadığı gerçek hatıralarla birleştirerek savaş, sürgün, tehcir, direnme, millî mücadele gibi çekirdek kavramlar üzerine kurgulayan yazarın, bu kavramlar üzerinden yapılacak bir kategorizasyonda, dünya edebiyatı ve insanlık tarihi için ne kadar önemli eserler verdiği anlaşılır.

II. Dünya Savaşı'nda hem Rus hem de Almanlar tarafında zorunlu olarak savaştırılmış biri olarak cephe ve cephe gerisinde yaşananların şahidi ve gözlemcisi olan Cengiz Dağcı, realist unsurlar ağırlıklı kurguladığı romanlarında II. Dünya Savaşı'nda mensubu olduğu Kırım Türklerinin trajedilerini anlatarak insanlığın dikkatini savaşın acımasızlığına çekmeye çalışmıştır. Savaşın, zorunlu göç ve sürgünlerin insanlar üzerinde psikolojik yönden nasıl travmalara yol açtığını, kendi yaşadıklarıyla örneklendirerek, göstermek istemiştir. Eserleriyle, Kırım Tatar Türklerinin Cengiz Han'dan beri vatan tuttukları topraklardan sürülmelerini ve sürgünde millî mücadele ruhlarını, toplumsal belleklerini ve millî bilinçlerini canlı tutmaya çabalamıştır. Bu bağlamda Cengiz Dağcı, sürgündeki bir toplumu vatanına bağlı kalmak ve geri dönme azmini yaşatmak noktasında kalemiyle önemli bir vazife görmüştür. Vazifesini, Kırım Türklerine acılarını hatırlatarak mücadele etme ve yeni nesillere bu mücadele ruhunu aşılama bağlamında yansıtma kuramından faydalanarak yerine getirmiştir.

* Prof. Dr., Varşova Üniversitesi Şarkiyat Fakültesi Türkoloji ve Orta Asya Halkları Bölümü Öğretim Üyesi; *o.emiroglu@uw.edu.pl*

Korkunç Yıllar'da Millî Mücadele Ruhu

Cengiz Dağcı, 15 roman, 5 hikâye ve 5 hatıra kitabı bırakmış XX. yüzyılın önemli yazarlarından biridir. Eserlerinin her biri, yaşananları yansıtma noktasında filmlere konu olabilecek niteliktedir. Bu nitelikli eserlerden ilki olan *Korkunç Yıllar* (1956) başlığıyla yayımladığı romanı, 2012 yılında "Kırımlı" adlı filme konu olmuştur. Bu incelemede, (Ötüken Yayınları, 19. baskı) 2013 baskısı esas alınarak *Korkunç Yıllar* romanı üzerinden yazar olarak millî mücadele ruhuna katkıları değerlendirilecektir.

Roman, Cengiz Dağcı ile başkahraman Sadık Turan'ın tanıştığı 2.5 sayfalık Giriş'ten (s. 11-13) sonra dokuz bölümden oluşmaktadır (14-254). Zaman aralığı 1942 sonbaharından 1946 sonbaharına sürmüş olsa da anlatılan olaylar, başkahramanın şuurlu çocukluk yıllarına geriye dönüşlerle (feedback) 1920'li ve 1930'lu yıllara kadar uzanır. II. Dünya Savaşı'nda başkahraman Sadık Turan'ın şahit olduklarından hareketle bir hatıralar kroniği tarzında yazılmış bir roman ile karşı karşıyayız. "Sadık Turan'ın Hatıraları" niteliğindeki *Korkunç Yıllar* ilgili ilgi İsa Kocakaplan'ın tespitleri düşüncelerimizi doğrulamaktadır:

> *"Eser hatırat özelliğinde olduğundan, romanın kompozisyonu da buna uygun olarak düzenlenmiştir. Roman dokuz bölüme ayrılmış ve her bölümün başına geçmişteki hatıraların yazılmasından evvel, Sadık Turan'ın hâlihazırdaki ruh durumunu yansıtan paragraflar konulmuştur. Hatıralar Roma'da yazılmıştır. Bu sebeple bölüm başlarındaki paragraflarda, Sadık'ın Roma'daki hayatı aktarılır. Böylece yaşanan an ile mazi birleştirilir"* (2012: 82).

Hatıralar romanın birinci kısmının ilk paragrafı, çok çarpıcı bir film sahnesini veya korkunç dünyaya açılan bir kapıyı andırır ve daha sonra anlatılacakları özetler niteliktedir:

> *"YURDUMDAN, son olarak 1942 yılının sonbaharında ayrıldım. Bu ayrılık çok acı oldu. Yurduma bir daha dönemeyeceğimi hissediyordum. İstasyonda anam, babam, kardeşlerim, hısım akraba toplanmıştı. Kompartıman penceresinden onlara bakarken hayatımın acı tatlı günlerini düşünüyordum. Bu onları sonuncu görüşümdü. Annem sağ elini bana doğru kaldırmış, sol eliyle, omuzlarından aşağı sarkan atkısının ucunu tutarak gözlerinin yaşını siliyordu. Tren son bir düdük daha çaldı, sonra lokomotifin bağrından fışkıran kara bir duman aramıza girerek bizi birbirimizden ayırdı. Kompartımanın penceresinden, elimizden alınmış ata topraklarına baktım, baktım. Bu topraklar, vagonların tekerlekleri altında yılların kanlı türküsünü söylüyordu. Bu türküyü saatlerce dinledim, sonra Allah'ım Allah'ım diye yakardım, sen bizi ayırma bu topraktan!*
>
> *Bu toprak bizimdir. Atalarımızın mirasıdır. Aç, çıplak kalsak da toprakta olalım. Ölsek de bu toprakta ölelim. Vatanım, vatanım!*

Dünyanın hangi köşesinde olursam olayım, ben yaşadıkça sen de bizimle beraber olacaksın…" (KY 2013: 11).

Vatanından, akrabalarından ayrılmak zorunda kalan ve savaşa götürülen birinin durumunu, realist bir şekilde kelimelerle fotoğrafını çekerek başkahraman Sadık Turan'ın gözünden anlatan yazar, bu paragraftan sonra 1930'lu, bilinçli çocukluk yıllarına döner. İlk olarak babasının milisler tarafından hapse atılış haberini annesinin nasıl aldığını, kendisi ile kardeşi Bekir'in köy çocuğu olarak oyun ve eğlencelerini, okuldan uzaklaştırılmasını; öğretmeni Safiye'nin, annesine götürmesi için para vermesini, köyündeki insanların yarısını Kozakların nasıl götürdüklerini ve aralarında ilkokul öğretmeni Safiye'nin de bulunuşunu acıklı bir şekilde anlatır (KY 2013: 16-19). Birinci kısımda babasının hapisten çıkışı ve Akmescit'e yerleşmeleri, orada yaşadıkları hayata tutunma zorluklarını da aktarır (KY 2013: 19-23). Akmescit'te okula başlaması ve arkadaşı Süleyman ile okul hayatı ve Rusların Akmescit'te Türklere ait tarihî eserleri, camileri, minareleri yıkarak dini ve millî değerlerini bu coğrafyadan nasıl silmeye çalıştıklarını bütün gerçekliğiyle gözler önüne serer. Bilhassa Tokal camisinin minaresini yıktıklarında yaşadığı psikolojik bunalımı babası Hüseyin Ağa'nın çocuğunu rehabilite edişini nakleder. Bu şuurlu baba, Sadık'a millî bilinç aşılar. Komünistlerin 1930'lu yıllarda Kırım'daki Türk mührü olan camileri, sarayları, tarihî binaları yıkmalarını ve bu yıkım karşısında oğlunun güçlü bir karaktere sahip olması için sarf ettiği sözler, bir çocuğun beynine milli mücadele ruhunu nakşeder niteliktedir:

"- Bak derdi, iyi bak bu yıkıntılara… Sonra bana kuvvet verirdi:

- Biz bunlara bakıp korkmamalıyız. Düşmanlarımız korksun. Hem de nasıl korkuyorlar. Korkularından bize bu zulümleri yapıyorlar. Korkmasaydılar yapmazdılar. Yüz elli yıldır bizi tüketmeye çalışıyorlar. Yüz elli yıl. İşte bu yurtta bir avuç Tatar kaldık. Bizi büsbütün yok etmedikçe içleri rahatlamayacak. Biz mahvolduktan sonra bile, bu sefer ruhumuzun önünde titreyecekler. İyi bak bu yıkıntılara! Sen benim evladım olmakla beraber, bu toprağın, bu yıkıntıların bir parçasısın… Seni bu toprak doğurdu, bu toprak besledi. Bil ki yalnız değilsin. Büyük bir milletin zengin zengin geçmişi ve parlak geleceği seninle beraber.

Bahçesaray'dan Kâşgar'a varana kadar binlerce minaremiz göklere uzanıyor. Bize Tatar diyorlar, Çerkez diyorlar, Türkmen diyorlar, Kazak diyorlar, Özbek diyorlar, Azer diyorlar, Karakalpak, Çeçen, Uygur, Kabardı, Başkırt, Kırgız diyorlar. Bunlar hep yalan! Deniz parçalanmaz. Biz Türk-Tatarız. Bunu senin kalbinin bildiği gibi, her Başkırt, her Kırgız, her Kazak'ın, Kırgız'ın kalbi de bilir. Kalbinin hisleriyle hareket et. Dünyanın boş hırslarına kapılma…" (KY 2013: 27).

Bir babanın evladına verebileceği tarihî gerçeklerle örtüşen bir bilinçlendirme ve millî mücadele ruhunu canlı tutma çabası, bu satırlarda Sadık Turan'ın şahsında bütün Kırımlı çocuklara ve *Korkunç Yılları* okuyacak Türk dünyası çocuklarına Cengiz Dağcı tarafından aktarılmaktadır. Suçu olmadığı hâlde hapsedilen ve bir süre sonra serbest bırakılan Hüseyin Ağa'nın 1930'lu yıllarda Akmescit'te hayata tutunabilmek için ailesiyle birlikte önce bir tavuk kümesine yerleşmesi ve Sadık'ın o yıllarda ortaokula gitmesi konu edilir.

Korkunç Yıllar romanın temel özeliklerinden biri, II. Dünya Savaşı'ndan hemen sonra yazılması ve anıların tazeliği sebebiyle gerçeklik boyutunun yüksek olmasıdır. Dağcı'nın Türkistan Lejyonu'nda yaşadıkları ve II. Dünya Savaşı'nda 2 milyona yakın Kazak, Özbek, Kırgız, Tatar ve Azerbaycanlı Türk'ün, Sovyetler Birliği ordusunda savaşırken Nazilere esir düşmeleri ile romandaki anlatı, yeni bir boyut kazanır. Esir kampında bulunanlardan biri de Cengiz Dağcı'dır. Romanın başkahramanına Sadık Turan adını vermesi, bu lejyondaki Türk kökenli askerlerin ve kendisinin o yıllarda "vatan geniş ve müebbed bir ülkedir Turan" ülküsüne inanarak bu uğurda can feda edenlerle ilgilidir. Cengiz Dağcı da her ne kadar *Korkunç Yıllar'*daki Sadık Turan ve *Biz Beraber Geçtik Bu Yolu* romanındaki İzmail Tavlı ile özdeşleşmediğini söylese de kendi yaşadıklarını başkahramanlar üzerinden anlatması söz konusudur:

> *"Ben ne Sadık Turan'ım, ne de İzmail Tavlı. Ne var ki, her iki olayla benim o günkü durumum arasında yakınlık ve benzerlik var. Her iki romanımda da o günkü gerçek durumumdan istifade edildi"* (*Hatıralarda Cengiz Dağcı* 2006: 107).

Cengiz Dağcı ve eserleri üzerine inceleme yapan İbrahim Şahin ve Abdulvahap Kara, Cengiz Dağcı ile Sadık Turan ve İzmail Tavlı'nın özdeşleştiğini tespit etmişlerdir. Abdulvahap Kara, Cengiz Dağcı'nın 9 Ağustos 1941'de öğle saatlerinde Almanlara esir düştüğünü ve Sadık Turan ile İzmail Tavlı'nın da Bug nehri kıyısında Almanlara esir düşmesinin yazarın durumuyla alakalı olduğunu kaydeder (2011: 41). İbrahim Şahin ise Dağcı'nın *Korkunç Yıllar* romanında başkahramana Sadık Turan adını vermesini; yazarın Türkistan Lejyonunda bulunduğu yıllarda kendisiyle birlikte savaşan pek çok Tatar, Kazak, Özbek, Kırgız Türkü'nün Turan ülküsü uğrunda kurban oluşlarının hatırasına sadakatini göstermek için bilinçli bir şekilde seçtiğini vurgular (1998: 65). Bu yüzden Sadık Turan ve İzmail Tavlı Cengiz Dağcı'nın bazı yönlerden kendisidir.

Sadık Turan, Almanlara esir düştükten sonra eğitim için Varşova'ya 30 km mesafedeki Legionova'ya getirilir. Legionova'da, pek çok Özbek, Kazak, Kırgız Türkü ile eğitim gören Sadık Turan'ın bu esaretten memnuniyeti, Almanların Türkistan'ı Sovyetler Birliği'nden ayırarak bağımsız bir devlet kurmaktan yana oldukları şeklindeki beyanlarıdır (KY 2013: 212, 217, 219).

Bu tarz beyanlara Türkistan Lejyonundaki bazı askerler inanmakta bazıları da Almanların kendilerini kullandıklarını düşünmektedir. Hakikatte Nazilerin Türkistan'ın bağımsızlığı gibi bir planları yoktur ve bu "büyük Nazi yalanı"dır. Türkistan'ın bağımsızlığı aldatmacasının altında, Ruslara karşı Türk soylu hakların gücünden faydalanmak, kullanmak ve kaynaklarını sömürmek gerçeği vardır (Kara 2002: 271-272).

Yaşanan an ile mazi yani hâl ve geçmişteki hatıralar birleştirilerek yazılan *Korkunç Yıllar*'da, hem Rusların hem de Almanların hedeflerinin Kırım ve diğer Türk coğrafyalarından Türk dilinin, İslam dininin ve Türk medeniyetinin kültür, sanat değerlerini yok etmek olduğu ortaya çıkmaktadır. Çünkü camileri ve tarihî eserleri yıkmaları, alfabe değiştirtmeleri; Türk dilini yok etmek ve Türk haklarının birbiriyle irtibatını koparmak ve millet olarak varlıklarını yok etmeye yönelik tahrip hamleleridir. II. Dünya Savaşı yıllarında Kırım Türklerinin orta ve daha yaşlı kesimi bu gerçekleri bildikleri için, çocuklarda millî ücadele ruhunu canlı tutmak için "Siyer-i Nebi", "Çora Batır", "Kuzu Kurpeç" gibi değerler anlatıları ile kişilik kazandırmaya çabalamışlardır. *Korkunç Yıllar* romanındaki Sadık Turan'ın babası Hüseyin Ağa da bu büyüklerden biridir. Okullarda sürdürülen komünist Sovyetler Birliği eğitim anlayışına karşı Kırımlı ve diğer coğrafyalardaki Türklerin çoğu, evlerde, dini ve millî değerleri çocuklarına aktarmak ve dinperver, vatanperver çocuk ve gençler yetiştirmek için yılmadan, yorulmadan mücadele etmişlerdir. Ancak okuldaki eğitiminin etkisinde kalıp kendi toplumundan ve değerlerinden kopan, Ruslara hizmet eden, tipler de vardır. *Korkunç Yıllar* romanında Sadık Turan'ın sınıf arkadaşı Süleyman, orta yaş dönemine kadar Ruslara hizmet etmiş, sonradan kendi değerlerine dönmüş olanlara ilginç bir örnektir.

Korkunç Yıllar romanında Sadık Turan, Kırımlı İskender'in yardımıyla esir kampında aşçı olur. Bu onun hayatında dönüm noktasıdır. Çünkü aşçılıktan sonra bir Nazi başçavuşunun emir eri olur. Başçavuş esaret kampından cepheye tayin olunca Sadık'ı da yayında götürür ve Almanlar hesabına Rusya'da casusluk yapmasını teklif eder. Sadık bu teklifi red edince Türkistan ordusuna gönderilir. Almanların kampta eğittikleri esirlerin üzerinden Rus üniformalarını çıkarttırıp sözde Türkistan'ın bağımsızlığı için Alman üniformalarını giydirdikleri toplantı ve daha sonra farklı yerlerde savaştırılan esir kamplarına sürülen Sadık ve tanıdıklarının hikâyelerini, hatıralarını, mektuplarını içeren bu roman, 1 Nisan 1946'da yazılmaya başlanmış ve 10 Ağustos 1946'da sona ermiştir. II. Dünya Savaşı'nda yaşananlar hafızada canlı iken yazılan roman, başkahramanın yeni hatıralarını yazmak vaadiyle son bulur.

Sonuç

Türk dünyasının bir yazarı olarak Cengiz Dağcı'nın eserlerine bakarak mensup olduğu milletine karşı görevini hakkıyla yaptığını ve zirve şahsiyetlerden biri olarak Türk dünyası ortak edebiyatında sağlam yer edindiğini söyleyebiliriz. *Korkunç Yıllar* (2013) romanının başındaki Cengiz Dağcı'nın hayatı ve eserleri ile ilgili Ötüken Yayınevinin takdim yazısında yazarın Türk edebiyatındaki yeri şöyle vurgulanır: *"Dağcı, Türk edebiyatının büyük yazarları arasındadır. Romanlarında Kırım Türklerinin yaşadığı acıları hüzünlü ama berrak bir üslupla aksettirir. Kitapları elden ele dolaşır. Kırımla olan ilgisini hiçbir zaman koparmaz ve Kırım Türklerinin vatanlarına dönüşlerini anlatmayı ihmal etmez. Hatırlarında, "Ben yalnızca Kırım'ın yazarı değilim ama Kırım'ın faciasını bütün gerçeği ve içtenliğiyle ben yazabilirdim"* ifadeleriyle üstlendiği misyon dile getirilir.

XX. yüzyılda Kırım'da yaşanan zulümleri, faciaları konu edinen yazar olarak Cengiz Dağcı'nın eserleri, Türk dünyasında Millî Mücadele'nin yüzyıl önce olduğu gibi bugün de çok mühim bir konu olduğunu ortaya koymaktadır. *Korkunç Yıllarda* anlattığı hakikatler bugün de yaşanmak ve aynı düşman farklı noktalardan bir ahtapot gibi hem Kırım'da hem Karadeniz hem de Akdenizde etrafımızı sarmış durumdadır. Kırım yine iki yüz yıl öncesindeki, I. ve II. Dünya Savaşı'ndaki gibi aynı işgalci tarafından istila edilmiştir. Bu sebeple o zamanlarda olduğu gibi bugün de Millî Mücadele ruhunu canlı tutmaya, Türk dünyasında dayanışmayı artırmaya eskisinden daha fazla ihtiyaç vardır.

Kaynaklar

Dağcı, Cengiz (2013). *Korkunç Yıllar.* İstanbul: Ötüken Yayınları.

Hatıralarda Cengiz Dağcı (2006). İstanbul: Ötüken Yayınları.

Kara, Abdulvahap (2002). *Türkistan Ateşi Mustafa Çokay'ın Hayatı ve Mücadelesi.* İstanbul.

Kara, Abdulvahap (2011). "Cengiz Dağcı ve Türkistan Lejyonerleri". Haz.: Emel Kefeli-Nesrin Sarıahmetoğlu. *İnsan-Bellek-Eser: Cengiz Dağcı.* İstanbul: Ötüken Yayınları. 33-59.

Kefeli, Emel-Sarıahmetoğlu, Nesrin (2011). *İnsan-Bellek-Eser: Cengiz Dağcı.* İstanbul: Ötüken Yayınları.

Kocakaplan, İsa (2012). *Kırım'ın Edebî Sesi Cengiz Dağcı.* İstanbul: Türk Edebiyatı Vakfı Yayınları.

Şahin, İbrahim (1998). *Cengiz Dağcı'nın Hayatı ve Eserleri.* Ankara: Kültür Bakanlığı Yayınları.

GÜLTƏKİN POEZİYASINDA MİLLİ MÜCADİLƏ MOTİVLƏRİ

*Bədirxan ƏHMƏDLİ**

Gültəkin (Əmin Abid) özünün şəxsiyyəti, poetik yaradıcılığı və vətəndaşlığı ilə bir istiqlal yolçusu olaraq 20-ci illərin əvvəllərindən başlayaraq milli istiqlal ruhlu şeirlərini mühacirət mətbuatında dərc etdirməklə Azərbaycan mühacirət poeziyasının çox böyük hərəkətverici qüvvəsini təşkil edir. "Gültəkin" imzası ilə Ə. Abid həm də *Yeni Kafkasiya* dərgisində məqalə ilə çıxış etmişdir. Dərginin 1339-cu il 2-ci sayında "Azərbaycanlı Gültəkin" imzası ilə "İstiqlal şəhidləri" rubrikasında "Müəllim Firudin bəy Köçərli" məqaləsi dərc olunmuşdur. Məqalədə Rusiya gizli istila süngüsünün Azərbaycanın bağrına saplanaraq köksünü sipər edənləri məhv etdiyini göstərir və bunlardan biri olan F. Köçərli haqqında məlumat verilir. Onun şəxsiyyətini və gördüyü işi yüksək qiymətləndirən Gültəkin kommunistlərin onu məhv etməsi üzərində geniş dayanaraq yazırdı: *"Kommunistlər qanlı pəncələrini Kafkasiyaya uzatdıqları zaman bu fəal müəllimi Qazax Darülmüəllimində vəzifəsi başında bulmuşlar, tahti frvkifə alaraq Gəncəyə götürmüşlərdi. Çox keçmədən Azərbaycan afakını qanla boyayan Moskof süngüsü, bütün milliyyətpərvər türk gəncləri kibi Firudin bəyin alnına da qızıl yazılarala 'idam' deyə yazdı. Siyasətlə fəal əlaqəsi olmayan fəal bir müəllimin, mədəniyyətə yakışmayacak bir surətdə parçalanması, Türk münəvvərliyi, bilxassə türk müəllimliyi üçün böyük təəssüratı mücibdir. Fəqət bizə yeganə təsəlli verən şey bugün daşdan bir məzarı bulunmayan və harada dəfn edildiyi bilinməyən Firudin bəyin, milliyyətpərvər Azəri gəncliyinin qəlbinə gömülməsidir. Hiç şübhəsiz böyük bir "hədiyyə" verdiyi ("Balalara hədiyyə" [1912] kitabı nəzərdə tutulur-B. Ə.) 'balalar' er-gec 'babalar'ının intiqamını alacaqdır"* (1, 45).

Yazının I məqalə adlanmasından belə görünür ki, Gültəkin istiqlal şəhidlərinə daha bir neçə məqalə həsr etməyi düşünürmüş. Elə də olur; "Azərbaycanlı Gültəkin" imzası ilə onun *İstiqlal şəhidləri* rubrikası altında ikinci

* Filologiya elmləri doktoru, professor; AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri; *bedirxan@mail.ru*

"Müəllim Kabulzadə İslam bəy" məqaləsi dərginin beşinci sayında dərc edilir. Maraqlıdır ki, şairin bu dərgidə çap olunan "Annəmə" şeiri də "Gültəkin" deyil, "Azərbaycanlı Gültəkin" imzası ilə çıxmışdır. Bu, hələlik şairin mühacirətdə bizə məlum olan ilk şeiridir. Ümumiyyətlə, bundan sonra da şairin bu dərgidəki şeirləri "Azərbaycanlı Gültəkin" imzası ilə çap olunmuşdur. Görünür, 1928-ci ildə "İstiqlal uğrunda" məcmuəsini tərtib edənlər onun imzasını Gültəkin kimi verməyi məqsədəuyğun bilmişlər Məcmuəyə Kamal bəy tərəfindən yazılan "Bir müqəddimə"də şeirlərin haradan əldə olunduğuna dair bəzi işarələr də vardır. Müəllifə görə "Azərbaycan istiqlalının eşqi və həsrətilə yanan qəlblərin həmləsini və acısını duyan həssas qələmlərdən çıxmış bu nəşidələr"in əldə edildiyi mənbəyi də göstərilir: *"Əvət, əldə mövcud parçalar diyoruz, çünki orada, o zülm, vəhşət və əsarət diyarında yaşayan və ən qutlu nəşidələrini gizli məhfillərdə (yığıncaq) oxuyan canfəza şairlərin əksəriyyətlə əzbərdən oxunaraq dildən-dilə dolaşan istiqlal şeirlərindən bu məcmuəyə keçən qismi azdır. Fəqət burada, bu mühacirət həyatında yazılan və əksəriyyətlə istiqlal mücadiləsinin ən şanlı təzahüratını qeyd edən möhtərəm 'Yeni Qafqasya' və 'Azəri türk' səhifələrində yer bulan şeirlər dəxi bizə Azərbaycan türklüyünün nə kimi hisslərlə istiqlal uğrunda mücadiləyə girişmiş olduğunu göstərir"* (2, 6).

İstiqlal uğrunda məcmuəsində Gültəkinin yaradıcılığı xüsusi yer tutur. Bu məcmuədə ən çox yer alan şeirlər Gültəkinindir. Maraqlıdır, toplu nəşr edilərkən Gültəkin artıq üç il idi ki Azərbaycanda yaşayırdı, ədəbiyyatşünas olaraq fundamental tədqiqatlar aparırdı. Lakin məcmuədə şairin bu qədər şeirinin yer alması, bölümlərin böyük əksəriyyətinin onun poetik parçaları ilə açılması nəyi göstərir? Hansı əsasla tərtibçi şairin şeirlərinə bu qədər geniş yer verib? Kitaba yazılan müqəddimə isə demək olar ki, başdan-başa Gültəkinin yaradıcılığını təhlil edir, gətirilən sitatların əksəriyyəti də ona məxsusdur. Bütün bunlar yalnız tərtibçinin şairin şəxsiyyətinə yaxınlığından irəli gələ bilməzdi. Burada əsas faktor şairin yaradıcılığında milli ruhun, vətənpərvərlik və istiqlal duyğularının ən yaxşı şəkildə poetik ifadəsinin məhz onun yaradıcılığında əks olunmasından qaynaqlanırdı. Şair ölümün qorxunc yolunda yürüyən Azəri gəncliyinə üz tutaraq *"Hüriyyət isteriz!"* deyə car çəkirdi:

"Hürriyet isteriz!" diye yazdınız!
Selamet yoludur gittiğiniz yol.
Güneşler doğacak izlerinizde.
Yalnız değilsiniz, yoldaşınız bol,
Bir imanlı millet var yerinizde.
Düşman saldırsa da dört koldan size
Korkmayın 'kurtuluş pek mehal' diye.
Biz de geliyoruz o yoldan size
Istiklal, Istiklal... istiklal diye (3, 26).

Sovet Azərbaycanında "Qızıl qələm" şairləri komminist ideologiyasından çıxış edərək bolşevik sistemini tərənnüm edərkən, Gültəkin "İstiqlal!" deyə haray çəkir, əsir xalqının azadlığa çıxması üçün var gücü ilə mübarizə aparırdı. İlk dəfə olaraq Türkiyədə Azərbaycan şairi vətənin istiqlal duyğularını poetik formada dilə gətirir. Qızıl Ordunun Azərbaycanı işğalından sonra vətəndən uzaqlarda, eləcə də Türkiyədə iztirablı mühacirət həyatını yaşayan azərbaycanlılar üçün siyasi mübarizənin hələ təşkilatlanmadığı bir dövrdə bu şeirlərin rolu ölçüyəgəlməzdir. Bu şeirlərdə şairin xalqı, vətəni üçün ən ali arzu və istəkləri, onun xoş gələcəyi ifadə olunurdu. Həmin dövrdə bir millətin iki ədəbiyyatının yaranmasının əsası qoyulur: biri vətəndə, digəri isə sərhədlərindən kənarda – mühacirətdə. Onun İstanbulda olduğu dönəmdə M. Ə. Rəsulzadənin rəhbərliyi ilə Azərbaycan siyasi mühacirəti özünün təşkilatlanma mərhələsini yaşayır. Azərbaycan idealı və milli şüurun yaradılmasında isə mühacirliyin, hər şeydən öncə, ictimai xarakter alması, siyasi cəhətdən təşkilatlanması və mətbuat orqanlarının yaradılması önəmli rol oynayır. Aprel çevrilişindən sonra siyasi liderlərin Türkiyə və Avropada məskunlaşması və yenidən Azərbaycanın müstəqilliyi naminə mübarizəyə daxil olmasına şərait yaratdı. Mühacirətdə Azərbaycan ədəbiyyatının inkişafından söz açan M. Ə. Rəsulzadə sovet işğalı dövründə "Çağdaş Azərbaycan ədəbiyyatı" məqaləsində həm Azərbaycanda həm də ondan kənarda yaranan ədəbiyyatın ən yaxşı nümunələrini tədqiq edirdi. M. Ə. Rəsulzadə, H. Cavid, A. Şaiq, C. Məmmədquluzadə, S. Vurğun, S. Rəhman kimi şair və yazıçıların əsərlərinə yüksək qiymət verdiyi kimi, Əliyusif, Gültəkin, K. Yaycılı kimi mühacir ədəbiyyatının nümayəndələrinin də yaradıcılığını yüksək qiymətləndirirdi. Gültəkinin yaradıcılığı barədə M. Ə. Rəsulzadə yazırdı: *"Millətin parlaq gələcəyinə böyük ümidlər bağlayaraq hürriyyətə susamış, mübarizə həyəcanının gərginliyini daşıyan bu igidlərin əsl qəhrəmanlığı ilə bizi həqiqi mənada tanış edən şer bolşevik senzurasından azad olaraq mühacirətdə nəşr edilən Azərbaycan ədəbiyyatıdır...*

Gültəkinin şeirlərində biz həqiqi milli inqilab mübarizəsinin nəşidələrini görürük. Mübarizənin ədalətliliyinə və qələbə ilə nəticələnəcəyinə bağlanan ümid, Gültəkində adətən dini bir mahiyyət alır. Gültəkin şeirlərinin təfsilatı ilə araşdırılması bizi çox məşğul edir, vaxtımız və iclasımızın çərçivəsi buna imkan vermir. Bir neçə misalla da Gültəkinin yaradıcılığı haqqında müəyyən bir fikir yarana bilər" (4, 82-83).

Ə. Cəfəroğlu isə yazırdı: *"Gültəkin bəyin şeirləri qüvvət və gözəlliyi ilə yalnız ədəbi deyil, siyasi mətbuatımızda da rəğbətlə qarşılanmışdır. Hətta onun bəzi şeirlərinə mahnılar da bəstələnmişdir və bu gün həmin mahnılar İstanbulda böyük maraq doğurmaqdadır"* (5, 82-83).

M. Ə. Rəsulzadənin "Gültəkin" poeziyasına yüksək qiymət verməsinin səbəbləri vardır; bu səbəblərdən biri siyasi amillərlə bağlıdır. Gültəkin öz şeirlərində rus işğalına məruz qalmış xalqın istiqlaliyyət ideallarını qələmə almışdır. İkincisi, mühacirət poeziyasının əsasını qoymuşdur. Üçüncüsü, poetik inkişaf baxımından da bu ədəbi nümunələr ədəbiyyatın yeni inkişaf istiqamətini müəyyənləşdirirdi. Doğrudan da, istər 20-ci illərdə, istərsə də 30-40-50-ci illərdə yaranan mühacirət poeziyasının örnəyi məhz Gültəkinin şeirləri olur. Lakin uzun müddət Gültəkinin kim olması, bu istiqlal şeirlərinin şöhrət ünvanının kimə tuşlanması məsələsi gizli qalmışdır. Buna səbəb nədir? Mühacirət poeziyasının yaradıcısı bu şöhrəti (!) nə üçün özündən uzaqlaşdırmışdır?

Ə. Abid Türkiyəyə ikinci dəfə 1922-ci ildə təhsil dalınca getmiş, *Azərbaycan türklərinin ədəbiyyatı tarixi* əsərini yazmağı qarşısına məqsəd qoymuşdu. O, əslində Türkiyəyə mühacirət etməmişdi, siyasi mənsubiyyəti etibarı ilə heç bir partiyanın üzvü deyildi. Lakin Türkiyəyə getməsinin sovet hakimiyyəti illərinə təsadüf etməsi və Türkiyədə onun Azərbaycan siyasi mühacirətinin nümayəndələri ilə əlaqə saxlaması bu gedişə müəyyən mənada mühacir statusu vermiş olur. Elə Ə. Abidin tərcümeyi-hal materialları ilə tanışlıq da bu ehtimalı artırır. Bunu tədqiqatçı Ə. Şamil də Milli Təhlükəsizlik Nazirliyinin sənədlərinə əsasən təsdiq edir. O yazır: *"Əmin Abidin Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin arxivində saxlanan istintaq materialları ilə tanış oldum. Buradakı sənəddə Əmin Abidin İstanbul Universitetində oxuyarkən Məmməd Əmin Rəsulzadə və başqa mühacir siyasi xadimlərlə tez-tez görüşdüyü, onların toplantılarında iştirak etdiyi,* ***Yeni Kafkaziya*** *dərgisində antisovet şeir və məqalələr çap etdirdiyi yazılıb"* (6, 13). Gültəkinin şeirlərinin məzmununu milli mücadilə və istiqlal ideyaları təşkil edirdi. O, bütün varlığıyla itirilmiş müstəqilliyi bərpa etmək üçün milli istiqlal mübarizəsinə çağırırdı:

Azeri oğluyum, adımda şan var;
Damarımda zülme haykıran kan var;
Beni öksüz sanıp kükreme düşman
Bak arkamda hakkı seven cihan var
Paçavra bayrağın elbet solacak,
Azerbaycan yine benim olacak!

Kurtuluş... ey nazlı, sevimli peri,
Günülden vurğundur sana azeri.
Dişimle kırarım bir gün gelir de
Bağrına saplanan kanlı hançeri
Yaşa ey hasretle doğan istiklal!
Yaşa ey Türk, yaşa ey gözel hilal! (3, 27)

Ə. Abidin mühacirət şeirlərinin pafosunu Azərbaycan istiqlalı və bu istiqlal uğrunda canından keçməyə hazır olan gəncliyin mübarizəsi təşkil edir.

Əsarət zəncirini qırıb atmaq yolunda gəncləri nə Sibirin "Soyuq və qorxunc dənizi", nə də "buzlu cəhənnəm" qorxudur. Onlar yaxşı bilir ki, "hər donduran qışın bahardır sonu". Gültəkinin istiqlal şeirləri XX-ci əsrin əvvəllərində yayılmış bir çox şeirlər kimi mücərrəd xarakter daşımır, onun konkret mövzusu, qayəsi var. Bu mövzu və qayə Azərbaycan istiqlalıdır. Artıq bir dəfə Azərbaycan bu istiqlala çatmışdır. İyirmi üç aylıq Azərbaycan istiqlalına qırmzı bolşevik istilası son qoymuşdu. Maraqlıdır ki, Gültəkinin istiqlalı yaşadığı illərdə bu mövzuda şeirləri olmamışdır. Bu şeirlərin yaranma tarixi Azərbaycanın yenicə qazandığı istiqlalını itirməsindən başlayır. Azərbaycan Demokratik Cümhuriyyəti zamanı Azərbaycan ədəbiyyatı istiqlalının özünü yaşamaqdaydı. 1920-ci ilin aprel işğalından sonra isə bu, istiqlal ədəbiyyatının mövzusu oldu. İstiqlal məfkurəsi siyasi mübarizəsində olduğu kimi, ədəbiyyatda da yaşamını davam etdirdi. Lakin istiqlalın yaşaması üçün həm siyasi mübarizədə, həm də ədəbi fikirdə imkanlar məhdudlaşdırılmışdı. İtirilmiş istiqlalın geri qaytarılması üçün mübarizə aparanlar ya sovet zindanlarında çürüyür, ya da uzaq Şimalın buzlu şaxtalarının qurbanı olurdu. "İstiklal, o sönmeyen müebbed bir meş'al, Gönüllerde tutuşur, gözlerde sönse bile" sözlərilə proloq verən şair "Azərbaycan istiqlalı" şeirində yazırdı:

İstiklal, o yaşayan milletin kalbinde can
İstiklal, o saadet, hayat, zefer, şeref, şan.
İstiklal, o sönmeyen müebbed bir meş'ale
Gönüllerde tutuşur, gözlerde sönse bile!...
İstiklal, o vatanın göğsünden yükselen ay.
İstiklal, o kemikten, kandan yapılmış saray.
İstiklal, o milletin parçalanan bağrından
Gelinlerin, kızların, akan göz yaşlarından
Doğmuş pek mübarek, pek mukaddes bir "İlah"tır,
Hangi bir erkek onu düşmanlara kaptırır?
Anaların saçından ördüğü bir bayrağı
Hangi erkek çıkıp edecek baş aşağı?!
Sen bizimsin, bizimsin, durdukca bende can
Yaşa, yaşa, çok yaşa, ey şanlı Azerbaycan! (3, 32)

İstiqlal ideyasının ədəbiyyatımızda intişarı Gültəkin yaradıcılığında bütün dolğunluğu ilə üzə çıxır. O, Azərbaycanda hər şeyin, ədəbiyyatın, incəsənətin təfəkkürün belə bolşevikləşdiyi, XI-ci Qızıl Ordunun xilaskar ordu kimi qələmə verildiyi bir zamanda "Bolşevik" (1924) şeirində bu ordunun işğalçı mahiyyətini üzə çıxararırdı:

Bürüdü bir qorxunc yel kibi bizi,
Bu dağlarda oldu duman bolşevik.
Qanlara boyandı Xəzər dənizi
Vermədi kimsəyə aman bolşevik.
Bolşevik atını sürdü Araza,
Oğulsuz analar batdılar yasa,
Ey əziz qardaşlar, bu yıl olmazsa
Gələcək yıl olur viran bolşevik.
Rəngini tökdüyü qandan aldı o,
Dünyaya bir yeni vəhşət saldı o,
Qafqaz onun deyil, bizdən çaldı o,
Oldu bu gün bizə düşmən bolşevik (3, 62).

Gültəkinin istiqlal şeirləri Türkiyədə *Yeni Kafkaziya* jurnalının ayrı-ayrı saylarında dərc olunmasına baxmayaraq, ilk dəfə bir topluda cəmləşir. Azərbaycan tədqiqatçılarının da istifadə etdiyi bu mənbə 1928-ci ildə İstanbulda çıxmış "İstiqlal uğrunda" adlı şeirlər məcmuəsində dərc edilmişdir. Burada Gültəkindən başqa daha bir neçə istiqlal şairinin şeirləri toplanmışdır. Həmin məcmuədəki şeirlər olduğu kimi yenidən M. B. Məmmədzadə tərəfindən 1948-ci ildə *Buzlu cəhənnəm* kitabında çap olunur. Azərbaycan siyasi mühitinə yaxından bələd olan, siyasi mühacirəti yaşayan və onun tarixini yazan M. B. Məmmədzadə həm də ədəbi fikrə üstünlük verərək istiqlal şeirlərini çap etdirməklə ədəbi fikrin siyasi roluna böyük qiymət vermiş olur. Bu kitab Ə. Abidin sağlığında və ölümündən sonra dərc olunan ilk kitabı olur. Kitaba yazdığı "Gültəkin" adlı ön sözündə M. B. Məmmədzadə Türkiyədə və onun xaricində istiqlal ideallarının bədii fikirdəki roluna böyük qiymət verərək yazırdı: *"Azərbaycan türklərinin milliyyət, hürriyyət və istiqlal uğrunda qızıl rus imperializminə qarşı qanlı savaşını şeir vadisində təmsil edən mühacirlərdən mühacirətdə yetişənlərin başında Gültəkin gəlir"* (7, 3).

Gültəkinin, eləcə də, mühacirətdə onun yolunu davam etdirən şairlərin istiqlal şeirlərinə yüksək qiymət verən M. B. Məmmədzadənin müqəddiməsində ilk dəfə olaraq onun şeirləri təhlil edilir. Müqəddimədən də aydın olur ki, bu cür şeirlərin çapına mühacirətdə böyük ehtiyac duyulur: *"Bir tərəfdən hürriyyət və istiqlal eşqi ilə yanan gənc nəslin ehtiyaclarını təmin etmək, digər tərəfdən dağınıq bir halda bulunan bu şeirləri toplu bir hala gətirmək surətiylə ədəbiyyatla iştiqlal edən maraqlıların işini kolaylaşdırmaq məqsədiylə 'Mühacirətdə yetişən milliyyətçi Azəri şairləri' ümumi adı altında bir şeir nəşrini faydalı gördük. Şeirin birincisini Gültəkin və onun şeirləri təşkil edəcəkdir. Gültəkinin şeirlərini* ***Yeni Kafkaziya*** *məcmuasından alıyoruz. Və bunların ədəbi və milli dəyəri haqqında bir fikir edilə bilmək üçün* ***İstiqlal uğrunda***

şeirlər məcmuəsindəki müqəddiməyi, Gültəkinə aid olmayan çox az sətirləri çıxmaq surətiylə, eynən aşağıya nəql ediyoruz" (7, 4).

Gültəkinin bu şeirləri əsasən proqram xarakterlidir və milli azadlıq ideyasının yayılmasına xidmət edir. Lakin həcmcə böyük olmayan şeirlərin özü belə mövzu, mündəricə baxımından eynidir, həyatla səsləşəndir. "Buzlu cəhənnəm", "Azərbaycan istiqlalı", "Azərbaycan gəncliyinə", "Əsirələr bəldəsi", "Qızıl rus şairinə", "Canavar" şeirlərində süjetli lirikadan geniş istifadə olunur. Kitab "Buzlu cəhənnəm" şeiri ilə şairin "ruslar tərəfindən Sibiryaya nəfy (sürgün) edilən Azəri qardaşlarıma" epiqrafı ilə açılır. Şairin azadlıq, müstəqillik yolundan dönməyən və bu yolda apardığı mübarizə nəticəsində Sibirə sürgün edilən azadlıq aşiqlərinə şeir həsr etməsi təsadüfi deyildi.

Şeir Sibirə müraciətlə başlayır. O, "soyuq və qorxunc dəniz", "yalnız qatilin deyil, haqq bağıran daşın da qəbri olan yer" adlandırdığı Sibirdən təmənna edir. Minlərlə, on minlərlə azadlıq aşiqini öz soyuq qucağına alan Sibirdən nə unmaq olar? Şairin təmənnası budur ki, o, ayağa qalxaraq yeni gələn müsafiri qəbul etsin. Hamısı xəstə və olan bu yaşayış acı rüzgarların ılıq bir qucağı kimi onlara açılsın.

Düşün ki, həpsini düşmən soldurmuş...
Hicran qəlblərinə bir damğa vurmuş.
Onları yollamış bədbəxt bir diyar.
Qəlblərində kədər, gözlərində nəm,
Onları incitmə, yetimdir onlar,
Ey soyuqla yaxan buzlu cəhənnəm! (3, 35)

Sibirya – Təbiətin bu zalım "Çeka"sında nəfəslər tıxanır–sanki yer kürəsi boğulur. Eyni zamanda ananın gözləri yaşla dolur. Nələr düşünür o? Yerim rahatsızdır, oğlumu xatırladı? Yox, oğlunu düşünmə! O artıq buzlu üfüqlərin qucağında olmasına baxmayaraq əməllə, işlə yaşayır, soyuqları *"əmdikcə", "daha ver!"*-deyir. "Qəlbindəki alov" onu yaşadır və əmin edir ki, qışdan sonra hökmən bahar gəlir... Şeirin üçüncü hissəsində şair gənclərə xitab edir: ...

Və siz ey ölümün qorxunc yolunda,
Dəmir addımlarla yürüyən gənclər!
Siz ey bir talehin gizli qolunda,
Yürürkən baxtı da yürüyən gənclər!
Uzatınız bana siz əlinizi,
Təbrik edəyim bən yigidlər sizi!
Baş əymədiniz siz haqq yiyənlərə,
Dediniz yaşamaz Azəri haqsız.
Sizi kəsmək üçün enən xəncərə
"Hürriyyət istərsiz!" deyə yazdınız.

"Bayrağım və istiqlalım" (1924), "Vətənim və eşqim" (1924), "Qürbətdə bayram" (1925), "Azərbaycan istiqlalı" (1919) şeirlərində yaşanmış, lakin əldən verilmiş Azərbaycan istiqlalının yenə də bizim olacağına dərin ümidlər vardır. "Buzlu cəhənnəm"də min bir əziyyətə dözən mübarizlər bayrağı, istiqlalı, vətən eşqini qəlblərində yaşadırlar. "Bayrağın ölmədiyini, əgər ölərsə, bu bayrağı ləğv edən ölkələrin özlərinin torpağın altına keçəcəklərini" -deyən şair Azəri oğludur. Onun adından şah damarından axan qan var. Lakin bütün zülm və işgəncələrə baxmayaraq "Nerondan betər zülm yapan", "Türklüyün qəlbinə neştər vuran" ölkəyə qarşı "intiqam" şüarı da qalacaq. Vətəni yad əllərdən xilas etmək üçün bir yol var:

Kurtuluş, ey nazlı, sevimli pəri,
Könüldən vurğundur sana azəri.
Dişimlə qırarım, bir gün gəlir də
Bağrına saplanan qanlı xəncəri.
Yaşa ey həsrətlə doğan istiqlal!
Yaşa ey türk, yaşa ey gözəl hilal! (3, 36).

"Sevgili Bakıya" (1923), "Annəmə" (1924), "Qürbətdə bayram" (1925) şeirləri də vətənin azadlığına həsr olunub. Şair qürbətdə düşünür. "Yenə sevimli Bakının üzü solğundur, onun dərdinə acıyanlar yoxdur". Xəzərin sularından çox gözyaşı axıdan şair darda qalan vətən üçün, "qəlbinə matəm bağlayan" vətən üçün, "düşmən qucağında ağlayan" vətən üçün öz qanını halal edir. İstanbuldan yazdığı "Annəmə" şeirində uzaqda qalan "*Müşviq qucağı*"nı axtarır, həyatda yalnız bir sevgilisinin olduğunu bildirir. Bu sevgilinin adı Azərbaycandır! O, anasından xahiş edir ki, sevgilisi – "Şən Azərbaycana" çatdırsın ki, o hələ də "*mənim gözəlim*" olaraq qalır:

Get onun bağrına yüzünü sürt də
Rusun çeynədiyi torpağını öp.
Azəri oğlunun böyük ümidlə,
Gömdüyü üçrəngli bayrağını öp.
Bəlkə də ölürüm qürbətdə annə!
Ruhumsa qalmasın həsrətdə annə!

Ə. Abidin istiqlal şeirlərinin bir neçəsi birbaşa işğalçılara ünvanlanıb. "Qorxu" (1925), "Çeka" (1924), "Azəri kommunistinə" (1926), "Qızıl rus şairinə" (1925), "Canavar (Kommunizm dəha'sına)" (1924), "Bolşevik" (1924) şeirlərində istiqlalçı şairin hiddət və nifrəti, qəzəbi coşur, aşıb – daşır. Bu şeirlərin əhəmiyyəti bir də ondadır ki, əgər vətəndə kommunistlər tərifləsə, onların şəninə şeirlər qoşulurdusa, mühacirətdə, əksinə, kommunistlərin və rus imperiyasının iç üzü açılırdı. Çar hökümətinin yeritdiyi siyasəti, indi də Leninin yeni respublikalar adı altında birləşdirdiyi Sovet hökuməti yeridirdi. Siyasi partiya üzvlərinin ölkədə kütləvi şəkildə həbs olunduğu, Sibirə sürgünə

göndərildiyi bir zamanda poeziyada siyasi mövzulara yer ayrılması, hər şeydən əvvəl ictimai – siyasi məfkurənin poeziyada yaşaması deməkdir. Bu mənada Gültəkinin şeirləri mühacir poeziyasının örnəyidir. Bu şeirlərin başlıca məqsədi yeni nəsli istibdada, zülm və əsarətə qarşı qaldırmaqdan ibarətdir. Ona görə də şair bu duyğularında qətiyyən bədbinliyə, ruh düşkünlüyünə qapılmır, əksinə, mətanətlə hayqırır. "Çeka"ların "Süngü ninnisi"nə qarşı çıxır, canavarı öz adı ilə çağırır. Bu zülmün, istibdadın mənbəyini alovdan, "ölüm saçan" diyar – Moskvanı hədələməkdən belə çəkinmir:

O qandan, gəmidən yoğrulan yerin,
Əlbəttə, olacaq sənin məqbərin.
Gün gəlir hilalə baş əyir yenə
Göy bayrağı öpən məğrur burcların.
Sən ey xəyanətə, zülmə bir yuva,
Ey qızıl Moskva, vəhşi Moskva!.. (3, 42).

Tədqiqatçı M. B. Məmmədzadə Gültəkinin şeirlərinə verdiyi qiymətdə də *"Əski zamanın ən Sakur peyğəmbərləri"* də köləliyin əleyhində bulunurkən həqiqi möminin vəzifəsini böyləcə təyin etdiyini, islamiyyətdə vətən sevgisinin imandan gəldiyini göstərərək yazırdı: *"İştə Gültəkin bu canlı cidal həyatının şərəfli əli olan Azəri gəncinə iman nəsihəti veriyor, kəndisindən başqasına güvənməməsini, yalnız və yalnız imana sarılmasını söylüyor və Azərbaycan gənclərinə çəlikdən yazılmış kibi misralarla xitab ediyor"* (7, 10-11).

Eyni xitabları Gültəkin "Azəri kommunistinə" (1926), "Qızıl rus şairinə" (1925), "Kommunizm dəhasına" (1924) ünvanlayır. Şair respublikada "Çeka" quran "Azərbaycan kommunisti"ni babasının "nankor oğlu" hesab edərək onun göylərdə ucaldığını və ona "qardaş" deməyə dili gəlmədiyini bildirir. Əgər ona qardaş deyərsə, millətin onu töhmət edəcəyi qənaətində də şair haqlıdır; çünki düşmənlə qardaş olmaq çətindir, hiyləyə aldanmaq deməkdir. Gültəkin "Sən nəsin, nəçisin kimin oğlusun?!" sualına "Bir çin fəlsəfəsinin adi qulusun" qərarına gəlir və ona əlinin qanını yumaq vaxtı çatdığı barədə xəbərdarlıq edir. "Canavar" şeirində isə bu xəbərdarlıq daha böyük siyasi mahiyyət alır, oxucunu zülmə, zalıma qarşı çıxmağa çağırır:

Qanlı çöllərin bu azğın yolçusu
Bu yerdə nədən qurmuşdur pusqu?
Alov görüncə o, tez qaçar geri,
Atəşgədəyi yax, durma Azəri! (3, 40).

İstiqlal şeirləri təkcə istiqlalçı məzmunla məhdudlaşmır, burada həm də ictimai motivli son dərəcə lirik şeirlər, marşlar da vardır. Lakin Gültəkin nədən yazır-yazsın, vətən, istiqlal bu şeirləri birləşdirən cəhətə çevrilir. "Sevgili Bakıya", "Annəmə", "Aldı getdi", "Qafqaz türküsü", "Gürcü kardeş" şeirlərində istiqlalın bədii coğrafiyası daha da genişlənir və zənginləşir.

Qoşma janrında yazılan "Aldı getdi" şeiri isə həm lirik bir ovqat, həm də ictimai bir məzmuna malikdir.

Könül bağçasında bir qönçə vardı,
Onu da bir zalım yel aldı, getdi.
Orada hər sabah şəbnəm ağlardı,
Şimdi o cənnəti sel aldı, getdi.

Azəri qızı, ey nazənin gözəl,
Nə oldu bizləri yaşadan əməl?
Öpür qoxlamadan yabançı bir əl
Saçından iki – üç tel addı. Getdi.

Ey qəlbinə ələm dolan sevgilim,
Hər addımda könlü solan sevgilim,
Öz yurdunda qərib olan sevgilim,
O yuvanı hangı əl aldı getdi?.. (3, 45).

Buzlu cəhənnəm'ə daxil edilən bütün şeirlər yazılma tarixi etibarilə 1923-27-ci illəri əhatə edir. Bu da onu göstərir ki, Gültəkin bu şeirləri Türkiyədə olarkən yazmışdır. Gültəkinin tərənnüm etdiyi şanlı Azərbaycan istiqlalı bu gün yaşayır və bu istiqlalda onun üsyankar, mücadiləçi şeirlərinin də xüsusi payı vardır. Bu şeirlərin illərin, soyuğun, şaxtanın sınağından çıxmış təsir qüvvəsi bugünkü gənclərimizi də gələcəyə səsləyir.

Qaynaqlar

1. *Yeni Kafkasiya* jurnalı, 1339, N 3, s. 43.
2. *İstiqlal uğrunda*. İstanbul: Orxaniyyə mətbəəsi. 1928.
3. Gültəkin-Əmin Abid. *Buzlu cəhənnəm və digər şeirləri* (Tərtib edəni və ön söz müəllifi Əli Şamil). Bakı: Günəş. 1999.
4. M. Ə. Rəsulzadə. *Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi*. B., 1991.
5. Ə. Cəfəroğlu. "Azərbaycan ədəbiyyatında istiqlal mücadiləsi izləri". *Azərbaycan yurd bilgisi*. 1932. N 8-9.
6. Ə. Şamil. *Üzağlığı doğuran misralar və ya "Gültəkin" kimdir. Gültəkin-Əmin Abid. Buzlu cəhənnəm (Əli Şamilin ön sözü və tərtibi ilə).* B., 1999. ss. 6-22.
7. Gültəkin. *Buzlu cəhənnəm*. İstanbul: Kayıbolu. 1949.

MODERNİZMİN FƏLSƏFİ-ESTETİK, ƏDƏBİ HADİSƏ KİMİ TƏŞƏKKÜLÜ

*Dilarə ƏLİYEVA**

XX-ci əsrin birinci yarısında güclü estetik sistem kimi formalaşan modernizm daha çox insanın şəxsi həyatını, "mövcudluq anı" prosesində onun fərdi taleyinin özünəqiymətini təhlil etdi (V. Vulf, M. Prust, F. Kafka, A. Kamyu, C. Coys). Modernist baxışlara görə xarici reallıq şəxsiyyətə düşməndir, onun mövcudluğunun faciəsi bu amildən doğur. Modernist yazıçılar belə hesab edirdilər ki, mənəvi başlanğıcın öyrənilməsi özünəməxsus tərzdə ilkinə qayıdış və həqiqi "mən"in əldə edilməsidir, çünki insan subyekt olaraq ilk əvvəl özünü dərk edir, soıra isə dünya ilə obyektiv münasibətlər yaradır.

Təbii elmlərin çiçəklənməsinə inam, yeni kəşflərin insan həyatının rifah və inkişafına səbəb olacağı kimi optimist ideyalar tarixi təcrübə nəticəsində dağıldı. XX-ci əsrin gedişatı acı bir həqiqəti üzə çıxardı: texnologiyanın sürətli inkişafı insan mövcudluğunun humanist əsaslarının darmadağın olmasına gətirdi. Humanizmə çağırış ideyası XX-ci əsrdə tavtalogiyaya çevrildi. Bütün bu olaylar bir çox filosof sənətkarları xeyli öncədən narahat etmiş, O. Şpenqler *Avropanın qürubu* əsərində Avropa mədəniyyətinin qaçılmaz məhvindən danışmışdı. Birinci Dünya müharibəsi XIX-cu əsrin sosial və dövlət münasibətlərini dağıtdı. İnsanın qarşısında əvvəlki dəyərlərə yenidən baxılması, dəyişən reallıqda öz fərdi yerinin axtarışı zərurəti ortaya çıxdı.

Həyatı yenidən, qavramaq ideyası bir çox Avropa yazıçılarında sosial təcrübənin insanın mənəvi mikrokosmosunda əsas olduğunun skeptik dərki ilə nəticələndi.

Ziyalılar cəmiyyətin böhran vəziyyətini Avropa sivilizasiyasının iflası kimi qəbul edirdi. Bu da gənc müəlliflərdə pessimizm və inamsızlıq doğurdu (O. Haksli, Lourens, Barbyus, Hemmquey).

* AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Elmi işçi; aliyeva.dilara724@yandex.ru

Birinci Dünya Müharibəsinin məşəqqətlərini yaşayan gənc yazıçılar nəsli ağır sınaqlardan keçdi. Yalançı veton pon və şüarlara ikrah yeni ədəbi-estetik konsepsiyaların axtarışını daha da sürətləndirdi.

Eyni zamanda qorxu və ağrını, zorakı ölümün dəhşətini dərk edən yazıçılar əvvəlki estetlər kimi qala bilmədilər.

Məhv olmuş və müharibədən psixoloji sarsıntılar içində geri dönmüş müəllifləri (R. Oldinqton, Heminquey, A. Barbyus, Fidjerald) ədəbi tənqid "itirilmiş nəsl"ə aid etdi. Baxmayaraq ki, onların milli ədəbiyyatda tutduqları yer bu terminə heç də tam uyğun gəlmirdi. Ədəbiyyatşünaslar belə yazıçıların insanın müharibədəki və müharibədən sonrakı yeni, fərqli anlamına həssas və sərt yanaşmalarından narahatlıq keçirirdi,

XX-ci əsrin birinci yarısında güclü estetik sistem kimi formalaşan modernizm daha çox insanın şəxsi həyatını, "mövcudluq anı" prosesində onun fərdi taleyinin özünəqiymətini təhlil etdi (V. Vulf, M. Prust, F. Kafka, A. Kamü, C. Coys). Modernist baxışlara görə xarici reallıq şəxsiyyətə düşməndir, onun mövcudluğunun faciəsi bu amildən doğur. Modernist yazıçılar belə hesab edirdilər ki, mənəvi başlanğıcın öyrənilməsi özünəməxsus tərzdə ilkinə qayıdış və həqiqi "mən"in əldə edilməsidir, çünki insan subyekt olaraq ilk əvvəl özünü dərk edir, sonra isə dünya ilə obyektiv münasibətlər yaradır.

Bu nöqteyi-nəzərdən çıxış edərək şəxsiyyətin müxtəlif vəziyyətlərinin və müxtəlif mərhələlərinin təhlilinə diqqət yetirən M. Prustun psixoloji romanları XX-ci əsr nəsrinin inkişafına şübhəsiz təsir göstərmişdir. Eyni, estetik prinsipə söykənən C. Coysun roman sahəsindəki eksperimentləri, müasir odısseya yaratmaq cəhdləri kütləvi disskusiya və bənzətmələr meydana gətirdi.

XX-ci əsr mürəkkəb və təzadlı olduğundan modernist yazarlar baş verən proseslərin qloballığını, ənənəvi dəyərlərin itirildiyini qeyd edir, insan və cəmiyyətin humanist inkişafı problemi onları düşündürür və sənət axtarışlarını bu istiqamətə yönəldirdilər.

İkinci Dünya Müharibəsindən sonra bu dövrün siyasi ideya və sistemlərinin qarşıdurması ədəbi mübarizənin gerçək mənzərəsini müəyyən etdi. Modernist ədəbiyyat gerçəkliyin tarixi və sosial təhlilini qəbul etmir, üsyankarlığı davam etdirir, "tamamilə yeni incəsənət" estetik prinsipini mənimsədirdi. Əsrin əvvəllərində modernist dünyagörüşünün əsas tezisi "avanqard və inqilab yeni dövrün məğzidi" qənaəti idi.

Müharibədən sonra neoavanqard Fransada "yeni solçular"ın, İngiltərədə "qəzəbli gənclər"in, Amerikada isə "hippi"lərin fikirlərinə həmrəy olaraq mütləq azadlığı məhdud edən bütün məcburi sosial institutların ləğvini tələb edirdi.

Müharibədən sonrakı nəsil alternativ mədəniyyətlə praqmatik dəyərlərə xəbərdarlıq edərək öz yaradıcılıqlarını ideal sayır, pop, rok-incəsənət, hep-peninq, performans yeni ideologemlər, yeni mədəniyyət yaradırdı. Soyuq müharibənin və atom qarşıdurmasının reallıqları Kafka təxəyyülünü, Sartr və Kamü "absurdunu" obyektiv şəkildə zəruri edirdi. Bəşəriyyət dəhşətə gələrək Nitşe kəlamlarının reallaşdığını görürdü. Müharibədən sonrakı tarixi-siyasi mövcudluğun kövrəkliyi isə bir daha göstərdi ki, insanı əhatə edən aləm təbii və humanist deyil, o daha çox aqressivdir. Bu da özlüyündə gerçəkliyi inikas etməyin yeni variantlarını yaratdı. Sənətkarlar insanın cəmiyyətdəki rolunu və sivilizasiyanın mövcudluğunda cavabdehlik hissini dərk edərək insan və dünya, insan və cəmiyyət problemlərini ön plana çəkməyə məcbur olurdular.

Avanqard ədəbiyyat "autiroman" və ya "yeni roman", "antidram" və ya "absurd teatr"ı meydana gətirdi (A. Rob-Qriye, N. Sarrot, M. Bütor, E. İonesko, S. Bekket). "Yeni roman" və "absurd teatr" üçün "nəsə demək" cəhdi xarakterik idi, amma eyni zamanda "heç nə deməmək" də ona aiddir. Avanqardçılar insan və zaman haqda "nəsə deməyə" cəhd edərək eyni zamanda "heç nə demir", çünki "absurd dünyada ancaq absurd formada nəyisə ifadə etmək olar" – qənaətinə gəlmişlər.

Avanqard ədəbiyyat üçün insanın total özgələşməsini vurğulamaq xarakterik idi. XIX əsrin ədəbi ənənəsindən uzaqlaşaraq simvol, neomif, lirik və şərti başlanğıc, mövcudluğun ekzistensial anlamı və arxetiplərə müraciəti onun əhatə dairəsində idi, arxetipik dəyişməzlik neoavanqard fəlsəfəsinə görə dünyanın vəhdətini və gələcəyə inamı bərqərar etməyə imkan verirdi. İlk baxışdan ümidsiz görünən bu qiyam əslində avropalıları vahiməyə salan texnoloji və istehlakçı sivilizasiyanın ziddiyyətlərinin dərinliyini, idealların itirilməsini və mənəvi boşluğu aşkara çıxarmışdı. İnam və nihilizmin əzabverici antoqonizmi, fraqmentlərə bölünən dünyanın bütövlüyünün itirilməsi və insanın burada faciəvi şəkildə özünü müdafiəsiz hiss etməsi, sanki ikiyə bölünmüş varlığın bərpa olunması, yeni dünyanın formalaşması XX-ci əsrin sonunda, ədəbiyyatda ən əsas problemlərdən biri oldu.

Qaynaqlar

1. Hacıyev, Abbas (2010). *Ədəbi meyllər və cərəyanlar*. Bakı: Nurlan.
2. Yunq, Karl (2001). *Analitik psixologiyanın poetik-bədii yaradıcılığa münasibəti*. Tərc. M. Qocayev. Bakı: Az. tərcümə mərkəzi.
3. Martinson, H. (2012). "Modernizm". *Tənqid. Net* №9. ss. 63-65.
4. Хализев В. Е. (2004).*Теория литературы.* Москва: Исскуство.

ADR (AHC) DÖNEMİNDE DİL, KÜLTÜR, EĞİTİM MESELELERİ

*Könül ƏLİYEVA**

Mehmet Emin Resulzade, *Azerbaycan Cumhuriyeti* adlı eserinde, Azerbaycan'ı ve Azerbaycan halkını tanıtır ve okurlarına der ki:

> *"Azerbaycanlılar milliyet bakımından Türk, din bakımından İslam, uygarlık bakımından da Doğuludur! Kendisine mahsus lehçesiyle, Anadolu Türkçesine yakın bir şiveyle konuşan Azerbaycan Türkü, çeşitli şivelere sahip ve bulunduğu yerlere göre çeşitli isimler taşıyan büyük Türk ağacının bir dalıdır. Azerbaycan milletinin bugün oturdukları yerler, eskiden beri Türk halkının yaşadığı yerlerdir..."*

Azerbaycan halkı yüzyıllarca özgürlük arzusuyla yaşamış, ulusal özgürlük ve bağımsızlık için mücadele etmiştir. Yirminci yüzyılın başlarında, Azerbaycan'daki ulusal kurtuluş hareketi güçlendi. Azerbaycan demokratik güçleri, düşünürleri ve siyaset adamları ülkemizin bağımsızlığı ve halkımızın özgürlüğü için verilen mücadeleye katıldı. Rusya İmparatorluğu'nun çöküşü, Azerbaycan'da bağımsız bir devlet kurmak için olanak sağladı. 28 Mayıs 1918'de Azerbaycan Demokratik Cumhuriyeti ilan edildi.

Azerbaycan'ın Rus İmparatorluğu'na birleştiği yaklaşık yüz yıllık dönem boyunca Çarlık sürekli bir Ruslaşma politikası izleyerek ülkeyi akültürasyona maruz bıraktı. Yerel kültür başka medeniyetin etkisi altındaydı. Bu süreci durdurma ve ulusal kültür ve dil politikası alanında temel reformları yapmak ve devlet yönetiminin millîleştirilmesi gibi önemli ve tarihî görevler istiklalçilerin omuzlarına yüklendi.

Dil Alanındaki Değişim ve Gelişmeler

Cumhuriyet Dönemi'nde, çeşitli dil ve eğitim alanlarını kapsayan altı karar alındı ve resmileştirildi. Bağımsız devletin en önemli özelliklerinden biri olan devlet dili konusu, yeni kurulan Azerbaycan Demokratik Cumhuriyeti'nin

* Filologiya elmləri üzrə fəlsəfə doktoru, Başkent Üniversitesi Doktor Öğretim Üyesi; aliyeva_k@yahoo.com

önemsedikeri konulardandı. Cumhuriyet Hükûmeti 27 Haziran 1918 tarihli kararı ile Türk dilini resmî devlet dili ilan etti. Bu karar, Gülüstan və Türkmençay anlaşmalarıyla Azerbaycan'ın ikiye ayrılmasının ardından ana dilinin devlet dili olarak kullanılmasına ilişkin ilk belgedir. 27 Haziran 1918'de Azerbaycan Demokratik Cumhuriyeti:

> *"Dövləti lisan türk dili qəbul edilərək ilərida bütün məhkəmə, idareyi- daxiliyyə və sair dəvair vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istemalına da müsaidə edilsin."* şeklinde belirtmiştir.

Karardan da anlaşıldığı gibi, hükûmet, Türk dilinin devlet dili olarak kabul edilmesine ve devletin ülkenin yargı dilinin, iç işlerinin ve diğer alanların dilini öğrenmesine kadar devlet kurumlarında geliştirilmesine izin vermiştir. Karar metninde de görüldüğü üzere, Azerbaycan Demokrat Cumhuriyeti'nin Rus dilini kullanma izninin geçici bir önlem olduğu ve yalnızca ulusal kadroların onaylanmasına kadar geçen süre için tasarlandığı belirtildi. Azerbaycan dilini devlet dili olarak ilan eden ilk resmî belge, Azerbaycan'da ulusal dil politikasının oluşumunda uygun bir ideolojik konumun temelini attı ve tarihî bir rol oynadı.

Ana dilinin gelişmesi işine özel dikkat verilmişti. Yüksekokullarda eğitim Türk dilinde verilmeliydi. Azerbaycan'ın devlet dili olarak, kelimenin tam anlamıyla kullanılması pratiği, ilk Azerbaycan Parlamentosu'nun diline büyük ölçüde yansır. Parlamentoda uygulanmaktaydı, devlet dairelerinde Rus dilini belirli bir süre boyunca kullanmasına izin verdi. Bu nedenle, Parlamentodaki dillerin kullanılması meselesi doğal olarak, Parlamento üyeleri, yasama organının sorumluluğundaydı. Parlamentonun kullandığı dil, devlet dili statüsüne sahip Azerbaycan Türkçesiydi. Yerel olmayan milletvekilleri nutuk ve konuşmaların Rusça olması gerektiğini önerdiğinde, Parlamentonun oturumlarından birinde, bu konu ayrıca görüşülmüş ve bu hususta karar verilmiştir. Parlamentonun resmi dilinin Azerbaycan Türkçesi ilan edildiğine karar verilmiş, diğer milletlerin temsilcileri ise Rus dilinde konuşmaları makbul sayılmıştır.

Azerbaycan Türkçesini devlet dili ilan eden ilk resmî belge, tarihî bir rol oynadı ve Azerbaycan'da ulusal dil politikasının oluşumunun, halkın çıkarlarına uygun doğru bir ideolojik konumun temelini attı. Azerbaycan Hükûmeti'nin kararının yalnızca açıklama metninden ibaret bir belge olmadığının altı çizilmelidir; Karar veridikten sonra, belirtilen meseleler parlamento oturumlarında periyodik olarak tartışılmaktaydı. Hükûmet, Azerbaycan Türkçesini bilmeğenlerin bu dili öğrenmesi için kurslar düzenlenmiş ve bu amaçla 351.000 manat bütçe tahsis edilmişti. Demokratik Halk Cumhuriyeti liderleri tarafından yürütülen maksatlı politikanın bir sonucu olarak, devlet dairelerinde kademeli olarak millî dili öğrenilmeye ve kullanımaya başlanıldı.

Basının Durumu

Azerbaycan Demokratik Cumhuriyeti, Azerbaycan halkının tarihî, edebî ve sanatsal fikirlerinde, siyasi ve manevi-psikolojik yaşamında silinmez bir iz bırakmıştır. Cumhuriyet döneminin kendine özgü literatürü, gazetecilik uslubu, şiir tarzı olmuştur. Bu dönemi ilk inceleyen ve değerlendirenler de Cumhuriyet'i kuranlar ve kültürünü yapanlardır. Edebî sürecin yaratıcıları; Muhammed Emin Rasulzade, Mirzabala Mammadzadeh, Meclis Başkanı Alimardan bey Topchubashov, Başkan Vekili Hasan bey Aghayev, Hükûmet Başkanı Fatali Han Hoyski, Ali Bey Hüseynzade, Ahmed Bey Ağaoğlu, Salman Mumtaz, Uzeyir Bey Hacıbeyov kardeşler, Huseyn Javid, Calil Mammadguluzade, Muhammed Hadi, Ahmed Javad, Abdulla Şaig ve diğerleridir.

1918-20 yıllarında Azerbaycan'daki ideolojik mücadelenin tüm ağırlığı, dönem basınının keskin silahı olan gazetecilik, basın üzerineydi. Azerbaycan'ın tanıtımı ideolojide çok renkli ve zengindi: Çarlıktan kurtulan Kuzey Azerbaycan'ın ulusal bağımsızlığının korunması, millî uyanış, millî dil, millî meseleler gazetecilikte gündeme getirilen ana konulardı. Millî basın prensiplerinin temelinde halkın geleceğiyle bağlı büyük sosyopolitik kavram vardı. Bu kavram, Azerbaycan'da XX. yüzyılın başlarında oluşan "Türkleşme, İslamlaşma, modernleşme" fikirleriyle belirdi.

Azerbaycan halkının kültür tarihinde Azerbaycan Demokratik Cumhuriyeti'nin resmî organı *Azerbaycan* gazetesinin (1918-1920) önemli siyasi hizmetleri vardı. Azerbaycan ve Rus dillerinde yayımlanmış *Azerbaycan* gazetesinin hem millî şuurun gelişimi hem de demokratik devletin kurulmasında önemli rolü olmuştur. Azerbaycan geniş siyasi, ekonomik ve devlet kuruculuğu yoluna adım attı. Azerbaycan Demokratik Cumhuriyeti'nin resmî organı olan *Azerbaycan* gazetesine yetenekli kalem sahibi olan gazeteci Üzeyir Hacıbeyli'nin kardeşi Ceyhun Hacıbeyli önderlik etmişti. 1918-1920 yıllarda *Azerbaycan* gazetesinin uzun süre baş redaktörü Üzeyir Bey Hacıbeyli olmuştur. O, Ceyhun Hacıbeyli'nin ve Şefi Bey Rüstembeyli'nin yardımıyla gazeteyi yüksek seviyede, geniş sosyopolitik konuda yayımlıyordu.

Haziran 1918 yılında Gence'de yayına başlayan, sonralar ise Bakü'de yayımlanan *Azerbaycan* gazetesinin Azerbaycan basın tarihinde müstesna rolü olmuştur. Azerbaycan basın tarihinde önemli yeri olan bu gazetenin faaliyeti bu güne kadar esaslı bir şekilde araştırılmamış olarak kalmaktadır.

Bu dönem aydınların çoğu, bir kural olarak, *Azerbaycan* gazetesinde hileci Bolşevik hükûmetinin, aynı zamanda da onların Bakü'deki Ermeni yanlılarının çirkin emellerini açığa çıkaran makale, şiir ve başka yazılarla görüşlerini bildirirlerdi. Gazetenin sayfalarında o dönemin bir sıra önemli şahsiyetlerinin imzalarına rastlamak mümkündür. Onlardan, M. E. Resulzade, C. Cabbarov, M. Henefi, M. Hadi, E. Cavad, C. Hacıbeyli, F. Köçerli, Ş. Rüstembeyli,

M. Hacınski, H. İbrahimov, Y. V. Çemenzeminli, Ü. Hacıbeyli, M. Şahtahtlı, S. Hüseyn, İ. Ebilov, M. Eliyev vb. gibi ünlü kalem sahipleri vardı.

Azerbaycan Demokratik Cumhuriyeti'nin kendi resmî organı olan *Azerbaycan*, o dönemin tüm sosyo-politik olaylarına kendi yaklaşımını bildirmiş, döneminin sanki canlı yıllığına çevrilmiştir (Gandilov 2000: 45-46).

XX. yüzyılın başlarında Azerbaycan'da millî azatlık harekâtının genişlemesi sürecinde, basın Türkçülük, Azerbaycancılık eğilimlerinin daha da canlanması yolunda etkin bir araç olarak kullanıldı.

Eğitim

Yeni kurulan Azerbaycan Cumhuriyeti'nin karşılaştığı zorluklardan biri de halkın eğitimi sorunuydu. Okulların savaş döneminde tahrif olunması, öğretmen ve ders kitaplarının yetersizliği karşılaşılan problemlerdendi. Devlet bir taraftan içeride bu konuda hazırlıklar yaparken, diğer taraftan dışarıdan, özellikle Osmanlı Devleti'nden yardım isteme yoluna gitmiştir. İlk kez öğretmen ve ders kitapları yardımı konusunu İstanbul'da bulunan Azerbaycan Hey'eti Başkanı Mehmet Emin Resülzade Halk Tahsili Nazırıyla görüşmesinde dile getirmiştir.

Fakat sonuç alınmayınca 4 ay aradan sonra İstanbul'da bulunan Azerbaycan Elçisi A. A. Topçibaşev bu isteği 28 Ekim 1918 yılında Halk Tahsîli Nazırı müsteflari ile görüşünde tekrarlamıştır.

Osmanlı Devleti Halk Tahsîli Nazirliği Azerbaycan'a gönüllü getmek isteyen öğretmenlerin listesini hazırlıyordu. A. A. Topçibaşev'in müsteşarla görüşmesinden, bayan öğretmenlerin (muellimeler) de Azerbaycan'a gitmekte istekli oldukları anlaşılmaktadır.

17 Aralık 1918 yılında Aziz Efendi, Mustafa Efendi, Saleh Efendi ve Durmuş Efendi'den ibaret ilk grup Azerbaycan'da faaliyete başladı.

Bakü'da kurulan ve amacı Osmanlı Türkleri ile Azerbaycan Türklerini daha da yakınlaştırmak olan "Türk Ocağı" bu ilişkide önemli yer tutuyordu. İstanbul'da bulunan A. A. Topçibaşev Şeyhül-İslâm ile 28 Eylül 1918 yılındaki görüşmesinde ruhani idaresini kurabilmeleri için Osmanlı dinî idaresinin içerliği ve işleyişini tanımak istediğini dile getiriyordu: "Eğer izin verseydiniz sizin dinî idareni yakından tanımak ve işleyişini incelemek istiyorum. Münasip bulduğumuz takdirde biz de onu uygulamaya çalışacağız."

Görüldüğü gibi Azerbaycanlı Devlet yetkilileri kültür alanında bazı zorlukları aşmak için Osmanlı yöneticileriyle zaman zaman görüşmelerde bulunmuşlardır. Bu zorluklar özellikle ilk dönemlerde açık şekilde görülmekteydi. Daha sonraki dönemlerde ADC kendi çabalaryla eğitim sorununu çözmüş, ilim ve din adamları yetiştirmeye başlamıştır.

Azerbaycan Demokratik Cumhuriyeti'nin yaşadığı iki yıl süresince eğitim alanına "... Türkiye'den elliye kadar muellim (öğretmen) ve muellime (bayan öğretmen) celb olunmuş"tur.

Türkiye'den davet edilmiş öğretmenlerin maddi durumlarıyla devlet özel olarak ilgilenmekteydi. Türkiye'den 1 milyon ruble değerinde ders kitabı Azerbaycan'a getirildi.

Azerbaycan Devleti'nin yurt dışına öğrenci gönderme isteğini bazı Avrupa devletleri kabul etti: İngiltere'ye 16, Almanya'ya 30, İtalya'ya 12, Fransa'ya 19, İsviçre'ye 26 ve Türkiye Üniversitelerine 7 öğrenci gönderilmiştir.

Gönderilen öğrencilerin özellikle tıp ve fen bölümlerine yerleştirilmesine dikkat edilmiştir.

Eğitim sisteminin millîleştirilesi alanında en büyük zorluk, öğretmen kadrosunun eksikliği idi. Öğretmenlerin ihtiyaçlarını karşılamak için 1918 yılında Gence, Şeki ve Zagatala'da kısa süreli pedagojik kurslar düzenlenmiş ve 150 öğrenci bu kurslara katılmaya başlamıştır. Ancak, Gence'deki öğretmenlere eğitim personel ihtiyacını karşılayamadı. Bu nedenle Eğitim Bakanlığı, Qori Öğretmen Seminaryası'nın Azerbaycan bölümünü bağımsız bir seminarya olarak Qazah iline taşımaya karar vermiştir. Böylece, Azerbaycan dilinde ders verebilecek öğretmen sıkıntısı sorunu da çözülecek ve nitelikli öğretmen sayısı artırılacaktı. Gori seminaryasının Azerbaycan şubesinin Qazah'a devri önemli bir mesele olarak hükûmetin gündemindeydi. Transkafkasya Öğretmenleri Seminaryası'nın Tatar (Azerbaycan) şubesini Gazah'a devretmesi amacıyla Azerbaycan Cumhuriyeti Hükûmeti'nin 22 Haziran 1918 tarihinde verdiği kararla Gazah'a taşındı ve bağımsız seminaryaya dönüşerek buradaki faaliyetine başladı. Gori'den Gazah'a geçerek bağımsız bir seminaryaya dönüştürülen Gazah Öğretmenleri Seminaryası, millî öğretmen kadrosu yetiştirmek için Azerbaycan'da ilk pedagojik okul olarak tanındı

Okul kısa bir sürede faaliyete başladı. Gori seminariyası mevcut olduğu 40 yıl boyunca Azerbaycan için 250 kadar öğretmen – Reşid bey Efendiyev, Firudin bey Köçerli, Üzeyir Hacıbeyli, Celil Memmedquluzade, Neriman Nerimanov, Müslüm Magomayev, Süleyman Sani Ahundov, Hacıbala Süleymanov, Osman Efendiyev, Ferhad Ağazade, Nurməmməd Şahsuvarov, Müseyib İlyasov, İsfendiyar Vəkilov, Ali Qəmərli, Ə. Seyidov, Şıxlinskilər ve başkalarını herkese örnek bir eğitimci olarak yetiştirmiş, onlar da sırasıyla Azerbaycan'da millî aydınlanma harekâtının gelişmesinde müstesna rol oynamışlar. Doğu'da ilk demokratik, hukuk devleti olan Azerbaycan Demokratik Cumhuriyeti Dönemi'nde halk eğitimi, maarifi ve kültürünün geliştirilmesinde, eğitimin ulusal kökler üzerinde yeniden kurulmasında, okul reformlarının yapılmasında, anadilli okulların kurulmasında, ana dilinde ders kitaplarının hazırlanmasında bir zamanlar Gori seminariyasının Azerbaycan şubesinin

mezunları daha aktifti. Onlar Azerbaycan'da eğitimin, maarifin ve kültürün gelişimi, okuma yazma oranının yüksetilmesi için yorulmadan mücadele etmişler.

Azerbaycan Demokratik Cumhuriyeti, yeni dünya tarihinin çok karmaşık bir çağında −imparatorluk, sömürgeci, tahakküm, yasakçı ve baskıcı rejimlerin çöküşüne ve ulusal bağımsızlık hareketlerinin zaferine duyulan ihtiyaç ve koşulların yaratıldığı bir zamanda oluşmuştur.

Azerbaycan halkının bağımsızlık azmini sergileyen Azerbaycan Halk Cumhuriyeti XX. yüzyıl dünya siyasi kültürünün en önde gelen, gelişmiş demokratik biçimlerini kendi devlet kurumlarında ulusal zeminde uygulama ilk tecrübesiydi ve bu tecrübe zaman içinde devletçilik geleneğinin temelini attı.

Kaynaklar

Abdullayev, C. (Red.) (1993). *Mehemmed Emin Resulzade'nin Edebî Dünyası*. Bakı: Bakı Universitetinin Neşri. 153 s.

Acalov, A. (Red.) (1991). *Memmed Emin Resulzade*, Bakı: Genclik Neşriyyatı. 111 s.

"Azərbaycan Xalq Cumhuriyyəti Və Dil Məsələləri". *525-Ci Qezet*, Bakı https://525.Az/Site/?Name=Xeber&News_İd=93973#Gsc.Tab=0 (03.02.2018)

Balayev, A. (1920). *Azerbaydajnskoye Natsionalno-Dvijenie 1917-1920 Gg.* Bakı. s. 82.

Gandilov, S. (Ed.) (2000). *Azerbaycan Tarixi*, Çaşıoğlu Neşriyatı. Bakı. s. 350.

Garayev, Y. (Red.) (1998). *Azerbaycan Halk Cumhuriyeti*. Bakı: Elm Neşriyatı. 298 s.

Guliyev, B. (1970). *Borba Kommunistiçeskoy Politiki V Azerbaycane*, Bakı. s. 102.

Ehedova, S. (26.05.2011). "Azerbaycan Xalq Cumhuriyeti Milli Medeni İntibah". *Azərtac*. Bakı. https://News.Milli.Az/Politics/50203.html

Mirzeyev, E. (13.02.2018). "Azerbaycan Xalq Cümhuriyyeti ve Tehsil". *Xalq* Qezeti. Bakı. http://Www.Xalqqazeti.Com/Az/News/Politics/97125

Resulzade, M. E. (1990). *Azerbaycan Cumhuriyyeti*. Bakı: Elm Neşriyyatı. 114 s.

Salmanlı, R. (27.05.2016) "Azerbaycan Xalq Cümhuriyyetnin dil siyaseti", *Azerbaycan* Qezeti. Bakı. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=97748

HÜSEYN CAVİD MÜCADİLƏSİ: HƏYATDA VƏ SƏNƏTDƏ

*Lütviyyə ƏSGƏRZADƏ**

Türkçülük, turançılıq məfkurəsi ilə yazıb-yaratdığı əsərləri ilə siyasi mahiyyət kəsb edən, cəmiyyətdə baş vermiş hadisələrə, faciələrə biganə qalmayan Hüseyn Cavid əfəndinin yaradıcılığında "mübarizlik, insan onun hüquqları və onların pozulması", bütövlükdə sosial ədalətsizlik bir problem olaraq təqdim olunur. Xaraktercə hürriyyət və millət vurğunu olan mütəfəkkir sənətkar yaşadığı dövrdə siyasi hərəkatda, heç bir partiya və qurumda olmasa da, öz mövqeyini, münasibətini bildirməyi də unutmur, vəhşi erməni daşnaklarının Bakıda və digər bölgələrdə törətdiyi qanlı faciələrdə soydaşları kimi, özü də zərər görən, mənfur niyyət sahiblərini lənətləyən şairin "rəngarəng yaradıcılığında insan və onun taleyi çağdaş mühitimizin istəkləri sorağında romantik üsulda ortaya qoyulur" (Əsgərzadə 2015: 458)[1].

Bütün bunlar Cavid əfəndini Məhəmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə və başqa istiqlal mücahidləri ilə birləşdirirdi. Cəmiyyətdə yaşanan dəyişimə, inqlablara şahidlik etmiş ədib, bu sahədə həmfikirlərindən geri qalmır, mübarizəni əsas vasitə hesab edirdi. Cavid əfəndinin 1918-ci ildə "Bakı ətrafı fəhlə, qırmızı əsgər, kəndli və matros" şurasının "Əxbarı"nda "Haqqını sən mübarizə ilə alarsan" şeirinin vərəqələr halında yayılması şairin mücadilə yoluna, hürriyyət eşqinə işıq tutur. 1906-cı ildə Əli bəy Hüseynzadə Həyat qəzetində (2 iyul, 1906-cı il, № 143) yazırdı:

> *"Qafqaz türkləri türklərin ən hürriyyətpərvərləridir... Buməmləkətdə heç bir qüvvə hürriyyət arzusunu məhv edə bilməz, heç bir cəbr və təzyiq, heç bir cəfa və əziyyət, heç bir zülm və sitəm hürriyyət odunu söndürə bilməz. Qafqaz hürriyyət aləminin*

* Doç. Dr., AMEA N. Gəncəvi adına Ədəbiyyat institute; *asgerzadelutviyye@yahoo.com.tr*

1 Əsgərzadə, L. "Əli bəy Hüseynzadə və Hüseyn Cavid" / *Böyük ədib və mütəfəkkir Əli bəy Hüseyn-zadə*. Bakı: Elm. 2015. ss. 452-465.

tarixində mühüm rol oynayacaqdır, bu rollardan ən böyüyü Qafqaz və Azərbaycan türklərinə aiddir."[2]

İstanbuldan yazdığı məktubunda böyük bir uzaqgörənliklə *"Qafqazın (Azərbaycanın) istiqbalını İrana nisbətdə daha ziyadə parlaq gördüyünü"* (Cavid 2007: 269)[3] vurğulamış Cavid əfəndi Əli bəy kimi, qənaətində yanılmamışdır. Bu sözlərin yazılmasından az sonra Azərbaycanda - Şərqdə ilk demokratik, dünyəvi, sivil dəyərlərə malik Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdu. Bu zaman Cavid əfəndi Naxçıvanda idi və bunun da müəyyən səbəbləri vardı. *"I. Dünya Savaşı zamanı (1914-1918) Bakıda yaşayan Cavid əfəndi tarixə '1918 31 Mart soyqırımı' kimi düşən 'məzkur hadisələr' zamanı Bakıda yaşadığı 'Təbriz' mehmanxanasındakı 21 № li otaqdan ermənilər tərəfindən əsir alınmış və möcüzə nəticəsində sağ qalan şair Ənzəliyə, oradan Təbrizə, Təbrizdən Naxçıvana getmişdir"* (Məmmədli 1982: 42)[4]. Bakıda daşnaklar tərəfindən yandırılan "Kaspi" mətbəəsində şairin səkkiz min nüxsə kitabı yanıb, kül olmuşdu. Ədib Cümhuriyyət dövründə yazdığı yeganə əsəri olan *İblis* faciəsini məhz bu acı təsirlər altında Naxçıvanda yazmışdır (1918).

Bu illərdə (1918-1919) Bakıda olduğu kimi, Naxçıvanda da siyasi-ictimai durum çox ağır idi. Balkan savaşı dövründə ərazi iddiaları iflasa uğrayan erməni ideoloqları I Dünya müharibəsində yenidən çar Rusiyasının təhrikilə mübarizəyə başlamış, bu zaman Naxçıvan yenidən hədəf seçilmiş, Dərələyiz, Şərur, Vedibasar, Qarabağ mənfur erməni işğalçıları tərəfindən savaş meydanına çevrilmişdi. Bu zaman Naxçıvanda görkəmli şəxsiyyətlər: Bəhram Xan və Əziz Xan Naxçıvanskilər, Eynəli bəy Sultanov, Əli Səbri Qasımov, Əziz Şərif, Behbud ağa Şahtaxtınski, Mir Heydərzadə, S. Əsgərxanov, Bağır Rzayev, S. Cəmilinski, Kəlbalı xan, Kərim xan, Xəlil ağa Hacılarov və Cavid əfəndi birlikdə mübarizə aparırdılar. Naxçıvanın İrəvana birləşdirilməsi məsələsində problemin tezliklə qarşısının alınmasında xüsusi səy göstərmiş Xəlil ağa Hacılarovun ən çox məsləhətləşdiyi ziyalılardan biri də Hüseyn Cavid əfəndi idi. İngilis generalının əhali arasında sorğu aparılmasını tövsiyə edən təklifinə onlar birlikdə qəti şəkildə etiraz etmişdir. Çətinliklə baş tutan bu rəy sorğusunun ilk yığıncağından sonra "Rüşdiyyə" məktəbinə gələrək, Hüseyn Cavid əfəndi başda olmaqla, bu barədə müəllimlərlə söhbət etmiş, fikir bölüşmüş Xəlil ağa Hacılarov *"Cavid əfəndi rəy sorğusunu ləğv etdirdi"* – fikrini ictimaiyyətə çatdırmışdı. Hüseyn Cavid əfəndi erməni və ingilislərin bu mənfur siyasətini belə səciyyələndirmişdir: *"Bu, Naxçıvanı işğal edə bilmək üçün ermənilərin yeni propaqanda planıdır. Biz buna qarşı ciddi mübarizə aparmalıyıq.*

---

[2] Ali bey Hüseyinzade. "Nicat muhabbetdedir". *Füyuzat* dergisi. 1906. S: 6.

[3] Cavid, H. *Hüseyn Cavid Əsərləri. Beş cildde* V Cilt. Bakı: Elm. 2007. s. 269.

[4] Məmmədli, Q. *Cavid – ömrü boyu: həyat və yaradıcılıq salnaməsi.* Bakı: Yazıçı. 1982. s. 42.

Mən belə bir rəy sorğusunun əleyhinəyəm" (Hüseynzadə 2008: 79)[5]. Beləliklə, Naxçıvanın çox ziddiyyətli və çətin dövründə Cavid əfəndi Xəlil ağa Hacılarovla birlik nümayiş etdirərək ingilis-erməni siyasətinə qarşı çıxmışlar.

Ümumiyyətlə, bu illərdə güclənən erməni vəhşiliklərinin qarşısını almaq Naxçıvan ictimaiyyətinin əsas vəzifəsinə çevrilmişdi. 1918-ci ildə Türkiyə silahlı qüvvələrinin Şərqi Anadoludakı komandanlığına edilən müraciətdən sonra may ayının 16-da kiçik bir heyətlə Nuru Paşa, avqustun 7-də isə Kazım Qarabəkir Paşanın Naxçıvana gəlməsi ilə yerli əhali kütləvi qırğından xilas edilir. Xalqının ən ağır günlərində siyasi hadisələrin mərkəzində, xalqı ilə birlikdə olan Cavid əfəndi 1919-cu ildə "Azərbaycandan ərazicə ayrı düşmüş Naxçıvanın Azerbaycan Xalq Cümhuriyyəti ilə birləşməsi üçün böyük səylər göstərən Araz-Türk Respublikasının xarici işlər naziri" *"təmsil etdiyi dövlətin ərazisinin qorunması uğrunda fəal mübarizə aparan"* (Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyi münasibəti ilə keçirilən konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxışından) Bəhram xan Naxçıvanski ilə birlikdə xüsusi missiya ilə Bakıya gəlir. H. Cavidin Naxçıvan Türk-Araz Respublikasının vəkaləti ilə Xariciyyə naziri Bəhramxan Naxçıvanski ilə birlikdə "Cənubi Qafqazın rəsmi nümayəndəsi statusu ilə, Cənubi Qafqazın və Naxçıvanın siyasi-hərbi çıxarlarını müzakirə etmək üçün" rəsmi nümayəndəsi statusu ilə gəlməsi" bu illərdə Cavidin siyasi fəaliyyətindən xəbər verir. 1919-cu ildə Naxçıvanda olan Kazım Qarabəkir Paşa ilə görüşmüş, onunla bəzi işlərə imza atmış Cavidd əfəndi Bəhram Xan Naxçıvanski ilə Bakıya gəlmişdi.

> *"Cavidin 1918-ci ildə Bakıdan gedişi və bura təkrar qayıdışı ictimaiyyətin ciddi maraq dairəsində olan məsələydi. Hüseyn Cavidin Naxçıvana gəlişi heç də dönə-dönə qeyd edildiyi kimi, sıravi bir müəllim missiyasına bənzəmir (haqlı). Bu dəfəki (və həmişəlik) dönüşündə Cavid daha çox siyasi müstəvidə görünür və 1918-ci ildə Bakıya Naxçıvanın, daha doğrusu, Cənubi Qafqazın rəsmi nümayəndəsi statusu ilə gəlib. Cənubi Qafqazın və Naxçıvanın siyasi-hərbi çıxarlarını müzakirə etmək üçün Bakıya gələn dörd nəfər nümayəndədən biri,* ***Azərbaycan*** *qəzetinin 1919-cu il 18 fevral tarixli məlumatında bildirildiyi kimi, Araz-Türk Hökumətinin Xarıcıyyə naziri Bəhram xan Naxçıvanski idi, digər üç nəfərdən biri isə Hüseyn Cavid olmuşdur"* (Turan 2008: 149)[6].
>
> Qəzet 9 mart 1919-cu ildə eyni faktla bağlı yazır: *"Bir sənəyə yaxın bir sürədir arzuladığımız məşhur şair Hüseyn Cavid əfəndi həzrətləri, yenidən şəhərimizə varid olmuş və dünən idarəmizə*

[5] Hüseynzadə, L. *Araz şahiddir.* İstanbul. 2008. s. 79.

[6] Turan, A. *Cavidnamə*. Bakı: Elm. 2010. s. 149.

təşrif gətirmişdir. Hüseyn Cavid əfəndi, üç yoldaşıyla bərabər sabiq Araz Türk hökûməti və sonra milləti umumi rəyi ilə Azərbaycanın bir qismi elan edilmiş olan Cənubi Kafkasya tərəfindən müəyyən vəkalət və vəzifə ilə gəlmişlər" (*Azərbaycan* 1919: 52)[7].

"Məzbur rəsmi protokolu Azərbaycan hökumətinə təqdim edərək cavabını və nəticəsini qayıdıb Naxçıvan hökumətinə və cəmaətinə bildirmələri üçün hər birinə yol xərci olaraq cəmaət pulundan beş min manat verməklə Naxçıvan tərəfindən deliqat olaraq Hüseyn Cavid əfəndi və Bağır Rzayev cənabları seçilib göndərildilər" (*Azərbaycan* 1919: 52)[8].

Hadisələrin canlı şahidi L. Hüseyinzadə yazır ki, *"Toplantıda Azərbaycandan maddi, mənəvi və əsgəri yardım istəmək haqqında bir qərar qəbul edilmişdir. Qərarın Bakıya-Azərbaycan hökümətinə çatdırılması və Naxçıvanın sosial siyasi durumu haqqında ətraflı məlumat vermək üçün oraya bir təmsilçi heyəti göndəriməsi qərara alınmışdır. Bu toplantıda hökümət təmsilçisi olaraq başda Araz-Türk hökümətinin xarici işlər naziri Bəhram xan olmaqla, hökümət üzvləri Mirzə Abbas Qədimov, Əli Səbri Qasımov və geniş xalq kütləsi tərəfindən sevilən Hüseyn Cavid təmsilçi seçilmişdi. 1919-cu il, mart ayının əvvəllərində Araz-Türk hökümməti tərəfindən Azərbaycan Cümhuriyyətinə göndərilmiş ilk təmsilçilər Azərbaycan dövlətinin başçısı Fətəli xan Xoyski ilə görüşmüş, xalqın qərarını çatdırdıqdan sonra, Naxçıvanın erməni işğalı təhlükəsi qarşısında qaldığını və təcili yardım göstərilməsini xahiş etmişlər*" (Hüseynzadə, 2008: 79)[9].

Bir neçə gün sonra təmsilçilər Naxçıvana dönsələr də Cavid əfəndi Naxçıvana dönməmiş, Bakıda qalmışdır. Qəlbi milli duyğularla dolub-daşan Cavid əfəndinin Bakıda qalması, cümhuriyyəti quranlarla birlikdə olması nə qədər təbii olsa da, bu əsl səbəb deyil. Naxçıvana gedişi *"sıravi bir müəllim missiyasına bənzəməyən"* Cavidin *"bu dəfəki (və həmişəlik) dönüşü"* də *"siyasi müstəvidə"* idi. Xatırlayaq ki, AXC quranların bir çoxu Cavid əfəndinin yaxından tanıdığı milli mücahidlər idi, xüsusən Məhəmməd Əmin Rəsulzadə. 1937-ci ildə istintaq dindirilmələrində Hüseyn Cavid əfəndi cümhuriyyət dövründə M. Ə. Rəsulzadə ilə heç bir əlaqə və yaxınlığının olmadığını desə də, əslində bu illərdə Cavid əfəndi ilə Rəsulzadə arasında isti münasibətlərin mövcudluğunu təsdiq edən az da olsa dəlillər vardır; Rəsulzadənin bacanağı olan Seyid Hüseynlə Hüseyn Cavid əfəndinin yaxın dostluqları, hətta "Hüseyn Cavid Bakıya köçəndən sonra Mişkinaz xanımla birgə ilk yay mövsü-

---

7 "Cavid efəndinin vürudu". *Azərbaycan* qəz. 9 Mart 1919. Say: 52.

8 Yenə orda. Say: 52.

9 Hüseynzadə, L. *Araz şahiddir*. İstanbul. 2008. s. 79.

münü Seyid Hüseynin Novxanıdakı bağında keçirmələri", bu görüşlərdə M.Ə. Rəsulzadənin də iştirak etməsi və s. (*"Hüseyn Cavidlə M. Ə. Rəsulzadənin dost" olduğundan Seyid Hüseynin qızı Qumral xanım da memuarlarında bəhs etmişdir*). Hənəfi Zeynallının 1937-ci ildə istintaqa verdiyi cavab fikrimizin möhkəmlənməsinə xidmət edir: "*Azərbaycanın türklər tərəfindən işğalı zamanında təbliğat aparan Cavid müsavatın ideoloquydu.*" Hənəfi Zeynallının bu fikirlərinə tədqiqatçı A.Turan haqq qazandıraraq yazır: *"Hənəfî haqlıdır, çünki Cavid Müsavat partiyasının üzvü olmasa da, Müsavat hökumətinin baş ideoloqlarından biri kimi tanınır və qəbul olunurdu. Müsavatın təqib etdiyi ortaq ədəbi türkcənin daha ardıcıl yaradıcısı və tərəfdarı da Hüseyn Cavid olmuşdur",* −deyə hökm verir. Şairin cümhuriyyət dövründəki zəngin fəaliyyətini izlədikdə bu sözlərinin həqiqət payı daha da artır. Cavid əfəndi 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin 1-ci ildönümü münasibəti ilə Gəncədə keçirilən mərasimə də dəvət almış, həmin tədbirdə iştirak etmişdir. Elə həmin ildə (1919) Hüseyn Cavid əfəndi ilə Abdulla Şaiq birlikdə *Ədəbiyyat dərsləri* adlı kitab tərtib edib çap etdirmişlər. Cavid əfəndinin tərcümeyi-halı da verilən bu kitab birbaşa Türkiyə və Azərbaycanda ortaq ədəbiyyat tədrisinin, ümumiyyətlə ortaq məktəbin yaradılmasına meylin əsaslı göstəricilərindəndir. 1919-cu ildə "Yaşıl qələm" dərnəyinə üzv qəbul olunan şair "Yaşıl qələm" cəmiyyətinin 1920-ci ilin martında keçirilmiş qurultay səviyyəli toplantısına dəvətli olan 80 nəfər nümayəndədən biri olmuşdur. Cümhuriyyət zamanında Cavid əfəndinin həyat və yaradıcılığı haqqında mövzular dönəminin tədris proqramlarına daxil edilmişdi. Bəzi mənbələrdə *"Cavid müsavatı qəbul etmədi və onun yalançı milli birlik şüarına inanmadı. Amma müsavatçılar ondan istifadə etməkdən çəkinmədilər"* (Cavidi xatırlarkən, 2012: 288)[10] – kimi fikirlər yer alsa da (C. Cəfərovun ideologiyanın təsiri ilə yazdığı bu sözlərin həqiqətlə heç bir əlaqəsi yoxdur), *"Cavidin müsavat partiyasının lideri M. Ə. Rəsulzadə ilə gözəl münasibətləri olmuşdur"* – fikri həqiqətə daha yaxındır. Məfkurəsi müsavatın ideologiyası ilə eyniyyət təşkil edən Hüseyn Cavid əfəndi nəinki "müsavatın milli birlik şüarını" yalançı saymamışdı, hətta AXC süquta uğradıqdan sonra da məfkurəsinə sadiq qalaraq cümhuriyyət ideallarını, Məhəmməd Əmin Rəsulzadənin *"Bir kərə yüksələn bayraq, bir daha enməz"* – şüarı ilə qaldırdığı Azərbaycan bayrağının rənglərinin mahiyyətini: türklük, islam və çağdaşlığı yaradıcılığında yaşatmaqla əbədilik bəxş etmişdi.

Cavid mücadiləsi sənətdə: *"İki əsrin və iki imperiyanın hüdudunda böyüyən*" (Zeynallı 1930: 21)[11]

Cavid əfəndinin dünyagörüşünün formalaşmasında üç böyük mədəniyyət mərkəzinin: Naxçıvan-Təbriz-İstanbulun böyük rolu olmuşdur.

---

[10] *Cavidi xatırlarkən (Cavid haqqında məqalə və xatirələr toplusu)*. Bakı: Zərdabi. 2012. s. 288.

[11] Zeynallı. H. *XX əsrdə Azərbaycan-Türk ədəbiyyatı. Azərbaycanı öyrənmə yolu* jurn. 1930. №3. (B.A.D.F.T.İ). ss. 20-25.

Yaradıcılığında İslam Peygəmbərini, Şərq fatehini, Şərq şairinin, Şərq hökmdarının, Şərq filosofunun qusursuz obrazlarını yaradan Cavid öyrəndiklərinə və inandıqlarına ömrünün sonuna qədər sadiq qalmışdı. Sovetlərin ideoloji yönətiçiləri ondan israrla sovetləri öyməsini tələb edərkən o, inadla "yerə inməyəcəyini" bəyan edirdi:

Bən fəqət hüsnü-xuda şairiyim

Yerə inməm də səma şairiyim (Cavid 2007: 194)[12].

"Yer"i işğal etmiş Allahsız, imansız sovetlər cəmiyyətində şairi "qatarlarına" minməyə dəvət edənlər və "Hüsnü-xuda" şairi (Paradoks). Şairin "yerə" inmək istəməməsinin səbəbi yerdəkilərdi. Və "yerə" inmək istəməyən, məfkurəsinə və "sənətkar vicdanına" sadiq qalan Cavid əfəndi yazdıqlarında nə sovetləri, nə də sovetlərin gətirdiyi yad mədəniyyəti, yad dili, yad musiqini qəbul etmirdi, qətiyyətlə sovetlərə qarşı çıxırdı (Bəzi sovet tənqidçiləri Cavid əfəndinin sovetlərin cəbhəsinə keçdiyini iddia etsələr də, bu fikir əsassızdır). *Şeyx Sənan* ilə (1914) Azərbaycan səhnəsinə təsəvvüfü gətirən Cavid əfəndi, *Peyğəmbər* ilə (1922) İslam Peyğəmbərini, *Topal Teymur* ilə (1926) türk fatehlərini gətirmişdi. Sovetlərdən, Stalindən, Lenindən yazmadığı üçün Cavid əfəndiyə qarşı tənqid günügündən kəskinləşmiş; "böyük quruluşumuzdan yazmaqdansa, gedib əski tarixi şeylərə əl atır", – deyə suçlanmışdı və bu "suç"-lamalarda həqiqət payı çoxdur, çünki Cavid əfəndi nəinki sovetləri alqışlamır, öymürdü, əksinə bolşeviklərin Azərbaycanı işgalının 2-ci ilində rusa etiraz olaraq mövzusunu İslam tarixindən aldığı *Peyğəmbəri*, 3-4 il sonra *Topal Teymuru* yazmaqla ruslara qarşı türklüyünü nisan verməklə, "qiyam" edirdi. *"Zülmətə qərq olmuş dünyada Cavid əfəndinin üzünü Hz. Məhəmmədə tutması"* və *"sovet cahiliyyəsi dövründə **Peyğəmbər**də Allaha söykənib sosial qiyamına burda başlaması"* (Turan 2008: 143)[13] "suç" sayılmış, *"başdan-ayağa dərin fəlsəfi, ictimai, siyasi, əxlaqi mənası olan həqiqətlərlə, rəmzlərlə, eyhamlarla dolu"* (İsrafilov 1991: 15-16)[14] olan *Peyğəmbəri* tənqid hədəfinə çevirmiş, ədib sovet dövründə İslamın təbliğində günahlandırılmışdı. Sovetlərin yarandığının ilk illərində, çətin bir şəraitdə şairin türk tarixinə üz tutması milli fikrin təbliğinə xidmət edirdi. *Topal Teymur* əsərinin sonunda *"Avropa dövlətləri həmişə fürsət gözləmiş, dünyada müharibə alovlarını qızışdırmışdır"*, –fikrini xüsusi vurğulan ədib əsərdə Divan bəyinin: *"Əvət dün İspaniya səfiri də bu nöqtəni qeyd edirdi və böyük xaqanın fəzilət və məharətlərindən saydıqca dili ağzına sığmırdı"* – sözləri ilə Avropanın "at oynatmaq" siyasətinə toxunurdu. Bu mənada, Divanbəyinin sözlərinə Teymurun verdiyi cavab da çox ibrətamizdir: *"Avropalıların dilləri başqa, ürəkləri daha başqadır.*

---

12 Cavid, H. *Hüseyn Cavid Əsərləri*. Beş cilddə. III c. Bakı: Elm. 2007. s. 194.

13 Turan, A. *Cavid əfəndi*. Bakı: Araz. 2004. s. 143.

14 İsrafilov, H. *Azərbaycan dramaturgiyasının inkişaf problemləri*. Bakı: Elm. 1991. ss. 15-16.

Hər halda məmləkətimiz aslanlar yuvası olaraq qalmamalı. Əvət, qoy düşmənlərimiz görsünlər ki, türk övladı yalnız basıb-kəsməkdən deyil, yaşamaq və yaratmaqdan da zövq alır" (Cavid 2007: 317)[15]. Ə. Hüseynzadə xristiyan dünyasının "at oynatmaq" ("Siyasətifürusət") siyasətinin türk dünyası üçün böyük təhlükə olduğunu vaxtında duymuşdu. *"Cavid də Avropanı 'gözü' ilə görənlərdən idi. Ona görə də Əli bəy ehtiyatlılığı sanki Cavidə keçmişdi"* (Əsgərzadə 2015: 460)[16] 1926-cı ilə, yəni sovet hökmətinin hələ altı yaşı olanda baş tutmuş I Türkoloji qurultayda sonradan Cavid əfəndinin başına bəla olacaq türk mövzusu məhz Əli bəy Hüseynzadənin dilindən qurultayda səslənmişdi. Bu, bəlkə də böyük Azərbaycan oğlunun öz vətənində bu dərəcədə vacib bir əhəmiyyət kəsb edən son məruzə – xitabı, sanki Rus faşizminə hayqırtısı idi: *"Bilirsiniz?! Türklər kimdir və kimlərdən ibarətdir?!"* Öz böyük ustadından; *"Əli bəy Hüseynzadədən aldığı qeyri – adi ideya gücü, əlahiddə istedadı ilə bu "imanlı qoca ilə çiyin-çiyinə addımlamaq hüququ əldə etmiş"* Hüseyn Cavid isə, *Topal Teymurda* yazırdı: *"Bana baq, Olqa! Sən bizdən nə istiyorsun? Artıq yetişir, dəf ol! Türküstan ovalarında, Səmərqənd bağçalarında yabançılara yer yoq... Eşidiyormusun"?* (Cavid 2007: 320)[17] Bolşeviklərə *"Türküstan ovalarında, Səmərqənd bağçalarında yabançılara yer yoq", "dəf ol", – deyə yol göstərən ədibin, "*Olqa obrazını əsərinə gətirməsi şübhəsiz təsadüf ola bilməzdi." Əksinə, *"Hər sözün məna və siqlətini dərk edən Cavidin Moskvadan gətirilmiş Olqa obrazını əsərinə gətirməsi məqsədlidir"* (Qasımov 2017: 24)[18]. *"Maraqlıdır ki, Cavid Olqanı müharibə aparan dövlətlərin döyüş meydanlarında, yaxud əzab çəkən xalqın arasında yox, məhz müharibənin taleyini həll edən hökmdarların hər ikisinin sarayında dolaşdırır. Dramaturq Olqanı Teymur sarayından Bəyazid sarayına qanı, canı, dili və dini bir olan qardaş arasına təfriqə salmaq üçün aparır"* (Qasımov 2017: 24). Milli mücahid bununla, Olqanın simasında Pyotrun vəsiyyətilərinin yerinə yetirilməsi üçün, türkün türklə birləşməsinin qarşısının hər cəhdlə alınmasını, türklə türkün arasında dayanmış, təfriqə salan rusu, rusun siyasətini ədəbi dillə anladırdı. Buna görə, dilinə, uslubuna, düşüncələrinə görə Cavid əfəndi kimi "nam" alan şair Sovet dönəmində "İstanbul müməssili" olaraq görülmüş təqib və tənqid olunmuşdu. Bu da təbii id, çünki bolşeviklərə türk təfəkkürü ilə düşünən, türk dilində yazan, ən əsası da "Böyük ədəbiyyat" yaradan milli sənətkar lazım deyildi. Bolşeviklər, tənqidçilər, qələm qardaşları ısrarla "doğru yol"a – sovet cəbhəsinə adlamağa, özlərinin təbirincə desək, "bolşevik qatarı"na oturmağa dəvət etsələr də, Cavid əfəndi məfkurəsinə, çümhuriyyət ideallarına xəyanət

---

15 Cavid, H. *Hüseyn Cavid Əsərləri*. Beş cilddə, IV c. Bakı: Elm. 2007. s. 317.

16 Əsgərzadə, L. *Əli bəy Hüseynzadə və Hüseyn Cavid/Böyük ədib və mütəfəkkir Əli bəy Hüseyn-zadə*. Bakı: Elm. 2015. ss. 452-465.

17 Yenə orda. s. 320.

18 Qasımov, C. *Cavidi məhbəsə aparan yol*. Bakı: Nurlan. 2017. s. 24.

etməmişdi. Bununla da özünün ölüm fərmanını imzalamış Cavid əfəndi Ortaq Türk kültürü, Türk ədəbiyyatı, Türk dili, bütövlükdə Turan uğruna qurban getmişdi. Yaradıcılığında cümhuriyyət ideallarını, Turanı yaşadan mücahid şairin yaradıcılığında idealları, dilində "məfkurə əraziləri" qorunur. Onun dilinə toxunmaq bu ərazilərə müdaxilə etmək kimidir. *"Bu ərazinin sərhədləri içərisində isə millətimizin məfkurəvi müəyyənliyi, əxlaqi, kültürü və ruhu mühafizə edilərək qorunub saxlanmqdadır"* (Turan 2009: 129)[19].

İsmayıl Qaspıralının ortaya qoyduğu bölünmüş türk dövlətlərinin yalnız bir lisanda birləşməsi ilə Turanın yaranması gerçəkləşə bilər, – fikrini hər zaman müdafiə etmiş, israrla həyata vəsiqə almasını istəmiş şair ideallarını qızına verdiyi adda əbədiləşdirmişdir – Turan. *"Cavid əfəndinin yaradıcılığında bizim məfkurə müəyyənliyimiz, əxlaqımız, kültürümüz, ruhumuz rus müdaxiləsindən qurtulmağa, azad olunmağa başlayır"* çünki *"onun dilinin romantik və ədəbi mahiyyətindən çox siyasi-məfkurəvi bir mahiyyəti vardı"* (Turan 2009: 131)[20]. Ömrünün sonuna qədər Turan ədəbi dilinin qurulması uğruna mücadilə etmiş Cavid əfəndi əsərlərində yalnız İstanbul türkcəsinə aid sözlər istifadə etməklə qalmamışdı.

> *"Bütün tələffüz norması, morfoloji-sintaktik quruluşu, lüğət tərkibi ilə İstanbul türkcəsinə uyğundu. Avropa mənşəli alınma sözlər belə Cavidin dilinə çağdaşları kimi Rus dilindən deyil, Türkiyə türkcəsindən keçmişdi. Cavidin dil məsələsində tutduğu yol, istifadə etdiyi Ortaq Dil Rza Tevfik Bölükbaşı, Yurdakul və Göyalpın dilindən fərqlənməyən, anlaşıqlı bir türkcə idi. Fitrətən Türkçü, Turançı olan Cavid, ümumtürk ədəbi dili ilə əlaqəli görüşlərini öz əsərləri ilə ortaya qoymuş, yaradıcılığıyla 'lisan birləşdirmək' ideologiyasına xidmət etmiş şair qızına verdiyi Turan ismində belə bu arzularını ifadə etmişdi"* (Əsgərzadə 2013: 244) [21].

Onun dili Turan ideologiyasını Azərbaycanın Sovet Rusiyasının işğalından sonra daha əzimlə davam etdirmiş Cavid əfəndinin düşüncəsində Turandan başqa istənilən Vətən ideyası işğalcılığa və zorakılığa əsaslanırdı. Cavid əfəndi Sovet Azərbaycanı dövründə milli kültürü, milli ruhu, Türkçülüyü-Turançılığı beynəlmiləl proletar mədəniyyətinə qarşı mübarizə edənlər arasında fərqli idi. Onun türkçlüyünün nəticəsi idi ki, Sovet Rusiyasının Azərbaycanı işğlal etdiyi zamanda belə bu ideologiyadan vaz keçməmiş, yaşam və yaradıcılığında bu ideologiyanı yaşatmağa çalışmışdı. Məsələn, Cavid əfəndinin sovetlər

---

19 Turan, A. "Hüseyn Cavidin dildə birlik idealı"/*Turansam*: 2009. Say: 1. ss. 125-135.

20 Yenə orda. s. 320. s. 131.

21 Əsgərzadə, L. "Türkcənin inkişafına xidmət edən Hüseyn Cavid və Şəmsəddin Sami"/ *Ululararası dil və Ədəbiuyat simpozyumu:Balkanlarda Türkcə. Bildiri kitabı I*. Tiran/ Arnavutluk. 2013. ss. 244-251.

dönəmində qələmə aldığı *Topal Teymuru* milli məzmununa görə, SSRİ rəhbərlərini bir xeyli məşqul etmiş, Türkün qəhrəman fatehləri – Əmir Teymur və Yıldırım Bəyazitin səhnəyə gətirilməsi yaxşı qarşılanmamışdı. Cavid əfəndi əsərdə Əmir Teymurun dilindən bir Türk-Turan hökmdarının hansı xüsusiyyətləri daşımasının başlıca əlamətlərini göstərməklə qalmamış, iki Türk hökmdarının müharibə etməsinin əleyhinə olmuşdu, çünki Turan adlı Vətəndə iki Türk böyüyünün müharibə etməsi yalnız Turanın parçalanmasına xidmət edir. Əsərdə Divanbəyinin dilindən Teymura deyilmiş sözlər çox dəyərlidir: *"Fəqət bən biləkis, Yıldırım məsələsində əsla tərəfdar olmaq istəməm. Çünki hər ikiniz Turan aləminin birər qütbüsünüz. Şu iki qütüb bir-birilə çarpışırsa, ortada fəlakətli bir uçurum açılmış olur. Və bu nifaqdan yararlanan əcnəbi dövlətlər Türk dünyasına saldırmağa fürsət bulur."* (Cavid 2007: 317)[22] Teymurla Yıldırım Bəyazıt arasındakı tarixi savaşı sonuncunun dilindən bir tərəfin deyil, bütün Türk millətinin məğlubiyyəti kimi dəyərləndirən ədib yazır: *"Bu zəfər Türk əqvamını deyil, yalnız fürsət bəkləyən qomşu hökumətləri məmnun etdi. Ah, doğrusu, İslam aləmini başsız qoydu"* (Cavid 2007: 366)[23]. Müharibədə qalib tək olur. Bu müharibədə qalib, Əmir Teymurdur. Lakin Teymurun əsir aldığı Yıldırım Bəyazitə fəzilətlə yanaşması, *"ehtramda Yıldırıma qusur edilməsin"*, - deyə təlimat verməsi, əsl Şərq fatehi kimi hərəkət edərək "basdığn kəsməməsi" kimi hadisələrdə Cavid əfəndinin milliliyi və humanizmi özünü qabarıq şəkildə göstərir. Bəzi mənbələrə görə, Yıldırımı əsir götürən Teymur onu qəfəsə qoyub yanında gəzdirirmiş. Lakin türkün türkə bu münasibəti qəlbi Turan eşqi ilə coşub- daşan Cavid əfəndi tərəfindən qəbuledilməzdi. Onun Yıldırımı məğlub olanda da məğrur, Teymuru qalib olanda da əsirinə fəzilətlidir. Cavid əfəndi yalnız *Topal Teymurda* deyil, *Səyavuş* və *Xəyyam* əsərlərində də *"günün həqiqətlərini deyə bilmək üçün tarixə sığınmış, Türk tarixinin müxtəlif dövrlərini əks etdirmişdir.* ***Səyavuş****da hadisələri miladdan öncəki 624-ilinə götürməklə ədib, əsərin timsalında özünün ən qədim Türk tarixinə istinad edən əsərini yaratmışdır"* (Turan 2010: 208)[24]. M. Ə. Rəsulzadə Cavid əfəndinin *Peyğəmbər*, *Topal Teymur*, *İblis* və *Səyavuş* pyeslərini təhlil edərkən ədibin *"sovet cəmiyyətində tarixə sığınmasını günün həqiqətini deyə bilməsi"* (Rəsulzadə 1990: 35-36)[25] – kimi dəyərləndirmişdir. Mövzusunu *Şahnamədən* aldığı *Səyavuş* əsəri Cavid əfəndiyə Türk tarixinin, Türk cəmiyyətinin daha qədim dövrlərinə istinad etmək imkanı qazandırmışdı. O, Əfrasiyab, Səyavuş mövzularına "toqunmaq"la, əslində, Alp Ər Tonga və Turan, Türk kimliyi məsələlərinə yenidən müraciat etmək, İran-Turan problemlərini açıq şəkildə

---

22 Cavid, H. *Hüseyn Cavid Əsərləri*. Beş cilddə, IV c. Bakı: Elm. 2007. s. 317.

23 Yenə orda. s. 355.

24 Turan, A. *Cavidnamə*. Bakı: Elm. 2010.

25 Rəsulzadə, M. Ə. "Əsrimizin Səyavuşu". *Çağdaş Azərbaycan ədəbiyyatı*. Bakı: 1990. ss. 35-36.

araşdırmaq imkanı, Türk – İran yahut Çin imperiyasının türklərə münasibəti barədə söz söyləmək fürsəti eldə etmişdi. Hətta tədqiqatçı A. Turanın fikrincə, *"Türk tarixinin və cəmiyyətinin daha qədim dövrünə müraciət imkanı verən Səyavuş əsərini Türk yaddaşının 30-cu illərdəki ətalət burulğanından xilas edilməsi, milli yaddaşın oyandırılması naminə Hüseyn Cavidin ən böyük savaşı, hətta bir sıra hallarda 'Səyavuş'u 30-cu illər Azərbaycanının faciəsini və problemlərini incələyən bir əsər kimi"* (Turan 2010: 208) [26] dəyərləndirmək də olar. Aşağıdakı misralarda sanki "azadlıq", "ədalət" şüarı ilə məmləkətləri işğal etmiş bolşevik hökumətinə, "rəzalət" hökumətə ünvanlanıb:

Yetər çıldırdınız, hökumət! – deyə,
Evləri yıxdınız, ədalət! – deyə.
Söylə, övündüyün ədalət bumu?
Hökumət dediyin rəzalət bumu? (Cavid 005: 251)[27].

Əslində, mütəfəkkir sənətkarın milli istiqlal ideologiyasının təbliğatı yapılan *Səyavuş* əsəri bir növü M. Ə. Rəsulzadənin "Əsrımızın Səyavuşu" siyasi fəlsəfi əsərinin bədii dildə ifadəsidir. Rəsulzadənin Azərbaycan Cümhuriyyətinin milli ideologiyasının mahiyyətini əks etdirən əsərdə ("Əsrimizin Səyavuşu") Səyavuş Azərbaycanı təmsil edir. Fars şairi Firdovsinin *Şahnaməsini* oxuyan və paralellər apararaq Firdovsinin qəhramanı Səyavuşun həyatını Azərbaycan Cümhuriyyətinə bənzədən Rəsulzadənin qənaətinə görə, İranla Turan arasında qalan Səyavuşla, Rusiya və İran arasında bölüşdürüləməyən Azərbaycan eyni taleyi yaşayır. Yalnız Firdovsinin Səyavuşundan fərqli olaraq Rəsulzadənin Azərbaycan Cümhuriyyəti adlı idealının bir gün azadlığa qovuşacağı əsərdə inamla vurğulanır. Azərbaycan xalqının bir millət kimi formalaşmasında türklərin əsas rol oynadığını vurğulayan Rəsulzadənin fikrincə, *"onların öndərliyi ilə Turanın mərkəzində Azərbaycan adlı bir ölkə yaranmışdır ki, yeni Turanın açarı ondadır. Yeni Azərbaycan Türk ocağı, əski Türk yurdudur."* (Rəsulzadə 1990: 61)[28].

Türk qəhramanı -Səyavuşun ölümünü- Azərbaycanın Rusiya tərəfindən işğalını Rəsulzadə kimi, Cavid əfəndi də Turan üçün zərbə hesab etmiş və bunu Turan elinin vəziri Piranın dili ilə ifadə etmişdir: *"Saqın, öylə şanlı bir gəncə qıymaq. Qəlbindən yaralar bütün dünyanı. Anıldıqca ağlar qoyar Turanı"* (Cavid 2007: 289) [29] Rəsulzadə kimi, Cavid əfəndinin fikrincə də, "*Səyavuşun mücadiləsi Azərbaycanın mücadiləsi millilik və müstəqillik uğrunda mübarizədir"* (Rəsulzadə 1990: 62)[30]. Ədibin *Səyavuşda* verdiyi me-

[26] Turan, A. *Cavidnamə.* Bakı: Elm. 2010.

[27] Cavid, H. *Hüseyn Cavid Əsərləri. Beş cilddə.* IV c. Bakı: Elm. 2007. s. 251.

[28] Rəsulzadə, M. Ə. "Əsrimizin Səyavuşu". *Çağdaş Azərbaycan ədəbiyyatı*. Bakı: 1990. s. 61.

[29] Cavid, H. *Hüseyn Cavid Əsərləri. Beş cilddə.* IV c. Bakı: Elm. 2007. s. 289.

[30] Yenə orda. s. 62.

saj bu idi; Türk-Turan birliyi gərçəkləşsə, heç bir millət ona üstün gələməz. *"Cavidin **Səyavuş**unda dərin mənalı fəlsəfi fikirlər vardır'* və ya ***Peyğəmbər** bolşevizim şəraitində yazarın kəndi düşüncələrini söyləməyə fürsət aradığını göstərə bilmək üçün son dərəcə gözəl əsərdir"* (Rəsulzadə 1990: 61)[31] - deyərkən M. Ə. Rəsulzadə məhz bunu nəzərdə tutmuşdur. Eyni zamanda, Rəsulzadənin əsərdə ədibin vətən sevgisinin, yurd duyğusunun güclü ifadə edildiyini vurğulaması, "Peyğəmbər"in dilindən söylənmiş bu misraları nümunə göstərməsi çox diqqətçəkicidir:

Şu qılınc, bir də bu mənalı kitab,
İştə, kafi sizə... yox başqa xitab.
Açar ancaq bu kitab el gözünü,
Siləcəkdir bu qılınc zülm izini.
Haqq, vətən, zevqi – səadət, cənnət,
Həp kılınc kölgəsi altında, əvət! (Cavid 2007: 296)[32].

Cavid əfəndinin əsərləri (*Topal Teymur*) vasitəsi ilə Azərbaycan teatr səhnəsinə türk fatehləri ilə, Türk erasından sonrakı dövrə götürdüyü *Xəyyamı* ilə isə bir çox tarixi şəxsiyyətlər: Xəyyam, Alp Arslan, Nizamül-mülk, Məlikşah, Sabbah və s. Azərbaycan ədəbiyyatına qədəm qoyurdu. Millətin faciəsini yaşadığı qorxunc, Allahsız, Peyğəmbərsiz sovetlər cəmiyyətində Cavid əfəndinin ölümü gözə alaraq bolşeviklərə İslam Peyğəmbərini, Türkü, Turanı anlatmasının nüvəsində onun məfkurəvi ideyaları dayanırdı. Bu da təbii idi, çünki *"Cavid mənəviyyatı Türk sözü, Türk qüruru, Türk keçmişi və Türk gələcəyi ilə daha sıx bağlıydı"* (Əliyev 2010: 147)[33]. Yaradıcılığı məfkurəsinə xidmət edən Cavid əfəndinin *Maral* əsərində yaratdığı Türk obrazı diqqətçəkicidir*: "Oğlum, sən bir baba iyidsən. Sən bir Türk oğlusun, mərd oğul kəndi kökünü unutmaz. Ər oğlu ər ol. Sözlərimi unutma! Heysiyyətli bir baba igid, nə oynar, nə gülər, nə də ağlar, çünki oynamaq cingənələrin işidir, gülmək çocuqların payıdır, ağlamaq da dul qadınlara yaraşır. Bir Türk, çadırda doğar, savaşda ölür"* (Cavid 2007: 85)[34].

Özündən-kökündən qopanlar isə ədibin "Uçurum" əsərində Uluğ bəyin dilindən nəsibini alır:

O gün ki, İstanbulda,
Gənclik fransızlaşdı,
Getdikcə Türk evladı,
Uçuruma yaqlaşdı (Cavid 2007: 402)[35].

---

31 Yenə orda. s. 61.

32 Cavid, H. *Hüseyn Cavid Əsərləri*. Beş cilddə. III c. Bakı. Elm. 2007. s. 296.

33 Əliyev, K. *Hüseyn Cavid: Həyatı və yaradıcılığı*. Bakı: Elm. 2008.

34 Cavid, H. *Hüseyn Cavid Əsərləri*. Beş cilddə. III c. Bakı. Elm. 2007. s. 85.

35 Cavid, H. *Hüseyn Cavid Əsərləri*. Beş cilddə. II c. Bakı. Elm. 2007. s. 402.

Türkün köküdən qopmasından narahatçılıq duyan Cavid əfəndi Türk milləti üçün istəklərini "İxtiyar bir türkün vasiyyəti" şeirində də dilə gətirir:

Bir millətin tarixidir, kökü, yurdu, yuvası,
Tarixiniz baş ucundan hərgiz, əksik olmasın (Cavid 2007: 54)[36].

Mütəfəkkir sənətkar *"Oğuz-Türk xalqlarının birliyini, həmrəyliyini bir ideologiya kimi irəli sürürkən bu xalqların tarixi köklərini, mənşə bağlılığını, keçmiş qəhramanlıq səyfələrindəki müştərəkliyi ön plana çəkirdi"* (Əsgərzadə 2005: 11)[37]. Bir tərəfdən də o, *"Azərbaycan səhnəsinə Türkcə danışan obrazlar çıxarmaqla bu ideologiyaya xidmət etməkdə idi. Onun cocuq qəhramanları yalnız Türkcə danışmırdı, düşüncə etibarı ilə də əsl türkdü; 'Qız məktəbində' şeirindəki Gülbahar, 'Öksüz Ənvər'indəki Ənvər kimi"* (Cavid 2007: 39-46)[38].

Ümumiyyətlə, Cavid əfəndinin istər şeirlərində, istərsə də pyeslərində yaratdığı silsilə obrazlar və ideoloji sistemi Türklük nəzəriyyəsinin, Milli İdeolojiyanın bütün tərəflərini əks etdirir. Millilik, Türklük, Turançılıq anlayışını anlamaq üçün Cavidin yazdıqlarını misra - misra, obraz obraz təhlil etmək yetərlidir, çünki *"Cavid yalnız filosof şair-dramturq deyil, eyni zamanda böyük nəzəriyyəçidir, ideoloqdur"* (Hüseynov 2007: 17)[39].

Cümhuriyyət ideallarını yaradıcılığında yaşatması, qərəzli fikirlərin, iftiraların söylənməsi, sovetləri qəbul etməməsi, alqışlamaması mütəfəkkir sənətkarın həbsi ilə nəticələnmiş (1937), iki il bir ay çəkmiş istintaq prosesi, 1939-cu il iyun ayının 9-da keçirilmiş xüsusi müşavirədə onun "antisovet təşkilatında iştirakına və təbliğatına, müsavatçı pantürkist, əksinqilabi təşkilatın üzvü, əksinqilabi fəaliyyətinə, ədəbiyyat və dramaturgiya sahəsində gənclərin millətçi əksinqilabi ruhda tərbiyə olunması istiqamətində gördüyü işlərə, pantürkist ideyaların yayılmasına xidmət etdiyinə görə" 8 il müddətinə azadlıqdan mərhum edilməklə başa çatmış, islah-əmək düşərgəsinə göndərilməsi qərara alınmışdır. Həmin müşavirədə digər bir qərarla şair 1939-cu ildə Sibirə sürgün edilmiş Cavid əfəndi 1941-ci il, dekabrın 5-də Tayşet rayonunun Şevçenko kəndində, əlillər xəstəxanasında 59 yaşında vəfat etmişdir. 1956-cı ildə Cavid əfəndiyə də digər repressiya qurbanları kimi, bəraət verilsə də, ona əsl bəraət 1982-ci ildə Heydər Əliyevin SSRİdə anoloqu olamyan tarixi bir qərara imza atması ilə verilmiş, şairin cənazəsi

"Sibir mədənləri dərinliyindəki katorqa məzarlığından Azərbaycana gətirilərək, doğulduğu Naxçıvanda torpağa verilmişdir. Cavidi Sibirə sürgün etmək asandı, onu oradan vətənə gətirməksə çox zordu. Heydər Əiyevin millətinə, tarixinə, ədəbiyyatına, mədəniyyətinə olan

---

36 Cavid, H. *Hüseyn Cavid Əsərləri Əsərləri*. Beş cilddə. I c. Bakı, Elm. 2007. s. 54.

37 Əsgərzadə, L. *Hüseyn Cavid və Şərq*. Naxçıvan: Əcəmi. 2005. s. 11.

38 Cavid, H. *Hüseyn Cavid Əsərləri*. Beş cilddə. I c. Bakı. Elm. 2007. s. 46.

39 Hüseynov, R. *Əbədi Cavid*. Bakı. Nurlan. 2007. s. 17.

sədaqəti belə bir cəsarət göstərməyə imkan verdi və o, bunu etdi" (Əliyev 2000: 262)[40].

"Milli dəyərlərimizə sədaqət göstərən Heydər Əliyevin 59 yaşında Sibirə sürgün edilən Cavidi – Türkçülərin ən dahisini, ən dühasını 41 il sonra, 100 yaşında vətənə gətirmə səbəbi də bu idi; Onun vətənə qayıdışı bir tək Cavidin vətənə dönüşü deyildi, bu milli duyguya malik olan şəxsiyyətlərin hamısının cənazəsinin, ruhunun, öz doğma vətənlərinə – Azərbaycana qaytarılmasıydı" (Hüseynov 2007: 11)[41].

"Əli bəy Hüseynzadənin davamçılarından olan Cavid əfəndinin yaradıcılığında Türk dünyasının onurga sütunu sayılan Türk tarixi, Türk fəlsəfəsi, Türk dili, Türk əxlaqı və Turan ideologiyası bir bütündür. O, kiçik şeirində belə bu ideologiyanı-türkçülüyü, turançılığı yaşatmışdır. Cavidin həyatı bahasına yaşatdığı bu ideologiya günümüzdə də aktualdir" (Əsgərzadə 2011: 248)[42].

Şəxsiyyəti sənətini, sənəti ideologiyasını xarakterizə edən, xalqımızın ən çətin zamanlarında milli mənəvi dəyərlərimizi yad ünsürlərdən qoruyan və gələcək nəsillərə ötürən mütəfəkkir sənətkarın ədəbiyyatın, sənətin gücü ilə yaratdıqları dünən olduğu kimi, günümüzdə də birbaşa milli ideologiyaya xidmət etməkdədir. Çünki M. Ə. Rəsulzadənin dediyi kimi, "turk milli mədəniyyətinin, müasir Avropa demokratiyasının və islam sivilizasiyasının simvolu" (Əliyev 1993: 248) [43] olan 3 rəng; göy (türkçülük), qırmızı (müasirlik), yaşıl (İslam) qəlbi milli duygularla coşub-daşan Hüseyn Cavid əfəndi yaradıcılığının əsasını-ruhunu təşkil edir, yəni Cavid əfəndinin milli mücadiləsi – istiqlal ideyaları bugünümüzdə – Azərbaycan Respublikasının müstəqilliyində öz ifadəsini tapmışıdr. Bugünkü istiqlalımız, eyni zamanda Cavid əfəndinin milli mücadiləsinin, istiqlal ruhunun tənətənəsidir.

Qaynaqlar

1. *Azərbaycan tarixi*. Redaktor: İ. Əliyev. Bakı: Elm. 1993.
2. Ali bey Hüseyinzade. "Nicat muhabbetdedir". *Füyuzat* dergisi. 1906. S: 6.
3. Cavid, H. *Hüseyn Cavid Əsərləri.* Beş cilddə. I c. Bakı: Elm. 2007.
4. ----- *Hüseyn Cavid Əsərləri*. Beş cilddə. II c. Bakı. Elm. 2007.
5. ----- *Hüseyn Cavid Əsərləri*. Beş cilddə, III c. Bakı: Elm 2007.
6. ----- *Hüseyn Cavid Əsərləri*. Beş cilddə. IV c. Bakı: Elm. 2007.

---

40 Əliyev, H. *Ədəbiyyatın yüksək borcu və amalı*. Bakı: Ozan. 2000. s. 262.

41 Hüseynov, R. *Əbədi Cavid*. Bakı. Nurlan. 2007. s. 11.

42 Əsgərzadə, L. "Hüseyn Cavid və Ortaq türkcə ideologiyası/Priştina". *Bal-tam türklük bilgisi*. 2011. №15. ss. 113-122.

43 *Azərbaycan tarixi*. Redaktor: İ. Əliyev. Bakı: Elm. 1993 (B.A.D.F.T.İ).

7. ----- *Hüseyn Cavid Əsərləri*. Beş cilddə. V c. Bakı: Elm. 2007.
8. "Cavid əfəndinin vürudu". *Azərbaycan* qəz. 9 Mart 1919. Say: 52.
9. Cavidi xatırlarkən (Cavid haqqında məqalə və xatirələr toplusu). Bakı: Zərdabi. 2012. s. 288.
10. Əliyev, H. *Ədəbiyyatın yüksək borcu və amalı*. Bakı: Ozan. 2000.
11. Əliyev, K. *Hüseyn Cavid: Həyatı və yaradıcılığı*. Bakı: Elm. 2008.
12. Əsgərzadə, L. *Hüseyn Cavid və Şərq*. Naxçıvan: Əcəmi. 2005.
13. ----- "Hüseyn Cavid və Ortaq türkcə ideologiyası"/*Priştina, Bal-tam türklük bilgisi*. 2011. №15. ss. 113-122.
14. ----- "Türkcənin inkişafına xidmət edən Hüseyn Cavid və Şəmsəddin Sami"/ *Ulularарası dil və Ədəbiuyat simpozyumu: Balkanlarda Türkcə. Bildiri kitabı I*. Tiran/Arnavutluk. 2013. ss. 244-251.
15. ----- *Hüseyn Cavid əfəndinin yaradıcılığında türkcə danışan çocuqlar/II. Uluslararası Çocuq və gənclik ədəbiyyatı simpozyumu materialları*. İstanbul: KBN Dijital Basın tesisləri. 2015. ss. 39-46.
16. ----- "Əli bəy Hüseynzadə və Hüseyn Cavid"/*Böyük ədib və mütəfəkkir Əli bəy Hüseyn-zadə*. Bakı: Elm, 2015. ss. 452-465.
17. Qasımov, C. *Cavidi məhbəsə aparan yol*. Bakı: Nurlan. 2017.
18. İsrafilov, H. *Azərbaycan dramaturgiyasının inkişaf problem*ləri. Bakı: Elm. 1991. ss. 15-16.
19. Hüseynzadə, Ə. *Türklər kimdir və kimlərdən ibarətdir*. Bakı: Mütərcim. 1997.
20. Hüseynov, R. *Əbədi Cavid*. Bakı: Nurlan. 2007.
21. Hüseynzadə, L. *Araz şahiddir*. İstanbul. 2008.
22. Məmmədli, Q. *Cavid – ömrü boyu: həyat və yaradıcılıq salnaməsi*. Bakı: Yazıçı. 1982.
23. Rəsulzadə, M. Ə. *Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı*. Bakı: Gençlik. 1990.
24. Turan, A. *Cavidnamə*. Bakı: Elm. 2010.
25. ----- *Cavid əfəndi*. Bakı: Araz. 2004.
26. ----- "Hüseyn Cavidin dildə birlik idealı"/*Turansam*. 2009. Say: 1. s. 125-135.
27. Zeynallı, H. "XX əsrdə Azərbaycan-Türk ədəbiyyatı". *Azərbaycanı öyrənmə yolu jurn.* 1930. №3.

TÜRK MİLLİ MÜCADİLƏSİ MƏHƏMMƏD İQBALIN ƏSƏRLƏRİNDƏ

*Bəsirə ƏZİZƏLİYEVA**

Müsəlman xalqları arasında türklər, onların milli-mənəvi dəyərləri, Osmanlı dövlətinin islama və milli mədəniyyətə əsaslanan siyasəti hər zaman Məhəmməd İqbalın diqqət mərkəzində olmuşdur. M. İqbal dini ehkamları fəaliyyətsizliyin səbəblərindən olan "tale" bəhanəsinə əsas gətirilməsini qəbul etmir. Şair müsəlmanlığı millət uğrunda çalışmaqda, mübarizədə görür. M. İqbal Avropa dövlətlərinin Şərqdəki müstəmləkə siyasətinə qarşı çıxır, bu yolda özünəməxsus şəkildə türklərdən örnək almağa çalışır: *"Osmanlı türklərinin sözü yaxşı anladıqlarını eşitdim, kim onlara mənim bu qərib şeirimi çatdıracaq?"* (İqbal 2017: 35).

Məhəmməd İqbalın türklərə münasibətinin ifadə etdiyi və böyük türk şəxsiyyətlərini əsərə gətirdiyi bədii-fəlsəfi nümunələrindən biri də "Cavidnamə" mənzuməsidir.

İqbalın *Cavidnamə* əsəri həm fəlsəfi-dini görüşlərinin ifadə olunması, həm müsəlman cəmiyyətinin real durumunun şərhi, həm də gələcək nəsillərə önəmli mesajların ötürülməsi baxımından əhəmiyyətlidir. Filosof-şair islam dini, təsəvvüf fəlsəfi təlimi çərçivəsində ifadə etdiyi fikirləri ilə oğlu Cavidin simasında gənc nəslə gələcək inkişaf perspektivlərini aşılayır. Bu sahədə böyük türk mütəffəkkiri, İqbalın "doğruların imamı olan Rumun piri Mövlana" kimi sözlərlə vəsf etdiyi Mövlana Cəlaləddin Rumini özünə rəhbər seçən İqbal bütün əsər boyu onun bələdçiliyi ilə fərqli planetlərdə müxtəlif ruhları ziyarət edir. Şərqin və Qərbin önəmli alim, filosof, yazar, siyasət və dövlət adamlarının ruhu ilə söhbət zamanı İqbal eşq, insanı Allaha yönəldən mənəvi dəyərlər, islam dininin Haqq dini kimi özündə yüksək mənəvi keyfiyyətləri, ədalət prinsiplərini ehtiva etməsini, *Qurana* dönüşün müsəlman cəmiyyətinin xilası olmasını göstərir.

* AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya elmləri doktoru, dosent; *besi.azizali.@gmail.com*

Cavidnamə əsəri İqbalın ictimai görüşləri, Şərq və Qərb münasibətlərinə baxışının müəyyənləşdirilməsi kontekstində də mühüm əhəmiyyət daşımaqdadır. İqbal müsəlman xalqlarının, Yaxın Şərq millətlərinin real zaman daxilindəki problemlərini öz əsrinin qəhrəmanlarının ruhunu ziyarət etdiyi zaman da dilə gətirmişdir. Bunlar arasında Osmanlı dövlətinin sədrəzamı Said Halim Paşa önəmli yer tutmaqdadır. Said Halim Paşanın dövlətçilik sahəsindəki, cəmiyyətin problemləri ilə bağlı fikirləri Yaxın Şərqin bir sıra görkəmli şəxsiyyətləri kimi İqbalın da diqqətini çəkmiş, ona görə də əsərin "Cəmaləddin Əfqani və Said Halim Paşanın ruhlarını ziyarət" adlı bölümündə onu qəhrəman seçmişdir.

İqbal və Said Halim Paşanın fikirləri arasında bir sıra uyğun məqamlar müşahidə olunur. İqbal müsəlman ölkələrini Avropanın təqlidindən uzaqlaşdırmağa çalışarkən Said Halim Paşanın dili ilə "yeni Avropa" düşüncəsinə qarşı *Quranı* qoyur, "onun ayələrində yüzlərlə yeni dünya" olduğunu bəyan edir.

İqbalın sözügedən fikirləri Said Halim Paşanın dili ilə verməsi də təsadüfi deyildi. Said Halim Paşa da əsərlərində islam mədəniyyətini Qərb dünyasına qarşı qoyurdu. Said Halim Paşa da islam mədəniyyətinin əslində Qərb mədəniyyətinin qaynağı olduğunu, lakin bunun zaman keçdikcə unudulduğunu söyləyirdi. Eyni zamanda, qərblilərin islamı yalnış anladıqlarını, Qərbi örnək alan aydınlarımızın da onlarla bərabər səhf etdiklərini ifadə edirdi.

İqbal və Said Halim Paşa milli məsələləri, milli kültürün Qərb mədəniyyətindən fərqli cəhətllərini, dövlət siyasətində və cəmiyyətin inkişaf istiqamətində milli dəyərlərdən çıxış edilməsi vacibliyini ön plana çəkir, cəmiyyətin tərəqqisi üçün təhsili ən vacib yollardan biri kimi qiymətləndirirdilər. Bütün bu cəhətlər İqbalın Said Halim Paşanı *Cavidnamə* əsərinə gətirməsinə səbəb olmuşdur.

Cavidnamə əsərinin "Cəmaləddin Əfqani və Said Halim Paşanın ruhlarını ziyarət" hissəsində diqqəti cəlb edən məqamlardan biri İqbalın Said Halim Paşanın dili ilə söylədiyi sözlərdə böyük türk lideri, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkə qarşı tənqidi fikirlərin səsləndirilməsidir. Daha öncə yazdığı və həyatının son dövrlərində sahib olduğu düşüncələrinə zidd olaraq İqbal burada Atatürkün türk cəmiyyətinə Avropa təqlidi gətirməsindən şikayətlənir. "*Türk lirasında yeni bir melodiya yoxdur, onun yenisi Avropanın əskisi"* (İqbal 2014: 85) – deyən İqbal yazır:

Yeniləşməyə çağıran Mustafa
Dedi: "Yeni boya lazım eski tabloya!
Deyişməz Kabənin həyat tərzi
Gəlməzsə, Avrupanın adət və prinsipləri! (İqbal 2014: 85).

Cavidnamə əsərini türk dilinə tərcümə edən Halil Toker bu məsələyə öz münasibətini belə bildirir: *"İqbal **İslamda dini düşüncənin yenidən inşası** adlı 1930-cu ildə yayınlanan əsərində Türkiyəni örnək alacaq bir ölkə şəklində təqdim etdiyi və Mustafa Kamal Atatürkü müxtəlif şeirlərində tərif etdiyi halda, nə oldu ki, dörd il sonra nəşr etdirdiyi əsərində bu şəkildə ifadələrə yer vermişdir? İqbal Türkiyədəki hadisələri yaxından təqib etsə də, bu proseslərin birbaşa şahidi deyildi. Məlumatları ikinci əldən aldığı məlumatlar idi"* (İqbal 2014: 278-279). Halil Toker İqbalın fikirlərindəki bu dəyişikliyin səbəbi kimi 1931-ci ildə İqbalın Londonda uzun illərdən bəri tanıdığı və sözlərinə etibar etdiyi Rauf Orbay ilə görüşdüyünü, Orbayın İqbala *"Atatürkün Türkiyədə başlatdığı yenilik hərakatının böyük reaksiya doğurduğunu, xüsusilə, xalqın dini məsələlərdəki dəyişiklikləri qəbul etmədiyini, lakin heç kəsin Atatürkə qarşı çıxmağa cəsarət edə bilmədiyini"* söylədiyini yazır (İqbal 2014: 279).

Rauf Orbay Osmanlı dövlətinin sön dövrlərində, Türkiyə İstiqlaliyyət müharibəsi və Türkiyə Cümhuriyyəti dönəmlərində önəmli vəzifələrdə çalışan, İsmət Paşa və Fevzi Paşadan sonra Türkiyənin üçüncü baş naziri olmuş siyasətçilərdən idi. Türkiyə İstiqlaliyyət müharibəsinin qələbə ilə nəticələnməsindən sonra, siyasi danışıqlıqların getdiyi bir mərhələdə Atatürkə müxalif olan siyasətçilər arasında Rauf Orbay da var idi. Padişahlıq və xəlifəlik tərəfdarı olan Orbay hətta Atatürkdən padişahlıq və xəlifəliyin ortadan qalxmamasına dair "söz"də almışdır.

Doğrudan da İqbal *İslamda dini düşüncənin yenidən inşası* adlı əsərində müasiri olduğu dövrdə müsəlman xalqları arasında yalnız türklərin yeni inkişaf yoluna qədəm qoyduğunu dilə gətirmiş və dəyərləndirmişdir: "Həqiqət budur ki, günümüzdəki müsəlman millətlər arasında yalnız Türkiyə doqmatik yuxudan silkələnmiş və mənlik şüurunu qazanmışdır. Yalnız o intelektual azadlıq haqqına sahiblənmişdir; yalnız o ideal olandan gerçək olana keçmişdir. Bu keçid kəskin bir intelektual və əxlaq mücadiləsi tələb edir... Müsəlman ölkələri köhnə dəyərləri mexaniki olaraq təkrar etməkdədir, bunun əksinə olaraq türklər yeni dəyərlər yaratmaq yolundadırlar. Onlar özlərinin dərindəki mənliklərini dərk edən böyük təcrübəni yaşayıb bu günə gəlmişlər" (İqbal 2017: 199-200).

Təbii ki, İqbal Türkiyədəki siyasi hadisələrdən biraşa xəbərdar deyildi və ünsiyyətdə olduğu, uzun illərdən bəri tanıdığı Rauf Orbayın Atatürk haqqındakı fikirlərinin təsiri ilə də *Cavidnamə* əsərində Atatürkə qarşı sözügedən fikirlərini səsləndirə bilərdi.

Həqiqətən də 1932-ci ildə yazıb tamamladığı *Cavidnamə* əsərindən daha əvvəlki mərhələdə İqbalın əsərlərinə, Türkiyə ilə bağlı fikirləri, Atatürk haqqındakı düşüncələrinə nəzər yetirsək, fərqli yanaşmanı müşahidə edərik. Bəzi faktlara diqqət edək.

Türkiyə İstiqlaliyyət müharibəsi zamanı, 1921-ci ildə yunanların Ankaraya qədər gəldikləri zaman Milli Məclisin bir sıra nümayəndələrinin mərkəzin Kayseri və ya Sivasa köcürülməsi fikrini irəli sürdükləri dövrdə Atatürk islam aləmində böyük əks-səda doğuran bir bəyannəmə qələmə almışdır: *"Bütün islam ürəklərinin bir qəlb içində döyünməsi üçün özünü pərişan edən türk millətinə müzahir olun"* (https://www.dunyabulteni.net/tarihten-olaylar/pakistanin-milli-sairi-ve-mucadeleinsani-muhammed-ikbal-h295983.html) (Erişim: 28.06.2019). Bununla bağlı İqbal Qurban Bayramı münasibəti ilə Lahorda tarixi Badşahi Camisində bayram namazı qılmaq üçün toplaşmış 250 min insan qarşısında Atatürkü dəstəkləyən bir bəyannəmə elan etdi: *"İslamın hər tərəfində duçar-ı hezimet olan sancaqları Anadoluda toplanmışdı. Qardaşlarım, dua edək ki, o bayraq o bürclərdən qiyamətə qədər düşməsin. İslamın günəşi qaralmasın, Allah müsəlmanları xiristianlara qarşı müdafiə edən böyük lider Mustafa Kamala yardım etsin. İslamın son əsgərlərini müzəffər qılsın"* https://www.dunyabulteni.net/tarihten-olaylar/pakistanin-milli-sairi-ve-mucadele-insani-muhammedikbal-h295983.html [Erişim: 28.06.2019].

1922-ci ildə Türk Milli Hərəkatının qələbəsi münasiəti ilə də İqbal *İslamiyətin doğuşu* adlı şeirini yazmış, böyük türk qələbəsini digər müsəlman xalqlarına örnək olaraq göstərmişdir:

Köləlikdə nə qılıncların, nə də planların heç bir qiyməti yoxdur,
Fəqət imanın şövqü tutuşduğu zaman bütün zəncirlər parça-parça olur (İqbal 95).

Yalnız sarsılmayan bir iman, davamlı fəaliyyət və eşq bu dünyanı fət edə bilər.
İnsanın həyat mücadiləsindəki qılınclar bunlardır! (İqbal 96)

Osmanlıların üzərinə bir kədər dağı yıxılmışsa, sən heç üzülmə,
Çünki şəfəq yüz min ulduzun qanı tökülmədən sökülməz! (İqbal 93)

İqbal Türkiyə Cümhuriyyəti qurulduqdan sonra ölkədə islamla bağlı düşüncələrinin dəyişməsi haqqındakı söz-söhbətə *"güya türklər islamı rədd etmişlər! Heç bir zaman bundan böyük bir yalan söylənməmişdir"* (İqbal 2014: 279) deyə cavab verir.

İqbal Mustafa Kamal Atatürkə də şeir yazmış, onun türk millətinin müsəlman dünyasındakı rolunu yüksək dəyərləndirmişdir. "M. Kamal Paşaya (Allah ona yardım etsin)" şeirində İqbal yazır:

Atatürk və türklərin ağlı və hikməti sayəsində biz
İlahi təqdirin gizli sirlərinə yetişmişik.
Sönmüş bir qığılcım olduğu halda müsəlman
Mustafa Kamalın bir baxışı ilə
Bir günəş olduq ki, düşmənə yaman.
Eşqi öyrətdi bizə də, qurtulduq kölə olmaqdan.
Bahar rüzgarında ələmlə dolmuşduq,

O əsdirdi ovanın sərt yellərini.
Dünya biləcək əlbət dəyərini.
Sən qurtardın neçə dustağı, sərbəsti,
Atın hara qədər gedərsə,
Ey Mustafa Kamal, ora qədər yürü! (İqbal 2017: 108)

Cavidnamə əsərində səsləndirdiyi fikirlərə baxmayaraq, İqbalın Atatürk haqqındakı düşüncələri ömrünün sonuna yaxın yenidən əvvəlki rənginə qayıtdı.

İqbalın oğlu Cavidin fikirlərini, filosof ədibin əsərlərindən də müşahidə edirik. *İslamda dini düşüncənin yenidən inşası* adlı əsərində yazır: *"Xəlifəlik tək bir insana təhvil edilməlidirmi? Türkiyənin ictihadı budur ki, islamın ruhuna görə Xilafət və ya İmamət məqamı bir qrup insana, yaxud seçilmiş bir məclisə təhvil edilməlidir. Bildiyəmə görə, Misirdəki və Hindistandakı islam alimləri indiyə qədər bu məsələdə fikirlərini bəyan etməmişlər. Şəxsən inanıram ki, türklərin bu görüşü tamamilə doğrudur. Bu məsələdə mübahisə etmək hardasa əhəmiyyətsizdir. Cümhuriyyət şəklindəki idarə üsuslu yalnız islamın ruhuyla tamamilə uyğun deyil, eyni zamanda, islam dünyasında sərbəst buraxılan yeni gücləri diqqətə aldıqda bir öhdəlikdir"* (İqbal 2017: 194).

İqbal türklərin sözügedən fikirlərində haqlı olduqlarını ifadə etmək üçün tarixi faktlara və müasir türk ictimai xadimlərinin görüşlərinə də istinad edir. Eyni zamanda, "Cavidnamə" əsərində İqbalın bütün yenilikləri islam dini, onun qanun və ehkamları çərçivəsində düşündüyünü də müşahidə edirik. Şair *Cavidnamə* əsərinin Türkiyədəki yeniliklərdən bəhs edən bölümdə yazırdı:

Müsəlmanlar kimi qəlbin varsa,
Öz içinə bax və bir də Qurana.
Onun ayətlərində yüzlərcə yeni dünya
Əsrlər dolanmış onun hər anına!
Onun bir dünyası çağımıza bədəl
Göksündə duyan könül varsa gəl!
Mömün qul Allah ayətlərindənir,
Hər yeni dünya onun üzərində geyim kimidir.
Üstündəki bir dünya köhnəldiyində
Quran Digər bir dünya verir üzərinə! (İqbal 2014: 85)

Tabii ki, fərqli fikirlər, eyni məsələyə müxtəlif yanaşmalar olsa da, İqbal ömrü boyu türklərin dostu olmuş, onların milli-mənəvi dəyərlərini Şərq üçün örnək almış və islamın yüksəlməsindəki rolunu dəyərləndirmişdir. Eyni zamanda, Mustafa Kamal Atatürkün türk və müsəlman dünyasının inkişafındakı böyük fəaliyyətini yüksək qiymətləndirmişdir.

Qaynaqlar

1. İkbal, Muhammad. *Aşk ve Tutku. On Uzun Manzume.* Ankara: Akçağ Basım Yayım.
2. İkbal, Muhammed (2014). *Cavidname.* Tercüme Eden: Halil Toker. İstanbul: Kaknüs Yayınları.
3. İkbal, Muhammed (2017). *İslam'da Dinî Düşüncenin Yeniden İnşası.* Çeviri: Rahim Acar. İstanbul: Timaş Yayınları.
4. https://www.dunyabulteni.net/tarihten-olaylar/pakistanin-milli-sairi-ve-mucadele-insanimuhammed-ikbal-h295983.html

SEYFƏDDİN DAĞLI SATİRALARINDA ƏZİZ NESİN YARADICILIĞININ TƏSİRİ

*Maya HƏSƏNLİ**

Mehmet Nüsrət-Əziz Nesin (1915-1995)

Əziz Nesin, Cümhuriyyət dövrü türk ədəbiyyatının ən məhsuldar yazıçılarından biri, ən böyük satira ustasıdır. Əziz Nesin ədəbi növlərin hər üç sahəsində müxtəlif janrlarda yazdığı çoxsaylı əsərləri ilə 50 ildən çox türk ədəbiyyatını zənginləşdirmiş, satirik qələmi ilə xalqına xidmət etmişdir. Türkiyə ədəbiyyatı tarixində yeni tipli satiranı ilk dəfə Əziz Nesin tam olaraq əsas yaradıcılıq üslubu kimi mənimsəmiş, zirvəyə qaldırmış və bütövlükdə dünya ədəbiyyatı tarixində ən böyük satira ustalarından biri kimi yer tutmuşdur. Gənc yaşlarından bədii yaradıcılığa başlayan Əziz Nesin bütün ömrü boyu xalqın maariflənməsi, saflaşması uğrunda sözün həqiqi mənasında çətin mübarizə aparmışdır. 1000-dən çox (çap olunmuş) hekayəsi, 10-dan çox romanı və pyesi, böyüklər üçün nağıları, uşaq kitabları, şeirləri olsa da, satira ustasının öz təbirincə desək, sanki yoxmuş kimi ədəbi tənqiddən uzaq saxlanılmış, yaradıcılığı elmi araşdırmalardan uzaq qalmışdır. Baxmayaraq ki, Əziz Nesin hər zaman ən çox oxunan və kitabları ən çox satılan yazıçılardan biri və zaman-zaman birincisi olmuşdur. Əziz Nesin təkcə Türkiyədə deyil, bütövlükdə dünya ədəbiyyatında tanınmış və sevilmişdir. Əsərlərində toxunduğu məsələr hətta bu günümüz üçün yazılıbmış kimi ciddiliyini və aktuallınını qoruyub saxlayır. Satirik yazıcı, dünyanın 37 dilinə tərcümə olunmuş əsərlərində öz ölkəsindəki siyasi, ictimai, əxlaqi, eyni zamanda milli pozuntuları, cəmiyyətdəki qüsurları qələmə almış, nəticədə yarım yüzillikdən çox türk ədəbiyyatını zənginləşdirmiş, öz dövrünün "Molla Nəsrəddini" adlandırılmışdır.

Əziz Nesinin əsərləri 1962-ci ildən başlayaraq dilimizə tərcümə edilmiş, azərbaycanlı oxucuları tərəfindən də ilk gündən böyük maraqla qarşılanmış, sevilmiş, ədəbi mühitdə haqqında maraqlı fikirlər söylənilmişdir. Əziz Nesin haqqında müxtəlif illərdə həm publisistik, həm də elmi məqalələr yazılmış,

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun doktorantı, Türk xalqları ədəbiyyatı şöbəsi, kiçik elmi işçi; mayaaxundova93@gmail.com

əsərlərindən yeni tərcümələr edilmişdir. Əziz Nesinin əsərləri ilk dəfə Azərbaycan dilinə tərcümə ediləndə kitab Seyfəddin Dağlının müqəddiməsi ilə nəşr edilmişdir. Məhz bu müqəddimə ilə də Seyfəddin Dağlı dünyaşöhrətli Əziz Nesini azərbaycanlı oxucularına təqdim etmişdir. Bir neçə dəfə Bakıda olan Əziz Nesin xatirələrində ölkəmizi məhz Seyfəddin Dağlı vasitəsilə yaxından tanıdığını qeyd etmiş, həm Türkiyədə, həm də Azərbaycanda satirik həmkarı ilə görüşmüşdür.

Əziz Nesinin satirik ənənəsinin izlərini Seyfəddin Dağlının yaradıcılığında da aydın şəkildə müşahidə etmək mümkündür. Əziz Nesin yaradıcılığına xas satirik nağıl üslubuna Seyfəddin Dağlının yaradıcılığında da rast gəlirik. Əziz Nesinə görə, nağıl janrı hekayələrə nisbətən insanları daha çox düşündürür. Bu cəhətinə görə də ədib nağılları daha üstün satirik "silah" hesab edir. *"Mən xalq nağıllarında, rəvayətlərdə, lətifələrdə 'sərt rejimə qarşı dirəniş' meyili gördüm... Nağıllarda davamlı bir mücərrədlik, alleqoriya və rəmzlər var. Buna görə də nağıllarda yenilik bitməz tükənməzdir. Hər yeni situasiyada başqa bir prizmadan baxıb dinləmək mümkündür. Nağılda zehin işlətdirmək var, oxucunu məcbur etmə var. Buna görə də bir neçə dəfə oxuna bilər və ya dinlənilə bilər. İçindəki alleqoriya getdikcə anlaşılmağa başlayar"* (Nesin 2014). Digər tərəfdən yanaşdıqda isə nağıllarda gizlilik, ictimai-sosial və iqtisadi-siyasi qüsurları üstüörtülü şəkildə daha rahat tənqid etmək imkanı olur. Əziz Nesin "böyüklər üçün nağıllar" adlandırdığı bu əsərləri *Məmləkətin birində* (1958) və *Hoptrinam* (1960) kitablarında toplamışdır. Bəzi nağılları öz mənbəyini xalq nağıllarından, təmsillərdən, lətifələrdən, rəvayətlərdən almış olsa da, böyük əksəriyyəti xalq nağılı üslubunda yazılmış ədibin öz düşüncəsinin məhsulu olan yeni məzmunlu satiralardır. Əziz Nesin nağıllarında həm Qərb həm də Şərq nağılları motivlərindən təsirlənmiş, müasir cəmiyyətdəki qüsur və nöqsanları nağıl yolu ilə xatırlatmışdır. Seyfəddin Dağlı 1978-ci ildə qələmə aldığı "Allahı aldatdı, iblisə aldandı." satirasını nağıl adlandırır. Yazıçı nağıl üslubundan istifadə edərək cəhənnəmə düşmüş birinin hiylə işlədib cənnətə qaçması süjeti əsasında rüşvətxor, yaltaq və həmişə başqalarına quyu qazmaqla məşğul olan adamları tənqid edir. Yumorist ədib yaratdığı obrazın timsalında dövrünün naqis tərəflərini, şər niyyətli böhtançıları həmin "mərhum"un üzərində üzərində cəmləyir və axirətdəki mələklərdən birinin dili ilə onları ifşa edir: *"Bu xəbisin simasının sarılığına səbəb onun daim qohum-qonşuya paxıllıq eləməyidir. Çiyin-beli sahib-mənsəblərə qulluq göstərməyindən əyilibdir. Gözlərindən axan bulanıq su ətrafındakıları güdməyindən doğan gözüdarlıq nəticəsidir. Əllərindəki qabarlar tanış-biliş əleyhinə gizli ərizələr yazmaqdan əmələ gəlibdir. Qılçalarının titrəməsi vaxt-bivaxt həmkarlara-həmqulluqlara badalaq gəlməyindən törənibdir. Bədəninin cılız quruluğu işlətdiyi bəd əməllər üçün həmişə xofda olduğundan, daimi qorxu çəkdiyindəndir."* (Dağlı 1981: 180). Seyfəddin Dağlı öz dövrünü axirət dünyası

kimi təsvir edir, yalan və hiylə yolu ilə özünə yer tapmış, saxtakarları, danos yazmaqla məşğul olan, vəzifə və mövqe hərislərini "cənnətə yol tapmış mərhum"lar kimi təqdim edir. Özgələrinə quyu qazmaqla məşğul olan "mərhum" sonda qazdığı quyuya özü düşür və cəhənnəmə göndərilir. Əsərin sonunda ədalətin bərqərar olması ədibin gələcəyə ümidli olduğunu, gec-tez hər kəsin layiq olduğu yerdə olacağına inandığını göstərir.

Seyfəddin Dağlı "Absətəli avsaytdadır" adlı məşhur povestində Əziz Nesin qələminin, xüsusilə də *Qol kralı* (əsər 1988-ci ildə dilimizə *Futbol kralı* adı ilə tərcümə edilmişdir.) romanının, eləcə də "Kötək yeməyə doymuram" adlı satirik hekayəsinin təsiri açıq-aşkar hiss olunur. Əziz Nesin futbol azarkeşliyini xəstəlik halına çevirən insanların həyatında bunun mənfi təsir və nəticələrini "İdmançı insanlarıq, vəssəlam", "Həmyerlilər matçda", "Uçuruma gedirik" kimi hekayələrində də tənqid etmişdir. Bundan başqa, Seyfəddin Dağlı 1961-ci ildə *Türkiyə novellaları* başlığı altında 4 satirikyumoristik novella ("Vitrindəki şüarda nə yazılmışdı", "Qonaq niyə dava saldı", "Kəndə qəzet nə vaxt gəldi", "Eşşək nəyə güldü?*)* yazmış və Əziz Nesinə ithaf etmişdir. Mövzusu Türkiyə həyatından alınan bu hekayələr şübhəsiz ki, Əziz Nesin yaradıcılığından təsirlənərək qələmə alınmışdır və türk satirikinin toxunduğu problemlər, tənqid etdiyi naqisliklər öz əksini tapmışdır.

Seyfəddin Dağlının *Türkiyə novellalarında* mövzu Türkiyə həyatından alınmış olsa da yazıçının tənqid etdiyi naqisliklər onun öz ölkəsi üçün də aktual idi. "Vitrindəki şüarda nə yazılmışdı?" novellasında İstanbulun mərkəzindəki məşhur Bəyoğlu səmti-İstiqlal prospekti təsvir olunur. Amerikadan gəmi ilə rezin saqqız gətirib əttar dükanına satan amerikalı tacir öz ölkəsində satmaq üçün də mal almağı düşünür. Ətraf dükanların vitrinlərindəki mənzərə isə eynidir: Amerikan malları özünə orijinal məhsul axtaran amerikalı tacir türk dilində şüarlar, bəzəklər həkk olunan suvenirlərə baxır. Bəyəndiyi suvenir satılan mağazanın sahibinin adı isə Yurdsuzoğludur. Müəllif tənqidin gücünü daha da artırmaq üçün obraza satirik ad qoymuşdur.

Əziz Nesinin yaradıcılığının, ictimai fəaliyyətinin böyük bir qismi İkinci Dünya müharibəsindən sonra imzalanmış "Trumen doktrinası" əleyhinə olmuşdur. Uzaqgörən ziyalı onsuz da maddi korluq çəkən əhalinin vəziyyətini daha da ağırlaşdıracağını başa düşmüşdü. Hələ 1948-ci ildə Trumen doktrinasının Türkiyəyə gətirəcəyi zərərlərdən bəhs edən "Hara gedirik?" adlı çap belə olunmamış iki səhifəlik yazısına görə on ay həbslə və üç aylıq Bursaya sürgün edilməklə cəzalandırılmışdı. Sürgündən qayıtdıqdan sonra da ölkəsinin iqtisadi cəhətdən yoxsulluq çəkməsi və bunun insanların güzəranına təsirini satiraya gətirmişdir.

"İkinci Dünya Müharibəsinin sonunda müharibədə iştirak etməmiş Türkiyənin yoxsulluğu, hakimiyyət başındakıların təzyiqi, qara bazarla varlanmışlar..., xalq qan ağlayır. Və dünyaya, imperializmə qarşı müharibədə ilk zəfər nümunəsi verən Türkiyə Trumen doktrinası ilə Amerikadan asılı vəziyyətə düşür. İstanbulun işğalı zamanı yunan, fransız, ingilis bayraqları asılan Bəyoğlunda bu dəfə 'Welcome U. S. Navy', 'Fresh Beer', 'Nice girls' lövhələri asılır. Markopaşa satirası da məhz belə bir dolanışıq problemləri, hakimiyyət təzyiqi, siyasi depressiya dövrünün məhsuludur. ... Məni satira yazmağa təhrik edən o dövrkü mühitin tələbləri idi" (Nesin 2017: 95).

Seyfəddin Dağlı "Vitrindəki şüarda nə yazılmışdı" satirik hekayəsində də Əziz Nesin yaradıcılığında əsas yer tutan məhz bu mövzunu qələmə almışdır. "Türkiyədə türkcə danışırlar" şüarı yazılımış suveniri almaq istəyən amerikalı zabitin dilini başa düşmədiyi üçün müdirin satıcını işdən qovması Əziz Nesinin yaşadığı dövrün acı həqiqəti idi.

Türkiyə novellalarının müəllifinin kim olduğunu bilməsək, sanki Əziz Nesinin satirik hekayələrinin Azərbaycan dilində tərcüməsini oxuduğumuzu zənn edərik. Hətta obrazların adlarını belə türkcə tələffüz formasında (Ahmet, Mehmet və b.) yazır. 1974-cü ildə qəzetdə bir əxlaqsızlıq yuvasının kirayə verilməsi ilə bağlı elan verildiyi üçün Əziz Nesin öz etirazını bildirir. Nəticədə isə Əziz Nesini məhkəməyə verirlər. Bu tragikomik hadisənin izlərini satirik yazıçının bir sıra əsərlərində görə bilirik. "Biz evə qəzet almırıq" adlı hekayəsini isə sırf bu problemlə bağlı yazmış, uşaqların, gənclərin tərbiyəsinə mənfi təsir göstərən bu cür utancverici halları kəskin tənqid etmişdir. "Amerika malları satışı" hekayəsində də dolayı yolla bu mövzuya toxunmuşdur. Seyfəddin Dağlının *Türkiyə novellaları* silsiləsindən olan ikinci əsəri "Kəndə qəzet nə vaxt gəldi?" hekayəsidir. Məlumdur ki, keçən əsrin ortalarında bölgələrə qəzetlərin çatdırılması gecikirdi, təhsil səviyyəsi ucqarlarda onsuz da aşağı idi. Əziz Nesinin qələmə ala biləcəyi daha bir mövzunu biz Seyfəddin Dağlının tənqidi gülüşündə görürük. İşsizliyin, yoxsulluğun geniş yayıldığı bir vaxtda qəzetlərdə "Qismətim kim?" başlığı altında özünə ər yaxud da arvad axtaran biveclər, bu tip elanları çap edən qəzet orqanları tənqid olunur. Ankarada çayxanda oturub iş elanları axtaranların bu qəbildən olan yazıları oxuyan işsizlər: *"Biz arvad-uşaqlarımızı necə dolandırmaq barədə baş sındırırıq, amma onlar təzə ərlər, arvadlar soraqlaşırlar?!"* (Dağlı 1977: 72) – deyə məyus olurlar.

"Eşşək nəyə güldü" Əziz Nesinin yaradıcılığında tez-tez rast gəldiyimiz eşşək alleqorik obrazı təsvir olunur. "Sizin ölkədə eşşək yoxdurmu" hekayəsində Nesini vətənpərvər ziyalı kimi narahat edən ölkəsinin tarixi maddi mədəni sərvətlərinin "xarici turistlər" tərəfindən talanmasıdır. "Eşşək nəyə güldü" novellasında amerikalı turistlərin marağını çəkmək, pul qazanmaq üçün son

günlərini yaşayan yaşlı heyvana-eşşəyə insafsızcasına əziyyət verən adamın özünü necə gülünc vəziyyətə salması təsvir olunur. Sonda Seyfəddin Dağlı əsəri ithaf etdiyi ustad sənətkarı oxuculara xatırlatmağı da unutmur: *"Bu əhvalata şübhə edənlərdən, yəni eşşəyin danışa və güülə biləcəyinə şəkk gətirənlərdən xahiş olunur ki, məşhur türk satiriki Əziz Nesinin* ***Ah biz eşşəklər*** *hekayəsini oxusunlar"* (Dağlı 1977: 82).

"Qonaq niyə dava saldı" adlı novella da bu silsiləyə daxildir. Burada Seyfəddin Dağlı Əziz Nesini narahat edən digər bir məsələni işıqlandırır. Xaricdən yardım adı ilə, Türkiyə iqtisadiyyatını gücləndirmək adı altında keyfiyyətsiz ərzaq məhsullarının ölkəyə daxil olmasına qarşı çıxır.

Əziz Nesinin dilimizə İsmayıl Şıxlı tərəfindən *Futbol kralı* adı ilə tərcümə edilib 1988-ci ildə çap olunan məşhur satirik romanı ədibin idman müxbiri kimi işlədiyi dövrün məhsuludur. İlk dəfə 1955-ci ildə *Qol kralı Səid Hopsəid* adıyla dövrünün idman qəzetlərindən birində hissə-hissə (təfriqə şəkilində) çıxmağa başlayır. Maddi durumunun çətin günlərində Əziz Nesini bu mövzuda bir əsər qələmə almağa vadar edən əsas səbəb dolanışıq dərdi olur. Lakin zaman keçdikcə roman oxucular tərəfindən çox bəyənilir. 1957-ci ildə isə kitab halında nəşr olunur və bütün ölkədə məşhurlaşır. Eyni zamanda alman dilinə də Prof. Melzig tərəfindən tərcümə edilir (Nesin 2016) Hətta filmə alınması da qərarlaşdırılır. Bütün bunların nəticəsində əsərin müəllifi onu yenidən ciddi şəkildə işləməyə başlayır.

"Absətəli avstaytdadır" yumoristik povestində futbolun adını belə eşitməmiş Absətəlinin təsadüf nəticəsində öz xanımı Suğraxanım ilə futbol matçına bilet alıb olması və ilk dəfə yaşıl stadionda canlı futbolu izləməsi ilə həyatında baş verən gülünc hadisələrdən bəhs edir. Satirik yazıçı stadionu qəribə xəstəxanaya, futbol azarkeşlərini isə xəstələrə oxşadır. Çətinliklə futbol oyununa baxmaq üçün bilet tapan Absətəli harada və nəyi izləyəcəyini bilməsə də əziyyətinin nəticəsini heç kəsə vermək istəmir.

"Bilet alırsan, bəs bilmirsən harayadır? Əgər biletlər lazımın döyülsə, sat mənə!
- Ay-hay!... Bir saat növbəyə durmuşam, çəkmələrimi tapdayıblar, düymələrimi qırıblar, o zülümlə bilet almışam, indi götürüm bilet verim sənə?!
-Yaxşı, düymələrinin də pulunu verərəm, çəkmələrini sildirməyin də.
-Yox, əşi? Deməzsən aldatdım?!" (Dağlı 1977)

Əziz Nesinin "Həmyerlilər matçda" adlı hekayəsində də eyni hadisə təsvir olunur. Absətəli kino üçün bilet almaq istəyərkən futbol matçına satılan bilet kassasında növbəyə durur. "Həmyerlilər matçda" hekayinin qəhrəmanı isə o zamanlar böhrana görə çətin tapılan türk kofesi almaq istəyərkən futbola bilet almış olur.

Əziz Nesinin idmana münasibəti hər zaman müsbət olmuş olsa da (hətta gəncliyində güləş və futbol oyunları ilə məşğul da olmuşdur) idman azarkeşliyini, xüsusən, futbol yarışlarını seyr etməyi xəstəlik halına çevirməyin əleyinə olmuşdur. Yuxarıda qeyd etdiyimiz idman mövzulu əsərlərini də məhz bu cür insanları tənqid və islah etmək məqsədini əsas tutaraq qələmə almışdır.

Nəticə olaraq qeyd edək ki, baxmayaraq ki, siyasi cəhətdən tamamilə fərqli ölkələrdə yaşayıb yaratmışlar, Əziz Nesin yaradıcılığının, satirik qələminin təsiri Seyfəddin Dağlının yaradıcılığında açıq şəkildə özünü büruzə verir. Yuxarıda nəzərdən keçirtdiyimiz oxşar tənqid hədəfləri və yaxın motivli əsərləri Seyfəddin Dağlının Əziz Nesinə olan sevgisindən qaynaqlarmış, qardaş Türkiyənin ustad sənətkarını narahat edən problemləri öz yaradıcılığında işıqlandırmışdır.

Qaynaqlar

1. Nesin, Aziz (2017). *Aziz Nesinin Anıları:* "Böyle Gelmiş Böyle Gitmez - Yol - Yokuşun Başı - Yokuş Yukarı". İstanbul: Nesin Yayınevi.
2. Dağlı, Seyfəddin (1977). *Aldada bilməzsən.* Bakı: Azərnəşr.
3. ----- (1981). *Mənziliniz mübarək (Pyeslər, povest və hekayələr).* Bakı: Yazıçı.
4. Xəlilzadə, Flora (2011). "Ustad və cəsarətli sənətkar: Seyfəddin Dağlı-90", *Azərbaycan* jurnalı, 185: 5.
5. Nesin, Aziz (2013). *Soruşturmada (Sorulara Yanıtlar-Belgeler).* İstanbul: Nesin Yayınevi.
6. ----- (2013). *Sporcu Milletiz Vesselam.* İstanbul: Nesin Yayınevi.
7. ----- (2014). *Memleketin Birinde.* İstanbul: Nesin Yayınevi.
8. ----- (2016). *Gol Kralı*. İstanbul: Nesin Yayınevi.

M. K. ATATÜRK ÇAĞDAŞ AZƏRBAYCAN ZİYALILARININ ARAŞDIRMALARINDA

*Kəminə HƏVİLQIZI**

Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir.

M. K. Atatürk

Bəşər tarixi bir çox şəxsiyyətlər yetirmişdir. Hər bir xalqın öz liderləri, öz rəhbərləri və hərbi komandanları olmuşdur. Belə şəxsiyyətlərlə, xalq həmişə öyünüb, fəxr edib və onların adları dildəndilə, nəsildən-nəslə keçmişdir. Hər bir xalqın milli kimliyi, yüz illər boyunca siyasi varislər kimi əsrlər boyu formalaşmış və zənginləşmiş olan dövlətçilik irsi bütünlüklə xarakterizə olunur.

Mustafa Kamal Atatürk adı həmişə Azərbaycan ziyalılarının – ədəbiyyatşünasların, tarixçilərin, dilçilərin, siyasətçilərin və digərlərinin ürəyində məxsusi iz buraxmışdır. Atatürk dünyasına vararaq, onu sevərək, Atatürk haqqında müxtəlif tədqiqatlar yazılmış, araşdırmalar aparılmış və kitablar nəşr olunmuşdur.

Mustafa Kamal Atatürk ən yeni tarix dövründə Türkiyənin dahi dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının qurucusu və ilk prezidenti olmuşdur. Bunu söyləmək olar ki, bu, çox böyük və şərəfli bir həyat, həm də mübarizələr yolu keçmiş böyük insan xalqın təkidli tələbi ilə 1934-ci ildə Türkiyə Böyük Millət Məclisi tərəfindən özünə verilən Atatürk soyadını son nəfəsinədək ləyaqətlə daşımışdır, həm də özündən sonra ictimai və siyasi həyatın bütün bu sahələrdə bu qədər zəngin irsini buraxmışdır. Bu irsi dərindən öyrənən və ardıcıl olaraq tətbiq edən Türk xalqı, bu gün də onun yaratdığı dövlətlə şanlı şəkildə güvənlə irəliləyir.

Allah Türk millətini xilas etmək üçün onu göndərdi. Atatürk fenomeni bir çoxları üçün açılmayan bir xəzinəsidir. O, əsl lider idi. Milyonlarla türk onun ardınca getməyə hər an hazır did. O, torpaq millət uğrunda gedirdi. Bütün insan xüsusiyyətlərinə nümunə oldu. Atatürk nümunəsi. Bir çox liderlər onu nümunə olaraq görürdü.

* Filologiya elmləri namizədi, Dosent, Dövlət Təhlükəsizliyi Xidmətinin H. Əliyev adına Akademiyası; Mamedova.Kamina@mail.ru

Qeyd etdiyimiz kimi, Azərbaycan ziyalıları da hər zaman Atatürk adına hörmətlə yanaşmış, bu müdrik insana xüsusi rəğbət göstərmişdir. Hər bir sahədə olduğu kimi bu sevgi ədəbiyyatda da özünü biruzə vermişdir. Belə ki, bir çox ziyalılarımız Atatürk irsinə müraciət etmiş, onu müxtəlif yönlərdən araşdırmışlar.

Belə ziyalılarımızdan biri millət vəkili, istedadlı Azərbaycan alimi Qənirə xanım Paşayevanın iç dünyasından süzülüb gələn, Atatürk məhəbbəti ilə yaranan, oxuculara sevgi ilə təqdim olunan dəyərli kitablardan biri Mustafa Kamal Atatürkə həsr olunan *Dünyanın itirdiyi böyük insan* əsəridir.

Həcmcə o qədər də böyük olmayan bu sanballı əsərdə böyük insan sevgisi o qədər güclü, tam varlığı ilə əks olunmuşdur ki, sanki insan özünü Atatürkün zamanında hiss edir, həmin duygularla yaşayır.

Kitabda böyük siyasi xadim, Türk Cümhuriyyətinin qurucusu Atatürk haqda mülahizələr yer alır. Müxtəlif başlıqlar yer alan kitabda Mustafa Kamal Atatürk Azərbaycan oxucularına hərtərəfli təqdim olunur: "Tarix yaradan, tarix yazan insan", "Bütün dünyada qibtə hissi yaradan Mustafa Kamal Atatürk", "Atatürk: dünən, bu gün, sabah", "O, əlifba inqilabı etdi" və s. Atatürkün ömürlüyündə isə tam biblioqrafik məlumat verilmişdir.

Qeyd edək ki, Atatürk haqqında belə bir kitab ərsəyə gətirmək həqiqətən də qürur verir.

Kitaba ön söz yazmış Əkbər Qocalı haqlı olaraq yazır: *"Atatürk haqda yazmaq müdriklikdən, zəfərdən, şəhidlikdən, qəhrəmanlıqdan və ən nəhayət uca türk ruhundan yazmaq deməkdir. Onun türk dünyasına göstərdiyi misilsiz xidmətləri danılmazdır"* (3, 6).

Ulu öndər Heydər Əliyev deyirdi: *"M. K. Atatürk dünyanın başəri dəyərlərindən istifadə edərək, xalqının mənəvi dəyərlərini bunlarla birləşdirərək, öz xalqını daha da yüksəklərə qaldırmışdır"*. Həqiqətən də tarix yazmaq, tarix yaratmaq qədər önəmlidir.

Onu digər liderlərdən fərqləndirən ən önəmli cəhət yalnız ölkəni xilas etmək deyil, həm də xilas etdiyi torpaqlar üzərində bütün xalqların məsuliyyətini qeyd etməsidir (3, 11).

Mustafa Kamal Atatürk hər zaman gəncləri düşünərək onlara dəyər verirdi. Kitabda Atatürkün 20 oktyabr 1927-ci ildə gənclərə müraciəti də yer alır. O, söylədiyi nitqində gənclərə xitabən deyirdi: *"Ey Türk gəncliyi! Birinci vəzifən türk istiqlalını, türk cümhuriyyətini mühafizə və müdafiə etməkdir... Mövcudiyyətinin və istiqlalının yeganə təməli budur!"* (3, 43).

Həqiqətən də, bu kitabı oxuduqca *"Biz kimsənin düşməni deyilik, yalnız insanlığın düşməni olanlara düşmənik"* – deyən Atatürkün həyatla savaşının insanlıq yolunda olduğunu görürük.

Mustafa Kamal Atatürkü təkcə sevmək yox, onu xalqa, gələcək nəsillərə sevdirmək də lazımdır. Qənirə xanım Paşayeva ədəbiyyat vasitəsilə, bu kitab vasitəsilə Atatürkü xalqa sevdirməyi bacardı.

Akademik Nizami Cəfərov və Mehmet Akif Turalın *Atatürkün Azərbaycan siyasəti* kitabı da Atatürk sevən Azərbaycan oxucuları üçün bir töfhədir.

Türk cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün nitq, çıxış və mühazirələri əsasında və ən nəhayət Atatürkün öz dili ilə söyləndiyi kimi hazırlanan kitab-toplu böyük öndərin Azərbaycan siyasətini əks etdirir.

Atatürkün Azərbaycan siyasəti onun ümumi xarici siyasətinin üzvi tərkib hissəsi idi (1, 4).

Atatürkün Azərbaycan siyasəti haqda əsərini ilk dəfə nəşr etdirən müəlliflərin bu kitabı Azərbaycan tarixinin ən mübahisəli dövrlərindən birinin daha obyektiv şəkildə öyrənilməsinə bir mənbə baxımından dəyərlidir.

Maraqlı və diqqəti şəkən cəhətlərdən biri topluda yer alan mətnlərin Atatürkün söylədiyi kimi – yəni dil üslubuna toxunulmadan yer almasıdır. Kitabda müxtəlif başlıqlar yer alır ki, onların hər birini oxuduqca Atatürk dühasını bir daha kəşf etmiş oluruq.

Diqqəti çəkən araşdırmalardan biri də ulu öndər Heydər Əliyevin Mustafa Kamal Atatürk haqqında müxtəlif məqamlarda söylədiyi dəyərli fikirləri toplayıb nəşr etdirən Səfalı Nəzərlinin *Heydər Əliyev Atatürk haqqında* adlı kitabıdır. Bildiyimiz kimi, Mustafa Kamal Atatürk YUNESKO tərəfindən XX-ci əsrin bir nömrəli şəxsiyyəti elan edilmişdir. H. Əliyev böyük öndəri həmişə özü üçün örnək qəbul etmiş, onun təcrübəsindən daim bəhrələnmişdir. Bunun nəticəsidir ki, H. Əliyev 1999-cu ildə "Atatürk Beynəlxalq Sülh" mükafatına, 2002-ci ildə isə "Baş müəllim Atatürk" mükafatına layiq görülmüşdür. Kitabın məsləhətçisi akademik Nizami Cəfərov ön sozdə yazır: *"Atatürk türk xalqını, türk dövlətçiliyini, Heydər Əliyev Azərbaycan xalqını, Azərbaycan dövlətçiliyini xilas etmişlər və bu həcmcə kiçik olduğu qədər məzmunca böyük kitabda bir milli xilaskarın başqa bir milli xilaskar barədəki düşüncələri toplanmışdır. Atatürk haqqında dünyanın ən görkəmli şəxsiyyətləri bir-birindən maraqlı, dəyərli fikirlər söyləmişlər, lakin bu kitab yalnız bir dahinin başqa bir dahi haqqında sözü deyil, həm də bir böyük türkün başqa bir böyük türk haqqında, müxtəlif vaxtlarda söylənsə də, bütöv bir əsərdir"* (5, 3).

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə yaradılmış Azərbaycanda fəaliyyət göstərən Atatürk Mərkəzi, Azərbaycan atatürkşünaslığını zənginləşdirəcək bir sıra əsərlər nəşr etmişdir ki, onların içərisində *Mustafa Kamal Atatürk (portret cizgiləri)*, *Atatürk ensiklopediyası* (sözlük), *Azərbaycan türkologiyası (1920-1938). Biblioqrafiya*, *Türkiyə Atatürkün, Azərbaycan Heydər Əliyevin əsəridir*, *Atatürkün dil siyasəti* və bir sıra

bu kimi kitabları göstərmək olar. *M. K. Atatürk və türkçülük* adlı elmi konfransın materiallarında da Azərbaycan ziyalılarının Atatürk haqda söylədikləri müxtəlif fikirlər, mülahizələr yer alır. Ümumiyyətlə deyə bilərik ki, Atatürk irsinin araşdırılmasında Azərbaycanda fəaliyyət göstərən Atatürk Mərkəzinin xidmətləri əvəzsizdir. Akademik Nizami Cəfərovun rəhbərliyi ilə mərkəzin hər bir əməkdaşı bu sahədə hər zaman öz yeni-yeni töhfələrini Azərbaycan oxucularına ərməğan edirlər.

Əlimizdə olan digər bir mənbə, Azərbaycan oxucularına təqdim olunan Zülfiyyə Mehdiyevanın *M. K. Atatürk. Zəfər sirləri* adlanır. Kitab Türkiyə Qurtuluş savaşının hərbi və siyasi lideri, Türkiyə Respublikasının qurucusu və 1923-cü ildən ilk prezident olmuş Mustafa Kamal Atatürkə həsr olunmuşdur. Burada Onun yazdığı əsərlər, nəşr etdiyi qəzetlər, jurnallar, inqilablar, qatıldığı müharibələr, dostları, ailəsi və s. haqda məlumat verilir, ifadə etdiyi məşhur kəlamlar yer alır. Ən nəhayət burada zəfərə gedən yolda böyük uğur və müvəffəqiyyət sirlərindən bəhs olunur. "Bir türk dünyaya bərabərdir", "Atatürk və milli şüur", "Atatürk və din" və s. başlıqlar altında geniş təsvir verilir.

"Zəfər, 'Zəfər mənimdir', deyə bilənindi. Müvəffəqiyyət isə 'bacaracağam' – deyə başlayıb, sonda 'bacardım' – söyləyənindir" – deyirdi Atatürk.

Kitaba ön söz yazmış akademik N. Cəfərov əsər haqda belə deyir: "Müəllif Türkiyə Cümhuriyyətinin qurucusunun tərcümeyi-halı barədə geniş məlumat verməklə qalmayıb, yığcam, oxunaqlı, detal və təfərrüatlrla dahi şəxsiyyətin unudulmaz (və müqəddəs!) obrazını gözlərimiz önündə bir daha canlandırır. Və bu təəsüratlar səmimi hisslərin, düşüncələrin təzahürüdür (2, 4).

Sadiq Tural, *Atatürk və ya əsrə möhür vurmuş öndər* adlı kitabında "Ya istiqlal ya ölüm!" başlıqlı bölməsində Atatürkün dediyi kəlamlardan yetərincə nümunələr göstərərək yazır: "Əsas prinsip türk millətinin heysiyyətli və şərəfli bir millət olaraq yaşaması deməkdir." (4, 64).

Unudulmaz Atatürkün müqəddəs adı, illərdir var olan Türkiyə və Azərbaycanın qardaşlığının və dostluğunun gələcəyi yoluna işıq saçır.

Son olaraq deyə bilərik ki, Mustafa Kamal Atatürk Azərbaycan xalqının qəlbində hər zaman var olub, daim yaşayır və yaşayacaqdır. əminliklə deyə bilərik ki, Mustafa Kamal Atatürk irsi gələcəkdə də hələ bir çox Azərbaycan alimlərinin tədqiqatlarında yer alacaqdır.

Qaynaqlar

1. Cəfərov, Nizami, *Mehmet Akif Tural. Atatürkün Azərbaycan siyasəti*. Bakı. 2008. 84 s.
2. Mehdiyeva, Zülfiyyə. *M. K. Atatürk. Zəfər sirləri*. Bakı. 2017. 312 s.
3. Paşayeva, Qənirə. *Dünyanın itirdiyi böyük insa*n. Bakı. 2010. 63 s.

4. Sadiq K.Tural. *Atatürk və ya əsrə möhür vurmuş öndər*. Bakı. 2016. 80 s.
5. Səfalı Nəzərli. *Heydər Əliyev Atatürk haqqında.* Bakı. 2003. 23 s.
6. Utkan Qocatürk. *Atatürk*. Bakı.1991. 210 s.
7. ----- *Atatürkün fikir ve düşünceleri*. Ankara: Atatürk Araştırma Merkezi Yayınları. 1999. 440 s.

ŞEYX QALİBİN HÜSN VƏ EŞQ MƏSNƏVİSİNDƏ İDEALLA VARLIQ ARASINDA ƏLAQƏ SİNTEZİ

*Xuraman HÜMMƏTOVA**

XVIII-cü əsr türk ədəbiyyatının böyük sufi şairi və mütəfəkkiri Şeyx Qalib (1757-1799) özündən sonra təsəvvüf ədəbiyyatının inkişafını dərinləşdirən və ideya istiqamətlərini müəyyənləşdirən bir əsər qoyub getmişdir. *Hüsn və Eşq* məsnəvisi şairin fəlsəfi dünyagörüşünün mahiyyətini, əksi türk inam tərzini, həyata baxışını, seyri-sülükunu, sevgi duyğularını, dünya, yaradılış, kainat, varlıq, həyatın mənasını rəmz və simvollarla əks etdirən bir əsərdir. Onun fəlsəfi-irfani görüşlərini əks etdirən *Hüsn və Eşq* əsəri Qalibi təsəvvüf ideyalarının carçısı kimi tanınmasına xidmət edir. Ziya Paşa "yeganə şair" (12, 20) saydığı Qalibin sirf *Hüsn və Eşq* üçün cahana gəldiyindən bəhs etmişdir. Təsəvvüf ideyalarının bütün mərhələlərini öz əsərində əks etdirən şair bu məsnəvini 26 yaşında yazmış, bununla da ədəbiyyat tarixində özünə əbədilik qazanmışdır. Çox az bir ömür sürən Şeyx Qalib bir müddət üçüncü Sultan Səlimin sarayı ilə əlaqədə olmuş, Osmanlı sarayının gözəl xanımlarından biri olan Beyhan Sultan ilə aralarında bir "hüsn eşq macarası" yaşamışdır (10, 145).

Hüsn və Eşq əsəri alleqorik tərzdə, məsnəvi şəklində yazılmışdır. 2101 beytdən ibarət olan əsər bir irfani yönümlü eşq macərasının məzunundan xəbər verir. Əsər sırf "məcaz həqiqətin körpüsüdür." ideyası üzərində qurulub. Müəllif o dövr gercəkliyini irfani rəmz və simvollarla bu əsərdə ətraflı şəkildə əks etdirmiş, yeri gəldikcə idealla varlıq arasındakı ziddiyyətlərin mahiyyətini açıb göstərə bilmişdir. Şairin qələmə aldığı əsərin mərkəzində özünün yaradıcı subyekti dayanır. İstər təsəvvüf dünyagörüşü, istərsə də başqa dünyagörüşlər poemaya Şeyx Qalibin yaradıcı düşüncə süzgəcindən keçməklə daxil olur. Demək, təsəvvüf mütəfəkkir Qalibin yaradıcılığında onun subyektiv düşüncəsini materialına çevrilir. Və bu yolla da şair öz hissi düşüncələrini sözə çevirərək oxuculara çatdırır. Bu əsər haqqında A. Gölpınarlı yazır: *"Ədəbiyyatda **Hüsn və Eşq** kimi bir əsərə rast gələ bilmərik, bu baxımdan, şairin özünün*

* Filolgiya üzrə fəlsəfə doktoru, dosent, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, aparıcı elmi işçi; hummatovax@mail.ru

də dediyi kimi o 'genci hazineyi (qiymətli xəzinəni)' Galib açmış ve tüketmiştir." (5, 112). Fikirlərimizi daha da dəqiqləşdirmək üçün Əbdürrəhman Caмinin Nizami Gəncəvi haqqında yazdıqlarına diqqət yetirək. *"Zahiri elmlərdə və rəsmi istilalarda nəsibi vardır. Amma hamısından imtina etmiş və üzünü Cənab Haqqa çevirmişdir. Bu məsnəvilər şəkli baxımdan bir əfsanə kimi görünsə də, əslində həqiqətlərin kəşfinə və mərifətlərin bəyanına vəsilədir."* (2, 60). Şeyx Qalibin də məsnəvisi dövrün həqiqətlərini gerçəkləşdirən bir materialın əksidir. Bu əsər haqqında Türk tədqiqatçısı yazır: *"**Hüsnü Eşq**də şair daxili aliəmini, öz mahiyyətini, hisslərini şəffaf menfezinden şeirə keçirir."* (3, 45).

Hüsn və Eşq məsnəvisi klassir şeir ənənəsinə uyğun olaraq ənənəvi başlıqlarla –"Tovhid", "Nət", "Münacat" və s. kimi kiçik bölmələrlə başlayır. Bundan sonra əsərin əsas hissəsi- giriş hissə gəlir. Hər bir hissədə yarımbaşlıqlara uyğun olaraq əhvalarlardan söz açılır. Poemada ərəb-fars tərkibli izafətlərdən istifadə məsnəvinin dilinə ağırlıq gətirir. Əsərdəki əhvalatlar bir ərəb qəbiləsində baş verir. Bir gün bu diyarda "Eşq" adlı bir oğlan, "Hüsn" adlı bir qız dünyaya gəlir.

Hüsn eylədilər o doxtərə ad,
Ferzendi gözünə Eşqi naşad.

Hüsnə dedi sonra kimi Leyli,
Şirin dedi kimi kimi Əzra (7, 96).

Yenicə doğulan uşaqları qəbilə əhli bir-birinə nişanlayır. Gənclər məktəb yaşlarına çatdıqları zaman "hünər təhsil" etmək üçün "məktəbi-ədəbə" yollanırlar. Bütün əhvalatlar da bundan sonra başlayır. Şair məktəbdə oxuyan sevgililəri "dü- zəbani yek dil", "iki şəmi-kafir", "bir surətə girdi iki məna", "bir şaxda qonçeyi-dil", "ayinayə girdi əksi əkiz", "hürü qilman" və s. kimi sözlərlə bədii təsvirini verərək, onların bir-birinə çox yarmasını obrazlı ifadələrlə oxuculara təqdim edir. Məktəbi ədəbdə Molla Cünündan dərs alan Hüsn Eşqin camalını görüncə ona bir könüldən min könülə aşıq olur.

Bər-hökmi qəzaya nə müvafik,
Hüsn oldu cəmali Eşqə aşiq.

Min can ilə Hüsni aləm-ara,
Çün oldu o Yusifə Züleyxa (113).

Əsərin məzmunundan məlum olur ki, gənclər bir-birini görərkən ilk öncə Hüsn Eşqə aşıq olur. Hüsn-Hüsni mütləqin (gözəlliyin-Allahın) simvoludur. Bildiyimiz kimi islam fəlsəfəsində belə bir ideya var ki, Allahın gözəl adlarından biri də Hüsni-mütləqdir. O, gözəl üzlərdə təcəlla edir. Allah ilk insan olan Adəm peyğəmbəri yaradarkən öz gözəlliyinin yarısını ona vermiş, onu cənnətdən qovarkən həmin gözəlliyi ondan alaraq, peyğəmbərlərdən Yusif peyğəmbərə vermişdir. Odur ki, ədəbiyyatda gözəllik simvolu kimi həmişə

Yusif peyğəmbərə təşbeh edilir. Hüsnün Eşqə ilk aşıq olmasını şair Züleyxanın Yusif peyğəmbərə aşıq olmasına bənzədir. *Qurani-Kərim*də belə bir ayə var *"Allah onları sevər, onlar da Allahı"* (5-54) (4, 96) – deməli, Allah-Təalanın eşqinin insanın sevgisindən əvvəl yarandığını, o məhəbbətin sonradan insanların könlündə bərqərar olmasına bir işarənin olduğunu görürük. Bir-birini görüb aşiq olan cavanların qəlbinə sevgi qığılcımları düşür və gənclər məhəbbət diyarının əsirinə çevrilirlər. Məhəbbət diyarının işığı atəşdir, hara düşərsə, oranı yandırar. Bu atəşin alovu isə hər tərəfi bürüməkdə olan həsrət iztirablarıdır ki, bütün məhəbbət diyarının sakinləri bu əzaba mübtəla olanlardır. Bildiyimiz kimi təsəvvüf ədəbiyyatında sevgi, məhəbbət aşiqin könlündə qərar tutur. Aşiqin məhəbbət diyarında başına gələn bəlalar, qarşısına çıxan çətinliklər, onları dəf edərək sevgilisinə qovuşmaq üçün apardığı mübarizələr və bu yolunda çəkdiyi əziyyətlər ilə yaşam halı, onu irfan əhli ilə eyniləşdirir. Sufi fəna-fillah halına yetişmək, həqqi-mütləqə qovuşmaq üçün müxtəlif çətinliklərlə rastlaşır və onları dəf etməkdən ötrü müəyyən məqamlardan keçərək, mərifət əhlinə, hal əhlinə çevrilir. Son anda fənaya qovuşub, həqqi mütləqə yetişir və bununla da o, öz əvvəlki halından çıxaraq, başqa bir yolun yolçusu olur.

Əsər başdan – başa təsəvvüf ideyaları üzərində qurulub. Hər bir ifadənin təsəvvüfü anlamının, şərhinin verilməsinə ehtiyacın olduğunun görürük. Könül evindən gənclərin böyük yolçuluğu başlayır. Eşq Qeyrətin köməyi ilə Hüsni almaq üçün onun qəbiləsinə gedir. Qəbilə böyükləri onu Qəlb qalası deyilən bir diyardan kimyanı əldə etdikdən sonra Hüsnü ona verəcəklərinə söz verirlər.

Allah muin olub keçərsin,
Qəlb şəhərinin abını içərsin.
Qıl andaki kimyanı hasıl,
Gəl bunda ol iştə Hüsnə vasıl (259).

Ən çox Eşqin sınaqları, iztirabları, qarşısına çıxan çətinlikləri dəf etməsi, nəfsini yenməsi və s. kimi göstərdiyi fədakarlıqlar onun dözümünün ifadəsi kimi təqdim olunur. Bu yol sufinin təriqət yoluna girməsinə bənzəyir. Təriqətə girən hal əhli də çətinliklərlə qarşılaşır, bu yolda ona bir yolgöstərən mürşidin, şeyxin başçılıq etməsinin vacib olduğu kimi, Eşqə də bu yolda istiqamət verən hal əhli-müəllimi Molla Cünün olur. Burada Molla Cünun seyri-sülük zamanı mürşidin rolunu oynayır. Təsvvüfdə seyr, yolçuluq, süluk bir yola girmə, bir təriqətə bağlanma anlamını ifadə edir. Daha dolğun elmi anlamı isə vəhdəti-vücud inancına görə mütləq varlığa qövuşmaq, ona yaxınlaşmaq kimi mənanı özdə daşımaqdadır. Bu qovuşma anı salikin özünü bilməsidir. Mürşidin tapşırıqlarına sözsüz- filansız əməl edən salik kimi Eşq də Molla Cününun itaətində durur. Victoria Holbrook yazır: *"Yolcu olan Eşqın, Hüsn*

ile evlenmek için aradığı kimyanın yoldaki bəlaları aşarak yaşadığı içsel dönüşünün sırrı olduğu anlaşılır, bu metaforik kosmografyaya qapı açılır. Kimya 'Qəlb' şəhrindədir, faqət bu şəhrə ulaşmak oldukça zordur. Yol, belâlarla doludur. Kimyanın bulunacağı yer olan Hisarı Qalbin hökümdarı Hüsn, Hisarda Eşqin qəlbi olduğu ortaya çıxar" (8, 76).

Əsədən bildiyimiz kimi Hüsn Eşqə vurğundur, ancaq o, sevgisini bildirməkdə acizdir. Onun məhəbbətini şair məcazi yollarla bəyan edir.

Hüsnün sözü ülfəti məhəbbət,
Eşqin işi heyrət içrə heyrət.

Surətdə cənabi Eşq xamuş,
Girdab kimi mühit edər nuş (116).

Hüsn və Eşq "Mənalar aləmi"ni gəzməyə başlayırlar. Bu mənalar aləmi maddi dünya kimi dəyərləndirilə bilər. Bura cənnətə bənzər yerdir ki, onun təsvirini şair obrazlı ifadələrlə belə verir:

Nüzhetgahi Mani öylə bir yer
Kim abi bənövşə haki ənbər.

Ol bağı behişt o haki hürrem,
Hakk idi ve lik haki Adem.

Sidreydi nihal o bağa yek sər,
Bir xam erik anda çarhi anber (151).

Sevgililər bu bağda gəzərkən hər şeydən xəbərdar olan "mahiyyəti hüsn eşqə arif, hasiyyəti gərmü sərdə vaqif" bir adama rast gəlirlər. Bu xeyirxah insan Sühandır ki, sonradan gənclərin həyatında önəmli rol oynadığını görürük.

Əsərdəki hadisələrin kulminasiya nöqtəsinə çatdığı məqamlardan biri Heyrətin ortaya çıxması ilə bağlıdır. *"Gerdun kimi çevre qıldı himmət,/Çəkdi ara yerdə səddi firqət"*. Bu qorxusuz insan, qəza ve qədər casusundan sevgililərin məhəbbəti haqqında yayılan xəbəri eşidir və onların görüşmələrinin qarşısını almaq üçün tədbirlər tökməyə başlayır. Seyri-sülük zamani öz daxilindəki nəfsinə qalib gəlmək, maddi varlıqdan uzaqlaşmaq kimi bir imtahan Eşqin qarşısında durur. Fəna halına yetək istəyən irfan əhlinə nəfsin törətdiyi bəlalar mane olduğu kimi, burada da Heyrət iki sevən aşıqin yolunda dayanan əngəl rolunu oynayır. Heyrət öz qərarını belə ifadə edir:

Əmr eyledi kim bu iki sər-baz,
Bir-birinə olmasın nəzər-baz.

Əmrinə təhalüf əmri düşvar,
Ayrıldı ol iki mah naçar (185).

Gənclərin bu sevgisini görən Heyrət hər vəchlə onlara mane olmağa çalışsa da, sonradan onlardakı məhəbbətin qüdrətinə inanır və əsərin sonunda

xeyirxah bir obraz kimi təqdim olunur. İnsan daxilindəki həsəd, qibtə hissi hər bir vəchlə Eşqin könül dünyasına daxil olmağa çalışır. Ancaq Eşqin könül dünyasında Qeyrət adlı bir varlığın olduğu, Hüsnün daxilində isə İsmət adlı hissin mövcudluğunu görürük. Bu varlıqlar hər an sevgililərin köməyinə yetişir, onlara yardımçı olur.

Qəlb diyarından kimyanı əldə etmək üçün yola çıxan Eşq ilk addımında qaranlıq quyuya düşür. Bu elə bir quyudur ki, dibi görünmür, içində qorxunc bir div qərar tutur, onun əli ilə Eşqin başına bəlalar gəldiyini görürük. İstər şifahi xalq ədəbiyyatındakı nağıllarımızda, istərsə də təsəvvüf ədəbiyyatında quyu motivi maddi dünyadan ayrılmaq, uzaqlaşmaq anlayışı kəsb edir. Belə ki, Babil quyuları, Harut və Mərutun asıldığı quyu, Yusif peyğəmbərin düşdüyü quyu və. s. bu kimi quyular haqqında ədəbiyyatımızda çoxsaylı nümünələr var. Şair ilk yolçuluğa başlayan Eşqi qaranlıq quyuya salmaqda məqsədi maddi varlıq ilə mənəvi dünya arasındakı zaman kəsmində qəhrəmanın keçirdiyi psixoloji hal dəyişməsini oxucuya çatdırmaq istəyidir. Əsərdə oxucu bu zaman anında aşiqin keçirdiyi halları, daxilində baş verən dəyişiklikləri, onun daxili dünyasında qarşılaşdığı problemləri və onları aşaraq sevgilisinə qovuşması yolunda apardığı mübarizələrin yer aldığını görür.

Amma ki nə çah çah-ı girdab,
Manəndi ədəb verası nayab.

Gayrət dedi ona ey fədayi,
Haruna sor imdi kimyayı.

Bir çah bu kim səvadı azəm,
Gencurı künzuı yeü matəm.

Nə rahı adem nə zülmət-abad,
Bir çah içi fəgan u fəryad.

Deycurı firakdan nişanə,
Bahr-ı zulmətı bikəranə (261).

Quyunun poetik obrazını yaradan şair onu oxucuyara belə təqdim edir. Bu elə bir quyu idi ki, sanki içinde ümitsizlik ve matəm xəzinələrinin olduğu qoca bir şəhərdi! Nasıl bir yoxluq yolu, nasıl bir qaranlıqlar aləmi bu? Öyle bir quyu ki, içi feryad və fəğan dolu! Ayrılık gecesinden nişan veren sonsuz bir qaranlıqlar dənizi (13, 260-261). Yeraltı dünyada Eşqin qarşılaşdığı ilk surət divdir. Bəzi araşdırıcıların da yazdığı kimi burada div nəfsin obrazıdır. Bu haqda S. Şıxıyaeva yazır: *"Nağıl və dastanlarımızda divin ağılsız kimi təsvir edilməsi şairin onu nadanlıq və cəhalətin rəmzi olaraq istifadəsinə şərait yaradır. Əsli, mahiyyəti ilə div olan cahil insanla müdriklik simvolu Xızır və 'əhli tohid'dən olan kamıl insan qarşılaşdırılır. Divin cahalətin rəmzinə çevrilməsində onun yeraltı qaranlıq dünyanın hakımı olması inamının təsiri*

də şəksizdir" (14, 18) Müəllif quyuya saldığı Eşqi ilk dəfə məhz nəfsinə qalib gəlmək, onu yenməsi kimi çətin bir sinaqla imtahana çəkir. Divə- nəfsinə qalib gələn qəhrəman quyudan çətinliklə, Sühanın köməyi ilə İsmi-Əzəm (Allahın ən böyük adlarından biri) yazılmış bir ipdən tutaraq qurtarır.

Kim ol risəni tutarsa möhkəm,
Hifz eyləyər onu o İsmi-Əzəm,

Cinlər edəməz ona xəsarət,
Çıxdıqca da bulur nicati rahət (269).

Bu beytlə bağlı *Qurani-Kərim*də elə bir ayə keçməkdədir. *"Hamınız bir yerdə Allahın ipindən möhkəm yapışın"* (4, 103).

Ədəbiyyatda isə ip, sac, tel, tük və s. kimi təsəvvüf terminləri bağlılıq anlamı kəsb edir. Burada ip vəhdətlə kəsrət arasındakı əlaqəni göstərən vasitə kimi dəyərləri özündə əks etdirir. Bu məsnəvidə ip öz müstəqim mənasından uzaqlaşaraq irfani məna kəsb edir. İp həm də cism ilə can (ruh) arasında əlaqə yaradan bir vasitədir. Bu motivlə bağlı tədqiqatçı alım S. Şıxıyeva Şəhriyarın bir qəzəlinin tədqiqi ilə bağlı yazır: *"İp qırılmaz, can çıxmaz."* məsəlində canı cismə bağlayan "ip"dən bəhs edilir. Mövlananın *Məsnəvi*sində də gecələr yuxu zamanı seyrə çıxan ruhun "ip"lə cismə bağlı olduğuna görə geriyə – öz yerinə qayıda bilməsi motivi yer alır. Doğrudur, xatırlatdığımız atalar sözü Şəhriyarın fərdi yaradıcılığının məhsulu deyildir. Lakin onun şerinə yol tapan bu deyim irfani məzmunlu şifahi xalq ədəbiyyatı örnəyi kimi diqqəti cəlb edir. "Can" və "ip" ifadələrinin məcazlaşması və aralarında fikri bağlılıq qurulmasında irfani, yaxud xalq düşüncə tərzinin ilkinliyi isə ayrıca tədqiqat tələb edir (15, 26-33). Şeyx Qalibin də sözü gedən məsnəvisində ip bağlılıq məzmunu daşımaqdadır. Quyudan çıxan Eşqin böyük yolçuluğu başlayır. Qəlb diyarına yetişmək üçün quyudan çıxan Eşq yolunu azır. Onun qarşısına qranlıq, soyuq və ümidsizliklərlə dolu olan bir yol çıxır. Bu yol onu uzun bir qış gecəsi ilə qarşılaşdırır. Bu qiş gecəsində yağan qar- ağ və qaranin əksi insan daxilindəki ikili halı əks etdirir. Eşq-İnsan vəhdətlə kəsrət halındadır. İki hal arasında qalan Eşk nə edəcəyini dərk edə bilmir. Bu haqda Türk alimi M. Nur Doğan yazır: *"Qaranlıq gecedə qar işıqla qaranlığın, yəni nur ilə zülmətin bir araya gəlib qaynaması kimidir. Bu isə ruh ilə bədənin yaxınlaşmasını, yəni ruhun(göydən enərək) bədənə girməsini ağıla gətirməkdədir. Çünki ruh – saflığı, uçuculuğu ilə ilahi aləmdən gəlmiş olması, dolayısı ilə-işiq və nuru; bədən isə, keçici dünyanı, göy üzünə nəzərən aşağıda bulunan torpağı xatırlatdığı üçün qaranlıq və zülməti təmsil etməkdədir"* (16, 273). Rənglərin bu simvolikası ilə bağlı başqa bir tədqiqatçı – M. C. Varışöğlu yazır: *"qaranlıq və bəyaz rəngin hakim olduğu qiş gecəsi, ümidin və ümidsizliyin başlanğıcı kimi dəyərləndirilə bilər"* (18, 28). Biz xeyirlə şərin, qaranlıqla işiğin, ağla qaranın arasında gedən mübarizələrə nağıllarımızda və Avesta dastanında rast gəlmişik. Eşqin

də qaranlıq qış gecəsində bəyaz qarla qarşılaşması onun "kəfən" (17, 42-67) anlamını əsk etdirən ölüm halını yaşaması ilə bağlılığı özündə yaşadn bir hal kimi ortaya çıxır. Bu zaman anında əli hər yerdən üzülən Eşq Allaha yalvarmaqa başlayır. Allahdan ona cürət, cəsarət gəlir, onun qüdrəti və yardımçı qüvvələrin köməyi ilə yolunu kəsən maneələrə qarı vuruşmağa başlayır. O, div, qulyabanı və cadugərlə vuruşmalı olur. Bütün bunlara qalib gələn Eşqi artıq biz həyat təcrübəsi qazanmış, daxilindəki bütün qüvvlələrə qalib gələn eşq mücadili kimi görürük. Deməli, qəhrəman artıq özü-özündən keçərək təlvin halındadır. Təsəvvüf ədəbiyyatında "*təlvin haldan-hala, rəngdən-rəngə keçmə"* (11, 47) kimi xarakterizə olur.

Eşqin yoluna çıxan əngəllərdən biri də atəş dənizidir, o, bu dənizi keçməklə özünü təsdiq halını sübut etməlidir.

Bir nar ki dudi Nəmrud,
Gülani siyah nümudi Nəmrud

Dünyaları tutmuş atəşi qəm,
Girdabları çahi cəhənnəm.

Hər gavtası bir mühiti atəş,
Hər lüccəsı bir cahimi sərkeş (315).

O ya bu atəşi keçməli, ya da bu atəşə düşüb bişməlidir, geriyə yol yoxdur. Eşq bu Atəş dənişini səhər yeli kimi bir göz qırpımında keçir. Atəşə düşərək, onu keçən Eşqin halı, onun bişməsi halı kımı dəyərləndirilir. Şeyx Qalibin qəhrəmanının atəş dənizində bişməsi Mövlananın *"xam idim, yandım, bişdim"*, Yunus Əmrənini *"çiy idim, bişdim."* (16, 117) kəlamı ilə bir səsləşməkdədir. *Hüsn və Eşq* məsnəvisindəki Eşqin Atəş dənizindən keçərək bişməsi haqqında Ayvazoğlu yazır: "Bişmək məcazi mənada olğunlaşmanı (kamilliyi – X. H.) ifadə etməkdədir. Yanmaq isə daha yüksək bir mərhələdir. Alışmaq klassik şeirin məcaz sistemində və təsəvvüfi simvolizmdə eşqin sifətlərindən biridir. Mənəvi gəlişməsini qisaca *"Xamdım, bişdim, yandım."* deyə özətləyən Mövlana Məsnəvisinin doqquzuncu beytində neyin, yəni kamıl insanın içinə atəşin, yəni eşqin düşdüyünü söyləyərək, kimdə o atəş yoxsa, yox olsun! Deyirdi. Əsasən içinə atəş düşən və olğunlaşan insanlar artıq şeytanın və cinlərin himayədarı olan atəşdən qorxmazlar. İbn Ərəbiyə görə *"ruhi-lətif, cismi-kesif kimilər atəşdə yanıb inhilal etməz. Belə ki, övliyalarda atəşdə yanmamaq, suda batmamaq və havada teyran etmək kimi asari-ruhiyyə zahir olur"* (1, 44).

Eşq Atəş dənizini keçərək gəlib çatdığı yer Çin sahilləri olur. Ədəbiyyatda Çın, Çini- Maçin kimi ifadələr uzaqlıq mənasını ifadə edir. Eşq buranı sevgilisi ilə gəzdiyi gülzara bənzədir. O, burada Çin padşahının qızı Xoşrüba ilə qarşılaşır.

Xoşrüba sehrkardır, o, Hüznün şəklində Eşqin gözünə görünür. Xoşrüba onu sərxoş edərək, qılıncını əlindən alır və özünü də həbs edir. Lakin Eşq onun Hüsn olmadığını bilir. Xoşrübanın bütün əməlləri haqqında Süxən qabaqcadan Eşqi xəbərdar etmişdi. Süxən həkim cilidində dəlir və Eşqi Hüsnün sarayına aparır. Süxən məhz həkim cildində görünməsinin təsəvvüf ədəbiyyatında" dərd əhli olmaq, "dərdə mübtəla olmaq" kimi ifadə və deyimlərdə ilahi eşqin həsrətindən dərd əhlinə çevrilmiş sevən aşıq obrazı nəzərdə tutulur. Dərd əhli olan aşıqın dərmana ehtiyacı var. Bu "söz-dərman" müstəqil mənasından çıxaraq, həkimin məlhəmini – "ruhi müalicəni" xatırladır. Qədim təbabət elmində əməli müalicə ilə yanaşı, ruhi müalicə olduqca geniş işlənmişdir (9, 45). Ən sonda Heyrət Eşqi Hüsnə yetirir və ortadan hicab pərdəsi götürülərək vəhdət halı yaranır. Bu zaman anında Eşqın Hüsn və Hüsnün Eşq olduğu ortaya çıxır. Deməli, Eşq və Hüznün bir qəlbdə olduğu, onların bir-birinə vurğunluğu və heç bir zaman ayrı yaşaya bilməməsinin bu məsnəvidə bir daha şahdi olduq. Bu məsnəvinin təsəvvüf ədəbiyyatında xüsusi yeri var. Özündən sonra yazılan bütün irfanyönlü əsərlərə *Hüsn və Eşq* məsnəvisinin təsiri böyük olub. Əsər ümümtürk ədəbiyyatının zəndinliyini, onun tarıxi köklərinin dərinliyini, türk əxlaqının hər şeydən üstün olduğunu, sevgi hislərinin ülviliyini və onun ilahi məzmun daşımasını özündə yaşadan bir kodeks məzmunu daşıyır.

Qaynaqlar

1. Ayvazoğlu, B. (1999). *Kuğunun Son Şarkısı*. İstanbul: Ötüken Yayınları. 1999. s. 44.
2. Bakuvi, Seyid Yəhya (2010). *Əş-Şirvani Səfa əl Əsrar (Sufiliyin sirləri)*. Nəşrə hazırlayan: M. Rıhtım. Bakı: Elm, 407 s.
3. Bilgegil, Kaya M. (2006). "Hüsn ü Aşk'a Dair" *Hüsn ü Aşk*. Hazırlayan: O. Okay, H. Ayan. Stanbul: Dergâh Yayınları. s. 45.
4. Bünyatov, Z. və Məmmədəliyev. V. (1992). *Qurani-Kərim*. Bakı: Azərnəşr. s. 96.
5. Gölpınarlı, A. (1971). *Şeyh Gâlib Divanından Seçmeler*. İstanbul: MEB Yayınları. s. 112.
6. Gölpınarlı, A., *Yunus Emre Risaletün Nishiyye ve Divan*. İstanbul. 1965. s. 117.
7. *Hüsn ve Aşk* (2005). Nəşrə hazırlayanlar: Orhan Okay-Hüseyn Ayan. İstanbul: Dergâh Yayınları. 2005. s. 96.
8. Holbrook, V. (1996) "Alegori'nin Ölümü, Hüsn və Aşk'ın Özgünlüğü". *Defter*. Sayı: 27. İstanbul. Bahar 96. ss. 65-80.
9. Hümmətova, X. (2012). *Yunus Əmrənin "Olur" rədifli şeirində psixoloji hal dəyişməsi*. Bakı. 2012. s. 236.
10. *İslam Ansklopedisi*. Ankara 1980. s. 950.
11. Kabaklı, A. (1989) "Telvin". *Türk Edebiyyatı*. Sayı: 183, İstanbul. s. 49.

12. Qalib, Ş. (2000). *Hüsn ü Aşk*, Hazırlayanlar: Orhan Okay və Hüseyn Ayan. İstanbul. s. 388.

13. ----- *Hüsn ü Aşk* (2003). Hazırlayan: Muhammet Nur Doğan. İstanbul: Ötüken Yayınları. ss. 260-261.

14. Şıxıyeva, S., *Nəsiminin düşüncə aləmində mifopoetik obrazların yeri*. AMEA. Nizami adına Ədəbiyyat İnstitutu. Elmi araşilmalar (*Elmi-nəzəri məqalələr məcmuəsi*). Bakı: Nurlan 2000. s. 18.

15. Şıxıyeva, S., "Şəhriyarın 'Divani-türki'sində irfani düşüncənin ifadəsi: ənənəvilik və fərdilik". *Azərbaycan şərqşünaslığı*, №2 (6), 2011, ss. 26-33.

16. Şeyh Qalib, (2002). *Hüsn ü Aşk*. Hazırlayan: Muhammet Nur Doğan. İstanbul: Ötüken Yayınları. s. 273.

17. Törenek, M. "Akarken Hüznü Eyyam-ı Hazanın". *Yedi İklim,* 1995. S. 67, s. 42.

18. Varışoğlu, Mehmet C., " 'Öl ve Ol' Fikri Çerçevesinde Hüsn ü Aşk Kahramanı Aşk'ın Kendisini Bulma ve Tanıma Süresi". *Gaziantep Üniversitesi. Sosyal Bilimler Dergi*si. Yıl: 2007. C: 6, Sayı: 2. ss 101-112.

ÖMƏR FAİQ NEMANZADƏNİN TÜRKÇÜLÜK İDEOLOGİYASI

*Aybəniz HÜSEYNOVA**

I. Ömər Faiq Nemanzadə və Azərbaycan

XIX-cu əsrin sonlarında Azərbaycan ədəbiyyatında maarifpərvər ziyalı kimi parlayan gənclərdən də biri Ömər Faiq Nemanzadə idi. Tifliq quberniyasının Ahıska (Axalsıx) qəzasında doğulub orta təhsilini İstanbulda alan Ömər Faiq Nemanzadə 1892-ci ildə taleyini Azərbaycanla bağladı. 10 il fasiləsiz olaraq Tiflisdə, Azərbaycanın müxtəlif bölgələrində - Şəki, Şamaxı, Gəncədə müəllimlik edən maarifpərvər ziyalı sonrakı ömrünü həvəsində olduğu mətbuatla bağladı. Krımda çap olunan *Tərcüman*, Tiflisdəki "Şərqi-Rus"la əməkdaşlıq edən, püxtələşən Nemanzadə "Qeyrət" adlı mətbəənin açılmasında böyük rol oynadı. Beləliklə, Azərbaycanda mətbuatın inkişafı üçün addımlar atıldı və *Molla Nəsrəddin* kimi satirik bir jurnalın əsası qoyuldu. Ömər Faiq Nemanzadə jurnalın baş redaktoru Cəlil Məmmədquluzadə ilə çiyin-çiyinə çalışdı. *Molla Nəsrəddin*in yaranmasında Cəlil Məmmədquluzadə qədər əziyyəti olan Ömər Faiq Nemanzadə jurnalın məsul katibi oldu. Jurnalın sənədləşmə işində, Tiflis qubernatoruna yazılan müraciət ərizəsində Cəlil Məmmədquluzadənin adı gedirdi, buna da səbəb kimi Ömər Faiq Nemanzadənin Türkiyə təhsili ilə bağlı ola bilərdi. Türk təhsili görmüş ziyalının jurnal dərc etdirməsi istər-istəməz türkçülük ideologiyasının yayılması amilini ortaya çıxaracaqdı. Təbii ki, bu məsələlər Cəlil Məmmədquluzadəni də, Ömər Faiq Nemanzadəni də, hətta jurnalın xərclərini öz öhdəsinə düşən Məşədi Ələsgərovu da düşündürməyə bilməzdi.

II. Ömər Faiq Nemanzadə və türkçülük

Ömər Faiq Nemanzadə Türkiyə təhsili almışdır. Hacıkənddə olarkən İstanbuldan gəlmiş, İlahiyyat elmi üzrə Türkiyənin ən məşhur alimlərindən olmuş Məhəmməd Əfəndi də digər gənc müəllim və yazıçılar kimi ədibin

* Filologiya üzrə fəlsəfə doktoru, dosent, ADİU (UNEC), "Azərbaycan dili" kafedrası; *fidto@bk.ru*

dünyagörüşünə təsir göstərmişdir. Ədib başdan ayağa türkçü idi. O, *Tərəqqi, Açıq söz, İrşad, Həyat, Qızıl bayraq, Rəncbər, Adıgün kolxozçusu, Kommunist, Molla Nəsrəddin* adlı jurnal və qəzetlərdə "Ümidvar", "Lağlağı", "Mozalan", "Ümid", "Faiq Nemanzadə" və başqa imzalarla müxtəlif – türk dili və onun saflığı uğrunda mübarizə, türk xalqlarının rifahı üçün birliyə çağırış mövzularında yazılar yazmış, türkçülük ideyasını təbliğ etmişdir. Millətinə, xalqına sevgisi Ö. F. Nemanzadənin əsərlərində də, avtobioqrafiyasında da ehtiva olunmuşdur. Ömər Faiq Nemanzadənin yaradıcılıq məsələlərinə türkçülük və türk xalqları üçün ortaq olan problemlər aid idi. O, Vətənə sevgi anlayışını tərənnümdə yox, problemli tərəflərinə işıq salıb həll etməkdə görürdü.

Avtobioqrafiyasına da nəzər salanda xalqına, millətinə bağlı olan ziyalının soydaşlarının maariflənməsi üçün əlindən gələni etdiyini aydın şəkildə görürük. Ö. F. Nemanzadə hər şeydən öncə maarifçi idi. O, nicat yolunu təhsildə, elmdə görürdü.

"Ahıskada milli məktəb açmaq fikrinə düşən Ömər Tiflis maarif müdirinə ərizə yazıb ondan: 'Lazımsa, şkolada (məktəbdə) oxudun, ayrıca türk məktəbi olmaz' cavabını alır" (Sarıyeva 2015: 15). Və ya başqa bir misal göstərək: Maarifçiliyini, eləcə də ictimai fəaliyyətini genişləndirmək üçün Bakıya üz tutan ədibi gördükləri təssüfləndirmişdir. Ədib etiraf edir və ürək yanğısı ilə vurğulayır ki, *"Əgər Tağıyevin açdığı qız məktəbini görməsəydim, Bakının türk maarifi üzərinə qara bir cizgi çəkəcəkdim"* (Sarıyeva 2015: 15).

Ədibin "Rüstəm və Söhrab" adlı məqaləsində elmin problemli tərəfləri qabardılır. O, Azərbaycan dilində kitabların azlığından şikayət edərək ürək ağrısı ilə yazır: *"Bizimlə bir qonşu, bir vətəndaş, lakin bizdən dörd-beş qat az olan ermənilərin, gürcülərin ayda bir neçə yüzə qədər təzə kitabları, məcmuələri çıxdığı halda, bizdə ayda dörd-beş kitabça nəşr olunur"* (Nemanzadə 2006: 157). Ədib Azərbaycan dilində çap olunan kitabların əksəriyyətinin isə cəfəngiyyat olmasından, az qisimdə elmi dəyərə malik olanların isə bahalığından şikayətlənir. O, bu məsələdə oxuyucularla bərabər, yazanların da günahı olduğunu qeyd edir.

Molla Nəsrəddinçilər kimi türk dilinin ortaq dil kimi istifadə olunması, qorunub-saxlanılması Nemanzadənin də yaradıcılığının özəyini əhatə edirdi. Ömər Faiq Nemanzadə yaradıcılığının tədqiqatçısı olan Şamil Qurbanov qeyd edir ki, *"dil məsələsi Ömər Faqidə ötəri, keçici xarakter daşımırdı"* (Nemanzadə 2006: 15).

Ədibi düşündürən, eyni zamanda yaradıcılığının qayəsini təşkil edən dil məsələsi "Dilimiz və imlamız" məqaləsində vurğulanır:

> *"Ədəbiyyatı olmayan bir millətin, dilsiz insanə oxşuyacağını söyləmək üçün dəlilə, təfsilə hacət yox sanıram. Çünki ən böyük şahid keçmiş hallar, indiki vüquatlardır. Bundan ötrü örnək, misal*

axtarmaq üçün də uzaqlara getməyək: iştə başda çərkəz, ləzgi ... dilləri, sonra da bizim türkcəmiz. ... Türkcəmiz, hər nə qədər tez-gec, həqq rəhmətinə gedəcək olan o dillər kimi deyildir. Amma bugünkü qaydasızlıq naxoşluğuna vaxtilə dərman etmək çarəsini axtarmazsaq, onun bu yaman halının da çox uzanacağından qorxulur" (Nemanzadə 2006: 29).

Ədib "Yazımız, dilimiz, ikinci ilimiz" məqaləsində Əli bəy Hüseynzadənin *Tərəqqe*nin 12 və 13-cü nömrəsində dilimiz ilə bağlı dərc olunan bəzi fikirlərinə etiraz edir. O, Ə. Hüseynzadənin *"Sərf qaydalarımıza məxsus olan ədatlar qayət müəyyən olub, adətən heroqlif halını almışdır. Əslində Çin tərəfindən gəldiyimizi unutmayaq. Heroqlifə təəccüb etməyiniz!"* – cümləsinə etiraz olaraq *"ədatlarımızın o 'heroqlif' halı ehtimal dilimizin ibtidai və hicai vaxtında imiş. Amma vaxtın keçməsi ilə, dilin genişlənməsi ilə ədatlarımız 'heroqlif' halından çoxdan çıxmışlar. Hətta 1200 il əvvəl türk dili ilə yazılan türk əlifbasının vücudunu bizə bildirən 'Orxon' məhkukatında belə türk ədatları heroqlif halından çıxıb ayrı-ayrı yazılmışdır."* fikrini irəli sürür və hətta bir az irəli gedərək söyləyir ki *"Türklər nə qədər ki türklükdən, Türküstandan uzaq düşüb, əsrlərcə ərəb hökuməti və dini, fars ədəbiyyatı, nüfuzu altında qaldılar, o qədər türklüklərini və türk dilini itirdilər"* (Nemanzadə 2006: 163).

Ədib 1917-ci ildə *"Qardaş köməyi"* məcmuəsində çap etdirdiyi *"Mən kiməm"* məqaləsində türkçülüyü təbliğ edərək yazır: *"Zəmanəmizdə, yəni din və əbədiyyətdən, cins və millətlərin hökm sürdüyü böylə bir çağda insan öz soy və millətini tanımamaq, daha doğrusu, özünü bilməmək ən böyük günahlardan, silinməz ləkələrdən biridir. Lakin bu ləkə tezliklə gedən ləkəyə də bənzəmir. Bu ləkə yaman ləkədir. Bu, ləkə surətində öylə yılancıq (qanqrena) yarasıdır ki, millətimiz vücudunu, türklük varlığını yavaş-yavaş gəmirir, yox edir"* (Nemanzadə 2006: 233).

Nemanzadə bütün məsələlərin həll yolunu azadlıqda, müstəqil üsuli-idarələrinin mövcudluğunda görürdü. *"Vasiteyi-nicatımız nədədir?"* – məqaləsində ədib bunları açıq-aşkar yazırdı:

"Ya məscidlərimiz, minbərlərimiz? Of, burası daha yaman, daha acıqlı! Odur ki, dirilmək, tərəqqi etmək və hürr olmaq istəyən millətlər cümlə hakimlərin, vəzirlərin, hətta padşahların millət nəzərində məsul tutulmalarını qanunun ən birinci maddəsinə daxil etmək istərlər. Bunun üçün də mal və candan keçirlər. Siyasi məktəblər hələ bir yanda dursun, ruslar ilə həmməzhəb olan qonşumuz gürcülər ruhani idarələrini milli və müstəqil etmək üçün gecə-gündüz çalışırlar" (Nemanzadə 1906).

Nəticə

"Mən kiməm" məqaləsini hətta ədibin türkçülük ideologiyasının konsepsiyası adlandıra bilərik. Gəldiyimiz nəticələri də sözügedən məqalədən bir hissə verərək yekunlaşdıra bilərik. Ədib türklərə müraciət edərək yazır:

"Sən ey türk! Nə əqidədə, nə məsləkdə olursan ol, həmişə türksən. Sən gərək biləsən ki, dünyada hələ şiə, sünni, babı, şeyxi adları yox ikən sən var idin. İslamiyyət Ərəbistan qumluqlarında doğmadan əvvəl belə sən Altayın ətəklərində ətrafın gözəlliyinə tamaşa edib zövq alırdın. Orada uzun seyr və səyahətlərə hazırlanırdın.

Ey özündən xəbərsiz türk! Mədəniyyət əsrləri, nizam, idarə və asayiş üsulu 'yasaq' qanunları hənüz Bağdad, Şam, Paris və Londonda yox ikən, sənin yurdunda var idi.

Sən öz dadlı dilini cığırından çıxarıb bugünkü acınacaq hala salan ərəb əlifba və yazısından əvvəl sənin göyçək əlifba və yazın var idi.

Bəsdir, bəsdir, ey türk, bir az ayıl. Ayıl da bir çox toz-torpaqlarla dolan, ağırlaşan dini əqidə pərdəsini gözlərinin üstündən qaldır. Əl-ayağını biraz tərpət. Vücudunu, varlıq ağacını saran, korlayan tikanları, sarmaşıqları, yad ağacların yarpaqlarını, dallarını qır, at, qurtul. Vücuduna Allahın günəşi, havası dəysin. Başını bir az yuxarı qaldır. Öz varlığını, öz vücudunun qiymətini bil. İndiyə qədər yadlar üçün, özgə varlıqlar və vücudlar üçün özünü həlak etmisən, barı bundan sonra ayıl, bir özünə gəl, öz gününə çalış" (Nemanzadə 2006: 239).

Ömər Faiq Nemanzadə Sovet quruluşunun millətçilik, xüsusilə türkçülüklə bağlı qadağan etmiş olduğu məsələlərə uymur, türklər və türkçülüklə bağlı fikirlərini məqalələrində açıq-aşkar yazırdı. Bu səbəbdən də XIX-cu əsrin 30-cu illərindəki repressiya dalğası ondan yat ötmədi. 1937-ci il iyulun 16da rayon prokuroru Odabaşyanın sərəncamı ilə həbs olunmuş ədib **oktyabr**ın 10-da **Gürcüstan** SSR Xalq Daxili İşlər Komissarlığının nəzdindəki "Üçlüyün" qərarı ilə güllələndi.

Qaynaqlar

1. Cəfərov, Taleh (2010). "1905-1906-cı il Tiflis hadisələri Ömər Faiq Nemanzadənin gözü ilə: Ədibin *Qafqazdan İstanbula xatirələr* əsəri azərbaycanlıların soyqırımının tarixçəsi kimi səslənir//". *Xalq* qəzeti. 14 mart. - № 58. S. 4.
2. Nemanzadə, Ömər Faiq (1906). *"Vasiteyi-nicatımız nədədir?". İrşad* qəzeti. 9 oktyabr 1906, № 237.
3. Nemanzadə, Ömər Faiq (2006). *Seçilmiş əsərlər*. Bakı: Şərq-Qərb, 349 s.
4. -----(2014). *Xatirələrim*. III kitab. *Xatirə Ədəbiyyatı*. Bakı: XAN nəşriyyatı. 152 s.
5. Sarıyeva, İradə (2015). "Ömər Faiq Nemanzadə - dil və mətbuat fədaisi". *Bakı xəbər*. 2015. 22 iyul. S. 15.

MİLLÎ MÜCADELE DÖNEMİ MARAŞ VE KIRMIZI ŞERİTLİ İSTİKLAL MADALYASI

*Elçin İBRAHİMOV**

Giriş

Kurtuluş Savaşı, İstiklâl Harbi ya da Millî Mücadele olarak adlandırılan I. Dünya Savaşı'ndan yenik çıkan Osmanlı İmparatorluğu'nun İtilaf Devletleri tarafından işgali sonucunda Misak-ı Millî (Gül 2008: 177-199) sınırları içinde ülke bütünlüğünü korumak için girişilen çok cepheli siyasi ve askerî mücadele 1919-1922 yılları arasında gerçekleşmiş ve 11 Ekim 1922'de imzalanan Mudanya Mütarekesi ile fiilen, 24 Temmuz 1923'te imzalanan Lozan Antlaşması ile resmen sona ermiştir (Yalçın 2003: 98-99).

Millî Mücadele Dönemi'nin Maraş savaşı 21 Ocak 1920'de başlamıştır. Fransız ve müttefiklerinden oluşan birliklere karşı kahramanlık mücadelesi veren Maraşlılar 22 günlük mücadeleden sonra Millî Mücadele tarihine kanlarıyla adlarını yazdırdılar. 22 gün 22 gece Kahramanmaraş savaşı 12 Şubat günü sabah namazı sularında resmen sona erdi (Atalay 1973: 187).

22 gün 22 gece süren Kahramanmaraş Kurtuluş Savaşı 12 Şubat 1920 günü sabah namazı sularında resmen sona erdi. Artık savaş bitmişti. Bütün Kahramanmaraşlılar ve civar köylerden gelen binlerce vatansever, cefakâr Kahraman-Gaziler sabahın erken saatlerinde şehrin merkezine toplanarak, sevinç gözyaşları içinde birbirlerine sarıldılar. Birbirlerine sarılarak sevinç gözyaşları ile herkesin adeta ağladığı görüldü. Kardeşliğin, birlik ve beraberliğin Türk gurur ve şuuru ile Islam ahlakının en güzel örnekleri burada sergilendi. İkramlar, sevinçler, saygınlık, sevgi, bağlılık, Türk örf ve âdetleri ile millet sevinçten âdeta coştu. Artık acılı günler geride kalmıştı. İnançlı, azimli ve şuurlu Kahramanmaraşlılara yan gözle bakan düşmanın gözünün her zaman oyulacağı söylendi. Vatanın ve milletin bölünmez bütünlüğünü altın harflerle tarihe geçiren Kahramanmaraşlı sevincinin haklı gururunu yaşıyordu artık. Bu coşku ve sevgi yumağı öğle sonuna kadar artarak devam etti. Ağıtlar yakıldı, türküler söylendi, folklorik yöre oyunları sergilendi. Evlerden halka ikramlar dağıtıldı.

* Dr. Öğr. Üyesi, Azerbaycan Milli Bilimler Akademisi, Nesimi Dilbilimi Enstitüsü, Türk Dilleri Bölümü Müdürü; elchinibrahimov85@mail.ru

O günden sonra her yıl 12 Şubat günü köylüsü ile mahallelisi ile hep bir olup el ele vererek kucaklaşma, sevinç, bayram yapılması gelenek haline getirildi. 12 Şubat Kahramanmaraş Kurtuluş Bayramı'nın devlet töreni ile de her yıl kutlanması kararlaştırıldı. Bu nedenle, her yıl 12 Şubat günü, Türkiye'nin en görkemli ve muhteşem Kurtuluş Bayramı, Kahramanmaraş'ta kutlanmaya başlandı. Kahramanmaraş Kurtuluş Bayramı'nın şehirde olduğu gibi bütün Türkiye'de de ayrı bir yeri ve önemi vardır.

Mustafa Kemal Atatürk'ün Telgrafı

Düşmanın taarruzuna karşı kahramanca silaha sarılan Maraşlı kardeşlerimiz yirmi güne yaklaşan bir zamandan beri kan ve ateşler içerisinde istilacı Fransızlara ve onların silahlandırdığı hunhar Ermenilere karşı savaşmakta idiler. 10-11 Şubat 1920 gecesi düşmanı İslahiye istikametinde firara mecbur ederek, mevcudiyet-i millîlerini kazanmaya muvaffak olmuşlardır.

Hey'et-i Temsiliye Adına-Mustafa Kemal

Kazım Karabekir'in Telgrafı

Maraş kahramanlarının Türklüğe has olan celadet ve fedakârlıkları neticesinde sevgili Bayraklarımızın yine Maraş üzerinde dalgalandığını haber almakta bütün Kolordum büyük sevinç duymaktadır. Öldünüz fakat Türklüğü öldürmediniz. Tarih-i Millîmize kanınızla ve hayatınızla emsalsiz bir menkibe-i celadet yazdınız. Maraşlıların ve sizlerin alnınızdan öper, Kolordumun hissiyat-ı samimiyesini arz ederim.

15. Kolordu Komutanı-Kazım Karabekir

TBMM Başkanı Mustafa Kemal Paşa (ATATÜRK), Maraş Belediyesinden savaşta yararlılık gösteren kişilerin isim listesini göndermelerini istedi ve bu kişilere İstiklal Madalyası verileceğini açıkladı. Fakat dönemin Lütfi Köker Başkanlığında toplanan belediye meclis üyeleri uzun tartışmalar sonucu, tüm Maraş halkının Maraş zaferinin kazanılmasında eşit payı olduğunu ve sadece birkaç kişiye madalya verilmesinin haksızlık olacağına karar verdiler. Bu kararlarını da telgrafla TBMM'sine bildirmeleri üzerine, TBMM'ce İstiklal Madalyası'nın Maraş iline verilmesine karar verildi. Bu muhteşem savaşla elde edilen Kahramanmaraş zaferi önce TBMM tarafından 5 Nisan 1925 tarihli ve 2626 sayılı kararı ile KIRMIZI ŞERİTLİ İSTİKLAL MADALYASI ile onurlandırılmış ve şehir Dünya'da ve Türkiye'de ilk madalyalı şehir unvanını kazanmıştır. İkinci olarak; TBMM 5 Nisan 1926 günü, Maraş Savaşında yararlılık gösterdikleri için ödüllendirilmesi şehir tarafından önerilen 271 kişiden 166 kahramanın istiklal madalyası ile taltif edilmesi kararlaştırmıştır. Listenin 153'üncü sırasına **"Maraş Namına İstiklal Madalyası İtası"**

yazılarak kurtuluş hareketine katılan bütün Kahramanmaraş halkı ada ayrıca taltif edilme onuruna sahip olmuştur. Üçüncü olarak; TBMM 12 Şubat 1973 tarihinde 14446 sayılı kararı ile Maraş ilinin adını, maalesef kurtuluşundan 53 yıl sonra, KAHRAMANMARAŞ olarak değiştirmiştir (Sarı 121).

Kahramanmaraş'ın kurtuluşu, 21 Ocak 1920 ile 12 Şubat 1920 tarihleri arasında 22 gün ve 22 gece cereyan eden anlamlı bir topyekûn savaş sonucu elde edilmiştir.

Ben sunumumda, sonuç olarak "Kırmızı Şeritli İstiklal Madalyası"yla ilgili konuşmak isterdim. Dünya'da ve Türkiye'de ilk madalyalı şehir unvanını Maraş almıştır. Elbette Millî Mücadele Türkiye tarihinin adından da belli olduğu gibi milli, topyükûn mücadelesiydi. Türkiye devlet olarak büyük devletlere karşı tarihinin her döneminde büyük sınavlar karşısında kalmıştır.

Devlet olaraq kurulduğu XIII-cü asırdan günümüze kadar Türkiye devleti büyük savaşlar görmüştür (Turan 2006: 28). Elbette bu savaşların hemen hemen hepsinden kahraman, yiğitleri savaşçıları sayesinde başarıyla çıkmıştır. Bu topraklar her zaman zalimin ilgisinde olmuş, bugün de Türkiye'ye, Türkçeye, Türk insanına karşı kalleşce, şerefsizce saldırılar devam ediyor.

Ancak bu kalleşce savaşa katılanlar, onlara destek verenler bir ve esas olanı unutmuşlar: ***"Türkler bir ölür, bin dirilir!"***

Kaynaklar

1. Adnan Gül (2008). "Türk Millî Bağımsızlık Savaşında Maraş Müdafaasının Önemi". *Sosyal Bilimler Araştırma Dergisi*. Mart. Sayı: 11.
2. Besim Atalay (1973). *Maraş: Tarihi ve Coğrafyası*, İstanbul: Dizerkonca Matbaası.
3. E. Semih Yalçın (2003). *Türk İnkılâp Tarihi ve Atatürk İlkeleri*, Ankara: Siyasal Yayınları.
4. Mustafa Turan (2006). *Destanlaşan Çanakkale*, İstanbul: Sarı Papatya Yayınları.
5. Sina Akşin (1978). "Kurtuluş Savaşı'nda ve Lozan'da İngiltere ve Fransa ile İlişkiler". *Lozan'ın 50. Yılına Armağan*, İstanbul Üniversitesi Hukuk Fakültesi Yayınları, İstanbul, 1978, ss. 55-67.

SOVET DÖVRÜNDƏ NAXÇIVANDA YARANAN ƏDƏBİYYATDA QƏRB ƏDƏBİ ƏNƏNƏSİNİN ZƏİFLƏMƏSİNİN SƏBƏBLƏRİ VƏ NƏTİCƏLƏRİ

*Nərgiz İSMAYILOVA**

Sovet dövründə Qərb ədəbi ənənələrində geriləmə müşahidə edildi. Bunun səbəbi Sovet hökümətinin yeritdiyi siyasət idi. Bunun nəticəsində milli ədəbiyyata təkrar baxış yarandı. Beləliklə ədəbiyyatımızda rus mütəffəkirlərinə yenidən meyl nəzərə çarpmağa başladı. Sovet psixologiyası sayəsində ideologiyanı tərənnüm edən əsərlər günbəgün çoxalırdı. Bu isə ədəbiyyata ciddi zərbələr vurdu. Ədəbiyyat ilk dəfə ideoloji ünsürlərlə tanış oldu. Ancaq bununla birlikdə Vətənin azadlığı yolunda çarpışan qələmlər də yox deyildi. Sovet döründə Rusiyanın yeritdiyi siyasət Azərbaycan tarixiylə birlikdə, mədəniyyətimizə də güclü zərbələr vurdu. Milli ənənənin təbliğinə yönəldilən siyasətin arxasında sovet Rusiyasının siyasətini təbliğinə dair prinsiplər dururdu. Rusiyanın dünya arenasında yeritdiyi siyasət sonralar onun tərkibində olan ölkələrin də siyasəti kimi təbliğ olunur, bu həmin ölkələrin tarixinə, mədəniyyətinə hopdurulurdu.

Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsindən sonra onun köhnə müttəfiqləri İngiltərə, Fransa, ABŞ-ın bu dövləti tanımaması və ona qarşı olan qüvvələrə dəstək verməsi təklənmiş Türkiyə ilə yaxınlaşmanı sürətləndirməyə bilməzdi. Başqa məğlub olan dövlətlər Almaniya, Bolqarstan, Avstriyadan fərqli olaraq bu ölkələrdə antiimperialist hərəkat gedirdi və bu iki ölkədə müttəfiqlər öz istədikləri hakimiyyət orqanlarını yarada bilməmişdilər. Buna görə də Türkiyə ilə Sovet Rusiyası arasında yaxınlaşma zərurətdən irəli gəlirdi. Onların yaxınlaşamsını müəyyən dərəcədə ideoloji yaxınlaşma kimi də qeyd etmək olar. Düzdür Anadoluda başlanan hərəkat bolşevizmdən uzaq idi. Ancaq burada da antiimperialist ideologiya hökm sürürdü.

Sovet Rusiyası isə öz niyyətlərini antimperialist ideologiyada gizlətmişdi. Bu iki dövlətin konkret qərb dövlətlərinə qarşı fikir ortaqlığı onların yaxınlaşmasını sürətləndirirdi. Yaxınlaşmaya isə ən böyük manea Qafqaz idi.

* Filologiya üzrə fəlsəfə doktoru, AMEA Naxçıvan Bölməsi, İncəsənət Dil və Ədəbiyyat İnstitutu, Ədəbiyyatşünaslıq şöbəsi, böyük elmi işçi; ismayilovanargis@gmail.com

Mustafa Kamal paşa Sovet Rusiyası ilə yaxşılaşmanı vacibli hesab edirdi. Bu Mustafa Kamalın Kazım Qarabəkir paşaya göndərdiyi məktubda da öz əksini tapır: *"Türkiyə Qafqazda bolşevik istilasının asanlaşdırıb onunla bərabər hərəkət edərsə, qərbdən şərqə, doğru Anadolu, Suriya, İran, İrak, Əfqanstan, Hindistan qapılarını müdhiş bir surətdə açmış olacaqdır"* (8).

Birinci dünya müharibəsi dövründə vahid koalisiyada digərinə qarşı döyüşmələrinə baxmayaraq, hər bir düşərgənin daxilində kəskin ziddiyyətlər hökm sürürdü. Antanta cəbhəsində ən kəskin ziddiyyətlər İngiltərə və Rusiya arasında idi. İngiltərə və Fransa müharibənin sonuna qədər Rusiyanın güclü qalmasını istəmirdilər. Güclü Rusiya qənimətin bölüşdürülməsində onlara mane ola bilərdi. Müharibənin strateji proqramı haqqında məsələlərdə də Rusiya ilə müttəfiqləri arasında fikir ayrılığı mövcud idi. İngiltərə və Fransa Qərb cəbhəsini əsas cəbhə hesab edərək Rusiya ordusuna ən xoşagəlməz rollar ayırırdılar. 1918-ci il noyabrın 11-də Kompeyn barışığının imzalanması ilə 34 ölkənin iştirak etdiyi Birinci Dünya Müharibəsi başa çatdı. Müharibə külli miqdarda xərclərə səbəb oldu. Müharibə nəticəsində dünyanın siyasi xəritəsində ciddi dəyişikliklər baş verdi. AvstriyaMacarıstan, Osmanlı, Rusiya imperiyaları dağıdıldı və yeni müstəqil dövlətlər meydana gəldi.

Görüldüyü kimi, Rusiya bəxtini Qərblə münaqişələrdə sınasa da bu onun xeyrinə olmadı. Rusiya maddi, mənəvi itkilərə məruz qaldı (Abbasbəyli 2009: 30).

Sovet Sosialist Respublikaları İttifaqı, qısaca: Sovet İttifaqı, SSRİ 1922-1991-ci illərdə əsasən indiki MDB dövlətləri ərazisində mövcud olmuş dövlətdir. SSRİ dünya tarixində rəsmi ideologiyası marksizm-leninzm-sol radikal sosialist ideologiyası olan dövlət olmuşdur (10).

İkinci dünya müharibəsi qurtardıqdan sonra SSRİ müharibədən 27 milyonluq insan və çoxlu miqdara təbii sərvət itkisi ilə çıxdı. Lakin SSRİ müharibədən qalib və qat-qat güclü hərbi-iqtisadi potensialla çıxmağı bacardı. Müharibədən sonrakı dövrdə dünyada supergüc kimi tanınmağa başladı. 1950-ci illərdə 6200 sənaye müəssisəsi bərpa olundu və ya yenidən quruldu. 1991-ci il dekabrın 8-də SSRİ-ni təşkil etmiş-Rusiya SFSR, Ukrayna SSR və Belorusiya SSR SSRİ-nin parçalanması haqqında istəklərini bildirdilər. 1991-ci il dekabrın 25-də Mixail Qorbaçov istefa verdi. Dekabrın 26-da Kreml üzərindən SSRİ-nin qırmızı bayrağı endirildi və beləliklə1922-ci il dekabr ayının 30-da yaranmış və 69 il mövcud olmuş SSRİ dağıldı (9).

Qərbdən üz döndərən Sovet Sosialist Respublikası Şərqin gücünə arxalansa da dağılmamaqdan qurtula bilmədi. Qeyd etdiyimiz kimi, qısa tarixi xronolojik məlumatlardan aydın olur ki, Rusiya tarixin müxtəlif dövrlərində Qərblə münasibətində soyuq rüzigarlar əsib bu isə Rusiyanın müxtəlif zaman kəsiyində yaranan siyasi addımlarında öz əksini tapıb. Bu bütün sahələrə

təsir etdiyi kimi, ədəbiyyata da öz təsirini göstərmişdir. Sovet Rusiyası ədəbi qüvvələri dünya sivilizasiyasından uzaqlaşdırıb, sovet ideologiyasına xidmət etməyə cəlb edirdi.

"1920-ci illər SSRİ-nin ilk illəri və bir növ, məcbur qaldığı azad düşüncə qapısını açmasa da, tam qapada bilmədiyi dövrdür. 20-ci illərdə Moskva və Leninqradda çap olunmuş Z. Freyd, F. Nitşe, A. Şopenhauer, T. Vulf... Rusiyanın XX-ci əsrin əvvəllərində qazandığı fikir böhranının, azad düşüncə axtarışlarının davamıdır. Bir tərəfdən Tolstoy, Dostoyevski genişliyi və dərinliyi, Qoqolun, Çexovun ziddiyyət və harmoniya arayışları, o biri tərəfdən Plexanovun, Sorokinin, Sokolovun ictimai-fəlsəfi araşdırmalarının önünü inqilab kəskin şəkildə ala bilməzdi." (11).

Bu cəhd üçün öncə Leninə, sonra Stalinə 10-15 il lazım oldu. İlk öncə siyasi rəqiblər və siyasi müxalifət məhv edilməyə başlandı. Sənayeləşdirmə, kollektivləşdirmə və mədəni inqilab kampaniyaları, onların ardınca ümumdünya iqtisadi böhranı, aclıq, köç və repressiya başladı. Bu tarixi kontekstdə azad düşüncənin taleyi, demək olar ki, ən azı birinci planda həll olundu.

1919-cu ilin iyulunda daşnaklar ingilislərin köməyi ilə Naxçıvanı tutdular. Çox keçmədən ingilislərin Naxçıvanı tərk etməsindən istifadə edən Naxçıvan Milli Komitəsinin hərbi dəstələri daşnakların nizami qoşununu Naxçıvandan qovdu. 1920-ci il aprelin 28-də Bakıda, iyulun 28-də Naxçıvanda sovet hakimiyyətinin elan edilməsi və Azərbaycan SSR-in yaradılması, Zəngəzurun Azərbaycandan alınaraq Ermənistana verilməsi və Naxçıvanın Azərbaycandan ayrı düşməsi, Naxçıvanın muxtariyyəti məsələsini gündəliyə gətirdi. 29 noyabr, 1920-ci ildə Ermənistanda sovet hakimiyyəti elan edildikdən sonra Ermənistan SSR hökuməti də Naxçıvanı özünə ilhaq etmək üçün dəfələrlə cəhdlər göstərdi. Lakin 1921-ci ilin yanvarında Naxçıvan əhalisinin 90 faizi muxtariyyət statusunda Azərbaycan SSR-ə birləşməyə səs verdi. Naxçıvan yeni yaradılan Naxçıvan SSR-in, Naxçıvanın muxtariyyət statusunu qəti müəyyənləşdirən Moskva və Qars müqavilələri imzalandıqdan (1921) sonra, 1924-cü il 9 fevralda Naxçıvan MSSR təşkil edilərkən respublikanın paytaxtı oldu (12).

Bir mühiti tədqiq etmək üçün öncəliklə o zamanın siyasi atmosferini öyrənmək lazımdır. Qeyd etdiyimiz kimi, ölkədəki siyasi aura əli qələm tutan şəxslərin yazılarında da öz əksini tapırdı. Milli vətənpərvərlik ruhunda olan insanlar formalaşırdı. XIX-XX-ci əsrlər Naxçıvan ədəbi mühitinin özünəməxsusluğu onda idi ki, burada dünya ədəbiyyatına maraq və hörmət çərçivəsində, milli ədəbiyyat formalaşırdı. Bəşər tarixinə korifeylər bəxş edən Naxçıvan torpağında yazıb-yaradan sənətkarların yaradıcılığında ilklər mövcud idi.

Sonralar Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin konfransında Ali Məclisin Sədri cənab Vasif Talıbov çıxış edərək demişdir: *"Hər bir xalqın həyatında ədəbiyyatın, bədii söz sənətinin mühüm yeri və rolu vardır... Ədəbiyyatın ən böyük amalını və tarixi missiyasını mənsub olduğu xalqa xidmətdə görən ümummilli liderimiz hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan ədəbiyyatının inkişafına çalışmış, yaradıcı ziyalıları himayə etmiş, sağlam ədəbi mühitin yaradılmasını bir nömrəli vəzifələr sırasına çəkmişdir."*

"Müstəqillik dövrünün özünəməxsus ədəbiyyatı olmalıdır." – deyən Ali Məclisin Sədri bildirmişdir ki, *"Bu dövr əvvəlki dövrlərdən tamamilə fərqlənir. Əsas fərq bundan ibarətdir ki, Sovetlər Birliyi dövründəki kimi indi ədəbiyyatın üzərində senzura yoxdur. Müxtəlif mövzular üzrə dövlət sifarişləri aradan qaldırılmış, mövzu seçimində tam sərbəstlik verilmişdir."*

Diqqət etsək görərik ki, XX-ci əsrin son üç rübü ədəbi tərəqqi "ideyaca qapalı bir məcrada məhdud hərəkət çərçivəsində" inkişaf edir. *"Ədəbiyyat ikiyə haçalanır: yaradıcılığını bəşəri tərəqqinin davamı olaraq inkişaf etdirən sənətkarlar-repressiya qurbanlarına çevrilirlər; yeni sovet ədəbiyyatını isə 'sovet realizmi' daxilində təsvirlə məhdudlaşan sənətkarlar yaradır. Beləliklə, Sovet ədəbiyyatı iki mərhələyə bölünür: 1. Repressiya, ehkam, kult və qrafomanlıq ideologiyasının hakim olduğu 1920-1950-ci illər; 2. 'Yenidənqurma' ilə tamamlanan yeni ictimai əxlaqın və düşüncə tərzinin təşəkkül tapdığı 1960-1990-cı illər"* (Qarayev 1996: 46).

Qeyd edildiyi kimi, Sovet dövründə ədəbiyyatda olan ciddi senzura ədəbiyyatın inkişafına zərbələr vururdu. Sovetlərə rəğbət hissi aşılanmayan əsərlər çapa buraxılmır, müəllif təqib edilirdi. 1937-ci illəri, ağır repressiyanı göz önünə gətirək. Birdən-birə ictimai fikir mücahidlərimiz, qüdrətli zəka sahiblərimiz ideoloji siyasətin, mənfur irticanın qurbanına çevrilir. 1920-1950-ci illərdə yaşayan Naxçıvanlı ədəbi simaların yaradıcılığına nəzər salsaq görərik ki, onların əksəriyyətində azadlıq, bəşərilik və sair bu kimi nəfəslər duyulurdu. Sovetlər Birliyində totalitarizmin dəhşətli dövründə Hüseyn Cavid sosializmin "nailiyyətlər"indən yazmağı özünə rəva bilməmiş, Stalini, Azərbaycan ağalarını mədh etməkdən qətiyyətlə boyun qaçırmışdır. Ona görə də bu mətin şəxsiyyət Sibir buzlaqlarına, Maqadana sürgün edilmiş və 5 dekabr 1941-ci ildə İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko kəndində həlak olmuşdur.

"Sovet ədəbiyyatı" qavramını və ya 70 il işlənən "Sovet ədəbiyyatı" terminini və ya o termin altında anlaşılan tanımı, mənanı açıqlığa qovuşdurmadan sosializm realizmi ədəbi metodundan, onun tərkib hissəsi olan inqilabi romantikadan, ədəbiyyatda xəlqilikdən, partiyalılıqdan danışmamaq, onların mahiyyətinə varmamaq mümkün deyil. Bir amili də unutmaq olmaz ki, "sovet ədəbiyyatı" anlayışı daxilində olan sırf realist, modernist və romantik əsərlər,

poetika zənginliyi ilə seçilən bədii əsərləri də ehtiva etdiyi diqqətdən yayınmamalıdır.

XX-ci əsrin əvvəllərindən başlayaraq Azərbaycanda yaradılan rus üsul-idarəsinə məcburi tabe olan xalq və rus dilinin hər sahədə əsas rol oynaması Qərbə olan münasibətdə əsaslı dəyişikliklər etdi. Bu zaman ədəbiyyata siyasət bulaşdı. XX-ci əsrdə rus idarəsinə yaşayan xalqların ədəbiyyatların da ortaq fikirlər, təsvirlər, istəklər nəzərə çarpırdı. Bu illərdə Azərbaycan ədəbiyyatında olduğu kimi, Orta Asiyada, digər türk dövlətlərinin ədəbiyyatlarında (Türkmən) ədəbiyyatında da torpaq islahatı, qadın haqları, zəngin-kasıb əleyhdarlığı kimi mövzulardan bəhs olunur, bu çərçivədə 1920-ci illərin əsərlərində, rusların təzyiqlərinə qarşı onlar öz şikayətlərini dilə gətirirdilər. Bu səbəbdən XX-ci əsrin əvvəllərində yazılan əsərlərdə əsas mövzu həyat olsa da, ədəbiyyat siyasi məsələlərə yönəldilən silah rolunu oynayırdı. Sovet rejiminin gətirdiyi təzyiqlər qarşısında dövləti idarə edənlər və rejim lehində sinif anlayışını dilə gətirən əsərlər artırdı. Bu əsərlərdə ədəbiyyatdan çox siyasət nəzərə çarpırdı. Xalqın azadlığı uğrunda çalışanlar, rusların yeritdikləri siyasətə öz münasibətini bildirənlər təqib olunurdu. Məsələn A. Gulmuhammedov "xalq düşməni", "burjua milliyyətçisi" kimi ittihamlara məruz qalmış, H. Durdaev Sibirə sürgün olunmuş, B. Kerbabaevisə göz həbsinə alınmışdır. 1937-ci ildə həbs olunan, Hocanepes Çarıyev 1941-ci ildə, Oraz Taçnazarov isə 1942 ildə öldürülmüşlər (*Çağdaş Türk Edebiyatları* 117).

Sovet ədəbiyyatının yaradıcılıq metodu sosializm realizmi və onun tərkib hissəsi olan inqilabi romantika haqqında, ədəbiyyatın partiyalılığı və xəlqiliyi və sair kimi ünsürlər ədəbiyyatı məhv edirdi. *"XX əsr daxilində öz əlahiddəliyi ilə xüsusi əhəmiyyət kəsb edir. Keçid dövrü kimi xarakterizə olunan bu mərhələnin bir-biri ilə ziddiyyət təşkil edən ikili səciyyəsi-onun həm qopub ayrıldığı sovet dövrünün rudimentlərini özündə daşıması, həm də bu qalıqlarla mübarizə apararaq yeni biçimdə özünü ifadə etməyə çalışması kimi əlamətlər onilliyin əsas göstəricisini təşkil edir"* (Akimova 2012: 21).

Əsil həqiqəti C. Məmmədquluzadə və Hüseyn Cavid vaxtında görmüş, onun mürtəce antiazərbaycan mahiyyətini başa düşmüşdülər. Repressiyaya məruz qalmış sənətkarlar arasında Azərbaycan ədəbiyyatı və incəsənətinin, ədəbiyyatşünaslıq və dilçilik elmlərinin çox görkəmli nümayəndələri olmuşlar: böyük dramaturq böyük maarifpərvər Firidun bəy Köçərli, H. Cavid, parlaq, istedadlı şair M. Müşfiq, görkəmli nasir və ədəbiyyat tənqidçisi S. Hüseyn, Azərbaycan Respublikasının himninin müəllifi məşhur şair Ə. Cavad, məhsuldar ədib və alim Y. V. Çəmənzəminli, filologiya professoru, poliqlot alim B. Çobanzadə, Bakı Dövlət Universitetinin rektoru, yazıçı T. Ş. Simürğ, Bakıda ilk Şərq konservatoriyasını açmış Xədicə xanım Qayıbova, görkəmli teoloq-alim, Bakı qazisi Mir Məhəmməd Kazım ağa, folklorçu-alim H. Zeynallı,

faciəvi rolların səhnəmizdə ən görkəmli ifaçıları A. M. Şərifzadə, Ü. Rəcəb və onlarca başqaları... Sürgündə və məhbəsdə həlak olmuş Y. V. Çəmənzəminlidən və H. Caviddən başqa bu yaradıcı ziyalıların hamısı güllələnmişdi.

Yaradıcılığında Qərbə dərin rəğbət hissi açıqca hiss edilən Məmməd Səid Ordubadi mühitdə sanballı əsərləri, siyasi fikirləri ilə diqqət çəkirdi. Məşhur sovet yazıçısı N.Tiaxanovun dediyi kimi, *"Ordubadinin əsərlərini oxuduqdan sonra istedadlı Azərbaycan xalqı, onun inqilabi mübarizə yolu barədə geniş təsəvvür əldə etmək mümkündür"* (Vəzirova 1985: 61).

Ümumiyyətlə 20-ci illər Ordubadi fəaliyyətinin ən qaynar, dolğun illəridir. Bu illərdə o, dini, mövhumatı tənqid edən onlarla əsər-şeir, felyeton, məqalə və kitab yazır. *Məhərrəmlik və rövzəxanlıq* (1924), *Qurban bayramı bidəti* (1925), *Kərbəla hadisələrinin mənşəi* (1925), *Məhərrəmlik və mədəvi inqilab* (1929) kimi ateistik mövzuda yazdığı bir sıra əsərləri mövhumatla mübarizədə mühüm rol oynayır. Qeyd edək ki, bu kimi əsərlər sovet psixologiyasının təsiri ilə yazılırdı. Cəlil Məmmədquluzadə və Ordubadi əsərlərində çar Rusiyasını elə tənqid edirdi ki, sovet hökuməti bu ironiyanı təqdir kimi qəbul edirdi. Sonraki dövrlərin psixologiyası isə tamamilə fərqli idi.

Sonrakı dövrlərdə yaranan əsərlərdə də sovet dövrünə qarşı silahlanma hiss edilirdi. H. İbrahimovun *Böhtan* romanın əvvəlində Cavidin dilindən verilən: *"Lütsiferlər, Mefistofellər, Demonlar, Qanburunlar, İblislər nə qədər ki var bəni-adəm rahat olmayacaq… Bu gün Şərqdə abidlik edən, yarın Qərbdə rahiblik edir… Zəmanə yaman xarab olub."* (İbrahimov 1988: 200).

Bu əsər də sovet psixologiyası və sovet doğrularının yanlışa çevirildiyinə dair bir işartı idi.

Yaradıcılığının parlaq dövrü XX-ci əsrin əvvələrinə sirayət edən ədiblərin Rusiyaya münasibəti, sonraki dövrlərə nəzərən tamamilə fərqli idi. Hüseyn Razinin yaradıcılığının ilk dövrünü olan 1950-1960-cı illəri axtarışlarla keçsə də o da Sovet ənənəsinin tələb etdiyi kimi, dövrün əhval-ruhiyyəsini əks etdirən əsərlər yazmışdır. Onun yaradıcılığında əsasən sosializm realizmi və əmək adamlarına rəğbət hissi yeniş boyalarla əks olunub. *"Altmışıncı illərlərdə Hüseyn Razinin yaradıcılığı janr müxtəlifliyi ilə seçilmişdir. O şeir yaradıcılığna davam etmiş, iki povest qələmə almışdır, dramaturgiya sahəsində də məhsuldar işləmişdir"* (Vəzirova 1985: 28). *Səsləşən dağlar* kitabında toplanan şeirlərində hələ də ellinci illərin nəfəsi duyulur. 60-cı illərdən sonra H. Razi (*Həmişəbahar*, Azərnəşr 1974; *Canlı Tonqal* Azərnəşr, 1977; *Ayılmaram*, Yazıçı, 1981) kimi kitabları onun yaradıcılığı üşün yeni poetik inqilab idi. Razi burada sovet psixologiyasından uzaqlaşmış cəmiyyət hadisələrinə münasibət bildirmişdr. Ömrünün son illərində yazdığı *Gözün aydın* kitabında bir çox şeiri toplanmışdır.

Represiya və irtica illəri kimi səciyyələndirilən sovet dövründə yaşayıb yaratmış böyük sənətkarlarımız Azərbaycanın ağrılarını öz əsərlərində əks etdirmiş, bununla da nəsillərin qan yaddaşının düzgün formalaşmasına örnək olmuşlar. Totalitar rejimin hər cür açıq sözün qarşısına sipər çəkməyə, haqqı ədaləti azdırmağa çalışdığı dövrlərində də Məmməd Araz poeziyasının cəsarəti zamanın ehkamlarına qarşı dayanmışdır.

Dolğun ideya, dərin məzmunu və vətənpərvərlik ruhu ilə yanaşı, obrazlı ifadələrin yeniliyi və bədii səviyyəsi baxımından da bu şeirlər Məmməd Arazın növbəti və daha səviyyəli yaradıcılıq mərhələsinə qədəm qoymasından xəbər verir.

Nəticə olaraq qeyd edə bilərik ki, Sovet dövründə Naxçıvan ədəbi mühitində Qərb ədəbi ənənəsinin zəifləməsinin səbəbləri bunlardır:

1. Sovet hökümətinin yeritdiyi siyasət, repressiyalar,
2. Əyalət psixologiyası,
3. Qapalı sərhəd zonası,
4. Ümumi savadsızlıq.

Sovet dövründə Naxçıvan ədəbi mühitində Qərb ədəbi ənənəsinin zəifləməsinin nəticələri isə:

1. İdeoloji ədəbiyyat yaradıldı, bu ədəbiyyat bəşəri deyildi. Və müəyyən vaxt sonra yox olmağa məcbur idi.

2. Yaranan ədəbiyyatda səmimilik yox idi, sovet realizmi dünyaya lazım olmadığı üçün ədəbiyyatımızı qapalı bir yola sürüklədi.

3. Ədəbiyyatda çaşğınlıq yarandı, ənənəvilik və milli dərk yox oldu, Qərbə üz tuta bilməyən şair və yazıçılar Şərqə üz tutdular.

4. Rus ədəbiyyatı, rus ədəbi janrları ədəbiyyatımıza hopdu.

Qaynaqlar

1. Abbasbəyli, A. N.-Yusifzadə, S. Z.. *Beynəlxalq münasibətlər tarixi*. Bakı: BDU nəşriyyatı. 2009. 309 s.
2. Akimova, E. *Yeni təfəkkür və ədəbi tənqid*. Bakı: MBM. 2012. 280 s.
3. *Çağdaş Türk Edebiyatları-I*. T.C. Anadolu Üniversitesi Yayını. №2720. 2013. s. 245.
4. İbrahimov, H. M., *Böhtan*. Bakı: Şərq-Qərb. 1998. 286 s.
5. İsmayılov, N. H. *Razinin yaradıcılıq yolu*. Bakı: Elm, 2003. 248 s.
6. Vəzirova, F. *Ədəbi qeydlər və tədqiqlər*. Bakı: Yazıçı. 1985. 188 s.
7. Qarayev, Y. *Tarix: Yaxından və uzaqdan*. Bakı: 1996. 710 s.

8. http://shrem.io.ua/s425740/birinci_d252nya_m252harib601sind601n_sonra_t252rkiy601-az601rbaycan_m252nasib601tl601rind601_g601rginlik (10.05.2019).
9. https://az.wikipedia.org/wiki/Sovet_Sosialist_Respublikalar%C4%B1_%-C4%B0ttifaq%C4%B1 (10.05.2019).
10. http://fedai.az/index.php?newsid=4009 (10.05.2019).
11. https://kitabxana.net/?oper=readBook&id=285 (10.05.2019).
12. http://serqqapisi.az/index.php/ictimai-siaysi/16950-gars-mugavilaesi-vae-nakhch-van-n-statusu-maesaelaesi.

UMGÜLSÜM SADIQZADƏ VƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

*Xavər KƏRİMLİ**

Azərbaycanda Xalq Cümhuriyyətinin qurulması ictimai həyatda olduğu kimi ədəbi həyatda da böyük canlanma yaratdı. Bu dövr bir çox ədiblərimizin yaradıcılığının məhsuldar dövrü hesab edilir. 1918-1920-ci illərdə Məhəmməd Hadi, Hüseyn Cavid, Abdulla Şaiq, Cəfər Cabbarlı, Əhməd Cavad, Əli Yusif və başqaları poeziya sahəsində uğurlar qazandılar. Bu siyahıda olan sənətkarlardan biri də Umgülsüm Sadıqzadədir. 1899-cu ildə dünyaya gələn şairə Azərbaycanda müstəqil dövlət quran Məmmədəmin. Rəsulzadənin əmisi qızı, parlamentin üzvü olan Məmmədəli Rəsulzadənin bacısı, dönməz iradəsi, mərdliyi ilə əbədi həyat qazanan yazıçı Seyid Hüseynin həyat yoldaşı olmuşdur. *"O, Azərbaycanın istiqlalını tərənnüm edən, Cümhuriyyətin süqutundan sonra sovet rejiminə etiraz eləyən, nifrətini gizləməyən, 37-ci ildə repressiyaya uğrayan yeganə xanım şairimizdir. Ədəb-ərkanı, incə əl işləriylə xanımlığa, həyat yoldaşına sədaqətiylə qadınlığa, övladlarına olan sevgisiylə analığa şərəf gətirən, şeirləri, hekayə və məktublarındakı düşüncələri, misraları, sətirləriylə heyrət və qibtə doğuran bənzərsiz, təkrarsız bir söz adamıdır."*

İlk təhsilini evdə atası Əbdüləzizdən almış, türk, ərəb və fars dillərini öyrənmişdir. Şairə hələ uşaq ikən həyatın amasızlıqlarını, sərt üzünü görmüşdür. Onun bütün həyatı sanki qasırğalar içində keçmişdir. O, böyüdükcə, həyatı dərk etdikcə bu sərtliyi daha həssaslıqla duyurdu. Vətənin taleyi, xalqının ağır güzəranı onu daim düşündürür və narahat edirdi.

"Dərdli-dərdli sürükləndim, inlədim,
Acı-acı fəryadları dinlədim.
Gəldim iştə, dərdim sənə söylədim,
Ərzimizi dinləyən, soran nərədə?" (Gəncəli 1994: 2).

* Bakı Dövlət Universiteti, Şifahi Xalq Ədəbiyyatı kafedrasının doktorantı; khaver.karimli@gmail.com

Umgülsüm Sadıqzadə şeir yazmağa 9 yaşında başlamışdır. *İqbal, Yeni iqbal, Açıq söz, Qurtuluş, Diriliş, Məktəb, Qardaş köməyi, Azərbaycan* və s. qəzet və jurnallarında şeirləri, hekayələri dərc edilmişdir.

Ümgülsüm "Aman getmə", "Hicran gecəsi", "Könül", "Həsrət", "Doğma musiqi", "Maraq" və sair şeirlərində qadınların hüznlü taleyindən bəhs etmişdir. Bu şeirlərdə kədər üstünlük təşkil etsə də, burada işıqlı bir ümidə, azadlığa çağırış da vardır. Şairə özü də bunu hiss etdiyindən bəzən kədərli misralardan uzaqlaşıb nikbin ruhlu şeirlər də yazmağa çalışırdı.

Şairənin poeziyasında milli azadlıq mövzusu başlıca yer tutur. 1918-1920-ci illər Umgülsüm yaradıcılığının ən məhsuldar dövrüdür. O, Azərbaycan Xalq Cumhuriyyətinin qurulmasını sevinclə qarşılamış, şeirlərində xalqımızın milli istiqlala qovuşmasını tərənnüm etmişdir. Bütün başqa xalqlar kimi Azərbaycan xalqının da azad yaşamaq hüququnu müdafiə edən şairə milli istiqlalın qorunmasına çağırış ruhlu əsərlər yazmışdır. "Türk ordusuna", "Ey türk oğlu", "Çəkil, dəf ol", "Əsgər anasına", "Dərdli nəğmə", "Yurdumuzun qəhrəmanlığına", "Yollarını bəklədim" və s. kimi şeirləri məhz bu məzmundadır. Şairə xalqına çətin anda köməyə gələn Türk ordusunun arxa, dayaq olmasından qürur duyurdu. O, üzünü sanki "Ey Qafqaz İslam Ordusu" – deyə qan qardaşlarına tutub minnətdarlıq duyğusu ilə yazırdı:

"İştə gəldin, gözlərimin yaşlarını qurutdun,
Nəvazişin ovunmayan qərib ruhu oxşadı.
Heç ölçüyə sığınmayan dərdlərimi ovutdun,
Qara günüm hilalının işığıyla parladı" (Məmmədova 2014: 4).

Türkün bayrağını göylərin və yer üzünün ən gözəl bəzəyi bilən şair "Səs verəlim" şeirində öz dövrünün xanımlarına tarix boyu at belində, öz ərinin, xaqanının yanında, döyüş meydanında olduğu zamanları xatırladır. *"Türklük deyil, biz türklüyün özüyük", "Qazanalım, Fateh xanın qızıyıq"* – deyən şairin arzularını 1918-ci ildə doğmalarının fədakarlığı bahasına qurulan Cümhuriyyətin Parlamentində gerçəkləşdi.

"Dəyərlidir ehtiyacı millətin,
Yaradıcı bizik, istiqbalına
Yüksəldəlim bayrağını türklüyün,
Şan verəlim qafqazlılıq namına.
Türklük deyil, biz türklüyün özüyük,
Millətimiz bizim ilə canlanır.
Qazanalım, Fateh xanın qızıyıq,
Türklük adı fütuhatla şanlanır" (Bağırzadə 2018: 1).

1920-ci ildə Cümhuriyyətin dağılmasını kədərlə qarşılamış və "Bayrağım enərkən", "Hicran" kimi şeirlərində dərin hüznünü ifadə etmişdir.

Cümhuriyyətin sovet işğalıyla süquta uğradığı zaman Ümgülsümü ən çox ağrıdan, pərən-pərən salınan türk elləri ilə bağlı idi. Hələ 1917-ci ildə "Turan düdüyü" şeirindəki *"Sönmüşmüdür əcəb türkün ocağı, Anadolu nerdə, Turan nerədə?"* Bağırzadə, *İstiqlal şairi Umgülsüm*, 1) misralarıyla haray çəkən Ümgülsümün 1920-ci ildə yazdığı "Bayrağım enərkən" şeirindəki "Bağlandımı üzünə türk elinin qapısı?" sualı əslində sual deyil, bütün bu suallara ən doğru, dəqiq, kədərli bir cavab idi.

Başkişi Ahmet Celâl ile köy halkı arasında yaşanan çatışmalardan biri de yaşam tarzlarındaki farklılıklardır. Başkişinin, roman boyunca köy halkından "onlar" şeklinde bahsetmesi, aralarındaki mesafenin boyutunu göstermesi açısından önemlidir. "Onlar" denilerek "öteki" konumuna düşürülen köy halkı, insan yığınına dönüşmüş bir nesne-varlık çağrışımı yaratır. Gündelik yaşam tarzlarındaki farklılıkların neden olduğu bu bakış açısı/tanımlama, kişiler arası çatışmayı bir başka boyuta taşırken Ahmet Celâl, eleştirilerinde daha çok onların, kendince uygun olmayan yaşam tarzlarına vurgu yapar. Köy halkından uzaklaşırken "onlar"a benzemeyi de "onlar"la kavga etmeyi de istemez, ancak insanlardan uzak durmaya karar verir. Diğer insanlarla ortak şeyleri olmadığına, onların kendisini anlamadıklarına inanır ve kendisine ait bir dünya (kitaplardan, düşlerden oluşan bir dünya) kurar (Horney 1993: 35). Fakat nasıl ki; dişlerini fırçalaması, tıraş olması, saçlarını taraması, sürekli kitap okuması gibi en basit, en sade, en tabii hareketleri onlara, bir sirk ortasında, bir soytarının takla atışları, sıçrayışları, yuvarlanışları kadar tuhaf geliyorsa (s. 21); Ahmet Celâl'e de köy halkının temizlik algısı tuhaf gelir:

> *"Köylülük hayatımın bir türlü katlanamadığım ve hâlâ hallede-mediğim en zor tarafı temizlik sorunudur… Burada suyu bulmak için her gün tâ çaya kadar gitmek gerekiyor. Çayın suyu ise akar balçıktır. Gerçi köyün içinde su yok değildir. Fakat gerek kuyunun gerek çeşmenin başı her gün sabahtan akşama kadar doludur. Abdest alan ihtiyarlar, evlerine su taşıyan kadınlar, kızlar ve akla sığmayacak derecede pis oyunlarla oynayan çocuklar hep oradadır. Bazı, çaya kadar gitmekten üşenen kadınların da çamaşırlarını çeşmenin yalağında yıkadıkları olur. Hasat mevsimlerinden sonra haftalarca her nevi hububat aynı yalakta yıkanıp ayıklanır. Hatta çok kere, yenilecek şeylerin; çocuk bezleri, kirli don ve gömleklerle bir arada çalkalandığı da olur"* (s. 25).

Köy kadınlarını kirli ve pis bulan Ahmet Celâl, kadınlarda/kızlarda olması gerektiğini düşündüğü hiçbir cinsel etkileşimi de bulamaz. Bir gün kendisine hizmet eden köylü kadına: *"-Emeti Kadın, sen hiç yüzünü yıkamaz mısın?"* (s. 112) diye sorduğunda Emeti Kadın, "*-Ay oğul, hiç vaktim olmuyor ki…*" (s. 112) der. Ahmet Celâl, köy halkının her eylem ve eylemsizliğini saçma derecesinde anlamsız bulduğu gibi bu cevabı da anlamsız bulur. Ahmet Celâl'in bir başka merak konusu da köy kadınlarının/kızlarının, kendisini görünce yüz çevirmeleri, uzak durmaya çalışmaları ya da kaçmalarıdır.

Bu durumun nedenini Mehmet Ali'ye sorduğunda, romanın ana matrisini teşkil eden; *"Yabancısınız da ondan, beyim.*" (s. 35) cevabını alır. Bu cevap, kahramanda dışlama/dışlanmışlık psikolojisi yaratırken aynı zamanda onun, Anadolu kadınının yabancılara karşı geleneksel bakış açısını bilmediğinin de bir göstergesi olur. Böylece, *Paşa oğlu olmak*'lıktan "yaban/cı"lığa düşmüş/dönüşmüş olmanın üzüntüsü ile bir kez daha yalnızlığa itilir.

Bir aydın olarak Ahmet Celâl'in*, "bir çanak suda bir damla zeytinyağı gibiyim. Ne karışıyorum, ne de dibe çökebiliyorum."* (s. 67) söylemindeki uyumsuzluk göstergeleri, roman boyunca tutum ve davranışlarına da yansır. Halka uyum sağlayamadığı gibi "yaban" olduğunu da kabullen(e)mez. Yaban olmadığını; dini, tarihi ve coğrafi birlikteliklerdeki değerlerin iz düşümünde şekillenen millet bilinci ile kanıtlamaya çalışırken sorumluluklarının yarattığı bunalımlarını da dile getirmiş olur:

> *"Bir gün… bir gün, onlara, ispat edebilecek miyim ki, ben bir "yaban" değilim? Benim damarlarımdaki kan onların damarlarında işleyen kandır. Aynı dili söylemekteyiz. Aynı tarihî ve coğrafi yollardan hep birlikte gelmişizdir. İspat edebilecek miyim ki, aynı Allah'ın kuluyuz! Aynı siyasi mukadderat, aynı sosyal bağlar, bizi kardeşlik, evlatlık, analık, babalık üstünde bir yakınlıkla birbirimize bağlamıştır"* (ss. 35-36).

İnsanın başka insanlar karşısındaki yabancılığı ve bu yabancılıktan doğan bunaltı (Gündoğan 1997: 67) başkişinin, varoluşsal *"seçimlerindeki sorumluluğunu üstlenmesinden"* (Sartre 2013: 687) kaynaklanır. Millet olmak bilincini dile getiren Ahmet Celâl, kendini vareden değerler dizgesi ile toplumsal değerler arasında zihinsel bir köprü kurmasına rağmen; onlar gibi düşünemediğini ve onlar gibi hissedemediğini (s. 68) söylemesi, taraflar arası kültür farkından doğan çatışmaların bir ürünü olarak görülmelidir.

Ahmet Celâl, yaban/cılığını çaresizce kabullenmiş bir biçimde; *"Ben, asıl ben, bu toprağın malı olmayan ve hepsi dışarıdan gelen maddeler ve unsurlarla yoğrula yoğrula adeta sınaî, adeta kimyevî bir şey hâlini almış."* (ss. 68-69) şeklinde tanımlamasına rağmen, köy halkını da; yarınsız, umutsuz, karamsar, bitkin ve bezgin görüntüsü ile vatan, namus ve can güvenliğine karşı ilgisiz olarak tanımlar. Toplumsal değerlerin iz düşümünde şekillenen kimliğini tekrar konumlandırmak/inşa etmek için çabaladıkça başarısız olur. Bunalımlı anlarında kırlara çıktığı günlerin birinde yerde, üzeri İngilizce yazılı Amerika'dan gelmiş bir kutu ile karşılaşır. Bulunduğu yere, kendisi gibi yaban/cı olan bu kutu ile kendisi arasında; *"Bu kutuyu buraya hangi yolcular bıraktı? Kimbilir ne zamandan beri kaldı, bilmiyorum. Fakat tuhaf bir ilgiyle eğildim, baktım adeta eski bir aşinayı görür gibi oldum. Ben bu topraklarda, işte bu teneke kutunun eşiyim."* (s. 69) diyerek bağ kurar. Ben'inden soyutlanarak kendine dışardan baktığı anlarda çevreye/başkalarına yabancılığını

duyumsayan Ahmet Celâl, yerdeki kutu ile kendisini özdeşleştirirken *eski bir aşinayı görür gibi ol(ması),* anlamsız bir yaşamın nesnevarlık'ına döndüğü içindir. Zira Amerika'dan gelmiş, üzerinde İngilizce yazılar bulunan kutunun anlaşılmazlığı ile kendisinin bu köydeki anlaşılmazlığı aynıdır. Toplumsal iletişimsizliğin bireysele evrildiği bu benzeşimde, varoluşçu felsefedeki dünyaya atılmış, bırakılmış, fırlatılmış insanın durumunu hatırlatan Ahmet Celâl, kendi varlığını da; düşmüş, atılmış, dışlanmış, işe yaramaz bulur. Nitekim *Celâl Paşa'nın oğlu Ahmet,* statüsü/sosyal kimliği ile geldiği bu mekânın öznesi olamaması da, ontolojik anlamda *düşüş* yaşadığının simgesel bir göstergesidir.

Dönemin Türk aydını ile Anadolu insanı arasındaki ilişkisizliğin yarattığı çatışma unsurlarından biri de millî bilinç/sizlik bağlamında kişilerin eylem/sizlikleridir. Aslında, *"Vatan delisi, millet divanesi"* (s. 110) olan Ahmet Celâl'in, köylüler arasında böylesine yapayalnız kalmasının nedeni onlarla paylaşamadığı Kurtuluş Savaşı idealidir (Moran 2011: 205). Ahmet Celâl, köye, vatansever bir gazi olarak geldikten sonra geride bıraktığı savaşın fiziksel ve ruhsal etkilerini sürekli hisseder. Tekrar cepheye gitmek arzusu ile yaşar, fakat bunu gerçekleştiremediği için tek umudu, cepheden gelecek olumlu haberlerdir. Savaş deneyimlerine, gazetelerden aldığı bilgilere, köye gelen Türk askerlerine vs. dayanarak ülkenin durumu ile ilgili birtakım öngörülerde bulunur. Ahmet Celâl'deki bu merak, savaşlardan hatta askerlikten bıkmış olan yerleşik halkı tedirgin eder. Mustafa Kemal'in kurtarıcı lider olarak izaha çalışılması da köylünün pek hoşuna gitmez, bilakis başkişiye güvensizlik artar. Ahmet Celâl'in ülkenin durumu ve kurtuluşu ile ilgili bütün izah ve uyarıları, köy halkı için tehlikeli bulunur. Onların korkusu, alışılmış yaşam koşullarının değiştirilmesidir. Köy halkının mutlak gerçeklik olarak önceliediği ritüellerin peşinden gitmeleri ve bu bağlamda çoğu zaman Ahmet Celâl'i yok saymalarına kadar varan alışkanlıkları, içerideki ve dışarıdaki Atatürk karşıtlarına inanmalarına neden olur. Ahmet Celâl'den ziyade Şeyh Yusuf ve halife adına kurtarıcı rolü üstlendiklerini söyleyen işgalci güçlere inanmalarının nedeni de bu yüzdendir. Türk aydınının tanımadığı ve anlayamadığı Anadolu köylüsünün psikolojisini daha iyi bilen düşman (Hayber 1993: 219), varolanı/geleneksel olanı sürdürme vaadi ile daha inandırıcı gelir. Bu açıdan halk, yaban saydıkları/gördükleri kişinin, alışkanlık hâline dönüştürdükleri gündelik yaşamlarını değiştirme yoluna gittiğini düşündükleri için onun değişim isteğini tehdit olarak algılar. Millî bir bilinç ile çağrı ve uyanış amacı taşıyan Ahmet Celâl, köylünün yerleşik bakış açısını bir türlü kıramaz. Uçaklardan atılan afişlerdeki ve Şeyh Yusuf'un dini referans alan sömürü söylemleri arasındaki benzerlik, halkı işgal güçlerinin tarafında tutmaya yeter. Fakat Ahmet Celâl'in temsil ettiği Türk aydını, bu tarz sömürü söylemlerinden uzak olduğu için halk arasında pek de inandırıcı bulunmaz, bilakis onun söylemleri de kendisi gibi "yaban" karşılanır.

Yazar, kahramanını buhranlar yumağı olmaktan kurtarmak için onu, köylü kızı Emine'ye aşık eder. Yazık ki aydın, halka yakınlaşmak için bulunduğu diğer teşebbüslerde olduğu gibi bunda da başarılı olamaz. Romanın sonunda düşman askerleri bütün kötülükleri ile köyü işgal ettiğinde Ahmet Celal, sevdiği kız Emine ile kaçmak isterken Emine yaralanır. Gösteriyor ki, bütün milletin başına gelen bir facia bile Türk aydınını, halkıyla birleştirmeğe yetmemiştir (Balcı 2002: 208). Zira Ahmet Celal'in, yalnız geldiği köyden sevdiği kız Emine'yi de geride bırakarak yine yalnız bir şekilde gitmesi/kaçması, halk ile birleşememenin bir göstergesi olur.

Sonuç

Her insanın kendine özgülüğü dikkate alındığında, olay ve durumlara aynı açıdan bakmanın mümkün olmadığı aşikârdır. Bu açıdan, sınırlı bakış açısına sahip köy halkı için Ahmet Celâl, öteledikçe, ötelenen; soyutladıkça, soyutlanan bir insan/yaban görünümündedir. Romanda etki-tepki boyutunda gelişen olaylar dizgesi, kişiler dünyasına sinen kaos ortamının düzene dönüşmesine engel olurken ana izleği teşkil eden yaban/cı/laşma, olay örgüsüne ait unsurlara, millî bilinç ve kimlik inşası bağlamında tevarüs eder.

İdeallerin çatışmasına dönüşen romanda başkişi Ahmet Celâl, millî bilince sahip bir Türk aydını şeklinde görüngülenir. Köy halkı ise, bilinçsizlikleri/cahillikleri ve unutulmuşlukları ile tanıtılır. Tek ideali vatanın kurtuluşu olan Ahmet Celâl ile tek ideali geçim sıkıntısı olan köy halkı arasındaki çatışma, romanın ana etimonunu teşkil eder. Dönemin/savaş yıllarının yorgunu olan köy/köylüler, geçim sıkıntısının vermiş olduğu kaygılarla içe dönük, varolan ile yetinen, kabuğunu kıramayan teslimiyetçi kişiliklerdir. Anadolu gerçeğini fark edemediği için insanını da tek taraflı bakış açısına indirgeyen başkişi Ahmet Celâl ise, hem kendine hem de başkalarına yabancı görüntüsü ile ön plana çıkar. Yazar, gerek başkişinin gerekse köy halkının alışkanlıklarını bir yaşam biçimi olarak gösterirken aslında, eylem ve eylemsizlikleri ile farklı dünyaların insanları olan bu kişileri, dışarıya kapalı varlık görünümünde sunması ile dikkat çeker.

Kaynaklar

Balcı, Yunus (2002). *Türk Romanında Aydın Problemi (1908-1950).* Ankara: Kültür Bakanlığı Yayınları.

Çüçen, A. Kadir (1997). *Heidegger'de Varlık ve Zaman.* Bursa: Asa Yayınları.

Foulquie, Paul (1998). *Varoluşçunun Varoluşu.* Çev.: Yakup Şahan. İstanbul: Toplumsal Dönüşüm Yayınları.

Gündoğan, Ali Osman (1997). *Albert Camus ve Başkaldırma Felsefesi.* İstanbul: Birey Yayınları.

Hayber, Abdülkadir (1993). *Halide Edip, Yakup Kadri ve Reşat Nuri'nin Romanlarında Nesil Çatışmaları.* İstanbul: MEB Yayınları.

Horney, Karen (1993). *Ruhsal Çatışmalarımız.* Çev.: Selçuk Budak. Ankara: Öteki Yayınları.

Kaplan, Mehmet (1992). *Büyük Türkiye Rüyası.* İstanbul: Dergâh Yayınları.

Karaosmanoğlu, Yakup Kadri (2008). *Yaban*. İstanbul: İletişim Yayınları.

Korkmaz, Ramazan (2015). "Romanda Dramatik Aksiyonu Sağlayan Değerlerin Görüntü Seviyeleri Üzerine Bazı Öneriler". *Yazınsal Okumalar.* İstanbul: Kesit Yayınları.

Laing, R. D. (1993). *Bölünmüş Benlik.* Çev.: Selçuk Çelik. İstanbul: Kabalcı Yayınları.

Moran, Berna (2011). *Türk Romanına Eleştirel Bir Bakış 1 Ahmet Mithat'tan A.H. Tanpınara'a.* İstanbul: İletişim Yayınları.

Sartre, Jean Paul (2013). *Varlık ve Hiçlik.* Çev.: Turhan Ilgaz - Gaye Çankaya Eksen. İstanbul: İthaki Yayınları.

Tolan, Barlas (2005). *Sosyoloji.* Ankara: Gazi Kitabevi Yayınları.

TÜRK DÜNYASININ BÖYÜK MÜTƏFƏKKİRİ VƏ İDEOLOQU ƏHMƏD BƏY AĞAOĞLU

*Şəhla MƏCİDOVA**

XX-ci əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr ölkənin ədəbi mühitinə çox böyük təsir göstərərək bu dövrün ədəbiyyatına mühüm yenilik gətirir. Belə bir tarixi mürəkkəb vaxtda – ziddiyyətlərlə dolu inqilabi şəraitdə ədəbiyyatımız həm sənətkarlıq həm də mövzu baxımından əvvəlki dövrün ədəbiyyatından kəskin surətdə fərqlənir və azadlıq, istiqlaliyyət uğrunda mubarizələri, başlanmış hərəkatı dəstəkləyən, demokratik ideyaları yayan ədəbiyyat formalaşır və bu mücadilədə qüvvətli bir silaha çevrilir. Bu mücadiləyə qoşulan yazıçıların yaradıcılığını dövrün ideologiyasını əks etdirən manifest də adlandırmaq olar.

Azərbaycan xalqının yetirdiyi bir çox ziyalılar vardır ki, onlar öz düşüncə və ideyalarına görə zamanı çox-çox qabaqlamış böyük şəxsiyyətlərdir. C. Məmmədquluzadə, Ə. Hüseynzadə, H. Cavid, F. Köçərli, M. Ə. Sabir, M. Hadi, Ə. Haqverdiyev və digər ədiblərimizin hər birinin yaradıcılığı ədəbiyyat tariximizdə bir ədəbi hadisəyə çevrildi. Bu dövrdə həm də türkçülük ideyalarının təbliği də geniş vüsət almışdı. Bu ideologiyanın ilk təşəbbüskarlarından biri, bəlkə də birincisi türk ideoloqu və mütəfəkkiri Əhməd bəy Ağaoğlu olmuşdur. "Əhməd bəy Ağayev Azərbaycan türklərində milliyyətçilik və türkçülük şüurunun oyanmasında və güclənməsində çox mühüm rol oynamışdır" (*Azərb. Xalq Cum. Ensik.* 2004: 104).

Çox təəssüf ki, sovet dövründə burjua millətçisi adlandırılan Əhməd bəyin fikirlərini nəinki yaymağa, hətta adının belə çəkilməsinə yol verilməmişdir. *"...Yeganə məqsədləri müxtəlif ölkələrdə yeni baş qaldıran gənc türk burjuaziyasına xidmət etməkdən ibarət olan Əlibəy Hüseynzadə, Əhmədbəy Ağayev, Sənətulla Eynullayev kimi panislamist publisistlər isə müdafiə etdikləri burjuaziyanın mənafeyinə uyğun olaraq gündə bir siyasi dona girib gah çarizmin devrilməsini və İran inqilabını tərifləyir, gah inqilabi hərəkata qarşı çıxıb Romanovlar xanədanına xeyir-dua oxuyurdular"* (765).

* Filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan dili və ədəbiyyatı müəllimi, Şirvan şəhər 16 №-li tam orta məktəb; *shahla.majidova@mail.ru*

Böyük mütəfəkkirləri, dövrünün ən tərəqqipərvər ziyalılarını *"xırda burjuaziyanın publisistləri"* adlandırmaq nə qədər ədalətsiz və qaraguruh bir ittihamdır, bu, aydın görünür. Bunun digər səbəbi isə, qanlı imperiyanın belə tərəqqipərvər ziyalısını gözdən salmaqla, millətin də azadlığını, demokratiyasını boğmaq amacı daşıdığını da söyləmək artıqdır. Vaxtilə belə qərəzli mövqeyə məruz qalmış Əhməd bəyin məfkurəsinin bu gün üçün çox doğma və vətənpərvər səsləndiyini deməyə ehtiyac yoxdur, söylədiyi fikirlərdə və müddəalarda nə qədər haqlı olduğunu Əlahəzrət Zaman göstərdi və həqiqət öz yerini tapdı. Bu böyük mütəfəkkir haqqında tədqiqat aparmış Ə. Mirəhmədov haqlı olaraq qeyd edir ki, *"bəzən bilik, mərifət və istedadca, xalqa xidmətinin ölçüsünə görə böyk mütəfəkkir-ədibdən çox aşağı pillədə duranlar belə onun qarasına olmazın ittihamlar yağdırırdılar"* (Mirəhmədov 2014: 5).

Əhməd bəy Ağaoğlu XIX əsrin sonlarından 1909-cu ilədək Azərbaycanda, sonra isə Türkiyədə siyasi və fikir həyatına davam edən böyük şəxsiyyətdir. O, Şuşada məhəllə məktəbində biliklərə yiyələnmiş, anasının təşəbbüsü ilə həm də rus dilini öyrənmişdir. Yenə anasının təkidi ilə Şuşadakı rus orta məktəbinə, sonra isə real məktəbə (təbiət fənləri təmayüllü məktəbə) göndərilir. Xatirələrində Əhməd bəy yazır ki, bu məktəblər şəhərin erməni məhəllələsində yerləşirdi. 45 şagirddən yalnız beşi müsəlman uşağı idi. Erməni şagirdlərin bu azlığa qarşı münasibəti çox aqressiv olmuş, müsəlmanları daim incitmişlər. Bu mühitə dözməyən şagirdlərin dördü məktəbi tərk etmiş, yalnız Əhməd təhsilini uğurla başa vura bilmişdir. Məktəb illərində gördüyü bu hadisələr bütün həyatı boyu onu izləmiş, onda haqsızlığa etiraz doğurmuşdur.

Ərəb və fars dillərini mükəmməl bildiyi üçün Əhməd bəy Ağaoğlu islamın mahiyyətini daha aydın və mütərəqqi baxışlarla insanlara çatdırmağa çalışmış, onun intibah və tənəzzül dövrlərini təhlil etmişdir. Bu zaman islam tarixində türklərin rolunu da olduğu kimi vermişdir. Bu baxımdan onun 1903-cü ildə *Kaspi* qəzetində çar etdiirdiyi *"Müsəlman xalqlarının vəziyyəti*" adlı əsəri diqqətəlayiqdir.

Məqalə on iki əsrlik (VIII-XIX) islam tarixində mühüm rol oynamış üç xalqdan - ərəb, fars və türkdən bəhs edilmiş, ancaq türklərin islamın yayılmasındakı rolu xüsusi vurğulanmışdır. O, geniş və müfəssəl şəkildə islamın intibahını və tənəzzülünün səbəbini araşdırmış, islamda islahatlar aparmaqla müsəlman xalqlarının, xüsusən də türklərin müasir dövrdə də tənəzzüldən qurtarıb tərəqqi və yüksəliş yollarını göstərmişdir.

Əvvəla, qeyd olunmalıdır ki, müəllif məqalədə müsəlman xalqları dedikdə heç də dünyanın islamı qəbul etmiş bütün xalqlarını yox, əsasən bu xalqları - ərəb, fars və türkləri nəzərdə tutur və onların islamın yayılması üçün onların keçdiyi yolu işıqlandırır.

"Doqquz əsr davam edən birinci mərhələdə üç xalq - ərəblər, farslar və türk-tatarlar növbə ilə islamın istinadgahı olmuşlar. Birincilər islamın meydanna gəlməsindən VIII əsrin yarısına kimi, ikincilər VIII əsrdən XII əsrə kimi, üçüncülər isə XII əsrdən indiyə qədər" (Ağaoğlu 2007: 328).

Ədib islamın zühurundan XVII əsrə qədər olan tarixin qısa xronologiyasını verərkən türklərin islamın qalmasında və dünyaya yayılmasında əhəmiyyətli rol oynadıqlarını önə çəkir:

"Belə ki, tərəfsiz tarixçi son nəticəni çıxararkən və XIII əsrin islamı ilə ərəblərin Əməvilər dövrü, yaxud farsların Abbasilər dövrü islamı arasında müqayisə apararkən etiraf etməlidir ki, türk-tatarlar aldıqları mirası nəinki qoruyub saxlamış, hətta onu xeyli artırmış və zənginləşdirmişdilər. Tam əminliklə demək mümkündür ki, əgər türk-tatarlar olmasaydı, hazırkı islam da mövcudluğunu qoruya bilməzdi. Indi o, tam şəkildə çökməyə, unudulmağa doğru gedən təlimlərdən birinə çevrilmiş olardı" (Ağaoğlu 2007: 328).

Ədib bu iddialarını irəli sürəndə türk-islam tarixinin şanlı səhifələrini də vərəqləyir. Böyük Səlcuq İmperiyasından (1038-1157) başlayaraq türklərin islam düşmənləri ilə mücadiləsindəki qələbələrini göstərir. Burada isə islamın böyük düşməni kimi Avropanı deyir:

"Əgər islam səlib yürüşlərinin qarşısında duruş gətirmişdirsə, əgər o, qüvvətli dini təbliğatlara müşayiət olunan sürətli müstəmləkə fütuhatı dövründə birdəfəlik yoxa çıxmamışdırsa, bunlar yenə də məhz türk-tatarların sayəsində mümkün olmuşdur. Bu irqin bir ovuc nümayəndəsi – Səlcuqlar əsrlərlə birləşmiş Avropanın qarşısında sinə gərib dayanmışdır" (Ağaoğlu 2007: 328).

Qüdsi səlibçilərdən azad etdiyi üçün müsəlman mədəniyyətinin qəhrəmanı hesab olunan Səlahəddin Əyyubinin, daha sonrakı dövrlərdə Osmanlı dövlətinin (1280-1923) də bu tarixdə əhəmiyyətli yer tutduğunu söyləyir:

"Aslan ürəkli Riçardın dostu və düşməni sifətində Qərbdə və Şərqdə əfsanəvi ad qazanan Saladin (Səlahəddin Əyyubi - M. Ş.) kimi Səlib yürüşlərinin qarşısına sipər çəkənlər də yenə həmin Səlcuqlardan idilər. Daha sonra onları türk-tatar xalqının başqa bir qolu - Osmanlılar əvəz etdilərsə, saylarının azlığına baxmayaraq, tezliklə möhkəmliklərini və nələrə qadir olduqlarını göstərdilər" (Ağaoğlu 2007: 328-329).

Əhməd bəy bu məqaləsində türkü bir millət kimi təqdim etməsi də çox maraqlıdır. O, türkü seçilmiş keyfiyyətlərə malik xalq kimi ən yüksək mənəvi və fiziki dəyərlərin sahibi olduğunu yazır və bu qənaətini digər xalqların da təsdiqlədiyiini vurğulayır:

"Bu xalqın hər yerdə gördüyümüz və hər kəs tərəfindən təsdiq edilən nadir mənəvi və fiziki keyfiyyətləri belə bir ehtimal üçüün əsas verir. Nadir mənəvi keyfiyyətlər - doğruluq, namusluluq, sadəlik, mülayimlk, mərdlik, cəsurluq onların vücudlarının nadir keyfiyyətləri - möhkəmliyi, dözümlülüyü, irq təmizliyi və gözəlliyi ilə bağlıdır" (Ağaoğlu 2007: 329).

Məqalədə Əhməd bəy islamın son əsrlərdəki tənəzzülünün səbəbi kimi savadsızlığı və islamı daxildən parçalayan mənasız söhbətlrin olduğunu bildirir. O, qeyd edir ki, əgər bu səbəblər aradan qalxmasa, insanlar elm və tərəqqiyə üstünlük verməsələr, bu lazımsız təlimlər, təriqətlər islamın məhvinə gətirib cıxarar:

"Bu qitə (Asiya - M. Ş.) özü-özlüyündə zehni fəaliyyət üçün o qədər də geniş bir sahə deyildir. Lakin elmi hazırlıqların azlığına, habelə bu cür məşğuliyyətə təkan verəcək amillərin cüziliyinə baxmayaraq, türk-tatarlar tarix səhnəsində göründükləri ilk zamanlardan intellektual sahəyə maraq göstərmişlər. Çingiz xanın nəvəsi Hülakü xan hələ bütpərəstlikdə qalmasına baxmayaraq, özünü müsəlman alimlərlə əhatə etmişdi" (Ağaoğlu 2007: 329).

Maraqlı əsərlərindən biri də *Kaspi* qəzetində dərc olunmuş "Sözlər, sözlər" adlı məqaləsidir. Məqalənin yazılmasına səbəb *Kaspi* qəzetində dərc olunmuş "Müsəlmanların dostu" adlı kiçik bir yazıdır. Məqalədən görünür ki, Əhməd bəyin həmvətənləri haqqında bədbin notlar üzərində qurulmuş bir yazısı dərc olunub və bu yazı özünü "müsəlmanların dostu" kimi qələmə verən birinin xoşuna gəlməyib. O, Əhməd bəyi öz millətinə qiymət verməməkdə günahlandırır və keçmişi ilə qürur duyduğunu dəfələrlə vurğulayır. Yenə də əməli iş əvəzinə sözlərlə müsəlmanları göylərə qaldıran bu "dost"a Əhməd bəy layiqincə cavab verərək əməli işin vaxtının çoxdan çatdığını söyləyir:

"Bəli, sözlər, sözlər! Biz müsəlmanlar sözdə hamını geridə qoyarıq, dildə bizim tayımız-bərabərimiz yoxdur. Biz gəlişigözəl sözlər danışmağı, əla sağlıqlar deməyi, özümüzü maarifin, mədəniyyətin əsl tərəfdarı kimi qələmə verməyi bacarırıq, amma bu sözləri əməli işdə sübuta yetirmək lazım gələndə biz çətin və mürəkkəb bir məsələ qarşısında özünü itirərək çaşıb qalmış balaca uşaqlara oxşayırıq" (*Azərb. Publis. Antologiyası* 2007: 302).

Cəhalətin kölgəsindən çıxmaq istəməyən "dost"a Əhməd bəy işığı – biliyi axtardığını söyləyir, onu tapmaq üçün boş-boş danışıqlardan qurtulub elmə yiyələnməyi, başqa millətlər kimi tərəqqi etməyi məsləhət bilir:

"Bəs hanı o işıq? Haradadır o? Mən onu ciddi-cəhdlə, ürəkağrısı ilə axtarıram, amma, təəssüf ki, heç yerdə tapa bilmirəm. əgər siz

onun harada gizləndiyini bilirsinizsə, mənə də deyin" (*Azərb. Publis. Antologiyası* 2007; 303).

Məqalədə Əhməd bəy doğru olaraq keçmişdənsə gələcəyə ümidlə baxmaq, qurub-yaratmaq əzmi ilə yaşamağı çıxış yolu bilir, kimisə ittiham etməzdən əvvəl özünün bir məqsəd, bir əməl sahibi olmasını vacib sayır:

"Lakin siz bunu istədiyiniz, buna can atdığınız halda öz gücsüzlüyünüzü hiss edirsinizsə, öz səylərinizin səmərəsiz olduğunu başa düşürsünüzsə, onda istəristəməz bədbinliyə, məyusluğa və ümidsizliyə qapılırsınız" (*Azərb. Publis. Antologiyası* 2007: 305).

Əhməd bəy Ağaoğlunun zəngin dünyagörüşü, bədii-fəlsəfi yaradıcılığı ilə bərabər Azərbaycan və Türkiyənin ictimai-siyasi tarixində də xüsusi yeri olan bir dövlət xadimidir. Hər zaman böyük türkoloq türklərin dünya miqyasında özlərini tanıtmağın yeganə yolunu elm və təhsildə görmüş, bunun üçün onları bütün diqqəti xalqın maariflənməsinə cəlb etməyə çağırmışdır. O, həmçinin ədəbiyyat tariximizdə də öz yeri olan bədii-fəlsəfi söz ustasıdır. Hətta tənqid atəşinə tutduqda belə yaşadıqları cəmiyyətin, ölkənin vətəndaşı üçün narahatlığı aydın görünən, tələtümlər içində boğulan göz yaşlarını gizlədə bilməyən ədib əsərlərini bu məqsədlə yazıb-yaratmışdır. Hər oxunanda Əhməd bəy Ağaoğlunun vətənə, millətə olan sevgi və həyəcanları bir daha duyulur. Bu böyük ədibin türkçülük ideyaları, vətənpərvərlik motivləri bu gün də öz əhəmiyyətini saxlayır. O, böyük millət olan türk adını daşıyan gənclərimizi elm, mərifət əldə edərək vətənə xidmət etməyə və daim bu amalla yaşamağa səsləyir.

Qaynaqlar

Ağaoğlu, Əhməd bəy (2007). *Seçilmiş əsərləri*. Bakı: Şərq-Qərb. 392 s.

Azərbaycan ədəbiyyatı tarixi (3 cilddə). II cild. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı. 1960. 906 s.

Azərbaycan Xalq Cumhuriiyyəti Ensiklopediyası (iki cilddə) (2004). I cild. Bakı: Lider nəşriyyat. 440 s.

Azərbaycan publisistikası antologiyası (2007). Bakı: Şərq-Qərb. 688 s.

Mirəhmədov, *Ə. Əhməd bəy Ağaoğlu* (2014). Bakı: Ərgünəş. 264 s.

Ağaoğlu, S. *Atamın dostları* (2016). Bakı: Azərbaycan Tərcümə Mərkəzi. 376 s.

AZƏRBAYCAN ƏDƏBİYYATINDA VƏ ƏDƏBİ TƏNQİDİNDƏ ATATÜRK

*Tahirə MƏMMƏD**

Giriş

Bədii ədəbiyyatın social-estetik funksiyalarının kompleks şəkildə icrasında tarix və tarixi şəxsiyyətlərin yaradıcılığa gətirilməsi əhəmiyyətli rol oynayır. Ədəbiyyat və şəxsiyyətin tarixdəki rolu arasında hətta müəyyən uyğunluqlar da mövcuddur. Həm ədəbiyyat həm də lider kimi fərqlənən şəxsiyyət fərdlərin və toplumun formalaşmasında bəlli bir təsir gücünə malikdir. Ədəbiyyat tarixi şəxsiyyətlərin həyat və fəaliyyətindən faydalanır, qarşılıqlı formada tarixi şəxsiyyətlər, xüsusən dövlət xadimləri kütləyə təsir vasitəsi kimi ədəbiyyatdan geniş şəkildə istifadə edirlər; liderlər mədəniyyətin, o cümlədən ədəbiyyatın inkişafı qeydinə qalırlar.

Balkan Savaşları və Birinci Dünya Müharibəsinin acı nəticələrinə görə yox olma təhlükəsi ilə üzüzə qalan türk dövlətinin xilaskarı və qurucusu Mustafa Kamal Atatürk dahi şəxsiyyət, milli lider kimi incəsənətin, o cümlədən ədəbiyyatın qəhrəmanlarından birinə çevrilmiş, özü də ədəbiyyata, onun təsir imkanlarına yüksək qiymət vermişdir, inkişafı qayğısına qalmışdır.

Atatürkün işıqlı obrazı millətini sevən hər bir azərbaycanlının ürəyində yer qazanmaqla bərabər, ədəbiyyatımızın da maraq dairəsindən kənarda qalmamışdır. Onun obrazına münasibəti təkcə sevgi yox, həm də dəyişən ideologiyalar formalaşdırmışdır. Buna görə də Azərbaycan ədəbiyyatında Atatürkə münasibət müəyyən mərhələlərdən keçmişdir.

ADR ərəfəsi və illərində, sovet hakimiyyətinin ilk onilliklərində Atatürkə münasibətin ədəbi-estetik ifadəsi

Atatürkün bir qəhrəman kimi əbiyyatda obrazlaşması haqda araşdırmalarda ilk nəzm əsərinin M. E. Yurdakula (“Ordunun dastanı” mənzuməsi), nəsrin Üryanizadə Ali Vahidə (“Çanaqqala cəbhəsində duyub düşündüklərim”) aid

* F.E.D., Professor, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstititutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsinin müdiri; *tahire.mammed@yahoo.com*

olduğu bildirilir. Əldə olan ilk dram əsəri mətni kimi Münir Hayrı Egelinin yazdığı *Bay Öndər* (1932) əsəri göstərilir. Lakin Azərbaycan ədəbiyyatında Hüseyn Cavidin və Cəfər Cabbarlının dramlarında prototipi Atatürk olan obrazların mövcudluğu haqda mülahizələrin irəli sürülməsinə də əsaslar var. Hətta Cəfər Cabbarlının *Ədirnə fəthi* əsərindəki Mustafa obrazı öz çıxışları və nitqləri ilə Atatürkə çox yaxındır. Tarixi şəxsiyyət kimi hələ tam formalaşmamış, lakin İkinci Balkan savaşlarında, Çanaqqala döyüşlərində şöhrət qazanmış Mustafa Kamal artıq yavaş-yavaş həm də bədii qəhrəmana çevrilməkdə idi. O döyüşlər xalqın özünəgüvən və qüruru hissini yenidən qaytardığı üçün qəhrəmanlar sevilir və təbliğ olunurdu. Osmanlı torpağında baş verənlərin əks-sədası çarizm müstəmləkəçiliyində yaşayan türk xalqlarının da ümidlərini alovlandırır və qəhrəmanların, türk ordusunun qələbəsi onları da qürurlandırırdı. Bədiiləşdirmə kontekstində olsa da, Azərbaycan dramaturgiyasında, xüsusən də C. Cabbarlının adı çəkilən əsərində Atatürkə müraciət haqda mülahizələri mətndən çıxış edərək əsaslandırmaq olar. Bu halda, Atatürk obrazının dram əsərində yaradılmasında ilkinlik Münir Hayrı Egelinin əsərindən daha önə keçir. C. Cabbarlının 1917ci ildə yazılan bu əsəri Osmanlı dövlətinin Ədirnə uğrunda savaşına həsr olunmuşdur. Birinci Balkan savaşlarında Ədirnəni itirən Osmanlı dövləti İkinci Balkan savaşlarında Ədirnəni geri alır. Ənvər paşanın komandanlığı ilə gedən bu döyüşlər və qələbə təkcə Osmanlı dövlətində yox, bütün türk xalqları arasında yüksək əhval-ruhiyyə, milli mübarizəyə inam yaradır. Mustafa Kamal Paşanın da qəhrəmanlığı əsas İkinci Balkan savaşlarından sonra öz təsdiqini tapır. Birinci Balkan savaşlarında iştirak etməyən Mustafa Kamal Paşa İkinci Balkan savaşlarına Bolayır Kolordusu Kurmay başkanlığı vəzifəsinə gətirildi və itirilən bir sıra torpaqların geri alınmasında əsas rol oynadı. (https://www.dersimiz.com/ataturk/ataturkun-katildigi-savasla...) [Erişim: 20 iyun 2019] C. Cabbarlının *Ədirnə fəthi* pyesində Mustafa Ədirnə uğrunda igidliklə vuruşan igid bir komandan kimi təqdim olunur. Əsərdə adı keçən başqa tarixi şəxsiyyətlərlə bir sırada Mustafanın təqdimi, Trablis və Ədirnə savaşlarında Mustafa Kamlın həqiqi iştirakı və göstərdiyi tarixi şücaətlər bu obrazın Atatürkü əks etdirməsi ehtimalını gücləndirir. C. Cabbarlının əsəri yazarkən gəncliyi və bədii yaradıcılıq yollarında yeni uğurlar qazanması, Mustafa paşanın döyüş şücaətləri haqda məlumatlar yayılsa da, onun haqqında hələ dolğun təsəvvürün formalaşmaması hadisələrin təqdimatında bir sıra nizamsızlığa və qeyri-ardıcıllığa yol açmışdır. Qəhrəmanlığı, məğlubiyyəti qəbul etməməsi, insanları dalınca aparma qabiliyyəti, yoldaşları ilə danışıqda səsləndirdiyi fikirlər bu obrazda Mustafa Kamal Paşanın cizgilərini göstərir. Eyni zamanda, əsərdə iştirak edən tarixi şəxsiyyətlər və onlarla birlikdə Atatürkün döyüş cəbhələrində olması fikrimizin əsaslılığına ehtimalı artırır.

Qeyd edək ki, Cabbarlının əsəri yazdığı vaxt artıq Çanaqqala döyüşləri də böyük zəfər kimi tarixə düşmüşdü və bu tarixin gerçəkləşməsində də əsas rolu olan şəxsiyyətlərdən biri məhz Mustafa Kamal paşa idi. Atatürkün özünün Azərbaycan ədəbiyyatına münasibətini bildirən məlumatlar da mövcuddur. Türk Cümhuriyyətində Azərbaycan elçiliyinin katibi vəzifəsində çalışan Rza Təhmasibin xatirələrindən bəlli olur ki, Atatürk H. Cavidin Birinci Cahan Savaşından və Osmanlının bu savaşda iştirakından bəhs edən *İblis* faciəsini və əsərdən İblisin monoloqunu çox sevərdi. Bundan başqa, Atatürkün bu əsərdəki Elxan obrazında öz cizgilərini gördüyünü söyləməsi haqda da (Təhmasib:1998). Sovet dönəmində türk xalqları üçün bir qəhrəmana çevrilməsinin qarşısını almaq üçün Atatürk obrazının ədəbiyyatda canlandırılmasına yasaq qoyuldu. XX-ci əsrin 20-30-cu illərində ədəbiyatşünaslığın bolşevik siyasətinə uyğunlaşdırıldığı bir vaxtda Türkiyənin və onun qurucusunun ədəbiyyata gətirilməsi Sovet dövlətinə qarşı çıxmaq kimi qiymətləndirildi. Atatürkə sevginin Leninə olan məhəbbəti azaldacağından ehtiyat edilirdi. Bu illərdə sovet ideologiyasında kamalizmə meyillilik pantürkizmin bir uzantısı kimi səciyyələndirilirdi. "Kamalistlər" deyəndə türk cümhuriyyətinə sevgi düşünüldüyündən sovetlərdə, o cümlədən Azərbaycanda kamalizm əleyhinə mübarizə başladı. Bu mübarizənin önündə ədəbiyyat tənqidçiləri gəlirdi – M. Ələkbərli, M. Quliyev, Ə. Nazim, H. Zeynallı və b. Hətta ədəbiyyatda Atatürk obrazının yaradılmasına, onun ideyalarına uyğun fikir ifadəsinə qarşı mübarizə üçün çağrışlar da səslənirdi. SSRİ Yzıçılarının 1934-cü ildə Moskvada keçirilən Birinci qurultayında çıxış edən M. Ələkbərli H. Cavidi və onun tərəfdarlarını kamalizmə, turançılığa meyillilikdə günahlandırırdı.

Yasaq və təqiblərə baxmayaraq Atatürk ədəbiyyatda azadlıq simvolu, mücadilə rəmzi olaraq tərənnüm edilirdi; öz çılğınlığı və milli duyğuları ilə seçilən, repressiya qurbanı Mikayıl Müşfiq Atatürkə həsr etdiyi şeirdən verdiyimiz misralarda olduğu kimi:

Könlüm əmr eylədi, mən qulaq asdım,
Bu şeiri, ey dahi, eşqinlə yazdım.
Eşqin olmasaydı cəbhə boyunca,
Bu söz ordusunu sıralamazdım ...
(artkaspi.az/.../mikayil-musfiqin-ataturke-yazdii-seir-tapilib/?)
(Erişim: 1 May 2017)

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Atatürkə münasibətin bədii ifadəsi

Ədəbiyyatımızda Atatürkə müsbət mənada müraciət bir də müstəqillik dövründə canlanmağa başlayır. İşğaldan azad olmuş Azərbaycanda milli kimlik və türk birliyi idealını təbliğ edən şairlərimiz yenidən bu tarixi şəxsiyyətə öz sevgilərini tərənnümə başladılar. B.Vahabzadə, Xəlil Rza, Z. Yaqub, Aşıq

Kamandar, Əjdər Yunus və b. yaradıcılığında Atatürk ideal şəxsiyyət kimi tərənnüm və təqdim olundu. *"Azərbaycan şairlərindən Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Qabil, Zəlimxan Yaqub, Abbas Abdulla, Rəfiq Zəka Xəndan və digərlərinin yaradıcılığında Atatürkə həsr olunan və ya Atatürkün adı çəkilən çoxlu şeirlərə rast gəlmək mümkündür*" (Mustafa Kamal Atatürk anl.az/el/a/a001/a001001/a001001.htm) (Erişim: 20 İyun 2019).

İstiqlal şairi Bəxtiyar Vahabzadə "Atatürk" şeirində yazır:

"Atatürkün sinəsi, yurdun alınmaz qalası!
Atatürk millətinin həm atası, həm balası!"

(Atatürk. https://cetinbayramoglubaku.wordpress.com/.../bəxtiyar-vah..)
[Erişim: 11 İyul 2012]

Aşıq Kamandar Atatürkü milli kimliyin əzəmətli zirvəsi, genetik qüdrətin daşıyıcısı və qoruyucusu kimi qiymətləndirir.

"Sənsən əslim, köküm mənim,
A qeyrətli Oğuz babam,
Atatürküm dogma qanım,
Bir də Azərbaycanım."

(https://www.youtube.com/watch?v=0KmfFPL43LA) (Erişim: 7 Sentyabr, 2016)

Atatürk haqqında yazılan əsərlər içərisində Zəlimxan Yaqubun 3 noyabr 2004-cü ildə yazdığı "Atatürk köşkündə keçən günlərim" şeiri xüsusilə fərqlənir. Şeirin girişində şairin verdiyi qısa məlumatdan məlum olur ki, o, ağır xəstəlikdən qərib ellərə - Almaniyaya müalicəyə gedərkən yolüstü bir neçə gün İstanbulda, həm də Atatürk köşkündə qonaq qalır. Bunu şair qeyri-adi xoşbəxtlik, Allahın ona lütfü kimi dəyərləndirir. Şeirin hər misrası sevgi, məhəbbət, eşq doludur.

"Məni ovsunladı bir ad, üç heca,
Oldum müsafiri üç gün, üç gecə.
Oğlumdan cavandı, babamdan qoca,
Atatürk köşkündə keçən günlərim.
...
Tanrı qüdrətiydi, Allahdı, nəydi,
Əyilməz başları önündə oydi.
Əlli il sürdüyüm bir ömrə dəydi
Atatürk köşkündə keçən günlərim.
...
Min kitab yazsan da demə bəsidi,
Yaddaşın harayı, ruhun səsidi.
Allahın şairə hədiyyəsidi
Atatürk köşkündə keçən günlərim" (Yaqub 2006: 193-194).

Nəticə

Atatürk tarixi roluna görə qeyri-adi bir fenomen kimi qiymətləndirilir. Onun parlaq şəxsiyyəti, mübarizə yolu zaman-zaman fərqli yönləriylə ədəbiyyatın, incəsənətin, sənətkar fərdiyyətinin, ideologiyaların süzgəcindən keçirilərək obrazlaşdırılacaqdır. Milli mücadilənin önündə gedib, dağılan imperatorluğun yerində möhtəşəm bir Türkiyənin qurulmasına rəhbərlik edərkən azərbaycanlıların da azadlıq simvolu, qürur mənbəyi kimi obrazlaşdırılan Atatürk təkcə öz şəxsiyyəti ilə deyil, ona plan sevgi ilə də düşmənlərini lərzəyə salmışdır. Repressiya illərində kamalizmə mürtəce bir cərəyan kimi yanaşılması bunun sübutudur. Yanlış ideologiyalar yox, millətinin yolunda fədakarlıq edən qəhrəmanların haqlı və uzun ömürlü olmasını tarix sübut edib. Elə bu səbəbdəndir ki, Azərbaycan öz müstəqilliyini qazanan kimi, sənətkarlarımız yenə də Atatürk obrazını yaradıcılıqlarında qürur və sevgi ilə canlandırdılar. Bu obrazın əbədi məkan qazandığı dogma yerlərdən birinin Azərbaycan ədəbiyyatı olması hər zaman davam edəcəkdir.

Qaynaqlar

1. Aşıq, Kamandar. “Atatürküm”. https://www.youtube.com/watch?v=0KmfFPL43LA. (Erişim: 7 Sentyabr, 2016).
2. “Atatürk’ün Katıldığı Savaşlar Atatürk Hakkında Tüm Bilgi Kaynakları”. https://www.dersimiz.com/ataturk/ataturkun-katildigi-savasla...
3. Vahabzadə, Bəxtiyar. “Atatürk”. https://cetinbayramoglubaku.wordpress.com/.../bəxtiyar-vah. 11 iyul 2012.
4. Cabbarlı, Cəfər (2005). *Əsərləri*, 4 cilddə, ikinci cild. Bakı: Şərq-Qərb nəşriyyatı.
5. Yaqub, Zəlimxan (2006). *Seçilmiş əs*ərləri. 2 cilddə, 2-ci cild. Bakı: Şərq-Qərb.
6. Məmmədova, Kəmalə. “Atatürk obrazi Azərbaycan ədəbiyyatinda. Mustafa Kamal Atatürk və türkçülük. Azərbaycan Atatürk mərkəzinin keçirdiyi elmi konfransın materialları”, 29 Oktyabr, 2005-ci il. Mustafa Kamal Atatürk. anl.az/el/a/a001/a001001/a001001.htm
7. Mikayıl, Müşfiqin. “Atatürkə yazdığı şeir tapılıb”. Kaspi.azAzərbaycanda ... artkaspi.az/.../mikayil-musfiqin-ataturke-yazdii-seir-tapilib/? 1 may 2017.
8. Təhmasib, Tamilla (1998). *Rza Təhmasib*. Bakı: Yazıçı Nəşriyyatı.

XX-Cİ ƏSRİN ƏVVƏLİ AZƏRBAYCAN ƏDƏBİYYATINDA QADIN OBRAZLARI MİLLİ MÜCADİLƏ KONTEKSTİNDƏ (*SEVİL, ALMAZ, GÜLBAHAR*)

*Seyidnisə MƏNƏFOVA**

Qadının tarixən cəmiyyətdə tutduğu yer və ictimaiyyətdə rolunun araşdırılması göstərir ki, tarixi proseslərin inkişafı zamanı qadınların sosial rifahı məsələsi ziddiyyətli olmuşdur. Çünki, hər bir tarixi dövr qadın və evlilik problemi ilə bağlı olaraq müəyyən stereotiplər formalaşdırmışdır. Sosial fəaliyyətin subyekti kimi qadının cəmiyyətdə və ailədə rolunun müsbət mənada yeniləşməsi problemi bu gün xüsusi aktualllıq kəsb edir. Görkəmli ədiblərimiz qadının savadlanmasını, elmə, təhsilə yiyələnməsini xalqın həyatında dönüş hesab edərək bu obrazlar vasitəsi ilə cəmiyyətə öz fikirlərini bildirirdilər. XX-ci əsrin əvvəllərində dünyada baş verən qlobal proseslər, inqilab və müharibələr fonunda Azərbaycanda milli mübarizə ruhu gücləndi və ədəbiyyatda bu proses milli idealların aydın təzahür etməsi ilə üzə çıxdı. Xalqını sevən, onun hər halında yanında olan ədiblərimiz xalqı geridə qoyan, zülmətə qərq edən, azadlığını məhdudlaşdıran bütün səbəbləri müəyyənləşdirmək və hər kəsin gözündən pərdəni salıb onları işığa səsləmək uğrunda mübarizəni davam etdirirdilər. Xalqın gözünü açmaq, onları nadanlığın bəlasından qurtarmaq üçün yaradıcılıqları boyu bu problemlə məşğul olub və əsərlərində əks etdirirdilər. Dövrün ziyalı mütəfəkkirləri millətin taleyini inkişaf, milli azadlıq istiqamətinə yönləndirmək məqsədi ilə cəhalətin, mövhumatın əleyhinə mübarizə aparır və xalqı bu istiqamətə səsləyirdilər. Söz mütəfəkkirlərimiz və ədiblərimizin yaradıcılığında toxunulmuş bu məsələlər müxtəlif ifadə formalarında təsvir olunmuşdur.

Qadın obrazlarının ədəbiyyatda rolu daim diqqət mərkəzində olmuşdur. Bu mövzu və problematika geniş və əhatəli məzmunu ilə seçilir. Qadın məsələsi, qadın obrazı ədəbiyyatın qadın probleminin əks olunması ilə əlaqədar ümumədəbiyyat çərçivəsində müxtəlif tədqiqatlar aparılmışdır.

* AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu; *seyidnise.m@gmail.com*

Cəmiyyətin həyat təcrübəsi istənilən hadisəyə uyğun reaksiya və normalar müəyyənləşdirmişdir. Həmin qayda və normalar bəzi hallarda şüurlu, bəzi hallarda isə instinktiv fəaliyyət göstərmişdir. Bu qaydalar əsasında stereotip baxışlar formalaşmışdır. Qadının taleyinin həll edilməsində bu stereotip baxışlar ön plana keçmiş və hər cəhətdən onların imkanları məhdudlaşdırılmışdır. Müxtəlif ədiblərin yaradıcılıq istiqamətlərində qadınların ailədə, cəmiyyətdə rolu və vəzifələri fərqli baxış mövqelərindən araşdırılmışdır. XX-ci əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı qadın obrazları ilə zəngindir. Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı, İlyas Əfəndiyev, Yusif Vəzir Çəmənzəminli, Əbdürrəhim bəy Haqverdiyev və başqa ədiblərin yaradıcılıqlarında qadın məsələsi, taleyi ön planda əks olunmuşdur. Qadın hüquqsuzluğu ilə bağlı müxtəlif fikirlər söyləyən ədiblərimiz daim bu problem ilə mübarizə aparmış və əsərlərində də hər zaman qadın obrazları vasitəsilə cəmiyyətə fikirlərini bildirmişlər. Qadın məsələsinə-qadın probleminə həmişə mütərəqqi nəzərdən yanaşılmış, qadın azadlığı, onun cəmiyyətdə və təlim-tərbiyədəki rolu müsbət qiymətləndirilmişdir. Qadın bacarığını, istedadını qiymətləndirən, qadını uca tutan bu zəkanı əsərlərində baş obraza çevirən görkəmli ədib Mirzə Fətəli Axundovun yaratdığı qadın surətləri haqqında XX-ci əsr qadının ən böyük müdafiəçisi dahi Cəlil Məmmədquluzadə belə demişdir ki, qara pərdə arxasından dünyanın işığına bu məsələləri çıxarıb göstərməklə – Mirzə Fətəli Axundov kişilərə bunu demək istəyir ki, baxın bu qoçaq və gözəl qadınlar indi avam və cahil insandırlar. Görürəm ki, indi siz onlara dərs və tərbiyə verməkdən ehtiyat edirsiniz. Çünki bilirsiniz ki, bu zəkalı, bacarıqlı və qeyrətli qadınlar gələcəkdəki inqilabın sayəsində almış olduqları tərbiyə və elmin təsiri altında öz azadlıqlarını əldə edib və ondan sonra dəxi sizin ailə içərisində ağalığınıza və onları əzməyinizə imkan verməyəcək, zira ki, dəxi insanlıq hüququndan agah olan qadınlar, şəriətin çomağını dəxi siz kişilərin əlindən alıb, həmişəlik tullayacaqlar.

Cəlil Məmmədquluzadə yaradıcılığının bütün istiqamətlərində qadın probleminə toxunmuşdur. Həm epik növdə, həm dramatik növdə, həm də publisistikasında bu məsələ ilə bağlı olaraq güclü ədəbi nümunələr yaratmışdır. Qadın hüquqlarının müdafiəsi uğrunda görkəmli ədibin apardığı mübarizəyə dövrünün açıq fikirli, mütərəqqi ziyalıları yüksək qiymət verirdilər. Qadın köləliyinin başlıca əngəlini Cəlil Məmmədquluzadə cahilliklə ilə şərtləndirirdi. O, qeyd edirdi: "*Bu ayələrin heç birində bir xırda da əmr olunmur ki, arvadlar üzlərini qapasınlar... Burada da biz ayənin ruhunu, arvadların övrəteynini gizlətməklə üzlərini gizlətməyi bərabər tuturuq ki, bundan da daha aşkar cəhalət ola bilməz"* [Əlimirzəyev 2010: 178-179]. Qadın azadlığını inkişafın, tərəqqinin əlamətlərindən biri hesab edən Cəlil Məmmədquluzadə istəyirdi ki, Azərbaycan qadınlarının mədəni, ictimai səviyyəsi və hüquqları Avropa qadınlarından geri olmasın Avropa qadınlarının səviyyəsinə yetişmək üçün

Şərq qadınları oxumalı, mübarizə aparmalı, çalışmalı, vuruşmalı və cəmiyyət təşkil etməlidirlər, yoxsa yer üzündə heç bir islam cəmiyyəti mədəniyyət meydanında irəli gedə bilməyəcəkdir. Qadın hüquqlarının müdafiəsi Cəlil Məmmədquluzadənin yaradıcılığında və ictimai fəaliyyətində həmişə əhəmiyyətli problem olmuşdur. Cəlil Məmmədquluzadənin "Anamın kitabı" tragikomediyası ədəbiyyatımızda, ictimai fikir tariximizdə milli istiqlala, azərbaycançılıq ideologiyasına və düşüncəsinə əsaslanan mühüm əhəmiyyətli dram əsəridir. Cəlil Məmmədquluzadə əsərin əsas ideyasını Vətənə, xalqa bağlılıq ana dilinə hörmət, sadiqlik üzərində qurmuşdur. Cəlil Məmmədquluzadə xalqın rifah yolunu kiminsə, hansı dövlətinsə işığına isinməklə deyil, Vətən ideyası ətrafında birləşməkdə görürdü. Akademik İsa Həbibbəyli bu əsər haqqında qeyd etmişdir: ***Anamın kitabı*** *- Azərbaycanın milli istiqlalı haqqında XX-ci əsr boyu yazılmış silsilə əsərlərin mənəvi Anasıdır. ...C. Məmmədquluzadənin 'Anamın kitabı' əsəri... milli-mənəvi özünüdərk, Vətənçilik, milli birlik və müstəqillik dərsliyidir.* ***Anamın kitabı*** *– Azərbaycanın... tale kitabıdır, milli ədəbiyyatımızın ən mükəmməl Azərbaycannaməsidir"* (Həbibbəyli 2010: 7). Cəlil Məmmədquluzadənin *Anamın kitabı* tragikomediyasında müəllif Zəhrabəyim ana, Gülbahar, Qənbər, Qurban, Zaman obrazları vasitəsi ilə milli birlik, mücadilə ruhunu əks etdirmişdir.

Gülbahar obrazı xalqın, vətənin birliyini, milli mücadiləni simvolizə edir. Üç oğul ilə nisbətdə Gülbahar xalqın, vətənin amalını, birliyini daha çox düşünür. Üç qardaş bacıları Gülbaharı evləndirmək məsələsində ortaq qərara gələ bilmirlər, onlar birlikdə heç bir amalın uğrunda mücadilə apara bilməmələrini Cəlil Məmmədquluzadə kiçik konflikt üzərində quraraq milli birliyin öz aramızda başlaması şüarını irəli sürmüşdür. Gülbahar obrazı əsərin əvvəlindən etibarən qardaşlarının arasında birlik olmadığını, onların biri dediyini, o birisinin qəbul etməyəcəyi fikrini səsləndirərək eyham edir və bu gedişat ilə heç nə əldə etmək mümkün olmayacağını dilə gətirirdi: *"Dadaş, əvvəl bu ki, sən dediyin adamların heç birinə mən bələd deyiləm və qaldı ki, sizin mənim barəmdə çalışmağınız əbəsdir; çünki mən bilirəm ki, mən bir kəsi xoşlasam da, sən razı olsan, Məhəmmədəli dadaşım razı olmayacaq; Məhəmmədəli dadaşım razı olsa, sən izin verməyəcəksən; hər ikiniz də xoşlasanız, Səməd dadaşım bəyənməyəcək. Bir yadınıza salın, görün indiyə kimi mənim üstümdə siz üç qardaşın neçə dəfə dava-mərəkəsinə qonşular yığışıb tamaşaya. Yox-yox, mən heç kəsə getmək istəmirəm. Kaş siz bir-biriniznən yola gedin"* (Məmmədquluzadə 2004: 25). O, əsərdə dəfələrlə insanları eyni amal uğrunda birləşməyə, xalqın, millətin taleyini həll etmək üçün eyni yola getmək uğrunda mübarizəyə səsləyir. İnsanların fərqli yola gedib öz işlərini, mənafeələrini düşünməsi fikri ilə razılaşa bilmir*: "Eh, mən səndən söz soruşuram, sən bilmirəm mənə nə cavab verirsən. Nə səbəbə, axır, hamı bir tərəfə getmir? Yox, yox, bu pis işdi, vallah, pis işdi. Bir yaxşı fikir elə"* (Məmmədquluzadə 2004: 56).

Gülbaharın əsərin sonunda anamın kitabı deyərək atasının ürək yanğısı ilə səsləndiriyi vəsiyyəti ürəyində qardaşlarına qarşı olan hayqırışı idi. Onun bu monoloqu yalnız qardaşlarını ayıldıb öz məfkurəsinə, amalına geri döndərmək səciyyəsi daşımırdı sanki o, bu monoloqu ilə öz ailələri timsalında bütün bəşəriyyətə elan edirdi ki, başqa millətin dilini, dinini, mədəniyyəti öyrənib vətənin, millətin halına biganə qalmaq, yadlaşmaq xalqına faydası olmayan vətəndaş halına çevirilməkdir. Bu zaman yalnız sözdə özünü göstərən vətənpərvərlikdən heç kəsə fayda olmaz.

XX-ci əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri Cəfər Cabbarlı olmuşdur. Qadına münasibət, hüquq və azadlıqlarının məhdudlaşdırılması, onların təhsil almaqlarına qoyulan məhdudiyyətlər və bunun kimi digər problemlər Cəfər Cabbarlı yaradıcılığının əsas mövzularından olmuşdur. Almaz obrazı vasitəsi ilə Cəfər Cabbarlı cəmiyyətə etiraz dolu fikirlərini hayqırmışdır. Bütün hüquqsuzluqlar, qadınların məcbur olduqları asılılıqlar Almazın dilindən səsləndirilərək cəmiyyətin çürük qanunlarının qadınlar üzərində heç bir əhəmiyyətinin olmadığını göstərmək üçün istifadə olunmuşdur. Almaz kimi cəsur qadın obrazını yaratmaqla Cəfər Cabbarlı qadınları öz hüquq və azadlıqlarını öyrənməyə, müdafiə etməyə çağırırdı. Əsərdə qadınların hüquq və azadlıqlarının tapdalanması, qadınların məhz qadın olduqlarına görə ictimai vəzifələrdən uzaqlaşdırılması, söz haqlarının əlindən alınması kimi faktlara rast gəlirik. Almaz sədrin qadın olması fikrini irəli sürdükdə kişilər qadından sədr olmaz, arvaddan nə sədr kimi sözlər səsləndirirlər. Qadınlara qarşı tətbiq etdikləri zorakılıqları arvad mənimdir, özüm bilərəm kimi ifadələr ilə müdafiə edirlər. Əsərdə Almaz qadınların bu qədər zorakılığın, acizliyin qarşısında susmamağını tələb edir və cəmiyyət tərəfindən xoş qarşılanmır, təzyiqlərə, təqiblərə məruz qalır. Almaz bu yolda qələbə çalmasa belə qadınların mövqeyini, onların ictimai həyatda nələrə qadir ola biləcəyini, onları cəmiyyətdən təcrid etməklə deyil onların gücündən cəmiyyətdə istifadə etməli olduğumuzu aşıladı. Cəfər Cabbarlı yaratdığı bu obraz ilə cəmiyyətin qadına olan münasibəti ilə bağlı stereotipləri dağıtdı. Almaz obrazı qadınların hüquq və azadlıqlarının müdafiəsi uğrunda milli mübarizəni yorulmadan davam etdirdi. Xalqın, millətin, taleyinin bir hissəsinin qadınların təhsil alması və hüquqları bilməsilə əlaqələndirirdi. Bir qadının təhsilli olması gələcəyimizin təhsilli olmasıdır. Almaz obrazı xalqının mədəni cəhətdən yeniləşməsini istəyirdi və millətinin mədəni cəhətdən geri düşməsinə səbəb olan cahillər ilə mübarizə apararaq kəskin şəkildə fikrini deməkdən çəkinmirdi: *"Qulaq asın, kəndimizin mötəbər adamları! İndi mən size çox gözəl anlayıram. Bu vaxtadək mən kənddə azadlığa, yeniliyə, mədəniyyətə düşmən adamlar olacağına bir o qədər də inanmırdım. Lakin, bax, bu sağ əlimdən dəyən ilk daş mənə böyük tarixi bir dərs verdi. Mən ilk dəfə olaraq qarşımda əsl düşməni, onun iti dırnaqlarını, bərəlmiş gözlərini, qıcırdayan dişlərini gördüm. Siz mədəniyyətə, yeniliyə, kəndli yüksəlişinə zidsiniz.*

Çünki mədəniyyət sizin cibinizə toxunur, mədəniyyət sizin üçün ölümdür, ölüm" (Cabbarlı 2005: 86).

Cəfər Cabbarlı Şərq qadının vəziyyətini daim öz dərdi kimi düşünmüş, qadına yüksək qiymət vermiş, taleyini hər zaman diqqət mərkəzində saxlamış və bunu əsərlərində də əks etdirmişdir. Bu ruhda əsərlər yazmaqla dövrünün ictimai bəlalarını, qadınların vəziyyətini açıb göstərmişdir.

Cəfər Cabbarlının *Sevil* dramı qadının asılılıqdan azadlığa çağrışını - emansipiyasını əks etdirən çoxşaxəli və dolğun əsərdir. Cəfər Cabbarlıya görə hüququ və azadlığı əlindən alınmış olan hər bir qadın özünü müdafiə etməyi, dəyişməyi, mübarizə aparmağı bacarmalı və istedadına, qabiliyyətinə görə təqdir olunmalıdır, cəmiyyət tərəfindən təcrid edilməməli, qazanılmalıdır. Əsərin əvvəlində itaətkar, hüquqsuz, aciz, müti, avam bir qadın olaaraq görünən Sevil obrazı zaman keçdikcə dəyişilərək öz hərəkəti, davranışı, üslubu, biliyi ilə ətalətdən, avamlıqdan, cahillikdən çıxır, öz yeni obrazı ilə hamı tərəfindən sevilməyə başlayır. Sevil əsərin sonunda çıxış etdiyi sözlər onun əvvəlki acizliyinin qalmamağından xəbər verir: *"Namus! Ha... ha... Nədir namus?.. Yalnız qadınların daşıyacağı bir yükdür. Sən hər gün bir dəqiqəlik zövqün üçün tuş gəldiyin hər bir qadına göz basırkən, kimsə sənə namussuz demirdi. Lakin biz, biz bir lampalıq neft, bir parçacıq çörək, bir doyumluq quru çörək üçün birinə yanaşdıqda, bütün bayquşlar səs-səsə verib, dörd bir yandan: 'fahişə, fahişə', – deyə ulaşırlar. Halbuki sən mənim gözümün qabağında bir qadının belindən qucmuşdun, mən də əlimdə su, qarşında durub titrəyirdim, sən göz belə qırpmırdın. Bilmək istəyirdim ki, sənin adın nə olur? Ad birdir. O zaman mənim nə düşünməyə beynim, nə də deməyə dilim yox idi. İndi isə üzünə deyirəm: fahişə!"* (Cabbarlı 2005: 7). *Sevil* pyesi Azərbaycan ədəbiyyatında qadınının azadlıq tarixinin çevrilişini əks etdirən bir epoxanın bədii əksi oldu. Sevil ona bəslənilən bu münasibət fonunda bütün qadınların hüquqlarının qorunması uğrunda mücadilə apardı. Onun apardığı bu mücadilə yalnız onun deyil, onun vəziyyətində olan qadınların mücadiləsi idi.

Bu əsərdə əks olunan problem öz aktuallığını itirməmiş, qadına qarşı kölə münasibət, hüquq və azadlıqlarının əlindən alınması, cəmiyyətdən təcrid etmə kimi halların bu günümüzlə də səsləşir. Qadının çevrilişi, inkişafı, özünün hüquq və azadlıqlarını tanıması, dünyaya baxış məsələsini cəmiyyətin mövqeyindən həll etmək məsələsində *Sevil* dramı bu gün də ədəbiyyatımızda öz üstün mövqeyini mühafizə etməkdədir (Rüstəmli 2009: 53).

Hər üç əsərdə əks olunmuş qadın obrazları qırılmaz əqidələri, məqsədləri uğrunda mübarizliyi ilə seçilirlər. Ədiblərimiz yaratmış olduqları qadın obrazları ilə cəmiyyətdə əzilməkdə olan qadının necə mübariz, qətiyyətli, amalları uğrunda mübarizəyə daim hazır olduqlarını göstərmişlər. *Sevil* və *Almaz* obrazları vətənin, millətin gələcəyinin parlaq olması üçün qadın hüquq və azadlıqları uğrunda mücadilə aparırdılar, *Gülbahar* isə güc birlikdədir şüarını irəli sürərək, vətən uğrunda milli mücadilə ətrafında birləşməyə səsləyirdi.

Qaynaqlar

1. Cabbarlı, C. Q. *Əsərləri. Dörd cilddə. III cild.* Bakı: Şərq-Qərb. 2005. 368 s.
2. Əlimirzəyev, X. Ə. *Dahi sənətkar böyük vətəndaş Cəlil Məmmədquluzadənin həyatı, dövrü, mühiti, ədəbi- ictimai fəaliyyəti.* Bakı: Elm və təhsil. 2010. 683 s.
3. Həbibəyli, İsa. *Cəlil Məmmədquluzadə – milli istiqlal ədəbiyyatının sərkərdəsi. Xalq* qəzeti. 2010. 27 yanvar.
4. Məmmədquluzadə, C. C. *Əsərləri. Dörd cildə. I cild.* Bakı: Öndər nəşriyyat. 2004. 664 s.
5. Rüstəmli, A. H. *Cəfər Cabbarlı: Həyatı və mühiti.* Bakı: Elm. 2009. 416 s.

XX-Cİ ƏSRİN ƏVVƏLLƏRİNDƏ NAXÇIVANDA APARILAN MİLLİ MÜCADİLƏNİN BƏDİİ İNİKASI

Nizami MURADOĞLU *

"Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbayçan xalqının olduqça mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyət idi… Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq"

Heydər Əliyev, Azərbaycan xalqının ümummilli lideri (1)

Məruzəmə ümummili lider Heydər Əliyevin bu sözləri ilə başlamağım təsadüfü deyildir. Ötən əsrin əvvəllərində Azərbaycanın bütün ərazisində erməni daşnaklarının xarici havadarlarının köməyi ilə yerli müsəlman əhaliyə qarşı apardıqları soyqırımı nəticəsində Azərbaycan torpaqlarının böyük bir hissəsini itirdi, Azərbaycanın tarixi ərazilərində bir erməni dövləti quruldu. İrəvan xanlığının ermənilərə güzəşt edilməsi, onların iştahını artırdı, Zəngəzurun və Naxçıvanın da istilasını həyata keçirməyə çalışdılar. Bu məqsədlə erməni quldurları xaricdən güclü silah və ərzaq təchizatı alaraq əliyalın yerli türk əhaliyə qarşı tarixdə görünməmiş qətliamlar törətməklə yer-yurdlarından didərgin salmağa çalışırdılar.

Erməni-türk savaşı zamanı Naxçıvanın müxtəlif bölgələrində ermənilərin törətdikləri vəhşiliklərin izi bu günə qədər xalqın yaddaşında yaşamaqdadır. Ordubad bölgəsində şiddətli savaşlar minlərlə günahsız insanların məhvinə səbəb olmuşdu. Bir neçə kəndin azərbayçanlı əhalisi tamamIlə güllələnmIş, kəndlər yandırılıb məhv edilmişdir. Belə kəndlərdən biri Yuxarı Nuhgədiyi (Nügədih) kəndidir. 1906-cı ildə bu kənd bir növü dayaq məntəqəsi rolunu oynamışdı. Ordubaddan gələn könüllü, silahlı azərbaycanlı dəstə Nuhgədiyi kəndinə sığınan Zəngəzur qaçqınlarının və bu kəndin əhalisinin xilaskarı olmuşdur. M. S. Ordubadinin *Qanlı illər* kitabında bu haqda ətraflı məlumat verilmişdir. Bu qanlı tarixi faktı möhtərəm oxuçuların diqqətinə eyni ilə

* AMEA Folklor İnstitutunun təhsil şöbəsinin müdiri, Filologiya elmləri doktoru; *nizamimurad@gmail.com*

çatdırmağı vaçib sayıram: *"Ordubaddan uça dağa qədər yaralıların sayı-hesabı yoxdusa da, yaraları bağlandıqdan sonra şəhərə göndərilirdi. Havanın pisliyinə baxmayaraq bir neçə bələdçi götürüb ətrafı öyrənmək üçün əzm edildi. Saqqar Suyun ətrafında bir qan çalası göründüyündən o tərəfə gedildi. Soyuğun şiddətindən qanın üzü buz bağlamışdı. Bununla belə daşın bir tərəfindən damcı-damcı qan sızırdı. Daşın arasında 62 nəfər övrət, uşaq çənazəsi bir-birinin üstə qalaq-qalaq tökülmüşdü…*

Ayın 18-də sübh zamanı namazından sonra çamaatın sığınaq etdiyi meşəyə girdik. Bir az getdikdən sonra 25 yaşlarında bir övrət, bir də çavan oğlan çənazəsi göründü… Molla Həsən Əfəndinin şəhadətgahına yaxınlaşdıq. Bədəni, çanamazı və s. muqəddəs əşyaları yandırılmışdı. Həsən Əfəndinin qətl yerindən bir az şimala qarşı bir palas parçası göründüsə də, çamaatı büs-bütün ağlatdı. Zira, palası kənar etdikdə 15 nəfər üzlərində çiçək, yəni abilə əlaməti sönməmiş körpə çoçuqların kəsilmIş başları və bir para bir-birinə qarışmış bədənlər göründü…" (6, 133).

Ordubaddan gələn könüllülərin köməyi nətiçəsində 1906-çı ildə Yuxarı Nühgədiyi kəndi xilas edildi. Qafandan qaçqın, didərgin düşmüş insanlar öz evlərinə, yurdlarına qaytarılıb bərqarar olundusa da, sonrakı hadisələr, xüsusilə də 1918-çi il hadisələri əksinə oldu. Nuhgədiyi kəndi tamamilə yandırıldı, əhalisindən salamat qalanlar ətraf kəndlərə dağıldı. Nuhgədiyi hadisələri Nizami Muradoğlunun *Baba ocağı* (10) kitabında tam real əksini tapıbdır.

Ordubad rayonunun digər kəndlərində də böyük qətliamlar oldu. Gənzə kəndində ermənilər azərbayçanlı əhalini qılınçdan keçirdilər. Kilit kəndi darma-dağın edildi. Kilit kəndinin yuxarı hissəsində Xorxat deyilən bir yüksəklik var. Bu yüksəklikdə çox böyük bir vuruşma oldu. Andranikin təlim görmüş silahlı quldur dəstələrinə qarşı vuruşan azərbayçanlı könüllülərin demək olar ki, hamısı burada həlak oldu. Külüt kəndi yerlə yeksan edildi. Dinc sakinlərdən salamat qurtaranlar Ordubada tərəf qaçdılar.

Əli Əliyevin *Əlinçə yaddaşı* kitabında Ordubad hadisələri ilə bağlı belə yazılmışdır: *"1918-çi ilin yazında özlərini türk-müsəlman kimi qələmə verən bir qrup erməni qulduru dolayı yollar, aşırımlarla geçə Ordubad rayonunun Gənzə kəndinə gəlib qaranlıqda kəndin yollarını bağlayır, görünməmiş vəhşiliklər törədirlər. Körpə uşaqlar nizələrə keçirilib tonqallarda yandırılmış, qarıqoçalar nizələnmiş, qız-gəlinin namusuna təçavüz edilmiş, evlər yandırılmışdı"* (2, 61).

Gənzə və ətraf kəndlərdə ermənilərin törətdikləri bu qanlı hadisələr Rasim Gənzəlinin *Qanlı çay* (9) romanında öz əksini tapmışdır.

Ermənilərin törətdikləri vəhşilikləri təsvir etməklə qurtaran deyil. Bu belə bir zaman idi ki, yenicə qurulmuş Azərbayçan Xalq Çümhuriyyəti faktiki olaraq Naxçıvana heç bir kömək edə bilmirdi. Dağılan kəndlərin qanına qəltan edilmiş əhalisinin naləsindən dağlar-daşlar titrəyir, qulaqlar tutulurdu. Evlər yanır, mal-heyvanlar da insanlar kimi hara gəldi qaçırdı. Erməni vəhşiləri mal-heyvana da rəhm eləmirdilər. Qabaqlarına çıxan nə varsa qırıb tökür, yandırıb məhv edirdilər.

Tivili şair, filologiya elmləri doktoru Sərdar Zeynalın dediklərindən:

– Erməni-türk davasında babam Səttar Zeynalovun 13 yaşı olubdur. Babam iki muharibə görmüşdü. Ançaq ermənilərin vəhşilklərindən daha çox danışırdı. Babam deyirdi ki, "Andranikin quldur dəstələri Tividən bir qədər aralıda olan Parağa kəndində yerləşmişdilər. Tiviyə gəlIb danışıq aparmaq istədiklərini bildirdilər, kəndin mötəbər adamlarını danışığa dəvət etdilər. Sadədil, təmiz qəlbli, təmiz viçdanlı Tivi ağsaqqalları erməni hiyləsini başa düşməyərək 16 nəfərlik nümayəndə heyəti ilə danışığa getdilər. Numayəndə heyətinə ətraf kəndlərdə məşhur olan qaçaq Süleyman rəhbərlik edirdi. Ermənilər qaçaq Süleymanın rəhbərlik etdiyi nümayəndə heyətini aldadıb tərki-silah edərək, samanlığa yığıb yandırdılar. Nümayəndə heyətindən bir nəfər İbiş adında adam qaçıb çanını qurtara bildi. Tivililəri aldatdılar. Tivi çamaatına qarşı qətlin həyata keçirilməsində Parağalı Aşotun xüsusi rolu olmuşdur." (Bu, həmin Aşotdur ki, Əylisə hücumu zamanı məhv edildi - N. M.)

Tivinin dörd tərəfi yüksəkliklər olduğundan ermənilər həmin yerlərdə səngər qurmuşdular, hər tərəfdən güllə yağış kimi yağırdı. İgid bir oğlan olan Nəbi damın üstünə çıxıb qışqırmağa başladı: *" 'Güllə atmayın, gəlin danışaq. Mənə Nəbi deyərlər.' Nəbinin sözü ağzında yarımçıq qaldı. Cəviz ağaçının koğuşunda gizlənən düşmən Nəbinin düz ürəyindən vurdu. Nəbi damın üstünə yıxıldı. Elə bil ki, bir dağ uçdu yerindən. Ah-nalə, fəryad səsləri göylərə büləәnd oldu. Güllələr ara vermədən şaqqıldayırdı. Çamaat çay aşağı - üzü arana tərəf qaçırdı. Mən də sövq-təbii bu insanların ardınca qaçırdım. Kəndin aşağısında dar bir keçid vardı. Ora çatanda adamlar bir-bir tut kimi düşüb yerdə qalırdı. Bu keçiddə yüzlərlə adam öldü. Erməni gülləsi mənim budumu deşib keçdi. Yıxıldım, yaxşı ki, sümüyümə dəyməmişdi. Sonra qarnı üstə sürünməyə başladım. Neçə olur-olsun, bu dar keçidi keçməyə çalışırdım. Nə qədər süründüyüm yadımda deyil, xeyli qan itirmişdim, gözlərim yumulurdu. Özumu bir təhər böyürtkən kollarının arasına saldım. Tikanlar əllərimi cızıb qanatsa da, kolları aralayıb sığınacaq düzəltdim. Bura təhlükəsiz idi. Nə qədər yatdığımı bilmirəm. Oyananda geçə yarı olardı. Ayın solğun işığı bəzi yerləri işıqlandırsa da hərəkət etmək üçün münasib vaxt idi. Bir az yetişib şirinləşmiş, qaralmış böyürtkənlərdən yeyib özümə gəldim. Sonra kölgəli yerlərlə hərəkət etməyə başladım. Tividən - o yanan, dağılan evimizdən-eşiyimizdən uzaqlaşırdım…"* (4, 169).

1918-ci il qanlı hadisələri ilə yadda qalıbdır. Tarix elmləri doktoru, professor, Milli Elmlər Akademiyasının həqiqi üzvü İ. Haçıyevin "Naxçıvan Muxtar Respublikasının yaranması tarixi və müasirlik" (3) silsilə məqalələrində o dövrün hadisələri geniş təhlil edilmişdir. İ. Hacıyevin həmin yazısına istinadən qeyd etməyi lazım bilirəm ki, belə bir dövrdə təzəcə qurulmuş Azərbaycan Demokratik Cümhuriyyətindən tam mənada əlaqələri üzülmüş naxçıvanlıların köməyinə qardaş Türkiyə dövlətinin silahlı qüvvələri yetişmişdi. Məhz Kazım Qara Bəkir paşanın rəhbərliyi ilə vilayətə gəlmiş türk qoşun hissələri Naxçıvanı xilas etmişdi.

Hətta rəsmi olaraq, Naxçıvanın müdafiəsini təmin edə bilməyən, öz problemləri içərisində çaşqın bir durumda qalan Azərbaycan Demokratik Hökuməti qardaş Türkiyədən kömək istəmişdi. Əslində erməni-türk davası bütün Azərbaycan ərazisində gedirdi. Ona görə də Türkiyə dövləti Nuru paşanın rəhbərliyi ilə bir diviziya Gəncəyə, Kazım Qarabəkir paşanın rəhbərliyi ilə digər bir diviziya isə Naxçıvana göndərdi. Bu haqda Lətif Hüseynzadənin *Araz şahiddir* (7) kitabında və Kazım Qarabəkir paşanın *Gündəliklərində* (8) ətraflı məlumat verilmişdir.

Bu vaxta qədər Naxçıvanda milli burjuaziya və demokratik ziyalıların təşəbbüsü ilə yaradılmış Müsəlman Milli Şurası Mehridən başlamış Uluxanlıya qədər böyük bir ərazidə azərbayçanlıların erməni basqınlarından qorunması işini, qismən də olsa, təmin edirdi. Belə bir durumda Azərbaycan hökümətinin güzəştə gedərək İrəvan şəhərinin Ermənistanın tərkibinə qatılmasına razılıq verməsi ermənilərin iştahını artırırdı. Ermənilər nəyin bahasına olursa-olsun, Naxçıvan torpaqlarını da ələ keçirmək istiqamətində həm hərbi yürüşlər edir, həm də geniş təbliğat kompaniyası aparıb, yalan, uydurma məlumatlar yayır, Naxçıvanın tez bir zamanda Ermənistana birləşdiriləcəyi haqqında iddialar irəli sürürdülər.

Bu cür yalançı iftira və iddialara uymayan naxçıvanlılar isə qurtuluş yolları arayırdılar. Məhz belə bir məqamda 1918-ci ilin noyabrın 18-də türk dövlətinin apardığı düzgün siyasətin və Naxçıvan əhalisinin səyləri nəticəsində Naxçıvan Müsəlman Milli Şurasının üzvlərindən ibarət Araz-Türk Respublikası yaradıldı. Bu, böyük Yaradanın Araz camaatına, Naxçıvan əhlinə qarşı mərhəmətinin başlanğıcı, erməni quldurları və onun havadarlarının zülmündən qurtuluşun təməlinin qoyulmasının İlahi təlqinlərlə əsaslandırılmasının göstəricisi idi.

Amma bütün bunlara baxmayaraq, Naxçıvan kəndlərinin dövlət tərəfindən qoruna bilməməsi, başlı-başına buraxılması Andranikin quldur dəstələrinin yolunu açır, müxtəlif vəhşiliklərin törədilməsinə səbəb olurdu. Erməni quldurları bu kəndlərə soxulur, əhalini qırır, kəndləri yandırıb məhv edirdi.

Nizami Məmmədovun *Vətən dərdi* kitabında Ordubadda törədilmiş qanlı hadisələr haqqında xatirələr əsasında ətraflı məlumat verilmişdir. Belə xatirələrdən birini təqdim edirəm.

Azərbaycan Respublikası Mədəniyyət nazirinin müavini Sevda xanım Məmmədəliyevanın dediklərindən: *"Atam (akademik Y. Məmmədəliyev [1905-1961] - N. M.) o illərdən söhbət düşəndə həmişə kədərlənərdi, fikri məçhul bir nöqtəyə dikilmiş gözlərinin içinə yığılır, uzun müddət beləcə səssiz-səmirsiz dayanırdı. Sonra gözlərinin yaşını silmək üçün dəsmalını axtarırdı. Bu böyük insan niyə ağlayırdı? Nə idi onu belə göynədən? Respublika Elmlər Akademiyasının Prezidenti, dünya şöhrətli bir alimi kövrəldən hadisə bizim üçün çox sonralar məlum oldu".*

Sevda xanım bir xeyli fasilə verdi. Keçmişə qayıtmaq, atasının kədərli halını xatırlamaq, üzünü görmədiyi əmisi İlyas haqqında danışmaq, əlbəttə ki, Sevda xanım üçün ağır idi. İstər-istəməz o qanlı illər təsəvvürümüzdə çanlanırdı.

"1918-çi ilin soyuq yaz axşamı idi. Arazın Sahilində adamlar sal gözləyirdi. Bura yığışanların əksəriyyəti qadınlar, uşaqlar və əlsiz-ayaqsız ixtiyar yaşına gəlib çatmış qoçalar idi. Hamının üzündə bir tələş, bir həyəcan, bir qorxu var idi. Kişilər bir tərəfə çəkilib xısın-xısın danışır, oğlan uşaqları atalarının böyründə durub danışılanları özləri üçün aydınlaşdırmağa çalışırdılar. Qadınlar bir tərəfdə çömələb oturmuşdular. Bəziləri Səssizcə göz yaşlarını silir, bəziləri isə özünü saxlaya bilməyib hönkürhönkür ağlayırdı. Arxada Ordubad şəhərinin qaraltısı qalmışdı. Qarşıdakı olaçaqlardan isə heç kəsin xəbəri yox idi.

Yusif 6 yaşlı qardaşı Həbib ilə birlikdə anasına sığınmışdı. Soyuqdan titrəyən vüçudunda birbirinə dəyən dişlərini zorla da olsa saxlayır, danışılanları yaddaşına həkk edirdi. Böyük qardaş İlyas isə öz yaşıdlarının yanında idi.

Bu dəfəki dava 1905-1906-cı illərin davasından fərqlənirdi. Erməni quldurlarının ətraf kəndlərdə törətdiyi vəhşilikləri saymaqla qurtaran deyildi. Tam silahlanmış, təlim görmüş erməni quldurlarının qarşısında Ordubadın könüllü silahsız dəstələri tab gətirə bilmir, məğlub olub, geri çəkilirdi.

Şəhərdə bir vahimə yaşanırdı. Düşmən şəhərin lap yaxınlığında toplanır, həlledici hüçuma keçməyə məqam gözləyirdi. Ordubadın könüllü döyüşçü dəstələri şəhərin kənarında barrikadalar qurur, ələ keçən nə varsa, (bel, yaba, tüfəng, qılınç) onunla silahlanib geçə - gündüz şəhərin keşiyini çəkirdilər. Qərara alınmışdı ki, ş əhərdə olan əlsiz-ayaqsiz yaşlıları, uşaqları və qadınları daha təhlükəsiz yerlərə, xüsusən Arazın o biri sahilinə, Güney Azərbaycana köçürsünlər.

Sal gəldi. Hər kəs öz bağlamasini çiyninə atıb sala minməyə tələsdi. 10-15 nəfərlIk balaça sala minib bu bəlalı sahildən uzaqlaşmaq istəyənlər basabas salirdilar. Yaşlı bir kişinin ayağını sala qoymağı ilə aşıb yıxılmağı bir oldu. Kişinin başı daşa dəydi. Orda da çanını tapşırdı. Kimsəsiz qoçanı dəfn etmək üçün sala minə bilməyənlər hazirliq görməyə başladılar.

Qoçanın ölümü heç də yaxşı əlamət deyildi. Balaca Yusifin gözləri qarşisinda baş verən bu hadisələr onun qəlbini, nurlu, işiqli gözlərini kədərləndirirdi. Sal yerindən tərpəndi, sali idarə edən arıq, yaşlı kişi nə qədər çalişsa da, salı istiqamətləndirə bilmirdi. Arazın gur sulari salı ağzına alıb aparırdı. Salın üzərinə tutumundan iki dəfədən çox adam minmişdi. Sal ləngər vurdu, bir tərəfi əyildi. Müvazinətini saxlaya bilməyən bir neçə nəfər suya düşdü. Yusifin böyük qardaşı İlyas da müvazinətini saxlaya bilməyib Arazın sularında qərq oldu.

Yusif ağlayırdı, anasi dizlərinə çırpırdı. Köməksiz qalan ata özü kimi bir neçə kimsəsiz ordubadlı ilə Arazın sahilində o tərəf - bu tərəfə qaçırdı. Geçə səhərə qədər Heydər kişi Arazın sahilini axtardı. Ançaq İlyasi tapa bilmədi. Yusifin ağlamaqdan gözləri şişmişdi. Anasi bihal olub, huşsuz düşmüşdü. Yazıq ata nə edəçəyini kəsdirə bilmədən ora-bura qaçırdı. Ailə o geçəni səhərə qədər Arazın güney sahilində keçirdi. O gecə, Araz ordubadlı binəva mühacirlərin bir neçəsini öz ağuşuna alıb apardı. Bu, qaniçən Andranikin qırğınından qaçıb yaxa qurtarmağa çalışan ordubadlıların açı taleyi idi."

Sonralar akademik Yusif Heydər oğlu Məmmədəliyev o günləri belə xatırlayırdı:

"İlyasın həlakı bütün ailəmizi sarsitdi. Bir neçə il Təbrizdə yaşasaq da, bu yerlərə isinişə bilmirdik. Anam həmişə ağlayırdı. Bir tərəfdən İlyasin həlaki, digər tərəfdən vətən həsrəti anamı gözüyaşlı qoymuşdu.

Anamın bu dərdlərə tab gətirə bilmədiyini görən atam bizi yenidən Ordubada qaytardı. Həmin köhnə evimiz bizim üçün xan sarayından da qiymətli idi. bizim günəşimiz bu balaca şəhərdə, bu balaca evdə doğmuşdu. Ançaq heyf İlyasdan, o çox istedadlı idi. Əgər yaşasaydı, o, məndən də böyük alim ola bilərdi..." (4, 171).

1919-cu ildə Naxçıvan daha ağır günlərini yaşayırdı. Bir tərəfdən ingilislər Naxçıvanı işğal etmiş, digər tərəfdən Naxçıvanda Amerika general-qubernatorluğu yaradılmışdı. İstər ingilislər, istərsə də Amerika general-qubernatorluğu ermənilərin tərəfində dayanır, Naxçıvanın ermənilərə verilməsi üçün çanfəşanlıq edirdilər. O dövrün hadisələri təfsilatı ilə tarIx

elmləri doktoru, akademik İ. Haçıyevin *Naxçıvan Muxtar Respublikasının yaranması tarixi və müasirlik* əsərində verilmişdir. Müəllif yazır:

> *"1919-cu il mayın 3-də Naxçıvan bölgəsinin Ermənistan Respublikasının müvəqqəti 'idarəçiliyinə' verilməsi barədə ingilis generalı Devi və İrəvan hərbi dəstəsinin rəisi Dro tərəfindən birgə əmr imzalandı"* (3).

Eynilə buna bənzər təkliflər Amerika Birləşmiş Ştatlarının "Yaxın Şərqdə Amerika yardım komitəsinin" sədri polkovnik V. Haskel tərəfindən də səsləndirildi.

Bütün bu ikiüzlü siyasətə etiraz edən Naxçıvan əhalisi ayağa qalxdı, Naxçıvan Müsəlman Milli Şurasının təşkilatçılığı və Kəlbalı xanın rəhbərliyi ilə ermənilərə sarsıdıcı zərbə vuruldu və 1919-cu il avqustun 30-da Naxçıvan şəhəri ermənilərdən tamamilə təmizləndi.

1920-ci il aprelin 28-də Azərbaycanda sovet hökumətinin qurulması ilə Naxçıvan ərazisində erməni daşnakları bir qədər fəallaşsalar da, tezliklə məğlubiyyətə məruz qaldılar. Həmin ilin dekabr ayının 2-də Türkiyə dövləti ilə ermənilər arasında bağlanan Gümrü anlaşmasına uyğun olaraq Naxçıvan bölgəsi türklərin himayəsi altına alındı. Yalnız Naxçıvan çamaatının arzusuna uyğun olaraq Türkiyə dövləti Naxçıvanın muxtariyyət qazanmasına və Azərbayçanın himayəsinə verilməsinə razılıq verdi. Bu məqsədlə 1921-ci ilin əvvələrində burada Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü və Türkiyə dövlət nümayəndələrinin iştirakı ilə keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizindən çoxu Azərbaycanın tərkibində muxtariyyət statusunun qazanılmasına səs verdilər. Naxçıvan diyarının tarixi və əbədi taleyini, Azərbaycanın tərkibində Muxtar Respublika kimi bir qurum olmaq etibari ilə qalmaq imkanlarını 1921-ci il martın 16-da Moskva və 1921-ci il oktyabrın 13-də Qars şəhərlərində imzalanmış müqavilələr təsbit etdi.

Moskva anlaşmasının 3-çü maddəsinə uyğun olaraq hər iki tərəf (Ankara və Moskva) Naxçıvan ərazisinin Azərbaycanın himayəsində üçüncü bir dövlətə verilməməsi şərti ilə muxtariyyatını qəbul etdilər.

Bu anlaşma Naxçıvanın sonrakı taleyinin təməl daşına çevrildi. XX əsrin sonlarında Naxçıvan yenidən erməni təcavüzkarlarının ara-sıra hücumlarına məruz qalsa da, özünün güvənliyini qoruyub saxlaya bildi, hal-hazırda iqtisadi inkişafının yüksək mərhələsini keçirir. Naxçıvan gözəlləşir, sənayeləşir, dünyanın mədəni-quruculuq işlərinin tətbiqi sahəsinə çevrilir. Burada universitetlər, ortaixtisas məktəbləri, idman salonları, yaşıl parklar, abad məktəblər, yenidən tikilib, qurulan kəndlər Naxçıvanlıların qürur mənbəyinə çevrilibdir. Vətənin müdafiəsini təmin etmək məqsədilə Azərbaycan Ordusunun Naxçıvanda yerləşən hərbi hissələrində yüksək hazırlıq işləri aparılır.

Qaynaqlar

1. Əliyev, H. *Azərbaycan* qəzeti. 2000.
2. Əliyev, Ə. *Əlincə yaddaşı*. Bakı. 2004.
3. Hacıyev, İ. "Naxçıvan Muxtar Respublikasının yaranması: tarixi və müasirlik". *Şərq qapısı* qəzeti. 2004.
4. Məmmədov, N. *Vətən dərdi*, Bakı: Nurlar. 2005.
5. Musayev, İ. (1996). Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xariçi dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı.
6. Ordubadi, M. S. (1991) *Qanlı illər*. Bakı.
7. Hüseynzadə, L. (2001) *Araz şahittir*. Ankara.
8. Kazım, Q. (2009). *Günlüklər (1906-1943)*. 2 Cilt. Ankara: Yapı Kredi Yayınları.
9. Gənzəli, R. (1999). *Qanlı çay*. Bakı: Yazıçı.
10. Muradoğlu, N. (2016). *Baba ocağı*. Bakı: Elm və təhsil.

MÖVLUD SÜLEYMANLI *KÖÇ* ROMANINDA MİLLİ MÜCADİLƏNİN MƏTNALTI İFADƏSİ

*Telli MURADOVA**

1918-ci il may ayının 28-də M. Rəsulzadənin və digər öncüllərin təşəbbüsü və böyük əməyi nəticəsində müstəqil respublika - Azərbaycan Xalq Cümhuriyyəti elan edildi. Azərbaycan Xalq Cümhuriyyəti böyük ümidlərlə qurulsa da, ömrü uzun olmadı, sovet işğalı nəticəsində Respublika müstəqilliyinə son qoyuldu. Bütün bu baş verən hadisələr fonunda xalqın milli mübarizə ruhu nəinki sarsıldı, daha da gücləndi və elə buna görə də, onların mübarizə əzmini qırmaq üçün ikinci addım XX-ci əsrin 20-ci illərinin əvvəlində başladılan represiyaların 30-cu illərin sonunda daha geniş vüsət alması oldu. Təbii ki, represiya qurbanları kimi mədəniyyət xadimləri, alimlər, ziyalılar seçilmişdi, ancaq sonrakı dövürlərdə də milli mücadilə ruhunu yaşadan elə onlar oldu və milli mübarizənin ədəbiyyatda əksi aşkar şəkildə olmasa da, mətnaltı mənada mövcudluğunu hər zaman qorudu.

Mətnaltı qatda milli mübarizənin təzahürü 1920-ci ildən 1950-ci illərin sonlarına qədərki mərhələnin ədəbiyyatında sosializmin qəti normativləri çərçivəsində öz əksini tapırdısa, 1950-ci illərin sonlarından (və yaxud ortalarından) sonrakı dövrdə (xüsusən 60-70-ci illərdə) sosialist metodologiyanın transformasiyası nəticəsində ədəbiyyatda yeni keyfiyyət mərhələsinin formalaşması ilə daha da gücləndi.

Bu zaman kəsiyində yaradıcılığında mətnaltı mənada milli mücadiləni ifadə edə bilən sənətkarlar içərisində xüsusi yer tutan müəlliflərdən biri Mövlud Süleymanlıdır. M. Süleymanlının yaradıcılığında mövcud olan bir çox əsərlərdə biz bunun şahidi ola bilərik və bu xüsusiyyət təkcə onun yaradıcılığının ilkin dövrlərində ərsəyə gələn nümunələrdə yox, son dövrlərdə yazılan roman və povestlərində də (Teymurlar) görünməkdədir. *"…. daşıdığı funksiya etibarı ilə M. Süleymanlının* ***Köç, Ceviz qurdu****,* ***Səs****,* ***Erməni adındakı hərflər*** *romanlarında, "Dəyirman", "Şeytan", "Yel Əhmədin bəyliyi" povestlərindəki əsas*

* AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Ədəbiyyat nəzəriyyəsi şöbəsi; *tellimuradova312@gmail.com*

xətti davam etdirir və xalqımızın minillik tarixi, milli kimliyi, ənənəsi, mifoloji təfəkküründə yer alan obrazları, motivləri, dastan yaradıcılığının strukturuna və təhkiyəsinə dayanaraq bu günə və gələcəyə istiqamətlənir." (Bəkirqızı 2019). Ancaq müəllifin *Köç* romanında bu, daha kəskin şəkildə ifadə olunmuşdur. Bu romanda müəllif xalqımızın minillər boyu yaratdığı, yaşatdığı, ancaq mövcud rejimin boğub məhv etməyə, unutdurmağa çalışdığı adətlərimizə, ənənələrimizə işıq tutaraq, itirdiklərimizi qabardaraq insanları düşündürüb onları milli mücadiləyə ruhlandırırdı. M. Süleymanlı oxucu ruhuna toxunmaq üçün milli, mənəvi dəyərlərimizi əks etdirən element və motivləri detallarına qədər təqdim etməkdən çəkinməmişdir, mifoloji düşüncə tərzini və təhkiyəsini tarixi düşüncə tərzi və təhkiyəsi ilə çuğlaşdırmışdır. Müəllif mətnaltı qatda milli mücadiləni mifologiyaya, folkora, etnoqrafik ünsürlərə, mənəvi inanc və inamlara müraciətlə aparmışdır. XX-ci əsrin 60-70-ci illərində yazan, yaradan sənətkarların qələmində milli mücadilə, özünüdərkə səsləyiş və mübarizə ruhunun aşılanması müxtəlif təzahür formaları ilə büruzə verirdi və təbii ki, bütün özünəməxsusluqları ilə bu, M. Süleymanlı yaradıcılığında tam fərqli format daşıyırdı. Çünki o, öz mübarizəsini apararkən mətnaltı qatda ideyalara rəmzi məna verərək, paralellər apararaq bir növ məqsədinə nail olmağa çalışır və istifadə etdiyi üsullar fərqlidir, bu mənada mifizm, folklor elementləri M. Süleymanlı nəsridə təsadüf xarakteri daşımır. Milli yaddaşın qorunması və bərpası *Köç*də bir idealdır, bir amaldır.

Köç romanında hadisələrin inkişafı müəyyən zaman kəsiyində ifadə olunur və bu zaman üç yüz il öncədən başlayaraq XX-ci əsrin əvvəllərinə qədər davam edir. İlk olaraq hadisələrin indiki zamanda təsvirilə qarşılaşırıq. Ancaq məzmun irəlilədikcə baş verənlərin kökünün çox keçmişə bağlılığı hiss olunur. Məhz II fəsildə biz həmin keçmişlə qarşılaşırıq və bu keçmişin izləri üç yüz il əvvələ qədər gedib çıxır. Digər hissələrdə məhz bünövrəsi keçmişdə qoyulub indiki zamanda davam etdirilən hadisələrin əksi verilmişdir. Təsvir olunan hadisələrin indiki dövrü XIX-cu əsrin sonu XX-ci əsrin əvvəllərini əhatə edir. Süjetin bu formatda qurulması təbii ki, müəllif qayəsinə xidmət edir. Beləki, əsərdə ictimai-siyasi formasiyanın təqdimi üçün bu yol seçilmişdir. Hadisələrin inkişafında əsas rol oynayan Qarakəllələrin bu zaman daxilində baş verən dəyşikliklər fonunda uyğunlaşma prosesindən keçməsi ilə yanaşı daha çox üzərində dayanacağımız məsələ müəllifin mətnaltı mənada ifadə etmək istədiyi məqamlardır. *"- Odu. Qaçıb sürgündən, qırmızılara qoşulub. Kimi qalıb onun burda?"* (Mövlud Süleymanlı 2004: 173) deməklə məlum tarixi hadisəyə işarə ilə əslində Qarakəllə Ardıcın timsalında milli mübarizə ideyasını ortaya qoyur. Ardıc gələcəyə inamın, ümidin daşıyıcısı kimi əsərə daxil olur. Adının Ardıc olması da təsadüf deyildir. Ardıc az üzvü qalmış Qarakəllənin şanlı keçmişini davam etdirmək misiyasını almışdır. O, qurulan dövlətə qarşı çıxmış, qaçaq hərəkatının fəal üzvlərindən olmuşdu, yeni dövlət quranlardan

biri kimi tanınırdı. Türkiyəli tədqiqatçı Mahmut Sarıkaya da romanda kommunizm rejiminin təsiri ilə yazıçının şərti olaraq təqdim etdiyi məsələyə bu şəkildə münasibət bildirmişdir: *"...Əslində, romanın sonundakı, Ardıcın da içində yer aldığı inqilab, hökmən, Bolşevik inqilabı olaraq mənasına gəlməyə bilər, bunun əksinə bir qurtarıcı hərakat olaraq da dəyərləndirmək olar"* (http://www.turkishstudies.net/dergi/cilt1/sayi4/sarikayamahmut 258).

M. Süleymanlı ilk romanında tarixə, etnoqrafiyaya, milli-mənəvi keçmişə, xalqın adət-ənənəsinə, etnopsixologiyaya, mifologiyaya müraciəti ilə bütün bu dəyərlərin sosial gerçəklər qarşısında aşınmasına, dağılmasına etirazını bildirir. Milli ruh, mifik yaddaş, keçmişlə gələcəyin vəhdəti *Köç*də geniş və əhatəli şəkildə təqdim edilmişdir. Baxmayaraq ki, M. İmanov romanda *"arxaikliyin canlı obrazlarla ifadə olunmadığını"* (Muxtar İmanov 1978: 99) qeyd edərək mifik təfəkkürün, folklor motivlərinin təbii şəkildə obrazlara hopdurulması baxımından "Şeytan" povestini daha uğurlu əsər hesab edir. Ancaq, fikrimizcə, *Köç* romanında mifoloji təfəkkür, folklor motivləri bir sistem təşkil edir, baş verən bütün hadisələr, qurulan süjetlər türk qövmünün həm şifahi həm yazılı ədəbiyyatında geniş əksini tapmışdır.

Əsərdə əvvəldən axıra kimi daha çox diqqətimizi cəlb edən, üzərində dəfələrlə dayanıb düşündüyümüz məsələ müəllifin etnoqrafik ünsürlərdən geniş istifadə etməsi, dastan koloritindən bəhrələnməsidir. Məsələn, Qarakəllə Bəkil və Qoşqar evindən Çiçəyin evlənməsində buta verilmə motivinin işlənməsi, Alayın dünyaya gəlişində təsvir olunan hadisələr, toy adətləri, yas adətləri və s. bir çox məqamları göstərmək mümkündür. Müəllif etnoqrafik və etnopsixoloji motivlərin təsvirində *Kitabi-Dədə Qorqud* dastanı ənənələrinə söykənir desək yanılmarıq. Bunu ilk olaraq obrazların vətənə sədaqət və torpağa bağlılıq motivində görürük. Eyni zamanda bir çox adət, ənənlərin təsviri, qocaya, qadına olan münasibət, obrazların hər birində olmasa da, bəziləri üçün seçilmiş adlar fikrimizi sübut edir. Obrazların adları islam dininə qədər olan adlardır. Beyrək, Qızbəs, Alagöz, İmir, Alay, Turqut, Bəkil, Çiçək və başqaları... Bunlara dastanda da rast gəlirik. *Kitabi-Dədə Qorqud* dastanında Oğuz xalqı xeyiri, Qıpçaq Məliklər, Şöklü Məliklər şər qüvvələri təmsil edirsə, *Köç*də təsvir olunan iki tayfa arasında da bu formalı fərqləndirmə nəzərə çarpır. Eyni zamanda tayfalararası münasibətlərə tarixi, ictimai, psixoloji məzmunda yanaşılır. Əsərdə etnoqrafik ünsürlərin bolluğu işlənən etnonimlərlə özünü göstərir: Məsələn, Qarakəllə, Qanıquşağı, Qoşqarlar, müəllifin sıx-sıx işlətdiyi Əyriqar, Əyriçay, Sarıyal, Naltökən və s. bu kimi coğrafi adlar. Bu kimi elementlər əsərdə çoxdur. Romanda xalqın etnoqrafiyası təsvir olunan ən geniş motivlərdən biridir. Məhz bununla bağlı Səyyad Salahlı "Mövlud Süleymanlının romanları milli katarsisə çağırır" məqaləsində yazır: *"...oxucu ona diqqət yetirməlidir ki, romanın strukturunda etnoqrafik material əlahiddə*

olmayıb, həm də rəmzi məna daşıyır, konkret şəkildə bu və ya digər obrazla əlaqələndirilir." (Salahlı: 2004). Yəni, əsərdə olan bütün bu elementlərə həm də rəmzi ifadə forması kimi də yanaşmalıyıq. Eyni zamanda S. Salahlı etnoqrafik materialın əsərdəki obrazlar fonunda ifadəsini bu şəkildə mənalandırır: *"Dədə-yurd yeri kimi, nənə-od oyunu kimi Qarakəllələrin ilkin adət, xarakter və mərasimlərini yaddaşlarda yaşadır. Eləcə də, Beyrəyin adı ilə yurdda ilk xəyanət və sevgi tarixiləşir. Qoca Bəkil və arvadı Çiçək sabitlik rəmzi kimi Dədədən sonra yurdun oturaqlığını təmin edir, tayfaya başçılıq edirlər. Övladları Alay körpəliyindən Qoşqar evində bilici, görücü qarının yanında böyüyür, onun tərbiyəsini alır"* (Salahlı: 2005). Xüsusilə "Dədə" və "bilici Qarı" obrazları, onların yüzilləri aşan ömrü xalqın, millətin çox qədim tarixinə işarədir. Bütün bunların incə-incə işlənməsinə səbəb əvvəldə qeyd etdiyimiz kimi, yazıçının məqsədindən irəli gəlirdi. O, oxucuya keçmişi danışırdı, onu geriyə baxması üçün təhrik edirdi, bax sənin əlindən alınan bu dəyərlərin var, mədəniyyətin, mənəviyyatın var, ona qayıt, öyrən, yenidən əldə et və yaşat deyirdi və təbii ki, bunları söylərkən gerçək olanları simvolikləşdimək zərurət idi, ya da məcburiyyət. Zamana və tələblərinə nəzər yetirdikdə sənətkarların bu kimi ədəbi priyomlara ehtiyacının səbəbini başa düşmək çətin deyil.

Köç romanında tarixi şəxsiyyət olmadığı kimi, təsvir olunan obrazları yönləndirən hakim qüvvə və ya ideologiya da yoxdur. *"Klassik roman janrının ölçülərinə görə 'Köç'də hadisələr nə bir qəhrəman tərəfindən, nə də sovet romanı kimi kütlənin marağını əks etdirir. Bu bir etnosun tarixən keçdiyi yolunu, dünyagörüşünü, mədəniyyətini, dil-ifadə zənginliyini əks etdirən mədəni abidəyə çevrilir"* (2015: 148). Əsərdə əsas mövqeyi tutan iki tayfa vardır – Qarakəllə və Qanıquşağı tayfaları əsərin əsas süjeti və yaranan konflikt də bu tayfalar arasında cərəyan edir. Əsərin əvvəlində, ilkin tanışlıq mərhələsində belə onun süjetində gərginlik, həyəcanın olduğunu hiss etmək mümkündür. Bir-birinə düşmən olan iki tayfa zidd xüsusiyyətlərə malikdir. Qanıq tayfasında şərin, pisliyin, xəbisliyin obrazı, qaranlıq cəhətləri ümumiləşdirilir. Qarakəllə oğullarında isə əbədi xeyir, mənəvi saflıq, xeyirli əməllər, mərdlik, kişilik, güc kimi cəhətlər birləşdirilir. Bu tayfalarda yüzillərlə davam edən qan davası, ədavət hər iki tayfada ağır itkilərin verilməsi ilə nəticələnir. Ancaq Qarakəllələr əsərin əvvəlindən sonuna qədər diqqət mərkəzində olan və oxucunun daha çox rəğbətini qazanan tərəfdir. Çünki onlar mərddir, qeyrətlidir, dönməzdir, vətənsevərdir. Bu kimi xüsusiyyətlər daha çox sadalamaq olar. Məhz əsl türk qövmünə xas olan cəhətlərin daşıyıcısı kimi Qarakəllələr diqqət mərkəzində daha çox olur. Burada xeyiri simvolizə edən Qarakəllələrin daha çox qırılması, bu tayfanın kökündən bir neçə adamın qalması diqqəti cəlb edir. Bunun səbəbi ondan ibarətdir ki, tarixə, bir xalqın keçmişinə nəzər salan sənətkar rəğbət bəslədiyi tərəfi xalqın keçmişində olduğu kimi, tam həqiqətə uyğun şəkildə əks etdirmiş. Onlar düşmən önündən çəkilməyi ar bilirdi, torpağı,

vətəni qoyub getmək tayfa üçün ən ağır qərar idi. Onların əsərdə vətənə bağlılığını sübut edən bir çox amillər var. Əsərdə Dədənin vaxtilə tayfanın yaşadığı yerlərə yenidən qayıtması, məhz həmin torpaqlara - Əyriqara gəldikdən sonra bu dünyadan getməsi vətənə, torpağa sədaqətin, bağlılığın göstəricisi, təcəssümü idi. Məhz torpaq, yurd sevgisi də tayfanın daha çox can itirməsinin əsas səbəbi olmuşdur. Ancaq qeyd etdiyimiz kimi Qanıquşağı tayfası Qarakəllələrin ziddi xarakterə malikdir. Onlar hiylə ilə, yalanla, yeri gəldikdə yaltaqlıq edərək öz əməllərini həyata keçirən, bundan çəkinməyən tərəfi təmsil edirlər. Bu əsərdə yaradılan bir çox epizodlarda görünməkdədir. Qarakəllə sürülərini ağu ilə qıranda da, ağ dəvənin quyruğunu kəsəndə də, atların dilini ağzında bağlayanda da, hökümətlə bir olub Qarakəllə kişilərini sürgünə göndərəndə də və bu kimi əsl kişiliyə, mərdliyə sığmayan bütün hərəkətlərində Qanıquşağı oxucunun nifrətini qazanan, ikrah hissi ilə yanaşılan tərəfdir. Əslində, bu eyni dildə danışan, dünyagörüşü, adət-ənənəsi bir olan tayfaların mənəvi dəyərlərə münasibətdə haçalanması, qan düşmənçiliyində davam edən tarixidir. Birincilər mental olaraq xəyanət yolunu, ikincilər milli dəyərlərə sədaqət yolunu tutur.

Əsərin təhlilini verən bir çox yazılarda hər iki tayfa türk tayfası kimi təqdim olunur. Burada müəllifin əsas məqsədi kimi göstərilir ki, sənətkar iki tayfa arasında qan davasını, onların bir-birinin axırına çıxmaq üçün hər yoldan istifadə etməsini gösərməklə yüz illər əvvəl türk tayfaları arasında olan birliyin, bütövlüyün artıq olmadığını, bunu parçalanmaya gətirib çıxardığını və bir çox qüvvələrin xeyirinə olduğunu açıq ifadə etmişdir. Biz əsərdə iki tayfa arasında gedən qan davası və bu fonda cərəyan edən hadisələrin canlandırıldığı və elə ilk səhifələrdən müəllifin bir-birilə düşmənçilik edən tayfalardan Qanıquşağına antipatik münasibətində görürük. Əsərdə təqdim olunan hər iki tayfanın türk tayfası olmasına baxmayaraq, dastan motivinə uyğun olaraq (*Kitabi-Dədə Qorqud* dastanında türklərin İç Oğuz-Dış Oğuz olaraq bölünməsi) onların parçalanmasını göstərməklə əslində müəllif yaşadığı çağdaş dövrdə birliyin nə qədər zəruri olduğunu ifadə etməyə çalışmışdır. Bu *Erməni adındakı hərflər* əsərində də M. Süleymanlı tərəfindən artıq senzuranın diktəsi ilə deyil, tam açıq şəkildə diqqətə çatdırılmışdır.

İki tayfa arasında olan qan davasının göstərilməsi əsərin zahirini təşkil edir, amma elə mahiyyətdə burada gizlidir. Türk qövmünün əxlaqı, mənəviyyatı, tarixə, keçmişə bağlılığı, yurd sevgisi, torpağa qovuşmaq arzusu, mərdliyi, igidliyi, gücü və bunların hər birinin yüksək pafosla təqdimi əsəri xüsusiləşdirir, mənəvi-əxlaqi keyfiyyətlərə müasir münasibət formalaşdırır. Bütün bu elementlərin təqdimində keçmişə müraciət edən sənətkar konkret tarixi fakta əsaslanmadan əsərdə tarixiliyi əks etdirməyi bacarmışdır və əsərin tarixi roman kimi qiymətləndirilməsi təsadüfi deyil. “Dünyanın beli uzunu”

aramsız iz sala-sala, daş-qayalara möhür vura-vura, vaxtın üstüylə addımlayan bir xalqın köçü idi bu *Köç*. Yazıçı sanki bu *Köç*ün timsalında təmsil etdiyi xalqın, kökün tarixini, mədəniyyətini, məişətini, adət-ənənələrini şəkilləndirir.

Qaynaqlar

1. Bəkirqızı, Pərvanə (2015). *Mifopoetika və XX-ci əsr Azərbaycan ədəbiyyatının poetik strukturu*. Bakı: Elm və təhsil.
2. Bəkirqızı, Pərvanə (2019). "Milli kimliyimizə və dövlətçiliyimizə yönələn erməni təcavüzünün bədii mətndə folklor motivləri ilə ifadəsi (Mövlud Süleymanlının *Erməni adındakı hərflər* romanı, "Teymurlar" povesti əsasında)"//"Folklor və dövlətçilik" mövzusunda III Respublika Elmi Konfransının materialları. Bakı: Elm və təhsil.
3. İmanov Muxtar (1978). *Müasir Azərbaycan nəsrində psixologizm*. Bakı: Yazıçı
4. Salahlı Səyyad (2004). *Mövlud Süleymanlının romanları milli katarsisə çağırır*. Azərbaycan jurnalı, 2004, № 7, ss. 155-158.
5. Salahlı Səyyad (2005). *1960-1980-ci illər Azərbaycan nəsrində psixologizm (Mövlud Süleymanlı yaradıcılığı üzrə)*. Namizədlik dissertasiyası. Bakı: AMEA.
6. Sarıkaya, Mehmet. "Türklerde soykırım algısının dile yansıması üzerine". http://www.turkishstudies.net/dergi/cilt1/sayi4/sarikayamahmut
7. Süleymanlı, Mövlud (2004). *Üç roman*. Bakı: Azərbaycan.

TÜRK MİLLİ MÜCADİLƏSİ VƏ CƏFƏR CABBARLI

*Məhəmmədəli MUSTAFAYEV**

Cəfər Cabbarlı çox nadir istedad sahibi, böyük dramaturq, nasir, şair və ictimai xadim idi. Hələ Azərbaycan ərəfəsində istiqlal savaşına başlamışdı. Cəbhədə Birinci Dünya Müharibəsi davam edirdi. Azərbaycanda hamı Türkiyənin müharibədən qalib çıxmasını istəyirdi. Trablis və Balkan uğrunda gedən döyüşlərə Azərbaycan türkləri biganə qalmır, sevinclərini mətbuatda bildirməyə senzura imkan verməsə də, müxtəlif simvolik vasitələrlə Türkiyənin müharibədəki vəziyyətinə münasibət ifadə edirdilər. Türk ordusu hansısa bir döyüşdə uduzanda *"Sarı qamışdan bir qələmim vardı, o da dünən qırıldı", qələbə çalanda "qış olmasına baxmayaraq, horuzgülü (lalə) bitmişdir."* – kimi ifadələrlə mövqelərini bildirirdilər. "Sarl Qamış" deyəndə Türkiyənin Sarıqamış bölgəsindəki faciələr xatırladılırdı. Müharibənin son aylarında Bakı yaxınlığına türk əsirləri gətirirdilər. Rus işğalı altında olan Qars, Ərdəhan, Trabzon, Ərzurum bölgələrində işqalçılar qətliamlar törədirdilər. Bütün bunlar Azərbaycanda həyacanla qarşılanır, Anadoluya yardım hərəkatı başlamışdı. Həmin təşkilatların tərkibində C. Cabbarlı da fəaliyyət göstərir, Şərqi Anadoludan köçürülənlərin Bakı Cəmiyyəti Xeyriyyənin himayəsinə verilməsində yaxından iştikak edirdi. C. Cabbarlı müharibənin nəticələrindən narahat idi və sənətkar mövqeyini *Ədirnənin fəthi*, *Trablis müh*aribəsi kimi əsərlərində bildirirdi.

Həmin əsərlərdə milli müstəqillik ideyaları, istiqlal mübarizələri ön plana çəkilmişdi. Rusiyanın başı müharibəyə qarışdığından bu əsərlərin Bakıda tamaşaya qoyulmasına mane ola bilməmişdi. Bakı bu əsərlərin təsiri altında qalmışdı. Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra Almaniyaya mühacirat edən Mirzəbala Məmmədzadə orada Azərbaycan dilində nəşr etdikləri *Qurtuluş* jurnalının 4-cü nömrəsində yazırdı ki, Cəfər eyni zamanda həyatdan aldığı *Solğun Çiçəklər* pyesini yazdı və Anadolu fəlakətzadələrinin faydasına Bakı mühərrirləri tərəfindən çıxarılan *Qardaş Köm*əyi məcmuəsində Anadolunun fəlakəti münasibətilə duyduğu acıları nəzmə çəkmişdi. Onda dərin bir Türkçülük duyqusu yaranmışdı.

* Filologiya elmləri doktoru, dosent, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsinin baş elmi işçisi; *mehemmedeli.mustafayev.58@mail.ru*

C. Cabbarlı 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra da milli istiqlal ideyalarını davam etdirir, Mirzə Bala Məmmədzadə ilə birlkdə "Müsavat" firqəsinin mərkəzi heyətində gizli fəaliyyət göstərirdi. Hətta birlikdə *İstiqlal* qəzeti nəşr etdirib gizli şəkildə yayırdılar. Buna görə xüsusi xidmət orqanları tərəfindən bir neçə həmfikirləri ilə birlikdə həbs olunaraq sulu və qaranlıq otaqda salınmışdı. Bolşevik ideoloqları ədibin 1921-1922-ci illərdə yazdığı *Aydın*, *Oqtay Eloğlu* əsərləri ilə sovet dövründə qələmə aldığı *Od gəlini*, *Sevil*, *1905-ci ildə*, *Almas*, *Yaşar* pyesləri arasında fərq görmürdü. Bu əsərlərdə "Hüriyyət", "Milliyyət" və "İstiqlal" ideyalarının açıq-aşkar göründüyü iddia olunurdu.

Dahilərin həyatı kimi ölümləri də həmişə ictimaiyyətin, xalqın diqqət mərkəzində olur. Belə böyük şəxsiyyətlərdən biri də Cəfər Cabbarlıdır. O, çox nadir istedad sahibi, böyük dramaturq, nasir, şair və ictimai xadim idi. Hələ Azərbaycan Cümhuriyyəti ərəfəsində *Ədirnənin fəthi*, *Trablis müharibəsi* kimi əsərlər yazmışdı. Həmin əsərlərdə milli müstəqillik ideyaları, istiqlal mübarizələri ön plana çəkilmişdi. Müsavat hakimiyyəti dövründə o, parlamentdə stenoqrafçı işləmişdi. Parlamanın görkəmli şəxsiyyətləri və böyük dövlət xadimləri ilə şəxsən tanış olmuşdu.

Sovet hakimiyyəti qurulduqdan sonra bir sıra böyük sənətkarlarımız kimi C. Cabbarlının çətin günləri başladı. Sosialist inqilabının nəzəriyyəçiləri yazıçıların yaradıcılığına böyük məhdudiyyətlər qoydu. İstedadı, enerjisi aşıb-daşan Cəfər Cabbarlı üçün bu şəraitdə yazıb-yaratmaq çox ağır idi. 20-ci illərdə iki dəfə həbs olunmuşdu. Hər dəfə də böyük çətinliklər hesabına həbsdən çıxa bilmişdi. Hər bir əsəri yeni ədəbi mübahisələrə səbəb olur, böyük sənətkara ağır ittihamlar irəli sürürdülər.

İş o dərəcəyə çatmışdı ki, *Sevil* pyesini bitirəndən sonra müxtəlif səviyyə-lərdə Sevil obrazına ədəbi mühakimələr qurulur, onu əxlaqsızlıqda, türk qadınlarının mənəviyyatını pozmaqda, cəmiyyətimizə yad olmaqda ittiham edirdilər. Bütün bunlara baxmayaraq, Cəfər Cabbarlı yazıbyaradırdı, xalqı, milləti üçün böyük mənəvi sərvətlər yaratmağa can atırdı.

Keçən əsrin 20-ci illərində Azərbaycan markisist tənqidi Abdulla Şaiqlə birlikdə Cəfər Cabbarlını da "cığırdaş yazıçı" adlandırdı. Guya bu böyük sənətkarlar proletar ədəbiyyatının arxasınca gedən, onların ideyalarına yiyələnməyə çalışan yazıçılardır. Halbuki, C. Cabbarlı da, A. Şaiq də proletar yazıçıların hamısının müəllimi idilər. İstedadlarına, yaradıcılıq imkanlarına görə onlardan çox yüksəkdə dayanırdılar.

Heç kəsin gözləmədiyi halda, 1934-cü ilin axırıncı günündə Cəfər Cabbarlı qəflətən vəfat etdi. Elə həmin gündən indiyə kimi onun ölümü ətrafında söz-söhbətlər səngimək bilmir. Mərhumun həyat yoldaşı Sona Cabbarlı öz xatirələrində yazır: *"1934-cü ilin dekabrın 27-si idi. Axşam saat 5-6 olardı...*

Cəfərin iki nəfər kinostudiya işçisi ilə gəldiyini gördüm. Onun köynəyinin yaxası açıq, qalstuku və papağı əlində idi. Üzündə-gözlərində ağır bir əzginlik hiss olunurdu. Bərk həyəcanlandım:

Cəfər, sənə nə olub, yaxanı niyə açmırsan?

Yox, yox, narahat olma, kino-fabrikada yıxılmışdım, bir az özümü itirdim. Dərman verdilər keşdi.

Yarım saata həkim gəldi, müayinə etdi. Ürəyinə qulaq asdı. Onun dediyinə görə Cəfərə bir balaca soyuq dəymişdi. Üç gün evdən çıxmalı idi. Həkimi yola salarkən, Cəfərin ürəyinin vəziyyətini soruşdum...

Qorxulu bir şey yoxdur, ürəyi bir balaca 'pereboy' verir, - dedi.

Ayağa qalxandan sonra gərək onu rentginə salaq".

Tədqiqatçı Asif Rüstəmli yazır: "*31 aralıq 1934 te sabah 4 de Sona Hanım uykudan her şeyden evvel uyansa da artıq çok geçdi. İşığı yakdığında Cefer Cabarlının gülümseyen yüzünü və yanaklarında donüb kalmış iki damla gözyaşını görür"* (2011: 69).

C. Cabbarlı irsinini yorulmaz və istedadlı tədqiqatçısı Asif Rüstəmli Sona Cabbarlının müxtəlif illərdə yazdığı xatirələrinə əsaslanıb.

O vaxt Yazıçılar İttifaqının sədri olan M. K. Ələkbərli " 'Dönüş'lərin müəllifini itirdik" adlı məqaləsində göstərir:

"Ayın 30-da istirahət günü saat 4-də mən telefona çağırıldım. Müsahibim Cəfər idi. Danışığımızın mövzusu onun yeni yazmış olduğu 'Bakı' novellası idi. Yoldaş Bağırovun tapşırığı üzrə 'Pravda' qəzetəsi üçün yazılmış və ədəbiyyatımızda bu ana qədər görünməmiş dərəcədə orijinal olan bu əsəri yoldaş Bağırov və yoldaş Hüseyn Rəhmanov (o vaxt Xalq Komissarlar Sovetinin sədri olub – M. M.) oxumaq istədiklərindən onlarla görüşmək və arzularına əməl etmək təmənnasında olduğunu bildirdi. Ayın 31-də səhər saat 10-da görüşərək Mərkəzi Komitəyə və Xalq Komissarları Şurasına gedəcəydik. Bu telefon söhbətindən yalnız 12 saat keçmişdi. Gecə saat 4 idi. Təkrar telefon səsləndi. Yarı yuxulu yataqdan qalxdım. Məni çağıran Cəfərin evindən danışır. Cəfərin ciddi xəstə olduğunu bildirərək doktor çağırmağımı tələb edirdi, qulağıma telefonda o evdən özünü itirmişlərin narahatçılığını andıran səslər çatdı. Dərhal təbibləri səfərbərliyə almağa başladım. 10 dəqiqə keçərkeçməz – 'Təbib gəlir' – deyə Cəfərin evinə bir daha telefon etdim:

– 'Gecdir, artıq Cəfər yoxdur. Cəfər öldü...' – dedilər" (Ələkbərli 1935).

M. C. Bağırov Cabbarlını nə üçün yanına çağırmışdı? Bu görüşün həyəcanı, qorxusu, təlaşı dramaturqun səhhətinin pisləşməsinə səbəb ola bilərdimi? Bu barədə bəzi məqamlara diqqət yetirmək gərəkdir.

Asif Rüstəmlinin *Cefer Cabbarlı: Hayatı, sanatı ve mücadilesi* kitabında bildirir ki, *"Cəfər Cabbarlının cəsədi 31 dekabr 1934-cü ildə günorta əməliyyat üçün 'Semaşko' adına xəstəxanaya gətirilmiş, Azərbaycanda pataloji anatomiyanın banilərindən biri, tibb elmləri doktoru, akademik, dövlət mükafatı laureatı Cəlil Hüseynov tərəfindən hökumət komissiyasının iştirakı ilə yarılmışdır. 19 saylı meyitin yarılma protokoluna əsasən müəyyən edilmişdir ki, döş qəfəsinin dərisinin dərisi üzərində banka izləri vardır. Ürək qəfil büzüşmüş, çoxlu miqdarda piyalə örtülmüşdür. Mədənin sol hissəsi xeyli quru qan yığılmışdır"* (2011, 7).

Buradan görünür ki, həkim *"Cəfər Cabbarlı bir az soyuqlamışdır"* – deyəndən sonra Sona xanım axşam soyuqluğu götürmək üçün C. Cabbarlının döş qəfəsinin ürək nahiyyəsinə banka düzmüşdür. Ürəyi xəstə olan adam üçün bunun nə demək olduğunu xırdalamağa ehtiyac yoxdur. Bir tərəfdən səhərki M. C. Bağırovla görüşün həyəcanı və qorxusu, digər tərəfdən türkəçarə "banka əməliyyatı" dramaturqun ölümünü yaxınlaşdırıb.

Məsələnin başqa bir tərəfinə diqqət yetirək. Sona xanım xatirələrində yazır ki, səhər saat 4-də qalxıb gördüm ki, Cəfər Cabbarlı artıq ölüb. M. Ələkbərlinin yuxarıdakı qeydlərindən aydın olur ki, gecə saat 4-də onun evinə zəng olunarkən telefon dəstəyinin o başından bir neçə adamın həyəcanlı danışıq səsləri gəlirmiş.

Əlbəttə, burada xeyli anlaşılmazlıq meydanagəlir: istər-istəməz fikirləşməli oluruq.

Görəsən M. Ələkbərli düz yazır, yoxsa Sona Cabbarlı? Bizə belə gəlir ki, Cəfər Cabbarlı vəfat edəndən sonra Sona Cabbarlıya xəstə adamın ürəyinin üstünə banka qoymağın düzgün olmadığını xatırladıblar. O, hiss edib ki, Cəfərin ürəyinin üstünə banka qoymaqda böyük səhvə yol verib. Qohum-əqrabanın danlağından, tənələrindən yaxa qurtarmaq üçün S. Cabbarlı belə danışmağa məcbur olub.

Ədibib müəmmalı ölümü ilə bağlı yeni bir mülahizə onun yaşıdı və dostu, gizli *Müsavat*da birgə çalışdığı, 1923-cü ildə iki aya qədər birgə həbsdə olduğu, 1927-ci ildə 3 il azadlıqdan məhrum edilmiş və ömrünün sonunadək mühacirətdə yaşamış Əbdül Vahab Yurdsevərə məxsusdur. O, "Azərbaycan dram ədiblərindən Cəfər Cabbarlı" məqaləsində yazırdı: *"Böyük ədib... Həqarətə dayanmayaraq 1934 sənəsində Moskvada toplanan ədəbiyyatçılar konqresində Sovet zimamdarlarının üzünə qarşı: 'Sifarişlə sənəd olmaz!' – deyə hayqırmışdı. Cəfərin bu sözləri sonradan dünya mətbuatına əks etmiş və kəndisinə*

qarşı Sovet təzyiqlərini bir qat daha artırmışdır. Hadisəyə yaxından vaqif olanlara görə Cəfər Moskva ədəbi konqresindən sonra, çox şiddətli basqı və işgəncələrə məruz qalmış və bunlara dayanmayaraq kendi odasına çekilmiş və intihar etmişdir" (Yurdsevər 1952).

"Cabbarlının intihar etməsi üçün əsas var idimi? 'Sifarişlə sənəd olmaz'-fikrinə görə 1934-cü ildə sənətkarı intihar həddinə çatdıra biləcək real zəmin mövcud idimi?" – bu fikirlər də Asif Rüstəmliyə məxsusdur.

Doğrudur, intihar versiyası heç bir əsasa söykənmir. Ancaq bir məsələ indiyə kimi açıq qalır. Görəsən cabbarşünaslar indiyə kimi dramaturqun sovet yazıçılarının I qurultayındakı çıxışına niyə diqqət yetirməyiblər? Əbdül Vahab Yurdsevərin sözlərini də qəribçiliyə salmaq olmaz. Onun bu sözlərini oxuyandan sonra Cəfər Cabbarlının Sovet yazıçılarının I qurultayındakı çıxışını tapıb oxudum.

Dramaturqun Sovet Yazıçılarının 1-ci qurultayında çıxışı doğrudan da o dövr üçün kəskin, proletar ədəbiyyatının, marksist ədəbi təndqidin eybəcərliklərini, siyasi-ideoloji mahiyyətini üzə çıxaran elmi-ədəbi sənətdir. C. Cabbarlı çıxışında deyib: *"Adamların canlı insan dilində adi, anlaşıqlı, dolaşıqsız dildə danışdığı pyeslər qeyri proletar əsərləri adlandırılıdırılırdı. Ağacların başı aşağı, kökü yuxarı qoyulmadığı tamaşaları isə proletar yaradıcılıq metodolojisinə yabançı sayılırdı".*

Bütün bunlar ədəbi yaradıcılığı ideya və bədii həyəcandan məhrum etməyə və onu süni yaradılmış mexaniki qanunlara tabe etməyə gətirirdi. Hətta necə yazmağı, onu kulminasiya nöqtəsinə necə çatdırmağı və səhnədə onu necə qurtarmağı göstərən dramaturq qanunları çap edilmişdi.

Sovet hökümətinin qılıncının dalı da, qabağı da kəsdiyi bir dövrdə paytaxtda bir türk oğlunun heç kəsdən, hətta Stalin diktaturasının amansız qadağalarından çəkinmədən reallığı, həqiqəti üsyankarcasına söyləməsi keçən əsrin 30-cu illərində qeyri-adi hadisə idi. Mirzəbala Məmmədzadənin sözləri yəqin ki, həqiqətə daha çox uyğundur.

Sovet Yazıçılarının 1-ci qurultayının gedişini 1934-cü ildə bütün dünya mətbuatı diqqətlə izləyirdi. İclas salonundakı hər bir çıxış xarici ölkələrdə böyük diskusiyalara səbəb olurdu. Söhbət marksist estetikanın nəzəri əsaslarının hazırlanmasından gedirdi. Şübhəsiz, C. Cabbarlının bir qədər emosional, həm də həqiqətə söykənən bu çıxışı da, müxtəlif informasiya kanalları ilə dünyanın hər yerinə yayılıb və ölümünün son aylarında o, ciddi təzyiqlərə, basqınlara məruz qalıb. Yoxsa, M.C. Bağırovun nə marağı var idi ki, dramaturqu yanına çağırıb onun novellasını oxuyurdu və yaxud həmin novellanın *Pravda* qəzetində dərc olunmasına cəhd edirdi?

Görünür, C. Cabbarlının qurultaydakı çıxışına görə sovet rəhbərliyi tərəfindən M. C. Bağırovu da sıxışdırılıb və müxtəlif təzyiqlərə məruz qalıb. Yazıçı ağır stres, emosional hallar keçirməli olub. O, rəhmətə gedən günün səhəri M. C. Bağırovun qəbuluna getməliymiş. M. C. Bağırovun qəzəbi tutanda qəbuluna gələnlərlə necə rəftar etdiyini çoxları yaxşı bilirdi. Görkəmli filosof Heydər Hüseynov belə görüşlərin birindən sonra damarını kəsərək intihar etmişdi.

C. Cabbarlının Sovet Yazıçılarının 1-ci qurultayındakı çıxışı təsadüfi deyildi. Marksist tənqidçilər və onu gözügötürməyən, istedadına qibtə edən yazıçı dostları sənətkarı rahat buraxmırdı. O, Sovet mətbuatında ciddi tənqidlərlə üzləşmişdi. Müsavat hökuməti ilə bağlı olmasını tez-tez ona xatırladırdılar. Sovet hakimiyyəti illərində yazılmış *Od gəlini*, *Sevil*, *Almaz*, *1905-ci ildə* pyesinin müəllifini "burjua yazıçısı" hesab edirdilər. Hətta M. K. Ələkbərli o dövrlərdə yazırdı: *"Cabbarlı bir- dən-birə bizim şura yazıçımız olmadı. Bir zaman millətçilik ruhuna tutulmuş idi ki, çətin və ciddi mübarizədə bizə tərəf gəldi".* (Ələkbərli 1935). Sovet Yazıçılarının 1-ci qurultayında da C. Cabbarlının əyləşdiyi salonda M. K. Ələkbərli demişdi ki, bu yazıçı proletariatın təsiri altında ideoloji və siyasi cəbhədən yenidən qurulma yoluna düşmüşdür. *"Bizə tərəf gəlirdi"*- ifadəsi Mırzə Cəlil də, Ə. Haqverdiyev də, C. Cabbarlıya da vəfat edəndə tabutları qarşısında söylənmişdi və yaxud mətbuatda səsləndirilmişdi. Vəfat edəndən sonra da C. Cabbarlıdan əl çəkmirdilər. Ölümünün ildönümü münasibəti ilə dərc olunan yazıların birində belə sətirlər var: *" 'Müsavat' xainlərinin fanatizm tiryəki ilə öldürmüş bir istedadı – Cabbarlını bizim inqilab diriltdi. İnqilabımız cəbhəsinə keçəndən sonradır ki, Cəfər bir dağ kimi yüksəldi və... müsavatçıların liliputlar aləmini dağıtdı"* (Nazim 1935). "Cabbarlını 'bizim inqilab diriltdi' " – deyənlər doğrudan da onu vaxtsız öldürdülər.

Cəfər Cabbarlının proletar ədəbiyyatına və onun estetik əsəslarına etiraz etməsinin kökündə nə dayanırdı? Bu məsələyə toxunmadan 37-ci il represiyasının əsl mahiyyətini açıqlamaq mümkün deyil.

Sosialist inqilabı qələbə çalandan sonra onun ideoloqları proletariatın sinfi mübarizə metodunu ədəbiyyata gətirdilər. Yəni bizim sinfimizdən olmayanlar bizim düşmənimizdir. Hətta proletar diktaturasının baniləri açıqca elan etdilər ki, düşmən təslim olmayanda onu məhv edərlər.

Ötən əsrin 20-ci illərinin əvvələrində rus inqilabının uzaqgörən istedadlı nəzəriyyəçilərdən bəziləri bu cəfəng marksisit tezisin yaxın müddətdə qırğınlara, represiyalara gətirib çıxaracağını deyirdilər. Özü də bunu siyasi uzaqgörənliklə söyləyirdilər. Trotski yazırdı ki, sənəd öz yolunu özü yaratmalıdır. Marksizmin metodu sənədin metodu deyildir. Kommunistlər ədəbiyyatla məşğul olmamalıdır, onların işi tənqid etməkdir.

Trotski, bu kəskin fikrində tək deyildi. Buxarin, Zinovyev kimi inqilabçılar, Voronski, Pereverzev, Piksakov, Kubikov kimi nəzəriyyəçilər də onları müdafiə edirdi. Azərbaycan ədəbi tənqidində və ədəbiyyatşünaslığında, milli ədəbi tarixi prosesdə də onlarla həmfikir olanlar az deyildi. Azərbaycanda B. Çobanzadə, Ə. Cavad, C. Cabbarlı, C. Məmmədquluzadə, Ə. Haqverdiyev və başqaları da bu məlum həqiqəti dərk edir və kəskin etirazlarını bildirirdilər. Həmin şəxsiyyətlərin əksəriyyətini 30-cu illərdə aradan götürdülər. Bəziləri infarkdan öldü, bəziləri baş götürüb ölkədən qaçdılar. Onların Azərbaycandakı tərəfdarları da 30-cu illərin represiyalarından yayına bilmədi.

M. C. Bağırov AK (b) F-nin 12-ci qurultayındakı məruzəsində demişdi ki, ədəbiyyat cəbhəsində zəif cəhətlərdən biri bu vaxtadək marksist tənqidinin bədii ədəbiyyatın inkişaf tempindən geridə qalmasından ibarətdir.

M. C. Bağırovun marksist tənqidi daha kəskin olmağa çağırdığı bir dövrdə C. Cabbarlı onun nöqsanlarından, kəskinliyindən danışırdı. Əlbəttə, bu cür çıxışlardan sonra onun ciddi təzyiqlərlə üzləşməsi təbii idi.

Şübhəsiz ki, Cəfər Cabbarlı 30-cu illər represiyasının ilk qurbanlarından idi. Bəzən deyirlər ki, o, 37-ci ilə qədər yaşaya bilsəydi, bu represiyalardan bəlkə də salamat çıxa bilərdi. C. Cabbarlının qəfil ölümü onu gələcək ağır məhkəmə ittihamları ilə üzləşməkdən "xilas etdi". Ümumiyyətlə, represiyanı təkcə 37-ci illə məhdudlaşdırmaq böyük bir ictimai siyasi prosesi məhdudlaşdırmaq deməkdir.

Bu represiyanın başlanğıcı hələ XX əsrin 20-ci illərinin ikinci yarısından başlanmışdı. 1928-1929cu illərdə respublikamızın müxtəlif mətbuat orqanlarında C. Cabbarlının, Ə. Cavadın, M. Müşfiqin, B. Çobanzadənin və başqalarının "ədəbi ifşası" başlanmışdı. Görkəmli ziyalıların "dosyesini" artıq Mərkəzi Komitəyə göndərilmişdi. 1928-ci ildən 37-ci ilə qədər həmin sənətkarların nələr çəkdiklərini özləri bilərdi, bir də Ulu Tanrı.

Qaynaqlar

1. Abid, Əmin (1935). "Cəfər Cabbarlının mətbuatda ilk çıxışı". *Ədəbiyyat* qəzeti. 2 yanvar. Bakı.
2. Cabbarlı, Nikpur (2002)."Cəfər Cabbarlı mühacirat ədəbiyyatşünaslığında". *Azərbaycan* jurnalı. №9. Bakı.
3. Ələkbərli, Məmməd Kazım (1935). "Dönüşlərin müəllifini itirdik". *İnqilab və mədəniyyət* jurnalı, 1.
4. Nazim, Əli (1935). "C. Cabbarlının ölümünün ildönümü". *Kommunist* qəzeti, 31 dekabr. Bakı.
5. Rüstemli, Asif (2011). *Cefer Cabbarlı: Hayatı, sanatı ve mücadilesi*. Ankara: Manas Yayımçılık.
6. Yurdsevər, Əbdülvahab (1952). *Azərbaycan* dərgisi. №6. Bakı.

TÜRK DÜNYASININ MİLLİ MÜCADİLƏSİ ƏDƏBİYYATIMIZDA

*Göyərçin Abidqızı MUSTAFAYEVA**

XX-ci əsr Azərbaycan ədəbiyyatının ən parlaq nümayəndələrindən olan, Məhəmməd Hadi, Hüseyn Cavid, Hacı Kərim Sanılı, Əhməd Cavad, Abdulla Şaiq, Əmin Abid, Üzeyir Hacıbəyli, Seyid Hüceyn, Cəfər Cabbarlı, Abdylla Sur, Tağı Şahbazi Simurq, Üm Gülcüm kimi ədiblərimiz adlarını ədəbiyyatımıza qızıl hərflərlə yazmışlar. Onlar Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdir. Bu ədiblərin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir.

Kommunist rejiminin Türkiyədən qorxması, Türkiyə ilə, türkin ədəbiyyatı və mədəniyyəti ilə əlaqəsi olan bu ziyalıları hər vasitə ilə təqib və məhv etməsi bolşevik psixologiyasının, eləcə də o dövrdə Azərbaycanda at oynadan erməni millətçilərinin əsas xüsusiyyətlərindən biri kimi qiymətləndirilməlidir. Türkə qarşı yönəlmiş bu misli görünməmiş iyrənc hərəkatın ideoloji əsası planlı şəkildə işlənib hazırlanmışdı. Uydurma pantürkizim nəzəriyəsi məhz bu məkirli siyasətin həyata keçirilməsi üçün nəzəri-ideoloji zəmin rolunu oynayırdı. Xalqın ən görkəmli ziyalıları məhz pantürkizm damğası ilə ölümə məhkum edilir, Sibirin buzlu cəhənnəmində görünməmiş əzablar içində məhv edildilər.

Əsirlərdən bəri Türk xalqlarını yer üzündən silməyə çalışan qeyri millətlərə mənsub xiristianlar, müsəlmanları "vəhşi", "qaniçən" adlandırıblar. Və bu şüar altında insanlara olmazin işgəncələr verərək məhf etməyə çalışmışlar. Dünyada terrora, soyqırıma dəsdək verən, milyonlarla türkün qanina susayan, bu gün, dünya ictimayəti qarşısında özlərini insan haqlarına hörmət edən bir dövlət kimi tanıtmağa çalışsalar da bunun bele olmadığı Türk dünyasına məlumdur.

Xaçpərəst dinində ümumiyyətlə şəxsiyyət azadlığına böyük önəm verilir və şəxsiyyətin azadlığı uğrunda hər cür qurbanlar yolverilən hesab edilir.

* Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyi, böyük elmi işçi; *goyercin.mustafayeva@yandex.com*

Bütün bu ideologiyanı öz fikri və bədii təxəyyülündə əks etdirən Avropa yazarları öz əsərlərinə bəzən tarixi və həyati hadisələrdən uzaq, mistik surətlər gətirir, müsəlman Şərqinin xaçpərəst Avropasını istismar etməsi haqqında qeyr-real bədii təsəvvürlər irəli sürürdülər. Bu isə millətçilik ruhu ilə zəhərlənmiş Avropa romantik yazarları, əslinə uyğun olmyan reaksiyalar doğuraraq, millətdə intiqam hissini alovlandırır və islama qarşı kin ruhunu təbliğ etməyi bir vəzifə kimi onların qarşılarına qoyurdu. Və onuda məqsəd qoymuşlar ki, yer üzündə Türk milləti, müsəlman qalmasın.

"Vəhşi", "barbar" və s. kimi mənası açıq-aydın görsənən sözlərin hər hansı bir şəxsə aid edilməsi daha asan başa düşülən olur, nəinki bütöv bir xalqa. Bu baxımdan xaçpərəstləri qətliama uğradan "barbar", "vəhşi" türklər, türk düşmənləri və onların havadarlarına cavab verə biləcək layiqli qələm sahiblərimiz var idi.

Əlbəttə, bütün bu söylənilənlər türklərin milli heysiyyəti və izzəti-nəfsinə toxunmaya bilməzdi. Buna görə də ilk növbədə söz sənətkarları – jurnalistlər, publisistlər, yazıçı və şairlər öz millətlərinin heç də qələmə verildiyi kimi "vəhşi", "qəddar", "qaniçən", "qeyri-insani sifətlərə malik olduqları üçün, insan cəmiyyətində yaşamağa haqları olmayan" varlıqlar olmadığını, dünyanın başqa millətləri ilə birgə yaşamaq hüququ olduğunu sübut etməyə çalışırdılar.

Məhəmməd Hadi, Hüseyn Cavid, Hacı Kərim Sanılı, Əhməd Cavad, Abdulla Şaiq, Əmin Abid, Üzeyir Hacıbəyli, Seyid Hüceyn, Cəfər Cabbarlı, Abdylla Sur, Tağı Şahbazi Simurq, Üm Gülcüm kimi ziyalılar ön cərgələrdə gedənlərdən biri idilər. Onları milli ruh düşüncəsi ilə yaşayan, mübarizə aparan Vətəninin, xalqının azadlığından başqa bir şeyi düşündürmədiyi üçün o zaman belə qələm sahiblərinə cavab verməyi ağıllarına belə gətirməmişdilər. Ancaq Azərbaycan müstəqillik qazanandan sonra açılan arxivlər, "pambıqları tökülən sandıqlar" öz gözlərində olan "tiri" görməyib, başqalarının gözündə çöp axtaranların layiqli cavabını verməyə bacarığı olan görkəmli ziyalılarımızın, elim adamlarımızın olduğunu söyləyə bilərik.

Hüseyn Cavid, Abdulla Sur, İdris Axundzadə kimi görkəmli ziyalı və pedaqoqlardan dərs alması genc yazıçı və şairlərimizin taleyində vətənpərvərlik duyğularının aparıcı mövqe tutması üçün əsas özül və ilham mənbəyi rolunu oynayırdı. Elə bu ruhda tərbiyə almış gənc yazarlarımızdan Əhməd Cavad, Abdulla Şaiq və onlarca qəlbi qardaşlıq hissiylə döyünən ziyalılarımız, qələminini yerə qoyaraq ürəyinin çağırışı ilə 1912-ci ildə qardaş Türkiyəyə Istanbula gedərək türklər üçün ədalətsiz olan Balkan müharibəsində könüllülər sırasında döyüşlərdə iştirak edir, qəhrəmanlıqla vuruşurdular.

Hüseyn Baykara yazırdı:*"1912-ci il Balkan müharibəsi başlanmış, Osmanlı Dövləti içində Balkanlı və Türkiyəli türk qardaşları faciəli günlər yaşamaqdadırlar. Azərbaycandan Istanbula könüllülər axmaqdadır.*

Istanbulda qurulan 'Qafqaz Könüllü Qitəsi' sıralarında Ə. Cavdı Azərbaycanın klassik ədib və şairi və pedaqoqu olan qardaşı Abdulla Şaiq ilə birlikdə, Trakya cəbhəsində soydaşları olan Türkiyə 'Mehmet'ləri ilə səngərlərdə çiyin-çiyinə savaşa girmiş və düşmənlə çarpışarkən görürük" (1975: 7). 1914-cü ildə Birinci Dünya müharibəsi başlayanda ziyalilarımız xeyriyyə işləri ilə məşğul olmağa başlayır. Türkiyə ilə Azərbaycanı vahid Vətən olaraq fərqləndirməyən şairlərimiz hər iki Vətən üçün əlindən gələn işləri görür, "Xeyriyyə cəmiyyəti"nin işlərində fəal iştirak etməklə öz vətənpərvərlik borcunu şərəflə yerinə yetirirlər. Bunu Azərbaycanın istiqlal şairlərindən biri olan Ə. Cavadın 1919-cu ildə Ankara şəhərində çap olunmuş "Çırpınırdı Qara dəniz" adlı əsərində daha aydın görürük.

"Çırpınırdın Qara dəniz" türkün istiqlal mübarizəsinə həsr edilmiş əsər kimi böyük əhəmiyyət daşıyır. Əslində bu şeir, yalnız Qara dənizə deyil, Türk bayrağına həsr olunmuş və türkçülük ideyalarını daşıyan, türk birliyi motivləri çox güclü səslənən bir şeirdir. "Çırpınırdı Qara dəniz" şeiri sonralar Türkiyə Milli İstiqlal Partiyasının himninə çevrilmişdir. Şeirdə türk elləri, onların azadlıq və istiqlal təşnəsi Qara dənizə müraciətlə belə vəsf edilir:

Çırpınırdın, Qara dəniz,
Baxıb Türkün bayrağına,
"Ah!" deyərdin, heç ölməzdim,
Düşə bilsəm ayağına!
Ayrı düşmüş dost elindən,
İllər var ki, çarpar sinən,
Vəfalıdır gəldi-gedən,
Yol ver Türkün bayrağına…
...
Dost elindən əsən yellər
Bana şeir, salam söylər.
Olsun bizim bütün ellər
Qurban Türkün bayrağına (Cavad 1990: 92).

Fevral burjua-demokratik inqilabından sonra müəyyən siyasi azadlıqlar əldə edərək açıq fəaliyyət göstərməyə başlayan "Müsavat" partiyası çox qısa müddətdə Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda mübarizəsinin liderinə çevrildi və xalqın bu mübarizəsi 1918-ci ilin 28 mayında ölkəmizin müstəqil dövlətə çevrilməsi ilə nəticələndi. Qarşıda çox nəhəng və ağrılı problemlər durmasına baxmayaraq, ADR dövründə ədəbi-mədəni inkişaf məsələlərinə də çox diqqət ayrılır və bu sahədə görünməmiş quruculuq tədbirləri həyata keçirildi.

"Milli Azərbaycan Respublikasının qurulduğu 1917-ci və 1918-ci illərdə Azərbaycan xalqı tarixinin ən həyəcanlı günlərini yaşayırdı.Ədəbiyyat və sənət bu həyəcana tərcüman olur, milli istiqlal

günlərinə yaxınlaşmanın şövq və sevinci içində yaşayır, böyük ümidini bütün həssaslığı ilə tərənnüm edirdi" (Rəsulzadə 1991: 59).

Milli dövlətin yaranmasına ürəkdən sevinən və bu böyük tarixi hadisələri öz əsərlərində tərənnüm edən yazıçı və şairlərimiz Azərbaycan ədəbiyyatına böyük töhfələr vermişlər.

"Ümumiyyətlə, Məhəmməd Hadi və Hüseyn Cavid, Hacı Kərim Sanılı və Əhməd Cavad, Abdulla Şaiq və Əmin Abid, Cəlil Məmmədquluzadə və Üzeyir Hacıbəyli, Seyid Hüseyn və Cəfər Cabbarlı, Abdulla Sur və Tağı Şahbazi Simurğ, Yusif Vəzir Çəmənzəminli və Firidun bəy Köçərli, Ümgülsüm və İ. Aşurbəyli bilavasitə Azərbaycan istiqlalına, milli dövlətə, bayrağa, gerbə, türklük idealına və ümumbəşəri islami dəyərlərə həsr etdikləri ən yaxşı ədəbi-bədii, elmi-publisistik, fəlsəfi-tarixi əsərləri bu illərdə yazmışlar" (Qarayev 1980: 115).

Bu illərdə türkçülük və turançılıq ideyalarının beşiyi olan Azərbaycanda, sonra isə Türkiyədə irəli sürülən və öz bədii həllini tapan bir çox konsepsiyalar görkəmli ədiblərimizin yaradıcılığı üçün yad deyildi və onların sənətinin ideya-estetik istiqamətinin müəyyənləşib formalaşmasına müəyyən təsir göstərirdi. Ancaq xristian, xüsusən də erməni təəssübkeşliyinə istər-istəməz verilməli olan bir cavab kimi doğulan və elə həmin təəssübkeşliyin özü tərəfindən də təhqiramiz "pantürkist" damğası ilə gözdən salmağa çalışan milli hərəkat, heç də xristian və erməni şovinizmi kimi türkləri yer üzərində müstəsna millət saymır, bu cür xəstə düşüncələrlə yaşamırdı.

Əhməd Cavad və onun kimi düşünən gənc yazarlarımız həmin məsələlərə münasibətini belə bildirirdi: *"Bu gün ümumbəşəri əhəmiyyəti olan bir hərəkatdan saparaq dar bir çərçivəyə girmək, bəşəriyyətə xəyanət etmək deməkdir"*.

Bu, bir türk düşüncəsi idi, – Yer üzərini Vətən, göy üzünü tavan bilən, sərhədlər-sınırlar tanımayan, dar milli düşüncəsizlikdən, özünü bütün bəşəriyyətin fövqünə qoymaqdan uzaq olan bu insaların qənaəti və mövqeyi idi. Söz yox ki, ümumbəşəri düşüncə dar milli məhdud şovinizmlə qarşılaşanda özünə yer tapa bilmir, varından-yoxundan olur, sel kimi coşan qəzəbini odlu-alovlu misralarda ifadə edirdi.

Türkçülüyün elmi-nəzəri əsaslarını işləyib hazırlamış Ziya Gökalp həmin milli-ictimai doktrinanın yaranmasında və inkişafında Azərbaycanın böyük oğlu Əlibəy Hüseynzadənin bu hərəkatdakı əvəzsiz roluna yüksək qiymət verərək yazırdı:

"Rusyadan İstanbula gələn Hüseynzadə Əlibəy Tibbiyyədə türkçülük əsaslarını anlatıyordu. 'Turan' ismindəki şiiri panturanizm idealının ilk təcəllisi idi. Yunan hərbi başladığı sırada (1897) türk şairi Məhməd Əmin bəy

Bən bir türküm, dinim, cinsim uludur

Misrası ilə başlayan ilk şeirini nəşr etdi. Bu iki mənzumə türk həyatında yeni bir inqilabın başlayacağını xəbər verirdi. Hüseynzadə Əlibəy Rusyadakı milliyyətçilik akımlarının təsiriylə türkçü olmuşdu. Bilxassə, hələ kollecdə ikən gürcü gənclərindən son dərəcə milliyyətpərvər olan bir arkadaşı ona milliyyət eşqini aşılamışdı" (Gökalp 1968: 9-10).

Göründüyü kimi, yazarlarımızın əsərlərində qoyub əks etdirdiyi problemlərdən ən başlıcası – insan azadlığı və hüquqlarıdır. Bu elə bir dövr idi ki, nəinki Qərbdə, eləcə də Şərqdə millətlər oyanıb öz hüquqlarını anlamış və bunun deklarativ səciyyəsini aradan qaldırıb reallığa çevirmək uğrunda mübarizəyə başlamışdılar. Ədiblərimiz məhz həmin ideyaların təsiri altında Yer üzərində baş verən ədalətsizliklərə, bir millətin başqa bir millət tərəfindən istismarına və əzilməsinə qarşı öz etiraz səsini ucaltmış və bunun, doğrudan da, "mütərəqqi bəşəriyyətə" təsir edəcəyinə inanmışlar. Elə ona görə bu ziyalılarımız ritorik suarlarla irəli sürdüyü tələblərə və törədilən beynəlxalq cinayətlərə bəşəriyyətin reaksiya verəcəyinə ürəkdən inanırdılar. Qələm sahiblərimiz məhz bu cür hisslərin təsiri altında vətənpərvər bir ziyalı kimi böyüyür və təkcə Azərbaycana deyil, bütün türk dünyasına xidmət edirdilər.

"Müsavat" partiyası yarandığı ilk dövrlərdə türkçülük ideyaları ilə yanaşı, daha çox islamçılıq ideyalarını rəhbər tuturdu ki, bu da, zənnimizcə, Osmanlı imperatorluğunun özünü bir islam xəlifəliyi şəklində təqdim etməsi ilə bağlı olmalı idi. M. B. Məmmədzadə:

" 'Müsavat'ın ilk proqramı və bəyannaməsi islami mahiyyətdədir. Burada 'ümmət' ilə 'millət', 'türklük' ilə 'müsəlmanlıq' bir-birlərindən təfriq edilməmişdir. Qayəsi isə: müstəqil bütün müsəlman dövlətlərinin istiqlallarını mühafizə və məhkum bütün müsəlman millətlərinin istiqlala qovuşmalarına yardımdır.

Balkanlardan Qafqaziya və Türküstandan Türkiyə, İran və Əfqan üzərinə yürüyən Rusun imperializminə qarşı bir əksüləməl olmaq üzrə doğan bu təşəkkül, taktika etibarilə inqilabçıdır, Rus çarlığını devirmək istər və bu məqsədlə Rus ixtilalçı, o zamankı təbirlə 'bəşəri' siyasi firqələr ilə və islam millətlərinin istiqlalına xidmət edən başqa müsəlman firqələri ilə birlikdə çalışır" (Məmmədzadə 1991: 1-2).

Xalq Cümhuriyyəti və bir qədər ondan əvvəlki dövr ədiblərimizin həyatı və yaradıcılığı təkcə Azərbaycan istiqlalı uğrunda deyil, həm də Türkiyənin ağır geosiyasi vəziyyətə düşdüyü o illərdə qardaş ellərin istiqlal uğrunda mübarizə salnaməsi kimi səslənir. Hüseyn Baykara *Azərbaycan istiqlal mücadiləsi tarihi* adlı əsərində bu məsələyə xüsusi önəm verərək yazır:

"Bakı savaşı zəfərlə sonuclanır, Azərbaycan xalqı istiqlala qovuşur. Milli müstəqil Azərbaycan dövləti qurulur. Bir kaç ay sürür bu sevinc və məsud günlər. Hərbin taleyi 'qarayazılı' günlərini gətirir Türkiyəyə. Mondros mütarikəsiylə Türkiyə savaşdan çəkilir və silahı buraxır. İzmir yunanlılar, İstanbul da ingilislər tərəfindən işğal edilir. Əhməd Cavad bu durumdan yaslara bürünən bütün Türkiyə və Azərbaycan xalqı ilə birlikdə dərdlənir və İstanbulun işğalında şöylə yazır:

O sevdiyim mərmər sinəli yarın
Diyorlar qoynunda yabançı əl var.
Baxıb üfüqlərə, uzaq yollara,
Ağlıyormuş mavi gözlü axşamlar" (Baykara 1975: 195).

27 Aprel 1920-ci il Azərbaycan Cümhuriyyəti torpaqlarının Qızıl Ordu tərəfindən işğalı, "Türk birliyi" fikrinin gerçəkləşməməsi hər bir ziyalı üçün sarsıntı oldu.

Xalqın dərdinə şərik olan ədiblərimiz hər zaman millətin azadlığı, istiqlalı ugrunda qələmi ilə mübarizə aparmış, yaradıcılıqlarında türk xalqının qanı bahasına olsa belə, heç vaxt məglub olmayacaqlarını, hər bir sətirlərində səsləndirmişlər.

Azərbaycan xalqı XX-ci əsrin əvvəllərində 23 ayda qoruyub əldə saxlaya bilmədiyi azadlıgına, 1993-cü ildə Ulu öndərimiz Heydər Əliyevin güclü siyasəti və vətən ogullarının, şəhidlərimizin tokdüyü qanı bahasına yenidən qovuşdu. Bayrağına, gerbinə, müstəqilliyinə sarılan millət bir daha sübut etdi ki, Azərbaycan dövləti gec də olsa itirdiklərinə sahib çıxır.

Hadinin dediyi kimi: *"Əgər vətən azadlıq, istiqlaliyyət kimi müqəddəs nemətlərdən məhrum isə, onda bəs onun nəyi vardır?"*

XXI-ci əsrdə Azərbaycan xalqı bir daha sübut etdi ki, onun "azadlığı","istiqlaliyyəti" və ən güclü dövlətlər sirasında dayanacaq "qüdrəti" vardır.

Qaynaklar

1. Baykara, Hüseyin (1975). *Azərbaycan istiqlal mücadiləsi tarihi*. İstanbul: Azerbaycan Halk Yayınları. 380 s.
2. Cavad, Əhməd (1990). *Çırpınırdı Qara dəniz*. – Hazırlayanı, ön sözün, qeyd və izahların müəllifi Sərvət Gürcan. Ankara. 120 s.
3. Qarayev, Yaşar (1980). *Realizm: sənət və həqiqət (Azərbaycan realizminin mərhələləri)*. Bakı. 258 s.
4. Məmmədzadə, Mirzı Bala (1991). *Milli Azərbaycan hərəkatı*. Ankara. 240 s.
5. Rəsulzadə, Məmməd Əmin (1991). *Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi*. Bakı. 96 s.
6. Gökalp, Ziya (1968).*Türkçülüyün əsasları*. İstanbul: Varlık Yayınları. 358 s.

MİLLİ MÜCADİLƏNİN ÜÇLÜ DÜSTURU – TÜRKLƏŞMƏK, İSLAMLAŞMAQ, AVROPALAŞMAQ

*Səməddinqızı İnci NAĞIYEVA**

İlkin düşüncənin formalaşması

Biz bu gün sahib olduğumuz mədəni, ədəbi, sosial dəyərlər üçün Əli bəy Hüseynzadə və onun yol yoldaşlarına çox şey borcluyuq. Çünki malik olduğumuz bu əvəzolunmaz mənəvi sərvətlərin bir istinad nöqtəsi, güc aldığı bir ideologiya axını olubdur. Həmin gücün mənbəyi Ə. Hüseynzadə və həmin dövrün aydınları idi. Ə. Hüseynzadənin yaratdığı fikir cərəyanı, mətbuat hərəkatı Azərbaycan xalqının ictimai, siyasi, ədəbi və estetik fikrinin inkişafında yeni mərhələ açmış və eyni zamanda ortaq türk mədəniyyətinin bugünkü təşəkkülü üçün zəmin hazırlamışdır.

Yusif Akçura öz qeydlərində göstərir ki, əfsanəvi Əli bəy dünyanın bütün dillərini, elm və fənlərin hər növünü, ədəbiyyat və incəsənətin hər şöbəsini tamamən əhatə etmiş və tətbiqə müvəffəq olmuş bir fövqəlbəşərdir... Bu fövqəlbəşər insanın düşüncə dərinliyinin və rəngarəngliyinin hərtərəfli olmasında erkən yaşlardan yiyələndiyi təlim və tərbiyənin xüsusi təsiri vardır.

Qafqaz şeyxülislamı Axund Əhməd Səlyaninin nəvəsi olan Ə. Hüseynzadə Səlyanda doğulmuş, valideynlərini uşaq yaşlarda itirdiyindən babasının yanında böyümüş, onun himayəsi ilə Tiflisdə orta təhsil almışdır. Fars, ərəb dillərini, ədbiyyatlarını dərindən mənimsəmişdir. Doğma Azərbaycan türk dilinə məhəbbəti olan baba fitrətən istedadlı olan nəvəsinin həyatda düzgün yol tutmasında xüsusi rol oynamışdır. XIX əsrin ikinci yarısı çarizm bayrağının Rusiya asılılığında olan bütün xalqların başı üzərində qəzəblə dalğalandığı bir vaxtda Axund Əhməd Səlyani milli və dini dəyərləri nəqqaş həssaslığı ilə nəvəsinin hafizəsinə işləmişdir, bundan əlavə uzaqgörən baba nəvəsini Tiflis gimnaziyasında təhsil almasını təmin edir. Ə. Hüseynzadə burada digər dillərlə yanaşı alman və rus dillərini, dünya elmlərini dərindən öyrənmişdir.

* Bakı Mühəndislik Universiteti, müəllim; *inagiyeva@beu.edu.az*

Bir axundun nəvəsinin belə bir təhsil müəssisəsində oxuması o dövr ictimaiyyəti üçün yadırğanan addım idi. İnsanlarda belə bir qorxu var idi ki, bu yol yadlaşmağa, ruslaşmağa aparır. Axund Səlyani ruslaşmaq və farslaşmağın qarşısını almağın maraqlı bir yolunu ortaya qoyur – həmin mədəniyyəti dərindən öyrənmək, lakin ona çevrilməmək. Bu yanaşma ilə qarşılaşdığımız zaman daha çox keçən əsrin əvvəllərində mətbuatın, əsasən, satirik üslublu ədiblərin tənqid hədəfinə tuş gələn "mollalar" gözümüzdə bir az daha öz "dəyərini" tapır. Bu mənada Ə. Hüseynzadənin yetişməsində başlıca amil şeyxülislamdır, ilk milli-intelektual təkan Axund Əhməd Səlyanidən gəlir. Belə görünür ki, Ə. Hüseynzadə Dünya mədəniyyətləri və dilləri ilə rabitəliliyə isti münasibəti, türk dilinə xüsusi məhəbbəti olan mükəmməl ilahiyyatçı, alim şeyxülislamdan onun sonradan yaradıcılıq və həyat fəlsəfəsinin əsasında dayanan məşhur üçlü düsturunu miras almışdır. Azər Turanın fikrincə isə: *"Sonralar Bakıda və İstanbulda türkçülük məfkurəsinin mötəbər öndərinə çevrilən Əli bəy Hüseynzadə Turan çoxlarından fərqli olaraq axıracan islam dəyərlərinə sadiq qalır. Türkçülüyün əsaslarını hazırlamış Ziya Gökalpın, Abdulla Cövdətin təlqinləri ilə başdan-başa Qərb dəyərlərinə istiqamətlənmiş baxışlarını Turan və iman işığına cəzb edən dahi Əli bəyin qurduğu məfkurə sistemində üç təməl prinsip – türkləşmək, islamlaşmaq və çağdaşlaşmaq triadasının ilk iki mərhələsi məncə, daha çox şeyxülislamın dəst-xəttini yansıdırdı. Sonra Əli bəyin nişan verdiyi bu yolu Ziya Gökalp davam etdirdi. Məhəmməd Əmin Rəsulzadə və Atatürk onu dövlət məfkurəsinə - Türkiyə və Azərbaycan cümhuriyyətlərinin ideoloji altyapısına çevirdilər"* (Turan, 12).

Əli bəy ictimai-siyasi fəaliyyətə çox gənc yaşlarında - 20 yaşlarında "türk birliyinin ideoloqu" kimi başladı. Səməd Ağaoğlu *Babamın arkadaşları* əsərində Əli bəy Hüseynzadəni "pərdə arxasındakı adam" adlandırır. Əli bəy Hüseynzadə haqqında bundan dəqiq və mükəmməl bir təqdimat təsəvvürə gətirmək mümkün deyil. Ağaoğlu yazırdı: *"İttihadçılar zamanında, onlara yol göstərən fikir cərəyanları sonrakı dövrlərə nisbətən daha çox, daha ahəngli idi. Bu adamlar nə etmək istədiklərini, nələr edəcəklərini yaxşı bilirdilər. Bu baxımdan birinci səfin arxasında fikir və düşüncə aşılayan elə insanlar vardı, günün birində bunların tarixi hizmətləri bəlkə meydana çıxa bilər; fəqət üzləri insan olaraq, dost və arkadaş olaraq həmən həp məchul qalacaqdır! İştə bu insanlardan biri də babamın, bu bəyaz saqqallı, pəmbə üzlü, gözəl gözlü, şair, rəssam, musiqişünas, filosof, qəzetəçi, münəccim, professor, doktor, qafqazlı arkadaşıydı... Xeyr, xeyr, mübaliğə etmirəm; babamın bu arkadaşı bütün bir dövrün, həqiqətən, gizli həyat qaynaqlarından biri olmuşdur"* (s. 83). S. Ağaoğlu haqlıdır. Bütün hallarda Ə. Hüseynzadə pərdə arxasındadır. Pərdənin önündə baş verənlər və həm də türk dünyasının XX-ci yüzili daha çox onun əsəridir...

Ə. Hüseynzadənin üçlü düsturu

Ə. Hüseynzadə əsrin əvvəllərində milli-istiqlal uğrunda mübarizə yollarının hələ müəyyənləşmədiyi bir dövrdə türkçülük ideologiyasını üç nəzəri təmələ – "Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq" məramına bağlayaraq ictimai, siyasi fikir tariximizdə yeni bir səhifə açmışdır. "Türklər ya ölərlər, ya hicrət edərlər, fəqət qul olmazlar". Daim bu düşüncə ilə yaşayan Əli bəy Hüseynzadə həyatın mənasını ilkin rüşeymlərini sələflərindən almış olduğu "Türkləşmək, Avropalaşmaq, İslamlaşmaq" doktrinası ilə xalqa xidmətdə və xalqının mənəvi dirçəlişinə verdiyi töhfələrdə görürdü. O, bu elmi-nəzəri doktrina ilə türkçülük ideologiyasının bünövrəsini möhkəmlədir, həmçinin bu "üçlü qayə" ilə türk xalqlarının fikri inkişafına türkləşməklə – milliözünüdərki, islamlaşmaqla – islam intibahını, avropalaşmaqla – Qərb və Şərq mədəniyyətlərinin sintezini gətirmişdir. Milli, islami, ümumbəşəri dəyərlərə söykənən, əsrin mühüm şüarına çevrilən bu üçlü düstur o zaman təkcə Azərbaycan türklərinin deyil, bütün türk xalqlarının milli şüurunun inkişafında böyük rol oynamışdır.

Azərbaycan Demokratik Cümhuriyyətinin də yaranma düsturunda bu üçlü qayə ana xətti təşkil etmişdir. M. Ə. Rəsulzadə *Azərbaycan Kültür Gələnəkləri və Çağdaş Azərbaycan ədəbiyyatı* əsərində də üç ümdənin - əsasının Əli bəy Hüseynzadəyə aid olduğunu açıq bir dillə bildirmişdi: *"Beynəlmiləl demokratiya prinsiplərinə dayanaraq qurulan bu cümhuriyyət - mavi, qırmızı, yaşıl – üçrəngli bayrağıyla Azərbaycan kültür gələnəklərinin bir xülasəsini rəmzləndirirdi. Mavi rəng türklüyün, yaşıl rəng islamlığın, qırmızı rəng də çağdaşlığın əlamətiydi. Vaxtilə Füyuzat məcmuəsinin fazil mühəriri 'Türk qanlı, islam imanlı və firəng fikirli olalım' demişdi"* (Rəsulzadə, 37).

Görkəmli türkçü alim Ə. Cəfəroğlunun dediyi kimi: *"Bu ixtiyar və imanlı türkçü, bu üçlü məramla milli istiqlalın fikri mücadiləsinin 'Ana Yasası'nı meydana qoymuşdur"* (Cəfəroğlu, 34).

Ə. Hüseynzadə tarixi cavabdehliyi öz öhdəsinə götürərək əsrin "Biz kimik?" həyəcan səsinə "...əvvəla əmrdə özümüzü tanımalıyıq" – deyə cavab verərək yazır ki: "*O tayfa, o millət təriqi-fəlah və nicatda olur ki, özünü tanıya. Yəni hər qövm və millət öz qövmiyyətinə, lisanına, dininə, tarixinə, adət və əxlaqına vəlhasil özünün bütün əhvali-maziyyə və hazirəsinə, hətta əhvali-atiyyəsinə kəsbi-vüquf eyləməlidir."* (Hüseynzadə, №1) – deyərək türk xalqlarının fikir tarixinə ilk dəfə milliözünüdərk problemini gətirir. Böyük millətpərəst mütəfəkkir eyni zamanda türk xalqlarını birliyə, bərabərliyə səsləyir, ittihad və tərəqqi proqramı ilə öz çağırışına davam edirdi. *"Ucundadır dilimin həqiqətin böyüyü"* misraları ilə başlayan şeirin bir hissəsində böyük mütəfəkkir pərakəndə halda olan türk xalqlarına səsini duyurmağa çalışır. Şeirdə ədibin iztirabını hiss etmək mümkündür:

...
Düşmən qırar qapıyı,
Biz evdə bixəbəriz.
Nə başqa-başqalarız,
Nə ittihat edəriz.

Həmçinin öz keçmişini soykökünü unutmuş türk xalqlarını da bu ittihada cəlb etmək arzusunda olduğunu görürük:

Sizlərsiniz ey əhli Macar bizlərə ixvan,
Əcdadımız müştərəkən mənşəyi Turan.
Bir dindəyiz biz həpimiz həqpərastan,
Mümkünmü ayırsın bizi İncililə Quran.
Çingizləri titrətdi şu afaqı sərasər,
Teymurları hökm etdi şahənşahlara yeksər.
Fatehlərinə keçdi bütün kişvəri-qeysər.

Dərin (və mükəmməl) eyni zamanda romantik duyğulara köklənmiş, öz milləti ilə yanaşı beynəlmiləl, dünyaya, ümumən insana ünvanlanmış Ə. Hüseynzadə yaradıcılığı və poeziyası üsyankar deyil, olduqca təmkinli, olduqca sülhpərvərdir.

Milli mücadilə

1904-cü ildə Qahirə şəhərində çıxan *Türk* qəzetinin 56-cı sayında dərc olunmuş "Məktubiməxsusi" məqaləsi Ə. Hüseynzadənin türkçülük – Turançılıq ideologiyasının və onu həyata keçirmək planlarından xəbər verirdi. Demək olar bu onun milli mücüdilə yolunda atdığı ilk addım idi. "A. Turani" imzası ilə çap etdirdiyi bu məqalə onun türk tarixini gözəl bilən bir siyasətçi kimi Azərbaycan və Qafqaz türkləri arasında hörmət və etimadını yüksəltdi. 1905-ci ildə iyunun 7-də Hacı Zeynalabdin Tağıyevin maddi dəstəyi ilə nəşrə başlayan *Həyat* qəzeti Ə. Hüseynzadənin ideoloq kimi şöhrətini daha da artırdı. O, qəzetin redaktoru olmaqla yanaşı, həm də mövcud problemlərə həsr etdiyi maraqlı məqalələri ilə ziyalılarda milli ruhu gücləndirirdi. Onun "Rusiya inqilabının əhəmiyyəti – aliyyəsi", "Milliyyət və insaniyyət", "Molla Nəsrəddin" və "Dəbistan", "Molla Nəsrəddinə salam", "Türk dilini öyrənməyin faydaları", "Hürriyyət və Vətəni-Firdovsi" "Qəzetimizin məsləki", "Hürriyyət", "İntiqad", "Erməni vətəndaşlarımıza tövsiyə və ixtiratımız" və digər məqalələri o dövrün mövcud problemlərinə aydınlıq gətirirdi.

1905-ci ildə Rusiyada baş verən inqilab bu inperiyanın tərkibində yaşayan bir çox asılı xalqların azadlıq eşqini yenidən coşdurdu və müstəqillik, sərbəstlik, demokratiya uğrunda mübarizə əhvalruhiyyəsini gücləndirdi. *"Rusiyanın bir başından o biri başına qədər bütün camaatın gözünün açılması",* öz haqqını istəməsi Ə. Hüseynzadəni sevindirirdi. O, inanırdı ki, rus inqilabı ilə *"...siyasi və iqtisadi bir əsarətin yavaş-yavaş rəf olması ilə bəşəriyyət*

üçün yeni və müşəşşə bir dövr başlayacaqdır" (Hüseynzadə №142). Təəssüflə qeyd etməliyik ki, həmin vaxt Azərbaycanda ideoloji baxımdan ziyalılar müxtəlif qütblərə səpələndi, onların bir qismi bolşeviklərin, bir qismi iranpərəstlərin, bir qismi isə müstəqil Azərbaycan dövləti qurmağın niyyətində olan milli demokratik qüvvələrə həmfikir olmuşdular. Əlbəttə, burada Ə. Hüseynzadənin məfkurəsi bəlli idi. Bu parçalanmaya o, "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" məqaləsində etirazını bildirərək, bunların səbəbini inqilab hərəkatının kim üçün, nə üçün baş verdiyini anlamamaqda gördüyünü yazmışdı. Məqalədə Azərbaycanın ziyalıları birliyə dəvət olunmuş, maarif və mədəniyyətə nail olmaq işi əsas vəzifə olaraq ortaya qoyulmuşdur: *"Bizim özümüzə məxsus daha layiq, daha şanlı vəzifeyimücahidatımız vardır ki, o vəzifə də zülməti-qəflətdə bulunan külliyyəti avam arasında nuri-məarifi əkməkdir diyoruz. İştə bu nuri-məarif də, Qarabəy Qarabəyov özü də və bütün onun kimi münəvvərüləfkar olan mücahidani-sübhanımız da yaşıl işıqlardır. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Yaşıl deriz, çünki öz müsəlmanlarımızdırlar"* (Hüseynzadə №5). – deyən mütəfəkkir sovet qırmızısının içində təhlükəli qaranlıqları sezir və rusların inqilabına qoşulan Azərbaycan ziyalılarını onların içərisində yaşıl işıqlara bənzədir. Onları Qarabəy Qarabəyovun timsalında "müsəlman" qalmağa, yollarını azıb çaşmamağa səsləyir. Həmçinin, həmin məqalədə müllif nəinki Azərbaycanda yaşayan müsəlmanları, Rusiyanın digər ərazilərində yaşayan İslam dininə mənsub olan insanları birləşdirə biləcək qəzet, jurnal, cəmiyyətlər yaratmağın zəruriliyini vurğulayır. Avropanın bir çox irəliləmiş ölkələrində olduğu kimi "ittihad və trəqqi" proqramına uyaraq nicat tapmaq. O, inqilabların silahlı mübarizə yolunu hümanist, mütəfəkkir ideoloq kimi qəbul etməyirdi və yazırdı: *"...həqiqi vətənpərvərlər heç bir vasitədən çəkinməməlidirlər. Əldə qan tökməyəcək çarələr var ikən xunrizanə vəsaitə müraciət etmək əbəsdir"* (Hüseynzadə, №2). Türk xalqlarını inqilab yolundan çəkindirməyə çalışarkən, onları inandırırdı ki, türk xalqlarının nicat yolu inqilabda deyil, tərəqqi və təkamül yolundadır. Buradan da göründüyü kimi Əli bəy hüseynzadə Bir Dünya sakinidir. O, dünyada sülh, harmoniya yaratmağa çalışan, mənsub olduğu xalqı dünya xalqlarından nə aşağıda, nə yuxarıda görmək istəməyən, milləti üçün nə istəyirdisə, bütün millətlər üçün də onu istəyirdi.

Nizami Cəfərovun sözləri ilə desək: *"Əli bəy Hüseynzadə siyasətində də, fəlsəfəsində də, bədii yaradıcılığında da romantik idi... mütəfəkkir nə qədər romank ola bilərdisə, o qədər yox; romantik nə qədər mütəfəkkir ola bilərdisə, o qədər mütəfəkkir idi. Və insana, insanlığa təcavüz başladığı yerdə Əli bəy Hüseynzadənin fəlsəfəsi bitirdi"* (Cəfərov, 54).

Əli bəy Hüseynzadə təkcə Azərbaycan Dümokratik Cümhuriyyətinin milli mücadiləsinin "fədai"si deyildi, həmçinin onun üçlü düsturu beynəlmiləl

səciyyə daşıyırdı, yəni bu proqramda Türk xalqları və bütün Dünya insanlarına hümanist münasibət, xoşməramlı rəftar ön planda idi.

Qaynaqlar

1. Azər Turan (2008). "Əli bəy Hüseynzadə". *Salam press*. Moskva. s. 12.
2. Səməd Ağaoğlu (1969). *Babamın arkadaşları*. İstanbul: Baha matbaası. s. 83.
3. M. E. Resulzade (1984). *Azerbaycan Kültür Gelenekleri ve Çağdaş Azerbaycan Edebiyatı*. Ankara. s. 37.
4. Əhməd Cəfəroğlu (1940). *Azərbaycan* məcmuəsi.. s. 34.
5. Əli bəy Hüseynzadə (1905). "Qəzetimizin məsləki", *Həyat*, №1.
6. Ə. Hüseynzadə (1906). "Sola, sola, sol tərəfə", *Həyat*, , №142.
7. Ə. Hüseynzadə (1906). "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar", *Füyuzat*, №5.
8. Ə. Hüsenzadə (1906). "Vəqayeyi-aləmə bir nəzər", *Füyuzat*, №2.
9. Nizami Cəfərov (2011). *"Tarixin müasirliyi və müasirliyin tarixi*". Bakı. 2011. s. 54.

TÜRK ŞİİRİNDE ATATÜRK İMGESİ

*Mərziyyə NƏCƏFOVA**

Cümhuriyət dönəmindən sonra Türk ədəbiyyatında Mustafa Kamal Atatürkün fəliyyətindən, savaşlarda iştirakından bəhs edən ədəbiyyat nümunələri yaranmağa başladı. Ədəbiyyatın bütün janrında uca Atatürk obrazını görmək olurdu. Və təbi ki ədəbiyyatın ən fəal qolu olan poeziya və publisistikada bu nümunələr çoxluq təşkil edirdi. Uzun bir zaman ötüb. Amma bu gün bütün türk dilli xalqlar ədəbiyyatında Atatürk haqqında yazılan şeirlərə rast gəlinir. Müəllifindən, xalqından ölkəsindən fərqli olaraq bu nümunələr böyük atatürk sevgisi ilə yazılır. Publisistika sahəsində isə onun gördüyü işlər, əsas fəliyyəti, insanlara münasibət, millətin hür duyğularına baxışı əsas xətt kimi işlənilir. Ədəbiyyatda Atatür obrazından danışarkən çox təbii ki, ilk öncə ya da türkiyə şairlərinin şeirləri xatırlanır. Cahit Külebi, Cahit sıtkı tarançı, İşık German Ersoy, Mitat Cemal kuntay, Osman Atilla, Vehbi Kızılgün Mitat Göpür və yüzlərcə şairin şeirləri xatırlanır. Atatürkün savaşlarda, Karsda, Ərzurumda, Amasyada, Samsunda və digər bölgələrdəki qəhrəmanlıqları poetik şəkildə ifadəsini tapıb. Bu baxımdan Cahit Külebinin "Atatürk kurtuluş savaşında" şeiri qiymətli bir nümunədir.

Kemal Paşa, yenimez yigit, şanlı komutan!
Savaç girer gibi yetiş bize!
Yetiş bize çöllerde bele olsan!
İnanc doldur, güc doldur içimize!

Əslində Kemal paşaya olan inam, güvən hissləri o qədər güclüdür ki, sadəcə olaraq onun döyüşlərdə əsgərlərin yanında olması əsgərlərə ruh və güc verərmiş. Şairin bu misralarının əslində təhlilə belə ehtiyacı yoxdur. Atatürk sevgisindən çirə çəkən misralar axıcı və sadədir.

Şeirdə atatürkün Samsuna gəlişindən şirin bir dillə bəhs edilir.

* AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda baş elmi işçi, Filologiya elmləri doktoru; necefova.merziyye@mail.ru

Bir gəmi yanaşdı Samsuna sabaha karşı
Selam durdu kayığı, çaparı, takası,
Selam durdu tayfası
Bir duman tüterdi bu geminin bacasından bir duman
Duman degildi bu!
Memleketin uçub geden kaygilarıydı.

Son misrada nə gözəl bir poetik tapıntı. Bu ifadədə uca Atatürk haqqında elə əslində bütün lazımı faktlar söylənilib. Məmləkətin Atatürkün gəlib getməsi ilə başından duman çəkildi, əslində bu gedən duman deyildi, millətin uçub gedən kaygılarıydı. Digər misralarda gözəl poetik ifadədir.

Samsun limanına bu gemiden atılan
Demir degil!
Sarılan anayurda
Kemal Paşanın kollarıydı (1).

Buradan Atatürkün Erzuruma getməsi də şeirdə əks edilir. Atatürkün gəlişi ilə Sivasda, Erzurumda dağların əyilib Atatürkə yol verməsi də gözəl bir deyimdir.

Bir selam gibi gitti Erzuruma,
Bin selam gibi geldi Sivasa Erzurumdan.
Dağlar alçaldı yol vermeğe,
Temizlendi ılkımından karından.

Şeir başdan ayağa Atatürkün fəliyyətini əks etdirmək baxımından böyük təsir gücünə malikdir. Türkiyənin Atatürkə olan borcu heç nəylə ödənə bilməz. Şeirin sonunda bu borcdan söz açan şair Onun sayəsində yaralarımızın sarılmasını, xəstə halımızda bizlərə nur, sağlamlıq bəxş etdiyi də vurğulanır. Atatürkün inanc, güvən dolu ifadələrinə, dəyərli ideyalarına da şeirdə yer verilir.

Dedin ki,
Bir gözel savaşmalı
Kurmak için yeniden;
Bilgiyle, inancla, coşkunlukla
"Övün, çalış, güven!"

ATATÜRK İDEYALARI, Atatürkün müdrük kalamlarından bəhrələnmə, dilimizi, ulusallığımızı bizə bəxş etməsindən danışan müəllif gözəl bir təsvir yaradır. *Sana borcluyuz ta derinden!*

İşığısın bu yurdun.
Dilimizi, ulusallığımızı öyretdin bize,
Çünkü cumhuriyyetimizi sen kurdun (1).

Atatürkün xatirəsinə yazılan ağıtlar da təsirlidir. Türk poeziyasında ona yazılan ağıtlar çox saylıdır. Aşık Veyselin, Kemalletdin Kamu, Orhan Şaik

Gökyay və onlarca şairin yaradıcılığında bu mövzuda ağıtlara rast gəlinir. Aşık Veyselin "Atatürke ağıt" şeiri bu mənada qiymətlidir.

Ağlayalım Atatürke
Bütün dünya kan ağladı
Başbuğ olmuşdu mülke
Geldi ecel can ağladı.

Və yaxut da digər bənddə Atatürkə bütün dünyanın ağladığını vurğulayır.

Atatürkün eserleri
Söylenecek bundan geri
Bütün dünyanın her yeri
Ah çekdi vatan ağladı (2).

Azərbaycanda da Atatürkü andıran, ona olan sevgidən, hörmətdən bəhs edən həm publisistik yazılar həm də poeziya nümunələri yaranıb və yaranmaqdadır. Publisistik ifadələrdən bəhs edərkən ulu öndər Heydər Əliyevin Atatürk ideyalarına böyük sevgi və marağından bəhs açmamaq olmaz. Heydər Əliyev illər əvvəl yazırdı ki, "Atatürkün yaratdığı yalnız türkiyə üçün deyil, bütün türk dünyası və xüsusilə Azərbaycan üçün əhəmiyyətlidir".

Xüsusilə 2006-cı ildə çap olan *Atatürkün xatirələri və Atatürk haqqında xatirələr* kitabında onlarca xatirələr toplaşmışdır. Bu kitabda da ilk Atatürk haqqında fikri ulu öndər demişdir. *"Mustafa kamal Atatürkün xidmətləri bir də ondan ibarətdir ki, o, türkiyə cumhuriyyətinin nəyinki əsasını, təməlini qoydu, həm də onu qurdu, onun bütün təsisatlarını yaratdı, böyük dövlət etdi, bugünkü nəslə, gənclərə əmanət edərək özünü əbədiyyətə qovuşdurdu"* (3).

Azərbaycan publisistikasında Atatürk qüdrətindən istər publisistika sahəsində, istərsə də poeziyada bəhs açan müəlliflərdən biri Rəfik Zəka xəndan olmuşdur.

Aynurə Paşayeva məqaləsinin birində Xəndanın Atatürk sevgisindən bəhs edərək yazır: *"Rafik Zəka türkiyəni atatürk ismindən ayrı səsləndirə bilmir. 1923-cü ildə Atatürk türkiyəni xaricilərdən xilas edib yenidən nəfəs veriyi üçün Rafik Zəka türkiyə səyahətnaməsini də* ***Atatürkiye*** *adlandırmışdır"* (4).

Müəllifin *Atatürkiyə* kitabı 1998-ci ildə nəşr olmuşdur.

Qənirə Paşayevanın da publisistik yazılarında Atatürk sevgisi və gördüyü müqəddəs işlər böyük hörmətlə qələmə alınmışdır.

Bir qədərdə Azərbaycan şairlərinin Atatürk sevgili şeirlərinə toxunmağa ehtiyac duyulur. Məsələn Bəxtiyar Vahabzadənin iki bəndlik şeirində Atatürkü dünyaya bəxş edən ata və ana xatırlanır.

Atatürkün atası! Adi, cəfakeş bir ata,
Öz kiçik külfətinin cövrünü çəkmiş bir ata,
Bir böyük millətə ancaq ata əkmiş bir ata!
Atatürkün ansı! Adi bir insan, bir ana.

Zaman ötdükcə nədən səcdə qılır hər kəs ona?
Bir böyük millətə bir gün ata doğmuş o ana.
Atatürkün sinəsi, yurdun alınmaz qalası!
Atatürk millətin həm atası, həm balası!

Atatürkə və onu dünyaya gətirənlərə hörmətini və onlara səcdə qılındığlarından bəhs edən müəllif sonda müqəddəs arzusundan da söhbət açmaya bilmir.

İllər əvvəl ümumi türk birliyini yaratmaq arzusunu şair qürurla dilə gətirir və bu birlikdən yeni atatürklərin yaranmasına ümüdlə baxır.

Nədir arzum, diləyim imanla bu gün?
Talanan, bağrına dağlar çəkilən xalqım üçün:
Yeni fikrin küləyindən qoca millət darana,
Bizi birləşdirəcək bir Atatürk yarana (5).

Xəlil Rza Ulutürkün, Qabilin də şeirlərində Ulu Atatürk sevgisi əbədi və əvəzolunmazdır. Qabilin "Dədə Heydər – Atatürk" şeirində də Azərbaycan və Türkiyə birliyindən bəhs edilir və hər iki ulu qurucuların fəliyyətləri poetik ifadədə özünə yer alır.

Dərin-mavi gözləri sakit yanan od-ocaq,
Alovunda düşmənlər yanacaq, kül olacaq.
Qaranlıqda işıqdır – o işığa yol açaq.
Məsləki varlığından, böyükdür min qat böyük.
Böyüklüyün rəmzidir Dədə Heydər – Atatürk (6)!

Zəlimxan poeziyasında da ulu öndərə böyük sevgi əsas yer tutur. Bu baxımdan "Atatürk köşkündə keçən günlərim" başlığlı şeir Atatürkə böyük sevgini anladır.

Məqalədə əsas məqsəd türk dünyasında Atatürkə olan sevgi və hörməti əks etirən publisistik yaıları və poetik nümunələr haqqında araşdırma aparmaqdır. Məqalədə onlarca nümunələrin üzərində dayanaraq bu əsərlərin yalnız kəmiyyətindən deyil, keyfiyyətindən də bəhsedildi.

Qaynaqlar

1. Cahit Külebi. "Atatürk kurtuluş savaşında". https://www.ktb.gov.tr/TR-96408/ataturk-kurtulus-savasinda--cahit-kulebi.html
2. Âşık Veysel. "Atatürke ağıt". https://www.ktb.gov.tr/TR-96410/ataturke-agit--asik-veysel.html
3. Heydər əliyev. "Atatürk haqqında", *Atatürkün xatirələri və Atatürk haqqında xatirələr*. Bakı: Elm. 2006.
4. Aynurə Paşayeva. "Rafik Zəka Xəndan publisistikasında Türkiyə mövzusu". bizimyazı.az.
5. Bəxtiyar Vahabzadə. "Atatürk". cetinbayramoğlubaku.wordpress.com.
6. Qabil. "Dədə Heydər – Atatürk". cetinbayramoğlubaku.wordpress.com.

1918-1920-Cİ İLLƏRDƏ ZƏNGƏZURDA BAŞ VERMİŞ FACİƏLƏR ƏYYUB ABASOVUN *ZƏNGƏZUR* ROMANINDA

*Hacı NƏRİMANOĞLU**

Azərbaycanın 26-cı ildən bəri tamamilə erməni işğalında olan tarixi Zəngəzur bölgəsinin ərazisi indiki Ermənistan Respublikasının Gorus, Sisian, Qafan, Mehri və Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan rayonlarının torpaqlarını əhatə edib. Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) ayrıca inzibati-ərazi vahidi olan Zəngəzur qəzasının sahəsi 7.892 kv. km idi (Qubadlı 2013: 17).

Zəngəzur ərazisi tarix boyu Azərbaycan ərazisində mövcud olan dövlətlərin tərkibində olmuşdur. XVI əsrdə baş vermiş Səfəvi-Osmanlı savaşları və XVII-XVIII əsrlərin qovşağında Sə-fəvi imperiyasının zəifləməsi ilə əlaqədar 1590-1612 və 1724-1735-ci illərdə Osmanlı idarəçiliyi altında, XIX əsrin əvvəllərindən müstəmləkəçi rus çar idarə sistemində Yelizavetpol quberni-yasının, 1918-1920-ci illərdə isə Azərbaycan Xalq Cümhuriyyətinin və Qarabağ general-qubernatorluğunun tərkibində qəza olmuşdur. 1874-cü ildə çar Rusiyası dövründə aparılmış kameral təsvirin və quberniya xəzinə pa-latasının məlumatına görə, qəzada 268 kəndi var idi. Bu kəndlərdən 208-də azərbaycanlı-türklər, 42-də ermənilər, 12-də kürdlər, 5-də müsəlman və ermənilər qarışıq, 1-də Rusiyadan köçürülmüş 100-dək malakanduxabor ailəsi yaşayırdı.1920-ci ilə qədər aparılmış bütün siyahıyalmalarda aborigen türklərin (azərbaycanlıların) qəza əhalisinin yarıdan çoxunu təşkil etdiyi aydın görünür (Nərimanoğlu 2017: 8-11).

Azərbaycan Xalq Cümhuriyyətinin ən gərəkli, uzaqgörən qərarlarından biri ilə yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının (FTK) isti izlərlə topladığı 36 cildlik istintaq materiallarının 3500 səhifəlik 2 cildi - təqribən 80 səhifəsi Zəngəzur qəzasındakı qətliamları özündə ehtiva edir. FTK-nın topladığı məlumatlara görə, Zəngəzurun 1574 ailədən ibarət kəndlərində 10068 nəfər

* Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin sədri (QHT), Tarix üzrə fəlsəfə doktoru; haci_narimanoglu@mail.ru

müsəlman öldürülmüş və ya yaralanmışdı. Onların 7729-u (3257 kişi, 2276 qadın, 2196 uşaq) qətlə yetirilmiş, 2339 nəfəri isə (1060 kişi, 794 qadın və 485 uşaq) yaralanmışdı. 32 kəndin 2254 sakini (1826 kişi, 275 qadın, 153 uşaq) xüsusi amansızlıqla qətl edilmiş, o cümlədən 304 nəfər diri-diri yandırılmışdı. FTK-nın üzvü N. Mixaylovun məruzəsində şahid ifadələrinə əsaslanan 20 belə qəddarlıq faktı öz əksini tapmışdı. Lakin erməni vəhşiliklərinin sayı o qədər çox idi ki, bu faktların hamısını yığıb toplamaq, sənədləşdirmək mümkün olmamış, bolşevik Rusiyasının Azərbaycanı işğalı ilə bu iş yarımçıq qalmışdır (Nərimanoğlu 2014: 107).

Bədii ədəbiyyatımızda ermənilərin Zəngəzurda törətdiyi soyqırımı obyektiv əks etdirən ən mükəmməl əsər, heç şübhə yoxdur ki, istedadlı yazıçı, Azərbaycan SSR əməkdar incəsənət xadimi Abbasov Əyub Cəbrayıl oğlunun iki cildlik, 980 səhifəlik *Zəngəzur* romanıdır. Ə. Abbasov 1905-ci ildə tariximizin ən qədim dövrlərindən bəri Azərbaycan türklərinin məskəni, oğuzların yurd yeri olmuş Zəngəzur qəzasının Şəki kəndində anadan olmuşdur. İki il kənd məktəbində oxuyub. 13 yaşında olarkən general Andranik Ozanyanın rəhbərliyi ilə erməni nizami qoşun hissələrinin Zəngəzurda törətdiyi qanlı qırğınların canlı şahidi olub, valideynlərini, iki qardaşını, çox sayda əzizlərini itirib. 1918-ci il avqustun 15-də kəndin camaatı elliklə arpa biçinində olarkən erməni komandiri Andranik qoşunlarının qəfil hücumuna məruz qalmış bu kənddə əhalinin körpə, yaşlı, qadın-yarıdan çoxu qətlə yetirilmişdir. (Nərimanoğlu 2015: 55-56).

"Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 26 mart 1998-ci il tarixli 690 nömrəli Fərmanından sonra aşkara çıxan arxiv sənədləri, araşdırma və tədqiqatların nəticələri bir daha XX-ci əsrin əvvəllərində Zəngəzur faciələrinin miqyasını göstərmiş oldu, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edildi, uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açıldı, təhrif edilmiş hadisələr özünün əsl qiymətini aldı. (http://www.e-qanun.az/framework/4684). Məhz ona görə də Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 Mart tarixli fərmanının icrasının ardıcıl və mütəşəkkil şəkildə həyata keçirilməsi ilə bağlı 30 mart 1999-cu il tarixli 111№-li Prezident Fərmanı ilə təsdiq edilmiş tədbirlər planında Əyyub Abasovun *Zəngəzur* romanının Azərbaycan və rus dillərində təkrar nəşri də (30 çap vərəqi) nəzərdə tutulmuşdur.

Əyyub Abasovun tariximizin Zəngəzur faciələrinə ayna tutan *Zəngəzur* romanı müsəlman azərbaycan türk və kürdlərinin erməni nizami ordusu tərəfindən əvvəlcədən planlaşdırılmış deportasiya və soyqırımına güzgü tutan, bu sahədə ədəbi boşluğu dolduran ən yaxşı əsərdir, həm də ona görə ki, bu roman

real həyatı əks etdirir, bu həyat isə tariximizə faciələrlə, qanla, göz yaşları, minlərlə insanın faciəsi kimi yazılıb və 70 ildən çox bu qanlıqadalı hadisələr barədə danışmaq, yazmaq qadağan edilib. Totalitar sovet-KQB rejiminin meydan suladığı, erməni-daşnak millətçilərinin və onların fiziki-mənəvi varislərinin, nifrət virusu daşıyıcılarının Azərbaycanın partiya-sovet, hüquq-mühafizə orqanlarında özlərinə rahatlıqla yer tutduğu, geniş anti-türk, anti-azərbaycan, anti-müsəlman şəbəkəsi yaratdığı bir zamanda bu gerçəkliyi qələmə alması tarixi və ədəbi hadisə idi (Abasov 2013).

Hacı Nərimanoğlunun *Əyyub Abasov: Zəngəzur faciəsini yaşayan və yaşadan ədib* kitabına akademik İsa Həbibbəyli "Tarixi gerçəkliyin böyük romanını yaradan görkəmli yazıçı" adlı ön sözündə yazır: "Bu hadisələrin şahidi olan Əyyub Abasov *Zəngəzur* əsəri ilə tarixi gerçəkliyin böyük romanını yaratmağa müvəffəq olmuşdur. Ona görə də *Zəngəzur* romanı XX-ci əsrin əvvəllərinin erməni terroru ilə bağlı qanlı hadisələrinin obyektiv ədəbi salnaməsi hesab olunmağa layiqdir. Bu, Azərbaycan ədəbiyyatında Zəngəzur hadisələrinə həsr edilmiş ilk tarixi roman kimi mühüm əhəmiyyətə malikdir. Əsərdə Zəngəzur hadisələri bütün reallıqları, acı həqiqətləri ilə birlikdə obyektiv mövqedən əks etdirilmişdir. Bu mənada *Zəngəzur* romanı geniş oxucular üçün vətənpərvərlik məktəbi funksiyasını yerinə yetirdiyi kimi, tarixçilər üçün də mühüm bir mənbəşünaslıq bazası sayıla bilər. Əyyub Abasovun *Zəngəzur* romanında tarixiliklə bədiilik bir-birini tamamlayır. Bu əsər Azərbaycan ədəbiyyatındakı qiymətli tarixi romanlardan biridir. *Zəngəzur* romanına görə onun müəllifi haqsız yerə təqib olunmuş, çətin və gərgin həyat yaşamışdır. Hətta, XX əsrin əllinci illərində *Zəngəzur* romanı kitab mağazalarından və kitabxanalardan yığılmış, oxunması və istifadəsinə qadağa qoyulmuşdur. Xüsusən, *Zəngəzur* tarixi romanının ikinci cildi nəşr edildikdən sonra yazıçıya qarşı ədəbi tənqiddə və ictimai mühitdə haqsız kampaniyalar təşkil olunmuşdur. Əyyub Abasovun 18 aprel 1957-ci ildə 52 yaşında ikən dünyasını dəyişməsi də həmin ədalətsiz təqiblərin nəticəsi idi... Tam mənası ilə demək olar ki, Əyyub Abbasovun *Zəngəzur* romanı tarixi gerçəkliyin istedadla yazılmış böyük romanıdır. Bu əsərin dünya dillərinə tərcümə edilərək nəşr olunması çox zəruri və əhəmiyyətli iş olardı" (Həbibbəyli 2016: 7).

Zəngəzur romanından alınan bu parçada Anadolu və Qafqazda törətdiyi qanlı qırğınlarla adını tarixin bədnam siyahısına yazmış qaniçən general Andronikin komandanlığında erməni nizami qoşun hissələrinin günahsız, onları gözləyən dəhşətli bəlalardan, hər şeydən xəbərsiz dinc müsəlman əhaliyə qarşı planladığı qanlı soyqırım və deportasiyanın fəlakətli mənzərəsi görünür.

> *"Qızılcıq kəndində hələ bu gecəki qədər adam olmamışdı. Evlər, küçələr, xırmanlar adamla dolmuşdu. Onlar yayın bu gözəl gecəsində bu kəndə qonaq deyil, ölümün pəncəsindən qurtulub gəlmişdilər. Bu adamlar dağıdılmış, yandırılmış*

ayrı-ayrı kəndlərdən: Şəkidən, Ağudidən, Vağüdidən, Uruddan, Qarakilsədən gəlmişdilər. Hamısı Andronikin topunun, tüfənginin ağzından qurtarmışdı. Lakin fəlakət onları yenə izləyirdi... 'bala, vay', 'bacı, vay', 'ata, vay', 'yazıq balam, qaldı', 'yurdum, komam yandı', 'çö-rək...' fəryadı, ürəkləri yandıran ahnaləsəsindən qulaq tutulurdu... bu ətrafda yeməyə ot da, gicitkan da qalmayıb... Andronik qoşununu və erməni əhalisini Gorusda bir meydana toplayıb 'qələbə' münasibəti ilə onları təbrik etmiş və demişdi: 'Gördünüzmü, Türkiyədə qırılan ermənilərin intiqamını Zəngəzur müsəlmanlarından necə alıram! İndi mən qalan müsəlman kəndlərinin də daşını daş üstə qoymayacağam" (Nərimanoğlu 2016: 33).

Bəlanın digəri sağ qalanların canını almaqda elə bil ki Andronikin qaniçən dəstəsi ilə yarışmaqda olan aclıq, xəstəliklər idi. Mağara, kahalara doluşmuş insanların halı tük ürpədir... *"Çirkin, bitin, aclığın törətdiyi tif, ishal xəstəliyi o bədbəxt insanların ikinci amansız düşməni olmuşdu. Hər saat piltəsi, yağı qurtarmış çıraq kimi bir ömür sönürdü..."* (Nərimanoğlu 2016: 33-34)

Əyyub Abasov romanda qeyd edir ki, Andronikin cinayət hərəkətlərinə mane olmayan, əksinə, müsəlman kəndlərinin dağıdılmasında ona haqq qazandıran daşnaklar Andronikə tabe olmayanları *"siz erməni deyilsiniz, millət xainisiniz, dəstəmizə qoşulmasanız, türklər sizi qıracaq"* - deyə hədələyirdilər. Bu tayqulaq quldurun bircə məqsədi, ideyası olub və bunu da həyasızcasına bəyan edib: *"Türkü öldürmək cinayət deyil, qəhrəmanlıqdır"*.

Andronik komandanlığında ermənilər silahlandırıb, şirnikləndirib Zəngəzura (həm də Cənubi Azərbaycana, Naxçıvana, İrəvana, Qarabağa...) göndərənlərin iç üzü, məramı kitabın bu parçasında bütün açıqlığı ilə aydın görünür. Romanda Andronik Zəngəzura belə gəlir:

"...İkimərtəbəli evin qabağında böyük bir izdiham vardı. Öz aralarında kədərli-kədərli danışan, cırcındalı adamlar nə isə bir xəbər gözləyirdilər. Bir xeyli keçəndən sonra 58-60 yaşlarında, orta boylu, enli kürəkli, başı-bığı çallaşmış, rus generalı paltarında bir adam içəridən balkona çıxdı. Onu görən kimi hamı:

Andronik paşa! Andronik paşa! – deyə əl çaldı.

Andronik əlini qaldırıb onların sakit olmalarına işarə etdi. Hamı sakit olub, gözünü ona dikdi. Andronik dedi:

- Qaxdaqanlar![1] Elindən, kəndindən ayrı düşmüş ermənilər! Mən sizin dərdinizi bilirəm. Yaşamağa eviniz, əkməyə torpağınız, yeməyə çörəyiniz yoxdur. Siz onları Ərdəhanda, Qarsda, Sarıqamışda qoydunuz. Burda isə sizin dərdinizə ağlayan, qeydinizə qalan yoxdur.

[1] Ermənicə "qaçqın" deməkdir – H. N.

İndi məndən kömək istəməyə gəlmisiniz. Mən əlimdən gələni eləyəcəyəm. Mən sizi bu hala salan türklərdən Türkiyədə intiqam ala bilmədimsə, Qafqazda, bax, bu Zəngəzurda alacağam" (Nərimanoğlu 2016: 34-38).

*Zəngəzur*dakı bu sözlər o illərdə yazılıb nəşr olunmuşdur ki, Ermənistan SSR-in və dünyanın bütün ölkələrinə səpələnmiş erməni başbilənləri guya 1915-ci ildə Anadoluda türklər tərəfindən ermənilərin soyqırıma məruz qalmasının ildönümlərinə açıq və gizli şəkildə ciddi hazırlıqlar görürdü. Q. Qəribçiyanın, S. Xanzadyanın, A. Mikoyanın, İ. Baqramyanın kitablarında Andronikin artıq "Xalq Qəhrəmanı", "Erməni xalqının Xilaskarı" obrazı yaradılırdı.

Ə. Abasov isə kitabın müxtəlif bölmələrində yeri gəldikcə erməni millətçiliyinin iç üzünü konkret detallarla, obrazların dili ilə, bədii lövhələrlə, inandırıcı dialoqlarla açır.

"Keşiş dedi:

İçməmişdən qabaq iki sözüm var.

Hamı gözünü ona zillədi.

Keşiş davam etdi:

Pristav ağa buyurdu ki, Qafqaz xalqlarının dillərini öyrənir. Bu yaxşıdır. Amma qabaqca erməni dilini öyrənsə, daha yaxşı olar. Çünki erməni dili, erməni tarixi daha qədimdir.

Onu da öyrənərik, keşiş, – deyə pristav gülümsündü.

Onun gülüşündə müəmmalı bir istehza hiss edən Mesrop pərt olaraq dedi:

Bəli, bəli, pristav ağa, mən isbat eləyərəm ki, erməni milləti çox qədim tarixə malikdir. Mənim dediyim budur ki, erməni dilində məktəb açılsın" (Nərimanoğlu 2016: 39-40).

Məlumdur ki, Qafqazda və Anadoluda baş verən qanlı qırğınların əsas ideya müəəlifi, ssenarisi, ilhamvericisi hər zaman erməni kilsəsi olmuşdur. Millətçilik toxumu burda səpilib əkilib becərilmişdir. Keşiş Mesropun bu sözləri erməni kilsə düşüncəsinin ifadəsidir: *"Mənim millətim hamı millətlərdən alidir. Heç bir millətin tarixi ermənilərinki kimi qədim deyil. Hər daşı qaldırsan, altından bir erməni tarixi çıxar..."* (Nərimanoğlu 2016: 40).

Romanda müsəlman din xadimi, onun hansı əməl sahibi olduğu haqqında da ştrixlər var:

"Çar hökumətinə casusluq edən molla Heydər danışmasın! Nikolaya məsciddə dua eləyən molla Heydər sussun!

Doğrudur, doğrudur!

Molla özü şeytandır!" (Nərimanoğlu 2016: 40).

Zəngəzurlulara yardıma gəlib onlara silahlanmağı, ermənilərə qarşı mütəşəkkil mübarizəyə qalxmağı tövsiyə edən türk zabitləri Əli Sadiqi ilə Ömər Şükrünün müraciətlərinə bolşevik Comərdin cavabı da maraqlıdır:

> *"Heç kəs siz türklərdən, almanlardan silah alıb, ermənilərlə dava eləməyəcək. Ermənilər bizim ata-baba qonşumuz, torpaq əhlimiz və dostumuzdur. Bizimlə onların heç bir şərikli malı yoxdur. Siz və sizin əlinizdə oyuncaq olan müsavatçılar bizim aramıza nifaq, millətçilik ədavəti salmaq istəyirsiniz. Bu hiylə baş tutmayacaq!"* (Nərimanoğlu 2016: 40).

Əsl azərbaycanlı-türk, müsəlman sadəlövhlüyü! Romanda varlı, imkanlı, silahlı, vardövlətli müsəlmanların çətin günlərdə xarakterlərindəki nankor, nadan xislətləri də üzə çıxır, dar gündə əli silah tutanları bir yerə toplayıb onları düşmənə qarşı mübarizəyə çağırmaq, təşkilatlandırmaq yerinə qızıl-gümüş torbalarını atın belinə yığıb arvad-uşağını da götürüb, ardınca da sürülərini süpürüb İran, Türkiyəyə keçməyi üstün tuturlar. Acılar, yazıqlar olsun ki, bu qədər müsibətlər, qanlı qırğınlar görmüş millətimin çox sayda övladı üçün yenə də millət, xalq, vətən, dövlət namusu deyilən şey ailəsindən kənara çıxmır. Ermənilərdə millət, torpaq anlayışları isə bizdən çox fərqlidir, məqsədə çatmaq uğrunda mübarizədə həyasızlıq, biclik, hər cür namərdlik, amansız vəhşilik onların xislətindədir.

Andranik türklərin Qarabağa hərbi yardıma gəldiyini eşidəndə dəli olur: *"Andronik otaqda var-gəl edə-edə öz-özünə danışmağa başladı: Demək türklər Qarabağa gəlib çıxıblar. Mən burdan da qaçmalıyammı? Hara qaçacağam?! Qaçmaq? Mən Andronikəm! Axırıncı soldatım qalana qədər vuruşacağam!"* (Nərimanoğlu 2016: 41).

Andronik biləndə ki, Sisiyanın bəzi müsəlman kəndlərində sağ qalanlar olub, dəli olur, əvvəlcədən işini ehtiyatlı tutur, elə mühasirə planları qurur ki, törətdiyi vəhşəti Zəngəzurdan kənara çıxarıb danışan canlı şahid qalmasın. *"Andronik birinci davada buraxdığı səhvə yol vermək istəmirdi. İkinci hücumda bütün çıxış yollarını kəsməli, heç kəsi salamat buraxmamalı idi... Müsəlman kəndlərinin biri də salamat qalmamalıdır"*.

Romanda dünənə qədər ermənilərin "kirvə" deyib bir ailə, mehriban qonşu kimi yaşadıqları müsəlmanların canlarına qəsd etdikləri, ev-eşiklərini, kasıb daxmalarını necə nifrət, kinlə, acgöz hərisliklə talan etdikləri də düşündürücüdür, ermənilyin etnik-psixoloji mahiyyəti barədə fikrə gəlməyə imkan verir. *"Baqratla Karo söhbətlərinə davam etdilər:Amma bizim əngələvidlilər də musurman kəndlərindən bolluca qarət daşıdılar, ha! Kimi malheyvan... kotan, vəl...su camına, taxta xörək qaşığına qədər tamah salanlar da olub... Andronik musurman kəndlərinin hamısın dağıtsaydı, əl-qolumuz tamam açılardı"* (Nərimanoğlu 2016: 44).

*Zəngəzur*da Andronik, Dro, Hjde, Karo kimi erməni daşnak generallarının iç üzünü açmaqla bərabər, erməni və azərbaycanlıların, onların başbilənlərinin baş verən hadisələrə, yeni cəmiyyət quruculuğuna, milli münasibətlərə müəllifin baxışı da aydın görünür. Bu da dövrün gerçəklərini görüb, anlayıb dəyərləndirmək baxımından çox əhəmiyyətlidir.

Müəllif həqiqətin bədii inikası olan detallarla yeni qurulan Ermənistan Milli Şurasının məramını ustalıqla göstərir. General Karo Hamparsumyan başda olmaqla, Şuranın nümayəndələri də dinc müsəlman əhaliyə qarşı eyni fikirdədir: "*Andronik ermənilərə millətçilik və başqa xalqlara qarşı ittiham hissi aşılamaqda bizim məqsəd və ideyamıza yaxındır"* (Nərimanoğlu 2016: 43).

Bununla onlar Andronikin etnik təmizləmə, deportasiyaya yönələn cinayətlərinin onların da ürəyincə olduğunu, siyasi məramları ilə eyniyyət təşkil etdiyini etiraf edirlər.

Kitabın üzdəniraq erməni başbilənlərinin hamısı:- keşiş Mesrop da, yeni qurulan Erməni Milli Şurasının qurduğu baş nazir Xatisovun rəhbərlik etdiyi hökumətin rəhbərləri də, yeni ictimai quruluş yaratmaq uğrunda mübarizə aparan bolşevikləri də bir ümumi amal, ideya birləşdirir-daha çox Azərbaycan torpaqlarını yerli əhalidən təmizləyib böyük Ermənistan qurmaq. Bu isə qaniçənlikdə heç də Andronikdən geri qalmayan general Karonun fikirləridir: *"Əsas vəzifə şüarımızı unutmamaqdır. 'Makrel sırpel', yəni süpürüb atmaq. Ermənistanda ancaq ermənilər yaşaya bilər. Müsəlmanlar, ruslar ölkədən təmizlənməlidir. Andronikin başladığı, lakin axıra çatdırmadığı işi Xatisov hökuməti başa vuracaqdır"* (Nərimanoğlu 2016: 44).

Bu Ermənistanın o baş naziri Xatisovdur ki, dəfələrlə Azərbaycan Hökumətinin humanist, tərbiyəli, ziyalı başbilənlərini dəfələrlə yalançı sülh müqavilələri, saxta vədlərlə aldatmışdı. Azərbaycan Hökumətinin Zəngəzura qoşun yeritdiyini öyrənən kimi dərhal Tiflisdə lövbər salmış ingilis missiyasını araya salıb Amerika ordusunun baş qərargah polkovnikinin, Gürcüstan xarici işlər nazirinin iştirakı ilə savaşı, atəşi dayandırmaq, qoşunları geri çəkmək məqsədi ilə sülh sazişi imzalanmışdı. 1919-cu il 23 noyabrda Tiflisdə Ermənistan və Azərbaycanın baş nazirləri A. Xatisovla Nəsibbəy Usubbəyov arasında bağlanan müqavilənin tələbi ilə Azərbaycan öz qoşunlarını Zənəzurdan çıxaran kimi Dro, Njde komandanlığında erməni qaniçənləri Hökumətin təşviqi ilə aşağı Zəngəzurun hələ məhv edilməmiş kəndlərinə divan tutdular.

1919-cu il dekabrın 1-i sübh çağı üç istiqamətdə başlayan hücumlarda; Oxçuda əvvəlcə əli silah tutan kişilər gülləyə qənaət etməkdən ötrü xəncərlə doğranıb, gürzlərlə başları əzilib, ardınca da məscidin içinə 400-dən çox qadın və uşaq doldurulub, içəri qumbaralar atılıb sonra od vurub yandırılıblar, bu kəndin 1400 sakinindən yalnız 10-12 nəfər sağ qurtulub, öldürülənlərin

yalnız 133-nün kimliyini tanımaq mümkün olub, Şabadindən cəmi 8 kişi, 7 qadın sağ çıxıb, Atqız kəndinin 4000 sakinindən yalnız 261 nəfəri mühasirədən sağ çıxa bilib, onların da 167-si Gığı dərəsindən Ordubada keçən qarlı, şaxtalı yollarda donub ölüblər, Çaylıda 900 müsəlman öldürülüb, tamamən mühasirəyə alınmış Mədən, Şəhərcik, Buğacıq, Mollalı, Həkəri, Keçi Sofulu, Kurud, Keçili, Əsgərli, Pirçevan, Zəngəzur qəzasının 3-cü sahəsinin (Qubadlı rayonu) Xocahandan Qaladərəsinə qədər ərazidəki 48 kəndin əhalisi amansızlıqla qətlə yetirilib, evləri tamamən yandırılıb, talan, qarət edilib. Qubadlının 93-cü ilin 31 avqust işğalına qədər o kəndlərin bir çoxunun xarabalıqları durdu, heç kəs oralarda yenidən məskən salmağa ürək etməmişdi, insanlar o yerlərə gizli bir qorxu hissi ilə baxırdılar ki, qırılan insanların ruhları hələ də o kəndlərin xarabalıqları üzərində gecə-gündüz qorxunc inilti ilə haray çəkirlər, bəzi kəndlərin isə yalnız adları arxiv sənədlərində qalıb.

Qafqaz İslam Ordusu tərkibində Azərbaycana qardaşlıq köməyinə yetişən türk əsgər və zabitlərinin bir hissəsi də Zəngəzura yardıma gəlmiş, burada ermənilərə qarşı rəşadətlə vuruşaraq ya Şəhid olmuş, bir çoxu isə daimi bu ellərdə qalıb məskunlaşmışdılar (Salmanov 2018).

Eynilə, Zəngəzurda doğulmuş çox sayda insan rus-sovet işğalından sonra təqiblərdən, labüd ölümdən baş götürüb Türkiyəyə üz tutmuş, orada istiqlal, qurtuluş savaşında fədakarlıqla vuruşmuşdur. (Nərimanoğlu, 2012)

Romanda görürük ki, türk zabitləri kişiləri bir yerə yığıb silahlanmağı, erməni hücumlarına qarşı hazırlıqlı olmağa çağırır. Romanın əsas qəhrəmanlarından olan kəndli Comərdin onlara cavabına baxaq:

"Siz, cənab zabit, bizim kəndlilərin arasına millətçilik ruhu yaymayın! Heç kəs siz türklərdən, almanlardan silah alıb, ermənilərlə dava etməyəcək. Ermənilər bizim ata-baba qonşumuz, torpaq əhlimiz və dostumuzdur. Bizimlə onların heç bir şərikli malı yoxdur. Siz və sizin əlinizdə oyuncaq olan müsavatçılar bizim aramıza nifaq, millətçilik ədavəti salmaq istəyirsiniz... Biz Rusiyayla, proletar inqilabıyla bağlıyıq. Türk bizə yaddır!

Camaatın arasından səslər ucaldı:
- Doğrudur, doğrudur!" (Nərimanoğlu 2016: 45)

Zəngəzur romanının mıəllifi Andronikin və onun davamçılarının Qafqazda, Zəngəzurda məhz ingilis planını həyata keçirdiklərini açıq-aydın yazırdı. Kitabdan sətirlər:

"Karo kağız, qələm götürüb məktub yazmağa başladı:
Yerevan. Cənab Milli Şura sədrinə.

...İkincisi: bu yaxınlarda Gorusa Andronik Uzunyan adlı bir general gəlmişdir. Özünü Zəngəzurun hakimi adlandıran bu adamın,

deyilənlərə görə, iki minə yaxın piyada və süvari soldatı, bir qədər tüfəngi və üç topu vardır. Mən onunla görüşüb danışdım. Ermənistan hökumətinə tabe olmaq istəmir. Heç bir firqəyə mənsub olmayan bu generalın bolşeviklərlə də arası yoxdur.

Cənab sədrin bu general haqqında geniş təsəvvürü olmaq üçün məlumatı bir qədər ətraflı yazmağı özümə borc bilirəm.

Andronik Türkiyədə anadan olmuşdur. Türkiyə ordusunda zabit rütbəsində xidmət etmişdir. Eyni zamanda ingilislərin xəfiyyəsi kimi türklərin əleyhinə gizli təbliğat aparmağa başlamışdır. Türklər onu həbs etmişlər, lakin həbsdən qaçıb gizlənmişdir. Cahan müharibəsi başlanandan sonra fəaliyyətini daha artıraraq, özünü bir millətçi kimi qələmə vermişdir. Başına bir dəstə erməni toplayıb, türklərə qarşı çıxışlar etmiş, iğtişaşlar törətmişdir. 1915-ci ildə bu adam öz dəstəsilə çar ordusunun tərəfinə keçmiş və türklərə qarşı vuruşmuşdur. Generallıq rütbəsini də bu zaman almışdır. Çar orduları Qafqaz cəbhəsindən geri çəkildiyi zaman, Andronik də geri çəkilmişdir. Rusiya fəhlə-kəndli inqilabına mənfi əlaqə bəslədiyindən, daha doğrusu, qorxduğundan, Rusiyaya getməyib, üzünü İrana çevirmişdir. İrana getməkdə bir məqsədi də ingilislərlə birləşmək olmuşdur. Lakin türklər Xoy və Salmas tərəfində onun yolunu kəsdiyindən, istiqamətini dəyişdirmiş, Arazdan keçib Naxçıvana gəlməyə məcbur olmuşdur. Nehrəm kəndində soldatlar üçün ərzaq, atlar üçün yem tələb etmişdir. Soldatlarını, onun tələbini yerinə yetirməyən əhalinin üstünə qaldırmışdır. Hər iki tərəfdən ölən və yaralanan olmuşdur. Türklərin Şaxtatıya gəldiyini və tezliklə Naxçıvana çatacaqlarını bilib, dəstəsini Nehrəmdən geri çəkmişdir. Culfadan, Aza və Dəstə kəndlərindən keçib, Meğriyə, oradan da Gorusa gəlmişdir. Neçə vaxtdır ki, Gorusu özünə iqamətgah edib, nüfuzunu ətraf kəndlərə yaymağa başlamışdır. Bir diktator kimi kəndlərdən ərzaq, ot, saman, arpa yığır; onsuz da, yoxsul yaşayan əhalini soyur. Kəndlilər buna etiraz edirlər. Andronikin Gorusa gəldiyini eşidib, bilən qərbi Ermənistan qaçqınları onun yanına gedib torpaq və çörək istəmişlər. Andronik onların arzusunu yerinə yetirməyə vəd etmişdir. İngilislərə və amerikanlara arxalanan, onların köməyinə ümid bəsləyən Andronik ermənilərə millətçilik və başqa xalqlara qarşı intiqam hissi aşılamaqda bizim məqsəd və ideyamıza yaxındır. Lakin Ermənistan hökumətinə tabe olmamaqda bizim üçün zərərli, bəlkə də təhlükəlidir.

Onunla necə rəftar edəcəyim haqqında cənab sədrdən sərəncam gözləyirəm.

Hörmətlə, Karo Hamparsumyan.Əngələvid. 20 iyun 1918-ci il" (Nərimanoğlu 2016: 44).

Birinci dünya müharibəsinin qalib dövlətlərinin 1918-1920-ci illərdə Qafqazdakı diplomatik nümayəndəliyinin rəhbəri general Tomson 1919-cu il martın 28-də Yerevanda Ermənistan hökumətinin iclasında çıxışında cızılan ssenarinin konturlarını ermənilərə çatdırararq demişdi:

"Zəngəzur qəzası Erməni Milli Şurası tərəfindən idarə ediləcək... Dağlıq Qarabağın idarə edilməsi üçün Ermənistan təcili öz nümayəndələrini verməlidir... Erməni qoşunları Qars və Naxçıvanı, Şərur-Dərələyəz-Sürməlini tuta bilər...Azərbaycan ordusu indi durduğu yerdən-Ağdam və Xankəndindən bu tərəfə keçməyəcək...Azərbaycan hökumətinin martın 19-da keçirilən iclasında qərar qəbul edilmişdir ki, Daxili İşlər Nazirliyi 1300 nəfərlik piyada və 500 nəfərlik erməni süvari dəstəsinin Şuşa, Xankəndi, Əsgərandan keçib Ermənistana getməsi üçün hərtərəfli səy göstərəcək. Mayor Monk Mezon mənə məlumat vermişdir ki, Azərbaycan hərbi hissələri general Mehmandarovun rəhbərliyi ilə onların sağsalamat keçməsi üçün bütün tədbirləri görmüşdür... Azərbaycan Dağlıq Qarabağ və Zəngəzurun mübahisəli ərazi kimi Paris sülh konfransında həll olunacağını gözləyəcəkdir" (Nərimanoğlu 2012: 14-17).

"Tomson Ermənistan hökumətinin rəhbərlərinə 5 milyon ədəd patron və pul da göndəriləcəyini də vəd edir, vədini də yerinə yetirmişdir" (Nərimanoğlu 2012: 14-17).

Xatırladaq ki, Amerika, Fransa, İngiltərə, Yunanıstan, Rusiyanın çox böyük səxavətlə silahlandırdığı general Andranik Uzunyanın qoşunları ilə Zəngəzurda 115-dən çox türk-kürd kəndini yağmalayaraq dağıtmış, 5 mindən çox silahsız insanı vəhşiliklə qətlə yetirmişdi. Andranik bütün çıxışlarında özünün Böyük Britaniya hökumətinin iradəsini həyata keçirdiyini bəyan edirdi.

Sovet İttifaqı Marşalı, erməni İvan Baqramyan yazırdı: *"Andranikin, Amazaspın və başqalarının başçılığı altında daşnak dəstələri türk (azərbaycan) qadınlarının, uşaqlarının, qoca və cavanlarınbın məhv edilməsi işində maksimum cəsurluq göstərmişlər. Daşnak dəstələri tərəfindən tutulmuş kəndlər canlı adamlardan təmizlənib azad edilmiş və eybəcər hala salınmış meyidlərlə dolu xarabalığa çevrilmişdir"* (Hüseynov 2012: 7).

Ermi terrorçu dəstələrinin başçıları üçün müsəlmanları qoca, körpə, qadın demədən nə qədər həvəslə, amansızlıqla qırıdılarsa, öz millətindən olan "xain"lərə qarşı da elə vəhşilik göstərirdilər. Bu, günahsız müsəlman əhalinin qənimi, əsas cəlladbaşılarından biri general Njdedir.

"Njde Şahmərdanın zəncirlənmiş qollarına, kürəyinə bənd edilmiş qaynar samovarın pörtələyib qabar atdığı kürəyinə baxıb qəhqəhə ilə güldü: Njde dedi:

- Birinci tamaşa qutardı, ikinci tamaşa daha maraqlı olacaq... Onları uçurumun kənarına çəkin!...

... Qıjıltılı Arazdan qalxan sərin meh Meğri kəndinə yayılırdı... Njde köksünü ötürdü, gözünü bayaqdan bəri baxdığı yerlərdən çəkmədən dedi:

- Ey bivəfa dağlar, dərələr, yal-yamaclar! Axırda mənim düşmənlərimə qismət oldunuz. İndi mən bu yurda, bu torpağa nifrət edirəm. Nifrət edirəm, çünki tökdüyüm qanlar, verdiyim qurbanlar hədər getdi.

Setrak dedi:

- Fikir eləmə, Njde ağa! Deyərlər ki, bir arxa ki su gəldi, güman var ki, bir də gəlsin. Başına İrandan adam toplayarsan, yenə öz milətinin harayına gələrsən. Yəqin ki, keşiş Mesrop Tehranda ingilislərlə danışıb.

- Mən indi öz millətimə də, ingilislərə də nifrət edirəm. Heç biri mənim qolumdan tutmadı. Hamısı biqeyrət çıxdı. Millətin də...

- Evin yıxılmasın, ora bax, bolşeviklər gəlirlər!...Njde o tay sahilə çıxıb dalına baxmadan atını mahmızladı...Qızıl süvarilər atəşi kəsdilər" (Abasov 2013: 445-446).

Zəngəzurda siyasi vəziyyəti əks etdirən arxiv sənədləri ilə müqayisə, paralellər aparmaq üçün romandakı bu sətirlərin tarixi gerçəkliyi nə qədər düzgün əks etdirdiyi üzərində düşünməyə dəyər: *"...Müsavat hökuməti ilə daşnak hökumətinin arasındakı dava çox uzun sürmədi. Müsavat qoşununun biabırcasına məğlubiyəti ilə qurtardı....erməni kəndləri dağılmadı, əhali öz yurdundan, evindən qaçqın düşmədi... Müsavat qoşununun məğlub olmasının səbəbləri o idi ki, daşnak ordusunun komandanlığı daha cəld hərəkət etmişdi. Ermənilərin müsavatdakı agentinin məlumatını əsas tutaraq, müsavat əsgərlərinin arxasına gözlənilməz yerdən əsgəri hissələr çıxarmışdı, eyni gündə Naxçıvandan Zəngəzura hücum etməli olan Naxçıvan polku yubanmışdı... erməni kəndlərinin adamları Baqratın başçılığı ilə dəstələr düzəldib onları qarşılamışdı. Bir neçə gün davam edən davadan sonra polk komandirini əsir alıb öldürmüşdülər. Bunu bilən müsavat əsgərləri arasına pərakəndəlik düşmüş, ölən ölmüş, sağ qalanlar qaçıb yenə Əriklini o tərəfə aşmışdılar"* (Nərimanoğlu 2012: 59).

Ermənilər qarşılarına qoyduqları məqsədə çatmaq üçün hər cür alçaqlığa, vəhşiliyə getməyə hazır və qadir idilər. Dəyişən ancaq onların önündə gedənləri idi.

"- Heç ürəyini sıxma, qalanlarını da mən Karo ilə sən Baqrat dağıdarıq. Elə eliyərik ki, musurman kəndlərindən nişanə belə qalmaz. Andronik bu işdə bizdən qabağa düşdü, amma işi axıra çatdırmadı."

Şahmərdan Armenaka təsəlli verdi:-Andronik rədd oldu...

Armenak:-Bəli, Andronik rədd olub getdi cəhənnəmə. Amma ondan da betər köpək oğlanları var..." (Nərimanoğlu 2012: 58).

Bu "köpəkoğlu"lardan biri də general Karo idi ki, qaniçənlikdə Andronikdən geri qalmırdı, onun iradəsi əleyhinə gedən öz həmcinslərinə də rəhm etmirdi. "*Zəngəzur*"un birinci kitabının son-531-ci səhifəsinin son sətirləri belədir:

"-Karonun mauzeri qaldırması ilə Armenakın yerə sərilməsi bir oldu...

-Aman Allah, bu nə zülmdür!- deyə Anahid özünü meyidin üstünə saldı. Anahid başınagözünə döyə-döyə, qargış eləyə- eləyə aglamağa başladı.

- Kəs səsini, bayquş!

Karo Anahidi meyitdən ayırdı. Mauzeri onun alnına tuşlayıb zəhmlə dedi:

- Qardaşın hardadır? De, yerini de, it balası!

- Bilmirəm. Tfu sizin canavar sifətinizə! Tfu sizin...

Samvelin gülləsi Anahidin sözünü yarımçıq qoydu. Bədbəxt ana ərinin meyitinin üstündən durub, qızının meyitini qucaqlamaq istərkən, Samvel onu da nişan aldı...

Karo Samveli dayandırıb dedi:

- Dəymə. Oğlunun yerini bu ifritəyə dedirdəcəyəm" (Abasov 2013: 531).

Zəngəzur romanındakı üzdəniraq Andronikdən geri qalmayan digər Erməni Milli Şurasının generalı Karo Hamparsumyanın bəyanatından sətirlər: *"Bu yaxınlarda qoşunumuz hücuma keçəcək. Sərhədimizə yaxın olan müsəlman kəndlərini götürəcəyik. Planımız belədir ki, tezliklə Qarabağa girək. Vediyə, onun ətrafındakı kəndlərə yaxşı divan tutmuşuq. İndi o kəndlər də erməni qardaşlarımızın əlindədir. Ölən ölüb, sağ qalan müsəlmanlar isə İrana, Naxçıvana qaçıb"* (Nərimanoğlu 2012: 58).

Cümhuriyyətin Zəngəzurdan seçilmiş deputatı Cəlil Sultanovun 1920-ci il yanvarın 24də Parlamentin sədrinə ünvanladığı teleqramda *"Zəngəzur*

sarıdan başınız sağ olsun, heç olmazsa Qarabağı xilas edin." sözlərini hansı ümidsizlik, xəyalqırıqlığı, qüssə, kədərlə yazdığını anlamaq çətin deyil. Həyəcanlı xəbərlər gəlməkdə, AXC Hökuməti isə sərəncamındakı sayca ermənilərdən az olmayan hərbi qüvvələri səfərbər etməklə vətəndaşlarını və torpaqlarını qorumaqdansa, diplomatik yazışmalara, bu hərbi-siyasi planların başında duran əcnəbilərə Ermənistan hökumətinin "yolverilməz hərəkətləri" barədə şikayətlər göndərməkdə davam edirdi. Əldə edilən "uğur" isə qan tökməkdən bezmiş, doymuş kimi görünən generallar Njde və Hamazaspın yerinə onlardan daha qəddar, döyüşkən generallar Dro, Qazaryan ilə əvəzlənməsi olmuşdu (ARDA18, 22, 26).

Artıq çox gec idi, daha əvvəlki Zəngəzur yox idi, olmayacaqdı. Bu qərar da hələ söz idi, ortada qətiyyət, birlik, siyasi iradə yox idi, ona görə də hərəkətə keçmək də xeyli vaxt apardı, artıq ruslar Qafqaza doğru hərəkətə keçmişdilər, 28 aprelə sayılı günlər qalırdı. N. Nərimanov başda olmaqla, Azərbaycan bolşeviklərinə Zəngəzur və Qarabağdan ağır miras buraxılmışdı, mövcud vəziyyət Zəngəzurun böyük bir hissəsinin Azərbaycandan qoparılmasına, Qarabağda erməni muxtariyyətinin yaradılmasına, əsrin sonlarında Azərbaycanın həmin faciələri bir daha yenidən daha ağır şəkildə yaşamasına təməl zəmin hazırladı.

*Zəngəzur*da Zəngəzur kəndlilərinin avamlığı, onları gözləyən faciələrdən xəbərsizliyi, erməni məkrini anlamaqdan uzaqlığı da, bu məqamların obrazların dili ilə bədii təsviri də tarixi həqiqətə uyğundur, aydın ifadə olunub, zəngəzurluların XX əsrin əvvəlində və sonundakı halına ayna tutur.

Bu da son: *"Başı qarlı, dumanlı dağlar, yaşıl otu daha öz təravətini itirib saralmış çəmənlər Zəngəzur qaçqınlarını öz qoynunda çox saxlaya bilmədi. Sanki onların fəryadını dinləməkdən yoruldu... Paltarsız, yorğan-döşəksiz, ac insanlar köçəri quşlar kimi, başqa yerlərdə həyat axtarmağa getdilər. Bəzi ailələr Naxçıvan mahalına yol aldı. Bəziləri Kürdüstan, Cəbrayıl, Bərdə, Ağdam, Yevlax tərəfə üz tutdu. Bəziləri: əlsiz-ayaqsızlar, atsız, ulaqsızlar, xəstələr, yaralılar özlərinə yaxınarda mənzil seçdilər. Onlar Minkəndə, Mollaəhmədliyə, qarakeşişə getdilər. Orada da bir yer, sığınacaq tapa bilmədiklərindən kahalara doluşdular.*

Əziziyəm axşamlar,
Şamlar yanar axşamlar,
Evli evinə gedər
Qərib harda axşamlar?" (Nərimanoğlu 2012: 61).

Zəngəzur romanını epopeya saymaq olar. Bu mənada ki, əsərdə bir-birini əvəzləyən 3 təzadlı dövr bütün gerçəklikləri ilə aydın görünür; Zəngəzur çar Rusiyası tərkibində, fevral burjua inqilabından sonrakı daşnak işğalı, qırğınları və bolşeklərin gəlişi romanda tarixi reallığa uyğun qələmə alınıb.

Azərbaycan torpaqlarının hissə-hissə qoparılıb yerində heç zaman mövcud olmamış Ermənistan dövlətinin yaradılması ilk növbədə Rusiyanın hərbi-siyasi yardımı, fəal köməyi, repressiyalarla müşayiət edilən Pyotr vəsiyyətləri ilə reallaşmağa başlayan ssenarisi sayəsində mümkün olmuşdur. Azərbaycan əleyhinə yapılan bütün kirli əməllərdə də əsas icraçılar, fitva verən, plan quranlar daşnak libasını dəyişib bolşevik cildinə girmiş ermənilər idi. Azərbaycan türklərinə qarşı yapılan faciələr hələ də davam edir.

Zəngəzur romanında Andronikin əvvəldən rus generalı formasında təsviri də buna işarədir.

Müəllif başımıza gətirilən bəlaların kökünü, mənbəyini olduqca dəqiq göstərir: xristian təəssübkeşliyi! 23 ildən artıq bir zamanda Azərbaycan torpaqlarının 20 faizinin işğal altında qalması, öz ərazi bütövlüyünü bərpa edə bilməməsi, 1 milyon qaçqın, məcburi köçkünün öz doğma yurd yerlərinə qayıdışının müşkül bir düyünə çevrilməsi, ATƏT-in Minsk Qrupu deyilən xristian klubunun açıq-aşkar ermənilərin ədalətsiz mövqeyində dayanması məhz bu təəssübkeşliyin nəticəsidir.

Ə. Abasov cəsarətlə əsrin əvvəlində və sonunda Azərbaycanın başına gətirilən müsibətlərin səbəbini obrazın dili ilə açıq söyləyir: *"Sözümün canı bundadır ki, gərək Şimal tərəfdən üstümüzə axıb gələn selin qabağını alaq! Bəli, bulanıq selin..."* (Nərimanoğlu 2012: 64).

Həm də çar Rusiyasının Zəngəzurdakı pristavı Timofey Timofeyeviç Karpov şərait dəyişən kimi, burjua inqilabından sonra mərkəzin tapşırığı ilə dönüb olur daşnak Andronik qoşunlarının kəşfiyyat rəisi, 1-ci məsləhətçisi, plan quranı, sonra da bolşevikləri qarşılayır. Hər yeni gələn ictimai-siyasi dəyişikliklərdə Karpov və əlaltıları katalizator, ara vuran, dalaşdırıb barışdıran rolundadır. Hətta, Gəncədəki Müsavat mərkəzinin içində də xəfiyyələri var. Romanda yadda qalan tiplərdən biri odur və öz missiyasını-müəllifin demək istədiklərini dəqiq ifadə edir.

"Zəngəzur qubernatorluğu"nun əsas nüfuz sahiblərindən biri Karpov olduğu kimi, bolşevik Rusiyasının Zəngəzurda yaratdığı Tatev şura hökumətinin də başçısı, qızıl ordunun polk komandiri Gerasimov idi.

Ermənilərin Zəngəzurda müsəlmanlara verdiyi işgəncələri, onların yaşadığı faciələr romanda dönə-dönə tükürpədən detallarla göstərilib. Əyyub Abasov bu dəhşətləri gözləri ilə gördüyündən o müsibəti olduğu kimi qələmə alıb: *"1919-cu ilin yazıdır. Malını, pulunu özü ilə aparmağa müvəffəq olmuş dövlətlilər istisna olmaqla, Zəngəzur qaçqınlarının güzəranı getdikcə pisləşirdi. Minlərlə insan səfalət içində idi. Onların əkməyə torpaqları, yeməyə çörəkləri, geyməyə paltarları yox idi. Boğazlarına keçmiş fəlakət zəncirini qırıb atmağa heç bir yol və imkan tapa bilmirdilər. On aydan artıq idi ki, Zəngəzur*

qaçqınları fəlakət içində çırpınırdılar. Hamı yandırılmış, viran edilmiş kəndlərinin, yurd-yuvalarının həsrətində idi. Lakin daşnakların hökmranlıq etdikləri bir torpağa qayıtmaq mümkün deyildi" (Nərimanoğlu 2012: 66).

Talesizliyə bax ki, tarix təkrar olunub. Demək olar ki, məzmun eynidir, dəyişən formadır. Ötən əsrin əvvəllərində törədilən vəhşiliklər həmin əsrin sonlarında eyni dəhşəti ilə yenidən təkrarlandı.

Zəngəzur romanı Zəngəzurun dağ kəndində doğulub böyümüş, sonra taleyin hökmü ilə Naxçıvanı özünə yurd seçmiş əməksevər insan Əlirza kişi ilə İzzət xanımın ailəsində də sevilə-sevilə, həm də ürək ağrısı ilə oxunurdu. 33 il respublikamıza rəhbərlik etmiş Heydər Əliyev Naxçıvanda dünyaya gəlsə də, böyüyüb təhsil alsa da, valideynlərinin söhbətlərini heç vaxt unutmamışdı. Görkəmli siyasi xadim XX-ci əsrin əvvəllərində erməni terrorçu dəstələrinin Zəngəzurda törətdiyi qətliamları bütün dəhşətləri ilə yaxşı bilirdi. Adını daşıdığı dayısı Heydər də Zəngəzurda erməni vəhşiliyinin qurbanı olmuşdu. Bu barədə mərhum Heydər Əliyevin bacısı Şəfiqə Əliyeva anası haqqında qələmə aldığı *Mənim anam* kitabındakı "Dayımız Heydər deportasiya vaxtı öldü" bölümündə yazmışdır.

Görkəmli adamların həyatı seriyasından çıxan *HEYDƏR ƏLİYEV* kitabından gətirilən aşağıdakı sitat bunun ifadəsidir:

"Belə bahar günlərinin birində Əlirza və İzzət Əliyevlərin ailəsində dördüncü övlad dünyaya göz açdı. Körpəyə İzzət xanımın azərbaycanlıların Zəngəzurdan didərgin salındığı zaman həlak olmuş qardaşı Heydərin adını (heydər - 'başçı, öndə gedən' deməkdir- A. Q) qoydular. O Heydərin yaşı həmişəlik iyirmi üç olaraq qaldı... İllər ötəndən sonra Əliyevlər ailəsində Əyyub Abasovun Zəngəzur romanı əldən-ələ keçdi. Çünki bu iki qalın cilddə yazılanları oxuyan Şəfiqə eynən bu hadisələri, analarının da ona danışdığını qardaşlarına söyləmişdi".

- Yanılmırsan, Şəfiqə, – deyə Həsən təsdiq elədi.

- Bu kitabı yazan adam didərginlik ağrısını çox dəqiq göstərmişdir:

"Andronik Uzunyanın əsgərləri kəndə aşağı tərəfdən daxil oldular. Yamacın ətəyində bir neçə ev alışıb-yandı. Comərd təkid eləyirdi ki, adamlar nəyi bacarırlarsa götürüb dağlara çəkilsinlər. Haray-həşir, arvadların hönkürtüsü, uşaqların ağlaşması kəndi başına almışdı. Sanki qayalar da Zəngəzur torpağında baş verən müsibətə laqeyd qala bilmirdi. Atlar, yüklənmiş ulaqlar, qorxudan böyürən öküzlər, inəklər - hər şey bir-birinə qarışmışdı. Kənddə qalan yalnız dərd-sərdən ağlı çaşmış və öz həyatını evdən ayrı təsəvvür etməyən qocalar idi" (Andriyanov 2018: 13-14).

Bu – əsl ədəbiyyatdır, reallığı əks etdirən ədəbiyyat.

Zəngəzur romanının müəllifi Ə. Abbasov da bu yerlərin vurğunu idi, qəhrəmanının dili ilə deyirdi: *"Çayın şırıltısı, ulduzların parıltısı, cırcıramaların nəğməsi, yaşıl çəmənlik, ətrafdakı sıra dağlar, yaşıl yamaclar-hər şey, hər şey həyata vurğun könülləri dilə gətirir. Sən nə sevimlisən, a mənim yurdum! Mən sənin hər bir qarış torpağında gördüyüm və duyduğum gözəlliyi bir yerə toplamağa qadir olsaydım, dünyaya göstərib deyərdim: baxın, Zəngəzuru gözəllik və təbii sərvətlər ölkəsi adlandırın!"* (Nərimanoğlu 2019: 186).

Zəngəzur camaatı faciələr yurdu Zəngəzurun yenidən gözəlliklər diyarına çevriləcəyi günü həsrətlə gözləyirlər.

Qaynaqlar

1. Abasov, Ə. (2013). *Zəngəzur.* Bakı: Nağıl Evi. I kitab. 532 s. II kitab. 448 s.
2. ARDA: f. 895, siy. 1, iş 299, vər. 18, 22, 26.
3. Andriyanov, V-Mirələmov. H. F. (2008). *Heydər Əliyev*. Bakı: Nurlar. 340 s.
4. Həbibbəyli, İ. (2016). *Tarixi gerçəkliyin böyük romanını yaradan görkəmli yazıçı*. Nərimanoğlu, H. Bakı: Mütərcim. 96 s.
5. Hüseynov, A. (2012). "Erməni vəhşiliyinin Andranik səhifəsi". *Xalq* qəzeti 10 yanvar.
6. *Qubadlı: "Qədim Azərbaycan torpağı Zəngəzurun qapısı"* (2013). Bakı: Turxan nəşrləri.
7. Nərimanoğlu, H. (2018). *Zəngəzur: köç, deportasiya, soyqırımı, işğal tarixi*. Bakı: QHT nəşriyyatı.
8. Nərimanoğlu, H. (2015). *Zəngəzur faciəsini yaşayan və yaşadan ədib*. Azərbaycan. N. 7.
9. Nərimanoğlu, H. (2016). *Əyyub Abasov: Zəngəzur faciəsini yaşayan və yaşadan ədib*. Bakı: Mütərcim, 96 s.
10. Nərimanoğlu, H. (2012). *Zəngəzurda doğuldular, Anadoluda əbədiyyətə qovuşdular*. Bakı: QHT nəşriyyatı. 140 s.
11. Salmanov, Ç. (2018). *Osmanlıda doğulub Qubadlıda uyuyanlar*. Sumqayıt 12. http://www.e-qanun.az/framework/4684

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN QURULMASINDA QAFQAZ İSLAM ORDUSUNUN FƏALİYYƏTİNİN BƏDİİ TƏQDİMİ

*Minahanım Tekeli NURİYEVA**

Azərbaycan xalqının tarixi taleyində önəmli rolu olan görkəmli şəxsiyyətləri üzə çıxarmaq, onları xalqa daha yaxşı tanıtmaq və sevdirmək sahəsində yazıçıların xidməti böyükdür. Çünki, keçmişimizin, tariximizin öyrədilməsində, sevdirilməsində tarixi araşdırmalar, tarixi qaynaqlar, sənədlərlə bir sırada tarixi mövzularda yazılmış bədii əsərlər də eyni dərəcədə mühüm rol oynayır. Yerində qeyd etməliyik ki, tarixçilərin bəzən deyə bilmədiklərini bir çox hallarda yazıçılar demişlər. Çox örnəklər gətirmək mümkündür; bir fakt söyləmək istəyirəm. Manaf Süleymanovun daha çox memuar tərzində yazdığı *Gördüklərim, oxuduqlarım, bildiklərim* əsəri ortaya çıxanda hələ tarix kitablarımızda Azərbaycan Xalq Cümhuriyyəti quruculuğunda müstəsna rol oynamış Qafqaz İslam ordusunun fəaliyyəti hələ öz həqiqi elmi şərhini, hətta dəyərini belə tapmamışdı.

Azərbaycan xalqının həyatında 1918-ci il sözün əsil mənasında həm fəci, həm də uğurlu tarix baxımından mühüm bir zamandır; bu dövrdə həm qanlı hadisələr-mart qırğını, həm də Azərbaycan cümhuriyyətinin yaranışı baş vermişdir. Xalqımızın taleyində və dövlətçilik tariximizlə bağlı olan bu qısa dövr öz olk çağlarından başlamaqla Əhməd Cavad, Cəfər Cabbarlı, Salman Mümtaz, Abdulla Şaiq, Abbas ağa Nazir, Məhəmməd Hadi, Ümmigülsüm, Müznib və s. yaradıcılıq mövzusuna çevrilmişdir. Əlbəttə, sonrakı sovet dövründə yazılan əsərlərdə tarixin eynilə bədii inikasını gözləmək qeyri-mümkün idi; bununla belə Azərbaycan dövlətçiliyi tarixində ən böyük və əhəmiyyətli hadisələrdən olan həm QİO- su fəaliyyətləri, həm AXC eyni tarix daşımış sovet dövrü ədəbiyyatlarda Məmməd Səid Ordubadinin *Döyüşən şəhər*, Sabit Rəhmanın "Şirin bülbül", Mir Cəlalın *Dirilən adam*, *Bir gəncin manifesti*, Mehdi Hüseynin "Komissar", Böyükağa Talıblının "Qırx zopa", Qılman İlkinin

* Filologiya elmləri doktoru, Prof. Dr., Azerbaycan Devlet Pedagoji Üniversitesi; proftomris@gmail.com

"Şimal küləyi", "Yenilməz batalyon", Səməd Vurğunun "26-lar" poema və romanları qeyd etdiyimiz mürəkkəb tarixi çağların bədii təcəssümü olmaqla müəyyən mənada tarixin bədii şəkildə ifadəsinə xidmət edirdi.

Tələtümlü bir dövr olan 18-ci il Bakısı, ümumən Azərbaycan, eləcə də əksər tarixi obrazlar yadda qalan detallarla təsvir olunsalar da unutmayaq ki, siyasi quruluşun tələbləri üzündən belə mövzuları tam dəyərində işləmək qeyri-mümkün idi; bu məsələ tariximizin tədqiqi və dəyərləndirilməsində olduğu kimi ədəbiyyatımızda da bir çox hallarda dövrün siyasətinə, tələblərinə tabe etdirilmişdir. Tarixi roman janrının tədqiqatçısı Yavuz Axundlu bunu nəzərdə tutaraq göstərir: *"Azərbaycan tarixi uzun illər tarixi həqiqətləri tam əks etdirə bilməmiş, tarixçilərimiz bilə-bilə bu təkzibolunmaz həqiqətlərin üzərinə kölgə salmışlar. Bu, tarixçilərlə bərabər bədii söz ustalarına da təsirsiz qalmamışdır. Onlar da tarixçilərlə bir sırada keçmişi yalnız müəyyən qərar və direktivlərin dəst-xəttinə uyğun bədii tədqiqat obyektinə çevirmişlər"* (1998: 169). Beləliklə, inqilabi mövzular kimi əsərin qəhrəmanları da ədəbiyyata köçürülməkdə idi. Məcburi, saxta ideyaların qəhrəmanlarının mühitimizə yadlığı, uzaqlığı buradan doğurdu. Lakin "həyat həqiqəti mövqeyindən deyil, saxta ideoloji mövqedən yaradılan əsər obyektivliyi mühafizə edə bilməz" (Hüseynli 2001: 201). "Tarixi əsərlərdə tarixin təhrifi" məsələsinə münasibətdə Qəzənfər Kazımovun bu sənət barədə yüksək tələbkarlıq mövqeyindən söylənilmiş fikirlərini də əlavə etmək lazım gəlir: ədəbiyyat da tarix kimi tarixi düzgün əks etdirməlidir (Kazımov 1997: 68). Bundan təkcə tarixi keçmişimiz yox, həm də ədəbiyyatımız itirmişdir. Dünənimiz təhrif olunmuş, bədii sərvətimiz kasadlaşmışdır. Ən çox da milli şüurumuz, siyasi mədəniyyətimiz kasadlaşmışdır, ümumiyyətlə mənəvi ənənələrimizin davamında kəskin qırıqlıq əmələ gəlmişdir (Hüseynli 2001: 183).

Azərbaycan tarixinin bu dövrünün yeni baxışlar əsasında yaranması, şəksiz ədəbiyyatın, mədəniyyətin və ictimai həyatın böyük hadisəsi kimi qiymətləndirilməlidir. Əsrin başlanğicindakı oyanışlar ədəbiyyata keçirdi: Əhməd Cavad Bakının Qafqaz İslam Ordusu və yerli birliklər tərəfindən azad edilməsini və xalqın onlara bəslədiyi ümidləri, inamını ifadə edən "Ey əsgər" şeirində:

Şu qarşıkı duman çıxan bacadan
Sən gəlnədən iniltilər çıxardı.
Geciksəydin, məzlumların fəryadı
Yeri, göyü, kainatı yıxardı.

Nuri paşanın və igid Türk əsgərlərinin əfsanəvi qəhrəmanlığı, kəmiyyət etibarı ilə özlərindən qatqat üstün düşman qüvvələrə qələbə çalması dildən-dilə düşür. Belə bir qaynar mühitdə istiqlal hərəkatının atəşin bağrından qopan, pərvəriş tapan türk millətçiliyi və məfkurəsinə sahib çıxan Azərbaycan

gəncliyinin diqqət mərkəzində fitri istedadı, yüksək intellekti və sanballı yaradıcılığı ilə yer alan gənc Cəfər Cabbarlı da var idi (Rüstəmli 2009: 89).

Böyük siyasi şəxsiyyətlərin bədii şəxsiyyətə çevrilməsi ilə bağlı onu deyə bilərik ki, Cabbarlının *Ədirnəni fəthi*, *Ulduz və ya Trablis müharibəsi* əsəri həmin mövzunun həllinə yönəlmişdir. Əlbəttə, belə mövzular təkrar-təkrar işlənsə də yenə öz aktuallığını saxlamaqda, dəyərini mühafizə etməkdədir. Çünki *"Bu, tarix vasitəsi ilə tərbiyə etmək istəyən, məlum həqiqətlərin bədii şərhində öz sözü, öz xətti olan yazıçıya epik təsvir üçün qiymətli materialdır"* (Axundlu 1998: 154).

Nuri paşaya bacarıqlı hərbi xadim və şəxsiyyət kimi heyran olan dramaturq 1917-ci ildə I Dünya müharibəsinin qızgın çağında tamaşaya qoyulan *Trablis müharibəsi*'ndə Ramiz obrazında Nuri paşanı canlandırdı. Qafqaz İslam Ordusunun Bakını azad etməsi münasibətilə təşkil olunmuş ziyafətdə Cəfər Cabbarlı alovlu nitq söyləyərək generalın Bakının xilası uğrundakı zəfər yürüşündən bəhs olunacaq yeni əsərini yazacağına söz verdi.

Nuri paşa ziyafətdən sonra "arkadaş" adlandırdığı Cəfərin dəvətini qəbul edərək onun qonağı oldu. Gənc olmasına baxmayaraq, istedadlı və böyük sənətkarın darısqal mənzil şəraiti generalı sıxmadı. Nuri paşanın bu istiqamətdəki təkliflərindən Cəfər minnətdarlıqla imtina edirdi. Lakin ertəsi gün Nuri paşanın göndərdiyi hədiyyələri Cəfərin anası Hacı Şahbikə xanım qəbul etmək məcburiyyətində qaldı. Bunlar: bir ədəd nikelli dəmir çarpayı, daş güzgü, paltar üçün ayaqlı asılqan, divar saatı və bəzi əşya və ləvazimatlardan ibarət idi (Rüstəmli 2009: 94).

Bir həftə sonra, 1918-ci il noyabrın 17-də Müttəfiq Dövlətlər Birliyinin hərbi hissələrinin Bakıya daxil olması ilə əlaqədar Qafqaz İslam Ordusu Azərbaycandan geri çağırıldı. Nuri paşa iradəsinin və arzusunun əleyhinə olaraq, Bakını tərk etmək məcburiyyətində qaldı. C. Cabbarlı ziyafətdə verdiyi sözə əməl edərək, Nuri paşanın qəhrəmanlığından bəhs edən 5 pərdəli, 7 şəkilli *Bakı müharibəsi* adlı dram əsərini yaratdı (Rüstəmli 2009: 94). AXC hökumətinin qurulmasında, habelə cümhuriyyətin süqutundan sonra burada qalıb Azərbaycanı işğal edən Bolşevik işğalçılara qarşı Gəncə, Şuşa üsyanlarını təşkil edən Nuri paşanı xalq möhkəm sevirdi. Ona və yaxın silahdaşları Xəlil paşaya, Cəmil Cahid paşaya həsr olunmuş şeirlər də bir sevgi əlaməti olurdu.

Cümhuriyyət dövrü Türk ordusunun qələbələrini, onun Qafqazı azad etməsindən doğan sevinc, iftixar hisslərinin bədii əksini Azərbaycanlılarla yanaşı Türkiyəli yazıçıların da qələm nümunələrində görmək olurdu: Arif Ürfan Qaraosman, Rövşən Əşrəf, Namiq Kamal, Məhəmməd Əmin Yurdaqul, Tofiq Fikrət xalqın milli-tarixi yaddaşını oyadır, Azərbaycan türkləri ilə Osmanlı türkləri arasında yenidən bərpa olunan mənəvi körpünün dayaqları möhkəmləndirilirdi (Bayramoğlu 2008: 532).

Məlum olduğu kimi, Sovet hakimiyyəti illərində tarixi mövzuların həqiqqəti əks etməklə işlənməsinə ciddi qadağalar qoyulmuşdu. Məhz bu səbəbdən müstəqillik dövründə nəşr olunan əsərlərdə mənəvi dəyərlərə və milli-etnik şüura qayıdış motivləri daha intensiv şəkildə bədii təcəssümünü tapmaqdadır (Elaydi 2017: 46). Ölkə müstəqilliyi qazanılandan sonra mövzulara münasibətdə köküdən dəyişmələr baş verməklə yanaşı, ədəbiyyatımızın fəaliyyət məzmununda bir yenilənmə başlayır. İndi son onilliklərdə tariximizin qadağan olan mübhəm səhifələri yenidən yazılmaqda, yanlış yazılan məqamlarına böyük maraq duyulmaqdadır.

Yeni əsrdə müstəqilliyimizin elanı ilə həm də ədəbiyyatımıza, ictimai-siyasi düşüncəmizə on illər boyu susdurulmuş obrazlar, yasaqlanmış ideyalar, mövzular gətirildi. Nəticə uğurlu oldu: Azərbaycanda müstəqillik dövründə yaranmış tarixi əsərlər özünəməxsus mövzu, problematika yeniliyi, janr çalarları ilə diqqət çəkməkdədir. Bu onu göstərdi ki, Azərbaycan xalqı (və ədəbiyyatı) nə qədər susmağa məcbur edilsə də, öz tarixi həqiqətini(və şəxsiyyətini) unuda, ona yadlaşa bilməz (Cəfərov 2011: 184). Artıq son illərdə şərait dəyişmməsi, keçmişə yeni meyarlarla yanaşmağa diqqətin artması ilə də, tarix elmində, istərsə də söz sənətində obyektiv tarixi həqiqətləri əks etdirmək meyli güclənmişdi (Axundlu 1998: 169). Bu vaxt əlbəttə, ... tarixin müəyyən dövr, şəxsiyyət və problemlərinin öyrənilməsinə siyasi-ideoloji yasaqlar qaldırıldıqda təbii olaraq tarixin canlandırılması missiyası bədii nəsrin üzərinə düşəcəkdi (Elaydi 2017: 26) Get-gedə tarixi yaddaş bərpa olunduqca, dövrün həqiqətlərini diriltmək zərurəti artıqca təbii ki, Azərbaycanın öz istiqlaliyyətini qazanmasında önəmli yeri olan, dünənə kimi tarixin qaranlıq, öyrənilməmiş səhifəsi sayılan Qafqaz İslam Ordusu və onun komandanı Mustafa Nuri paşa, onun silahdaşları, şanlı türk zabitləri barədə əsərlər gündən günə çoxalmaqla dillərə düşəcəkdir:

Nuri Paşa at belində Türkiyədən, Karsdan gəlir.
Azərbaycan deyə-deyə yenilməyən arslan gəlir.

Qafqaz İslam Ordusunun xilaskar yürüşünə böyük ümidləri ifadə edən bu parça Nəriman Həsənzadənin tarixi mövzuda yazdığı "Nuri Paşa" (2010) poemasındandır. Qeyd edək ki, poemadan götürülmüş ayrıca şeir parçası "Qafqaz İslam Ordusunun Zəfər marşı" olaraq musiqi bəstələnib oxunmaqdadır:

Türkün döyüş bayrağında doğan aya, hilala bax.
Bu yürüşə, bu zəfərə, bu şanlıca cəlala bax.
Dalgalanan Türk Bayrağı istiqlaldan xəbər verir.
Türkün şanlı tarixinə zaman ər oğlu ər verir.

Şair hərarətlə vəsf etdiyi Nuri paşa timsalında qəhrəmanının tərcümeyi-halını onun özünün mənsub olduğu millətin tərcümeyi halı səviyyəsinə qaldırır: klassik dastanlardan gələn təbii bir yaradıcılıq enerjisi (və estetikası)

ilə inandırır ki, adi insan da, böyük şəxsiyyət də milli tarixi missiya daşıyır. Millət o zaman güclü olur ki, …böyük şəxsiyyətini tanısın, ictimai yaddaşına (tarixinə!) yazıb örnəyə çevirsin (Cəfərov 2014: 76). Odur ki, xalqımız bütün təhlükələrə baxmayaraq tarixin unutdurulduğu sovet irtica illərində belə bu borcu verməyə çalışmış, türk əsgərlərinin tənha məzarlarını qoruyub saxlamış, ona ibadətgah kimi baxmışdır (Cəfərov 2014: 79). Bununla bağlı fikirlərimizi möhkəmlətmək üçün Bəxtiyar Vahabzadənin "Tənha məzar"dan bir hissəyə nəzər salaq:

Yolun kənarında tənha bir məzar, üstündə nə adı, nə soyadı var.
Ey yolçu, maşını əylə bu yerdə, soruş kimdir yatan tənha qəbirdə.
O bir türk zabiti – qəhrəman, mətin, doğma qardaşına yardıma gəldi.

Qeyd edək ki, Bəxtiyar Vahabzadənin "Tənha məzar" adlı şerindən bu misralar Şamaxı altında Acıdərə də məzar daşına həkk edilmişdir:

QİO-sunun Gəncədən başlayıb Bakı, Dərbənd istiqamətində Şamaxı, Salyan deyə şaxələnən keçdiyi döyüş yolları üstə şəhid məzarları qalmışdır. Zaman zaman Azərbaycan torpaqlarında qardaşlığın bənzərsiz örnəyi olan bu yadigarlar şeir, sənət mövzusuna çevrilmişlər. Bu sətirlərin müıllifinin də bir çox şairlərimizin səsinə qatdığı sözü vardır.

Yolçu! Bu məzarda uyuyan şəhid, qardaşın qardaşa əmanətidir.
Odlar diyarının istiqlalına qoca Türkiyənin zəmanətidir! (Qabil)

Şeir bizdə sevdiyimiz tariximizin ədəbiyyatımızda əksi, başqa sözlə: tarixiliyin və bədiiliyin vəhdəti (Təkəli 2019: 168) təəssüratlarını doğurdu. Həqiqətən də tariximizin "tədqiqində" və sevdirilməsində bədii ədəbiyyat nümunələri, o cümlədən tarixi əsərlər həcmindən, janrından asılı olmayaraq, mühüm rol oynayır.

Nizami Cəfərov müstəqillik əldə olunduqdan sonra bu mövzulara münasibətdə ədəbiyyatımızda, habelə ayrı-ayrı yazıçıların, o cümlədən *"müstəqillik dövrü Azərbaycan poeziysının ən gözəl əsərlərindən birini yazan"* (Cəfərov 2014: 80). Nəriman Həsənzadə yaradıcılığında ideya məzmun istiqamətində gedən yeniliyi nəzərdə tutaraq yazırdı: bu əsərlərdə (Nuri paşa və digər şəxsiyyətlərimiz, habelə Qarabağ həqiqətləri barədə – M. T.) Nəriman Həsənzadə həm epos-təhkiyə-intonasiyasına, həm hadisələrin dramatizminə, həm də xarakterik detal-məqamların ictimai-estetik interpretasiyasına əsaslanmaqla həm bir şair, həm bir tarixçi, həm də bir mütəfəkkir-filosof kimi çıxış edir (Cəfərov 2011: 183).

Tarixçilər tarix deyir, tarix özü sual yazır.
Türk qılıncı parlayanda tarixə istiqlal yazır.

Poema hazırlanarkən müəllif bir növ hər hansı bir tarixçidən heç də az olmayacaq şəkildə araşdırmalara girişmiş, çoxlu sayda mənbələrə müraciət

etməli olmuşdu; "bu qaynaqlar müəllifə əsərdə maraqlı, cazib döyüş səhnələri qurmağa, habelə tarixi şəxsiyyətlərin dəqiq, doğru-dürüst, dolğun portretini yaratmağa kömək etmişdir (Təkəli 2019: 178). N. Həsənzadə poema yaradıcılığına lirikadan gəlmişdir, bu da özünü şairin poemalarının lirik xarakterində kifayət qədər aydın göstərir (Cəfərov 2011: 183). Bu onun böyük sevgi ilə yaratdığı Nuri paşa obrazına baxışında da özünü tapır. O, Nəriman Həsənzadə üçün həm tarixi, həm də lirik qəhrəmandır. Poema xüsusi bir tərzdə hazırlanmış: əsər 15 sərbəst şeir parçasından ibarətdir. Nuri paşaya, onun komandası altında qəhrəman Türk ordusu əsgərlərinə sonsuz ehtiram şeirin hər misrasından, bu sevginin və sayğının şairanə ifadəsindən sezilməkdədir. Bu bir həqiqətdir ki, bədiiliyin ən mühüm əlaməti əsərin dilinin mükəmməlliyidir. Bu mənada yenə həmin əsər üzrə müşahidələrimizin nəticələrini nəzərdən keçirək:

Türk can qoydu bu torpaqda "Azərbaycan!" deyə-deyə.
Tarix, səni oxuyuram, mən Türkə "can" deyə-deyə

Poema Nuri paşa haqqında bioqrafik əsər də deyildir; amma tarixi şəxsiyyətin bədii təcəssümüdür. Belə əsərlər bizə tarix öyrədir; bədii əsər də öz növbəsində tarix kitabları tək bu tarixlə bir nəfəs almağa, tanıyıb öyrənməyə, onu sevməyə kömək edir. Etiraf edək ki, bədii ədəbiyyat tarixdən çox oxunur, buna görə də onun düzgün və obyektiv mövqeyi daha vacibdir. Bu tələblərə cavab verməyən əsərlər sadəcə olaraq mövzunu korlamaqla qalmır, dövrə yanlış münasibət yaratmaqla... oxucunu çaşdırır; keçmişə münasibətini korlayır, tarixi duyumla yaranmış təsəvvürləri heçə endirir (Kazımov 1997: 568). Ümumən Nəriman Həsənzadənin yaradıcılığına xas olan "sevgi üslubu" bu əsərdə özünü tam dəyərində hiss etdirir. Ürək şairi, səmimiyyət şairi kimi tanıdığımız şairimizin işlətdiyi ifadələr də bu səmimiyyətin, sevginin əks-sədasıdır: "Fatehlərin varisi", "Paşa balam", "Turanlı Şahzadəm", "Türk laylası", "Türkün qılınc ləhcəsi", "Türk qartalı", "Xətainin qılıncı", "Türk qılıncı", "vaxtın əli tətikdədir", "cəhənnəm səhnəsi" (Ermənilərin ölkənin hər guşəsində törətdiyi qırğına işarə ilə), "alovların qucağına nazirin qardaşı gəlir" (*qardaş köməyinə yetmək üçün nazir öz qardaşını Azərbaycana göndərir.*" ifadələri boşuna işlədilməyib). İsmət Bora Binatlı poemanı Türkiyə türkcəsinə çevirmişdir.

Demək, müəyyən mənada keçmişimizi, bir növ taleyimiz, tərcümeyi-halımız sandığımız tariximizi sevdirmək işində də ədəbiyyatımızın rolu böyükdür. Beləliklə, Vətən sevgisini, tarixə məhəbbəti əks etmək, keçmişin səhifələrinin işığa tutularaq bərpa etməklə canlandırmaq həmişə olduğu kimi bu gün də ədəbiyyatımızın mühüm vəzifələrindəndir. "Bakı fatehi" Nuri paşa və silahdaşları, habelə Azərbaycanın istiqlalı uğrunda fövqəladə hünər göstərmiş hərbi bölüklər, qəhrəman alaylar hər cür vəsfə, daim minnətdarlıqla anılmağa, xatirəsinə əsərlər yazılıb, heykəlləri qoyulmağa, əbədiləşdirilməyə layiqdirlər.

Qaynaqlar

1. Axundlu, Yavuz (1998). *Tarixi roman yeni mərhələdə*. Bakı: Maarif yayınları.
2. Bayramoğlu, Alxan (2008). *Cümhuriyyət ədəbiyyatında Qafqaz İslam Ordusu-Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu*. Bakı: Nurlar. ss. 531-562.
3. Cəfərov, Nizami (2011). *Tarixiliyin müasirliyi və müasirliyin tarixiliyi*. Bakı: Elm və Təhsil yayınları.
4. Cəfərov, Nizami (2014). *Tarixin tərcümeyi halı*. Bakı: Elm və Təhsil yayınları.
5. Elaydi, Əhməd Sami (2017). *Müstəqillik dövrü Azərbaycan romanı. Mövzu, problematika və sənətkarlıq məsələləri* (1991-2005). Bakı: Nurlar yayınları.
6. Hüseynli, Akif (2001). *Həyat və sənət həqiqətləri*. Bakı: Elm yayınları.
7. Kazımov, Qəzənfər (1997). *Ədəbiyyat və sənət məsələləri*. Bakı: Kitab Palatası yayınları.
8. Nuriyeva, Minaxanım Təkəli (2019). *Sənət kəşfləri: Yaradıcılıq səadəti*. Bakı: Elm və Təhsil yayınları.
9. Rüstəmli, Asif (2009). *Cəfər Cabbarlı. Həyatı və mühiti*. Bakı: Elm yayınları.
10. Rzayev, Yaşar (2010). *Azərbaycan romanı: siyasət və milli düşüncə*. Bakı: Elm yayınları.
11. Süleymanov, Mehman (2013). *Nuri Paşa və silahdaşları*. Bakı: Nurlar yayınları.

ƏHMƏD BƏY AĞAOĞLU VƏ ONUN *SƏRBƏST İNSANLAR ÖLKƏSİNDƏ* ƏSƏRİ

*Aygün ORUCOVA**

"Azadlıq və istiqlaliyyət əsas süngülərlə yox,
ədəbiyyat və incəsənət vasitəsi ilə əldə olunur!"

Məmməd Əmin Rəsulzadə

Əhməd bəy Ağaoğlu kimdir?

Dünyaya gəlməsindən bir əsr yarımdan artıq bir zaman keçən Türk-İslam dünyasının Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid kimi dahi şəxsiyyətlərindən biri olan Əhməd bəy Ağaoğlu Şuşada rus gimnaziyasında təhsil alan cəmisi beş azərbaycanlı şagirddən biri olmuş, burada əsl düşmənini dərindən tanımış, hələ məktəb illərindən fiziki və mənəvi mübarizələrlə dolu bir həyatın acı həqiqətləri ilə üz-üzə dayanmışdır. Gənc yaşlarından ərəb, fars, rus, ingilis, alman, fransız dilləri, ədəbiyyatı və mədəniyyətlərini mükəmməl öyrənmiş Əhməd bəy Mirzə Həsən oğlu Ağayev (1869-1939) Qarabağda, Şuşada anadan olmuş, İstanbulda vəfat etmişdir. Şuşada rus gimnaziyasını, Sarbonna Universiteti yanındakı Paris Hüquq Məktəbini bitirmiş, burada Praktik Ali Tədqiqatlar Məktəbində və Şərq dilləri Məktəbində Şərq və islam tarixinə dair biliklərini təkmilləşdirmiş, professor Ceyms Darmstater, Şefer və barbiye de Veynarın mühazirələrini dinləmiş, islam aləmi mütəfəkkirlərindən Şeyx Cəmaləddin Əfqani, Parisdə *Məşrutiyyət* qəzetini nəşr edən Əhməd Riza bəy, Esat Paşa və s. "gənc türklər"lə tanış olmuş, onların rəğbətini qazanmışdır. XIX əsrin 90-cı illərində Parisin *La Nouvelle revue* (Yeni xəbərlər), *Journal des debats* və s. nüfuzlu mətbu orqanları Əhməd bəy Ağaoğlunun İran və Azərbaycan, türk-müsəlman xalqlarının tarixi, mədəniyyəti və ədəbiyyatı haqqında məqalələrini dərc etmiş, Tiflisdə rusca nəşr olunan *Kavkaz* və Bakıdakı *Kaspi* qəzetilə yaxından əməkdaşlıq etmişdir. 1894-cü ildə İstanbulda Əli bəy Hüseynzadə ilə görüşmüş və dostlaşmışdır. 1894-cü ildə İstanbul üzərindən vətənə qayıdan Əhməd bəy burada qalıb yaşaması ilə bağlı təkliflər alsa da, vətənə dönməyi üstün tutmuşdur.

* Filologiya üzrə fəlsəfə doktoru, AMEA Naxçıvan Bölməsi; orujovaaygun82@gmail.com

Həyatının Paris mərhələsində əldə etdiyi bilik və təcrübəni öz həmvətənləri ilə paylaşmaq, onları elm, təhsil, mədəniyyət, hüquq və s. sahələrdə inkişaf etdirməyə çalışan Əhməd bəy *"gördüyü işlərin müqabilində 'Firəng Əhməd' ləqəbini qazanır."* (Ağaoğlu 2007: 7)

1898-ci ildə Bakıya köçən Əhməd bəy Əlimərdan bəy Topçubaşovla birlikdə *Kaspi* faktiki redaktor və əsas müəlliflərindən biri kimi göstərir. 1904-cü ildə Bakıda sərt polemik ruhda yazılmış *İslam və Axund* və *İslama görə və islamda qadın* adlı rusca yazdığı əsəri çap olunmuşdur. 1905-ci ildə *Həyat* qəzetinin (Əli bəy Hüseynzadə və Əlimərdan bəy Topçubaşovla birlikdə), 1908-ci ilədək *İrşad*, 1908-ci ilin iyulundan milyonçu Murtuza Muxtarovun vəsaiti ilə çıxmağa başlayan *Tərəqqi* qəzetinin redaktoru olmuşdur. Xalqını milli özünüdərkə və siyasi oyanışa çağıran Əhməd bəyin getgedə rus-daşnak birləşmələri və yerli müsəlman başbilənlərindən düşmənləri də artmış, 1908-ci ilin ikinci yarısında Rusiya hökümətinin qərarı ilə Zaqafqaziyada yaşamaq hüququndan məhrum olunduğundan Azərbaycanı tərk edib, İstanbula getmişdir. Burada 1911-ci ildən *Türk yurdu* jurnalının əsasını qoymuş (başqaları ilə birlikdə), *Gənc türk* qəzetini redaktə etmiş, maarif müfəttişi, Süleymaniyyə kitabxanasının müdiri vəzifələrində çalışmışdır. 1914-cü ildə qızğın ictimai-siyasi fəaliyyətinin nəticəsi olaraq o, Azərbaycan əsilli türklərin yaşadığı Afyon-Qarahisardan Türkiyə Böyük Millət Məclisinin üzvü seçilmişdir. İstanbul Universitetində rus dili və ədəbiyyatı, türk-monqol tarixi fənlərindən mühazirələr oxumuşdur. Həmin illərin məhsulu olan, İstanbul Universitetində oxunmuş mühazirələrin əsasında 1917-ci ildə qələmə aldığı *Rus ədəbiyyatının ümumi səciyyələri* tədqiqatı xüsusi yer tutur.

1918-ci ildə Azərbaycana gəlmiş Türkiyə Qafqaz Ordusunun komandanı Nuru Paşanın müşaviri məhz Əhməd bəy Ağayev olmuş, o, türk komandanlığı ilə Azərbaycan hökuməti arasında meydana çıxan anlaşılmazlıqların aradan qaldırılmasında mühüm rol oynamış, Şərqin ilk müsəlman demokratik dövlətinin möhkəmlənməsi naminə geniş fəaliyyət göstərmişdir. 1918-ci ildə Əhməd bəy Ağaoğlu Azərbaycan Parlamentinə bitərəf deputat kimi üzv seçilmişdir. İngilis işğal qüvvələrinin komandanlığı ilə Ənzəlidə və Bakıda mühüm danışıqlar aparmışdır. Məhz milli mənafeyə xidmət etməsi səbəbindən işğalçı müttəfiq dövlətlər İstanbulda onu "gənc türklər"lə əməkdaşlıqda və guya erməni qırğınlarının təşkilində günahlandırmışlar. 1919-cu ilin mayında həbs olunan Əhməd bəy Parisə Sülh konfransında iştirak etmək üçün gedərkən keçmiş "İttihad və Tərəqqi" partiyasının tanınmış üzvləri ilə birlikdə Böyük Britaniyanın nəzarəti altındakı Malta adasına sürgün olunmuşdur. İstanbulu işğal etmiş Britaniya qüvvələrinin özbaşınalığına ilk gündən öz kəskin etirazını bildirmiş, Böyük Britaniya ədliyyə nazirinə, lordlar palatasının sədrinə ünvanladığı məktublarda mərhəmət, bağışlanmaq, əhv diləməmiş, əksinə ədalət,

haqq tələb etdiyini yazmışdır. İyirmi altı ay davam edən sürgün həyatında Əhməd bəy ingilis dilini mükəmməl öyrənir və Qərb fəlsəfəsi, Qərb mədəniyyəti haqqında fundamental əsərlər oxuyur. Sürgün həyatı bitdikdən sonra 1921-ci ildə Azərbaycanda Sovet rejimi qurulduğu bir dövrdə Nəriman Nərimanovun onu Bakıya yüksək vəzifəyə dəvət etməsinə və bolşevik ideyalarının insanlığı xilas edəcəyi ilə bağlı düşüncələrə qapılsa da, vətən torpağında dəfn olunmağı nə qədər arzulasa da, Əhməd bəy bütün türklərin nicat yeri kimi baxdığı ikinci ana vətəni Türkiyəyə qayıtmaq yolunu seçmişdir.

Türkiyədə jurnalist və siyasi fəaliyyətini davam etdirən Əhməd bəy mətbuat bürosunun direktoru, Türkiyənin *Hakimiyyəti-Milliyə* qəzetinin baş redaktoru və müasir Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün yaxın məsləhətçisi kimi geniş fəaliyyət göstərmişdir. *"Əhməd bəy Ağayevin Türkiyəyə dönməsi orada hakimiyyətin 'İhtilaf və Hürriyyət' partiyasının əlinə keçməsiylə üst-üstə düşdü və bu partiya keçmiş 'İttihad və Tərəqqi'çilərə qarşı şiddətli təqiblərə başlamışdı. Siyasi rəqiblərinin hamısı, xüsusən də bütün Türkiyə ziyalıları məhbəslərə salınıb"* (http://azerbaycanli.org/az/page797.html[28/06/2019]). Bu dövrdə də türkçülük ideyaları Əhməd bəyin fəaliyyətinin əsas istiqamətinə çevrilir.

Azərbaycan xalqının böyük vətənpərvər oğlu Əhməd bəy Ağaoğlu 1939-cu ildə Türkiyədə vəfat etmişdir.

> *"İlk gəncliyindən öyrənmək həvəsi, böyük dünyaya qovuşmaq ehtirası Əhməd bəy Ağaoğlunu əvvəlcə Rusiyaya, daha sonra Avropaya – Fransaya aparıb çıxardığından və onun dünyagörüşünün formalaşmasında bu mühitin çox böyük rolu olduğundan görkəmli ədibin bütün sonrakı yaradıcılığında Şərqçilik, türkçülük, islamçılıq ruhunun mütləq hakimliyinə baxmayaraq, qərbçilik də çox mühüm yer tutmuşdu"* (Abdullayeva 2014: 88).

Hələ 1905-ci ildə Bakıda fransız dilində yazılan məktubların birində sonralar Əhməd bəyin oğlu Səməd Ağaoğlunun *Atamın dostları* kitabında (2016) böyük hörmətlə xatırlayacağı Əli bəy Hüseynzadəni ermənilərlə bağlı ayıq-sayıq olmağa çağırması da səbəbsiz deyildi: *"Canım dostum, səndən sadəcə ermənilərə çox üz verməməyini rica edirəm…"* (https://dilqemehmed.wordpress.com/2014/04/14/əhməd-agaoglunun-əli-bəy-huseynzadəyə-məktublari/). 1905-1907-ci illərdə Rusiya müsəlmanlarının Nijni-Novqorod və Moskvada keçirilən I-III qurultaylarının təşkilatçılarından biri olmuş, türk-müsəlman xalqlarının hüquq və mənafelərini müdafiə etmişdir. XX-ci əsrin əvvəllərinin mühüm siyasi hadisələrini faktlar, sənədlər əsasında yazıya almış böyük Azərbaycan ədibi, tarixi romanlar ustası M. S. Ordubadi *Qanlı illər* kitabında yazdığı kimi *"milləti uğrunda bu qədər cidd-cəhdlə çalışan, millətsevər*" (Ordubadi 1991: 110) və son dərəcə qətiyyətli, sözündən dönməz, uzaqgörən

bir zəka sahibi olan Əhməd bəy 1905-1906-cı illər ermənilərin Qafqazda törətdiyi qanlı qarşıdurmalar zamanı sülh danışıqları aparmaq məqsədilə Tiflisə, Qafqaz canişini Vorontsov – Daşkovun yanına göndərilən 9 nəfərlik nümayəndə heyətinin üzvü, iclasların hamısında əsas sözçü olmuşdur. Nəticədə, "1905-ci ilə qədər daha çox "söz adamı" kimi tanınan Əhməd bəy Ağaoğlu 1906-cı ildə *"Azərbaycan türklərinin şərəf və ləyaqətini qorumaq məqsədilə, erməni terrorizminə qarşı müqavimətini təşkil edən"* (Ağaoğlu 2007: 15) (Vilayət Quliyev) "Difai" adlı bir partiya yaradır.

Əsərlərinin nəşri tarixindən

Çağdaş türk-islam dünyasının mədəniyyət və ictimai fikir tarixinə çoxcəhətli və ensiklopedik şəxsiyyət kimi daxil olmuş Əhməd bəyin Türkiyədə *Sərbəst insanlar ölkəsində* əsəri 1930-cu ildə, "*Rus ədəbiyyatının ümumi səciyyələri*" adlı əsəri 1932-ci ildə *Cümhuriyyət* qəzetində beş məqalədən ibarət olaraq, *"İran və inqilabı"* 1934-cü ildə *"1500 ilə 1900 arasında İran"* adıyla, *"Ben neyim"* və *"Tanrı dağında"* əsərləri daxil olan *Ağaoğlu külliyyatı*nın I cildi 1939-cu ildə, *"Könülsüz olmaz"*, *"Təkamülmü? İnqilabmı?"* əsərlərinin daxil olduğu *Ağaoğlu külliyyatı*nın II cildi 1942-ci ildə, *Sərbəst Firqə xatirələri* 1950-ci ildə ilk dəfə işıq üzü görmüşdür. 1901-ci ildə rus dilində Tiflisdə *İslama görə və islamda qadın* əsəri, Azərbaycanda 1904-cü ildə Bakıda *Kaspi* qəzetinin mətbəəsində *Axund, İslam və Hatifülqeyb*, kölə olmaqdan bezənlərə, azad, sərbəst olmaq istəyənlərə ünvanlanmış *Sərbəst insanlar ölkəsində* (Ağaoğlu 2001, Ağaoğlu 2016), dünya sivilizasiyasının beşiyi olan Şərqin tənəzzülünün səbəbləri araşdırılan *Üç mədəniyyət* (Ağaoğlu 2006), 1500-cü ildən başlayaraq iyirminci yüzilin əvvəllərinə qədər İran adlanan ölkənin tarixi izlənilən, İranın tarixində və tərəqqisində mühüm rol oynamış türk sülalələrinin idarəçilik və dövlətçilik mexanizmi, yaradılan hakimiyyət sisteminin özünəməxsus xüsusiyyətləri aşkarlanmış tarixi-publisistik *İran və inqilabı* (Ağaoğlu 2009), bir sıra bədii-fəlsəfi əsərləri və məqalələri daxil edilmiş *Seçilmiş əsərləri* (Ağaoğlu 2007) və s. nəşr olunmuş, həyatı və yaradıcılığının müxtəlif məqamları araşdırılan, yaşadığı dövrə münasibət və bunun Azərbaycanda müasir ictimai-siyasi fikrin inkişafına təsirindən bəhs olunan "Şərq-Qərb mədəniyyətləri və *Əhməd bəy Ağaoğlu* (Sofiyev 2004), dörd bölmədən ibarət *Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu* (Akalın 2004), *Əhməd bəy Ağaoğlunun publisistikası* (Hacıyeva 2012), *Azərbaycanın rusdilli dövri mətbuatının tarixindən: 1871-1918* (Hacıyeva 2017), jurnalistika, siyasət, ictimai fikir, tənqid, bədii ədəbiyyat, elm sahələrində göstərdiyi çoxcəhətli, mürəkkəb, səmərəli fəaliyyəti nəzərdən keçirilmiş *Əhməd bəy Ağaoğlu* (Mirəhmədov 2014), Əlibəy Hüseynzadə, Əhmədbəy Ağaoğlu və Yusif Vəzir Çəmənzəminlinin qərbçilik görüşlərinə və islami dəyərlərə münasibətinə daha ətraflı toxunulmuş *Azərbaycan ədəbi fikrində qərbçilik*

meyilləri: XX əsrin əvvəlləri (Abdullayeva 2014) tədqiqat əsərləri nəşr olunmuşdur.

***Sərbəst insanlar ölkəsində* əsərinin yaranması səbəbləri**

İsmət İnönü ilə arasının pozulmasına səbəb olan şəkər fabriki ilə bağlı hadisədən sonra Əhməd bəy Ağaoğlu millət vəkili seçilmədi. *"Əhməd bəy 1930-cu ildə Atatürkün yaratdığı və başçılıq etdiyi 'Cumhuriyyət Xalq Firqəsi'ndən çox da fərqlənməyəcək ikinci 'Sərbəst Cumhuriyyət Firqəsi'nin yaranmasının Əhməd bəy Ağaoğlu öz dünyagörüşünə uyğun izah edir, siyasi oyun olduğunu ağlına belə gətirmird*i" (Hacıyeva http://yazikiliteratura2.narod.ru/lit46.html). İsmət İnönünün cızdığı plana əsasən firqə 1930-cu ilin avqust ayının 8-də yarandı, həmin ilin noyabrın 17-də məhv olundu. Məqsəd isə hakim partiyaya alternativ firqə yaradıb, ən etibarlı adamları oraya cəlb etmək və həmin adamları Atatürkün və xalqın gözündə alçaldaraq siyasi arenadan sıxışdırmaq idi. Ə. Ağaoğlu həqiqətən də bütün varlığıyla Atatürkün rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinə qatılmaq və fəal iştirak etmək fikrində və əzmindəydi. O, Türkiyəni vətəni Azərbaycan qədər sevir və Türk dünyasına xidmət etməyi özünə borc bilirdi. Lakin parlaq və eyni zamanda çılğın şəxsiyyət olduğu üçün daha ehtiyatlı siyasətçilər tərəfindən asanlıqla Atatürkdən uzaqlaşdırıldı. Sərbəst firqə avantürasından sonra Əhmədbəy Ağayev bir-birinin ardınca bütün vəzifələrindən məhrum edildi. Ə. Ağaoğlunun "Sərbəst firqə" avantürasına İnönü tərəfindən cəlb olunması Atatürkə qısqanclıqdan qaynaqlanırdı. Bu qısqanclığın əsl səbəbi Ağaoğlunun 1930-cu ildə kitab şəklində, ondan əvvəl isə hissə-hissə *Cümhuriyyət* qəzetində nəşr etdirdiyi "Sərbəst insanlar ölkəsində" əsəri olmuşdu. Bu əsərdə Əhməd bəy Ağaoğlunun ədəbi-nəzəri, sosial-mədəni və tarixi-fəlsəfi görüşləri bədii əksini tapmışdır. *Sərbəst insanlar ölkəsində* kitabı Əhməd bəy Ağaoğlunun milli-mənəvi təkamülünün zirvəsi, fikri inkişafının tarixi, fəlsəfi yekunudur.

Əsərdə demokratiya prinsiplərinə söykənən ideal bir ölkə təsvir olunur. Həmin ölkə kimi ədib o illər respublika idarə üsulunu seçmiş Türkiyəni, onun rəhbərləri müəllifin "pir" kimi təqdim etdiyi şəxslər, onun başçısı *Türk Cümhuriyyətini quran dahi* (Ağaoğlu 2007: 187) Atatürkü göstərir. Atatürkün adını açıq çəkməsə də, "dahini" xarakterizə etdiyi cəhətlərdən kimliyi dərhal bəlli olur. Pirlər dahi rəhbərin əməl və arzularının həyata keçirilməsi üçün çalışır, əsl azadlığın şərtlərini yeni vətəndaşlara açıqlayır. Əsərə müqəddiməsində müəllif etiraf edir ki, *"millətin bir fərdi kimi, demokratik dövlətdə azad və sərbəst vətəndaşların necə olmaları haqqında fikirlərini"* (Ağaoğlu 2007: 187) göstərməyə çalışmış, bu yolla gedilərsə *"məmləkətimizin azadlıq və fəzilət sahəsində necə inkişaf edərək gələcəkdə nur və mədəniyyət mənbəyi olacağını"* (Ağaoğlu 2007: 187) təsvir etmək istəmişdir. Ə. Ağaoğlu belə bir ideyanın utopik olduğunu anlayaraq əsərini "naçiz" (yəni əhəmiyyətsiz),

"umacaqsız" adlandırır. Utopiya sözünün yunancadan mənası real həyatda mövcud olmayan mükəmməl məkan deməkdir. Mükəmməl dövlətin yaradılmasına həsr edilmiş ilk əsər Platonun *Dövlət* əsəri olsa da, utopiya sözü XVI-cı əsrin ingilis filosofu Tomas Morun 1516-cı ildə yazdığı *Utopiya* adlı əsərində təsvir edilən cəmiyyəti quran adamın adından götürülmüşdür. Əhməd bəy Ağaoğlunun *Seçilmiş əsərləri* kitabının "İzah və şərhlər" bölümündə bu əsərdə *"Avropa utopik ədəbiyyatının, ilk növbədə isə Tomas Mor və Tomazo Kampanellanın utopist romanlarının müəyyən təsiri"* (Ağaoğlu 2007: 378) duyulduğu qeyd olunur. Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi adları qeyd olunan bu müəlliflərdən hələ əsrlər əvvəl *İsgəndərnamə* poemasında özünün ideal cəmiyyət haqqında utopik fikirlərini açmışdır. Belə ki, poemanin qəhrəmanı Makedoniyalı İsgəndər uzun səfərlərdən sonra yoxsul və varlının, ağa və nökərin olmadığı qəribə, gözəl bir ölkəyə gəlib çıxır. Burada haqsızlığın, yalançılığın, fitnə-fəsadın, hiylənin, şöhrətpərəstliyin nə olduğunu bilmirlər. Bu ölkənin vətəndaşlarının hakim, idarəediciyə ehtiyacları yoxdur. Nizaminin fikrincə, əgər insanlar ədalət qanunlarını rəhbər tutaraq yaşaya bilirlərsə, bir-birini sevib hörmət edirlərsə, onda şəksiz ki, hökmdara ehtiyac olmayan belə bir cəmiyyət yarada bilərlər. Şairin utopik ideyaları xalqın geniş kütlələrinin arzularının ifadəsi idi.

Əhməd bəy demokratiya, demokratik dövlət və bu dövlətdə insanları səciyyələndirən xüsusiyyətlər haqqında düşüncələrini anlaşıqlı ifadə etmək üçün hekayə janrını seçdiyini qeyd edir. İstibdabdan, şəxsi hakimiyyətdən qaçmış bir fərdin, əslində özünün, azad və sərbəst ölkəyə düşməsi, bu ölkənin yaşayışı, düşüncələri, qanunlarıyla tanış olması və bunlara alışmasını göstərməyə çalışmışdır. Müəllif azadlıq məfhumunu, onun dəyərini, şərtlərini, əsaslarını açmağa çalışır. "Sərbəst insanların əsas qaydaları"nın "Ümumi əsasları" bu 3 maddədən ibarətdir: *"1. Azadlıq yüksək bir vergidir. Azad ola bilmək üçün çox nəcib olmalısan. 2. Fikir təmizliyi, söz təmizliyi və əməl təmizliyi azadlığın əsaslarıdır. Tamahlarına yiyə durmayanlar azad ola bilməzlər. 3. Söz sadəliyi və yaşayış sadəliyi azadlığın şərtləridir"* (Ağaoğlu 2007: 189). Əsərə verilmiş ayrı-ayrı başlıqlar azadlığın şərtlərinin heç də o qədər asan olmadığını, belə bir ölkənin vətəndaşı ola bilməyin şərəf işi olduğunu, insanın yalnız mənəvi kamillikdən sonra bu mərtəbəyə yüksələcəyini açıq-aydın sübut edir: "Azad olmaq nə qədər çətin imiş", "Azadlıq bir güldür", "Yalan, riya, yaltaqlıq", "Azadlıqla casusluq", "Xalq idarəsində dövlət", "Sərbəst məmləkətdə nəzarət işi", "İnsanlar qorxaq doğulmurlar", "Azadlıq və xarakter", "Həqiqətə hörmət", "Heysiyyət sahibisənmi?", "Ruhların və qəlblərin təmizliyi", "Hürriyyətlə əxlaq arasındakı fərq" və s. Ağaoğlunun qəhrəmanı azad ölkənin qayda-qanunları, adətənənələri ilə tanış olur, bunları mənimsəməyə çalışır və sonda həmin ölkənin vətəndaşı olmaq istədiyini pirlərə – ölkənin rəhbərlərinə bildirir. Azadlıq mələyinin qanadları altında onu pozanlara qənim olan

müqəddəs and içən bu şəxs dəfələrlə qərarının qəti olub-olmaması haqqında sorğulanır, əgər tərəddüd, içində bir azcıq da olsa şübhə varsa, geri çəkilməyi məsləhət görülür. Çünki azadlığı himayə və hifz edən mələk insanı hər an təqib edərək, andına sadiq olmayanlara qənim kəsilir, onların üzlərini qara ləkələrlə damğalayır. Azadlığa sadiq qalacağına dair and içən, and mətni yazılan vərəqəni imzalayan azad ölkənin yeni vətəndaşının sevincinin həddi-hüdudu yoxdur: *"Mən artıq Sərbəst İnsanlar Ölkəsinin vətəndaşı sayılacaqdım. Duyduğum sevinci söyləməyə acizlik çəkirəm. Ömrüm boyu mənəvi aləmimdə bu qədər məmnunluq duymamışdım. Özümdə o vaxtadək görmədiyim bir təzəlik, coşqun qüvvə hiss edirdim. Mənim gözlərimdə yer, göy, hər şey rəngini və mahiyyətini dəyişdirmişdi. Hər şeydə yeni bir gözəllik duyurdum. Hər şey məni yaşamağa dəvət edirdi. Aydın başa düşdüm ki, Azadlıq mələyinin aşiqi olmuşam!!!"* (Ağaoğlu 2007: 255).

Son

Ömrünə və nəslinə ağır mühacirət həyatı qismət olmuş Azərbaycan mütəfəkkirlərdən, milli mücadilə fədailərindən biri Mustafa Kamal Atatürkün silahdaşı nüfuzu qazanmış Əhməd bəy Ağaoğlu bütün həyatı, yaradıcılığı, siyasi fəaliyyəti ilə Türk xalqlarının birliyi, azadlığı, mədəni inkişafı üçün əsl mübarizə aparmışdır. Zaman onun şərəfli adını, nəcib və faydalı əməllərini tarixin üzünə çıxardı. Bu gün uğrunda fədakarcasına mücadilə etdiyi şanlı istiqlal tarixi ona xidmət edir.

Qaynaqlar

Abdullayeva, Təranə (2014). *Azərbaycan ədəbi fikrində Qərbçilik meyilləri. (XX əsrin əvvəlləri).* Bakı: Avropa.

Akalın, Gülsərən (2004). *Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu* (Tərcümə edəni S. Məmmədova). Bakı: AzAtaM.

Ağaoğlu, Əhməd (2007). *Seçilmiş əsərləri* (Tərtib edənlər: Əziz Mirəhmədov, Vilayət Quliyev). Bakı: Şərq-Qərb.

Ağaoğlu, Səməd (2016). *Atamın dostları*. (Tərcümə və şərhlərin müəllifi V. M. Quliyev). Bakı: Azərbaycan Tərcümə Mərkəzi.

Ağaoğlu, Əhməd (2001). *Sərbəst insanlar ölkəsində*. Bakı: Tutu.

----- (2016). *Sərbəst insanlar ölkəsində*. Bakı: Kitab Klubu.

----- 2006). *Üç mədəniyyət*. (2006). Bakı: Mütərcim.

----- (2009). *İran və inqilabı*. (2009). Bakı: Azərnəşr.

Hacıyeva, Lalə (2012). *Əhməd bəy Ağaoğlunun publisistikası: "Kaspi" qəzetinin materialları əsasında.* Bakı: Elm və Təhsil.

----- (2017). *Azərbaycanın rusdilli dövri mətbuatının tarixindən: 1871-1918* Bakı: Elm və təhsil.

Mirəhmədov, Əziz (2014). *Əhməd bəy Ağaoğlu*. Bakı: Ərgünəş.

Ordubadi, Məmməd Səid (1991). *Qanlı illər*. Bakı. 144 s.

Sofiyev, Xaləddin (2004). *Şərq-Qərb mədəniyyətləri və Əhməd bəy Ağaoğlu*. Bakı: Ocaq.

Hacıyeva, Lalə (2019). http://yazikiliteratura2.narod.ru/lit46.html Əhməd bəy Ağayevin türkçülük məfkurəsi və "Sərbəst insanlar ölkəsi" haqqında düşüncələri. http://azerbaycanli.org/az/page797.html (Erişim: 28/06/2019)

https://dilqemehmed.wordpress.com/2014/04/14/əhməd-agaoglunun-əli-bəy-huseynzadəyə-məktublari/ (Erişim: 28/06/2019)

HÜSEYİN NİHAL ATSIZ VE DEĞERLER EĞİTİMİ

*Cihan ÖZDEMİR**
*Fahri TEMİZYÜREK***
*Betül ŞIHLAROĞLU YILDIRIM****

1. Hüseyin Nihal Atsız ve Kişiliği

Milletleri millet yapan değerlerin hepsine birden "kültür" denir. Ziya Gökalp'e göre dil, kültürün temel unsurudur. *"Bir milletin bütün duygu ve düşünce hazinesi, dil kabına veya kalıbına dökülür ve bu dil kabı ile yerden yere, nesilden nesle aktarılır"* (Kaplan 2003: 151). Dil, kültürün temeli olduğuna göre, bir milletin dil ile ifade ettiği yazılı ve sözlü tüm ürünler kültürün aktarıcısıdır.

"Kültür eserleri dilin belli bir yer ve anda donmuş şekilleridir" (Kaplan 2003: 153). Türkçe eğitiminde yazılı ve sözlü metinlerin önemi büyüktür. Bu bakımdan Türk Edebiyatı tarihine baktığımızda, istifade edilmesi gereken ender şahsiyetlerden birisi, şüphesiz Hüseyin Nihal Atsız'dır. O, Türk tarihinin ölümsüzlüğünü tescil eden ve tarihî roman denilince akla gelen ilk isimlerden birisidir. Hemen hemen bütün edebî alanlarda eserler vermiş olan Atsız, eserleriyle millî şuuru ve tarih bilincini gençlere aşılamaya çalışmıştır.

20. yüzyıl başında ve Türkiye Cumhuriyeti'nin kuruluş yıllarında ortaya çıkan tüm çalkantıları yaşamış; Türk dünyasında ve Türk milliyetçiliği fikir birikiminde önemli bir yeri olan; tarihçi, edebiyatçı ve düşünür olarak eserler veren Hüseyin Nihal Atsız, çok yönlü bir fikir adamıdır. Çok sayıda edebî esere, romana, makaleye ve şiire imzasını atmış olan yazar, eserlerinde fikirlerinin derin izlerini ve eşsiz tarih bilgisini gözler önüne sermektedir.

Hüseyin Nihal Atsız, fikirleri ile yaşayışını örtüştüren bir karaktere sahiptir. O, inandığı şeylerden asla taviz vermemiş, bu uğurda gerektiği zaman

* Doç, Dr., Bakü Yunus Emre Enstitüsü Müdürü; cihan2001@gmail.com
** Prof. Dr.; Gazi Ü. Gazi Eğitim F. Türkçe Eğitimi Anabilim Dalı Öğretim Üyesi; fahri@gazi.edu.tr
*** Türkçe Öğretmeni, Gazi Üniversitesi Eğitim Bilimleri Enstitüsü Yurt Dışındaki Türk Çocuklarına Türkçe Öğretimi Bilim Dalı YL Programı Öğrencisi; betulsihlaroglu@hotmail.com

haşin bir tabiat sergilemiştir. İbnülemin Mahmut Kemal, Atsız'ı "Atlıyı atından indirecek derecede şiddetli yazılar yazan" biri olarak tarif etmiştir. Atsız, ateşli ve keskin bir üsluba sahip olmasının yanında, hususi hayatında sakin, kibar, mülayim ve nüktedandır. Vakur davranışları ve tevazu içinde yaşayışıyla, dimdik başı ve sağlam karakteriyle Atsız Bey, Türk tarihinin derinliklerinden kopup gelen bir "Türk Beyi" olmuştur.(Sertkaya 2014: 46).

Fethi Tevetoğlu, Atsız'ın hayatında tanıdığı en büyük mefkûreci olduğunu; maddi menfaatle, şahsi çıkarla hiç ilgisinin olmadığını, yalnız Türklük için yaşadığını, savaştığını ve öldüğünü belirtmiş; onu şu sözlerle tarif etmiştir:

> *"Soyumuzun doğduğu ve dünyaya yayıldığı Orta Asya ve Uzakdoğu'daki Anayurt'ta bugün de yükselen Orkun Abideleri'nin yazıldığı günlerden zamanımıza ulaşmış, nesillerimize erişmiş Türk milliyetçiliğini, Türkçülüğü, şahısların oyuncağı, kuruluşların propaganda aracı olmaktan kurtararak bir 'Millî Mefkûre' hâlinde yükselten ve ebedîleştiren, Büyük Türkçü Atsız olmuştur.(...) Bir fırtına gibi esmiş, bir bora ve tayfun gibi gelip geçmiş bu cesur, mert ve korkusuz mücadele kahramanı, tarihî romanlarında canlandırdığı 'yılmaz, yanılmaz, yurtçu, yenilmez' yiğitlerin yaşayan timsali, örneği idi"* (2017: 8).

Atsız ömrü boyunca millî bir hedef için yaşamıştır. Ona göre *"Millet, millî bir hedef ister. Ancak o hedefi gördüğü zaman sürü olmaktan çıkıp insanlaşır, bencil olmaktan kurtulup fedakârlaşır."* (2015: 17). Eserlerini de hep bu hedef doğrultusunda vücuda getirmiştir, milleti ve gençliği biliçlendirmeyi kendisine amaç edinmiştir.

Türk gençlerinin geçmişleriyle gurur duymaları için elinden geleni yapmış, tarihiyle övünen ve buna layık olmaya çalışan şuurlu bir neslin yetişmesi onun en büyük amaçlarından birisi olmuştur (Gömeç 2017: 48-49).

2. H. Nihal Atsız ve Değerler Eğitimi

Eğitim ve öğretim alanlarında kültür aktarımı, beraberinde "değer" olgusunu da ön plana çıkartmıştır. Değer eğitimi, bütün eğitimin nihai gayesi ve ruhu olmaktadır. Okullar ve okullarda uygulanan müfredatlar, sosyal davranış modelleri sağlayarak öğrencilerin değer sistemlerinin gelişmesinde önemli rol oynamaktadır.

> *"Karakter eğitiminde temel amaç, bireyin küçük yaşlardan itibaren daha anlayışlı, ilgili, ahlaki değerleri olan, üretken, sonraki gençlik zamanlarında kapasitelerini en iyisini yapmak için kullanan, doğru şeyler yapan ve hayatın amacını anlayarak yaşayan bireyler yetiştirmektir."* (Battisitch ve Hong 2003'ten akt.: Güven 2014).

"Değerlerin nesilden nesile aktarılmasında edebî eserler rol üstlenebilir. Edebî eserlerin araç olarak kullanıldığı Türkçe dersleri, öğrencilere değer aktarımında da bir işlev üstlenmektedir" (Yaman-Taflan-Çolak 2009: 109-110). Bu bakımdan yazdığı eserlerle değer eğitimi denildiğinde akla gelecek en önemli isimlerden biri H. Nihal Atsız olmalıdır.

Atsız'a göre *"bir millete geçmişini unutturmak, onu yok etmenin ilk şartıdır"* (1971: 3). Atsız, milletlerin asıl kuvvetinin ruh ve inanç gücü olduğunu herkesin öğrendiğini, bu nedenle çökertilmek istenen milletlerin manevi yönüne saldırıldığını her fırsatta dile getirmiştir. (1971: 3). Ona göre milletler, millî değerleri çürütülerek, birbirine düşman edilerek, yabancı ülkelerin propagandası yapılarak, mazi unutturularak, dili bozularak, gençler iptidaileştirilerek çökertilecektir. (1971: 4).

Atsız, ahlakın bir milletin temeli olduğunu, o olmadan hiçbir şeyin olmayacağını her fırsatta dile getirmiştir. Bu düşüncelerle Atsız, gerek nesrinde, gerek nazmında, yaşayan güzel Türkçenin en güzel örneklerini vermiştir. Bu örneklerden yalnızca bir tanesi olan *Bozkurtlar* romanı için Tural, "epiktarihî romanın nev-i şahsına münhasır bir örneği"; vakası, yaratılan karakterleri ve üslubu ile birinci sınıf ve zengin isim kadrosu ile eşi bulunmaz bir eser, bir çeşit modern destan olduğunu; bu romanla Türk içtimai nizamının, Türk ruhunun, tarihin derinliklerinden seçilmiş örneklerle günümüze getirildiğini; eserin defalarca basılmış olması bir tarafa, Türkün büyüklüğüne inanan bir yeni neslin yetişmesinde inkâr edilemeyecek roller oynadığını belirtmiştir (2017: 112).

Sonuç olarak değerler eğitimi hususunda, metin ve okutulacak eser seçimi çok önemlidir. Bu nedenle Türkçe derslerinde Türk edebiyatının seçkin eserlerinden örnek metinlere yer verilmeli ve öğrencilere başucu eserleri tavsiye edilmelidir. Bu eserler ve metinler, Türk'ün hayata bakışını öğrenciye sezdirmesi bakımından önemlidir. Bu eserler içerisinde vatan sevgisi, milliyetçilik gibi millî ve manevi değerlerimize yer veren Hüseyin Nihal Atsız'ın eserleri, eşsiz bir yere sahiptir. Bu bakımdan hak ettiği yeri ve değeri kazanarak yeterince istifade edilmelidir.

Kaynaklar

Atsız, H. N. (1971). *Bir Millet Nasıl Çökertilir?* İstanbul: Ötüken. 4, 3-4.

----- (1971). *Malazgirt'in 900.Yıl Dönümü ve Millî Kültür.* İstanbul: Ötüken. 8, 3-5.

----- (2015). *Turancılık. Turancılık, Millî Değerler ve Gençlik (Makaleler 1).* İstanbul: Ötüken.

Gömeç, S. Y. (2017). "Nihal Atsız ve Türk Tarihi Üzerine Düşünceler". *Atsız Armağanı II. Atsız Armağanı I.* Haz.: Erol Güngör, Mustafa Kafalı, Osman F. Sertkaya. Ankara: Altınordu. ss. 45-66.

Güven, A. Z. (2014). *Değerler Eğitimi ve Türkçe Derslerinde Değerlerin Kullanımı.* Konya: Palet.

Kaplan, M. (2003). *Kültür ve Dil*. İstanbul: Dergâh.

Sertkaya, Osman F. (2014). *Hüseyin Nihal Atsız Hayatı ve Eserleri.* İstanbul: Ötüken.

Tevetoğlu, F. (2017). "Büyük Türkçü Atsız Kimdir". *Atsız Armağanı II*. (s.17-22). Ankara: Altınordu.

Tural, S. K. (2017). "Tarihî Roman ve Atsız'ın Tarihî Romanları Üzerine Düşünceler". *Atsız Armağanı I.* Haz.: Erol Güngör, Mustafa Kafalı, Osman F. Sertkaya. Ankara: Altınordu.

Yaman, H.-Taflan, S.-Çolak, S. (2009). "İlköğretim İkinci Kademe Türkçe Ders Kitaplarında Yer Alan Değerler". *Değerler Eğitimi Dergisi*, 7 (18), 109-110.

XX-Cİ ƏSRİN ƏVVƏLLƏRİNDƏ ƏDƏBİYYATDA MİLLİ MÜBARİZƏ

*Leyla PİRİMOVA**

Türklər XX-ci əsr boyunca Şərqdən Qərbə doğru uzanan geniş coğrafiyada, demək olar ki, dünyada bilinən bir çox millətlərə qarşı mübarizə apararaq öz varlıqlarını qoruyub saxlamaq üçün mücadilə etmişdilər. Başqa millətlərin tarix boyunca şahid olmadıqları rejimləri, məruz qalmadıqları soyqırımları XX-ci əsrdə yaşamışdılar.

Rusiyanın müstəmləkə hakimiyyəti dövründə Cənubi Qafqazda yaşayan qonşu xalqlara nisbətən Azərbaycanda milli və ictimai zülm daha dözülməz idi. Qonşu ölkələrdə milli məktəblər, kilsələr, ana dilli mətbuat olduğu halda, bunlar Azərbaycan xalqı üçün yasaq idi.

Rusiya ziyalılarının azadlıq ideyaları imperiyanın ucqar müstəmləkələrində, o cümlədən Azərbaycanda da əks-səda doğururdu. Millətin qabaqcıl ziyalılarının milli mənlik şüurunda bir oyanış, inkişaf baş verməkdə idi. XX-ci əsrin başlanğıncında Rusiyada baş vermiş siyasi hadisələrin təsiri ilə mütləqiyyət bəzi demokratik dəyişikliklər etməyə məcbur oldu. Belə bir tarixi şərait Azərbaycanda milli şüurun inkişafına təsir göstərirdi.

İstedadlı gənclərin imperiyanın və dünyanın müxtəlif təhsil ocaqlarına göndərilməsi öz müsbət nəticəsini verirdi. Bu gənclər təhsillərini başa vurub Vətənə döndükdən sonra milli-demokratik hərəkatın yaranmasında və inkişafında böyük rol oynayırdılar. Təhsilli gənclər tədricən anlayırdılar ki, böyük ideyallara qovuşmaq üçün ilk növbədə qan yaddaşına qayıtmaq, özünü dərk etmək, millətin tarixini, mənəvi dəyərlərini dərindən araşdırmaq lazımdır. Bu istiqamətdə müəyyən işlər görülürdü.

Milli hərəkatda "milliyyət və hüriyyət", "məşrutə və müsavat" ideyaları geniş vüsat almışdı. Məmmədəmin Rəsulzadənin dediyi kimi, "Millət inanmağa başladı ki, istiqlal xaricdə onun üçün əlavə Azərbaycan yoxdur".

* AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin əməkdaşı; leyla.pirimova@mail.ru

O dönəmdəki milli ziyalılarımızın qabaqcıl nümayəndələrindən Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi, Üzeyir bəy Hacıbəyov, Firudin bəy Köçərli, Əlimərdan bəy Topçubaşov, Məmmədəmin Rəsulzadə və başqaları yazdıqları əsərlərdə, mətbuatdakı çıxışalrında xalqın milli şüurunun oyanmasında mühüm rol oynayırdılar. Milli hərəkatın əsas aparıcı qüvvələri milli burjuaziya və demokratik ziyalılar idi. Qabaqcıl ziyalılar milli mübarizədə mətbuatın rolunun böyük olduğunu anlayır və bu istiqamətdə fəaliyyətlərini yerinə gətirirdilər. Milli şüurun dərk olunması üçün ana dildə qəzet və jurnalların nəşr olunmasına nail oldular. Lakin mətbu orqanlar üzərində ciddi nəzarət olduğundan çıxan qəzetlər bir müddətdən sonra fəalliyyətini durdurmalı olurdu. Bu dövrdə nəşr olunan qəzetlərdən biri də *Günəş* idi. Ana dilində çıxan ictimai, siyasi və ədəbi bir qəzet olan *Günəş* yalnız 2 il fəaliyyət göstərə bilmişdir. 1910-cu ildə 104 və 1911-ci ildə 17 nömrəsi işıq üzü görə bilmişdi. Qəzetdə dönəmin görkəmli şəxsiyyətləri yazıb-yaradırdılar: A. Şaiq, G. Rəşat, A. Divanbəyoğlu, M. Ə. Sabir, A. Müznib və başqaları. Qəzet *Həqiqət* adlı qəzetin bağlanmasından bir ay sonra fəalliyətə başlasa da, Əhməd Ağayevin "Türkiyə və İran" məqaləsinin nəşr olunmasından sonra 1911-ci ildə qəzet öz fəaliyyətini dayandırdı. Dövrünün digər bir çox qəzetləri kimi *Günəş*də xalqına xidmət edən gündəlik xəbərlərdən bəhs edən bir qəzet idi. Ana dilində nə kifayət qədər mətbuat orqanı, nə də ədəbiyyat vardı. Belə bir vəziyyətdə milli şüurun oyanması istiqamətində iş görmək çətinləşirdi və ona görə də bu tarixi şəraitdə milliliyi təmsil edən xalqı öz soykökünə qaytaran təşkilat və partiyalar yaranırdı.

Ümumiyyətlə, XX-ci əsr bütün Türk dünyası üçün olduqca əhəmiyyətli hadisələrlə dolu bir dövrü əhatə edir. Türklərin qurduqları ən böyük imperiya olan Osmanlı imperiyası, əsrin əvvəllərində süqut etmiş, yerinə Türkiyə Cumhuriyyəti qurulmuşdur. Krım, Kazan, Qafqazlar və Türküstan Türkləri də bu əsrin əvvələrində Çar Rusiyası devrildikdən sonra öz milli dövlətlərini təşkil etmişdilər. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti quruldu. Bu eyni zamanda Şərqdə ilk demokratik cumhuriyyət idi.

Bütün bu proseslər Türk dünyasını əhatə edən xalqların tarix boyunca meydana gələn milli mübarizə hərəkatı kimi öz əksini ədəbiyyatda da tapmışdır.

Azərbaycan xalqının öz istiqlalının əldə etməsi ədəbi mühitdə də böyük canlanmaya səbəb olmuşdu. Ədəbiyyatda vətənpərvərlik hissləri təbliğ olunur, türkçülük, cümhuriyyətçilik, milli dövlətçilik ideyalarının tərənnümü daha çox diqqəti cəlb edirdi. Şair və yazıçılarımızın yaradıcılığında vətənpərvərlik ruhu gücləndi. İstiqlal uğrunda mübarizəni özündə əks etdirən çox sayda əsərlər meydana gəldi. F. Köçərli, H. Cavid, C. Cabbarlı, Ə. Cavad, Ü. Hacibəyli, S. Hüseyn, A. Şaiq, Yusif Vəzir Çəmənzəminli, Məhəmməd Hadi, Mirzə Bala

Məmmədzadə, Abdulla Şaiq, Əliabbas Müznib, M. Ə. Rəsulzadə və başqa görkəmli ədiblərimiz öz əsərləri ilə milli ruhun oyanmasına xidmət edir əsərlərində Azərbaycanın milli varlığının təsdiqi uğrunda mübarizəni ön plana çəkirdilər.

Cümhuriyyət illərində ədəbiyyatın digər janrlarına nisbətən poeziya sahəsində daha ciddi uğurlar əldə olunmuşdur. Bu illərdə Məhəmməd Hadi, Hüseyn Cavid, Abdulla Şaiq, Cəfər Cabbarlı, Əhməd Cavad, Umgülsüm Sadıqzadə və başqa şairlərin mətbuat səhifələrində dərc olunan şeirləri dövrün ruhunu əks etdirən bədii örnəklər kimi diqqəti çəkməkdədir.

Milli ədəbiyyat tarixində "istiqlal şairi" kimi tanınan Əhməd Cavad Azərbaycan Demokratik Respublikasını Dövlət himninin sözlərinin müəllifidir. Ə. Cavad Azərbaycan xalqını bolşevik-daşnak əsrətindən xilas etmək üçün gəlmiş türk ordusunu öz əsərlərində dərin səmimiyyətlə qarşılayır, onuntəkcə azərbaycanlılar qarşısında deyil, bütün türklər və tərəqqipərvər dünya qarşısında tarixi xidmətlərini tərənnüm edir. Şairin "Ey əsgər", "Bismillah", "Türk ordusuna", "Al bayrağa", "Marş", "Qalx", "İngilis", "Gəlmə", "Şəhidlərə", "Röyasının görmüşdüm", "Türk ordusuna", "Azərbaycan bayrağına", "Elin bayrağı", "İstanbul", "Bakı deyir ki" və s. şeirlərində ölkədə milli azadlıq uğrunda gedən mübarizələr tərənnüm olunur, bu yolda canını qurban verənlərə hörmət və ehtiram göstərilir. Şeirlərində türk ordusu, Azərbaycan bayrağının tərənnümü, yeni qurulmuş rejim öz əksini tapır. Şairin *Dalğa* adlı kitabın "Azərbaycan bayrağına" şeiriylə açılması çox təbii idi. İngilis işğalçılarının Bakıdan rədd olub getməsindən sonra, Azərbaycan parlamentinin binası üzərində milli bayrağımızın dalğalandığını görəndə bu misralar Ə. Cavadın qəlbində doğulmuşdur:

Türküstan elləri öpüb alnını
Söyləyir dərdini sana, bayrağım!
Üç rəngin əksini Quzğun dənizdən
Ərmağan yolla sən, yara, bayrağım!
...
Köksümdə tufanlar gəldim irəli,
Öpüm kölgən düşən mübarək yeri.
Allahın yıldızı, o gözəl pəri
Sığınmış qoynunda aya, bayrağım! (https://az.wikisource.org)

Yurdun hüquq, istiqlal, əxlaqi mərkəzi olan parlament binası üzərində məhz Azərbaycan bayrağının dalğalanmasından doğan sevincdən müəllifin ürəyi köksünə sığmır. Ümumiyyətlə, bu sevinc hissinin təsir ilə şair "Al Bayrağa", C. Cabbarlı isə "Sevdiyim", "Azərbaycan bayrağına" şeirlərini qələmə alırlar. Azərbaycanın dövlət atributlarından, dövlətçilik rəmzlərindən biri onun milli bayrağı-dövlət bayrağıdır. Milli bayraq mənəvi-siyasi baxımdan

bir dövlətin və bir dövləti təşkil edən millətin simvolu olub, onların mövcudluğunu göstərən rəmzdir. Dövlət bayrağı Azərbaycanın müstəqilliyini, azadlığını, dövlətçiliyini əks etdirir. Dövlət bayrağı ölkənin ərazi bütövlüyünün və toxunulmazlığının simvoludur. 1918-ci ildə Azərbaycan Milli Şurasının sədri M. Ə. Rəsulzadə üçrəngli milli bayrağımıza xitabən, onun əbədi olaraq başımız üzərində yüksələcəyinə sonsuz inamını ifadə edərək demişdir: *"Bir dəfə yüksələn bayraq, bir daha enməz"*. Azərbaycan ikinci dəfə müstəqil ölkə olarkən cümhuriyyətin bizə yadigar qoyduğu üçrəngli ay-ulduzlu o əziz bayraq yenə qürurla dalğalanmağa davam etdi.

C. Cabbarlının qələmə aldığı "Azərbaycan bayrağına" şeiri xüsusi maraq doğurur. Şair bayrağa olan sonsuz məhəbbət və ehtiramını ifadə etdikdən sonra onun üzərindəki rənglərin mənalarını açmağa çalışır:

Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım,
Şu sevimli, üç rəngli, üç boyalı, üç mənalı bayrağı.
Bu ay, yıldız, boyaların qurulduğu nə etmək,
Bizcə böylə söyləmək:
Bu göy boya moğoldan qalmış bir türk nişanı,
Yaşıl boya inşanlığın sarsılmayan inamı,
Ürəklərə dolmalı,
Şu al boya azadlığın, təcəddümün fərmanı,
Mədəniyyət bulmalı. (https://az.wikisource.org/)

Azərbaycan romantizminin qüdrətli nümayəndələrindən bir olan Məhəmməd Hadi "Şühədayihüriyyətimizin ərvahinə ithaf", "Əsgərlərimizə, könüllülərimizə", "Məfkureyi-aliyyəmiz" və digər şeirlərində xalqı milli azadlıq, istiqlaliyyətin qorunması, yaşadəlması uğrunda mübarizəyə çağırırdı. Şair "Məfkureyi-aliyyəmiz" şeirində vətən oğullarını ideal, məfkurə, əqidə uğrunda mübarizələrə səsləyirdi:

Məfkurəmiz yolunda nə lazımsa etməli,
Məqsudə doğru əzmü-xüruşanla getməli.
...
Çıxsın dilərsə qarşımıza həp məzarimiz,
Dönməz məzaridən bu dili-əzmkarimiz. (Bayramoğlu 2003: 105).

Türkçülük, turançılıq məfkurəsinin fəal təbliğatçılarından biri olan Abdulla Şaiqin şeirlərində isə vətən, yurd uğrunda mübarizə əhvali-ruhiyyəsi geniş bədii ifadəsini tapmışdır. Onun "Yeni ay doğarkən", "Marş", "Niçin böylə gecikdin?", "Vətənin yanıq səsi", "Arazdan Turana" və başqa şeirləri Azərbaycan poeziyasının dəyərli nümunələrindəndir.

Cümhuriyyət dövründə istiqlal düşüncəsi poeziyasının başlıca problemlərindən birinə çevrilmiş, poetik örməklərin əksəriyyətində bu mövzu geniş

bədii ifadəsini tapmışdır. Bunu Əhməd Cavadın, Cəfər Cabbarlının, Ümgülsüm Sadıqzadənin, Əliyusifin şeirlərində görmək olar.

C. Cabbarlının yuxarıda qeyd etdiyimiz "Azərbaycan bayrağına" şeiri ilə yanaşı "Sevdiyim", "Sevimli ölkəm", "Salam" və başqa şeirlərində də vətənpərvərlik ruhunu aydın şəkildə hiss olunur.

Bundan başqa onun "Dün o gözlərdə", "Yaşamaq" və başqa şeirlərini də bu dövrdə yazmışdır.

Mili mübarizə mövzusunda yazıb-yaradan istedadlı və gənc şair Əliyusifin şeirlərinin başlıca leymotivlərini Cümhuriyət və onun görkəmli qurucuları təşkil etmişdir. Müəllifin qələminə məxsus "Azərbaycanlıya", "Bayraq", "İdeal", "Getmə", "Öpər, kim bilir, bəlkə bir xülya", "S. bəyə", "Bir türk yolçusu deyir ki", "Qarabağ xainlərinə" və başqa şeirlər özünəməxsus üslubu ilə fərqlənmişdir. Şairin "Azərbaycanlıya" adlı şeiri Yusif bəy Nəsibbəyliyə, "Getmə" şeiri isə Ceyhun Hacıbəyliyə həsr olunmuşdur.

Repressiya qurbanı olmuş Ümgülsüm "Əsgər anasına", "Çəkil, dəf ol", "Bir mayıs günündə", "Yolunu bəklərdim" şeirlərində azadlığını, müstəqilliyini əldə etmiş Azərbaycan xalqına, onun yenicə qurduğu azad, müstəqil, suveren dövlətinə məhəbbət, xalqına çətin anda köməyə gələn, onu düşmən zülmündən qurtarmağa çalışan şanlı Türk ordusuna, azadlıq ideyaları öz əksini tapmışdır.

Cümhuriyyət dövrü poeziyasına nəzər salanda Qafqaz İslam Ordusuna həsr olunmuş çox sayıda şeirlərin yazıldığını görürük. Çünki bu ordu Azərbaycanı və azərbaycanlıları yox olmaqdan xilas edərək onlara yaddaşlardan silinməyəcək müstəqil yaşamağa gedən yolda böyük səadət bəxş etmişdir. Əhməd Cavadın Bakının qurtuluşundan bəhs edən "Bismillah", Xəlil Paşaya ithaf olunmuş "Röyasını görmüşdüm", Salman Mümtazın Nuru Paşaya həsr edilmiş "Öyün millət", İbrahim Şakirin "Türk ordusuna", Umgülsümun "Yolunu bəklərdim" və başqa əsərləri xüsusilə seçilir.

Poeziya ilə yanaşı bu dövrdə yazılan nəsr əsərlərində də milli mübarizə ruhu özünü göstərirdi.

Cümhuriyyət illərində bədii nəsr yaradıcılığını təmsil edən qüvvələr müxtəlif ədəbi nəslə malikdir. Bunlardan Cəlil Məmmədquluzadə, Əbdülrəhman bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Abdulla Şaiq, Seyid Hüseyn, Tağı Şahbazi Cəfər Cabbarlı və başqalarının yaradıcılığı daha çox diqqəti çəkməkdədir. C. Məmmədquluzadənin "Nigarançılıq", "Konsolun arvadı", "Xanın təsbehi", "Qəssab", "Rus qızı", "Zırrama" və başqa hekayələri Cümhuriyyət dönəminin ictimai-siyasi əhval-ruhiyyəsini əks etdirən nümunələr kimi maraq doğururdu. Cümhuriyyət illərində bir başqa qələmə alınan hekayə Ə. Haqverdiyevin "Şair" hekayəsidir.

İstedadlı nasir Seyid Hüseyn 1918-ci ilin mart ayında ermənilərin azəbaycanlılara qarşı törətdiyi qırğınlardan bəhs edən "İsmaliyyə" və "Həzin bir xatirə" adlı iki hekayə yazaraq çap etdirir. Nasir "İsmailiyyə" hekayəsini bu sözlərlə bitirir: *"Bilirsiniz, İsmailiyyənin yandırıla bilmədiyini aləmə isbat edən bir həqiqət hansıdır? Azərbaycan parlamanı üzərində üç rəngli və səkkiz güşə yıldızlı təmuc üçün Azərbaycan bayrağı".* (Müasir Azərbaycan Ədəbiyyatı 2007: 19)

Hacı Səlim Səyyah unutdurulmuş ziyalı-şairimizin qələmə aldığı "Mart ayı" sərlövhəli təxmisi də 1918-ci ilin mart soyqırımından bəhs etməkdədir.

Cəfər Cabbarlı *Parapetdən Şamaxı yoluna qədər*, *Ədirnə fəthi*, *Trablis müharibəsi, yaxud Ulduz*, *Bakı müharibəsi*, Hüseyn Cavid *İblis*, Mirzə Bala Məmmədzadə *Bakı uğrunda müharibə*, Abdulla Şaiq *Əsrimizin qəhrəmanları*, Ağabala Yusifzadə *Sınıq qanad*, əsərləri Cümhuriyyət illərinin nümunələridir.

1917-ci ildə C. Cabbarlı düşündürən vətənpərvərlik, ərazi bütövlüyü mövzusunun təsiri ilə dalbadal iki tarixi dram yazdı. *Yıldız, yaxud Trablis müharibəsi* və *Ədirnə fəthi* adlanan bu əsərlərdə Türkiyənin imperialistlərə qarşı mübarizəsi, Trablis və Ədirnənin italyan və bolqar ordusundan təmizlənməsi məsələsi önə çəkilir. Bu pyeslərdə mənəvi saflıq, sevgi, dostluq, hünər, satqınlıq, xəyanət kimi insanı həm ucaldan, həm də alçaldan hisslər işıqlandırılır. Ən önəmlisi budur ki, adı çəkilən pyeslər Azərbaycan Xalq Cümhuriyyəti dövründə tamaşaya qoyulmuş, tamaşaçıların rəğbətini qazanmışdı.

Tarixə müraciətlə yazılmış əsərləri sırasında C. Cabbarlının *Bakı müharibəsi* dramı da dərin ictimai-siyasi əhəmiyyət daşıyır. 1918-ci ildə Qafqaz İslam Ordusunun Bakını xilas etməsindən, Nuru Paşanın qəhrəmanlığından bəhs edən bu əsər Bakıda Qurtuluş bayramından bir gün sonra, sentyabrın 16-da Azərbaycan Dövlət Teatrosunda tamaşaya qoyuldu.

> *'Bakı müharibəsi' əsəri XX-ci əsrin əvvəllərində Azərbaycanın ən ağır, ziddiyyətli dövrünü əks etdirən tarixi əsərdir.*
>
> *'Bakı müharibəsi' –zalım və qatil erməni hərbi bandalarına, onlara arxa, dayaq duran rus bolşevizminə qarşı amansız mübarizə aparan Nuri Paşaya, Mürsəl Paşaya, Məhəmməd Tofiq bəyə minnətdarlıq çələngidir.*
>
> *" 'Bakı müharibəsi' -azərbaycanın azadlığı, müstəqilliyi bütövlüyü uğrunda rəşadət və qəhrəmanlıq göstərən şəhid olmuş qardaş mehmətciklərin şərəfinə ucaldılmış bir bədii abidədir"* (Rüstəmli 2018: 55).

Mirzə Bala Məmmədzadə "Bakı uğrunda müharibə" və Seyidağa Axundzadə "Mart hadisəsi 1918 və yaxud Nuru Paşa Ordusu tərəfindən Bakının

azad edilməsi" kimi əsərlərdə də Azərbaycanda gedən milli mübarizə, Qafqaz İslam Ordusunun yardımı ilə Bakının qurtuluşu göstərilmişdir.

XX-ci əsrin əvvələrində qardaş Türkiyədə də milli mübarizə gedirdi. Bütün bu tarixi hadisələr Azərbaycan ədəbiyyatında öz əksini tapmışdır. Ə. Cavad, C. Cabbarlı və başqaları öz əsərlərində bu hadisələri təsvir etmişdilər. *"Əhməd Cavadın yaradıcılığında azadlıq, mübarizə əzmi duyulan çox misralar var, xüsusilə bütün türklər tərəfindən çox sevilən 'Çırpınırdı Qara dəniz' şeiri onun türk ədəbiyyatı və tarixində ədədiləşdirmişdir. Şeir birinci dünya müharibəsində admiral Rauf Orbayın öz ixtiyarındakı 'Həmidiyyə' zirehli gəmisi ilə gecə Odessa limanına girməsi və rusların dəniz qoşunlarının Osmanlı donamasını vurmağa hazırladıqları 'Kazbek' və 'Kaqul' adlı hərbi gəmilərini qeyri-bərabər döyüşdə məhv edib suda batırması, Odessa limanını bombardman etməsindən bəhs edir*" (Məmmədli 2010: 41). C. Cabbarlının *Ədirnə fəthi*, *Trablis müharibəsi, yaxud Ulduz* əsərləri də Tükiyədəki milli hərəkatdan bəhs edirdi. Türkiyədə yaşanan bu tarixi hadisələr türk ədəbiyyatında da öz əksini tapmışdır: Rəşad Nuri Gültəkinin *Çalıkuşu-Çalıquşu*, Xalidə Ədip Adıvarın *Ateşten Gömlek-Atəşdən Gömlək*, Yakub Qədri Qaraosmanoğlu *Sodom ve Gomore-Sodom ve Gomore*, *Yaban-Zalım*, *Ankara*, Mehmet Rauf *Halas*, Kemal Tahir *Esir Şehrin İnsanları-Əsir şəhərin insanları*, *Yorğun Savaşçı-Yorğun döyüşcü*, İlhan Tarus *Var Olmak-Var olmaq*, Samim Kocagöz *Kalpaklılar- Qalpaqlılar*, Tarık Buğra *Küçük Ağa-Balaca ağa*, Hasan İzzettin Dinamo *Kutsal İsyan-Müqəddəs Üsyan*, Ahmet hamdi Tanpınar *Sahnenin Dışındakiler-Səhnənin Kənarındakılar*, Talip Apaydın *Toz Duman İçinde- Toz duman içində*, *Vatan Dediler-Vətən dedilər*, *Köylüler-Kəndlilər*, Attila İlhan *Allahın Sürgünleri: Reis Paşa*, Turgut Özakman *Şu çılgın Türkler-O çılğın türklər*.

Qaynaqlar

1. Bayramoğlu, Alxan (2003). *Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat.* Bakı: Elm.
2. Məmmədli, Afina (2010). *Əhməd Cavad və Türkiyə.* Bakı: Elm və Təhsil.
3. *Müasir Azərbaycan Ədəbiyyatı*. (Ali məktəblər üçün dərslik) (2007). Bakı: Bakı Universiteti nəşriyyatı.
4. Rüstəmli, Asif (2018). *Cəfər Cabbarlı və milli istiqlal hərəkatı*. Bakı: Elm və Təhsil.
5. Sabutay (2009). *O illərin ədəbiyyatı*. Bakı: Mədəniyyət.
6. Yaqublu, Nəsiman (1991). *Məmməd Əmin Rəsulzadə.* Bakı: Gənclik.
7. ---- (2008). *Bakının Qurtuluşu.* Bakı: Adiloğlu.

AZƏRBAYCAN QADINI VƏ AZƏRBAYCAN XALQININ MİLLİ MÜCADİLƏ ƏZMİ

*Səadət QARAYEVA**

Tarix boyu Azərbaycan qadınının mərdliyi, qorxmazlığı, şücaəti, iradəsi, sədaqəti ölkəmizin ictimai həyatında, xalqın milli dəyərlər sisteminin formalaşmasında xüsusi rolu olmuşdur. Milli məfkurəyə içdən bağlı olan Azərbaycan qadını əsrlər boyu dövlətin inkişafında, onun ictimai-siyasi mühitinin ərsəyə gəlməsində yaxından iştirak etmiş, mübarizə aparmış və bu gün də bu ənənə davam etdirilməkdədir.

Azərbaycan qadını çox mürəkkəb və şərəfli yol keçmişdi. Qısa bir müddətdə qadınlar arasında savadsızlığın ləğvi, kişilərlə bərabər hüquqlara malik olması qazandıqları ən böyük nailiyyətlərdən hesab edilir. Təhsilə böyük önəm verən M. Ə. Rəsulzadə qadın azadlığını onun maariflənməsində görürdü. Təhsilli qadın təhsilli millət, təhsilli nəsil deməkdir. Məhz buna görə qadın problemi haqqında yazarkən, qadınların cəmiyyətin inkişafında fəal iştirakının vacibliyini vurğulayarkən qeyd edirdi: *"Əgər bütün millətlərin qadınları azad və təhsillidirsə, Azərbaycan qadını onlardan geri qala bilməz".* Onun fikrincə, *"Bir millətin yeni nəsli əskisinə nəzərən daha az kültürlü və daha az təcrübəli olursa, o millətin varlığı və gələcəyi təhlükəyə məruz qala bilər."*[1]

Və bütün bu fəaliyyətin nəticəsi idi ki, M. Ə. Rəsulzadə 1917-ci il aprelin 15-20-də Bakıda keçirilən Qafqaz Müsəlmanları Qurultayında qadınların vəziyyəti haqqında məsələni müzakirə etmiş, müsəlman qadının azad və bərabər hüquqlu olmasını **müsəlman xalqlarının** milli-azadlıq mübarizəsində ən mühüm məsələlərdən biri kimi qiymətlənləndirmişdi.

O, qeyd edirdi: *"Bütün digər xalqların qadınları kişilərlə bərabər ictimai-siyasi hərəkatda iştirak etdiyi və bununla da öz* **millətinin** *uğurlarına kömək etdiyi bir vaxtda müsəlman qadını dustaqlıqda qala bilməz və qalmamalıdır".* Nəticə etibarı ilə siyasi komissiyanın qətnaməsində **müsəlman** qadınlara

* AMEA RH-ın baş mütəxəssisi, Fəlsəfə İnstitutunun dissertantı; qarayeva.seadet@gmail.com

1 Yadigar Türkel (Tertipçi ve Elmi Redaktör). *Məhəmməd Əmin Rəsulzadə* ***Milli Birlik***. Bakı: Çıraq. 2009. s. 15.

kişilərlə bərabər siyasi və iqtisadi hüquqlar verilməsinin zəruriliyi bəyan edildi. Və heç təsadüfi deyil ki, 1921-ci ildə Azərbaycan tarixində qadınların ilk qurultayı keçirilir. Qurultayın əsas ana xəttini qadın azadlıq ideyaları təşkil edirdi.

Və aparılmış bu siyasətin nəticəsi olaraq Azərbaycan qadını islam aləmində ilk dəfə olaraq seçib – seçilmək hüququnu əldə edir. Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ildə qəbul etdiyi İstiqlal Bəyannaməsi ilə Şərqdə ilk dəfə qadına səsvermə imkanı qazandırmış oldu. Bununla da Azərbaycan dünyada heç bir maneə olmadan qadınların seçki hüququnu təmin edən ilk ölkələrdən biri hesab edilir.

Məhəmməd Əmin Rəsulzadənin eyni zamanda milli istiqlal ideyalarının geniş yayılmasında da böyük xidmətlərə sahibdir. Onun "Bir kərə yüksələn bayraq, bir daha enməz!" ifadəsi XX əsr Azərbaycan müstəqillik hərəkatının əsas şüarı hesab edilir.

"Milli fikir toxumları səpildi, İslatdı torpağı axan qızıl qan.
Bu əkindən sabahkı bir baharda, Əlbət bitər yeni bir Azərbaycan.
Şiddətliysə əyər mövsümün qışı, Yeni bahar, demək, parlaq olacaq.
Verdiyimiz qurbanların bahası Bizə yalnız hürriyyətlə dolacaq".

Məhəmməd Əmin Rəsulzadə milli oyanışa və istiqlala çağıran bir sıra əsərlərin müəllifidir. Bu səpkidə yazılmış əsərlərində biri də *Qaranlıqda işıqlar* pyesidir.

Atılan bu addımların nəticəsi idi ki, XX-ci əsrin əvvəllərində Azərbaycan müsəlman Şərqində qadınların öz hüquqları uğrunda mübarizə apardığı bir ölkə kimi dəyərləndirilirdi. Artıq Azərbaycan qadını cəmiyyətin ictimai-siyasi həyatında fəal rol oynamağa başlamışdır. Bunun bariz nümunəsi kimi 1911-ci ildə işıq üzu görən *İşıq* qəzetini nümunə gətirmək olar. Xədicə Əlibəyovanın redaktorluğu ilə çıxan qəzet qadın hüquqlarının qorunması, onların maarifləməsi rolunda xeyli işlər görmüşdü.

Qadınların tarixdə rolundan danışarkən Şəfiqə Əfəndizadəni xüsusi qeyd etmək lazımdır. O, bütün həyatı boyu savadsızlığa qarşı mübarizə aparmış, qadınların maarifləməsində böyük işlər görmüşdü. Şəfiqə Əfəndizadə Zaqafqaziyada ilk Azərbaycan dili müəlliməsi və ilk Azərbaycan qadın jurnalist və publisisti olmuşdu. Milli təhsilimizin inkişafında böyük əməyi olan, gənclərin vətənpərvərlik, milli-mənəvi dəyərlərə sədaqət ruhunda böyüməsinə xüsusi önəm verən qadınlarımızdan biri olan Sona Tağıyevanın xidmətləri də nəzərdən qaçmamalıdır. Həyatını gənc nəslin təlim-tərbiyəsinə həsr edən Sona xanım maarif sahəsində böyük işlər görmüşdür.

Azərbaycanın ictimai həyatında fəal rol oynayan qadınların sırasında Azərbaycan SSRİ İctimai Təminat naziri, ilk azərbaycanlı qadın təyyarəçi, II-ci Dünya müharibəsində hərbi təyyarəçi olmuş Züleyxa Seyidməmmədova,

Şərq qadını jurnalının redaktoru, Azərbaycan tarixinin ilk qadın naziri və Ali Məhkəmə sədri Ayna Sultanova, Azərbaycanın ilk qadın kinorejissoru, ssenaristi Qəmər Salamzadə və başqaları da vardır.

Azərbaycan qadını maarifçiliklə yanaşı xeyriyyəçiliklə də məşğul olmuşdu. Ölkəmizdə ilk qadın xeyriyyə cəmiyyəti 1908-ci ildə Hənifə Məlikovanın təşəbbüsü ilə yaradılmışdı. O dövürdə xeyriyyəçilik sahəsində Həmidə Məmmədquluzadə, Nigar Şıxlınskaya, Məsmə xanım Talışinskaya və başqalarının yaratdıqları qadın xeyriyyə cəmiyyətləri böyük işlər görmüşlər. Bu fəaliyyətin bariz nümunələrindən biri Nabat Aşurbəyli Rzayeva tərəfindən tikdirilmiş Təzəpir məcidini nümunə gətirmək olar.

Müasir dövrdə Azərbaycan qadının cəmiyyətdə rolu daha da yüksəlmiş dövlət idarəçiliyində, təhsil, səhiyyə, mədəniyyət sahəsində müstəsna xidmətləri göz qabağındadır. Və bunun nəticəsidir ki, Azərbaycan qadını cəmiyyətin sosial, siyasi həyatında, onun inkişafında rolunu artıraraq cəmiyyət həyatında geniş təmsil olunmağa başlamışlar. Bunun ən önəmli səbəblərindən biri ölkədə aparılan gender siyasəti ilə bağlılığıdır. Bu siyasətin banisi ümummilli lider Heydər Əliyevdir. O, qadınların ictimai-siyasi həyatda rolunu yüksək qiymətləndirərək qeyd edirdi: *"Cəmiyyətdə qadınların üzərinə daima çox böyük vəzifələr düşür, onların işi həmişə ağırdır. Ancaq onlar bu vəzifələri şərəflə yerinə yetirir və həmişə olduğu kimi, indi də cəmiyyətdə aparıcı rol oynayırlar".* Aparılan bu siyasətin əsas qayəsi qadın hüquqlarının qorunması və bərpası ilə bağlıdır. Ölkədə uğurla aparılan gender siyasətinin davamı olaraq ümummilli lider Heydər Əliyevin 1998-ci il yanvarın 14-də qəbul etdiyi *"Azərbaycan qadınlarının rolunun artırılmasına dair tədbirlər haqqında"* sərəncamı qadınların ictimai-siyasi həyatda rolunun möhkəmlənməsinə bir daha xidmət etmiş oldu.

Azərbaycan qadınları qəhrəmanlıq, hünər və şücaətdə kişilərimizdən geri qalmayaraq müstəqillik yolunda gedən mübarizələrin ön sırasında böyük şücaət göstərərək kişilərlə bərabər çiyin – çiyinə mübarizə aparmışlar. Qadınlar ön cəbhədə mərdliklə döyüşərək, arxa cəhbədə fədakarlıq nümayiş etdirirdilər.

Azərbaycan qadının şücaəti, mərdliyi Azərbaycan ədəbiyyatından da yan keçməmişdir. Azərbaycan ədibləri əsərlərində vətənpərvərlik, qəhrəmanlıq ənənələri əks etdirir, insanları mübarizəyə çağırır və qadın hüquqsuzluğu əleyhinə maarifləndirmənin təbliğinə xüsusi yer ayırırdılar. XX-ci əsrin əvvəllərində Azərbaycan qadınının qəhrəmanlığı, mərdliyi, fədakarlığı, sədaqəti ədəbiyyat nümunələrinin əsas mövzularından bir idi. Bu əsərlərdə Azərbaycan qadınının vətənpərvərliyi, əxlaqi keyfiyyətləri tərənnüm edilirdi.

"Qadın gülərsə, bu ıssız mühitimiz güləcək,
Sürüklənən bəşəriyyət qadınla yüksələcək"

– deyən Hüseyn Cavid qadına böyük önəm verdiyini, onun uca bir varlıq olduğunu bir daha vurğulayır.

Hüseyn Cavidin "Qadın", "Qız məktəbində", "Şərq qadını", "Pəmbə çarşaf", "Bir qızın son fəryadı, yaxud zindan guşəsindən bir səs", "Dəniz pərisi", "Get", "Qəmər" kimi şeirlərində qadın azadlığı, qadın mənəviyyatı tərənnüm edilirdi.

XX-ci əsrin əvvəllərində baş verən tarixi hadisələrin təsiri ədəbiyyatımızdan da yan ötüşməmişdir. Bü dövrdə şair və yazıçılar cəmiyyətdə gedən ictimai-siyasi hərəkatda fəal iştirak edirdilər. Milli azadlıq ideyaları, milli mücadilə ədib və dramaturqlarımızın əsərlərinin əsas mövzusu olaraq qalırdı. Əsrin əvvəllərində baş verən tarixi hadisələrdən təsirlənərək əsərlərinin ana xəttini milli azadlıq ideyaları təşkil edən ədiblərimizdən biri Cəlil Məmmədquluzadədir. Ədib əsasən əsərlərində milli xarakterin səciyyələndirilməsinə xüsusi önəm vermişdir. C. Məmmədquluzadənin yaradıcılığında milli şüur, mənsub olduğu xalqın müstəqilliyi və taleyi tərənnüm edilir. *Anamın kitabı*, *Kamança* əsərləri bu qəbildəndir. Hər iki əsər ictimai-siyasi baxımından milli xarakteri səciyyələndirən əsərdir. Faciə janrında yazılmış *Kamança* əsərinin mövzusu 1918-1920 illərdə Qarabağda baş vermiş ermənimüsəlman qırğınından götürülmüşdür. Əsərin mərkəzi surəti Qəhrəman yüzbaşıdır. Ədib onun simasında cəsur, qorxmaz, mərd bir azərbaycanlı surəti yaratmışdır. Əsərdə kamançanın timsalında milli-mənəvi dəyərlərə sahib çıxmağın vacibliyi vurğulanır. Əsər milli özünüdərkin, özünəqayıdışın əsası kimi dəyərləndirilir. Əsərdə Cəlil Məmmədquluzadə azərbaycanlı qəhrəmanların vətən yolunda mərdlik, şücaət göstərə biləcəklərini əks etdirmişdi. Cəlil Məmmədquluzadə Azərbaycanın bütövlüyünün qızğın tərəfdarlarından biri idi. O, "Azərbaycan" adlı məqaləsində müstəqil Azərbaycan dövlətinin yaradılmasından bəhs edirdi.

Xalqı qəflət yuxusundan qalxmağa, azadlığa səsləyən şairlərimizdən biri də Mirzə Ələkbər Sabirdir. Sabirin poeziyası kəskin ictimai xarakter daşıyırdı. Azadlıq carçısı olan Sabirin satirası təkcə ölkəmizdə deyil, ölkəmizin hüdudlarından kənarda da məzlum kütlələrin oyanmasına təkan vermişdi. Milli azadlıq ideyaların tərənnümü Cəfər Cabbarli yaradıcılığından da yan keçməmişdir. Cabbarlının *Trablis müharibəsi* və ya *Ulduz* və *Ədirnə fəthi* pyesləri Osmanlı tarixindən bəhs edir, ədibin bu əsərlərdə türk xalqının mübarizə dolu tarixini tərənnüm etmişdi. Hər iki əsərdə türklərin yadellilərə qarşı apardığı rəşadətli mübarizə tərənnüm edilir. *Ədirnə fəthi* faciəsində itirilmiş Ədirnə torpaqları uğrunda türk xalqının apardığı mübarizə və vətənpərvərlik hərəkatından danışılır. Əsərdə eyni zamanda gənclərin azadlıq uğrunda apardığı mübarizəsi, ermənilərin türklərə qarşı törətdikləri vəhşiliklər öz əksini tapmışdır. Əsərdə həmçinin türk xalqının qəhrəmanlığı, keçdiyi keşməkeşli yolu, mübarizə əzmi, türk məişəti tərənnüm edilir.

Mövzu baxımından *Ədirnə fəthi* pyesi Trablis müharibəsi pyesinin davamı hesab edilir. Bu əsərlərlə bir daha türk xalqının qədimliyi, zəngin mədəniyyət və döyüş ənənələrinə malik olması göstərilmiş olur.

Qeyd edilir ki, Cəfər Cabbarlı *Trablis müharibəsi* və *Ədirnə fəthi* əsərlərinin ilk nümayişindən sonra verilən ziyafətdə çıxış edərək söyləmişdi: *"Trablis müharibəsində hərbi xadim kimi bədii obrazını yaratdığı* **Nuru Paşanın** *Bakının xilası uğrundakı göstərdiyi şücaəti və zəfər yürüşündən bəhs olunacaq yeni əsərini yazacağına dair söz verir".*

Cabbarlı verdiyi sözə əməl edərək *Bakı müharibəsi* əsərini qələmə alır. Əsər 1918-ci ilin martında **Bakıda** baş verən **qanlı hadisələr**, erməni daşnaqlarının **azərbaycanlılara** qarşı törətdiyi zülmlər təsvir olunur, başda Nuru Paşa olmaqla qəhrəman xilaskar türk ordusunun şəhəri erməni vəhşilərindən xilas etməsindən danışılırdı. Hadisələrin bilavasitə şahidi olmuş müəllif gördüklərini real surətdə qələmə almışdır.

Cəfər Cabarlı yaradıcılığında qadın obrazının yüksəlişinə böyük yer ayıraraq *Sevil*, *Almaz*, *Dönüş* pyeslərini qələmə almışdı. Cabbarlı *Sevil* pyesində Sevil obrazı timsalında qadının çadrasını açması ilə Azərbaycan qadınının yüksəlişini təsvir etmişdir. Əsərdə Sevil obrazı həmçinin Azərbaycan qadınını azadlığa səsləyən obraz kimi dəyərləndirilir.

Bundan başqa şair "Hürriyyəti-nisvançılara protesto", "Arvadlar deyirlər", "Kişilər deyirlər", "Qızlardan kişilərə protesto" və başqa şeirlərində qadın azadlığı məsələsinə toxunaraq bu məsələnin yarımçıq həll edildiyindən, qadınların hələ də ibtidai hüquqlardan məhrum olduğundan bəhs edirdi.

Milli azadlıq ideyaları, milli mücadilə Məmməd Səid Ordubadinin romanlarında da öz əksini tapmışdır. Bu əsərlərin ana xəttini XX-ci əsrin əvvəlində ictimai-siyasi mühitin tərənnümü təşkil edir.

Milli azadlıq mativləri Mir Cəlalın *Bir gəncin manifesti* əsərində də öz əksini tapmışdır. Əsərdə 1918-1919-cu illərdə Azərbaycanda baş verən siyasi hadisələri qələmə alınmışdır. Burada Sona obrazı Azərbaycan qadının ən gözəl xüsusiyyətlərini özündə cəmləyən bir ana obrazı, eyni zamanda ana Vətənin, Azərbaycanın rəmzi kimi göstərilir. Mir Cəlalın əsərdə insanlarda mübarizə əzmi aşılamaq, işğalçıların iç üzünü açmaq, onları xalqa tanıtmaq istəyi öz əksini tapır.

Milli azadlıq ideyaları digər dövrlərdə də ədib və yazarların əsas mövzusu olaraq qalmış, uğurla davam etdirilmişdi. İstiqlal şairləri sırasında Xəlil Rza Ulutürk, Məmməd Araz, Bəxtiyar Vahabzadə ön cəsgədə adları çəkilən şairlərimizdəndir. Bəxtiyar Vahabzadə yaradıcılığında milli azadlıq ideyaları "Gülüstan" poemasında, "İstiqlal" şeirində öz əksini tapmışdır. Azərbaycanın tarixi faciəsindən bəhs edən Gülüstan poemasında ölkəmizin iki yerə paçlanması, xalqımızın azadlıq və istiqlaliyyət uğrundakı şücaəti, qəhrəmanlığı tərənnüm edilmişdi.

1980-ci illərin axırlarında xalq azadlıq hərəkatı genişləndiyi zaman Xəlil Rza bu hərəkata qoşularaq rus şovinist siyasətini, torpaqlarımıza təcavüz edən erməni daşnaklarını öz çıxışlarında ifşa edərək lənətləyir xalqda ictimai şüurun formalaşmasında böyük xidmətləri olmuşdu.

Biz Türküstan ellәriyik,
Qeyrәt, qüdrәt sellәriyik.
Daşnakları qovan bizik,
Dar gözlәri ovan bizik.
Yetәr meydan suladılar,
Yurdumuzu taladılar.
Bakımızı әzizlәyәk.
Әqrәblәrdәn tәmizlәyәk!
Şölә versin bu lәl, mәrcan
– Ermәnisiz Azәrbaycan!

deyən şair, xalqı öz azadlığı uğrunda düşmənlərə qarşı mübarizəyə səsləyirdi.

Azadlığı istәmirәm zәrrә-zәrrә, qram-qram!
Qolumdakı zәncirlәri qıram gәrәk, qıram, qıram!
Azadlığı istәmirәm bir hәb kimi, dәrman kimi
İstәyirәm
Səma kimi,
Günəş kimi,
Cahan kimi!
Çәkil, çәkil, ey qәsbkar,
Mәn bu әsrin gur səsiyәm!
Gәrәk deyil sısqa bulaq,
Mәn ümmanlar təşnәsiyәm!!!

Bu mövzuya hərs olunan, milli azadlıq ideyalarını tərənnüm edən şeirləri ilə Şəhriyar bir daha milli istiqlal şairi kimi təsdiqlənmiş olur.

Son olaraq qeyd etmək istərdim ki, istər XX-ci əsrin əvvəllərində, istərsə də sonrakı dövrlərdə ölkəmizin hər bir fərdinin tarix boyu göstərdiyi milli mücadilə əzmi, vətən uğrunda yadellilərə qarşı mərdliklə mübarizəsi, ölkənin inkişafı istiqamətində verdiyi tövhələr cəmiyyətimizin milli – mənəvi dəyərlər sistemini formalaşdıraraq tərəqqisində müstəsna rol oynamışlar.

Qaynaqlar

1. *525-ci qəzet* (2018). Bakı. 06 iyun. s. 6.
2. Axundlu, Yavuz (1998). *İstiqlal şairləri*. Bakı: Elm. s. 125.
3. Akpınar, Dr. Yavuz - Yıldırım, İrfan Murat - Çağın, Sabahattin (1993). *Mehmet Emin Resulzade. Kafkasya Türkleri*. İstanbul: Türk Dünyası Araşdırmaları Vakfı.
4. Əzizov, T. Ə. (1997). *Azərbaycan XX əsrin əvvəllərində. Ümumi Tarixi İcmal*. Bakı: Zaman. s. 165.
5. Hacıyev Cəfər Xəndan (1955). *XX əsr Azərbaycan ədəbiyyatı tarixi.* Bakı: Azərbaycan Universiteti. s. 435.
6. http://mct.gov.az
7. http://www.anl.az
8. *Xalq* qəzeti (2018). Bakı. 24.
9. Məmmədli, Ruhiyyə - Əhmədova, Sevil (2019). *İstiqlal carçısı Məhəmməd Əmin Rəsulzadə*. Bakı: F. Köçərli adına Respublika Uşaq Kitabxanası. s. 51.
10. Mir Cəlal (2008). *Seçilmiş əsərləri*. Bakı: Çaşıoğlu. 308.
11. Rüstəmli, Arif (1919). *Cəfər Cabbarlı və milli istiqlal hərəkatı*. Bakı: Gənclik.
12. Salamoğlu, Təyyar (1960). *Mir Cəlal nəsri milli mücadilə kontekstində*. Bakı: ORXAN NPM.
13. Vəliyeva, Sona (2003). *Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə Azərbaycançılıq ideyası*. Bakı: Azərbaycan nəşriyyatı. s. 128.
14. www.vikipedia.org.az
15. Yadigar Türkel (Tertipçi ve Elmi Redaktör). *Məhəmməd Əmin Rəsulzadə* Milli Birlik. Bakı: Çıraq. 2009. s. 176 s.

CƏLİL MƏMMƏDQULUZADƏ YARADICILIĞINDA MİLLİ MÜCADİLƏ VƏ İSTİQLAL MOTİVLƏRİ

Ramiz QASIMOV

XX-ci əsrin ilk əvvəlləri bütün bəşər tarixi üçün mürəkkəb və ziddiyyətli, eləcə də inkişaf və istiqlaliyyət baxımından mühüm əhəmiyyətli bir dönəmdir. Bu dövr Azərbaycan xalqı üçün də olduqca əhəmiyyətli bir dövr olmuşdur. Bu dönəm, böyük ziyalılarımızın da ifadə etdiyi kimi, "milli oyanış və intibah illəri" (Məmmədquluzadə 2004: 63) kimi səciyyələnir. Doğrudan da, *"XX əsrin ilk iki onilliyini milli hərəkatın, iqtisadi, siyasi inkişafın, ictimai-siyasi, ədəbi, kulturoloji, maarifçi düşüncənin intibah səviyyəsində təşəkkülünü şərtləndirən Azərbaycan tarixinin ən zəngin dövrü hesab etmək olar. ... Cəmi bir neçə onillik əvvəl milli kimliyini bəlirləməyən bir toplum siyasi təfəkkür baxımından təşəkkülünün ən yüksək zirvəsinə çatmışdır ki, bu milli hərəkatın yekunu olaraq tarixdə ilk dəfə olaraq parlamentli dövlət – Azərbaycan Xalq Cümhuriyyəti qurulur"* (Əhmədov 2011: 11).

Doğrudan da, "Azərbaycan xalqı tarixin heç bir zaman kəsiyində bu mərhələdə olduğu qədər fikir və milli hərəkat adamlarına, ziyalılara, şair və yazıçılara, publisistlərə malik olmamışdı. Həsən bəy Zərdabi, Məhəmməd ağa Şahtaxtılı, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Nəriman Nərimanov, Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Firudin bəy Köçərli, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Hüseyn Cavid, Abdulla Şaiq, Haşım bəy Vəzirov, Abdulla bəy Divanbəyoğlu, Soltan Məcid Qənizadə, Əliabbas Müznib, Cəfər Cabbarlı, Əhməd Cavad və başqa onlarla fikir və siyasi düşüncə adamlarının fəaliyyəti millətin elmi, bədii, siyasi potensialını ortaya qoydu" (Əhmədov 2011: 11). Azərbaycan tarixində XIX-ci əsrin sonu – XX-ci əsrin əvvəlləri xalqımızın ictimai-siyasi həyatı ilə yaxından bağlı olan bir sıra əhəmiyyətli və taleyüklü hadisələrlə zəngin bir mərhələ təşkil edir. Ümumiyyətlə, *" 'Azərbaycan' anlayışının tarixində XIX-cu əsrin sonu, XX-ci əsrin əvvəlləri xüsusi mərhələ təşkil edir. Məhz bu dövrdə həmin anlayışın etnoqrafik, ictimai-siyasi, ideoloji məzmunu barədə geniş miqyasda düşünülməyə başlanır. Milli düşüncənin təzyiqi ilə ilk müstəqil Azərbaycan dövləti yaranır"*(10). Azərbaycan tarixinin

qızıl səhifələrini təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinin keçirilməsi haqqında imzalanan dövlət sənədində də öz əksini tapdığı kimi: *"Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX-ci əsrin axırları və XX-ci əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır. ... Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdilər. ... Rusiyanın Dövlət dumalarına və Müəssislər məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad, demokratik dövlət sistemi yaratmağa hazır idilər"* (Sərəncam 2017). Beləliklə, milli demokratik inkişaf və oyanışın nəticəsində əldə olunan dövlət müstəqilliyi yeni epoxa başlatmış və ictimai-mədəni mühitdə yeni istiqamət və vəzifələr müəyyənləşdirərək xalqımızın mədəni inkişafına misilsiz töhfələr vermişdir.

Qətiyyətlə demək olar ki, XX-ci əsrin əvvəllərində milli istiqlaliyyətin əldə edilməsi və Azərbaycan Xalq Cümhuriyyətinin qurulması çoxsaylı milli ziyalıların, *Molla Nəsrəddin*, *Füyuzat* və digər mətbuat orqanları və ədəbi cəbhələrinin oyanış missiyasının apardığı maarifləndirici işin faydalı bəhrəsi idi. C. Məmmədquluzadə, Ö. F. Nemanzadə, Ə. Haqverdiyev, M. Ə. Sabir, Y. V. Çəmənzəminli, Ə. Nəzmi, Ə. Qəmküsar və başqa mollanəsrəddinçi və tənqidi-realist ədiblərin başlıca ədəbi missiyası ictimaiyyət arasında milli oyanış missiyası həyata keçirmək, mücadilə əzmi formalaşdırmaq və istiqlal düşüncəsinə nail olmaq təşkil edirdi. Bu baxımdan böyük demokrat ədib C. Məmmədquluzadənin bütün ədəbi-bədii yaradıcılığı, xüsusilə "Cümhuriyyət", "Vətəndaşlar", "Azərbaycan" məqalələri, *Anamın kitabı* pyesi bütün tərəflərilə milli istiqlaliyyət və mücadilə məsələsini aktuallaşdırır, Azərbaycan istiqlaliyyəti və dövlətçilik quruluşu məsələsini xalqa izah edir, milli oyanış və mücadilə pafosu ehtiva edirdi.

Azərbaycanlılığın təkcə millət olaraq deyil, həm də milli ideya, konseptual ideologiya və bir ictimai hərəkat proqramı olaraq azərbaycançılığın müəyyənləşməsi görkəmli ədib Cəlil Məmmədquluzadənin adı ilə bağlıdır. Tamamilə doğru qənaətdir ki: "XIX-ci əsrin sonu XX-ci əsrin əvvəlləri Azərbaycanın bədii-estetik və ictimai fikrində milli oyanış, özünüdərk, istiqlal düşüncələrinin cücərməsi proseslərinin renessans dövrü hesab olunur. Mirzə Cəlilin həmin dövrdə ədəbi-ictimai mühitə gəlişi ilə bu proses daha da sürətlənmiş və milli ideya getdikcə kütləviləşərək minlərlə insanın fikir dünyasına hakim kəsilmişdir" (Vəliyeva 2003: 41). Azərbaycan tənqidi realizminin qüdrətli bayraqdarı, görkəmli ədib Cəlil Məmmədquluzadənin bütün yaradıcılığı Azərbaycançılıq ideologiyasının ideya mənbəyi olduğu kimi, istiqlal

düşüncəsi və Cümhuriyyət ideyasının da ən etibarlı, mükəmməl və bitkin proqramdır. Onun ayrı-ayrı publisist yazılarında konkret Azərbaycançılıqla bağlı məsələlər özünə şərh tapdığı kimi, *Ananmın kitabı* pyesi, "Azərbaycan" məqaləsi, "Vətəndaşlar", "Cümhuriyyət" məqalələri azərbaycançılığın, milli istiqlaliyyətin və cümhuriyyət quruculuğunun proqram xarakterli mənbəyi hesab edilir. Professor Yaşar Qarayev yazırdı*: "Özünəqədrki Azərbaycan yazıçılarından ən çox ideoloq olanı – Cəlil Məmmədquluzadədir"* (Qarayev 2016: 234). Ədib "Azərbaycan" məqaləsində vətənin, millətin və vətəndaşlıq borcunun konkret "xəritəsini" təqdim etmişdir. Bu mənada Cəlil Məmmədquluzadənin "Azərbaycan" məqaləsi vaxtında meydana çıxmış həqiqi milli manifest kimi səslənir" (Həbibbəyli 1997: 371). *"Azərbaycan ədəbi-ictimai fikir tarixində, sözün geniş mənasında, milli istiqlal, demokratiya və Vətən azadlığı uğrunda mübarizənin ön cərgəsində dayanan", "yaradıcılığı gələn hər yeni nəsil üçün müstəqillik, azərbaycançılıq, millilik və vətəndaşlıq tərbiyəsi məktəbi."* (Həbibbəyli 2009: 5) olan, həmişə yaradıcılıq *"qəsdi Azərbaycan üzərinə"* olan böyük azərbaycançı ədib Cəlil Məmmədquluzadə *"dünya-aləmin dəyişildiyi, bütün zadların dəyişilib öz mənasını tapdığı"* bir vaxtlarda *"vətən, vətən, vətən, millət, millət, millət, dil, dil, dil. Bəni–noi-bəşər üçün bu dairələrdən kənar özgə bir nicat olmadığını" "lüt-üryan vətən qardaşlarına"* (Məmmədquluzadə 2004c: 4) səslənirdi. Görkəmli ədibin "Azərbaycan" məqaləsini bütövlükdə azərbaycançılığın platforma və proqramı hesab etmək olar. Onun bu məqalədə ana dili, ana vətən, dövlətçilik, ərazi bütövlüyü və s. ilə bağlı irəli sürdüyü ideyalar milli düşüncə tərzinin xəritəsi, müəyyənləşdirdiyi azərbaycançılıq məfkurəsi və vəzifələri kimi yer tapır. *"Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm:*

Mənim Anam kimdir?

Öz-özümə də cavab verirəm ki:

Mənim anam rəhmətlik Zəhrəbanu bacı idi.

Dilim nə dilidir?

Azərbaycan dilidir.

Yəni vətənim haradır?

Azərbaycan vilayətidir...

Haradır Azərbaycan?

Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən. Qalan hissələri də ... qədim Rusiya hökuməti ilə Osmanlı hökumətinin daxilindədir" (Məmmədquluzadə 2004c: 4). Vahid, bütöv, müstəqil bir Azərbaycana sahib olmaq dövrün və zəmanənin tələbi, vətənpərvər insanların ürəyindən qopan nidalar idi. *"Əlinə qələm aldığı gündən ömrünün sonunadək milli istiqlal uğrunda mübarizəni məslək kimi, ideya mübarizəsi kimi qəbul*

edən Mirzə Cəlil özünün dahi təfəkküründən süzülən nurun ziyasında müstəqil Azərbaycanın varlığını uzaqdan da olsa aydınca görürdü" (Vəliyeva 2003: 42).

Ədibin düşüncəsinə görə, *" 'əl-ələ verib birləşməkdən' başqa 'bəni-noibəşər üçün' 'vallah, billah, tillah, özgə çarə, nicat yolu yoxdur' "* (Məmmədquluzadə 2004c: 5).

Azadlıq və səadət yalnız qüvvələrin birliyi və əzmi nəticəsində əldə oluna bilər. Ədibin qənaətincə, *"altında zarıdığı zülmü boynundan atıb"* azadlığa qovuşmaq istəyən hər bir əməkçi, zəhmətkeş insan *"zalımları, ağaları, xanları, mollaları, dövlətliləri, şahzadələri və sairələri tərəfindən onların boynuna salınmış boyunduruqdan azad olmaq istəsələr, əgər öz insan hüququnu müdafiə etmək və azadə nəfəs almaq istəsələr... qoy məzlum, bədbəxt, ...zəhmətkeş xalqı birləşsinlər..."* (Məmmədquluzadə 2004d: 128). Hətta bunu da əlavə etmək olar ki, Cəlil Məmmədquluzadə bir ədəbi şəxsiyyət olaraq yeganə sənətkar olmuşdur ki, təkcə qələmi ilə deyil, həm də əldə silah Azərbaycanın ərazi bütövlüyü uğrunda mücadiləçi olaraq iştirak etmişdir. O və onun baş redaktoru olduğu *Molla Nəsrəddin* jurnalı yeganə mətbuat orqanı olaraq Azərbaycanın bütün tarixi ərazilərini əhatə etməklə milli mücadiləçi, birləşdirici və istiqlalçı ədəbi missiya həyata keçirmişdir (Qasımov 2017).

Cəlil Məmmədquluzadə öz fikirlərində azadlıq və cümhuriyyət tərəfdarı idi. Xalqın azadlığını konstitusiyalı cümhuriyyət – *"məmləkətin idarəsi camaatın öz öhdəsində və ixtiyarında olan"* (Məmmədquluzadə 2004d: 191) respublikalı dövlət qurmaqda görürdü. Çünki "cümhuriyyət üsulu mocibincə məmləkətin idarəsi camaatın öz ixtiyarındadır. Camaat dedikdə vətənin sahibidir. Dəxi heç bir kəsin ixtiyarı yoxdur ki, özünə padşah adı qoyub millətin rəyindən kənar məmləkət işinə qarışsın. Məmləkət müəyyən qanunlar gücü ilə idarə olunur. O qanunları yazan və təsdiq edən millətin ... vəkilləridir" (Məmmədquluzadə 2004d: 191). Bunlardan başqa cümhuriyyətin bir əsas şərti də öz vətəndaşlarına növ-növ azadlıqlar verməsidir: *"Cümhuriyyət idarəsinin bir zinəti də var ki, o da tamam azadlıqdır. Bu azadlıq da neçə qisimdir. ... etiqad azadlığı, ... yığıncaq azadlığı, ... birləşmək, ... çap eləmək, ...danışmaq, ... siyasi partiyalar düzəltmək və ... dilbir olub, həmtədbir olmaqdır.*

Budur cümhuriyyətin ən vacib əsasları.

Vətəndaşlar!

Bir tamaşa edin bu nemətlərə, bu gözəl nemətlərə!

Bir tərəfdən də yada salınız zalım padşahların və onların polislərinin cövür və zülmünü!" (Məmmədquluzadə 2004d: 193). Ədibin təbirincə, *"kənd yüzbaşılarının tatarından, strajniklərin şallağından, ...vəzirlərin zülmündən, qubernatorların zülmündən, naçalnik və pristavların zülmündən", "min-min*

zalımların zorbazorluğundan" (Məmmədquluzadə 2004d: 194) qurtarmağın əlacı məhz xalq birliyi və iradəsi ilə milli hökumət – cümhuriyyət, konstitusiyalı respublika yaratmaqdır. Deyildiyi kimi, *"Məmmədquluzadənin rəhbər tutduğu və təbliğ etdiyi milli dövlət quruluşunun tipi – Xalq hakimiyyəti prinsiplərinə əsaslanan demokratik, suveren respublika quruluşu idi. Bu respublikanın perspektiv fəaliyyət proqramını isə o, üç əsas tərkib hissəsini - milli dövlət, xalq hakimiyyəti, torpaq islahatı – özündə birləşdirən 'nasionalizm' kimi təsəvvür edirdi"* (Qarayev 2016: 236). Görkəmli ədib *"Necə qan ağlamasın daş bu gün, Qırxılır gör neçə min baş bu gün!"* felyetonunda da yazırdı ki: *"Bu gün Kərbəla meydanı – Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa oranın qeydinə qalmalıdır. Axıtmalı qanlarımız, ehsan etməli pullarımız varsa – gözümüzün qabağında ürəklər parçalayan Azərbaycan matəmgahı durur. Bu gün ən böyük ibadət, ən birinci din və vətənpərvərlik oraya kömək etməkdir ki, həm Allah, həm də Həzrət Hüseyn razı qalsın. ...Bu gün Kərbəla meydanı Azərbaycan meydanıdır"* (Məmmədquluzadə 2004b: 356). Yoxsa *"...gündə yüz kərə milli və dini haqq və ixtiyarlarımıza toxunulur. Milli və dini hüquq və namusumuzu ayaqlar altına atırlar. Cümləmiz siçan kimi evlərimizin deşiklərinə soxulub öz canımızın qeydinə qalırıq"* (Məmmədquluzadə 2004d: 143). Buna görə də ədib "Lay-lay hürriyyət" felyetonunda demək istəyirdi ki, azadlıq əldə etmək, öz ixtiyarını ələ almaq üçün gec deyil, əksinə, zamanıdır. Xalqı xoşbəxtlik və səadət naminə birlik və mübarizəyə səsləyən ədib hürriyyətə çağırışlar edərək yazırdı: *"Məgər dəxi bəs deyil? Min ildən artıqdır ki, bizim hürriyyətimiz yuxuda idi. Məgər min il bəs deyil? ... Niyə bəs bu min ilin müddətində bizim müctəhidlərimiz bircə dəfə də demirdilər ki, hürriyyət yaxşı şeydir. Min ildir bizim füzəla, üləmamız deyirlər 'lay-lay hürriyyət!'... İndiyə kimi min illərin müddətində bizim müctəhidlərimiz minlərlə kitablar bağlayıblar, minlərcə risalələr yazıblar, amma biz bu kitabları və bu risalələri nə qədər vərəqləyirik, hürriyyət sözü tapa bilmirik"* (Məmmədquluzadə 2004b: 212-213). Buna görə də ədibin qənaətincə, *"yüz illərlə yatmış millətin və məmləkətin qulağına dirilik şeypuru çalıb... xalqı mövhumat və cəfəngiyyatdan xəbərdar etmədən, müntəzəm surətdə siyasət meydanında qələm çalıb millətin və məmləkətin hüququnu gözləməkdə fədakarlıq etmədən, camaatın bəsirət gözünü açıb dost ilə düşmənini ona tanıtdırmadan, zəhmətkeşlərdə zülmə hədsiz dözümlülük göstərmək əhval-ruhiyyəsini ləğv etmədən, azadlıq, istiqlaliyyət uğrunda böyük məqsədlərə çatmaq olmaz. Əgər camaatın bəsirət gözü açılmasa, heç bir şey fayda bağışlamaz. Nə hürriyyət, nə məşrutiyyət, nə cümhuriyyət"* (Məmmədquluzadə, 2004).

Böyük Azərbaycançı ədib Cəlil Məmmədquluzadə *Anamın kitabı* adlı məşhur azərbaycannaməsində yazır: *"Yer, göy, aylar və ulduzlar göylərdə seyr edib gəzə-gəzə genə əvvəl-axır günün başına dolanırlar. Mən etiqad edirəm*

ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, genə əvvəl-axır anaları Zəhranın ətrafında gərək dolanalar; çünki ay və ulduz şəmsin parçaları olan kimi bunlar da analarının ayı və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə! Onun insafı və vicdanı ona müdamil-həyat əziyyət edəcək: nə qədər canında nəfəs var peşiman olacaq" (Məmmədquluzadə 2004a: 475). Fikrimizcə, ədibin ümumiləşdirdiyi bu vəsiyyətnaməsi öz üslubuna görə müqəddəs *Qurani-Kərim*in (və digər müqəddəs dini kitabların) üslubuna uyğundur. Diqqət edilsə, atanın vəsiyyətnaməsində işlənən "Vay o kəsin halına ki", "Mən etiqad edirəm ki" kimi ifadə formaları eynən tez-tez *Qurani-Kərim*də də (və digər dini müqəddəs kitablarda da) işlənir və aparıcı müraciət üslubunu təşkil edir. Vəsiyyətnamədəki yığcamlıq, məzmunluluq, diqtə, təntənə, əzəmət və s. elə *Qurani-Kərim*də də aparıcılıq təşkil edir. Vəsiyətnamədəki *"Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, genə əvvəl-axır anaları Zəhranın ətrafında gərək dolanalar; çünki Ay və Ulduz Şəmsin parçaları olan kimi, bunlar da analarının ayı və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə!"* (Məmmədquluzadə 2004a: 475) mətni islamın *"Mən şəhadət edirəm ki, Allah birdir…"* başlıqlı müsəlmançılığın "kəlmeyi-şəhadət"ini xatırladır və bu mənada Mirzə Cəlil bu yığcam, üslubca zəngin kiçik mətnlə Azərbaycançılığın "kəlmeyi-şəhadət"ini yazmışdır. Bundan başqa düşünmək olar ki, Cəlil Məmmədquluzadə həm də yeganə sənətkarlardandır ki, Ayı və Ulduzu atanın yadigar qoyduğu *Anamın kitabı*nda təsvir etməklə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağına işarə etmiş, bu əsəri ilə sanki ilk demokratik Azərbaycan dövlətinə olan rəğbətini bildirmiş, üç qardaşın simasında onların barışmaz münasibətləri, anlaşmazlıqları və s. timsalında onun süqutu səbəblərini təsvir etmişdir.

Qaynaqlar

1. "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı". (2017). http://axc.preslib.az/az_b4-1.html.
2. Cəfər, M. (2002). *Cəlil Məmmədquluzadə*. Bakı: Çinar-Çap.
3. Çəmənzəminli, Y. V. (2005). *Əsərləri*. *Üç cilddə*. III c. Bakı: Avrasiya press.
4. Əhmədov, B. (2011). *XX Azərbaycan ədəbiyyatı tarixi*. Üç cilddə. I c. Bakı: Elm və Təhsil.
5. Həbibbəyli, İ. (1997). *Cəlil Məmmədquluzadə: mühiti və müasirləri*. Bakı: Azərnəşr.
6. Həbibbəyli, İ. (2009). *Böyük demokrat yazıçı Cəlil Məmmədquluzadə: Cəlil Məmmədquluzadə. Seçilmiş əsərləri*: 2 cilddə. I cild. Naxçıvan: Əcəmi. ss. 3-39.

7. Həbibbəyli, İ. (2017). ***Molla Nəsrəddin*** *və* ***füyuzatçı****lar: Ədəbi şəxsiyyət və zaman*. Bakı: Elm və Təhsil. ss. 414-442.

8. Həbibbəyli, İ. (2010). "Milli istiqlal ədəbiyyatının sərkərdəsi". *Xalq* qəzeti.

9. Qarayev, Y. (2016). *Seçilmiş əsərləri. Beş cilddə*, IV c., Bakı: Elm.

10. Qasımov, R.-İsmayıl, Z. (2017). *Azərbaycan ədəbiyyatında milli düşüncə konsepsiyası və azərbaycançılıq ideologiyası.* Bakı: Elm və Təhsil nəşriyyatı.

11. Qasımov, R. (2017). *Naxçıvan ziyalıları Azərbaycan mətbuatında (XX əsrin əvvəlləri)*. Naxçıvan: Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyi.

12. Məmmədquluzadə, C. (2004). *Əsərləri 4 cilddə*. I cild. Bakı: Öndər nəşriyyatı.

13. Məmmədquluzadə, C. (2004). *Əsərləri: 4 cilddə*. II cild. Bakı: Öndər nəşriyyatı.

14. ----- (2004). *Əsərləri: 4 cilddə*. III cild. Bakı: Öndər nəşriyyatı.

15. ----- (2004). *Əsərləri: 4 cilddə*. IV cild. Bakı: Öndər nəşriyyatı.

16. Məmmədov, M. (1967). *İdeal qardaşları*. Bakı: Azərnəşr.

17. Mir Cəlal. (2004). *Azərbaycanda ədəbi məktəblər (1905-1917)*. Bakı: Ziya&-Nurlan nəşriyyatı.

18. Nemanzadə, Ö. F. (2006). *Seçilmiş əsərləri*. Bakı: Şərq-Qərb nəşriyyatı.

19. Saraclı, Ə. (2007). *Azərbaycan yazıçıları Cümhuriyyət dönəmində*. Bakı: Elm nəşriyyatı.

20. Vəliyeva, S. (2003). *Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə Azərbaycançılıq*. Bakı: Azərnəşr.

ÇAĞDAŞ AZƏRBAYCAN NƏSRİNDƏ MİLLİ BİRLİK İDEYALARININ TƏCƏSSÜMÜ

*Gülnar QƏMBƏROVA**

Millilik geniş anlayışdır və bədii ədəbiyyatda da tez-tez təsadüf olunur. Bu anlayış haqqında müxtəlif fikirlər mövcuddur. Hər bir xalqın özünəməxsus adət-ənənələri, məişəti, təfəkkür tərzi və qanunları vardır. Millilik yazıçının öz millətinə, onun gələcəyinə, keçmişinə münasibəti ilə özünü göstərə bilir. Tarixi keçmişin ayrı-ayrı dövrlərində baş vermiş hadisələrin yazıya alınması milli tarixin inikasını şərtləndirir.

Türkiyəli alim, professor Yavuz Akpınar *"*Azerbaycanda milli tarih anlayışı və bunun edebiyyat tarihinə yansıması" adlı məqaləsində yazır: *"Azərbaycanda 'milli tarix' anlayışı deyərkən iki fərqli yanaşma yada düşür: birincisi Azərbaycanda modernləşmə hərakatı daxilində öz-özündən meydana gələn və dünyadakı siyasi və elmi gəlişmələrə əsaslanan, xüsusilə də XX əsrin əvvəllərində Əli bəy Hüseynzadə tərəfindən əsası qoyulmuş milli tarix və kimlik anlayışı. Digəri isə kökləri çarlıq dövrünə gedib çıxsa da, əsasən 1920-ci illərin sonlarında ortaya çıxmağa başlayan və daha sonrakı illərdə ətraflı şəkildə inkişaf edən Sovet tarix və kimlik anlayışı"* (7).

O, qeyd edir ki, bu iki anlayış bir birindən kəskin şəkildə fərqlənir, çünki birincisi xalqın soykökünün tarixinə, digəri isə üzərində yaşanılan torpağın, yəni coğrafiyanın tarixinə əsaslanır. "Sovet tarixi anlayışı"nda millət nəzərə alınmır, onun üzərində yaşadığı torpağın, coğrafiyanın tarixi milli tarix olaraq dəstəklənir.

Həqiqətən də, Azərbaycan uzun müddət Sovet İttifaqının tərkibində olduğundan sanki öz milli tarixindən uzaqlaşmışdı. Bu dövrdə yazılan tarixi romanlara nəzər salanda görürük ki, əsrin əvvəllərində tarixi həqiqətləri yazmaq cəhdləri az olub. Xalqlar dostluğu, erməni və azərbaycanlı gənclərin sevgi hekayəsinin motivləri əsasında qurulan süjet xətti, qədim və ya orta əsrlər Azərbaycan tarixinə müraciət bu romanların əsas mövzusu olmuşdur.

* Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, filologiya üzrə fəlsəfə doktoru, Uşaq ədəbiyyatı şöbəsi, elmi işçi; ms.gulnar_babayeva@mail.ru

Lakin Sovet İttifaqının süqutundan sonra Azərbaycan yenidən öz istiqlaliyyətini qazandı və bu zaman milli tarix və ədəbiyyat anlayışı yenidən nəzərdən keçirilməyə başlandı. Milli birliyin, vahidliyin, düşmənə qarşı birgə mübarizə aparmağın vacibliyini təbliğ edən tarixi romanlardan bəhs etmədən öncə "milli birlik" anlayışının nə demək olduğunu aydınlaşdırmağa çalışaq.

"Milli birlik və bərabərlik türk inqilabının təməl daşlarından biridir. Milliyətçilik, milli xarakter və milliliklə çox yaxından bağlıdır. Milli birlik millətcə birliyi, bir arada yaşamağı və bütövlüyü özündə təcəssüm etdirir. Milli birlik eyni zamanda, milli dövlətin gerçəkləşmə vasitəsidir, milləti təşkil edən ünsürlərdə birlik və bərabərlik deməkdir. Millət, tarixi və sosioloji baxımından bəlli bir pilləyə çatmış, bəlli şərtləri və özəllikləri olan bir topluluqdur.

Dövlət öz gücünü milli birlik sayəsində qoruya bilir. Digər tərəfdən, dövlət müstəqil olarsa, gördüyü xidmətlərlə, hüzur və güvənlə milli birliyi həyata keçirə bilər. Milli birlik dövlətin varlığı, davamı üçün həm daxili, həm də xarici siyasətdə gərəklidir. Xarici siyasətdə onun əhəmiyyəti daha çoxdur. Türk millətini irqi, dini və sinfi mübarizələrlə bölməyə çalışanlara qarşı ən sağlam qorunma yolu milli birlik və bərabərlikdir." (4).

Mustafa Kamal Atatürk milli birlik haqqında demişdir: *"Bir yurdun ən dəyərli varlığı, yurddaşlar arasında milli birlik, yaxşı yaşamaq, çalışqanlıq duyğu və qabiliyyətlərinin olğunluğudur. Millətin varlığını və dövlətin müstəqilliyini qorumaq üçün bütün vətəndaşların canını və hər şeyini dərhal ortaya qoymağa qərar vermiş olması, bir millətin ən yenilməz silahı və qorunma vasitəsidir. Bu səbəblə türk dövlətinin idarəsində və qorunmasında milli birlik, milli duyğu və milli mədəniyyətin rolu böyükdür."* (4).

Çağdaş Azərbaycan ədəbiyyatında bir çox yazıçılarımız milli mücadilə, düşmənə qarşı birgə mübarizə mövsusuna toxunublar. Yazıçı Elçinin "Hökmdarın taleyi" kino-povesti İlyas Əfəndiyevin *Hökmdar və qızı* faciəsinin motivləri əsasında yazılmış, əsər əsasında film də çəkilmişdir. Xanlıqlar dövrünə müraciət olunan bu povestdə Qarabağ xanlığının tarixi mövzu obyekti kimi götürülmüşdür. Burada İbrahimxəlil xan, onun siyasəti, xarici dövlətlərlə münasibəti qələmə alınıb. Azərbaycanda həmişə gözü olan rus işğalçılarının parçalamaq siyasəti, ermənilərinsə, ikiüzlü, ləyaqətsiz hərəkətləri müəllif tərəfindən ustalıqla təsvir edilmişdir. Povestdə İran, fars əsilzadələrinin də Azərbaycana sahib olmaq niyyəti bədii təcəssümünü tapmışdır. Abbas Mirzə Əsgəran ərazilərində öz mövqeyini möhkəmlətmək üçün erməni ailələrini ora köçürür, azərbaycanlılar isə öz doğma yurd-yuvalarından didərgin salınır.

Povestdə birlik, düşmənə qarşı vahid cəbhədə birləşməyin zəruriliyi məsələsi qaldırılmışdır. Rusiya xanlıqları tək-tək məhv edərək Azərbaycana

sahib olmaq istəyir, lakin xanlar torpağın bütövlüyünü yox, şəxsi mənafelərini güdərək bu birliyə qoşulmurlar. Cavad xan onlara nə qədər birlik təklif etsə də, heç bir xanlıq bu birliyə razı olmur.

Mustafa Çəmənlinin *Xallı gürzə* əsərində Qarabağ xanı Pənah xanın yaşadığı dövr mövzu obyekti kimi götürülmüşdür. Müəllif Qarabağ tarixi ilə bağlı hadisələri mövcud "Qarabağnamə"lərdən və digər ədəbi-bədii, elmi mənbələrdən diqqətlə öyrənmiş, roman boyu tarixi həqiqətləri oxucusuna çatdırmaq istəmişdir. Qeyd edək ki, bu romana qədər Azərbaycan ədəbiyyatına Şuşa qalasının və Qarabağ xanlığının qurucusu Pənah bəy Cavanşirin bədii obrazı gətirilməmişdir. Bundan başqa, ilk dəfə romanda Şimali və Cənubi Azərbaycan torpaqlarında hökmdarlıq edən xanların münasibətləri, dostluqları, ixtilafları fonunda dövrün canlı mənzərəsinin, ictimai-siyasi vəziyyətinin şahidi olur, insanların mübarizəsinin, duyğu və düşüncəsinin, yaşam tərzinin canlı təsvirini görürük. Bu fikrimizi ədəbiyyat və fikir adamları da etiraf edib: *"Onun ilk geniş oxucu marağı qazanmış 'Xallı gürzə' romanı Qarabağ xanlığının keşməkeşli bir zamanının aydın güzgüsüdür"* (3, 13).

Xallı gürzə romanında erməni məsələsinə geniş yer verilib. Tarixdən bizə məlumdur ki, erməni gürzələri ara-sıra qonşu ölkələrə hücum çəkib, başqalarının sahib olduğu torpaqlara yiyələnmək istəyiblər. Mirzə Camal Cavanşirin Qarabağ tarixindən bəhs edən *Qarabağnamələr* kitabında bu barədə müfəssəl məlumatlar var. Onlar bu alçaq niyyətlərini həyata keçirtmək üçün digər xanları Pənah xana düşmən edib, aralarında nifaq salmaqdan belə çəkinməmişlər.

Romanda xalqın birliyi, düşəmənə qarşı vahid cəbhədə çalışmağın zəruriliyi məsələsi xüsusilə qabardılmışdır. Müəllifin diqqətə çatdırmaq istədiyi əsas məsələlərdən biri də budur ki, nə qədər ki, Azərbaycan xalqı birləşməyəcək, hakimiyyət uğrunda didişib-çəkişmələr olacaq, biz uçuruma doğru gedəcəyik. Əsrlərdən bəri yadellilərin torpaqlarımıza hücumu və işğalı məhz bu parçalanma, taxt-tac uğrunda savaş nəticəsində mümkün olmuşdur. Şəki, Şirvan, Qarabağ, Qaradağ, Naxçıvan, Gəncə xanları düşmənə qarşı vahid cəbhədə birləşməyə nail olurlar.

> *"- Təklənsək, – deyirdi, – xallı gürzələr canımıza sarmaşacaq, qanımızı soracaq, mal-davarımıza sahiblənəcək, əhli-əyalımızın beyninə zəhərli fikirlər yeridəcək. Bax, müsibət onda olar! Bizdən sonrakılar, bizi nifrətlə yad edərlər"* (2, 233).

Milli birlik ideyalarını özündə təcəssüm etdirən romanlardan biri Nüşabə Məmmədlinin *Cavad xan* əsəridir. Roman xanlıqlar dövründə Azərbaycanda cərəyan edən hadisələrdən bəhs edir. Burada əsas obraz kimi Gəncə hakimi Cavad xan götürülmüşdür. O, uzaqgörən, görkəmli şəxsiyyətdir, Azərbaycanın gələcəyini düşündüyündən düşmən basqını zamanı xanlara birləşməyi təklif edir.

Müstəqillik illərində bir çox əsərlər yaradan yazıçılarımızdan biri də Yunus Oğuzdur. O, *Nadir şah* romanında konkret faktlardan bəhrələnmişdir. Romanda Nadir şah qorxmaz, cəngavər, qüdrətli, türk dövlətlərini birləşdirməyə səy edən bir tarixi şəxsiyyət kimi təsvir olunur.

Romanda türklərin bir-birinə qarşı vuruşu müəllif tərəfindən daima etirazla müşahidə olunur. Onun yaratdığı Nadir şah obrazı türklərin birliyi naminə çalışır və hətta, 1745-ci ildə osmanlılarla olan döyüşdə də onların birinci hücuma keçməsinə sevinir ki, tarixin qınağı Nadir şahın üzərində qalmayacaqdır... Əmir Teymurun məqbərəsində olarkən Nadir şah sanki qeybdən gələn səs vasitəsilə böyük cahangirlə söhbətləşir: *"Sultan Bəyazidlə döyüşə görə heyfsələnirəm. – Niyə, ustad? Ona görə ki, Sultanı Vyana qapılarından geri qaytardım. Halbuki, Sultanın Avropanı almasına az qalmışdı. Həm də Bəyazidlə çox amansız döyüşüm İstanbulun alınmasını əlli il ləngitdi. Bax, buna heyfisələnirəm. Bir də təəssüf edirəm ki, Moskvaya girməyib yarı yoldan qayıtdım. O zaman Moskvanı almaqla bütün Rusiyanı müsəlman etmək olardı"* (5, 431).

Əsərdə millətin bütövlüyü, düşmənə qarşı vahid, bölünməz şəkildə mübarizəsi təlqin olunur ki, bu, müəllif tərəfindən çox düzgün vurğulanmış haldır. Həmişə türk millətini parçalamaq istəyənlər bu millətin daxilində müəyyən təfriqələr salmağa çalışmışlar və buna müəyyən dərəcədə nail olmuşlar.

Əzizə Cəfərzadənin *Gülüstan'dan öncə* romanında müəllif XIX əsrin əvvəllərində Rusiyanın Azərbaycana hücumundan, bu hücuma qarşı xalqın mübarizəsinə savaşından bəhs edilir. Şirvan xanı Mustafa xanın hakimiyyəti, onun rəiyyətlə xoş, həlim münasibəti əsərdə işıqlandırılmışdır. Azərbaycan tarixində iz salmış "Kürəkçay" müqaviləsinin imzalanma şəraiti, Şirvan, Şəki və Qarabağ xanlarının burda iştirakı bədii təxəyyül gücü sayəsində müəllif tərəfindən böyük məharətlə qələmə alınmışdır.

Əzizə Cəfərzadənin *Zərrintac-Tahirə* əsəri XIX-ci əsrdə Cənubi Azərbaycanda yayılan Babilər hərakatına, onun fəal liderlərindən olan Zərrintaca ithaf olunmuşdur.

Zərrintacın xarakterini təsvir etməklə müəllif bir azadlıq mücahidinin timsalında özünün vətən, müstəqillik haqqında düşüncələrini əks etdirmişdir. Bölgülərə, parçalanmalara qarşı etiraz səsini ucaldan Zərrintac millətin taleyini özünün taleyindən üstün tutur. O, təqiblərə, təzyiqlərə, böhtanalara məruz qalmasına baxmayaraq, hər bir çətinliklərə məharətlə dözür, Zərrintacın hər arzusu diləyi, millətin səadəti, gələcəyidir. Öz müridlərinə də bunu təlqin edir. O, zülm, əsarət altında inləyən xalqın acı taleyinə göz yuma bilmir, bu günahsız vətən övladlarının güzəranını yaxşılaşdırmaq, "ərşə dayanan zülmü azaltmaqçün" mübarizə meydanına atılır: *"Hakimiyyəti əlinə keçirən və xalqı, milləti düşünməyən ağalar heç vaxt öz əmlaklarını, dövlətlərini, hakimiyyətlərini,*

əllərindən özxoşuna verməzlər. Vermirlər də. Gəzmişəm qarış-qarış Azərbaycanı, İranı, Turanı, İraqi-ərəbi... Heç yerdə səadətdən, heç yerdə Rəsulixudanın gətirdiyi həqiqətdən nişan qalmayıb. El dərdi, millət, rəiyyət dərdi düşünən yoxdur. İslam ölkələri dilənçilərlə dolub. Ölkəmizdə aclıq ucundan bir parçacıq çörək oğurlayanın əlini kəsirlər. Amma dövlət, səltənət xəzinəsindən min-minlərlə oğurlayanlar oğru sayılmır" (1, 83).

Əsərdə millətin bütövlüyü, düşmənə qarşı vahid, bölünməz şəkildə mübarizəsi təlqin olunur ki, bu, müəllif tərəfindən çox düzgün vurğulanmış haldır. Həmişə türk millətini parçalamaq istəyənlər bu millətin daxilində müəyyən təfriqələr salmağa çalışmışlar və buna müəyyən dərəcədə nail olmuşlar.

Xanlıqlara parçalanmış Azərbaycanın bu acınacaqlı vəziyyətindən istifadə edən düşmən asanlıqla, birbir torpaqları ələ keçirir və bu siyasətində həmişəki kimi yaltaq, ikiüzlü ermənilərin köməyindən istifadə edir.

Yunus Oğuzun *Təhmasib şah* romanı Səfəvilər dövlətinin hökmdarlarından olan Təhmasib şaha ithaf olunmuşdur. Yunus Oğuz əvvəlki romanlarında olduğu kimi bu romanda da tarixi dəqiqliyi əks etdirməyə çalışmışdır. Bunun nəticəsində də bu əsər yazıçı fantaziyasından uzaq, tarixi dövrün səciyyəsi, xarakteri və detallarını özündə ehtiva etdiyi üçün maraq doğurur.

Əsərdə ortaya qoyulan mühüm məsələlərdən biri türk dünyası arasında olan siyasi ziddiyyətlərin göstərilməsidir. Tarixdən məlumdur ki, Səfəvilər şərqdə özbəklər, qərbdə isə osmanlılarla münaqişədə olublar. Baxmayaraq ki, bu dövlətlər türk dövləti olublar, lakin daima bir-biri ilə torpaq naminə vuruşublar. Osmanlıların Avropa ölkələrinə hücumları bu ölkələrin Səfəvilərlə qarşılıqlı əlaqə qurmasına rəvac vermişdir.

Apardığımız tədqiqat nəticəsində belə müəyyən etdik ki, çağdaş Azərbaycan nəsrində milli tarix, mücadilə mövzusu yazıçıların diqqət mərkəzində olmuş və onlar əsərlərində xalqın tarixini, onun mübarizə əzmini qələmə almışlar.

Qaynaqlar

1. Əzizə Cəfərzadə (1996). *Zərrintac-Tahirə*. Bakı: Göytürk. 206 s.
2. Mustafa Çəmənli (1991). *Xallı gürzə*. Bakı: Yazıçı. 317 s.
3. Məmməd Aslan (1997). "Qələmin yaşı". *Ekran efir* qəzeti. 13 oktyabr. Bakı.
4. "Milli birlik və bərabərlik"//http://www.atam.gov.tr/dergi/sayi-07/milli-birlik-ve-beraberlik
5. Yunus Oğuz (2008). *Nadir Şah*. Bakı: Apostrof. 576 s.
6. ----- (2011) *Zirvəyə doğru. I kitab*. Bakı: Apostrof. 368 s.
7. Yavuz Akpınar (2010). "Azerbaycanda milli tarih anlayışı və bunun edebiyyat tarihinə yansıması". Tənqid.net jurnalı, № 7. ss. 219-222.

CƏLİL MƏMMƏDQULUZADƏNİN HEKAYƏLƏRİNDƏ MİLLİ MÜBARİZƏ RUHUNUN TƏLQİNİ YOLLARI

*Mehri QULİYEVA**

Giriş

Yaradıcılığında milli azadlıq, müstəqillik idealları, xalq kütlələrinin oyanış və inkişafı, təşkilatlanması strategiyası aparıcı yer tutan Cəlil Məmmədquluzadə çoxtərəfli fəaliyyəti ilə diqqəti cəlb edir. O, öz vətəndaşlıq fəaliyyətini və ziyalı borcunu həm nasir, həm dramaturq, həm jurnalist, həm də pedaqoq kimi göstərirdi. Fəaliyyətinin hansı sahəsinə baxsaq, nümunəvi və yaradıcı bir şəxsiyyət idi. O, dövrün tələblərini doğru qiymətləndirir və ona yüksək səviyyədə cavab verirdi.

Yaradıcılığı həm məzmun, həm də bədii-estetik zənginliyi, mükəmməlliyi ilə cazibədardır. XX-ci əsr dramaturgiyasının və nəsrinin bir çox ənənələrinin ilikn, həm də mükəmməl modeli Cəlil Məmmədquluzadə yaradıcılığında formalaşmışdı.

Cəlil Məmmədquluzadə ədəbiyyatımızda tənqidi realizm cərəyanının formalaşmasında rəhbər funksiyasını yerinə yetirmişdir. Gerçəklərin, dövrün və zamanın qüsurlarının açılması bu cərəyanın əsasında dayanır. Mirzə Cəlil yaradıcılığında açıq, birbaşa tənqid yoxdur. O, oxucunun, adresatın analitik təfəkkürünü oyadaraq onu özü özünə tənqidə yönəldir. Bu zaman incəsənətin təlqin funksiyasının bütün imkanlarından istifadə edir və çoxçalarlı təsirə nail olmaq üçün sənətin imkanlarına üz tutur və bu imkanları qeyri-adi ustalıq və istedadla xeyli genişləndirir.

XIX-cu əsrin sonu, XX-ci əsrin başlanğıcında Azərbaycanın sosial-siyasi-mədəni vəziyyətinin ümumi səciyyəsi

Sovet Rusiyası Azərbaycanın Demokratik Respublikasını işğal etdikdən sonra bu irticaçı rejimə qarşı mübarizə yenə də davam etməkdə idi.

* AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsinin dissertantı; shemsim2010@mail.ru

1918-ci ildə Şərqdə elan olunan ilk demokratik cümhuriyyətin – ADR-in qurulmasında o dövrün ziyalılarının apardığı mübarizənin davamlılığı və ardıcıllığı əsas rol oynamışdır.

XIX-cu əsrin başlanğıcında vətənimizin Rusiya tərəfindən işğalından təxminən 100 il keçdiyi bir vaxtda, XX əsrin başlanğıcında Azərbaycanda azadlıq uğrunda mübarizə hərəkat halını almışdı. Azərbaycan işğal və ikiyə bölünmə faktı ilə razılaşmırdı. İstər Şimalda, istərsə də Cənubda üsyan dalğalanır və get-gedə güclənirdi. Cənubda Səttar xanın rəhbərlik etdiyi inqilabi xarakterli hərəkat, Şimalda çarizmin qəddar təzyiqi səbəbiylə daha çox mədəni-ideoloji səciyyədə özünü göstərirdi. Şimaldakı hərəkatın önündə Azərbaycan ziyalıları, mətbuat, teatr, xeyriyyə cəmiyyətlərinin mədəni tədbirləri, xüsusən *Molla Nəsrəddin* və *Füyuzat* jurnalı ətrafında formalaşmış ədəbi məktəblər gedirdi. Hər hansı bir siyasi mübarizənin mükəmməlliyi onun özündən əvvəlki mədəni mübarizə yolundan keçir. İdeologiyanın yetişib formalaşmasında, yayılmasında, təbliiğ və təlqinində mədəniyyət və incəsənətin, ədəbiyyatın müstəsna rolu var. Bu iki ədəbi məktəb, daha çox da mollanəsrəddinçilər mədəni mübarizənin inkişaf edərək siyasi hala gəlməsinə şərait yaradırdı. Bu mənada, Azərbaycan ziyalılarının, o cümlədən Cəlil Məmmədquluzadənin əsrin başlanğıcında məşğul olduqları strateji işin müstəqilliyimizin siyasi quruculuğuna aparan yol kimi dəyərləndirilməsi elmi cəhətdən doğrudur.

XX-ci əsrin başlanğıcında Azərbaycan dünyada baş verən qlobal çəkişmələrin diqqət mərkəzində olan əsas yerlərdən biri idi. Azərbaycan özünün zəngin sərvətləri, qədim ipək yolunun magistralında mühüm xətləri birləşdirən əlverişli şəraiti ilə strateji baxımdan son dərəcə əhəmiyyətli coğrafiyanı təmsil etməklə bərabər, eyni zamanda, 100 illik bir müstəmləkə rejimi altında öz milli və dövlətçilik hüquqlarını itirmiş xalqın vətəni idi. Milli-dövləti hüququ olmayan bir xalqın, fərdləri də ədalətsizliyə düçar olur və onların normal, mənəvi və fiziki əzablardan kənar yaşaması, insan kimi hərtərəfli tərəqqisi mümkün deyil. Cəlil Məmmədquluzadənin bütün yaradıcılığı, o cümlədən hekayələri də məhz bu problemin həlli üzərində qurulmuşdu.

Cəlil Məmmədquluzadə hekayələrində təlqin olunan əsas ideyalar

"İncəsənətin mühüm və az öyrənilən funksiyalarından biri təlqindir" (etika-estetika.ru/books/item/f00/s00/z0000004/st054.shtml) [Erişim: 25.06.2019].

Bu, şüurlu və qeyri-şüuru xarakter daşısa da, bütün əsərlərdə, kompleks halda incəsənətdə özünü göstərir. Tərbiyə və təbliğ, eləcə də digər estetik funksiyalarla yaxından əlaqədə olan təlqin funksiyası oxucunun ruhuna, şüuraltına ünvanlandığı üçün təsiri daha uzunmüddətli olur.

Cəlil Məmmədquluzadənin hekayələrində oxucusuna təlqin etmək istədiyi ideyalardan ən birincisi milli azadlıq və müstəqillik idi. Bunlar olmadan

ictimai varlıq kimi mövcud olan insan heç vaxt daxili rahatlıq tapa bilməz. Mirzə Cəlil özünün yaşadığı bu narahatçılığı, "nigarançılığı" oxucusuna sirayət etdirmək istəyirdi. Özü ilə həmfikir olan yazıçıları, Azərbaycan tənqidi realist ədəbiyyatının təmsilçilərini də buna təşviq edirdi. Milli istiqlaldan, Demokratik Respublikanın quruluşundan öncə bu möhtəşəm tarixə təkan verən, xalqımızı içinə düşdüyü cəhalət və fanatizmdən, onun ağır nəticəsi olan işğaldan qurtarmaq üçün mübarizəyə səfərbər edən ədəbiyyat yaranmışdı. Bu ədəbiyyatın əsas təşkilatçısı, ideoloqlarından biri Cəlil Məmmədquluzadə idi. Onu *"*milli istiqlal ədəbiyyatının sərkərdəsi" kimi qiymətləndirməkdə akademik İsa Həbibbəyli haqlıdır. *"Cəlil Məmmədquluzadə mənsub olduğu xalqın ümummilli oyanışına və istiqlalına xidmət edən böyük ədəbiyyat yaratmaq missiyasını şərəflə yerinə yetirmişdir. Heç tərəddüd etmədən demək olar ki, Cəlil Məmmədquluzadə Azərbaycan milli istiqlal ədəbiyyatının sərkərdəsidir"* (16.04.2019 *525-ci qəzet*).

Cəlil Məmmədquluzadənin təlqin üsulları

Cəlil Məmmədquluzadənin yaradıcılığında azadlıq uğrunda mübarizənin açıq çağrışından daha çox, kod-detallarla təlqini aparıcı yer tuturdu. O, yaradıcılığında ilk baxışda çox sadə, məişət hadisələrindən bəhs edir. Lakin toxunduğu mətləbləri, mətnaltı mənaları açdıqca qlobal problemlərə toxunduğu bəlli olur. Bunu qeyri-adi sənətkarlıqla, mətnə verdiyi effektlə bacarır. Dahi sənətkarın bu ustalığını professor Tahirə Məmməd belə qiymətləndirir: *"Cəlil Məmmədquluzadənin zəngin mətnaltı mənalı yaradıcılığı milli ədəbiyyatımıza yeni tipli 'ornamentallıq', yeni strukturlarda ifadə olunan gizli məna xsusiyyəti gətirdi"* (1999: 17). Qeyd olunan xüsusiyyət onun bütün yaradıcılıq sahələrində özünü göstərməkdədir.

Böyük ədib hekayə yaradıcılığında XX-ci əsrin azərbaycanlısına onun içində olduğu vəziyyəti bədii portretlərlə, dialoqlarla, təhkiyyəçinin nitqi və sükutunun növbələşməsi ilə satirik üslubda açıb göstərirdi. *Molla Nəsirəddin* jurnalının ilk nömrəsinin baş yazısında müəllif öz fəaliyyət yolunu və məqsədini belə bəyan edir:

"Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləiri deyib gəlmişəm ki, mənim sohbətimi xoşlamayıb, bəzi bəhanələrlə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılma qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vâcib əməllərə. Çünki hükemâlar buyurublar: 'Sözünü o kəslərə de ki, sənə qulaq vermirlər'. Ey mənim müsəlman qardaşlarım! Zəmânə ki, məndən bir gülməli söz eşidib, ağzınızı göyə açıb və gözlərinizi yumub, o qədər 'ha-ha' edib güldünüz ki, az qaldı bağırsaqlarnız yırtılsın və dəsmal əvəzinə ətəklərinizlə üz-gözünüzü silib, 'lənət şeytana' dediniz, vaxt elə gümân etməyin ki, Molla Nəsrəddinə gülürsünüz.

Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz aynanı qabağmıza ve diqqətlə baxınız camâlınıza" (Məmmədquluzadə: 1906).

Cəlil Məmmədquluzadənin Molla Nəsirəddin adı ilə etdiyi müraciət göstərir ki, böyük ədibi təkcə Azərbaycan yox, bütün Şərq, müsəlman aləmi düşündürür. Çünki onların xoşbəxtliyi bir-biri ilə əlaqədə və birliklərində mümkün idi. Dünya onu parçalayıb idarə etmək planlarında ardıcıl, geridönməz mövqe sərgiləyirdi.

Bu çağrışda, eləcə də onu layihə kimigerçəkləşməsinin bir komponentini təşkil edən hekayələrdə oxucu öz portretini görüb, dəhşətə gəlirdi, özü-özünü bəyənmirdi, özünə və onu həmin vəziyyətə salanlara üsyan edirdi; Novruzəli, Pirverdi, Usta Zeynal, Saqqallı uşaq bu qəbildən olan qəhrəmanlar idi. Onların hər biri ədəbi portreti canlandırmaqla bərabər, həm də sosial statusu əks etdirirən tipiklik dəyərini formalaşdırırdı – novruzəlilik, pirverdilik, qurbanəlilik və s. kimi. Həmin statusa üsyan milli ruhun oyanışını təmin etməklə, milli mübarizə yolundakı axını, tələtümü gücləndirirdi.

Cəlil Məmmədquluzadənin hekayə qəhrəmanları öz vəziyyətlərinə laqeyidliyi, ətrafda baş verənlərə münasibətlərinin kütlüyü və lənglikləri ilə diqqəti cəlb edirlər.Hekayələrin həcminin çox da böyük olmasına baxmayaraq müəllif çox vaxt onların hərəkətindəki ləngliyi və ətaləti vermək üçün detallı təsvir və nəqlə yer ayırır; Usata Zeynalın işə başlamaq üçün çubuğunu silkməsini, şalını açmasını, börkünü başından götürməsini, pilləkənə çıxmasını, gəci malaya qoymasını və s. (Cəlil Məmmədquluzadə 2004: 141-142) tələsmədən təsvir etdiyi kimi. Müəllif onları naqis, qüsurlu xarakteri yüksək səviyyədə əks etdirə bilən mükəmməl ədəbi qəhrəman kimi təqdim edir. Gerçəkliyin qüsur daşıyıcıları olduqlarına görə də həmin qəhrəmanlar incəsənətin təbliğ funksiyasından uzaqlaşırlar, təbliğat üçün yararsızdırlar. Lakin özlərinin qüsurları və fərqində olmadıqları potensialları ilə çox qüvvətli təlqin gücünə malikdirlər. Müəllif statik qəhrəmanlarla oxucusunun psixoloji aləmində dramatizm yaradır, onu hərəkətə, üsyana meyilləndirir. Bu üsyan ilk növbədə etirafdan başlayır. Cəlil Məmmədquluzadənin bütün yaradıcılığı müstəmləkəçiliyin və fanatizmin milləti saldığı eybəcər vəziyyətin etirafı üzərində qurulmuşdur. Səbəbdən əvvəl etirafa ehtiyac var idi; Usta Zeynal, Saqqallı Uşaq, Novruzəli, Qurbanəli bəy və s. vasitəsilə millətin real vəziyyətindəki qüsurların etirafına.

Müəllif fərdlərin nümunəsində faş etdikləri ilə, əslində bir ziyalı kimi milli etirafla məşğul idi. Fərdlərin etirafı milli etirafa yol açırdı. Etirafdan sonra yaranmış vəziyətin səbəblərini aramağa, onları müəyyənləşdirməyə tələbat yaranır. Bununla Cəlil Məmmədquluzadə oxucu şüurunu oyadaraq, onu axtarışa dəvət edirdi. Son mərhələdə isə milləti və fərdi geridə qoyan səbəblər

müəyyənləşəndə, onları aradan qaldırmaq istəyi yaranır: Cəlil Məmmədquluzadənin müəyyənləşdirdiyi və xalqı aparmaq istədiyi strateji hədəf də bu idi.

Hekayələrində əsərin qəhrəmanı kimi çıxış edənlər həyatda qəhrəmanlıq meydanını və imkanını itirənlərdir. Bu itkilərlə tanışlıqdan doğan həyəcan bir təkan kimi oxucunu öz itirdiklərini bərpaya meylləndirir; oxucu nə Novruzəli, nə Usta Zeynal, nə Saqqallı uşaq, nə də onların daxil olduğu geridə qalmışlar silsiləsinin hər hansı bir üzvü olmaq istəmir.

Nəticə

Cəlil Məmmədquluzadənin müəllif və oxucu arasında qurduğu model bu gün də öz işləkliyini qoruyub saxlayır. Onun əsərlərini oxuyub acı-acı gülən oxucunu indi də kimə – özünə gülüb, gülmədiyisualı düşündürür.

Qaynaqlar

1. Həbibbəyli, İsa (16.04.2019). "Cəlil Məmmədquluzadəyə yenidən qayıdış: İmtina, yoxsa zərurət". *525-ci qəzet*.
2. Məmmədquluzadə, Cəlil (1906, 7 aprel). *Molla Nəsrəddin* jurnalı, Tiflis.
3. Məmmədquluzadə, Cəlil (2004). *Əsərləri. 4 cilddə*. I cild. Bakı: Öndər nəşriyyatı.
4. Məmməd, Tahirə (1999). *XX əsr Azərbaycan dramaturgiyasının poetikası*. Bakı: Elm nəşriyyatı.
5. *Внушающая функция* (воздействие искусства на подсознание) ... etikaestetika.ru/books/ item/f00/s00/z0000004/st054.shtml

ANAMIN KİTABI ESERİNDE "TÜRKLEŞMEK", "İSLAMLAŞMAK" VE "MUASIRLAŞMAK" İZLERİ

*Paşa QULUZADƏ**

Giriş

Tanzimat'tan itibaren edebî eserlere daha çok eğilimin olmasındaki en önemli etkenlerin başında oradaki karakterler sayesinde yazarların kendi görüşlerini kolay bir şekilde ifade etme olanağı yatmaktadır. Kurgulanan toplum, gerekli olarak görülen dönüşüm bu tipler aracılığıyla halka anlatılmaktadır. Eserlerde yaratılan ve bir anlamda kahramanlık yapan karakterler daha çok topluma yön veren kişiler olarak karşımıza çıkmaktadır (Balcı 2002: 4). Yazarların kendi eserlerinde daha çok sentezci aydın tiplemesine ihtiyaç duyduğu sezilmektedir. Eserlerde sentezci aydınlar aracılığıyla Doğu ve Batı'nın sentezinden oluşan bir gelişim metodunu benimseneceği beklentisi oluşmuştur. Bu sentez sayesinde bizde olmayanların başka medeniyetten alınması ve mevcut değer sisteminin kabul edilmesi gerçekleşebilmektedir (Balcı 2002: 53). Hiç kuşkusuz yazarların Doğu ve Batı sentezini en iyi şekilde kendi içerisinde barındıran düşünce akımı olan "İslamlaşmak", "Türkleşmek" ve "Muasırlaşmak"tan etkilendiğini söylemek mümkündür.

XIX'inci yüzyılda "İslamlaşmak", "Türkleşmek" ve "Muasırlaşmak" Türk aydınlarının üzerine en çok düşündükleri kavramlar olmuştur. Bunlar toplumun ruhi, hayati ve hakiki ihtiyaçlarından doğmaktadır. Birbirinin adeta tamamlayıcısı olan bu üç fikir akımından birinin diğerlerine tercih edilmesi, içtimai tekamülün, ruhi yücelmenin ve asri terakkinin toplumda vücut bulmasına engel teşkil edecektir (Günaltay 2011: 1073). Türkleşmek, İslamlaşmak ve Muasırlaşmak görüşünün temelleri Hüseyinzade tarafından atılsa da, sonradan Gökalp bu görüşü geliştirmiş ve sistemleştirmiştir. Üçlü düsturun ortaya çıkmasında Akçura'nın "Üç Tarz-ı Siyaset" makalesini gözardı etmemek gerekmektedir. Düşünür, 1904 yılında yayımladığı makalesinde, "Türkçülük", "İslamcılık" ve "Osmanlıcılık" sentezini yapmış ve devletin ayakta kalmasının

* Fəlsəfə üzrə fəlsəfə doktoru, Baki İslam Üniversiteti, Dinşünaslıq Fakültesi, İctimai Elmler kafedrası; *prquluzade@gmail.com*

şartının bu olduğu görüşünü savunmuştur. "Üç Tarz-ı Siyaset"te ortaya atılan bu üç görüşün hiçbiri Osmanlıda uygulamaya konulmadı. İsimsiz olarak *Türk* gazetesine gönderilen bu yoruma göre mevcut olan hastanın, iyileşmesi için ilk önce hastalığın iyi bir şekilde anlaşılması gerekmektedir. Osmanlı aydınlarının çoğu ne yazık ki, bu görüşten yoksundular (Arslan 2015: 176).

"Muasırlaşmak", "İslamlaşmak", "Türkleşmek"

Hüseyinzade 1906-1907 yıllarında basılan *Füyuzat* dergisinde Akçura'nın "Üç Tarz-ı Siyaset"inden etkilenerek *"İslam imanlı, Türk kanlı ve Avrupa kıyafetli bir insan olalım."* önerisiyle "Türkleşmek, Muasırlaşmak, Çağdaşlaşmak" düsturunun temelini atmıştır (Ələkbərov 2014: 82). İslam aleminin eğitim, din, hukuk, politika alanındaki sorunlardan kurtulması için Türk kanlı, İslam imanlı ve Avrupa kıyafetli bir fedai gerekmektedir (Turan 2014: 113). Bu bir anlamda üçlü düsturun birlikte kullanıldığı zaman, başarı getireceğine olan inancın göstergesidir denebilir. Yani modern bilim ve teknik bilgiye sahip olan, milliyetçe kendini Türk hisseden, en son din olan İslam'a inanan bir toplumun oluşturulması gerekmektedir.

Gökalp'e göre toplumsal bilincin üç boyutu vardır. Bu ulusculuk, ümmetçilik ve çağdaşlıktır. Toplumsal bilinci yansıtan en önemli ayna dildir. Üç boyutu dile tatbik etmek için dili anlam bakımından çağdaşlaştırmak, terim olarak İslamlaştırmak, dilbilgisi ve yazım açısından Türkleştirmek gerekmektedir (Gökalp 2013: 19). Türklüğü sözcüklerde, menkibelerde, masallarda, destanlarda bulmak ve dağınıklığı gidermek mümkündür. Bununla birlikte İslam'la ilgili kurumların geleneklerini, tarihini iyi bir şekilde incelemek, zamanın tekniklerinden, fenlerinden, felsefesinden yararlanabilmek için bunların da tarihlerini, zamana ve topluma uyumlarını araştırmak gerekmektedir. Uygarlık tarihini öğrenerek fen ve sanayinin nasıl geliştiğini öğrenmek, süreci anlama açısından çok önemlidir. *"O hâlde, bir yandan tarihli ve gelenekli bir ulus olmaya, öte yandan da asıl olarak sanayiye dayanan fenler bulmaya, yöntemlerden sürekli olarak beslenen felsefeler yaratmaya çalışmalıyız"* (Gökalp 2013: 26).

Resulzade toplumsal birlikteliği sağlamanın yolunun bu üçlü düsturdan geçtiğini söylemektedir.

> *"Her bir millet hür yaşayıp gelişme gösterebilir, ancak bu sürecin üç evresi olmalıdır. 1. Dil, 2. Din, 3. Zaman. Dil açısından biz türküz, türklük ise siyasi benliğimiz, milliyetimizdir. Demek oluyor ki; bağımsız Türk edebiyatı, Türk sanatı, Türk tarihi ve Türk medeniyetine sahip olmak yegane amacımız olmalıdır. Parlak bir Türk medeniyeti ise en mukaddes amacımız olarak ışık saçan yıldızımız olmalıdır. Müslüman bir milletiz ve zaman olarak biz teknolojinin, ilim ve fennin mucizeler yaratan bir dönemindeyiz. Demek ki,*

sağlam, emin ve ideal bir görüş vücuda getirmeliyiz. Bu esasın ilkeleri ise: Türkleşmek, İslamlaşmak ve Çağdaşlaşmaktır" (Yagublu 2015: 279, Ələkbərov 2014: 184).

"Üç Tarz-ı Siyaset" makalesiyle Akçura, Osmanlının kurtuluş için hangi yolu seçmesi gerektiği üzerine tartışmakta ve sonucu okuyucuya bırakmaktadır. Bunlardan birincisi "Osmanlı milleti"ni oluşturmaktır. İkincisi bütün İslam topluluklarını kendi etrafında birleştirmeyi amaçlayan yoldur. Üçüncüsü ise Türkçülüktür. Bu eserde, devlete bağlılığın üç temel ilkesinin birbirine uygunluğu ileri sürülmektedir. Düşünür son sözü okuyucuya bıraksa da, Türkçülüğe bir vurgunun olduğu sezilmektedir (Uyanık 2003: 98).

Akçura'ya göre Osmanlı milletini oluşturmak için müslim ve gayrimüslim ahaliye aynı siyasi hakkı tanımak, aynı sorumlulukları yüklemek, fikir ve dinde serbestiyet vermek, eşitliği oluşturmakla mümkündür. Bu mesele daha çok mahalli olup, sadece Osmanlı Devleti tabiyetinde olanları kapsamaktadır (Akçura 2012: 9). Tanzimat'la beraber kozmopolit bir yapıya sahip olan, Osmanlı sosyal yapısı, resmî ideoloji olarak ileri sürülmüş bulunmaktaydı. Yani din, dil, örf, cins, sosyal sınıf farkı olmaksızın her kesin eşit bir duruma geldiği dönem başlamıştı. Bir Osmanlılık görüşü söz konusuydu. Osmanlıcılık sayesinde toplumdaki kargaşa ve ayrılmalar son bulacak, herkes tek bir bayrak altında toplanabilecekti. Bu süreçte hiç kuşkusuz devlet kendi tebaalarına bir takım imtiyaz ve serbestiler verecekti. Eskisi gibi merkez güçlü olmasa da, en azından devletin çöküşü engellenmiş olacaktı. Osmanlı türkleri belki bir yere kadar idarede kendi ağırlıklarını koruyabilecekler ve müslümanlar çok oldukları için yönetimde en fazla yer de onların olacağı için dini etki hâlâ kalkmamış olacaktır. Yani eşitlik sağlanmamış olacaktır (Akçura 2012: 24). Bu görüş Meşrutiyetle de gündeme gelmişti. 1876 *Kanun-i Esasi*'nin en temel amacı hiçbir ayrım gözetmeksizin herkesi bir çatı altında toplamak ve Osmanlı'dan ayrılmaya çalışan tebaaları birlikteliğe itmekti. Ama bu da uygulamada beklenileni vermediği için sonrada din temelli İslamcılık ve milliyet temelli Türkçülük gündeme gelmeye başladı (Uyanık 2003: 96-97).

İkinci görüş olan İslamiyet politikası zaten eskiden beri varolan bir fikrin daha da yaygınlaştırılmasıydı. Özellikle Genç Osmanlı siyasetçi ve şairlerinin sık sık değindiği konu İslamiyet olmuştur. Ama bu Osmanlı tebaası olan gayrimüslimlerin ayrılması anlamına gelmektedir. Çünkü bu görüşe göre "Din ve millet birdir." ve bu yüzden müslüman olmayanların ülkede kalması, devleti zor durumda bırakacaktı (Akçura 2012: 13). Buna rağmen dinin milli şuuru destekleyecek nitelikte olması aydınlar tarafından kabul edilmektedir. Dil milletin oluşmasında önemli yere sahip olsa da, ona yardım edecek unsurlarından biri dindir. Bu görüşü destekleyen Resulzade, dini Türklük şuurunun oluşmasında önemli etkenlerden biri olarak görmektedir (Ələkbərov 2014a: 254).

Batı ülkelerinin birlikteliğine neden olarak Hristiyanlığı gören Hüseyinzade, İslam'ın bu görevi daha iyi bir şekilde yerine getirebileceği görüşündedir (Turan 2014: 110). İslam faktörü Akçura'ya göre de, her zaman en önemli etkenlerden biri olarak kalacaktır. Osmanlı zayıf döneminde bile, müslümanları kendi bayrağı altında toplayabilme ihtimali vardır. Ama müslüman ülkelerin büyük kısmının hristiyan devletlerin boyunduruğunda olması, karşılaşılan en büyük sorun olarak görülebilir (Akçura 2012: 35). Bu yüzden Osmanlı devletinin İslam birliğini kurmaya çalışmasına hemen engel olmaktadırlar. Gökalp de milletleşme sürecinde toplumun fertleri arasında bir dayanışmaya ihtiyac olduğunu belirtmektedir. Bunu din aracılığıyla kolay bir şekilde gerçekleştirmek mümkündür. Siyasi olarak değil, manevi veya kültürel olarak fertlerin ümmet çatısı altında yaşamasında bir sakınca olamazdı (Türkdoğan 1998: 257).

Ali Hüseyinzade üç düsturun ayrı ayrılıkta kullanılmasından yana olmadığını belirtmektedir. Bu dönemde tüm türk ve müslümanların ihtiyacı olan şey birliği sağlamaktır. Bunun için din en önemli etkenlerden biri olarak karşımıza çıkmaktadır. Çünkü İslam coğrafyasında yaşayan çoğu kişinin Müslüman olduğunu düşünürsek demek ki, bu kavimlerin bir ortak noktası vardır. Bu süreçte sünni, şii gibi ayrımcılığa gerek yoktur. Yegâne amaç varoluşu sürdürmektir ve bu dayanışmayla gerçekleşmektedir. Bizim üzerimize düşen bu birlikteliği oluşturmak ve cahilliğe bir çare aramaktır. Birbirimizi tanımak, sevmek ve medenileşme yolunda yardım etmek önümüzdeki en önemli meseledir (Turani 2015: 193).

Osmanlıcık ve İslamcılık üzerine uygulanan politikaları ve onun sonuçlarını eleştiren Akçura, ırk üzerine dayanan bir fikir ileri sürmüştür. Bir Türk birliğinin oluşturulması hedeflenmektedir. Bu sayede hem Türkler, hem de türkleşmiş toplumlar birleştirilecektir. Türklük sayesinde Osmanlı'da yaşayan müslüman olan ve olmayan Türklerle beraber, Türk olmadıkları hâlde türkleşmiş müslüman unsurların birlikteliği gerçekleşecekti. Burada Türklük, devletin niteliğini belirleyen bir üst kimlik olarak karşımıza çıkmaktadır. Kültürel zenginlikler, farklılıklar birlik ilkesi altında toplanacaktır (Uyanık 2003: 113).

Siyasi inkılapla beraber içtimai bir inkılabın da gerekli olduğu görüşünü benimseyen Gökalp'e göre, yeni bir hayat tarzına ihtiyaç vardır. Yeni bir iktisat, yeni bir estetik, yeni felsefe, yeni ahlak, yeni hukuk oluşturulmalıdır. Bunun için yapılması gereken şeylerin başında Türk milletinin büyüklüğünü idrak etmek ve günün şartlarına boyun eğmemek, Türk milleti'ni İslam'dan ayrı düşünmemek, Batı Medeniyeti'ne tam olarak girmek, içtimai bir yöntem benimsemek, Türk tarihi ve harsını başlangıçtan itibaren iyi bir şekilde araştırmak, Türk milleti'nin tarihî gelişimine uygun olarak mefkûreyi bulmak lazımdır. Bunlar sayesinde bize has olan özelliklerin tesbiti, millî ve yerli kalmanın

yollarının bulunması, bunlara dayanarak bize yararlı olacakları yeniden oluşturmak gerekmektedir (Bolay 2013: 381). Gökalp I. Dünya Savaşı sırasında gelişen fikir akımları olan gerçek İslamlaşmayı, Türkçülerin Türkçülüğünü, laik toplum isteyen muasırlaşmayı, sosyolojik bir yorumla uzlaştırma ve sistemleştirme girişiminde bulunmuştur (İnalcık 2000: 14).

Medeni bir toplum olmak için gerekli olan unsurlar milliyet, beynelmilliyet ve asriliktir. Milliyet için dil en önemli faktörken, beynelmilliyet için din, asrilik için de dönemin ülum ve fününu gereklidir. Bu yüzden Resulzade, millî varlık, dinî realite ve çağdaşlığın millî mefkûre için gerekli olduğunu belirtmektedir. Yani halk kendini tanımalı, dinini bilmeli ve korumalı, dünya medeniyetine sahip olmalıdır. Bunun için tüm etkenlerin halka öğretilmesi gerekmektedir (Ələkbərov 2014a: 181). Millet kendi millî varlığını korumak için kendini tanımalı, türklüğünü muhafaza etmeli, yani, türkleşmeli, içerisinde olduğu inanç sistemine bağlı kalmalı yani, islamlaşmalı, o günün şartlarına uygun olarak yaşamalı ve gelişmeli yani, muasırlaşmalıdır (Turan 2014: 388).

İhtiyaç duyulan bu üç akımın birlikte uygulanmasını gerekli gören Gökalp, Türkçülüğün bir toplum olduğu, İslamcılığında topluluk olduğunu söyleyerek bunların birlikte geliştirilmesinde hiçbir sakıncanın olmadığını belirtmektedir. Çağdaşlaşmak da Avrupalılar gibi otomobil ve uçak yapmak, bilimle uğraşmak olduğundan, bu sürece engel teşkil etmemektedir (Gökalp 2013: 15). Bu üç düsturun birbirine engel olmadığı görüşünü benimseyen düşünür, bunların birlikte uygulanmasıyla medeni bir millet olunabileceğini savunmaktadır.

Din ve milliyetin ruhi bir ihtiyaç olduğunu belirten Günaltay, milliyetin temellerini teşkil eden etkenler arasında en feyizlisinin din olduğunu söylemektedir. Çünkü milliyet müşterek duygular, mefkûreler etrafında toplanan ve dayanışmaya açık bir zümre anlamına gelmektedir. Bu müşterek duyguların mukaddes kaynağı dindir. Din mefhumundan yoksun olan bir milliyet etkisiz ve soyut hâlde kalmaya mecburdur. Demek ki, din milliyetin esas unsurlarından biridir. Muasırlaşmak bu hayatın vazgeçilmez ihtiyaçlarındandır. İlerlemiş milletler arasında kendi varoluşunu sürdürmek isteyen milletin asrileşmesi zorunludur. Muasırlaşmak bizi dini ve milli duygularımızdan uzaklaştırmaz, aksine onu daha çok artırır. Bu süreçte kendi millî ve din3i değerlerimizden vazgeçersek, ölürüz. Bu yüzden muasırlaşmak için asrın teknik ve fenlerinden, felsefesinden, sanayi ve sanatlarından yararlanmak gerekmektedir. Türkleşmek, İslamlaşmak ve Muasırlık ayrı ayrı ihtiyaçlardan doğmuş olsa da, hiç biri diğerinin yerini tutamamaktadır. Çünkü din ve milliyet ruhi, asrilik ise maddi yaşamımızı etkilemede üstün durumdadır. Bizim için kurtuluş Türk-İslam kültürü dâhilinde muasır bir medeniyet yolunu tutmaktır (Günaltay 2011: 1074-1075).

Anamın Kitabı

Memmedguluzade *Anamın Kitabı* eserinde bu amaç doğrultusunda yarattığı karakterler üzerinden süreci tasvir ederek onun toplum tarafından benimsenmesini sağlamaya çalışmaktadır. Eserde muasırlığın göstergesi olarak Rusya'da eğitim görmüş Rüstem Bey verilmektedir. Onun giyim tarzı, duruşu, tutumu ve konuşma esnasında sık sık kullandığı Rusça kelimeler Batı tipli bir aydını anımsatmaktadır. İran'da eğitim görmüş diğer karakter olan Mirza Muhammedali din ağırlıklı yorumları ve tavrıyla bir anlamda İslam'ı temsil etmektedir. İstanbul'da tahsilini yapmış Samet Vahid ise aldığı eğitim sisteminin ve bu süreçte yaşadığı toplumun etkilerini gözler önüne sermektedir (Məmmədquluzadə 2004: 437). Kardeşlerin bir de Gülbahar isimli küçük kız kardeşleri vardır. Eserin genelinde halkın içinden çıkmış ahlaklı, okur-yazar biri olarak verilmektedir. Yazar yer yer kardeşlerinin verdikleri kararlara karşı çıkmama ve kendi görüşlerini söylemede Gülbahar'a çekingenlik gibi tavırlar yükleyerek dönemin gençlerinin karşılaştığı sorunları göstermektedir. Bu sayede yazar gençlerin geçmiş ve muasırlık arasındaki yetersiz kalışına gönderme yapmaktadır. Toplumdaki mevcut değer sistemlerini aydınların yönlendirmesiyle muasırlıkla birleştirebilme ve geleceği farklı bir şekilde inşa etme olanağına sahip olan gençlerden kurtuluş beklenmektedir.

Eserdeki anne Zehra beyim hanım bir nebze vatanı sembolize eden anne karakteridir. Onun yaşamı oğullarına bağlıdır. Üçüne de ihtiyaç duyduğunu durmadan vurgulayan anne onların birbirlerinden ayrılmalarına ve evi terk etmelerine tahammül edemez. Zehra beyim kardeşlerin ayrılmaması gerektiğini durmadan tekrar etmektedir (Məmmədquluzadə 2004: 468). Birliktelik sayesinde iyi işler yapılabileceğini ve ailenin güçlü olacağına işaret edilmektedir. Gülbahar ailenin tüm bireylerini sevse de, anne bu sıranın en başında gelmektedir. Kız bu rolüyle bazen halkı da temsil etmektedir. Onun annesi için elinden gelen herşeyi yapmaya çalışması ve gerektiğinde kardeşlerine karşı takındığı tavır buna en bariz örnektir.

Anne üç oğlunun birbiriyle anlaşamamalarını acı bir şekilde izlemekten başka bir şey yapamıyor. Çünkü erkek kardeşlerden hiçbiri kendi düşüncesinden taviz vermemektedir (Məmmədquluzadə 2004: 449). Yazar burada kendi görüşlerinden taviz vermemenin önemli olduğunu söylemektedir. Ama bununla birlikte bu tavırların verebileceği zararı da gözler önüne sermektedir. Eğitimli olmalarına rağmen hiç kimse diğerini ciddiye almamaktadır. Bu aile içerisindeki birlikteliği yıpratmakta ve zayıflatmaktadır. Yazar bu şekilde toplum için gerekli olan Türkleşmek, İslamlaşmak ve Muasırlaşmak'ın bizim için birlikte yararlarını belirtmekle kalmamış, hatta buna olan ihtiyacımızı vurgulamıştır.

Toplumun kurtuluşu için gerekli görülen üçlü düsturun önemi halka ayrdınlar aracılığıyla daha iyi anlatılabilmektedir. Bu âdeta onların en önemli görevleri olarak görülmektedir. Nitekim aydınlar toplumun geri kalmasını kendi hataları olarak görmektedirler (Balcı 2002: 298). Eserlerde aydınlar, halkı bilgilendirme sorumluluğu yüklenen kişiler olarak verilmiştir. Halk genel anlamda bilgisiz olarak verildiği için medenileştiğine inanan aydın tarafından bu bilgisizlikten kurtarılması gerekmektedir (Balcı 2002: 299).

Aydınların en önemli görevleri kalkınma ve birlikteliği sağlamanın metotlarını kendi halkına öğretmesidir. Ama dönemin aydınlarının hepsinin konuyla ilgili farklı görüşleri vardır. Aydınların kendi toplumunu iyi bir şekilde tanımamaları mevcut durumun ne kadar kötü olduğunu gözler önüne sermektedir. Memmedguluzade de eserde hayırseverler cemiyeti toplantısıyla bu durumu eleştirmektedir. Cemiyetin açılış konuşmasında Rusça konuşulmasının bazıları tarafından sert karşılık görmesi buna örnek teşkil etmektedir. İtirazlara göre eğer Müslüman bir toplum için bir şeyler yapmak gerekiyorsa, herkesin anladığı dilde konuşulması daha uygun olmaktadır (Məmmədquluzadə 2004: 450). Rusça konuşulmasına itiraz eden İran ve Osmanlı'da eğitim görmüş kesim de, kendi konuşmaları zamanı eğitim gördükleri dilde konuşma yaparak, kendi alanlarından örnekler vermektedirler. İşin en kötü tarafıysa halkın yararlanması amacıyla yapılan bu toplantılarda halkın konuşulanları anlayamamasıydı (Məmmədquluzadə 2004: 452-454).

Dönemin yazılan kitaplarına eserde sözlük üzerinden eleştiri yapılmaktadır. Rusya'da eğitim görmüş Rüstem Bey hazırladığı yeni sözlükte daha çok Batı toplumlarından esinlenerek geliştirdiği kelimelerin yazılmasını ve anlatılmasını yeğlemekteyken, İran'da eğitim görmüş kardeşi Mirza Muhammedali hazırlanan bu sözlükteki kelimeler için Doğu'ya özgü yorumların da ilave edilmesini önermektedir (Məmmədquluzadə 2004: 440-441).

Aydının kendi halkına karşı yabancı kalmasında en büyük etkenlerin başında aldığı eğitim ve etkisinde kaldığı akımlar gelmektedir (Balcı 2002: 206). Rüstem Bey de annesine eğitim aldıkları alanlar ve okudukları kitaplar nedeniyle kardeşlerin birbiriyle anlaşamadığını itiraf etmektedir (Məmmədquluzadə 2004: 468). Bu bir anlamda sorunun farkındalığını gözler önüne sermektedir. Ama buna rağmen kardeşler kendi tutumlarından taviz vermemekte ısrarcıdırlar. Yazar bu tutumun aileye zarar verdiği gibi, toplumu da yıpratacağına işaret etmektedir.

Anne, çocukların evden ayrılmak istemeleri nedeniyle hasta durumuna gelmiştir. Zehra Beyim, kızına babalarından kalma bir kitabı vererek onun değerini anlatır. Gülbahar, annesinin ona verdiği kitabı okuyarak kardeşlerin Zehra Beyim'in bir parçası olduğunu ve onların düşmanca tavırlarının annelerini kötü etkilediğini söylemektedir (Məmmədquluzadə 2004: 475).

Babanın kitaptaki en önemli mesajı evlatların nerde olursa olsun, en sonda annelerinin yanında olmaları gerektiğiyle ilgilidir (Məmmədquluzadə 2004: 475). Yani ne olursa olsun kardeşlerin birlikte olması ve annelerinin yanında bulunmaları onların görevleridir. Bu görevleri kimse ihmal etmemelidir. Kişinin kendi vatanı ve toplumuna bağlılığını unutması feci şekilde bedel ödemekle sonuçlanabilmektedir.

Sonuç

Bütünlüğün sağlanması için gerekli olan Türkçülük, İslamcılık ve Muasırlık ayrı ayrılıkta da olsa dönemin aydınları tarafından kurtuluş düsturu olarak benimsenmiştir. Bu sentezci görüş sadece toplumdaki Türk olan milletleri değil, dini ve siyasi görüşü farklı olan fertleri de kendi etrafında birleştirme potansiyeline sahip olduğu için, yaygınlaşmıştır. İslam'ın kabulünden sonra Türkler için manevi yaşamın neredeyse tek dayanağı olan İslam, her zaman kendi etkisini göstermiştir. XIX'uncu yüzyılın ilk çeyreğinden itibaren yenilgi ve gerilemenin önüne geçmek için benimsenen Muasırlaşmak ilkesi, ilk zamanlar seçkinler tarafından, daha sonra halk tarafından kabul gören prensip olarak görülmektedir. Bir anlamda Batı'da başlayan milliyetçilik akımının etkisiyle oluşan Türkçülük görüşü, millî kimlik bilincinin oluşmasındaki en önemli etken olarak algılanmaktadır. Bu düsturların, ayrı ayrılıkta tercih edilmesinin toplum açısından bir yararının olamayacağı görüşü neredeyse bütün aydınlar tarafından desteklenmektedir.

Memmedguluzade bu eseriyle dönemin en önemli üç aydın tiplemesini ortaya koymaktadır. Eserde üçlü formülün hepsinin gerekli olduğuna işaret edilmekle birlikte, aydınların halkı eğitmesi gereken kişiler olduğu da vurgulanmaktadır. Onların önderliğinde halk toplumdaki değer sistemlerinin kökenini oluşturan milli ve dini kimliğini anlayabilecektir. Dönemin en önemli ihtiyacı olarak görülen muasırlaşmakla toplumun sürekliliğini sağlanmış olacaktır. Yazar bir anlamda sentezci aydın tiplemesinin gerekliliğine dikkat çekmektedir. Toplumun kurtuluşunu, refahını ve kalkınmasını amaç edinen aydınların ilk önce kendi toplumlarını tanıması gerekmektedir. Bu yüzden yazar halkı dinlemenin önemini ve konuşmaların mümkünse onların anlayabileceği tarzda olmasına dikkat çekmektedir. Memmedguluzade Azerbaycan'daki bir aileden örneklemeyle üçlü düsturun toplum için ne kadar önemli olduğu belirtmektedir. Azerbaycan genci en çok Rusya, Türkiye ve İran'dan etkilendiği için yazar eserinde eğitim yerleri olarak bu ülkeleri vermiştir. Rusya'da eğitim görmüş Rüstem Bey "intelligent" olarak tasvir edilmekte ve onun kendi ailesinin yapısı da Batı tarzında gösterilmektedir. İran'da eğitim almış Mirza Muhammedali daha çok din ve Doğu'yu temsil etmektedir. Onun yorumları, giyimi ve okuduğu kitaplar skolastik görünüme sahiptir. Türkiye'den gelmiş üçüncü oğul Samet Vahid dönemin Osmanlı aydınını gözler önüne sermektedir.

Milliyetçilikle birlikte edebiyata duyulan ilgi onun karakterinde verilmiştir. Eserdeki tüm karakterleri değerledirdiğimizde Rüstem Bey Muasırlık, Mirza Muhammedali İslamcılık, Samet Vahid ise Türkçülüğe denk gelmektedir. Gülbahar ise en sondaki tavrı ve kardeşlerine karşı gelmesiyle Ali Hüseyinzade'nin aradığı fedaiyi anımsatmaktadır. Yazar bir anlamda Hüseyinzade'nin "Türk kanlı, İslam imanlı ve Avrupa kıyafetli bir fedai" görüşünü bu eserde yorumlamıştır.

Bir anlamda sentezci bir görünüme sahip olan üçlü düstur sayesinde toplumun bütünlüğü ön plana çıkarılmış, ferdî gelişim de bunun bir parçası konumuna indirgenmiştir. Bu süreçte dönüşümün öncüsü olarak dönemin aydın kesimi görülmektedir. Özellikle Rusya, Avrupa ve Türkiye'de eğitim görmüş bu grubun toplumun mevcut değer sistemlerini iyi bir şekilde benimsemesi gerekmektedir. Çünkü halka ulaşmanın yolu dini ve milli değerleri bilmekten geçmektedir. İhtiyaç duyulan dayanışma, pekişme ve birliktelik için üçlü düstur, bütünlüğü hem maddi, hem de manevi anlamda sağlamanın tek yolu olarak görülmektedir.

Kaynaklar

"Bir Tarz-ı Siyaset" (2015). *Üç Tarz-ı Siyaset ve Tartışmalar*. Haz.: T. Arslan. İstanbul: BKS Yayınları.[1]

Akçura, Yusuf (2012). *Üç Tarz-ı Siyaset*. Haz.: O. Bensoy. Ankara: Kilit Yayınları.

Balcı, Yunus (2002). *Türk Romanında Aydın Problemi(1908-1950)*. Ankara: Kültür Bakanlığı Yayınları.

Bolay, H. Süleyman (2015). "Mehmed Ziya Gökalp". *Tanzimat'tan Günümüze Türk Düşünürleri Cilt-1,* Ankara: Nobel Yayınları.

Ələkbərov, Faiq (2014). *Milli İdeologiya Probleminə Tarixi-Fəlsəfi Baxış II*. Bakı: YYSQ.

----- (2014a). *Məhəmməd Əmin Rəsulzadənin Dünyagörüşü.* Bakı: YYSQ.

Gökalp, Ziya (2013). *Türkleşmek, İslamlaşmak, Muasırlaşmak*. İstanbul: Anonim Yayınları.

Günaltay, Şemseddin (2011). "Geçmişten Geleceğe". *Türkiye'de İslamcılık Düşüncesi: Kişiler ve Metinler II,* Haz.: İ. Kara. İstanbul: Dergâh Yayınları.

İnalcık, Halil (2000). "Ziya Gökalp Yüzyıla Damgasını Vuran Düşünür". *Doğu Batı Düşünce Dergisi 12*: 9-35.

Məmmədquluzadə, Cəlil (2004). *Anamın kitabı*. *Əsərləri: I Cild (Nəsr, dram əsərləri, satirik şeirlər, tərcümələr)*. Haz.: İ. Həbibbəyli. Bakı: Öndər Nəşriyyat. asdf asdf asdf asdf asd

[1] Yazının kime ait olduğuyla ilgili belirsizlik olduğundan hazırlayan, kitabında isim vermemiştir.

Turan, Azər (2014). *Əli Bəy Hüseynzadə: həyatı, mübarizəsi, yaradıcılığı, şəcərəsi*. Bakı: Letterpress.

Turani, A. (2015). "Mektub-ı Mahsus". *Üç Tarz-ı Siyaset ve Tartışmalar*. Haz.: T. Arslan. İstanbul: BKS Yayınları.

Türkdoğan, Orhan (1998). *Ziya Gökalp Sosyolojisinin Temel İlkeleri*. İstanbul: MÜ İlahiyat Vakfı Yayınları.

Uyanık, Mevlüt (2003). *Üç Tarz-ı Siyaset: Bir Üst Kimlik Tasarımı Olarak Türkiyelilik*. İstanbul: Metropol Yayınları.

Yagublu, Nesiman (2015). *Mehmet Emin Resulzade Ansiklopedisi*. Çev.: T. Kırhan-N. A. Ünal-S. Önal. Ankara: AKD Yayınları.

MÜCADİLƏDƏN DOĞAN ƏDƏBİYYAT

*Ərkinaz RƏSULZADƏ**

Giriş

XX-ci əsr Azərbaycan ədəbiyyatına bir sıra töhfələr vermiş və onun tarixinə salnamə yazmağı bacaran mütəfəkkirlər yetişdirmişdir. Cəlil Məmmədquluzadə və Əli bəy Hüseynzadənin başçılığı ilə formalaşmış *Molla Nəsrəddin*, *Füyuzat* kimi jurnallar, M. Hadi, Ə. Cavad, H. Cavid, M. Müşfiq kimi ədiblərin yaradıcılıqları milliliyi, türkçülüyü özündə ehtiva etməklə xalqın milli şüurunda istiqlaliyyət toxumlarını səpmişdi.

I. AXC-nin yaranmasının və süqutunun ədəbiyyata təsiri

Ədəbi yolla başlayan mübarizənin sonunda 1918-ci ilin mayın 28-də Məmməd Əmin Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyətini yaratmağa müvəffəq oldu. Belə ki, uzun illər boyu tək diləyi millətinin imzasını imzalar içrə görməyi arzulayan *M. Hadinin* vəsiyyəti yerinə yetmiş, istiqlaliyyət toxumları çiçək açmışdır. AXC-nin yaranma sevinci ən gözəl, həssas bədii ifadəsini Əhməd Cavad yaradıcılığında özünü göstərmişdir. Yaşar Qarayev də qeyd etmişdir ki, Üçrəngli poeziya bədii yaddaşa hamıdan əvvəl Əhməd Cavadın qələmi ilə həkk olunmuşdur (Qarayev 2005: 10). O, "Can Azərbaycan", "Al bayraq", "Mən bulmuşam" kimi şeirlərində azadlığa qovuşan millətinin səmimi duyğularını zəngin poetik dillə təsvir etmişdir. *Azərbaycan ruhunun həssas tellərinə təsir dərəcəsini əks etdirən milli şair* (M, Ə. Rəsulzadə 1991, 65) Əhməd Cavad yaradıcılığının əsasını "Azərbaycan" əsəri təşkil edir ki, bu şeir dövlət himni səviyyəsinə qədər yüksəlmiş, *"Səndən ötrü can verməyə cümlə hazırız", "Sənə hər an can qurban"* kimi misraları isə hər bir vətəndaşın vətən qarşısında verdiyi sözü, içdiyi andı xatırladır.

1920-ci ilin aprelində SSRİ tərəfindən Vətənin azadlıq imzası imzalar içrə silinmiş, Cümhüriyyət nəğmələrinin yerinə *Vətən ağıları* yazılmışdır. SSRİ-nin AXC-ni süquta uğratması Mirzə Bala Məmmədzadə, Əbdül Vahab

* Bakı Dövlət Universiteti. Filologiya fakültəsi-Azərbaycan ədəbiyyatı tarixi kafedrasınındoktorantı; arkinaz.rasulzadehh@mail.ru

Yurdsevər, Kərim Odər, Ceyhun Hacıbəyli kimi görkəmli şəxsiyyətlərin öz vətənlərindən ayrı düşməsinə və mübarizələrini həm mədəni kulturoloji, həm də siyasi yolla Türkiyədə davam etdirmilərinə səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, hələ 15-ci əsrdə də *Gülşəni, Qəribi, Xəlili, Niyazi, Həbibi, Süruri, Bəsiri, Bidari* kimi şairlərimiz Osmanlı dövlətinə mühacirlik etmişdilər.

M. Ə. Rəsulzadə, A. İldirim, Əhməd Cəfəroğlu, Əhməd Ağaoğlu kimi *xalq fədailəri* vətəndəki ictimai- siyasi vəziyyəti izləmiş, öz həmvətəndaşlarının halına ürək yandırmış, əsla hüriyyət eşqindən əl çəkməmiş, *bir dəfə yüksələn bayrağı bir daha qaldırmağa* səy göstərmişdilər. M. Ə. Rəsulzadə totalitar rejimin Azərbaycanda yaratdığı siyasi vəziyyətə *Çağdaş Azərbaycan Ədəbiyyatı* əsərində *dəmir pərdələr arxasındakı hadisələr* adlandırmış, həmçinin, o, müstəmləkəçiliyin ədəbiyyata göstərdiyi təsiri və mühacir yoldaşlarının vətəndən uzaqlaşmasını bu sözlərlə ifadə etmişdir: *Ədəbiyyat bu həyəcana tərcüman olur, milli istiqlal günlərinə yaxınlaşmanın şövq və sevinci içində yaşayır, böyük ümidini bütün həssaslığı ilə tərənnüm edirdi. Indi soyuq Sibirin uzaq tundralarında, sovet cəlladlarının vəhşi işgəncələrinə dəvam gətirməyərək, Vətən mücahidlərinin bəxtinə düşmüş* (Rəsulzadə 1991: 59).

Türkiyəyə mühacir edən bir sıra ziyalılar məhz, M. Ə. Rəsulzadənin başcılığı altında *1924-cu ildə İstanbulda* əsasını qoyduğu "Azərbaycan Milli Mərkəzində" vahid şəkildə birləşmişlər. Mirzə Bala Məmmədzadə də bu hadisəni öz xatirələrində bölüşmüş və qeyd etmişdir ki, M. Ə. Rəsulzadənin gəlişinə qədər Azərbaycan mühaciratı pərişan halda olmuşdur. AXC-nin süqutu onları nə qədər məyus etsə də əsla ruhdan salmamış, istiqlaliyyət alovunu daim qəlblərində əbədi məşəl kimi yandırmışlar. Rəsulzadənin "Mayıs duyğuları" şeiri onların mübarizəsinin bədii ifadəsi olmuş, birbənbirə qışa dönən baharın, quzeydən qopan qasırğanın gətirdiyi fəlakət, axıtdığı qızıl qan "Hürriyyət" fikrinə candan vurulmuş millətin gözünü əsla qorxuda bilməyəcəyini, mütləq işıqlı baharın yenə bu torpaqlarda istiqlaliyyət toxumlarını səpib öz bəhrəsini göstərəcəyini düşmənə od kimi püskürürdü.

Şiddətliysə əgər mövsümün qışı,
Yeni bahar demək partlaq olacaq,
Verdiyimiz qurbanların bahası
Bizə yalnız hürriyyətlə dolacaq.

Bu misralar bir daha onu göstərir ki, *"Mayıs duyğularını Hüriyyət nəğməsi, yaxud da uğrunda hər an canından keçməyə hazır olan əsgərin vətən marşı adlandırmaq olar."*

Bəzi şairlərin vətən həsrəti, qəlb fəryadları da misralarında ən həssas poetik incəliklə kədər motivləri əsasında öz əksini tapmışdır. Almas İldırımında faciəli taleyi onun yaradıcılığının mövzu mənbəyi olmuşdur. 1930-cu ildə *Dağlar səslənirkən* adlı kitabı nəşr olunduqdan sonra totalitar rejim Vətəni

ona dar etmiş daha sonra Türkmənistana sürgün edilmişdir. Lakin burada da tale onun üzünə gülməmiş, İrana gedərkən sərhədçilər tərəfindən həbs olunmuş və ağır işgəncələrə məruz qalmışdır. A. İldırımın "Bilməm ki", "Yurd həsrəti", "Qurban ola bilsəm", "Qürbətdə", "Qara dastan" kimi şeirləri şairin ah naləsini, vətən yanğısını bütün ellərə çatdırmağı öz qarşısına məqsəd qoymuşdu. Vətəndən ayrı düşmüş şairin "Əsir Azərbaycanım" şeiri də özünəməxsusluğu ilə seçilmiş, düşmən əsarəti altında qalmış vətənin dilindən deyilmiş ağı kimi səslənmişdir.

II. Sosialist realizminə qarşı istiqlal mücadiləsi

Mübarizə vətəndə isə 1960-70-ci illərdə yeni gələn ədəbi nəslin yaradıcılığında daha da qüvvətləndi. Sovet hakimiyyətinin müstəmləkəçilik siyasəti Azərbaycan ədəbiyyatını susqunluğa məhkum etmiş, 37-ci il repressiyalarından sonra isə ədəbiyyatımızın milli ruhu tamamilə sosialist realizminin əsirinə çevrilmişdi. 1960-ci ildən isə ədəbiyyatımızın rezenans dövrü başlayır. Ə. Cavadın "Səsli qız", H. Cavidin *Peyğəmbər, İblis* kimi əsərlərindəki mübariz ruhun, ictimai-siyasi vəziyyətin güclü poetik lövhələrlə təsviri, azadlıq idealının məntiqi davamı B. Vahabzadə, X. Rza, M. Araz R. Rövşən, V. Səmədoğlu kimi şairlərin yaradıcılığınlarında öz bədii əksini tapmışdır. Onlar milli ideologiyaya, ruha bürünən ədəbi nümunələr yaratmaqla, Sovet ideologiyasına müxalif çıxır, streotiplərə, sosialist ənənlərinə qarşı qələmlərinin gücü ilə mübarizə aparırdılar. *"Eyni zamanda, paralel olaraq yeni bir nəsil ədəbiyyata gəldi ki, bu, yalnız adi nəsildəyişmə prosesi yox, bədii-estetik hadisə idi və söhbət ayrı-ayrı yazıçıların yaxşı, ya pis yazmağından yox, yaxşısı və pisi ilə bərabər, bədii təfəkkür yeniliyindən, sosrealizm müddəalarına münasibətdə yardıcılıq tipajının dəyişməsindən, istedadın daxili azadlıq əldə etməsindən gedirdi"* (Elçin 201: 57).

Yeni ədəbi prosesin məhsulu olan poetik nümunələr sosialist realizminin daşlaşmış qəliblərinə sığmır, forma və məzmun cəhətdən yeniliyə məcbur olan bu lirikanın bədii-estetik quruluşu, teması, strukuturu, ahəngi, harmoniyası dəyişilirdi. Bu fərqlilik get gedə özünü bariz şəkildə birüzə edir, yeni dövrün bədii mövzusu "Böyük İmperiyanı"nın təşvişinə səbəb olurdu. Süqut yolunda irəliləyən sosialist realizminin əvvəlki qüdrətini artırmaq üçün mənşəyi daha qədim köklərlə əlaqələndirilir, teztez sosialist realizminin "bətn dövrü" adı altında müzakirələr aparılır, "qnseoloji kökləri" gah maarifçi realizmdə, gah da tənqidi realizmdə axtarılırdı.

1972-ci ilin oktyabr ayında "Sovet Şərqi ədəbiyyatlarında realizm problemləri"nə həsr edilmiş ümumittifaq müşavirəsi keçirilmiş və sosialist realizminin" tarixi" kökləri araşdırılmışdır. Burada maraqlı cəhət sosialist realizminin inkişaf mərhələsi olmuşdur. A. İ. İezuitova, A. İ. Ovçarekonko isə

sosialist realizminin inkişaf mərhələsini mərhələlərə ayırmış, birinci mərhələ 1917-1934-cü illə qədər davam etdiyini qeyd etmişdilər. K. Quliyev də *Ədəbiyyatımızda sosialist realizmi* adlı kitabında bölgünü bu formada aparmışdır. *"Birinci mərhələ – Azərbaycan ədəbiyyatında sosialist realizminin başlanğıc mərhələsi 1920 ci ilin aprelinədək davam edir. Bu dövrdə M. Ə. Sabir, C. Məmmədquluzadə, S. Musəvi, S. Səlmasi kimi yazıçıların yaradıcılığında sosialist realizminin təməl daşları qoyulur"* (Quliyev 1988: 23). Müəllif 1989-cu ildə çıxan sosialist realizmi tematik elmi məcmuəsində "Azərbaycan ədəbiyyatında sosialist realizminin mənşəyi adlı" məqaləsində də 1917-1920-ci illər aralığını "Azərbaycan inqilabi proletar ədəbiyyatı" kimi dəyərləndirirdi. Burada diqqət çəkən məqam isə sosialist realizminin ilk mərhələsinin məhz 1917-ci ilə qədər aparılması və həmin vaxtdan 1920-ci ilin aprel ayınadək olan dövrü *"inqilabi proletar"* ədəbiyyat kimi təqdim edilməsi idi.

Əslində, bu zaman kəsiyi Azərbaycan tarixində özünəlayiq ad qazanmış *müstəqillik dövrü ədəbiyyatı* idi. Sosializm bu şəkildə tarixi pərdələməklə milli ədəbiyyat irsini silməyə, Azərbaycan Xalq Cümhuriyyəti dövrünü xalqın milli şüurundan, müstəqilliyi milli ruhdan qoparmağa çalışırdı.

Bütün bu cəhdlərə baxmayaraq, 60-cılar nəsli milli ədəbi ənənələri yenidən öz əsərlərində yaşatdılar. Qeyd etmək lazımdır ki, Elçin *Sosrealizm bizə nə verdi* adlı əsərində 60-cılar nəslinin mübarizəsini Molla Nəsrəddinçilərə bənzətmiş və qeyd etmişdi ki, onların əsərləri daxili senzura ilə bədii estetik mübarizədə qalib gəlmiş, formaca milli, məzmunca milli ədəbi nümunələr yaradılmışdır (Elçin 2010: 35).

III. Vətən mövzusunda yazılan ədəbi nümunələr

Həmin dövrdə Vətənnin ictimai siyasi vəziyyəti əsasən 3 aspektdə: 1) Təbiət mövzusu fonunda, 2) Başqa ölkələrin ictimai siyasi vəziyyətinin təsviri əsasında və 3) Bir başa vətənin dərdli günlərinin, ağır vəziyyətinin bədii ifadəsində özünü göstərirdi.

Təbiət mövzusu əsasında yazılan ədəbi nümunələrdə təbiətdəki hadisələr fonunda Vətənin şərti metaforik obrazı yaradılır, bunun vasitəsilə dövrün, zamanın insanlarının vətənlə bağlı subyektiv mülahizələri öz əksini tapırdı. Burada ki, lirik mən yaralı vətəndaş, azadlıq, müstəqillik arzularını qəlbdə məşəl kimi yandırır və onların odlu, alovlu etiraz səsi yaratdıqları misralarda öz bədii inikasını tapırdı. B. Azəroğlu "Dəniz və günəş", "Duyğular müxtəlif olanda", "Tufanda quşlar uçur", H. Hüseynzadə "Qoz ağacı", "Qızılquş", Əliağa Kürçaylı "Söyüd", "Meşənin sükut dolu qucağında durmuşam", "Dəmirağac" kimi şerilərdə Xəzərin, ceyranın, ağacların mübarizəsi ilə şairin xəyalındakı Vətən torpağının azadlıq uğrunda mücadiləsi arasında assosiasiya yaradılmışdı. Burada istifadə olunan ceyran, qızıl quş, qoz ağacı, dəniz və s.

kimi şərti obrazlar təsadüfən yaranmamışdı. Onlar şairin vətənpərvərlik duyğularını, vətənlə bağlı qayğılarının bədii ifadəsi idi. Məmməd Araz "Qonun əllərimə yorulanda siz" şeirindəki *"Mən yaxşı bilirəm azadlıq nədir, Torun ləzzəti də tanışdır mənə"* misralarına nəzər yetirsək görərik ki, şairin azadlıqla bağlı daxili təlatümləri şeirin ritmində, ahəngində, bədii- estetik ideasında öz əksini tapmışdı. Məmməd Arazın yaratdığı lirik mən həm şair şəxsiyyətinin bədii inikasıdır ki, onun subyektiv mülahizələrini şeir dili ifadə edir, həm də bütöv millətin daxili əzablarının fəryad səsidir. Situasiyaya eyni aspektdən yanaşmanı biz həmçinin, Famil Mehdinin "Qartalın ölümü", Qabilin "Yay tonqalı", Mədinə Gülgünün "Kaş ki durna olardım" Davud Ordubadlının "Bahar", "Sınmış ağac", "Sahilin təmkini" kimi şeirlərində görürük və bu ədəbi nümunələrn dil- üslub xüsusiyyətlərinə nəzər yetirsək burada işlənən *"Sən qışdakı sərtliyə bax hökmə bax", "Düşündüm; bu nəhəng gövdəli ağac Nə üçün sınıbdır zəif küləkdə bir, "Sahil isə deyirdi Öz məğrur sükutuyla 'Nahaq aşma həddini' Mübarizə, mübarizə. Mübarizə... Müqavimət, müqavimət, müqavimət... Zorakılıq hər dəhşətdən ağır dəhşət*" (*Ədəbiyyat* və *incəsənət* qəzeti) kimi ifadələr sətraltı mənada işlənmiş və Vətən obrazının daxili duyğularının üsyançı pafosunu özündə təcəssüm etdirmişdir.

Qeyd olunduğu kimi bu dövrdə metaforalara- qartalın, ceyranın timsalında Vətəni göstərməklə yanaşı, başqa dövlətlərin də ictimai- siyasi vəziyyətindən istifadə edərək Azərbaycanın ağrılı, acılı dolu günləri bədii dillə obrazlı şəkildə təsvir edilmişdir. Söhrab Tahirin "Azad vətənim", "Yat qızım"; S. Rüstəmxanlı "Həqiqət", "Yollar"; Müqəvvanın soyuq canına od vurmaq istəyən Hafiz Əlinin "Mən od olmaq istəyirəm"; Şərafət Dağıstanlının "Ehtiyac"; H. Hüseynzadənin "Mən səni axtarıram", "Ürəkdədi"; Hüseyn Arifin "Yaşa, Yaşa Azərbaycan!"; X. Rzanın "Oğlum Təbrizə"; *sökün çəpərləri, daş hasarları gözlər uzaqlara zillənsin* – deyən B. Vahabzadənin "Sökün çəpərləri", "Beşik" kimi şeirləri dövrün dərin kədərini, sarsıntılarını ən ağır poetik lövhələrlə özündə əks etdirməklə dillərdə, qəlblərdə Vətən ağısı kimi səslənirdi. İlk növbədə vətəndaş sonra isə şair olan B. Vahabzadənin "Mən azadam" şeirində həmin dövrün vətəndaşlarının ən böyük dərdlərindən biri olan öz ana dillərinə həsəd olmaları problemi ədəbi nümunənin mövzusu olmuşdu.

Mən azadam, müstəqiləm sözlərini
Öz dilidə deməyə də
İxtiyarın yoxsa əgər
De kim sənə azad deyər?

Həmin dövr yaradıcılığında assosiativ düşüncə tərzi və ekspressivlyinə görə fərqlənən Rəsul Rza yaraddıcılığında da sinəsi yaralı Vətən obrazı yaradılmışdır. O "Babək", "Yuxuma gəlmişdi ezop" kimi əsərlərində dövrün *məngənəsinə fəlsəfi- vətəndaşlıq mövqeyindən* yanaşmışdır.

Dedim;- Müdrik kölə!
İnsan taleyi-çaylar
Bir qaynaqdan baş alıb
Tökülür bir gölə
Mən nəçiyəm?
Mən nəyəm
Bəlkə necə-neçə illərlə
Göz dağıyam,
Tənəyəm;
Fikri dustaq olanlara
Dili yasaq olanlara

Rəsul Rzanın 60-ciillərdə yazdığı "Hindistan dəftərindən" adlı silsiləsindəki "Onda necə", "Çəyirtkələr", "Fil və filban" kimi şeirlərinə diqqət yetirsək o zamankı mütiliyin, hüquqsuzluğun, köləliyin əksini aşkar şəkildə görə bilərik.

...Əli qoynunda,
Gözləri məchul bir nöqtəyə zillənmiş,
Üzündə insan kədəri
Dayanıb, düşünür hindli.
Baxır yerlə- yeksan olmuş
Zəmilərə, tarlalara.
Göy qara!
Torpaq qara!
Ömür qara!
Gün qara! (Rəsul Rza 2005: 43).

Vaqif Səmədoğlunun "Ev" və Ramiz Rövşənin 1966 – ci ildə Stalinin rejiminin qızğın dövründə qələmə aldığı "Nə varlıdı bu torpaq" şeirləri xüsusilə öz məzmun xəttinə, yaradılmış poetik və assosiativ ifadələrin orjinalığına görə fərqlənir. Bu şeirlərdə fəlsəfi məzmun o qədər dərin qatlarda eyni zamanda o qədər üzdədir ki, şeirin hər bir sözü qəlbində Vətən sevgisi daşıyan hər kəsin ürək sözləri kimi səslənir.

Nə varlıdı bu torpaq
Nə əkirsən- dörd bitir
Hər şeydən yaxşı ancaq
Bu torpaqda dərd bitir (Ramiz Rövşən 2006: 360).

Şeirin misralarına diqqət yetirdiyimiz zaman qəribə paradoksla qarşılaşırıq. Burada sanki şairin dövrü satira obyektinə çevirməsi, amansız totalitar Sovet rejiminin insanlara verdiyi ağrılar acılar, Vətən dərdi üçqatlı, dördqatlı bənzətmələrlə deyil, bir başa sadə sözün qüvvəti ilə oxucunun qəlb naləsi ilə təsvir olunur.

Ev.
Özgə otağının kiri,
Divarda Stalin,
Bir də köhnə saatın
Veyillənən kəfgiri (Vaqif Səmədoğlu 1996: 30).

Bu misralarda isə Vaqif Səmədoğlu EVİMİzin artıq özgəsinin kirindən təmizlənmə zamanını gəlməsini, məhz elə Stalinlə köhnə saatın yanaşı durmasını təsvir etməklə bildirmişdir. Bu situasiya heç də təsadüfi deyil, şairin fəlsəfi fikrinin nəticəsində yaranmışdır.

Nəticə

Beləliklə, hər iki dövrdə müstəmləkçiliyə qarşı ədəbiyyat vasitəsilə mübarizə aparıldı. M. Ə. Rəsulzadənin də qeyd etdiyi kimi azadlıq və istiqlaliyyət əsas süngürləri ilə yox, ədəbiyyat və incəsənət yolu ilə əldə olundu.

Qaynaqlar

1. Ə. Cavad (2005). *Seçilmiş əsərləri*. Bakı: Azərnəşr.
2. Elçin (2010). *Sosrealizm bizə nə verdi?* Bakı: Mütərcim.
3. Kamil Quliyev (2010). *Ədəbiyyatımızda sosialist realizmi*. Bakı; Yazıçı.
4. Məmməd Əmin Rəsulzadə (1991). *Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi*/ Bakı: Gənclik.
5. Ramiz Rövşən (2006). *Nəfəs Kitablar Kitabı*. Bakı: Qanun.
6. Rəsul Rza (2005). *Seçilmiş əsərləri*. III Cild. Bakı: Öndər Nəşriyyatı.
7. Vaqif Səmədoğlu (1996). *Mən burdayam İlahi*. Bakı: Gənclik.
8. *Ədəbiyyat və İncəsənət* qəzeti (1960-1975).

X. ƏDİBİN MİLLİ MÜCADİLƏ MÖVZULU NƏSRİNDƏ REALİST VƏ MİFOLOJİ SURƏTLƏR

*Aygün RÜSTƏMOVA**

Ədəbi əsərlərdə diqqəti çəkən və ədəbi əsərlərin dəyərinə əhəmiyyyətli dərəcədə təsir edən amillərdən biri obrazların işlənməsidir. Milli mücadiləyə həsr olunmuş əsərlərdə də bu faktor öz önəmini mühafizə etmişdir. XX-ci əsrin birinci rübündə Milli mücadilə uğrunda rəşadətli mübarizə aparmış türk xalqının qəhrəmanlıq dolu salnaməsinin bədii inikası olan türk ədəbiyyatında yaddaqalan obrazlar yaradılmışdır. X. Ə. Adıvar, Y. Q. Qaraosmanoğlu, R. X. Karay başda olmaqla vətənpərvər türk nasir və şairləri azadlıq uğrunda fədakarlıqla vuruşmuş türk qəhrəmanlarının real cizgilərini əks etdirən, çox xüsusiyyətlərinə görə oxucuya tanış gələn fədakar insanların obrazlarını yaratmağı bacarmışlar. İnamla qeyd edə bilərik ki, ideoloji cəbhənin önəmli əskərləri olan yazarlar öz üzərlərinə düşən vəzifənin öhdəsindən layiqincə gələ bilmişlər. Türk ədibləri bəzi çatışmazlıqlar nəzərə alınmazsa, istər Milli qurtuluş savaşı dönəminin ab-havasını canlandırmaq, istərsə də qələmə aldıqları həyati əhəmiyyətli məsələlərin bədii süzgəcdən keçirilərək geniş oxucu kütləsinə təqdim olunması işindəki uğurlarına görə təqdirəlayiq iş görmüşlər.

İkinci Yurdçular Dərnəyi tərəfindən "Türklərin ulu anası" fəxri adına layiq görülmüş Xalidə Ədib Adıvar türk ədəbiyyatının taleyüklü məsələsi olan milli mücadilə haqqında monumental əsər yazmış müqtədir yazıçıdır. Həm ingilis dilini mükəmməl bilməsi, həm də siyasi görüşü baxımından cümhuriyyətçi olması nəticə etibarılə X. Ədibi Mustafa Kamal və onun tərəfdarlarının cəbhəsinə keçməsinə səbəb olmuşdur. Birinci Dünya Müharibəsinin fəlakətli nəticələrini əks etdirən alçaldıcı Mondros müqaviləsinin əleyhdarlarından biri kimi tanınan Xalidə Ədib Milli mücadilə dövrünün həm şahidi, həm də iştirakçısı olmuşdur. Təsadüfi deyildir ki, qurtuluş savaşını canlı şəkildə əks etdirən ilk monumental əsərin müəllifi də məhz odur. Sakarya meydan savaşından sonra *İkdam* qəzetində 06.06. 1922-11.08.1922-ci il tarixində hissələr

* Bakı Dövlət Universiteti, Şərqşünaslıq fakültəsi, Türk filologiyası kafedrası, böyük laborant, filologiya üzrə fəlsəfə doktoru; r.aygun@mail.ru

şəklində dərc olunan *Ateşten gömlek* əsəri Xalidə Ədibə böyük şöhrət qazandırdı. Maraqlıdır ki, qeyd olunan əsəri öncə Y. Qədri yazmağı düşünmüşdür, Yaqub Qədri Qaraosmanoğlu, 1921-ci ildə qurtuluş savaşı zamanında Ankaraya gedərkən müəyyən bir müddətə Xalidə Ədib Adıvarın qonağı olur. X. Ədib bir dəfə söhbət əsnasında təsadüfən öyrənir ki, Yaqub Qədri qurtuluş savaşını əks etdirəcək bir əsər yazmaq, adını da "Ateşten Gömlek" qoymaq istəyir. Xalidə Ədib bu ideyanı müsbət qarşılayır və qərara gəlir ki, Qədrini qabaqlasın. Yaqub Qədrinin düşündüyü, Xalidə Ədibin ustalıqla yararlandığı "Ateşten gömlek" başlığı bu əsər üçün çox uğurlu olmuşdur. X. Ədib son dərəcə sürətli bir şəkildə, bu məşhur əsəri təqribən iki ay içərisində, necə deyərlər, bir nəfəsə yazıb bitirmişdir. Cevdet Kudretin mülahizəsinə görə, *Ateşten Gömlek* türk ədəbiyyatında qurtuluş savaşına həsr olunmuş "romanların ilki və ən gözəlidir". Xalidə Ədibin əsərləri haqqında dəyərli məlumatlar verən İnci Enginünün düşüncəsinə görə, *Ateşten Gömlek* "cümhuriyyət dövrü romançılığının ilk örnəyidir". Təsadüfi deyil ki, türkoloq Ə. Əhmədov da bu əsəri "türk ədəbiyyatında milli azadlıq müharibəsi mövzusunda yazılmış ilk roman" olaraq dəyərləndirmişdir. (Əhmədov) Xatırladaq ki, əsəri ingiliscəyə çevirən də Xalidə Ədibin özü olmuşdur. Fethi Nacinin iddiasına əsasən, *Ateşten Gömlek* əsəri əslində Xalidə Ədibin Qurtuluş savaşı barədə şahid ifadəsidir. Romanda təsvir olunan hadisələr çox gerçəkçi səciyyə daşıyır. Müəllif, sanki reportyor dəqiqliyi ilə ətrafında cərəyan edən hadisələrə müdaxilə etmədən, obyektivliyini və neytrallığını qoruyaraq, olub-bitənləri sadəcə qələmə almışdır. Romanda təsvir olunanlar-Sultanahməd mitinqi, İstanbulun düşmənlər tərəfindən zəbt olunması, xalq ordusu olan Kuvayi-Milliyə sıralarına könüllü şəkildə kütləvi yazılmalar, ölkənin siyasi rejiminin səltənət və xanədanlıq şəklində saxlanılmasını istəyən "xilafətçilər"ə qarşı cəbhə alma, illeqal fəaliyyət göstərən qaçaq dəstələrindən nizami ordu sıralarına qatılmalar, edilən misilsiz fədakarlıq nümunələri, ancaq bunları yaxından görən, şəxsən yaşayan müqtədir sənətkar tərəfindən məharətlə qələmə alına bilərdi. Xatırladaq ki, *Ateşten Gömlek* əsəri X. Ədibin ən populyar əsəridir.

Fəthi Naci hesab edir ki, X. Ədib böyük məhəbbətlə qələmə aldığı Kezbanın İhsana duyduğu qarşılıqsız sevgini və öz növbəsində, Mehmet Çavuşun Kezbana olan səmimi məhəbbətini təsvir edərkən çox inandırıcıdır. Bunun əksinə, İhsanla Ayşənin duyğularını X. Ədib süni, saxta, inandırıcı olmayan kitab cümlələri ilə ifadə etdiyindən real görünmür, qəhrəmanların mükalimələri gülünc təsir bağışlayır. Eyni zamanda, hərbi təlim, nizam-intizam bilməyən xalq fərdlərindən güclü bir ordu yarada bilmiş Mustafa Kamal obrazının yaradılmasında Xalidə Ədib çox başarılı təsir bağışlayır. N. Ziya Bakırcıoğlunun mülahizəsinə əsasən, *Ateşten Gömlek* əsəri Qurtuluş savaşı romanlarının ilki kimi ədəbi dəyərə malikdir və özündən sonra bu mövzuda yazılmış çox əsərə yol açmışdır. Romanda Atatürkün nitqləri qırmızı xətt kimi keçir, bir növ, onun

siyasi nitqlərinin bədii yorumu kimi oxucuya təqdim olunur. Roman Peyaminin xatirələri əsasında təqdim olunduğundan əsərdə adı keçən bir çox surətləri biz öz hərəkətləri əsasında deyil, Peyaminin baxış açısından dəyərləndiririk. Başqa sözlə, biz həmin surətlərə Peyaminin gözü ilə baxırıq. Əsərdə bəzi epizodlar yersiz təfərrüatlarla təsvir olunduğundan əsl hadisələr bəzən kölgədə qalır, oxucu bu cür ətraflı təsvirdən sıxılır. Bizcə, əsərin nəzərə çarpan əsas çatışmazlığı, təsvir olunan surətlərin ətraflı və obyektiv şəkildə təqdim olunmamasıdır. Fon olaraq qələmə alınan məhəbbət səhnələri də zəif işıqlandırılmışdır. Məsələn, təqdim olunan Kezban, Mehmet Çavuş, Miralay Haşmet Bey və Ahmet Rıfkı surətlərinin *Ateşten Gömlek* əsərindəki dramatizmin dərinləşməsinə, əsərin ideya- bədii məziyyətlərinin güclənməsinə yararı hiss olunmur. Xalidə Ədibin həddən ziyadə neytrallıq göstərməsi nəticə etibarilə romanın sxematikləşməsinə zəmin yaratmışdır. Ədalət naminə etiraf etmək lazımdır ki, romanda xarakter baxımından əks qütblərdə dayanan obrazlar yoxdur. Qələmə alınan surətlər həyati təsir bağışlamır. Məsələn, Mehmet Çavuşun bir anda öz prinsip və ideallarından əl çəkərək tərəddüd etmədən qarşı düşərgəyə keçməsi bir o qədər də inandırıcı görünmür. Yəni, əsl reallıqda insan tərəddüdlər, götür-qoylar, mülahizələr etməli, uzun düşüncələrdən sonra bir qərara gəlməlidir. Ani bir qərarla asanlıqla əski ideallardan uzaqlaşmaq bu qədər asan ola bilməz. Əsas mövzusu milli mücadilə və Anadolu olan *Ateşten Gömlek* əsəri Ömer Seyfəddinin "Yalnız Efe" əsərindən sonra Anadolunu bədii qəhrəman səviyyəsində təqdim etmiş ikinci uğurlu əsərdir. Peyamini xatirələri əsasında qələmə alınmış roman kimi təqdim ounan *Ateşten Gömlek* əsərində gerçək zaman müddəti cəmi qırx üç gündür. Ankaradakı Cebeci hospitalında müalicə olunan Peyami olub-keçənləri bir film lenti kimi nəzərdən keçirir, yaşananlara qiymət verir. X. Ədibin "mütareke" adlandırılan müvəqqəti sülh müqaviləsinə inanması onun ədəbi qəhrəmanlarına da sirayət etmişdir. Yazıçı o dövrdə "pislərin içərisində ən az pisi olan 'Vilson' variantını məqbul sayırdı. Bu varianta görə, millətlərin öz müqəddəratlarını təyin etmək hüququna sayqı duymaq, xalq arasında rəy sorğusu-referendum keçirmək lazımdır. Osmanlı torpaqlarında yaşayan azsaylı etniklərin harada, necə yaşayacaqları məsələsinə bu rəy sorğusundan sonra baxmaq daha ədalətli olar. X. Ədib kimi bu qəhrəmanlar da əsl çarəni milli mücadilədə görürlər." (Enginün 1978).

Halidə Ədibin düşüncəsinə görə, müvəqqəti barışıq elan olunan vaxtdan milli mücadilənin başlanmasınadək keçən zamanda vəziyyət olduqca təhlükəli idi. Məsələ burasındadır ki, Avropa ölkələrinin Osmanlı dövlətində həyata keçirmək istədikləri bir-birindən qorxunc iki planı gündəmə gətirilmişdi: 1) Son dərəcə strateji önəmi olan Bosfor boğazına nəzarət bolqarların və rusların əlinə keçməməsi naminə İzmir də daxil olmaqla Trakiya bölgəsi Yunanıstana verilir; 2) Samsun, Ordu, Artvin də daxil Qara dənizdən Azova qədər uzanan ərazidə Ermənistan adlandırılacaq dövlət yaradılır X. Ədibin Qurtuluş

savaşını əks ətdirən əsərləri içərisində həm realist, həm də mifoloji surətlər vardır. Məsələn, o dönəmlərdə Milli mücadilə hərəkatında önəmli rol oynamış "Karakol cəmiyəti" haqqında X. Ədib yalnız realist mövqedən yanaşmış, gerçək şəxsiyyətlərdən bəhs etmişdir (Ercilasun, 56). Təhlükəsizlik təşkilatında məsul vəzifədə çalışan Kara Vasif bəy və onun dostları real şəxsiyyətlər olmuşlar. Onlar öz şəxsi həyatlarını heçə sayaraq, rəsmi vəzifələrini unudaraq gizli yolla Atatürkə və onun silahdaşlarına bacardıqları yardımı etmişlər. X. Ədibin təqdimatında Kara Vasif bəy "Karakol cəmiyəti"nin ürəyi, düşünən beyni olmuşdur: "1908'dən bəri bir çox lider tanımıştım ve yıllarca Milli Mücadele'nin en nazik devirlerini yaşamıştım. Fakat. Şahsi şöhret onu hiç bir prensibinden ayırmazdı hiç bir zaman Vasıf Bey kadar prensiplerine sadık insana rastlamamıştım (Irwin 41). Gerçi bu adamın adı en az bugün geçerse de, bence gelecek Türkiyesinin en hakiki bir vatanperver örneğidir" (Adıvar 1987: 25). Təşkilatın üzvləri Qurtuluş savaşçılarını həm silahla, həm də mühüm məlumatlarla təmin edirlər. Əldə edilən məlumatlar dərhal Atatürkə çatdırılır, Damad Ferid Paşa hökumətinin və onun dəstəkçisi ingilislərin alacaqları tədbirləri öncədən öyrənir və hazırlıq görürlər. X. Ədib bu təşkilatda bəzən bilərəkdən və bilməyərəkdən Atatürkün planlarına qarşı hərəkət edən təşkilat nümayəndələrinin də olduğunu yazır. Məsələn, Atatürkü çox sevən, özünü onun əskəri sayan məsul vəzifə sahibi Baha Said bəy, Atatürklə razılaşdırmadan fərdi hərəkətlərə də yer verir, rus Bolşevikləri ilə müqavilə imzalayır və bununla "Mudafa-i Milliye Teşkilatı"nı çətin vəziyyətə salır.

Yazıçının əsərlərində təsvir edilənlər real hadisəllərdən heç fərqlənmir. Nəzərə çarpan fərq sadəcə adların uydurma olmasındadır, başqa sözlə ədib şahid olduqlarını xəyali qəhrəmanların vasitəsilə oxucuya çatdırır. X. Ədibin qələmə aldığı surətlərin əksəriyyəti həyatda olmuş, bütün mənfi və müsbət cəhətləri ilə təsvir olunmuş xarakterlərdir. Bununla bərabər, yazıçının bəzi əsərlərində mifik obrazlara da yer verilmişdir. Bu mənada X. Ədibin bir ilkə imza atdığını da qeyd ədə bilərik.

İşğalçı dövlətlərin azğın hərəkətləri yazıçıda təbii olaraq millətçilik ruhunun güclənməsinə səbəb olmuşdur. Maraqlıdır ki, millətçilik ruhunun güclü olduğu bəzi əsərlərində X. Ədib mifik qüvvələrin iştirakına yer vermişdir. Burada biz əsasən nağıl və əfsanələrdə rastlaşdığımız xortdan, cin, əcinnə, kabus, qulyabani kimi xəyali surətləri müşahidə edirik. Maraqlıdır ki, yazıçı Türklərdən bəhs edərkən bir, düşmən qüvvələrdən bəhs edərkən digər terminlərdən yararlanır. Qeyd edək ki, bu təsadüfi deyildir, çünki, yazıçının məqsədi fantastik qüvvələri təsvir etmək yox, onların vasitəsi ilə türk oxucusunda millətçilik və yurdsevərlik hissini alovlandırmaqdan ibarətdir (Jackson, 102).

Məsələn, *Kabalanın cadısı* əsərində Kabalalı Hasanın milliyətcə Boşnak olan həyat yoldaşı Şehime, evləndiyi gecə boğularaq öldürülmüşdür.

Öldükdən sonra dirilərək (Xalidə Ədib onu "hortlak" şəklində dirildiyini yazır-A. R.) yenidən həyata qayıdır. "Yakası kırmızı işlemeli beyaz entarisi, elinde boğazından kopardığı kanlı yemenisi, diğer elinde bazen yeşil bazen kızıl ışığıyla köyedehşet saçan və haykırışıyla diğer hordakları yerindən eden Şehimenin varlığını hükûmet bile kabul etmiştir" (*Kabalanın cadısı* 143).

Burada X. Ədib hadisələrə sanki müdaxilə etmir, hər şeyi oxucunun mühakiməsinə verir (Köroğlu 87). Yazıçı, öz vətəni uğrunda vuruşaraq ölən əskərin ruhunu isə "tayf" adlandırır. Burada məqsəd budur: ilahi qüvvələr də Qurtuluş savaşı edənləri sevir, daim onlarladır. Bu yolda ölənlər şəhiddirlər, məkanları cənnətdir, əksinə onları işğal etmək üçün gələnlər öldükdə cəhənnəmələlik olurlar, məhşərədək ruhları "hortlak", "qulyabani", "cadı" şəklində dolaşacakdır (Leeming 59). X. Ədib Milli mücadilə ədəbiyyatında mifoloji və realist surətlərlə türk ədəbiyatında fantastikanın fərqli tərəfini meydana gətirmiş, onu səmavi və əfsanəvi müstəvidə işləyərək qorxu və fantaziyanın sintezi şəklində oxucuya təqdim etmişdir. X. Ədibin məsələyə bu baxımdan yanaşması türk ədəbiyyatının sonrakı mərhələlərində davam etdirilmişdir (Beebe 28). Məsələnin önəmli olan tərəfi budur ki, X. Ədib özü də yazdıqlarına möhkəm inanmış, ilk öncə məsələyə təbliğati yöndən yanaşdığını etriaf etsə də sonradan, mifik qüvvələrin mövcudluğuna tərəddüdsüz inanmış, şəhidlərin narahat ruhlarının həyatda qalan soydaşlarından mübarizə əzmi bəslədiyini zənn etmişdir.

Bu inam sayəsində çoxsaylı oxucu kütləsinin rəğbətini qazanmış X. Ədibin əsərləri zaman keçsə də öz dəyərini və populyarlığını itirməmişdir. Bu gün Qarabağ uğrunda mübarizəni davam etdirən Azərbaycan oxucusu da X. Ədibin Qurtuluş savaşı nəsrindən mənəvi güc almaqda, müqəddəs amal uğrunda şəhid olmuş vətən övladlarının ruhən bizlərlə bərabər yaşadıqlarına inanmaqdadır.

Qaynaqlar

Adıvar, H. E. (2005). *"Duatepe"*. Dağa Çıkan Kurt. İstanbul: Özgür Yayınları.

----- (199l). "Işıldakın Rüyası". *Kubbede Kalan Hoş Sada*. İstanbul: Atlas Kitabevi.

----- (2005) "Kabalanın Cadısı". *Dağa Çıkan Kurt*. İstanbul: Özgür Yayınları.

Beebe, T. O. (1994). *The ldeology of Genre*. Pennsylvania: The Pennsylvania State University Press.

Ercilasun, B. (1995). *İkinci Meşrutiyet Devrinde Tenkit: 1. Türkçü Tenkit,* Ankara: Türk Kültürü Araştırma Enstitüsü Yayınları.

Əhmədov, Ə. (1974). Xalidə Ədibin romanlarında milli azadlıq hərəhatının əksi. *Az.SSR EA Xəbərləri (Ədəbiyyat, dil və incəsənət seriyası)*, Bakı. №4.

Irwin, W. R. (1976), *The Game of impossible: A Rhetoric of Fantasy.* Urbana: University of İllonois Press.

Jackson, R. (2003). *Fantasy: The Literature of Subversion*. London: Routlədge.

Köroğlu, E. (2004). *Türk Edebiyatı ve Birinci Dünya Savaşı 1914-1918: Propagandadan Milli Kimlik İnşasına*, İstanbul: İletişim Yayınları.

Leeming, D. A. (1974), *Flights: Readings in Magic, Mysticism, Fantasy and Myth.* New York.

Rabkin, E. R. (1977), *The Fantastic in Literature.* New Jersey: Princeton University Press.

MİR CƏLAL NƏSRİ VƏ TÜRK ƏDƏBİYYATI

*Ülkər SƏLİMOVA**

Azərbaycan nəsrini yeni bədii düşüncə axarında inkişaf etdirərək ona yaşarılıq və başarılıq keyfiyyətləri aşılayan, elmi ədəbiyyatşünaslığı bir məktəb olaraq reallaşdırıb ucaldan professor Mir Cəlal Paşayev xaraktercə bütöv, müstəqil düşünən kamil bir şəxsiyyət idi. Çox böyük yaradıcı insan olduğuna görə daim vicdanının sədasını dinləmiş, qəlbinin istəyinə əməl etmiş, varlanan dünyanın ahənginə uymamış, onun təzələnən rənginə heç vaxt aldanmamışdır.

Mir Cəlal yaradıcılığı mövzu rəngarəngliyi, üslub xüsusiyyətləri, bütünlükdə orijinallığı ilə Azərbaycan yazıçıları içərisində özünə məxsus yer tutur O, Azərbaycan ədəbiyyatı tarixində gözəl hekyələr ustası, müxtəlif mövzulara həsr olunmuş roman yaradıcısı, ədəbiyyatımızın klassik və müasir dövrünü, müxtəlif problemlərini işıqlandıran onlarla dəyərli tədqiqat əsərinin müəllifi kimi tanınmışdır.

Mir Cəlal həyat hadisələrinə fəal münasibət bəsləyir Mir Cəlal həyat hadisələrinə fəal münasibət bəsləyir, qələmə aldığı mövzunu aydın yazıçı mövqeyi və estetik ideal baxımdan işləyirdi. O, bütün bacarığı və istedadının gücü ilə sülh, asayiş, dinc, xoşbəxt həyat uğrunda mübarizə aparırdı. Onun beynəlxalq mövzuda yazdığı "Çin qızı" (1950), "Sülh istəyənlərə" (1951), "Badam ağacları" (1953), "Ərəb qızı" (1962) və b. hekayələrdə sülh, əmin-amanlıq, humanizm, yer üzündə insanların dinc çalışmışdır, məsud yaşaması ideyası təbliğ olunurdu (Salamoğlu 2018: 58).

Mir Cəlal nədən yazırsa-yazsın öz hekayələrində həyatın dərin qatlarına nüfuz etməyə, hadisələrin daxili mahiyyətini açmağa. Sənətkəranə sadəlik, fövqəladə təbiilik, heyranedici səmimilik onun yaradıcılığının, bədii üslubunun ən qüvən qüvvətli fərqləndirici cəhətidir

Mir Cəlalın hekayələrinin janr xüsusiyyətləri, mövzu-surətlər aləmi əlvandı. Burada həyatın müxtəlif sahələrindən götürülmüş maraqlı mövzular, əxlaqi-tərbiyəvi məsələlər, ailə-məişət motivləri, adi görünən əhvalatlar, dərin

* Bakı Dövlət Universiteti, Azərbaycan dili və nitq mədəniyyəti kafedrasında laborant və saathesabı müəllimə, Azərbaycan dilçiliyi kafedrasının dissertantı; ulker-salimova@mail.ru

mənalı mətləblər, lirik, dramatik, yumoristik və satirik məzmunlu hadisələr öz ifadəsini tapmışdı. İnsan, onun fəaliyyəti, müqəddəratı, arzuları, əməlləri hekayələrdə çox vaxt konkret vəziyyət və şərait daxilində müvəffəqiyyətlə canlandırılan başlıca obyektdi. Yeni insanın tərbiyə olunması, yeni ictimai münasibətlərin və əxlaqi keyfiyyətlərin yaranması prosesində meydana çıxan maneələrə, mənfiliyin müxtəlif təzahürlərinə qarşı mübarizə aparmaq, inkişafa təkan vermək, ideal, həqiqət və gözəllik naminə yazıb-yaratmaq Mir Cəlalı ciddi düşündürmüşdü. İlk gündən o fikirİnsanda sağlam duyğular oyadan, gerçəkliyə həqiqət işığında baxan, tənqidi ruh və orijinallıq hissi gətirən, haqsızlığa, mənfilik və eybəcərliyə qarşı mübarizə keyfiyyəti aşılayan ədibin yaradıcılığında bədii gülüş əsas – estetik məziyyətlərdəndi (Mir Cəlal 13). O kəsərli silah olan gülüşdən idealı ifadə etməyin, yeniliyə yol açmağın, hadisə və insanlara münasibəti bildirməyin mühüm bir vasitəsi kimi bacarıqla faydalanırdı. Çünki, A. V. Lunaçarskinin müəyyənləşdirdiyi kimi, *"Gülüş qüvvət əlamətdir. Gülüş təkcə qüvvət əlaməti deyil, özü bir qüvvətdir. Yenilik öz gücünü duyduqca gülüş nifrətli olur. Öz gücünü duyan bu şən, bu hiddətli gülüş isə əsl silah kimi zəruridir"* (İsmayılov 2010: 156).

Zahirən mədəni, qanacaqlı görünməyə çalışan, əslində isə bu keyfiyyətlərdən məhrum olan adamlar da Mir Cəlalın nəzərindən yayınmırdı.

Mir Cəlalın şirin təhkiyə üsulu, təbii təsvir dili, maraqlı süjet-kompozisiya qurma məharəti özünü demək olar ki, bütün nəsr əsərlərində özünü göstərirdi.

Müəllifin yumoristik və satirik əsərlərində lirika özünü göstərdiyi kimi, lirik əsərlərində də çox vaxt mənalı gülüş təzahür edir və əhəmiyyətli mövqe tutur. Sadə süjetə, dolğun məzmuna malik olan "Həkim hekayələri" (1938-39) və bəzi başqa nümunələr bu cəhətdən daha səciyəvidi. "Qonaqpərəst", "Dost görüşti", "Vicdan əzabı", "Müalicə" adlı bu dörd müstəqil hekayədə Mir Cəlal məsələlərə həssas yazıçı qəlbi və humanizmi ilə yanaşır, yalnız mənəvi cəhətdən deyil, fiziki cəhətdən də sağlam, gümrah adamlar yetişdirməyi mühüm vəzifə kimi qarşıya qoyur, müqəddəs həkimlik borcundan təsirli söhbət açıb mənalı lövhələr çəkirdi (Salamoğlu 2018: 132).

Mir Cəlalın yaradıcılığında qadın istedadı, ləyaqəti və şəxsiyyəti uca tutulub, yüksək qiymətləndirilirdi. Ümumiyyətlə, böyük ehtiram, iftixar hissi ilə qadından-anadan söz açmayan, danışmayan sənətkar Mir Cəlal qeyd edirdi: *Qadınlıq şərəfini qoruyan, analıq borcunu yerinə yetirən insan ən yüksək hörmətə və qiymətə layiqdi. Təsadüfü deyil ki, Hüseyn Cavid qadını 'bütün həyatı çiçəkləndirən' qüdrətli varlıq, mənəvi gözəllik, ruhi əzəmət və əxlaqi saflıq mücəssəməsi saymış, 'övlad eşqi ilə çırpınan bir qadın könlü'nü hər şeydən təmiz və ləkəsiz bilmişdi. Mir Cəlala görə də, əsl qadın - ana qəlbi pak, ülvi duyğuların, nəcib, xeyirxah arzu və istəklərin məskənidir. 'Ana qəlbi insanın*

ilk məktəbidir; məhəbbətin, səmimiyyətin, sədaqətin pozulmaz kitabıdır.'" (İsmayıl 2010: 89).

Müəllifə görə, qurub yaratdığımız bir ölkədə qadın ictimai həyatdan kənar qala bilməz. Əvvala, insan adına layiq hərəkət etmək, xalqa, cəmiyyətə fayda vermək onun vətəndaşlıq borcudur. İkincisi, qadın anadır, *"yaxşı analıq çətin, lakin çox şərəfli, çox müqəddəs işdir"*. Biri digərini tamamlayan bu vəzifəni qadın namus, ağıl və idrakla yerinə yetirməlidir. O, sağlam, gümrah, fədakar, yüksək əxlaqimənəvi keyfiyyətlərə malik övlad böyütməli, onu Vətənə və xalqa sədaqət ruhunda tərbiyə etməlidir.

Mir Cəlalın Azərbaycan ədəbiyyatında insan taleyinə verdiyi önəmi Türkiyə ədəbiyyatında Rəşad Nuri Güntəkin göstərmişdi.

Yazıçının hekayələrində Anadolu həyatının həm ciddi realistik, həm də satirik-yumoristik tərəfləri diqqəti çəkməkdədir.

Rəşad Nuri Güntəkin ən populyar yazıçılardan biri hesab olunmaqdadır. Türkiyədə elə bir şəxs tapmaq mümkün deyildir ki, onun əsərlərindən hər hansı birini oxumamış, yaxud romanlarına çəkilmiş filmləri seyr etməmiş olsun. O, hələ sağlığında türk ədəbiyyatının canlı klassikinə çevrilmiş az sayda sənətkarlardan biridir. Güntəkinin əsərlərində insanın daxili dünyasının ən gizli qatlarına baş vurulur, onun hiss, həyəcan və yaşantıları real, inandırıcı cizgilərlə təqdim olunur. O, öz qəhrəmanlarını mənsub olduğu xalqın içərisindən seçdiyi üçün geniş kütlələrin diqqət və marağını cəlb etməkdədir. Yazıçının əsərlərində Anadolu insanının yoxsulluğu, cahilliyi ilə yanaşı, avropalılaşmanın onun təfəkküründə buraxdığı silinməz izlərin təcəssümü də yer alıb. Əsərlərində əsas konflikt kimi seçilmiş fərd və cəmiyyət qarşıdurması onun yaratdığı qəhrəmanların taleyini müəyyənləşdirən ən mühüm amillərdən biridir.

Rəşad Nuri Güntəkinin romanlarının bir qismi qəhrəmanlarının dilindən təsvir olunmaqdadır. Yazıçının üslubuna xas olan bu cəhəti özü belə səciyyələndirir: *"Mən qəhrəmanlarımdan birini alıb onun ağzından anlatmağa daha çox üstünlük verirəm. Həm bu zaman süjet pozulmaz, əhvalatı anladan qəhrəman vəhdəti mühafizə edər. Sonra bunun bir yaxşı cəhəti də vardır; romana məsuliyyətin mühüm bir qismini üstündən silib atmış olursan. Adətən bir romançının yaratdığı təsvir oxucuya soyuq gələ bilər, bir çox oxucular romançının bir adamı anlatmasını bəyənməyə bilər. Ancaq romanı qəhrəmanının dilindən anladarsanız məsuliyyətin bir qismi sizdən ziyadə qəhrəmanın görüşüdür."*

Rəşad Nuri Güntəkinin əsərlərinin dili ədəbi türkcənin ən mükəmməl örnəklərindən biridir. Yazıçının dəst-xəttinə xas olan sadəlik və təbiilik, danışıq dili ilə ədəbi dilin məharətlə qovuşuğundan yaranan üslubunun özünəməxsusluğu diqqəti çəkməkdədir. Indiyədək Azərbaycan oxucuları Rəşad Nuri Güntəkinin *Çalıquşu, Dodaqdan qəlbə, Damğa, Yarpaq tökümü, Dəyirman* romanları və bir sıra hekayələri ilə tanış oublar.

Rəşad Nuri Güntəkinin yaradıcılığında *Çalıquşu* (1922) romanı xüsusi yerlərdən birini tutmaqdadır. İlk dəfə teatr əsəri kimi işlənilmiş bu roman Istiqlal hərbi dönəmində geniş oxucu kütləsinin diqqət və marağına səbəb olub. Yazıçı Qurtuluş savaşı Anadolusunu çoxlu insanları və bölgələri ilə canlandırmağa çalışıb. Roman Fəridə ilə Kamranın sevgisi üzərində qurulsa da, müəllif bu sevgi fonunda Anadolu insanının daxili-mənəvi dünyasının mürəkkəbliklərini açıb göstərə bilib. Rəşad Nuri Güntəkin bu əsəri ilə türk ədəbiyyatında Əhməd Midhətdən sonra romana xüsüsi maraq oyandıra bilib.

Prof. Dr. Birol Emilin yazdığına görə, *Çalıquşu* romanı *"Cümhuriyyət dövrü türk ədəbiyyatı, hətta yeni türk ədəbiyyatında nadir görülən bir şöhrət qazanmış, türk cəmiyyətinin oxuyub-yazan hər təbəqəsi tərəfindən sevilmişdir. Rəşad Nurinin sonrakı əsərləri bir növ 'Çalıquşu'nun ulduzu altında doğmuş kimidir"* (Əhmədov 1965: 68).

Çalıquşu romanında yazıçı özünəməxsus cizgilərlə təqdim etdiyi baş qəhrəmanı Fəridənin timsalında ilk dəfə olaraq romantik və idealist türk qadını obrazı yaradıb. Müsahibələrindən birində söylədiyinə görə, Rəşad Nurinin ümumiyyətlə *Çalıquşu* romanını yazmaqda əsas məqsədi o dövrdə xalqın gözündə oxumuş, təhsilli, sərbəst düşüncəli, nəşəli Istanbul qızlarına qarşı bir simpatiya oyatmaq olub. Romanın Anadolunun istər aydınları, istərsə də ciddi təhsil görməmiş aşağı təbəqəsi tərəfindən diqqətlə qarşılanmasının bir sıra səbəbləri vardır. Bu bir tərəfdən yazıçının yaratmış olduğu qeyri-adi xarakterə malik Fəridə obrazı ilə, digər tərəfdən isə əsərdə Anadolu həyatının canlı mənzərəsinin çəkilməsi, burada yaşayan insanların sosial-mənəvi problemlərinin əks olunması ilə bağlıdır.

Müəllif əsərlərində müxtəlif problemlər daxilində cəmiyyətin qüsur və çatışmazlığını göstərmiş, onları kəskin tənqid hədəfinə çevirib. Adları çəkilən əsərlərdə həyatda yaşamaq istəyi böyük olan namuslu adamların çox ciddi çətinliklərlə üzləşdiyi göstərilir, dövlət aparatında bürokratiyanın, rüşvətxorluğun, məmur özbaşınalığının ifşasına xüsusi yer verilir. Ümumiyyətlə, Rəşad Nuri romanlarının əksəriyyəti üçün belə bir ideya hakimdir ki, yaramaz cəmiyyətdə namuslu və vicdanlı insanların yaşamağı çox müşküldür. Onlar ya cəmiyyətlə barışıb onun quluna çevrilməli, ya da həyatda məhv olmalıdırlar (Quliye 235).

Ümumiyyətlə ədəbiyyatda oxşar sujet xətti anlayışı var. Bir çox ölkələrin ədəbiyyatında eyni sujetlərin yer aldığı əsərlər çoxdu. Bu özünü həm folklorda həm də yazılı ədəbiyyatda göstərməkdədir. Mir Cəlal və Rəşad Nuri Güntəkin yaradıcılığında isə oxşar obrazlar və oxşar problemlərin qoyuluşu məsələsi vardır. M. Cəlal *Dirilən adam* romanında *Qədir-Qumru* ailəsinin timsalında müəyyən problemlərin qoyuluşunu əks etdirdiyi kimi, R. N. Güntəkin *Yaprak dökümü* romanında Əli Rza bəyin ailəsindəki hadisələrin fonunda dövrün əsas bəlalarını göstərə bilmişdir. Hər iki əsərin əsas qayəsində dağıdılmış ailə dayanır. Ailə başçılarının mübarizə aparmasına baxmayaraq *Dirilən adam*

əsərində Qədir-Qumru ailəsinin heç bir insanlıq çərçivəsinə sığışmayan əməl və vasitələrlə dağılması prosesində gerçəkləşir. Müəllifin tifaqı dağılan ailənin üzvlərinin məsumluğunu, saflığını, xarakterlərinin milli-tarixi varlıqdan gələn ən davamlı ənənələrdən güc almasını ön plana çəkməsi baş verən hadisələrin sosial və fəci məzmununu qat-qat qüvvətləndirir. Mir Cəlalın insan konsepsiyası həm də onun vətəndaşlıq konsepsiyası kimi mənalanır. *Qədir-Qumru* səadətinə qarşı çıxanların öz məqsədlərinə çatmaq üçün heç bir çirkin hərəkətdən çəkinməməsi, Bəbir bəy və tərəfdarlarının çırkin niyyətlərini həyata keçirmək üçün ictimai mühitdən çox güclü dəstək almaları, bütövlükdə cəmiyyətin Qədirin tifaqını dağıtmaqda eyni nota köklənməsi ictimai əxlaqın pozulduğunu, milli və vətəndaş şüurunun səviyyəsizliyini nümayiş etdirir.

Yaprak dökümü əsərinin mövzusu yad, gəlmə adət-ənənələrin təsiri nəticəsində türk mənəviyyatına dəyən ziyan və milli-ictimai yaraların təsviri təşkil edir. Əsərin qəhrəmanı Əli Rza bəy namuslu bir insandır. O, yüksək vəzifəli məmurdur. Lakin vəzifəsindən sui-istifadə etmir. Halal maaşı ilə dolanmağı hər şeydən üstün tutur. O, meşşan həyat tərzinə uyan insanlara acıyır. Bunu mənsub olduğu türk cəmiyyətinin düçar olduğu milli-mənəvi yara hesab edir. İctimai həyatın yabancı təsirlərdən yaxa qurtarmaq gücündə, mənəvi müdafiə sistemi qurmaq təşəbbüsündə olmamasını Əli Rza bəy təəssüf hissi ilə qeyd edir. Və öz övladlarının yabancı təsirlərin toruna düşərək dəyişdikləri üçün qəlbi ağrıyır. Bu mənzərəni milli-mənəvi sahədə yarpaq tökümü şəklində xarakterizə edən müəllif, o zaman türk həyatı üçün səciyyəvi olan cəhəti yüksək tərzdə ifadə edə bilib.

Mir Cəlalın "Qumru" obrazın R. N. Güntəkinin "Fəridə" obrazı ilə də müqayisə etmək olar. Fəridənin - *Çalıquşu* simasında çətin və məşəqqətli həyat tərzinə baxmayaraq, öz məhəbbətinə sədaqət hissini qoruyub saxlayan əsil türk qızının obrazı bədii ustalıqla qələmə alınmışdır. *Çalıquşu* romanında yazıçı özünəməxsus cizgilərlə təqdim etdiyi baş qəhrəmanı Fəridənin timsalında ilk dəfə olaraq romantik və idealist türk qadını obrazı yaradıb. Müsahibələrindən birində söylədiyinə görə, Rəşad Nurinin ümumiyyətlə *Çalıquşu* romanını yazmaqda əsas məqsədi o dövrdə xalqın gözündə oxumuş, təhsilli, sərbəst düşüncəli, nəşəli Istanbul qızlarına qarşı bir simpatiya oyatmaq olub. Romanın Anadolunun istər aydınları, istərsə də ciddi təhsil görməmiş aşağı təbəqəsi tərəfindən diqqətlə qarşılanmasının bir sıra səbəbləri vardır. Bu bir tərəfdən yazıçının yaratmış olduğu qeyri-adi xarakterə malik *Fəridə* obrazı ilə, digər tərəfdən isə əsərdə Anadolu həyatının canlı mənzərəsinin çəkilməsi, burada yaşayan insanların sosial-mənəvi problemlərinin əks olunması ilə bağlıdır.

Eyni məslələr Mir Cəlal qələminə də məxsus idi. O, bütün məsələləri bir kənara qoyub əsas diqqəti insanın insana münasibəti üzərinə çəkir. Öz kəndçisinin, ellisinin ailəyə qayğı pərdəsi altında ailənin başçısını evindən didərgin salması, ailənin başsız qalmasından istifadə edərək Qumruya göz dikənlərin

günü gündən çoxalması əxlaq müstəvisində cəmiyyətin qarşılaşdığı dəhşətli problemləri göz önünə gətirir.

İstismarın, qanunsuzluğun, zorakılığın hökmran olduğu bir şəraitdə bu yoxsul, köməksiz qadın öz şərəfini, namus və qeyrətini bütün varlığı ilə qoruyur. Böyük cəsarət,iradə və hünərlə hər cür hiylətəzyiqə qarşı durur. Bəbir bəyin təklifinə ərinə sonsuz sədaqət hissi ilə hər dəfə kəskin cavablar verir:

"İtil buradan, bir qıyya çəkərəm dünya yığılar, canavar!"- deyə onu qəzəbli və üsyankar səslə qarşılayır. Qumru azğın Bəbir bəyi də, *"hökmü dəmir yolundan Kürün sahilinə qədər işləyən", "düyünlər açan, tilsimlər sındıram) Çəpəl Sayalını da, "din xadimi", "şəriət sahibi" Sarıqlı* mollanı da evindən qovub, onlara münasibət və nifrətini açıq bildirməkdən çəkinmir. Namusu yolunda canından keçməyə hazır olan Qumru Qədirin ölüm xəbərini eşidəndə dərin matəm saxlayır, onu kasıblıqdan edib *"həlakma" bais olan bəyə lənət yağdırır. Şən və mehriban simasını unuda bilmədiyi ərinin fəlakətini qabaqcadan duymadığı üçün özünü günahkar sayır: "Nə üçün mən Qədiri gözləyən fəlakəti görmədim. Nə üçün öz əlimlə onu qızıl güllə qabağına göndərdim?" – "Buraxma. Qədir ölümə gedir, buraxma!.." Qulağıma belə bir pıçıltı gəlsə idi, Faxiräni ayaqlarına atar, qollarımı boynuna salıb yalvarardım.* (Paşayev 2005: 103).

Hər iki yazarın qələmində qadın obrazlarındakı məğrurluq ön planda olub. Mir Cəlalın *Bir gəncin manifesti* əsərindəki Sona obrazı, Rəşad Nuri Güntəkinin *Dodaqdan Qəlbə* əsərinədki Lamiyə obrazı oxşar xüsiyyətlərə malikdir. Həm Sona həm Lamiyə obrazında analıq hissi ilə namusuna, vicdanına sədaqət kimi yüksək insani keyfiyyətlər ustalıqla qələmə alınmışdır.

Nəticə

Milli Mücadiləni öz əsərlərində təbliğ edən Mir Cəlal və Rəşad Nuri Güntəkin ilk öncə ailədəki mücadilələri göstərmiş və cəmiyyət fonunda insan talelərini işıqlandırmışlar. Müəllifi olduğu əsərləri ilə bu yazıçılar daima yaddaşlarda qalacaq və oxucu kütəsinin reytinqi ilə ədəbiyyat aləminin silinməzləri kimi həkk olunacaqlar.

Qaynaqlar

Əhmədov, Əhməd (1965). *Rəşad Nurinin romanları*. Bakı.

Yaqub, İsmayılov (2010). *Mir Cəlalın yaradıcılığı*. Bakı: Elm. 292 s.

Quliyev, Elman (2011). *Türk xalqları ədəbiyyatı*. CONATANT EMPARY. 568 s.

Mir Cəlal Paşayev (2005). *Ədəbiyyatşünaslığın əsasları*. Bakı: Çaşıoğlu. 312 s.

Mir Cəlal Paşayev (2005). Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb. 384 s.

Təyyar Salamoğlu (2018). *Mir Cəlal nəsri və müasirlik*. (*metodoloji münasibət kontekstində).* Bakı: ORXAN NPM.

AZƏRBAYCAN ƏDƏBİYYATINDA TÜRK ƏSGƏRİ OBRAZINA BAXIŞ

*Salidə ŞƏRİFOVA**

Türkiyə və türk əsgərinin Azərbaycan ədəbiyyatında təsviri öz dinamikası ilə seçilir. Tarixin müxtəlif dövrlərində Azərbaycan ədəbiyyatında Türkiyə və türk əsgərinin təsviri fərqli xüsusiyyətlərə malik idi. Türkiyə və türk əsgərinin Azərbaycan ədəbiyyatında əks etdirilməsi bir neçə mərhələdən keçmişdir. XX-ci əsrin əvvəllərində Türkiyə və türk əsgərinin Azərbaycan ədəbiyyatında inikası özünü aktiv şəkildə göstərmiş, Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında başa çatmışdır. Sosialist dövrü ədəbiyyatında Türkiyə və türk əsgərinin təsvir edilməsi epizodik xarakter daşısa da, ədəbiyyatda özünü geniş şəkildə göstərə bilməməsi bir çox siyasi və sosial amillərlə sıx bağlı idi. 1918-ci il mayın 28-də Azərbaycanın dövlət müstəqilliyinin elan etmiş və cəmi 23 ay ömür sürmüş Azərbaycan Xalq Cümhuriyyətinə yardım məqsədilə, sentyabrın 15-də Bakının birləşmiş Türk-Azərbaycan hərbi qüvvələri tərəfindən azad edilməsi kimi hadisələrin Azərbaycan ədəbiyyatında təsviri tarixə real qiymətlə yanaşı, xilaskar Türk ordusunun və türk əsgərlərinin şanlı obrazının yaradılmasıdır. Məsələn, Əhməd Cavadın Bakını erməni-rus işğalından qurtaran türk əsgərlərini alşıqlayan "Ey əsgər", "Türk ordusuna", "Şəhidlər" və digər şeirləri məhz türk əsgərlərinin xilaskar olmasını təbliğ edir. Sosialist dövrü bir neçə mərhələdən ibarətdir. Beləliklə, Stalin hakimiyyət dövründə Azərbaycan ədəbi cəmiyyəti kütləvi repressiyalarla üzləşdi: ədəbi milli yaradıcı elitanın bir qismi ya güllələndi (məsələn Ə. Cavad, M. Müşfiq, S. Mümtaz), ya da sürgün olundu (məsələn H. Cavid). Lakin milli müstəqilliyini müdafiə edən müsavat ideyaları ilə tərbiyə edilmiş yaradıcı elita "böyük qardaş" obrazını və sosialist dogmasının böyük təsvirini qəbul etmədi. Bədii əsərlərin rəsmi olaraq kommunist quruluşuna həsr olunmasına baxmayaraq, xəttlər arasında milli kimliyin qorunması və milli mədəniyyətin inkişafına dair çağırışlar oxunurdu. Qələmə alınmış bədii əsərlər rəsmi olaraq kommunist quruluşna

* Azərbaycan ədəbiyyatı şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru, dosent, Azərbaycan Milli Elmlər Akademiyası, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Müstəqillik dövrü; salidasharifova@yahoo.com

həsr olunmasına rəğmən, süjet xəttlərində, həmçinin təbliğ edilən ideyada milli kimliyin qorunması və milli mədəniyyətin inkişafına dair çağırışlar özünü göstərirdi. Müasir dövr Azərbaycan ədəbiyyatında Türkiyəyə, türk əsgəri obrazına münasibət özünü büruzə vermişdir. Bəxtiyar Vahabzadənin "Azərbaycan-Türkiyə" şeirində bir millət olması əksini tapmışdır:

Bir millətik, iki dövlət Eyni arzu, eyni niyyət.
Hər ikisi cümhuriyyət Azərbaycan-Türkiyə.

XX-ci əsrin əvvəllərində Türkiyə və türk əsgərinin təsviri ikili, bəzən isə ziddiyyətli xüsusiyyətə malik idi. Bir tərəfdən, azərbaycanlı yazarların məqsədi Qafqazın hərbi ələ keçirilməsi, xüsusilə də Azərbaycanda gedən və baş verən tarixi hadisələri prosesləri qiymətləndirməyə cəhd etmişdilər. Digər tərəfdən, azərbaycanlı maarifçilər öz əsərlərində Türkiyəilə elmi və mədəni əlaqələrin genişləndirilməsi amilinə xüsusi diqqət yetirməyi səsləndirirdilər. Azərbaycan ədəbiyyatında Türkiyə və türk əsgəri obrazının verilməsi milli dövlət quruculuğundan doğan fəxarət hissi ilə müəlliflər tərəfindən qələmə alınırdı. Bunlar Milli istiqlal ideyaları, vətənpərvərlik və qəhrəmanlıq kimi ali hisslərlə sıx bağlı idi. Bütün bu amillər bədii ədəbiyyatın bütün növlərində, yəni nəsrdə, nəzmdə və dramda əksini tapmışdı. Maraqlı məqamlardan biri də budur ki, bu yalnız son dövr Azərbaycan ədəbiyyatında deyil, həmçinin ötən əsr ədəbiyyatına da xas idi. XX-ci əsrin əvvəllərində yazıb-yaratmış Əhməd Cavad, Cəfər Cabbarlı, Məhəmməd Hadi, Abdulla Şaiq, Əli Şövqi, Ümgülsüm Sadıqzadə, Əmin Abid Güntəkin kimi ədiblərin yaradıcılıqlarında rast gəlmək mümkündür.

Maraqlı faktdır ki, tarixi dövrdən asılı olmayaraq, Türkiyə və türk əsgərinin Azərbaycan ədəbiyyatında təsviri zamanı Türk əsgərlərin şəhidliyinə, onların xilaskar roluna, Türk odusunun bir sıra ali zabitlərin obrazlanın açıqlanmasına (məsələn Nuru Paşa və Ənvər bəy) önəmli diqqət yetirlir.

Türk şəhidi obrazı Azərbaycan ədəbiyyatında özünəməxsusluğu, daha qısası şəhid düşmüş türk əsgərini sevgisi ilə fərqlənirlər. Belə ki, ədiblər özlərinin hiss və həyacanları ilə yanaşı, tarixə real qiyməti məhz şəhid türk əsgərinin obrazı ilə verməyə qadir ola bilmişdir. Məsələn, Qabilin şəhid türk əsgərinin obrazı ilə yanaşı türk əsgərinin qəbrini obraz səviyyəsinə yüksəldə bilmişdir:

Türkün qəbri
Qədim Şirvan yollarının Üstündədir.
Azərbaycan torpağının,
Altında yox,
Sinəsində,
Köksündədir,
Qollarının üstündədir.

Bəxtiyar Vahabzadənin "Tənha məzar" şerində də türk şəhid əsgərinin məzarı obraz səviyyəsinə qaldırılmışdır. B. Vahabzadə türk məzarında uyanların xalqımızın azadlığı uğurunda canlarından keçməsini canlandıra bilmişdir:

O bir Türk zabiti qəhrəman, mətin
Doğma qardaşına yardıma gəldi.
Qırğına tutulan millətimizin
Haqlı savaşına yardıma gəldi.
Uzaqdan hay verib sənin səsinə
Gəldi, gəldi dönmədi öz ölkəsinə.
Düşmən səflərini, o soldan sağa
Biçib dəstəsi ilə cəbhəni yardı.
Torpağın uğrunda düşüb torpağa
Sənin torpağını sənə qaytardı.
Özü qoruduğu, həm can verdiyi
Yolun kənarında dəfn edildi o.

Türk əsgərinin xilaskar obrazı Azərbaycan ədəbiyyatında yüksək ali hisslərə malik obraz kimi təsvir və tərənnüm edilmişdir. Hüseyn Cavidin "Türk əsirləri"; Salman Mümtazın "Ənvəriyyə", "Öyün, millət"; Ümmügülsümün "Yolunu gözlədim"; Məhəmməd Hadinin "Şühedayı hürriyetimizin ervahına ithaf", "Kahraman türk askerlerine"; Əhməd Cavadın "Şəhidlərə"; Nazim Hikmətin "Şəhidlər" və sair kimi şeirlərində Türkiyə, türk ordusu və türk əsgərlərinə sevgi, ehtiram əksini tapmışdır. Məsələn, Abdulla Şaiqin "Neçin böylə gecikdin?" şeirində məhz türk əsgərinin xilaskar obrazı bütün incəliyi ilə açıqlanmışdır. Türk əsgərini, həmçinin Türkiyəni xilaskarı kimi görən Abdulla Şaiq bunu belə vurğulamışdır:

Sən gəlməsən, dolumsanmış ürəklər
Sən gəlməsən, xarabaya dönən qəlb abad olmaz.
Sən gəlməsən, günəş doğmaz, ümid gülüm açılmaz
Dodaqlarım gülməz, sönmüş bəxtimə nur saçılmaz
Başqasını istəməm də, ey Türk, tez ol sən gəl, sən
Gözləməkdən yoruldum, ah, axı gecikdin nədən?

XX-ci əsrin əvvəlləri, 1918-ci ildə Azərbaycan xalqının taleyində həlledici sayılan hadisələr baxımından ən əhəmiyyətli zaman kəsiyində baş vermiş olayların Azərbaycan ədəbiyyatında təsviri əhəmiyyət kəsb edirdi. 36 saata Bakını azad etmiş Nuru Paşa obrazına münasibət, onun Azərbaycan ədəbiyyatında kamil obrazının təsviri Türkiyə və türk əsgəri obrazının parlaq və tam şəkildə işlənərək oxucuya çatdırılmasının göstəricisidir. 1918-ci il Martın 30-da axşam başlanan və faktiki olaraq bir həftə davam etmiş, azərbaycanlı qırğınlarından azərbaycanlıları xilas etmək məqsədilə Osmanlı dövləti Azərbaycanı xilas etmək üçün qərargah yaratmış, Qafqaz İslam Ordusunun komandanı

vəzifəsinə isə 29 yaşlı sərkərdə Nuru Paşanın təyin edilməsi onun Azərbaycan ədəbiyyatında parlaq obrazının yaradılmasına səbəb oldu. AXC-nin Azərbaycan xalq təhsili naziri olmuş Nəsib bəy Yusifbəyovun 1918-ci ilin noyabrında hərbi məktəbin ilk buraxılışında çıxışında bu təntənədə iştirak edən Nuru Paşanın atası Hacı Əhməd Paşaya dediyi *"Zatı-aliləri, sizin şanlı oğullarınız Ənvər Paşa və Nuru Paşanın adları nəinki təkcə Azərbaycanın, eyni zamanda bütün türk xalqlarının yaddaşında həmişəlik qalacaqdır."* fikirləri bu gün də özünü doğrultmaqdadır.

Müstəqillik dövrü ədəbiyyatında Türkiyə və türk əsgəri obrazlarına istər poeziyada, istər dramaturgiyada, istərsə də nəsrdə geniş müracət edilmişdir. Məsələn, Xalq şairi Nəriman Həsənzadənin "Nuru Paşa" poeması Türk xilaskarının həsr edilmiş kamil əsərlərdən biridir:

Türk can qoydu bu torpaqda
"Azərbaycan!" deyə-deyə.
Tarix, səni oxuyuram
Mən Türkə "Can" deyə-deyə...

Mustafa Nurunun Nuru paşa kimi tanınması, Türk dünyası tarixində özəlliyə malik olan 15 sentyabr tarixi məhz Nuru paşanın komandanlığı altında türk qoşunları Bakını bolşevik, ermənidaşnak birləşmələrinin işğalından azad etməsi tarixidir. Qeyd etmək lazımdır ki, Bakının işğaldan azad olunmasında 6 min azərbaycanlı hərbçi və könüllü dəstə, 8 min türk əsgər və zabiti iştirak etmişdir.

Nuru Paşa obrazı Azərbaycan dramaturgiyasında özünün kamilliyi ilə fərqlənir. Belə ki, Cəfər Cabbarlının sovet hakimiyyəti illərində milliyyətçilik ruhunda yazılmış zərərli əsərlər hesab edilmiş *Yıldız, yaxud Trablis müharibəsi* və *Ədirnə fəthi* adlanan tarixi dram əsərlərində Nuru Paşa obrazı, həmçinin Türkiyə obrazının azərbaycanlı oxucusuna çatdırılmasını müşahidə edirik. Ərazi bütövlüyünü qorumağı təqlid edən bu dram əsərlərində biz Türkiyənin imperialist qüvvələrə qarşı amansız mübarizəsini, İtaliyanın 29 sentyabr 1911-ci il tarixində Osmanlı dövlətinə müharibə elan etməsi və Trablis qərb savaşına qoşulmuş Türkiyənin əzmkar mübarizəsi əksini tapmışdır. Cəfər Cabbarlı Nuru Paşaya həsr etdiyi *Yıldız, yaxud Trablis müharibəsi* dram əsərində məhz on minlərlə Azərbaycan türkünün amansızlıqla öldürüldüyü mart qətliamından iki ay sonra Trablisi – Qərb cəbhəsindən geri çağırılaraq Azərbaycana göndərilmiş Nuri Paşanı bədii ədəbiyyatda ilk obrazını yaratmış azərbaycanlıdır. Cəfər Cabbarlının *Ədirnə fəthi* dram əsəri süjet xəttinə görə *Yıldız, yaxud Trablis müharibəsi* dramının davamı kimi qəbul edilir. Bu dram əsərində də doğma torpağını işğalçılardan təmizlənmə əksini tapmışdır.

Əsərdə xalqa müraciət etmiş Mustafa kapitanın fikirləri isə Türkiyənin əbədi yaşayacağına səsləyişini səsləndirir: *"Əfəndilər! Bu gün Türkiyə aləmi*

bir vücud kimi 'Ya Ədirnə, ya ölüm', – deyə fəryad edirlər. Hökumət millət üçündür və millətin arzusuna əməl etməlidir. Biz düşmənlərimizə göstərməliyik ki, Türkiyə ölməmiş, onu qorxaqlar bu hala salmışlar. Türklər bundan artıq, daha ağır fəlakətləri görə bilərlər, türklər bundan daha dərin uçurumlara düşə bilərlər. Fəqət türk millətinin ürəyində oyanmış bugünkü intibah onu qiyamətə qədər yaşadacaq." Əsərdə özünəməxsusluğu ilə seçilən Kamal Paşanın fikirləri isə xalqını ehtiyatlı davranmağa səsləyir: *"Biz unutmamalıyıq ki, arada bir Avropa nüfuzu vardır. Zatən bizi bolqar, qaradağ, yunan hərb ittifaqı deyil, Avropa siyasəti məğlub edir. Müttəfiqləri hərbə qalxızan Avropa Ədirnə və qeyri - bu kimi bölük bolqarlarda və yaxud yunanlarda qalması ilə məsələ bitmiş olmamalıdır. Bu məsələlərin hamısı gələcəkdə mütəhəmmil və hər dəqiqə bəkləmək ümumcahan müharibəsində həll olunacaqdır. Lakin şimdilik ehtimallara istinadən milləti əbəs yerə qırdırmağa dəyməz."* Qeyd etməliyik ki, tarixi ədəbiyyatda "Trablis qəhrəmanı" kimi şöhrətlənmiş Nuri Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun Gəncədən Bakıyadək olan 362 km. məsafənin erməni-bolşevik hərbi birləşmələrindən azad etməsində xidmətləri olmuş Nuri Paşanın hərbi xadim və şəxsiyyət kimi bədii obrazını təsviri, generalın Bakının xilası uğrundakı zəfər və qəhrəmanlıqları ilə Cəfər Cabbarlının müstəqil Azərbaycan dövlətini alqışlayan "Bakı müharibəsi" əsərində geniş təsvir edilməsi qeyd olunur. Əsərin 1919-cu ildə tamaşaya qoyulması haqqında məlumat bəllidir. Arxivlərdə isə yalnız əsərin proqram və afişaları qalmışdı.

Cəfər Cabbarlının *Ədirnə fəthi* pyesində Ənvər bəyin obraz da Azərbyacan bədii ədəbiyyatında xilsakar türk əsgərinin obrazlarından biri kimi canlandırılmışdır. Belə ki, biz Ənvər bəyin *Ədirnə fəthi* pyesində baş qəhrəmanlardan biri olan Ənvər bəyin son monoloqundakı fikirləri onun kamil obrazını oxucu gözündə canlandırır: *"Ey qəhrəman türklərin igid balaları! Siz şanlı türk övladları olduğunuzu heç hərbə girmədən bu qədər böyük məsafəni 3 günə piyada gəlirkən, sübut etdiniz! Qardaşlar, biz Ədirnəyə kimsəni əzməyə gəlmədik, biz kimsəyə hücum etmək, kimsəni tapdamaq istəmədik və kəndimizin də tapdanmamasına yol vermərik. Bunu görməkdənsə, ölümümüzü görmək istərik. Ey Şərq günəşinin hərarətli qoynunda bəslənən azad Asiyanın istiqanlı, igid balaları... Qarışqalar kimi ayaqlar altında tapdanmağa da həyatmı deyirik? Xayır, türk olduğunu anlayan hər kəs, bunu qəbul etməz! Yerin üstündə yatmaqdansa, altında yatmaq daha gözəl deyilmi?"* Ənvər bəyin *"Bu gün Ədirnəni bütün Avropanın tələbinə rəğmən xilas edən kimdir? Nədir biliyormısınız? Türk millətinin qəlbində oyanan intibah! Həqiqi bir insan kimi yaşayan intibahi bir hiss, intibah! Onu yaşadacaq və üzərinə bütün Avropa, bütün dünya qalxarsa, susdurmayacaqdır."* kimi fikirləri isə gələcəyə səsləyiş olmaqla yanaşı, Türk xalqının intibah dövrünü yaşamasını düzgün görüb dəyərləndirməsidir.

Cəfər Cabbarlının *Trablis müharibəsi və ya Ulduz* pyesində də Ənvər bəyin kamil obrazı yaradılmışdır. Ümumiyyətlə, Cəfər Cabbarlının *Ədirnə fəthi* (1917) və *Trablis müharibəsi yaxud Ulduz* (1918) pyesləri mövzu baxımından Asim Hacı Əbdürrəhmanzadənin *Ədirnə müharibəsi, yaxud qəhrəman Şükür paşa*, Rəhim Məmmədzadənin *Ənvər bəy, yaxud Kamil paşa kabinəsi*, Namik Kamalın *Osmanlı müharibəsi*, Məmmədbağır Əliyevin *Kamil paşa və yeni türklər* kimi pyeslərlə mövzu baxımından yaxın olmaları Türkiyə və türk əsgərinin şücaətinin bədii söz sənətində aktuallıq kəsb etməsinin göstəricisidir.

Ənvər bəyin obrazı poeziyada da əksini tapmışdır. Belə ki, folklorşünas alim. Represiya qurbanı olmuş Salman Mümtazın 30 oktyabr 1918-ci il *Azərbaycan* qəzetində nəşr edilmiş xilaskar sərkərdələr Ənvər və Nuru Paşaya həsr etdiyi şeirlərdə türk əsgərinin xilaskar obrazı yaradılmışıdr. *Ənvəriyyə* şeirində Ənvər Paşaya müraciət əksini tapmışdır:

Səmada yıldırım tek parlayan dəm tiğinin berqi
İşıqlandırdı şemsasa seraser alemi-Şarkı,
Nisarı-xaki-payınçün düzüldü bin güzel şərqı
Benim naçiz şeirimle veli var onların farqi
Mübarek vəchini görcek tapar əşarımız zivər,
Yaşa, ey gaziyi-əzam, yaşa, ey möhtəşəm Ənvər!

Nuru Paşaya ithaf etdiyi "Öyün, millət" ("Azərbaycan" 1918) şeiri isə Nuru Paşaya həsr edilmişdir:

Kızılgül tek açıl, gül, gör ki Türkün şanlı ordusu
Revak-ı arşa nasbetmiş büyük Osmanlı unvanın.
Semaya doğru tuğrul tek sen, ey Türk oğlu, uç, yüksel
Ki, sensen şanlı evladı şerefli eski Turanın.

Əliabbas Müznibin "Hürriyyət qəhrəmanı, Ədirnə fatehi və Dardanel müdafei" epiqrafı ilə yazdığı "Qazi Ənvər Paşa" şerində də Ənvər bəyin kamil obrazı yaradılmış, onun Bakını daşnakbolşevik qırğınına məruz qoymuş Şaumyanı qaçmağa məcbur edən sərkərdə, "türk elinin qüvvəti" kimi dəyərləndirilmişdir:

Türkün qolu, türkün gücü, türkün qılıncısan,
Binlər yaşa bu şan ilə, ey sevgili Ənvər.

Azərbaycan mühacirət ədəbiyyatı da Türkiyə və türk əsgəri obrazının təsvir etməkdən xalii deyil. Belə ki, Mühacirətdə qələmə alınmış bəzi əsərlərdə biz Türkiyə və türk əsgəri obrazlarına rast gəlirik. Bu ilk, növbədə Türkiyənin Azərbaycana qarşı olan xoş niyyəti və türk əsgərinin xilaskar rolunda çıxış etməsindən irəli gəlir. Məsələn, dramaturq Abay Dağlının *Sakaryada 22-ci gün*, *Sakarya* (1965), *Sakarya çetəsi* (1969), *Malazgirtdən Sakaryaya* (1971) pyesləri ən uzun meydan müharibəsi kimi dünya hərb tarixinə adını yazdırmış,

1921-ci il 23 avqust - 12 sentyabr tarixləri arasında baş vemiş və türk xalqının tarixində həlledici rol oynamış Sakarya döyüşünə həsr edilməsi ilə diqqəti cəlb edir. Biz bu pyeslərdə türk ədəbiyyatının aparıcı mövzularından birinə çevrilmiş Sakaryanın istiqlal mücadiləsini təsvir etməklə böyük Türkiyənin və Sakarya uğrunda döyüşün baş qəhrəmanı Atatürkün obrazını yaratmağa qadir ola bilmişdir.

Qaynaqlar

1. *Azərbaycan* qəz. (1918). 27 təşrini-əvvəl,.
2. Dağlı, Abay (1971). *Malazgirtten Sakaryaya*. İstanbul: Minnetoğlu Yayınları. 72 s.
3. ----- (1969) *Sakarya çetesi*. Adapazarı: Sakarya Halkevi. 29 s.
4. ----- (1965) *Sakarya.* Adapazarı. 56 s.
5. ----- (1971). *Sakaryada 22-ci gün*. İstanbul. 79 s.
6. Bayramoğlu, Abay (2003). *Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat*. Bakı: Elm. 276 s.
7. *Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu (*2008). Bakı. 696 s.
8. Bəxtiyar Vahabzadə (2009). *Ağıl başqa ürək başqa*. Bakı: Azərbaycan nəşr.
9. Cəfər Cabbarlı ((2005). *Əsərləri. Dörd cilddə*. II cild. Bakı: Şərq-Qərb. 360 s.
10. Elman Mustafa (2007). *Şeirimizdə Trablisqərb və balkan savaşları. Xəzər Universitetinin mətbəəsi.* Bakı: Elm və təhsil. 53 s.
11. Əhməd Cavad (2005). *Seçilmiş əsərləri*. Bakı: Şərq-Qərb. 296 s.
12. Əliabbas Müznib (2007). *Seçilmiş əsərlər*. Bakı: Nurlan.
13. Minaxanım Təkləli (2008). *Mehmet Rıhtım: Qafqaz İslam ordusunun xronologiyası*. Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi. 104 s.
14. Nəriman Həsənzadə (2010). *Nuru Paşa*. Bakı. 2010, 104 s.
15. Nəsiman Yaqublu (2010). *Bakının Qurtuluşu*. Bakı: Elm və təhsil. 200 s.

AHMET CEVAT VE MİLLÎ MÜCADELE

*Aydan UMUDOVA ÇEVİK**

Giriş

1991 yılında bağımsızlığını ilan eden Azerbaycan Cumhuriyeti, 1918-1920 yılları arasında Doğu'da ilk laik, demokratik devlet olarak tarihe yazılan Azerbaycan Halk Cumhuriyeti'nin siyasi varisidir. Gergin ve ağır sosyal-siyasi ortamda faaliyet gösteren Azerbaycan Halk Cumhuriyeti'nin devlet kuruculuğu, ekonomi, askerî, kültür, eğitim, edebiyat ve başka alanlarda gerçekleştirdiği mühim işler Azerbaycan tarihinde çok önemli bir yere sahiptir.

Gürcistan Mavaera-yı Kafkasya Seym'inden ayrılıp bağımsızlığını ilan edince, Seym'de bulunan Azerbaycan Türkleri hemen toplanarak Azerbaycan Millî Şurasını kurmuş ve başkanlığına Mehmet Emin Resulzade'yi seçerek 28 Mayıs 1918 tarihinde Tiflis'te Azerbaycan Misak-ı Millîsi'ni ilan etmişlerdir (Mehmetzade 2002: 259).

Yaklaşık yüz sene süren Rus işgal ve istilasına karşı verilen büyük mücadele sonucunda, Azerbaycan, Mehmet Emin Resulzade önderliğinde 28 Mayıs 1918 tarihinde bağımsızlığını ilan etmiştir. Azerbaycan Millî Şurası'nın kurduğu bu ilk Türk Cumhuriyeti'nin hükûmet başkanlığına ise Fethali Han Hoyski seçilmiştir.

Bağımsızlığını ilan eden Azerbaycan, kendisini bekleyen sıkıntılarla başa çıkabilmek için destek aramış ve 4 Haziran 1918 tarihinde askerî, iktisadi ve kültürel alanda Türkiye ile karşılıklı yardımlaşma antlaşması imzalamıştır. Nitekim bir müddet sonra hükûmet adına Mehmet Emin Resulzade, Türkiye'ye müracaat ederek, 4 Haziran 1918 antlaşması çerçevesinde askeri yardım talebinde bulunmuştur. Azerbaycan'ın bu talebini kabul eden Türkiye, buraya Nuri Paşa komutasında Kafkas İslam Ordusu'nu göndermiş, bu birlik 15 Eylül 1918 tarihinde Bakü'yü, İngiliz işgalinden kurtarmış ve Azerbaycan'ın başkenti de Gence'den Bakü'ye taşınmıştır (Şimşir 2018: 32-33).

* Muğla Sıtkı Koçman Üniversitesi Türk Dili ve Edebiyatı Bölümü, doktora; aydan_umudova@yahoo.com

1. Millî Dönem Cumhuriyet Edebiyatının Özellikleri, Türkçülük, Milliyetçilik Düşüncelerinin Edebiyata Yansıması, Dönemin Türkçü-Milliyetçi Şair ve Yazarları

Azerbaycan Halk Cumhuriyeti'nin kurulması sadece ülkenin sosyal-siyasi hayatına değil aynı zamanda sanat ve edebiyatına da büyük katkı sağlamıştır. Millî Dönem Cumhuriyet edebiyatı Türk milletinin millî değer ve düşüncelerini ön planda tutan bir edebiyat akımı olarak Ahmet Cevat, Abdullah Şaik, Muhammet Hadi gibi aydın şairleri etrafında birleştirmiş, şekil bakımından şiirde manevi özgürlükten doğan hislerin, Türkçülük, milliyetçilik düşüncelerinin edebiyatta yer almasına yol açmıştır.

1918-1920 yıllarında milliyetçi şairler Muhammed Hadi, Abdulla Şaik, Cafer Cabbarlı, Ahmet Cevat, Hüseyin Cavit, Ümgülsüm Sadıkzade, Ali Yusuf edebî alanda başarılı işlere imza atarak Türkçülük, vatan sevgisi, milliyetçilik ideolojisini eserlerine yansıtmışlar. Muhammed Hadi "Askerlerimize, Gönüllülerimize", "Mefhureyi-Aliyemiz", "ŞühedayiHürriyetimizin Ahvaline-İthaf" gibi şiirlerinde kazanılan millî özgürlüğün korunması yolunda milletini mücadeleye seslemiştir. 1918 yılında Ermeni daşnakları tarafından yapılan kanlı katliamlardan, dökülen binlerle günahsız kanlardan sarsılmış şair bu yolda şehit olanlara ağlayarak duygularını "Şühedayi-Hürriyetimizin Ahvaline-İthaf" şiirinde ifade etmiştir. "Askerlerimize, Gönüllülerimize" adlı eserinde ise Muhammed Hadi bağımsızlık uğruna giden savaşta kahraman vatan oğullarını güçlü olmaya; toprağını, halkını, devletini korumaya çağırmıştır. Türkçü-Turancı düşüncelere köklenmiş Abdulla Şaik'in edebî kişiliğinde Halk Cumhuriyeti'ne beslenen saygı ve sevgi önemli bir husustur. "Yeni Ay Doğarken", "Marş", "Vatanın Yanık Sesi", "Araz'dan Turan'a" şiirlerinde vatansever şairin özgür, bağımsız devlete, Halk Cumhuriyeti'ne sevgisi duyulmaktadır. Abdulla Şaik'in Cumhuriyet döneminde kaleme aldığı *Asrımızın Kahramanları* romanının bir kısmında, Birinci Dünya Savaşı, Çarlık Rusya'sının çöküşü, Ekim devrimi döneminde yeni nesli düşündüren ve endişelendiren sorunların dikkat merkezine alındığı belirtilmiştir.

Türkçülük, milliyetçilik fikirlerine genç yaşlarından büyük ilgi gösteren Cafer Cabbarlı millî hareketin genişlendiği ilk yıllarda *Trablis Savaşı* ve *Edirne Fethi* oyunlarını yazmış ve bu eserler Türkiye'de cereyan eden devrimi, tarihî olayları, Türk halkının kendi egemenliğini, toprağını koruma yolunda verdiği mücadeleyi anlatmıştır.

Cafer Cabbarlı drama, aynı zamanda şiir alanında da eserler yazmış, milliyetçiliği, vatanının, toprağının güzelliğini tasvir etmiştir. "Azerbaycan Bayrağına", "Sevdiğim", "Sevimli Ülkem", "Selam" adlı ilk şiirlerinde Halk Cumhuriyeti'nin varlığını duyan, bu devlete olan sevgisini kalbinde yaşatan milliyetçi ruhun sesi duyulmaktadır. "Azerbaycan bayrağına" şiiri şairin

"özgürlük ve istiklal" sevgisini orijinal şekilde yansıtan eserlerden biri olarak yüksek değerlendirilmiş ve bayrak, Türkçülük, milliyetçilik düşüncesi ön plana çıkmıştır. Bu şiirde Cafer Cabbarlı Azerbaycan bayrağının simgesi olan üç rengin (mavi, kırmızı, yeşil) anlamını şiirsel bir dille şu şekilde ifade etmiştir:

"*Bu mavi boya*
Gök Moğoldan kalmış
Bir Türk nişanı,
Bir Türkoğlu olmalı!
Yeşil boya İslamlığın sarsılmayan imanı,
Yüreklere dolmalı!
Şu al boya özgürlüğün, teceddüdün fermanı,
Medeniyet bulmalı!
Sekiz uçlu şu yıldız da sekiz harfli od yurdu,
Esaretin gecesinden fırsat bulmuş kuş gibi
Sabahlara uçmuştur" (Cabbarlı 2017: 18).

"Sevdiğim" adlı şiirinde de şair bayrağa, vatana kutsal duygularla bağlanmış ve bu bayrakta milliyetçilik, Türkçülük, Turancılık düşüncelerini birleştirmiştir.

Azerbaycan İstiklal Marşı'nın yazarı, Türkçü-milliyetçi şair, vatanının bağımsızlığı uğrunda canını feda etmiş aydın, Ahmet Cevat şiirlerinde de bayrak, vatan konusu önemli bir yere sahiptir. Ahmet Cevat'ın millî düşünce ve mücadelesi hemen hemen bütün eserlerine yansımaktadır. "Ben Türk Evladıyım", "Millî Marş", "Şehit Esir", "Şehitlere", "Türk Ordusuna", "İmdat", "Derdim", "Azerbaycan, Azerbaycan" şiirlerinde Türkçülük ve toprak sevgisi daha açık bir şekilde görülmektedir. Türkiye devleti ile siyasi, edebî-kültürel bakımından köprünün kurulmasında müstesna hizmetleri olan şair hiçbir şeyden korkmadan Türk ordusunun bulunduğu savaşlara dahi katılmış, Türk ordusunu, askerlerini, kahramanlarını öven millî içerikli *İstiklal Uğruna Şiirler* adlı kitabını yazmıştır.

Mehmet Sait Ordubadi, Aligulu Gemküsar, Hüseyin Cavit, Ali Şövkü, Davud Ağamirzade ve başka şairler Halk Cumhuriyeti döneminin genel manzarasını şiirde verdiği gibi, bu yıllarda düzyazı ile uğraşan Celil Memmedguluzade, Abdürrahim Bey Hakverdiyev, Yusuf Vezir Çemenzeminli, Abdulla Şaik, Seyit Hüseyin, Tağı Şahbazi gibi yazarlar da bu manzarayı eserlerine yansıtmışlar.

Celil Memmedguluzade öykülerinde kadın özgürlüğü ("Konsolosun Karısı", "Hanın Tespihi", "Kasap") sorunlarına değinmiş, "Zırrama" öyküsünde olumsuz ahlaki nitelikler eleştiri merkezi olmuştur. O, *Anamın Kitabı* oyunu ile millî birlik, manevi bütünlük ideolojisi üzerine kurulan devletin taraftarı olduğunu ifade etmiştir. Yazara göre, birliği ve bütünlüğü olmayan milletin

ekonomi, siyasi, manevi güç, kudret sahibi olması, tarihte uzun süre duruş sergilemesi mümkün değildir. Celil Memmedguluzade oyununda bir annenin evlatları olan Rüstem Bey, Mirze Muhammedali, Samet Vahit aracılığıyla kölelik ve esaretin milletin karakterinde bırakmış olduğu acı izlere değinmiş, aynı zamanda yazar sadece milletin ruhuna işleyen yabancı etkileri dikkat merkezine almakla kalmamış, hem de bu beladan kurtulmanın yollarını aramıştır.

Abdürrahim Bey Hakverdiyev'in "Mirze Sefer", Seyid Hüseyin'in "Hazin Bir Hatıra", "İsmailliye" öyküleri de millî mücadele bakımından dikkat çekmektedir. Araştırmacılar "İsmailliye" öyküsünde şairin istiklal ve özgürlük hareketi ile bağlı olaylara dikkat çekmeye çalıştığını, aslında İsmailliye simasında bütün ruhu ve kalbi ile bağlı olduğu Azerbaycan'ı yansıttığını belirtmişler.

1918 yılında Celil Memmedguluzade'nin önderliğiyle Tiflis'te Azerbaycan Türkçesiyle basılan *Molla Nasrettin* dergisi etrafında Ömer Faik Nemanzade, Adürrahim bey Hakverdiyev, Ali Nazmi, Aligulu Gemküsar, Mehmet Sait Ordubadi, Mirzeli Möcüz Şebüstari gibi realist şair ve yazarlar toplanmışlardır. Bu dergi, XX. yüzyılın ilk çeyreğinde özgürlük harekatının habercisi olarak ezilen, insanlık ve vatandaşlık haklarından mahrum insanların hukukları ve hakiki demokrasi, milli mücadele uğrunda savaşmaktaydı.

Cumhuriyet döneminde Bakü, Gence, Şuşa, Tiflis, İrevan ve diğer kültürel-idari merkezlerde yayımlanan basın örnekleri yalnız Azerbaycan Türkçesi-Türkiye Türkçesiyle değil, aynı zamanda Rus, Gürcü, Ermeni, Polyak, Fars, Alman ve başka dillerde de basılmaktaydı. Azerbaycan Halk Cumhuriyeti döneminde *Müslümanlık* (1917-1919), *Gençler Yurdu* (1918), *Şeypur* (1918-1919), *İstiklal* (1918-1920), *Zenbur* (1919), *Azerbaycan* (1918-1920), *Övragi-Nefise* (1919), *Kurtuluş* (1920), *Medeniyet* (1920) gibi millî yönümlü basın organları faaliyet göstermiştir. Azerbaycan basınının gelişmesinde *Molla Nasrettin* dergisinin yaydığı derin bağımsızlık ve özgürlük ideolojisi, emperyalizmin sömürge siyasetine, geriliğe, mevhumata, cehalete, hurafata karşı mücadelede, ilim ve kültürün ilerlemesinde önemli rol oynamıştır. Böylelikle 19. yüzyılın sonları 20. yüzyılın başlangıcının bütün basın örnekleri Azerbaycan'da millî-sosyal fikrin, özgürlük iradesinin uyanışında müstesna önem arz etmektedir.

2. İstiklal Şairi Ahmet Cevat'ın Edebî Kişiliği, Türkiye Sevgisi ve Millî Mücadelesi

Bu dönemin bir diğer önemli ismi, İstiklal şairi olarak da tanınan Türkçü-milliyetçi şair Ahmet Cevat, "Azerbaycan Bayrağına", "Çırpınırdı Karadeniz", "Türk Ordusuna", "Şehitler", "İstanbul" vb. şiirlerinde ülkedeki millî

mücadeleyi anlatarak, bu yolda canını veren şehitlere karşı duyduğu saygı ve sevgisini ifade etmiştir. Bu eserlerde Mehmet Emin Resulzade'nin "Bir kere yükselen bayrak, bir daha inmez." düşüncesi, Azerbaycan'ın bağımsızlığına kavuşması, halkın mücadele ile dolu hayatı, millî duyguları kaleme alınmıştır. Şairin "Azerbaycan Bayrağına" isimli şiirinde millî gurur ve bayrak sevgisi şu mısralarla dile getirilmiştir:

"Türkistan yelleri öpüp alnını,
Söylüyor derdini sana, bayrağım!
Üç rengin aksini Guzğun denizden,
Armağan yollasın yara, bayrağım!" (Nabiyev 2012: 53).

Ahmet Cevat'ın sağlığında sadece iki şiir kitabı yayımlanmıştır. 1916 yılında Açık Söz yayınevi tarafından *Koşma*, 1919 yılında ise Hükûmet Matbaası tarafından *Dalga* adlı kitabı basılmıştır. *Koşma* kitabı 34, *Dalga* kitabı ise millî ruhlu 23 şiir içermektedir.

1920 yılında Azerbaycan Halk Cumhuriyeti'nin dağılması, Azerbaycan'ın bağımsızlığını kaybederek Sovyetler Birliği'ne girmesi şairi derinden üzmüştür. Sert Sovyet rejimine itiraz eden şair 1925 yılında yazdığı "Göy Göl" şiiri ile hükûmetin dikkatini kendi üzerine çekmiştir. Ahmet Cevat, "milliyetçi", "Türkçü", "karşı-devrimci", "düşman", "vatan haini" damgası ile 1937 4 Haziran'da hapsedilmiş ve aynı yılın 13 Ekim tarihinde amansızcasına kurşuna dizilmiştir (Aliyeva ve Ahmedova 2017: 16). Şiirleri vatan sevgisi, toprağa bağlılık, Türkçülük, Türk halklarının birliği, bağımsızlık, özgürlük yolunda gençlerin ayağa kalkması, sömürge siyasetine boyun eğmeme gibi konuları ve milliyetçilik ideolojisini yansıttığından dolayı 20 yıl zaman diliminde onun bütün eserlerinin okunması yasaklanmış, *Koşma* ve *Dalga* adlı şiir kitapları yakılmıştır. Stalin rejimi tarafından kurşuna dizilen Ahmet Cevat'ın ailesi de Sovyet Hükûmeti tarafından sürekli takip edilmiş ve eşi Şükriye Hanım "Vatan haininin aile bireyi" damgasıyla sekiz yıllığına Kazakistan'a sürgün edilmiştir. Şair ölümünden sonra 1950 yılında aklanmış ve 1958 yılında *Azerneşir* yayınevi tarafından *Şiirler* adlı kitabı basılmıştır.

2.1. Ahmet Cevat'ın Türkiye Sevgisi

Ahmet Cevat, şair-pedagog Abdulla Şaik'le beraber gönüllü asker olarak İstanbul'da kurulan "Kafkas Gönüllüleri" sırasına katılmış ve Trakya cephesinde Türkiye'nin bağımsızlığı uğrunda Türk kardeşleri ile omuz omuza savaşmıştır. Birinci dünya savaşı zamanı 1914 yılında Türkiye'nin Doğu tarafı Rus ordusunun işgaline, Kars ve Erzurum ahalisi Rus ve Ermenilerin katliamına maruz kalmıştır. Bu dönemde Bakü'de bulunan "Azerbaycan Cemiyet-i Hayriye"si Türkiye'nin Doğu vilayetlerindeki insanlara yardım etmekteydi. Bu işle Ahmet Cevat da yakından ilgilenmiş, Bakü-Kars yolunda Rusların

yarattığı engellere rağmen usanmadan Türk kardeşlerine yardım etmeye devam etmiştir. Kardeş halkın bu kötü gününü, Kars'ta karşılaştığı yürek dağlayan manzarayı şiirsel biçimde "Ne Gördümse" eserinde şu şekilde dile getirmiştir:

Armağanım yaslı şarkı,
Bir kuş oldum, çıktım yola.
Gittim gördüm dost elinde
Ne bir ses var, ne bir layla.
Sordum garip minareye:
"Akşam olmuş, ezan nerde?
Baykuş konmuş minberlere,
Söyleyen nerde, duyan nerde?"
Vicdan bana emir eder ki:
"Böyle günde bayram etme".
***Kur'an** bana yol gösterir:*
"Yoksulları meyus etme" (Cevat 1992: 128).

Şiir 22 Mart 1915 yılında yazılmış ve son kıtada Ahmet Cevat bayramdan bahsetmiştir. Bu tarihte Azerbaycan'da Nevruz bayramının kutlanmasına rağmen şair böyle bir günde bayram etmemiş, Kars'taki kardeşlerinin yasını tutmuştur.

Şair, birinci dünya savaşının sonlarında Kafkas cephesinden Azerbaycan'a yardım için gelen "mukaddes mehmetçik"lerle beraber Bakü'de düşmanla savaşmış ve bu savaş meydanında milli duygulara sahip Türkçülük düşüncelerini yansıtan:

"*Atıldı dağlardan zafer topları,*
Yürüdü ireli asker, Bismillah.
O, Han sarayında çiçekli bir kız,
Bekliyor bizleri zafer, Bismillah.
Ey harbin taleyi bize yol ver, yol.
Sen ey coşan deniz gel Türk'e ram ol,
Sen ey sağa, sola kılıç vuran kol,
Kollarına kuvvet gelir, Bismillah" (Memmedli 2010: 54).

mısralarını içeren "Bismillah" başlıklı şiirini yazmıştır.

Azerbaycan Cumhuriyeti, bu savaşta hayatını kaybeden Türk askerlerinin anısına Bakü'de şehitlik yaptırmış ve bu anıtın açılış programında Ahmet Cevat:

"Kalk, kalk sarmaşıklı mezar altından,
Gelmiş ziyarete kızlar, gelinler.
Ey kervan geçidi, yollar üstünde

Her gelen yolcuya yol soran asker.
Kovdukların senin yabancı hanlar,
Kurtardı ülkemi döktüğün kanlar.
Bak, nasıl öpmekte tozlar, dumanlar
Garip mezarını, benle beraber" (Cevat 1928: 89).

satırlarını içeren meşhur "Kalk" şiirini okumuştur.

Ahmet Cevat'ın Türkiye sevgisini ve millî ruhunu yansıtan *İstiklal Uğruna Şiirler* kitabı 1928 yılında İstanbul'da basılmıştır.

2.2. Ahmet Cevat Şiirlerinde Vatan, Millet Konusu

Azerbaycan Halk Cumhuriyeti'nin kuruluşunu büyük sevinç ve coşkuyla karşılayan Ahmet Cevat gece gündüz çalışmış, yardımları, edebî kişiliğiyle milletinin mutluluğu, bağımsızlığı için elinden geleni esirgememiştir. Şairin şiirsel eserleri zarif lirik-romantik üslubu, dili, realist ve gerçekçi tavrı, sadeliği ile seçiliyordu. Millî tarih, felsefe ve maneviyatla bağlı Ahmet Cevat'ın değinmediği bir motif kalmamış, sadece bayrağa dair altı şiir yazmıştır. O, her şeyden önce şiirlerinde bağımsızlığı, Vatan sevgisini tasvir etmiş, Göy Göl'e, Karadeniz'e, deli Kür'e, millî bayrağa ithafen eserler kaleme almıştır ("İstiklal Marşı", "Ben Kimim", "Gelme!", "Göy Göl", "Sanat Kahramanlarına", Şehit Asker", "Kafkaslısın, Sev Kafkas'ı", "Al Bayrağa", "Ey Asker", "Volga Acılarına").

Şair *"*Azerbaycan'a" adlı şiirinde vatan hasretini, ayrılığı ve üzüntüyü şöyle dile getirmiştir:

"Coşmuştu yüreğim, şişmişti başım,
Zulümkar olmusan, akıtıp yaşım!
Ey güzel Vatanım, ey dağım-taşım,
Bir sazım olsaydı söylerdim sana!
Ne zordur ayrılık, doymamış yardan,
Artırdı derdimi her geçen kervan!
Duysaydım sesini bir yanık tardan
Bilmezsin ne söyler, neylerdim sana!" (Cevat 2005: 220).

Azerbaycan'ı bağımsız, halkını mutlu görmek isteyen şair, dehşetli işkencelere maruz kalarak 1937 yılında kurşuna dizilmiştir.

Sonuç

XX'nci yüzyılın başlarında Azerbaycan Halk Cumhuriyeti'nin kurulmasıyla edebiyat, sanat, kültür ve siyasi alanda Türkçülük, milliyetçilik düşüncelerinin, akımlarının gelişmesi ve bu yolda Ahmet Cevat gibi vatan sevgisiyle yanıp tutuşan şairlerin millî mücadelesi gösterilmeye çalışılmıştır.

Cumhuriyet Dönemi edebiyatı konu, içerik bakımından diğer dönemlerden farklı olarak öze dönüş ile seçilmiş ve yeni eserlerin oluşmasına, edebî sorunların orijinal sanatsal çözümüne yardımcı olmuştur. Azerbaycan bayrağının methi, egemen millî devletin desteklenmesi, milliyetçilik ideolojisine hayranlık, toprakların Ermeni saldırganlarından korunması ve kurtulması, 31 Mart tarihinde Bakü'de gerçekleştirilmiş katliamlar, Kuzeyden gelen tehlike, bağımsızlığın kaderi ile bağlı endişeler ve birçok derin meseleler o dönem edebiyatının önemli konularındandır. Nitekim bu konular Ahmet Cevat eserlerinde de şairin millî mücadelesi, vatan-millet, bayrak sevgisi, bağımsızlık, özgürlük, Türkçülük ideolojisi, düşmanlara karşı birleşme isteği olarak görülmektedir.

"Çırpınırdı Karadeniz" türküsünde de Ahmet Cevat ruhu ve Türk sevgisi aydın duyulmaktadır. Şair 1914 yılında "Çırpınırdı Karadeniz" şiirini yazmış ve 1918 yılında Üzeyir Hacıbeyov bu şiire müzik bestelemiştir. Bu eserde Türk halkının içindeki millî ruh, milliyetçilik, vatan sevgisi, Türkçülük ideolojisi şu satırlarda daha açık bir şekilde ifade edilmiştir:

"Çırpınırdı Karadeniz bakıp Türk'ün bayrağına,
Ah deyerdim hiç ölmezdim, düşebilsem ayağına.
Ayrı düşmüş dost elinden yıllar var ki çarpar sinem,
Vefalıdır gelip giden, yol ver Türk'ün bayrağına.
İnciler dök gel yoluna, sırmalar diz sağ, soluna
Fırtınalar dursun yana, selam Türk'ün bayrağına.
Hamidiye ve Türk kanı hiçbirinin bitmez şanı
Kazbek olsun ilk kurbanı, selam Türk'ün bayrağına.
Dost elinden esen yeller bana şiir, selam söyler
Olsun bizim bütün eller kurban ***Türk'ün bayrağına!****"*

(Cevat 1992: 149-150)

Özgürlük ve Azerbaycan halkının istiklali uğrunda verdiği mücadeleler, yazdığı şiirler ve milliyetçi düşüncelerinden dolayı Proletar Yazarlar Teşkilatı tarafından karşı-devrimci olarak suçlanan Ahmet Cevat, Stalin'in Büyük Temizlik adıyla bilinen tasfiye hareketi sonucunda vahşicesine öldürülmüştür.

Kaynaklar

Aliyeva, Aynure ve Ahmedova, Sevil (2017). *Şanlı Vatanın Kahraman Evladı Ahmet Cevat*. Bakü: F. Köçerli Cumhuriyet Çocuk Kütüphanesi.

Cabbarlı, Cafer (2017). *Cafer Cabbarlı Biografik İcmal*. Bakü: C. C. Cümhuriyet Gençler Kütüphanesi.

Cevat, Ahmet (1928). *İstiklal Uğrunda Şiirler*. İstanbul.

----- (1992). *Seçilmiş Eserleri*. 1. cilt. Bakü: Azerneşr.

----- (2005). *Seçilmiş Eserleri.* Bakü: Şark-Garp.

Mehmetzade, Mirze Bala (2002). *Azerbaycan Misak-ı Millisi*. Ankara: Azerbaycan Kültür Derneği Yayınları.

Memmedli, Afina (2010). *Ahmet Cevat ve Türkiye*. Bakü: İlim ve Tahsil.

Nabiyev, Bekir (2012). *Ahmet Cevat*. Bakü: Progres Yayınevi.

Şimşir, Sebahattin (2018). "Mehmet Emin Resulzade'nin Hatıraları Işığında Azerbaycan Cumhuriyeti'nin İstiklal ve İşgali (1918-1920).", *Türk Yurdu Dergisi*, 107, S: 368, 24-37.

BƏDİİ NƏSRDƏ "MİLLİ TARİX" MODELİNİN STRUKTURU VƏ EPİK TƏHKİYƏ TEXNOLOGİYASI

*Maral YAQUBOVA**

Giriş

Milli təfəkkürün ən incə məqamları, kölgədə qalan duyğuları və düşüncələri ədəbiyyat, ümumiyyətlə bədii sənətdə əks oluna bilir. Bəzən bədii sənət gerçək tarixdir, deyəndə bu nəzərdə tutulur. Bir millətin gerçək kimliyini, həyata baxış və dəyərlərini ədəbiyyat kimi düşüncə sənətləri bütün işarəvi mahiyyətinə rəğmən daha dəqiq göstərir. İstər fərdi, istərsə də kütləvi yaddaşa müraciət və ondan ədəbiyyatda istifadənin milli coğrafi koordinatlarda, münbit zaman və məkanda baş tutması ilə müqayisədə hərbi-siyasi qarşıdurma şəraitində baş verməsi daha mürəkkəb mənəvi-psixoloji proses kimi xarakterizə olunmalıdır.

Bədii mətnlərin strukturunda özünü mühafizə edən millilikl̈ə, bədii mətndə konsepsiya kimi çıxış edən millilik arasında ciddi fərq var. Bu özünü mətnin bütöv ifadə texnologiyasında və janrarxitektonikasında büruzə verir. Dünya ədəbiyyatının təcrübəsinə nəzər salsaq, görərik ki, ayrı-ayrı xalqların milli mücadiləsini konsepsiya şəklində müxtəlif bədii vasitə və üsullarla mətnə çevirmə cəhdləri kifayət qədər çoxdur. Ədəbiyyatın mifdən, folklordan başlayan günümüzə qədər keçdiyi yolda irihəcmli mətnlərdə, dastanlarda, daha sonra romanlarda öz əksini tapan "milli tarix" konsepsiyasının bədiiləşməsinin fərqli texnikalarına rast gəlmək olur.

Bədii mətn və tarixi mətn

Bədii mətn müxtəlif estetik komponentlərin, poetik ünsürlərin qarşılıqlı əlaqəsindən ibarət bütöv strukturdur (Əmrahoğlu 2000: 72). Eyni zamanda *"söz və ideya anlayışı geniş mənada ədəbi əsərin mövcud ənənəvi ideya-məzmun və poetika sənətkarlıq xüsusiyyətlərini ifadə edir."* (Əmrahoğlu 2000: 72). Mətn şüurda və şüur vasitəsilə gerçəklikdən (real və ya abstrakt) alınan

* FİL.Ü.F.D., DOS.; AMEA Nizami adına Ədəbiyyat İnstitutu, aparıcı elmi işçi; yaqubova.maral@mail.ru

və nizamlanan informasiyaların xüsusi işarələr sistemidir. Şüurun, psixikanın və dilin vəhdətində (qarşılıqlı əlaqə və münasibətlərində) və onların vasitəsilə işarələnən gerçəklik (kontekst) mətnə köçürülürkən (şüurda, dildə və nitqdə) təkcə təbii dil (nominal işarələr) vahidləri ilə ifadə olunmur (Ağaverdi 2002: 73). Gerçəklik-şüur-mətn səviyyələrində işarələr mürəkkəb yaranma mexanizmaları və qnoseoloji proseslərdən keçir, əvvəlcə informasiya işarələnir, işarələr mənalanır, ən sonda mənalar funksionallaşır (Ağaverdi 2002: 73-74). Mətnin eyni prinsip və qanunauyğunluqlarla, eyni vasitələrlə yaranması eyni zamanda növ çeşidliliyi, janr və şəkil müxtəlifliyi ilə yekunlaşır.

Tarix və bədii mətn arasındakı münasibətlərdən bəhs edərkən, ağla ilk gələn birincinin ikinci üçün qaynaq funksiyası daşımasıdır. Mətnəqədərki keçmişin mətnə daxil olmasını şərtləndirən vasitələrin və məqsədlərin obyektiv və subyektiv yönlərinə nəzərən konkret bir mətnin daxilində keçmişin özünü realizəsi şəkilləri fərqlidir. Bəzi mətnlərdə keçmiş indiki və gələcək zamanlara yer vermədən və ya onları nəzərə almadan mətnin bütün həcmi qədər yer tutur və keçmiş mətnin yeganə indiki zamanıdırsa, burada tarixi romanları misal çəkmək olar. Lakin ədəbiyyat və tarix arasındakı münasibətlər yalnız bununla məhdudlaşmır. Tarixi gerçəklik-subyekt-informasiya zəncirində formalaşan tarixi bilgi ilə gerçəklik-müəllif-mətn zəncirində formalaşan bədii nəsr arasındakı oxşarlıq paradiqması müxtəlif istiqamətlərdə özünü göstərə bilir. Birinci oxşarlıq hər ikisinin təhkiyəyə əsaslanmasıdır. Tarixi mətn də nəsr mətni kimi nəqletmə prosesi əsasında qurulur. *"Tarix tarixçi ilə faktlar arasında baş verən proses, keçmişlə indinin sonu görünməyən dialoqudur"* (E. Karr). Tarixçi əslində bir təhkiyəçidir. Tarixi təhkiyə də əvvəli, ortası və sonu olan bir strukturdur, hər iki struktur dildə öz ifadəsini tapır. Təbii ki, tarixi mətnin ifadə texnologiyasında gözlənilən elmilik və akademizm bədii mətndə özünü doğrultmur. Bədii mətnin metaforikliyi, üslub müxtəlifliyi və yanaşma tərzi də tarixin mümkün elmi dəqiqliyi üst-üstə düşmür. Tarixin nə qədər dəqiq və doğru olması haqqında yekdil rəy yoxdur, tarixi məlumatın təhrif oluna bildiği dəfələrlə təcrübə edilmişdir. Tarixçi nəql etdiyi tarixi hadisəyə subyektiv və obyektiv yanaşa bilər, praqmatik və ya apraqmatik davranış sərgiləyə bilər. Müəllifin bədii mətnə münasibətdə cərəyanlar kontekstində yanaşsaq subyektivliyi nisbidir. Romantizm, modernizm, postmodernizm kimi cərəyanlarda subyektivliyin nisbəti realizmə görə daha çoxdur, realist yazar da subyektivdir, amma öz subyektivliyini realizmin tələblərinə uyğunlaşdırmaq məcburiyyəti daşıyır. Tarixi roman müəllifinin subyektivliyi postmodernist müəllifin subyektivliyindən dəfələrlə azdır.

Tarixin ədəbiyyata gəlişi və ya tarixi mənbədəki məlumatın bədii mətnin informasiyasına çevrilməsi əsasən iki şəkildə mümkündür. Birinci halda tarixi informasiyanın bədii mətnə dönüşməsi tarixi romanlar vasitəsilə gerçəkləşir.

Tarix və ədəbiyyat arasındakı ən yaxın məsafəni təmsil edən tarixi romanlarda bu çevrilmə prosesi özü də bir neçə istiqamətdə baş verir: konkret bir tarixi mərhələnin nəqlindən yaranan bədii mətnlər, konkret bir tarixi epizodun ətrafında yaranan mətnlər, konkret bir tarixi şəxsiyyətin həyatından bəhs edən mətnlər.

İkincisi isə, müxtəlif dövrlərə aid, arasında müəyyən əlaqə tiplərinin olduğu ayrı-ayrı epizodların vahid bir mətndə sintezi - bu cür mətlərin yaranmasında müəllif və oxucu mövqeyinin üst-üstə düşməsi vacibdir. Belə mətnlər müxtəlif üsullarla yarana bilir, məqsəd tarixi mətnə daşıyaraq informasiya vermək deyil, məqsəd mövcud informasiyanı sorğulamaq, mühakimə etmək, əlaqələndirmək, bəzən dağıtmaq, yenidən bərpa etməkdir: montaj, kollaj, ironiya, pastiş üsulları müəllifin əsas dayağına çevrilir. Bu tip mətnlərddə tarixi hadisənin təhkiyəyə dönüşməsi prosesi özünəməxsus ifadə texnologiyası ilə gerçəkləşir.

Ədəbiyyatda "milli tarix" modelinin özünəməxsusluğu

Bədii-estetik mədəniyyətin özünəməxsusluğunu şərtləndirən əsas əlamətlərdən biri də milli müəyyənlik və milli mənsubiyyət məsələsidir. Ötən əsrin 80-ci illərinin sonundan başlayan Azərbycanın siyasi müstəqilliyin əldə edilməsi prosesinin xronoloji təsdiqi (1991) sosial-iqtisadi, intellektual-mədəni, sosial-psixoloji həyatın bütün sahələrində olduğu kimi ədəbi prosesin özündə də demokratik dəyişikliklərlə müşayiət olundu. Uzun müddət qapalı mədəniyyət prinsipləri çərçivəsində yaranan bədii-estetik düşüncənin dünya fəlsəfi-estetik, sosial-psixoloji, eyni zamanda filoloji standartları ilə tanışlığı başlanır. Bədii düşüncə təzəcə tanış olduğu dünya kultoroloji kontinuumuna daxil olur, hazır qəlibləri, prinsip və meyarları mənimsəməyə çalışır, başqa tərəfdən mövcud dəyərlərin yeni biçimdə təqdimatına can atır. Lakin milli ədəbiyyatımızın ümumi gedişatını, istiqamətinin müəyyənləşməsini dünya fəlsəfi-estetik düşüncəsinə birbaşa inteqrasiya, hazır qəliblərin və baş vermiş mədəni hadisələrin birbaşa təkrarı müəyyənləşdirmir. Düzdür, bugün dünya ədəbinəzəri, bədii-estetik düşüncəsindən ayrıca mövcud olmaq mümkün deyil. Amma milli dəyərlərin, qədim tarixi ənənələrin, ədəbi-bədii düşüncənin tarixiliyini qorumaq, uzun müddət "sovet məhrumiyyətlərinin" qurbanı olmuş ədəbiyyatımızı əvvəlki çoxqatlılığına, Şərq poetik strukturunun mürəkkəb, çoxmənalı, istənilən interpretasiyaya açıq mahiyyətinə qovuşdurmaq nəsrin əsas vəzifələrindən birinə çevrildi.

Bədii əsər, bəşəri dəyərlərlə, hadisələrə tarixi, milli yanaşmanın bütövlüyünü qorumaqla özünəməxsusluğunu da təmin etmiş olur. Milliliyin bir estetik kateqoriya kimi bədii təfəkkürdə kodlaşması müəllif özünəməxsusluğunun və sənətkar fərdiyyətinin, eyni zamanda xalq ruhunun özündən qidalanmaqla

baş tutur. Kök və mənşə, tarix və yaddaş, mental və əxlaqi dəyərlər, dil və din müxtəlif qatlarla mətndə iştirak edə bilirsə, millilik koloriti yaranırsa, deməli, incəsənətin bənzərsizliyi təmin edilmiş olur. Müstəqillik dövrü nəsrini özündən əvvəlki nəsrin ümumi məğzindən fərqləndirən ən əsas əlamət, hələ yeni nəsr mərhələsində başlanğıcı qoyulmuş ənənənin - milli özünüdərkə, milli Mənin tarixi kimliyinin təsdiqinə, etnik şüurun oyanışına yönəlmiş tendensiyanın özünün ən pik nöqtəsinə çatması idi. Keçid dövrünün sosial-psixoloji, mədəni-mənəvi böhranları içində yaşamasına, müharibə kimi ağır və dəhşətli bir hadisənin içində olmasına rəğmən Azərbaycan insanı öz kimliyini, tarixi statusunu, eyni zamanda dünyadakı yerini təsbit etməyə səy göstərirdi. Poetik deyim, bədii söz bu məqamda uzun müddət susmuş daxili səslərin, fərd və toplumun mənəvi dünyasının "gizlinlərinin" aşkarlanmasında ən yaxın vasitəçi funksiyasında çıxış edir. 1980-ci illərdən sonra Azərbaycan bədii nəsrində müşahidə olunan əlamətlərdən biri də, III şəxsin təkində olan təhkiyəçilərin (onları təmsil edən O) birinci şəxsin təkində olan təhkiyəçilərlə (bizi təmsil edən MƏN), səssiz-səssiz içindən danışan xarakterlərlə -personaj-təhkiyəçilərlə əvəzlənməsidir. Daxili nitq, daxili təhlil, daxili monoloq və dialoq, şüur axını tipli təhkiyələrin dövriyyəyə sürətlə daxil olmasını məhz milli Mənin və şüurun oyanışı ilə bağlamaq lazımdır. Onu da qeyd etməliyik ki, poetik düşüncədə milli Mənin özünü cəmiyyətdə təsdiq etmə, tarixdə təhrif olunmuş yerini bərpaetmə və sonrakı taleyini müəyyənləşdirmə cəhdləri və səyləri nəticəsində bu poetik qəhrəmanın zamanı da eninə-geninə böyüyür: keçmiş və gələcək indiki zamanın müstəvisinə yerləşdirilir, mətn geridönümlər, irəliyə sıçramalarla zənginləşir. XX-ci əsrin sonu XXI-ci əsrin əvvəllərində Azərbaycan tarixi-mənəvi gerçəkliyində ciddi dəyişmələrə səbəb olan kifayət qədər hadisələr baş vermişdi. Bu hadisələrdən ikisi insan yaddaşında, şüur və təhtəl-şüurunda keçmişlə indinin qarşıdurmasına səbəb olması aspektindən maraqlıdır: Müstəqilliyin bərpası və Qarabağ Müharibəsi. Əsrin əvvəllərində yarımçıq qalmış müstəqilliyyin bərpası ilə yeni mühitin insan şüurundakı korelyatları ilə əvvəlki dövrün - müstəqillik öncəsinin artıq keçmiş mahiyyəti ilə yaddaş strukturuna oturmuş görüntüləri arasındakı dialoq bədii təfəkkürə yansımaya bilməzdi. Indi yazıçı-oxucu fərqinə varmadan iki zaman müstəvisi var: tarixi-siyasi hadisələrin təhrif olunduğu sovet dönəmi və bu təhriflərin düzəldilməsi üçün geninə-boluna imkanların olduğu müstəqillik dönəmi. Birincinin ikincinin müstəvisində yeni dəyərlərlə təzə mahiyyət qazanması bədii ədəbiyyatda da tendensiya halını alır. Bu prosesin müstəqiliyiin xronolji bərpasından öncə başlamışdır. 1980-ci illər bədii nəsrinin bügünki prizmadan dəyərləndirilməsində ilkin mərhələ həmin tarixi kəsiyin sonradan baş vermiş müstəqilliyin ərəfəsi olmasını təsdiq etməklə başlanılır. Təbii ki, gerçək müstəqillik o zaman mümkündür ki, insan mənən, ruhən "azad" olsun, "azadlıq"onun düşüncəsində, siyasi-mədəni şüurunda yetişisin. Azərbaycan

insanının "müstəqilləşməsi" hadisəsinə ən tutarlı şahidliyi funksiyasında isə həmin mərhələnin bədii-estetik düşüncəsi, söz sənətkarlığı çıxış edirdi. Bu məqamda nəsrin rolu isə xüsusi idi və bu nəsrin aparıcı, əlamətdar, yeni cəhəti onun milli yaddaşın oyanması prosesinin ifadə vasitəsinə çevrilməsi idi. ".. 'keçmişsizlik', qırılan, məhv olan kök və soy, qan və gen yaddaşı (antiyaddaş!), milli-etnik düşüncədə və idrakda boşluq son bir əsrdə özünü əcayib bir fenomen – bolşevik-mankurd vakuumu şəklində göstərdi." (Qarayev 1995: 7), Söhbət müasir insanın uzunmüddətli qadağalardan sonra öz tarixinə qayıdışından, içində yığılıb qalmış olanların bədiiləşdirilməsindən, Azərbaycanlı və onun tarixdə yeri kontekstində düşünməkdən gedir. *Mahmud və Məryəm*, *Ağ dəvə* (Elçin), *Köç* (M. Süleymanlı), *Fətəli fəthi* (Ç. Hüseynov), *Qətl günü* (Y. Səmədoğlu) və s. bu tipdə olan romanlarda Azərbaycan tarixinin müxtəlif mərhələlərinin təsviri, tarixi konsepsiyaların əks olunması onları "tarixi romanadlandırmağa istiqamətləndirsə, şərhçilər özləri də yekdil nəticə əldə edə bilmirdilər. Bu tip romanları janrın ənənəvi üsul və maneralarına qeyri-müvafiq gəlməsi nəticə etibarilə "..tarixi faktlara, mənbə və məxəzdəki məlumatlara çox da aludə olmayan, lakin dövrü, mühiti məhz tarixi mənbələrdə və kitablarda göstərildiyi şəkildə canlandıran müəlliflər bu əsərlərdə psixologizmə daha çox diqqət yetirmişlər." fikrini formalaşdırırdı (Axundlu 2005: 284). Əslində bu tip nəsr nümunələrində əsas meyar düşüncədə, şüurda, hətta təhtəl-şüurda "tarixi" olanla "müasir" olanın qarşılaşdırılması prinsipidir, müasirliyi dərkin retrospektiv təzahür formasıdır. İnsan şüurunda keçmişə yönəlik xatirələrin, bilgilərin, fantastik xəyalların (yuxuların) gələcəyə qarşı planların, həsrətlərin heç bir zaman ardıcıllığına riayət etmədən eyni anda birlikdə mövcud olmaları, bu materialı mətnə çevimək istəyən müəllifi məcbur olaraq quraşdırma çözümü və forma seçməyə yönəldir. Doğrudur ki, müəllifin bədii mətnə ötürmək istədiyi istənilən informasiya mətnin sərhədlərində başqalaşır, bədii dünya gerçəkliyinin qanunauyğunluğuna tabe olur. Ilkin funksiyasını itirə bilər. Ötən əsrin 80-90-cı illərindən başlayaraq, milli yaddaşın bərpası ilə bağlı informasiyalarla yüklənmiş bədii mətnlər bu məlumatı fərqli üsul və üslublarla anlatmağa başladılar.

Epik təhkiyənin strukturu və ifadə texnologiyasının müxtəlifliyi

Epik mətnin izah etdiyi bir şey vardır və epik mətn təhkiyəçi ilə təhkiyəyə əsaslanır. "Mətnin təsvirçiyə- təhkiyəçiyə və ya hekayəçiyə görə təşkili təhkiyədir. Təhkiyəyə, birincisi, mətnin ədəbi təşkili, ikincisi, əsərin əşya -məkan baxımından təşkili, daha doğrusu, əsərin söz olmayan bütün realilərinin hekayəçiyə görə yerləşdirilməsi daxildir" (Əmrahoğlu 2000: 73) 1970-80-ci illərindən konseptual elm sahəsi kimi formalaşan narratologya (təhkiyəşünaslıq) elminin tədqiqat obyektində təkcə bədii ədəbiyyat deyil, daha geniş və ümumi səciyyəli anlayış olan təhkiyə dayanır. Rolan Bart, təhkiyənin əhatə dairəsində

mifləri, əfsanələri, təmsil və nağılları, novella, epopeya, faciə, dram, komediya kimi janrları, pantomima, kətandakı rəsim, vitraj, kinemetoqraf, komiks, qəzet xronikaları, tarixin özünü, adi məişət söhbətləri də daxil olmaqla rəngarəng bir dünyanı görürdü. Təhkiyəsi olmayan toplum yoxdur, təhkiyələr hər zaman və hər yerdə var və bəşəriyyətin özü ilə bərabər başlayır (Bart 1987: 387). Mətn təhkiyəsinin strukturunun müəyyənləşməsi mətnin öz daxilində baş verən hadisədir. Təhkiyənin bir struktur kimi qavranılması – onun süjetinin gedişatının izlənilməsi ilə deyil, təhkiyənin "bağ"ını təşkil edən üfüqi əlaqələrlə yanaşı, implisit şəkildə mövcud olan şaquli proyeksiyanı da sezməklə əlaqədardır (Bart 1987: 393). Oxuma - əvvəlki sözdən bir sonrakı sözə ardıcıl keçid deyil, özlüyündə bir cərgədən başqa bir cərgəyə keçiddir. Cərgələr nəzəriyyəsi elementlər arası ikili münasibətə əsaslanır: distributiv (bir cərgənin elementlərinin öz aralarındakı əlaqələr) və inteqrativ (fərqli cərgələrin elementləri arasında münasibət) (Bart 1987: 392) Məna törətməyən distributiv münasibətləri bir kənara qoyan Rolan Bart struktur analizin məqsədini təsvirin bir neçə planını seçmək və onların iyerarxik (inteqrativ) perspektivdə izləməkdir. S. Todorov mətn strukturunda iki mühüm cərgəni - personajların məntiqi hərəkətləri və onlar arasındakı sintaktik əlaqədən ibarət, təhkiyənin predmeti kimi çıxış edən hekayə olunanın cərgəsi və təhkiyəvi diskursu müəyyənləşdirir. Onun struktur təhlillərində təhkiyəvi diskurs zaman, növ və forma kimi differensiyalara malikdir. Bartın üşcərgəli mətn strukturunun təhlili funksional, hərəkət və təhkiyə cərgələrində gerçəkləşir. Ayrıca, onlar öz aralarında ardıcıl inteqrativ münasibtlər sərgiləyirlər: funksiya-hərəkətlə, hərəkət təhkiyə ilə tamamlanır. Mətnin struktur təhlilində ilk məqam mətn seqmentlərinin (formalistlərə görə süjet elementlərinin) müəyyənləşdirməkdir. Istənilən sistem təkcələrin kombinativ yığımıdır. *"Mətnin çeşidlənməsi reallaşmış mətnin xronotop differensiyası ilə əlaqəli deyil və ya başqa sözlə, mətn müstəvisində tarixi inkişaf real mətni çeşidləyən dominant faktor deyil... Mətni çeşidləyən başlıca faktor şüurun gerçəkliyə münasibətinin differensiallaşmasıdır... hər bir dünyagörüş və dünyaduyum sistemi ona uyğun mətnlər törədir"* (Ağaverdi 2002: 76). Fərqli dünyaduyum və dünyagörüş sistemlərindən mətnə ötürülən informasiyanın işarələnməsi, mənalanması və funksionallıq əldə etməsi prosesinin fərqli təzahür tipləri vardır. Bu həm də heç bir şəkildə "ölməyən" müəllifin özünün seçdiyi materiala-məzmuna yanaşma tərzi ilə xarakterizə olunur. Bədii təhkiyələrin yaranmasını, onun bitkin şəkildə ortaya çıxmasını, ərsəyə gəlməsini şərtləndirən müəyyən prinsiplər, qanunauyğunluqlar, vasitə və üsullar mövcuddur. Istənilən təhkiyə, növünün realist, modernist, postmodernist və s. olmasından asılı olmayaraq, müəyyən bir hadisə və ya hadisələrdən bəhs edir. Bəzən bu hadisələrin varlığı oxucu tərəfindən sezilməyəcək dərəcədə məhdudlaşdırıla bilər, lakin tamamilə aradan qaldırıla bilməz. Məsələn, realist roman yazarı ilə çağdaş postmodern roman yazarı

arasında fərq ilk olaraq, onların öz mətnlərinə və oxucusuna olan münasibətdə seçilir. Realist öz realizminə daim sadiqdir, o, hadisələrin bədii şərhini verərkən kənarda durmağı bacarır, "öz yerini" bilir, oxucu və personaj arasındakı vasitəçilik funksiyasını qoruyur. Postmodern yazar isə, ən azı öz oxucusu qədər azaddır və bu azadlıq sayəsində nəqletmə prosesində "cilddən-cildə girməyi" bacarır, daha doğrusu bu aktı gerçəkləşdirməkdən çəkinmir. Modern və postmodern roman mətnlərinin bədii arxitektonikasının elə ideya-məzmun planı qədər qarma-qarışıq təsir bağışlaması da bundan irəli gəlir. Müəllif-təhkiyəçinin fərqli nəqletmə şəkillərindən istifadə etməsi nəticəsində oxucunun qarşısında müxtəlifliklərin, fərqliliklərin, təzadların harmoniyasından və ya bu harmoniyanın yaratmaq cəhdlərindən ibarət mətnlər dayanır.

Tarixin epik dərkində şüurun və təhtəl-şüurun vəhdəti: Yusif Səmədoğlu *Qətl günü* (1982)

Mətndaxili zamanın özü mətndə fərqli səviyyələrdə qarşımıza çıxır. Bədii mətndə nəql olunan hekayənin baş verdiyi zamana aid hər bir detalın, ən xırda ayrıntların mətnə daxil olması qeyrimümkündür. Bu qeyri-mümkünlüyü qismən mümkünləşdirmək üçün xüsusi üsul və vasitələrin əhəmiyyəti böyükdür (retrospeksiya kimi). Bədii mətndə hadisəvi zamanın təhkiyəvi zamana dönüşməsində bu tip vasitələrin rolu əvəzedilməzdir. Saat, gün, ay, illə ölçülən, xronoloji məzmunlu hadisəvi zamanla sətirlər, paraqraflar, bölümlər, fəsillərlə müəyyənləşən təhkiyəvi zaman arasındakı münasibətlər keçmiş, indi və gələcək zaman modusları ilə tənzimlənir. Hadisələrin xronoloji tarixçəsi ilə onların mətndəki bədii düzümü arasındakı əlaqə xüsusi əhəmiyyətə malikdir. Çünki yazıçının xam maddə olan tarixçənin hansı şəkildə və formada bədii söyləmə çevirməsini məhz bu əlaqə tənzimləyir. Mətn analizinin üçüncü və ən mühüm səviyyəsi isə təbii olaraq təhkiyənin (Narrativ) özüdür. Hadisənin diskursa dönüşməsi məhz təhkiyənin daxilində baş tutur. S. Todorova görə, bədii əsərin iki aspekti var: bədii mətn eyni zamanda həm tarixçədir, həm də diskursdur. Mətn ona görə tarixçədir ki, o müəyyən gerçəklik təəssüratı oyadır, digər tərəfdən diskursdur ki, bu səviyyədə oxucunu artıq təqdim olunan hadisələr deyil, hadisələrin necə təqdim olunması maraqlandırır. S. Çetmana gəlincə isə, nəql olunan hadisənin tarixçəsi (story) təhkiyəvi mətndə təsvir olunan nə olduğu (the what in narrative) halda, diskurs nəyin necə təsvir olunmasıdır (the how) (Seymour 2008).

Gerçək həyatda öz zaman ardıcıllığını qoruyan hadisələrin bədii mətndə fərqli təqdimində mətn müəllifi qədər mətnin janr-kompoziya yaddaşının, ideya-məfkurəvi xəttinin (məsələn, modern və postmodern mətnlər zamanın ardıcıl nizamına qarşı daha çox biganəlik nümayiş etdirirlər) xüsusi rolu var.

Qətl günü əsərinin müəllifinin bir milli topluma məxsusluğu mətnin ideya-estetik planında görünəndir, (ayrı-ayrı dövrlərin qarşıdurması şəklində) amma mətn strukturunda yerləşdirilməsi, "materiala" dönüşməsi fərqlidir. *Qətl günü* əsərinin bədii təhkiyəsində retrospeksiyanın gerçəkləşməsi təhkiyəçi və personajların təhtəlşüur vəziyyətində baş verir. Reallıqla, mədəniyyətlə, təbiət və cəmiyyətlə əlaqəsini itirmiş modernist təhkiyəçiyə xas tənha və xəyali azadlığı, onun öz fantaziyaları, xatirələri, subyektiv assosiasiya və mücərrəd konstruksiyaları ilə qapalı məkanda qalması prosesinin eynilə xəstə ziyalı da yaşayır. Oxuduğu əlyazma (Sədi əfəndinin romanı), rayonda yaşayan qohumu feldşer Mahmudun və digər yaxınları ilə nə vaxtsa etdiyi, indiki zamanda (təhkiyənin zamanında) "özününküləşdirdiyi" söhbətləri, yuxuları, Kirlikirlə bağlı şizofrenik-aqustik konstruksiyaları keçmişin ayrı-ayrı müstəvilərində nəql olunur ki, bütün bunlar modernist estetikanın nəzərə çarpan əlamətləridir. Retrospektiv düşüncənin təhtəlşüur xarakter daşımasını romanda təsdiqləyən amillərdən biri də, sanki romanın üzərinə çökmüş kimi görsənən ağır araq qoxusu, tiryək tüstüsü və yuxu həblərinin tez-tez personajlar tərəfindən sakitləşdirici vasitə kimi istifadə edilməsidir. Hadisələrlə birbaşa əlaqəsi olan və olmayan personajların bəzilərinin "əlacsız xəstəlikləri", şizofrenik əhval-ruhiyyəsi (ziyalının xəstəliyi, Qasımın üfləməliyi, Səlimə xanımın ruhi xəstəliyi, Çolaq Qulam, xəstə ziyalı və Sədi əfəndinin Kirlikirlə söhbəti və s.) subyektin zamanın irəliyəyən xəttindən yayınmasına, və keçmişə istiqamətlənməsinə zəmin yaradır. Bu romanda təhkiyə şizofrenik -psixi xəstəlik keçirən insanın mental aləminin və düşüncələrinin çəkilmiş şəklidir. *Qətl günü*ndə müxtəlif zaman qatlarında baş verən hadisələrin eyni adamın zaman kəsiklərindəki fərqli durumlara uyğunlaşmış halların- hər etapda topluma yadlaşmanın eyni şəxsin macəraları kimi təqdim edilir. Tarixin hər hansı, şərti bir mərhələsində ölümə məhkum edilmiş bir şairin (ədalət, haqq mühakiminin), repressiya dövrünün qurbanı olan şərti bir ədibin və bu dünyanın ədalətsizliyinə tab gətirməyən, özünü dar bir məkana qapatmış ziyalının ölümünü şərtləndirən səbəblərin mahiyyətinə vardığımızda və ya buna cəhd göstərdikdə belə bir rəy formalaşır. əslində bütün bunlar, şair-ədib-ziyalı üçlüsü eyni adamdır. Bunu təsdiqləmək üçün bu üçlünün hər birinin ayrılıqda təhlillərindən çıxan mühakimələrin oxşarlığı yetərlidir. Şair feodal cəmiyyətinə, ədib represiyalar bahasına qurulmaqda olan sovet ideologiyasına, ziyalı durğunluq yaşayan, sürünən ideolgiyanın hələ yaşadığını iddia etməsinə qarşı təkdirlər. Hər üçü eyni mövqedədir və bu mövqelərin qorunması nəsildən-nəsilə əmanətdir. Retrospektiv düzümə görə bu xəstə ziyalı (çünki, başlanğıc onun düşüncəsindədir.) və onun arxasındakı, bir-birinin içindən keçən kölgələrdir. Roman mətninin mövcud - mürəkkəb kompozisiyasının mümkün bütün dispozitiv variantlarda oxunuşundan sonra bu kölgələrin sirri açılır. Xəstənin şüurunda, təhtəl-şüurunda (yuxu vəziyyətində, ziyalının "xəstəliyi"ndə) baş verənlərlə,

əhatə dairəsindən gələn kodlanmış informasiyaların ardıcıllığı bərpa ediləndə, o mətnin ayrı-ayrı hissələrini deyil, bütöv mətnin təhkiyəçisinə çevrilir, düşündüklərini, xəyal etdiklərini, halisünasiya hallarında yaşadıqlarını və oxuduqlarını danışmağa başlayır. Bu zaman mən buyam deyərkən, eyni zamanda o şair də mənəm, o ədib də mənəm demiş olur. Onun yaşadığı durum ilə şair və ədibin yaşadığı durumlar arasındakı tarixi rəng və kolorit fərqləri silinir, mahiyyət oxşarlığı, ideya bənzərliyi bütün bunların bir Məndə - xəstə ziyalı mənində birləşiminə səbəb olur. Deja-vu yaşanmış olur: xəstə hər dəfə özünün nə etdiyini xatılayır.

Epik təhkiyənin retrospektiv imkanları: Elçin *Ölüm hökmü* (1989)

Elçinin *Ölüm hökmü* romanında əsas hadisələr "Tülki Gəldi Qəbristanlığı" adlı məkanda cərəyan edir. "Tülkü Gəldi Qəbristanlığı" əslində metoforik olaraq keçmiş Sovetlər İttifaqını bədii məkan kimi rəmzləşdirir. Sovet rejiminin çöküş ərəfəsində, totalitar rejimin yumşalmaları çərçivəsində kənarda qalmış milli yaddaşın üzə çıxması zamanı yaddaşın dərin qatlarına retrospektiv müraciətlər romanda aktuallıq təşkil edir. İrili-xırdalı 18 bölümdən ibarət, tarixi hadisələrə ironik münasibəti və bu münasibətin tragik şəkildə təqdimatı olan *Ölüm hökmü* romanında müəllifin seçdiyi mətn texnologiyası maraqlıdır. Əsərdə təsvir olunan hadisələrin xronoloji sərhədi 1920-1990-cı illəri əhatə edir. Azərbaycanın Sovet hakimiyyəti dövründə başına gələn hadisələri xronoloji ardıcıllıqla verməyin bədii mətnin semantik yükünü və bədiiliyin kriteriyalarını zəiflədə biləcəyini düşünən müəllif təhkiyənin texnoloji imkanlarından yararlanır, mətnin vahid zaman və məkanına onlarla başqa zaman və məkan koordinatlarını birləşdirir. "Gələcəyə doğru" adlı birinci hissə ilə "İntihar" adlı sonuncu hissə arasındakı məntiqi, semantik, psixoloji əlaqələri qurmaq üçün düzxətli yoldan deyil, ziqzaqvari yoldan istifadə edir. Adı çəkilən birinci və sonuncu bölüm arasındakı zaman – təhkiyə zamanı cəmi üç gündən ibarət olub 1980-ci illərin sonunda baş tutur. Müəllif 70 illik hekayəni məhz üçgünlük zaman xəttinə birləşdirir. Bu məqsədlə retrospeksiya (geriyə dönüm) texnikasından istifadə edir. Ayrı-ayrı qəhrəmanların keçmişlərini yad etməklə, onların həyatının müəyyən dövrlərini anlatmaqla retrospeksiyanı gerçəkləşdirir. Romanın personaj heyəti kifayət qədər zəngindir. Onların yaşadığı, müəyyən mənada ortaq məzmunlu həyat hadisələri də boldur. Oxucu bu hadisələr arasındakı şaquli və üfüqi bağı itirməmək üçün daim diqqətli olmalıdır. Əbdül Qafarzadə, Murad İldırımlı, Xosrov müəllim və bu üç xarakterin həyat hekayəsinə daxil olan onlarla bədii personajın hekayəsi bir-biri ilə mətnin əsas zamanında- təhkiyə zamanında birləşir. 70 illik böyük bir hekayənin hissələr, parçalar şəklində nəqli baş tutur. Bu hissə və parçaları birləşdirmək üçün oxucu diqqətli olmalıdır.

Bədii mətnin yaranmasında iştirakı olan hər şeyin, insanın, mühitin, zamanın, əşya və detalların, fikir və düşüncənin mütləq bir keçmişi vardır. Yazıçı mətn personajlarına, mətn mövzusuna, mətnin əsas ideya-məzmun sisteminə ruh qatmaq üçün müntəzəm olaraq keçmişə dönər. İngilis yazıçısı Virciniya Vulf bədii prosesdə hər bir anı təsvir etməyi "Tunelling process (tunel metodu)" kimi izah edirdi. (http://ru.scribd.com/doc/23788635/Mrs-Dalloways-Stream-of-Consciousness). O, xatirələrin oyatdığı güclü duyğuları, bugünü keçmişlə bağlayan tunelə bənzədirdi. Modern və postmodern mətnlərdə sıx şəkildə rastlanan məqamlardan biri də, V. Vulfun təbirincə desək, "scene-making (səhnələşdirmə)"dir. Bu eyni anda iki fərqli hadisə olaraq, mətn personajının varlığını həm keçmişdə, həm də bugündə ortaya qoymaqla, keçmiş və indiki zamanda eyni şüurun iki fərqli vəziyyətinin mənzərəsini yaratmaqdır. Bu məqamda geriyədönüm aktı daha çox kinomatoqrafiyada aktuallıq qazanan fləşbək şəklində baş verir.

Mətndaxili zamanın özü mətndə fərqli səviyyələrdə qarşımıza çıxır. Bədii mətndə nəql olunan hekayənin baş verdiyi zamana aid hər bir detalın, ən xırda ayrıntların mətnə daxil olması qeyrimümkündür. Bu qeyri-mümkünlüyü qismən mümkünləşdirmək üçün xüsusi üsul və vasitələrin əhəmiyyəti böyükdür (retrospeksiya kimi). Bədii mətndə hadisəvi zamanın təhkiyəvi zamana dönüşməsində bu tip vasitələrin rolu əvəzedilməzdir. Saat, gün, ay, illə ölçülən, xronoloji məzmunlu hadisəvi zamanla sətirlər, paraqraflar, bölümlər, fəsillərlə müəyyənləşən təhkiyəvi zaman arasındakı münasibətlər keçmiş, indi və gələcək zaman modusları ilə tənzimlənir. Ümumiyyətlə, retrospeksiya mətndən gələn informasiyaların oxucuda toplaşma şəkli ilə bağlıdır və oxucunun təhkiyənin tam şəkildə qavramasına xidmət edir. Retrospektiv kateqoriya oxucuya mətndə təsvir edilən hadisələri bir daha nəzərdən keçirməyə, onları daha dəqiq dərk etməyə əlavə imkan verir. İ. Qalperinə görə, təhkiyənin cərəyan etdiyi indiki zamanda gələcəyə nisbətən keçmişdə baş vermiş hadisələr zaman dəqiqliyi, istinad müəyyənliyi ilə seçilir. Mətnlərin çoxunda retrospeksiya impilisit çəkildə təzahür edərək, insan (oxucu) yaddaşının əvvəlki məlumatı (verilən xəbəri) hafizədə qorumaq və sonuncu təhkiyə kəsiyində cərəyan edənlərlə, xəbər verilməkdə olanlarla əlaqələndirmək qabiliyyəti kimi çıxış edir. Prospeksiyada isə, impilisitlik eksplisit tərzdə ifadə olunan siqnallarla çulğalaşır, oxucunun diqqətini yaradıcılıq potensialını mətnin sonrakı hissəsində nələrin baş verəcəyi üzərinə yönəldir. Retrospeksiya hadisələri bir-biri ilə əlaqələndirmək üçün lazım olan əvvəlki informasiya təhkiyənin cərəyan etdiyi anda yarımçıq kəsilməsi və əvvəllər baş vermiş hadisə haqqında informasyanın hələ verilməmiş xəbərin təhkiyənin bu sonuncu hissəsinə salınması, başqa sözlə təhkiyənin zaman planlarının yerdəyişməsi yolu ilə realizə olunur. Məzmun - fakt informasiyası vasitəsilə yaradılan retrospeksiya əlaqələndirici funksiya ilə çıxış edir. Retrospeksiya təhkiyə ardıcıllığının yaradıcı fərdi

qavrama hadisəsinin nəticəsi kimi (subyektiv) və ya müəllifin mətnin əvvəlki hadisələrinə diqqətininin yönəldilməsi, onları xatırlamasının nəticəsi (obyektiv) kimi qəbul edilə bilər.

Romanın ən ağrılı səhnələrindən biri Xosrov müəllimin keçmişi ilə bağlıdır. "Tonqal"adlı hissədə oxucu Xosrov müəllimin faciəli keçmişi ilə tanış olmaq imkanı qazanır. Gənc yaşlarında ailəsi ilə birlikdə Hadrutda yaşayan Xosrov müəllim burada rus dili müəllimi işləyir. Təhsilini təkmilləşdirmək üçün bir aylıq Şuşaya gedən Xosrov müəllim bir ay sonra Hadruta qayıdanda onu şəhərə buraxmırlar. Məlum olur ki, iki aya yaxındır şəhərdə taun yayılıb, əhalinin əksər qismi, o cümlədən Xosrov müəllimin ailəsinin bütün üzvləri bu xəstəliyə yoluxaraq ölüb. Meyidləri yandırarkən tonqalın ətrafına yığışan Hadrut camaatı it zingiltisinə bənzəyən bir səs eşidirlər: *"Professor Zilberin gözləri qızıl əsgərlərdən bir az aralıda dayanmış bir nəfərə sataşdı; dayanmışdı? - yox o adam it kimi dörd ayaq- dizlərinin əllərinin üstündə durmuşdu və alışıb yanan gözlərilə tonqala baxırdı və içindən elə it zingiltisinə də bənzər bir səs çıxırdı... Dərd dizləri və əlləri üzərində dayanmış o adamın simasında insanı lap əvvələ, lap bünövrəyə çəkib aparmışdı, o zamana ki, insan hələ iki ayağı üstə gəzən bir varlıq deyildi, insan hələ heyvandan seçilmirdi, hələ 'homo sapiyens'-dən əvvəlki dövrlər idi..."* Bu səhnəni dəhşət içində izləyən professor Zilber sonralar Xosrov müəllimə bağışladığı kitabın ilk səhfəsinə bu sözləri yazır: *"Человеку, увидевшего и пережившего ад. Лев Зилбер"* (Elçin 2005: 88). Bu səhnənin oxucuda oyandırdığı effekt təkcə dəhşət və acıma duyğusu deyil, eyni zamanda 1930-cu illərin repressiya hadisələri ilə bağlı məhz oxucu beynində yaranan retrospeksiyanın oyandırdığı dərin bir hüzn duyğusudur.

Ölüm hökmü romanında ayrı-ayrı personajların keçmişinə retrospektiv yolçuluq bütün Azərbaycan xalqı üçün ortaq məna daşıyan, dərin psixoloji izləri olan gərgin dönəmləri yenidən xatırladır, millətin ən əlverişsiz şəraitdə belə özünü qorumağa hazır olması ilə yanaşı, bəzən asanlıqla kimliyini itirə biləcək vəziyyətə düşməsini izah edir. Millət olaraq təhlükəli dönəmlərdən necə keçməyimizin, genetik yaddaşımızı hansı şəkildə qoruya bilməyimizin təfərrüatlarını geniş şəkildə nəql edir.

Çoxsüjetlilk və epik vəhdət: İsmayıl Şıxlı *Ölən dünyam* (1995)

Gerçək dünyada ardıcıl və səbəb-nəticə əlaqəli hadisələr cərgəsi bədii mətndə fərqli mahiyyətinin elmi şərhi ilk dəfə süjet və fabula anlayışları ətrafında baş tuturdu. Fabula dedikdə, hadisələrin baş vermə ardıcıllığı, süjet dedikdə müəllifin tərtib etdiyi ardıcıllıq nəzərdə tutulur. Formalist məktəbdən Tomaşevski, süjeti fabulanın təqdim etdiyi materialı bədii kombinasiyaya dönüşməsinin nəticəsi, sırf bədii konstruksiya hesab edirdi və ayrı-ayrı

əsərlərin süjettəşkilinin şərh edərkən təhkiyənin zaman və məkan koordinatlarının müəyyənləşməsinə xüsusi diqqət yetirilməsini vurğulayırdı (Tomaşevskiy 1996: 179-190). Əsərdə material və onun formada əxz olunması məsələsinə toxunan Vıqotski, bu problemin həllinin ədəbiyyatşünaslıqda konkretləşə bilməməsini müxtəlif yönlü fikirlərin olması kimi səciyyələndirir. Şklovski, Tomaşevski kimi alimlərin əsərin əsasını təşkil edən materialı fabula, süjeti isə həmin fabulanın forma cəhətdən yenidən işlənməsi kimi xarakterizə etməsinin əksinə, başqa müəlliflərin həmin terminləri tamamilə əks mənasında – süjeti müəllifin seçdiyi hadisə, fabulanı isə həmin hadisənin bədiiləşdirilməsi kimi qiymətləndirilməsini bu müxtəlifyönlülüyə misal gətirir (Vıqotskiy 1987: 184). Viqotski formalist məktəbin nümayəndələrinin izahının tərəfdarı kimi çıxış edərək, əsərdə material və formanını xüsusiyyətlərini onların fabula və süjet şəklində münasibətləri əsasında izah etməyə çalışır. *"Misra üçün söz, musiqi üçün qamma, rəssam üçün rəng, qrafik üçün xətt nə ifadə edirsə, hekayə üçün fabula da eyni şeyi ifadə edir. Poeziya üçün misra, musiqi üçün melodiya, rəssam üçün şəkil, qrafik üçün rəsm nədirsə, hekayə üçün süjet odur"*. Həyat hadisələri öz xronoloji ardıcıllığında düz xəttlidir, burada bir sonrakı məqam əvvəlkini əvəz edir və o da öz növbəsində daha sonrakı ilə əvəz olunur. Hadisələrin poetik aspektdən sırlanmasında xronoliji ardıcıllığa riayət olunmur, Vıqotski şeirdə və musiqidə o qədər də qeyri-adi təsir bağışlamayan bu halı bədii nəsrdə bir qədər dolaşıq təsir bağışladığını sezir və bildirir ki, nəticə etibarilə, hekayədə hadisələrin yerləşimi, frazaların, təsvirlərin, obrazların, əhvalatların, hərəkətlərin, replikaların birləşimi eyni prinsip və qaydalara, melodiyada səslərin, şeirdə sözlərin bağlanma qanunauyğunluğuna tabedir (Vıqotskiy 1987: 188). XX-ci əsr isə süjetin özünütəsdiq və özünüinkar paradoksallığı yaşaması ilə başlanmışdır. Bir tərəfdən nəzəriyyə süjeti öyrənir (Rus formalist məktəbi), digər tərəfdən modern-avanqard mətnlərdə hadisələrin inkişafının personajların şüur axınına tabe edilməsi süjetin inkarına gətirib çıxarırdı. Bədii əsərdə təsvir olunan hadisələr toplusuna XX-ci əsrə qədər verilən tərif süjet adlanırdı. XX-ci əsrin əvvəllərində terminologiyada süjet-fabula əvəzlənməsi baş verdi. Formalist məktəbin bədii təsvirin reallıqdan tamamilə sərhədlərini ayırma cəhdi fabulanın qurulması ilə xarakterizə olunurdu. Sovet və postsovet mərhələsində isə fabula öz mənasını, formalistlərin əksinə gerçəkliklə onun bədii inikası arasındakı oxşarlıq kimi xarakerizə olunurdu. Formalist məktəb fabulanın əsasına təkcə zamanı deyil, eyni zamanda səbəb-nəticə əlaqəliliyini qoyurdu. Post-sovet mərhələdə isə fabula, təxminən bədii əsər üçün hazır həyat hadisələrini təsvir edirdi (Rımar 1990). Bəzən isə fabula - ən qısa süjet adlandırılır (Mirəhmədov 1998: 215). Fabulanın bədii mətni təşkil edən hadisələrin zaman əlaqəliliyi olması ədəbiyyatşünaslıqda təsdiq olunsa da, zamanın xətsiz, çoxölçülü və qeyri-klassik dərki fonunda fabulanın pozulması XX-ci əsr nəsrinin əsas prinsiplərindən

hesab olunur (Rudnev 1997: 131). Qeyriklassik romanlarda süjet və fabulanın bir-birindən seçilməsi klassik üslubun parodiyası şəklində mümkündür. Postmodernizmə görə klassik süjetdə "müəllif səsi"nin yeganəliyi normativdir (*Posmodernizm* 2001: 808), bu da onun əsas konsepsiyasına zidd gəlir.

Tarixi keçmişimizin mübahisəli məqamlarına müasirlik kontekstindən işıq tutmağa çalışan əsərlərdə nəql olunan hadisələr arasındakı epik vəhdəti qorumaq bəzən çoxsüjetlliliklə müşahidə olunur. Bu ayrı-ayrı süjetlər birləşəndə mətn özü bütövləşərək böyük bir tarixi yaddaşın anladan fabulanın təqdiminə çevrilir. Belə təhkiyələr müəyyən gərgin dönəmlərdən - siyasi çətin vəziyyətlərdən sonra yazılmış bir qədər sənədlilik-faktlılıq və dokumental ölçüləri artıq olan əsərlərdə gerçəkləşir. 1990-cı illərdən sonra yazılan ilk əsərlərdə belə, o paralel zaman müstəviləri arasında getgəlmələrlə müşahidə edilən əsərləri misal göstərmək olar. İsmayıl Şıxlının *Ölən dünyam* (1995) romanının "Müəllifdən" adlı giriş sözündə o özü yazırdı: *"Mən,* ***Dəli Kür*** *romanını yazdıqdan sonra Azərbaycanda 20-ci illərdə baş verən inqilab tariximizdən yazmaq qərarına gəldim, müəyyən materiallar topladım, hətta əsərin adını da oxuculara çatdırdım.* ***Qanlı təpə*** *adlanacaq bu əsər 20-ci illərin mürəkkəb və ziddiyyətli həyatını əhatə etməli idi".* Siyasi qadağalar şəraitində həqiqəti deyə bilməyəcəyindən əmin olan yazıçı bu fikrni təxirə salır. Bir qədər sonra 80-90-cı illərdə milli özünüdərkin cəmiyyət həyatına nüfuzu, milli müstəqilliyin əldə edilməsi onu düşündürən konkret tarixi mərhələ və onun problemləri ilə bağlı öz sözünü demək üçün yazıçının qarşısında yeni imkanlar açır: *"... Mən yeni roman üzərində işləməyi qərara aldım. Əsərin ruhu və məzmunu tamam yeni oldu, əsərin adı da dəyişdi. Mən romanımı Ölən dünyam adlandırdım*". Romanda paralel süjet xətlərini, sadə olmayan kompozisiya sistemindəki hadisələrin bir mətndə mövcudluğunu təmin edən müəllifin özündən doğan ideya, məqsəddir (Tarixi gerçəkliyin yenidən işıqlandırılmas, müəllif özü də sənədlərə, xatirə kitablarına, hərb tarixinə müraciət etdikdən sonra bu əsəri yazdığını vurğulayır.). Romanda bədii təhkiyənin mərkəzində 20-ci illərin hadisələri durur. Roman qəhrəmanları ilə ilk tanışlıqlar ailə-məişət hadisələri çərçivəsində baş verir. Alqazaxlılar nəslindən olan Həsənağa ov zamanı bilmədən Çıraqlılar nəslindən olan dostu, qardaşının qaynı, yaxınlarda toyu olacaq Ələddini öldürür. Hadisə hər iki tərəfin çox ciddi narahatlığına səbəb olur. Hər iki tərəfi narahat edən həm də odur ki, bu iki nəsil arasında vaxtı ilə düşmənçilik olub. Alqazaxlıları isə qorxudan budur ki, Çıraqlılar işin əslini öyrənməsələr, düşmənçilik yenidən qızışa bilər. Romanda Güllü arvadın da, Ömər koxanın da həyatı üç mərhələdə izlənir: I. Çar hökuməti dövründə; II. Sovet hökümətinin ilk illərində; III. Sinfi mübarizənin kəskinləşdiyi və gərginləşdiyi illərdə – 20-ci illərin sonu və 30-cu illərdə. Əsas süjet xətti qəhrəmanların həyatının son illərini əhatə edən ikinci və üçüncü mərhələ ilə bağlıdır. Onların sovet hökümətinə qədərki həyat yollarını bütövlükdə bədii

təhkiyənin obyektinə çevirməyən müəllif retrospeksiyadan isitfadə etməklə, yeri gəldkcə personajların həyatının əvvəlki mərhələsini, Güllü arvad və Ömər koxanın keçmişlə bağlı xatirələrində fraqmentlərlə canlandırır. Müəllifi xarakterlərin fərdi taleyi deyil, dəyişən, bir-birini əvəz edən zamanların səciyyəsi maraqlandırır. Romanda retrospeksiya yolu ilə bir zamandan başqa zamana sıçrayışlar və hadisələrin başqa zaman düzümündə açılışı təsvir olunan dövrün insanlarına zamanın dəyişən diskurslarının təsirini göstərir.

Nəticə

Azərbaycan nəsrində "milli tarix"in bədii mətnə çevrilməsində, konseptuallaşmasında, "milli mücadilə"nin prinsip və meyarlarının mətn hadisəsinə dönüşməsində epik düşüncə tərzi və epik təhkiyə texnologiyası əsas yer tutur. Epik təhkiyə ədəbiyyatın arxeoloji və genetk yaddaşına gedən yolları öyrənməklə yanaşı, milli kimliyin identifikasiyasının təzahür şəkillərini tapmağa imkan verir. XX-ci əsrdən başlayaraq bədii mətnin tədricən kiçilən həcmində, qloballaşma, postmodernizm kimi kontekstlərdə "milliliyin" tədricən itməsi və ya deformasiyaya uğraması şəraitində klassik epik təhkiyə də öz mövqeyini itirir. Buna informasiya çağında yaşayan oxucunun qısa və yığcam məlumatları uzun nəqllərdən üstün tutmasını da əlavə etsək, epik təhkiyə standartlarının məruz qaldığı dəyişikliyi başa düşmək olar. Yusif Səmədoğlunun *Qətl günü*, Elçinin *Ölüm hökmü*, İsmayıl Şıxlının *Ölən dünyam* əsərlərində milli tarixin bədii özünüifadəsində epik təhkiyə texnologiyasından fərqli üsul və ifadələrlə istifadə olunmuşdur. Bu əsərlərdə epik təhkiyə mətnin təqdim etdiyi mövzunun "necə" işlənməsini mətnəqədərki "niyə" sualına cavab verməklə müəyyənləşdirir.

Qaynaqlar

1. Ağaverdi, X. (2002). "Paremioloji mətnin strukturuna dair"/*Struktur-semiotik araşdırmalar*. №2, Bakı: Səda, 178. Say. ss. 73-98.
2. Axundlu, Y. (2005). *Azərbaycan roman tarixi: mərhələlər, problemlər (1930-2000),* Bakı: Adiloğlu nəşriyyatı, 550 s.
3. Барт, Р. (1987). "Введение в структурный анализ повествовательных текстов"./*Зарубежная эстетика и теория литературы XIX-XX вв. Трактаты. Статьи. Эссе* М.: Издательство Московского университета,. - 511 с. С. 387-422.
4. Elçin (2005). *Seçilmiş əsərləri. V cild*. Bakı, Çinar-Çap nəşriyyatı.
5. Əmrahoğlu, A. (2000). *Epik sözün bədii gücü*. Bakı: Elm, 212 s.
6. Hacılı, A. (2002). *Mifopoetik təfəkkür fəlsəfəsi*. Bakı: Mütərcim, 164 s.
7. Qarayev, Y. (1995). *Tarix: yaxından və uzaqdan.* Bakı: Sabah, 712 s.

8. Mirəhmədov, Ə. M. (1998). *Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət.* Bakı: Azərbaycan ensiklopediyası NPB, 240 s.

9. *Постмодернизм. Энциклопедия* (2001). - Мн.: Интерпрессервис; Книжный Дом.. - 1040 с Рымарь, Н. Т. (1990). *Поэтика романа*. Куйбышев. 232 s.

10. Руднев, В. П. (1997). *Словарь культуры XX века*. М., Аграф, 384 с.

11. Seymour, Ch. (2008). *Öykü ve Söylem: Filmde ve Kurmacada Anlatı Yapısı (Story and Discourse:*

12. *Narrative Structure in Fiction and Film*). De Ki Basım Yayım Ltd. Şti.

13. Səmədoğlu, Y. (1987). *Qətl günü*. Roman. B.,Yazıçı.

14. Şıxlı, İ. (2011). *Ölən dünyam*. Bakı: Qanun. 208 s.

15. Тодоров, Ц. (1975). Поэтика*//Структурализм "за" и "против".* М.: Прогресс, 468 с. С.37 113.

16. Томашевский, Б. В. (1996). *Теория литературы*. Поэтика. М.,

17. Выготский, Л. С. (1986). *Психология искусства*. М.: "Искусство", - 573 с.

ANAYASA VƏ Ə. AĞAOĞLUNUN SƏRBƏST İNSANLAR ÖLKƏSİNDƏ ƏSƏRİ

*Afaq YUSİFLİ**
*Yeganə HÜSEYNOVA***

Giriş

Məlum həqiqətdir ki, 20 yanvar 1921-ci ildə Türkiyə Böyük Millət Məclisi tərəfindən qəbul edilən ilk *Anayasa (Teşkilati Esasiye Kanunu)*, TBMM-nin doqquz aylıq çalışmalarından və üzün müzakirələrdən sonra qəbul edilmişdir. Bu Anayasa, dağılan və yox olan Osmanlı İmperatorluğunun yerinə yeni bir dövlətin qurulduğunu hüquqi cəhətdən müəyyənləşdirən və varlığını təmin edən bir əsərdir. Türkiyə Cümhuriyyətinin qəbul etdiyi *Anayasa (Konstitusiya)* milli maraqların hökmranlığını və vətənin taleyində milli maraqların təmsilçisi olan Böyük Millət Məclisinin qərarları elan və qəbul etməsinin mümkünlüyünü müəyyənləşdirən hüquqi və siyasi dəyəri böyük olan bir sənəddir.

Türkiyə Cümhuriyyəti 1921, 1924, 1961 və 1982-ci illərdə Anayasanı dəyişdirərək yeni redaksiyalarda qəbul etmişdir. Konstitusiya hüququna dair müxtəlif əsərlərdə Konstitusiya mətnləri müqayisəli şəkildə təhlil edilmiş, maddələr qarşılaşdırılmışdır. Bizim məqsədimiz həmin müqayisələri dəyərləndirmək deyildir. Əksinə məsələyə fərqli yöndən yanaşaraq 1921-ci il və qismən də 1924-cü il Konstitusiyalarının bəzi maddələrinin Ə. Ağaoğlunun *Sərbəst insanlar ölkəsində* əsərində təsvir edilmiş məqamlarla müqayisəsinin üzərində dayanmaq istərdik.

Millət Məclisi

Sərbəst insanlar ölkəsində əsəri simvolik məna daşıyan sözlərlə başlayır:"Mən bir əsir idim, azad olmaq istədim" (1.187). Bu cümlə ilə böyük mütəfəkkir Ə. Ağaoğlu doğma vətəni – Azərbaycanın bolşeviklər tərəfindən işğalına, ermənilər tərəfindən törədilən qətliamlara, Şərqin ilk Cümhuriyyəti

* Doç. Dr.; Azərbaycan, Gəncə Dövlət Universiteti, Filologiya fakültəsi; yusifli.afaq@mail.ru
** Dr., Azərbaycan Gəncə Dövlət Universiteti, Filologiya fakültəsi; eganesabirhuseynli@gmail.com

olan Azərbaycanın Sovet İttifaqının bir parçasına çevrilməsinə etiraz edirdi. Lakin əsərin yazılmasında məqsəd heç də Azərbaycanı qəsb etmiş totalitar rejimə etiraz və ya xəyali, utopuk ölkənin təsviri deyildi. Hərçənd *Sərbəst insanlar ölkəsində*ye gələn yolçu türk ellərinin başına gələn fəlakətləri, dövlətlərinin zəbt edilmək cəhdlərini danışdıqdan sonra belə bir qeyd edir: *"Aramızdan sarı saçlı, mərd üzlü, aslan baxışlı birisi çıxdı. Demə, elini qoruyan, yurdunu müdafiə edən tanrı peyğəmbəri imiş! Elə işlər gördü ki, bütün dünya heyrət etdi. Yad elləri yurddan qovdu..."* (1, 189). "Azadlıq araya-araya, Tanrı peyğəmbərinin səsini eşidərək" bu diyara gəlib çıxan müəllif ölkənin qanunları və təsisatları ilə tanış olur. Əsərin açarı hesab edilə biləcək hissə *"Parlamentdə nələr gördüm"* adlanır. Həmin hissədə təsvir və təhlil olunan məsələləri qısa şəkildə belə yekunlaşdırmaq mümkündür:

Parlamentdə üç cinaha mənsub partiyaların nümayəndələri təmsil olunur,

Nazirlər parlamentdə layihələri ilə əlaqədar çıxışlar edir və sualları cavablandırır, mövqe bildirirlər,

Tənqidlərin çox kəskin olmasına baxmayaraq, çıxış edənlər əsəbi və ya təhqiramiz ifadələr işlətmirlər,

Müzakirələr uzun müddət davam edri, çünki iştirakçılar xalqın mənafeyinə ən uyğun, ən optimal variantı seçmək istəyirlər.

Yəni hakimiyyətin xalqa məxsus olduğunu göstərmək istəyən müəllif sanki *"Teşkilati-Esasiye kanunu'nun ikinci maddəsini əyani faktlarla canlandırır: İcra kudreti ve teşri salahiyeti milletin yegane ve hakiki mümessili olan Büyük Millet Meclisinde tecelli ve temerküz eder"* (7, 1).

Hakimiyyətin xalqa məxsusluğu, bu məsələnin müxtəlif yönlərdən işıqlandırılması *Sərbəst insanlar ölkəsində* əsərinin təməl leytmotividir. Bir çox mənbələrdə "Teşkilati-Esasiye kanunu"nun birinci maddəsi "Hükumet Sistemi: Meclis Hükumeti" (3.50) şəklində təhlil olunur. Xalq hakimiyyətinin əsas sayıldığı, xalqın həqiqi hakimiyyətdə olduğu dövlət sistemi bütün zamanlarda ideal sayılmış, Şərq mütəfəkkirlərinin məşhur əsərlərində günümüzə qədər gəlib çatmışdır. İdeal ictimai quruluş haqqında mükəmməl nəzəri sistem yaradan Fərabi ideyaları Şərq ədəbiyyatının və fəlsəfəsinin ən möhtəşəm əsərlərində dəfələrlə istinad obyektinə çevrilmişdir. Fərabinin ideal şəhərdövlət haqqında yaratdığı nəzəriyyənin əsas müddəası dövlət tiplərinin müqayisəsidir. Dövləti idarəetmə sistemini təsnif edən Fərabi iki dövlət tipini müqayisə edir:

1. Həyat şəraiti və mənəvi dəyərləri həqiqi səadətə aparan dövlət quruculuğunda idarəçilər və xalqlar xeyirxah olurlar,

2. Quruluşu və idarəçiliyi zahiri səadətə xidmət etsə də, əslində səadətdən uzaqlaşdıran dövlətlər cahildir, idarəçiləri və xalqları da cahillik içərisindədir.

Fərabi dövlət quruculuğunda və quruluşunda xalqların xarakterini, onların formalaşdığı mühiti və tarixi-coğrafi məkanı əsas faktorlardan sayırdı. Xalqları üç cəhətinə görə təsnif edən dahi filosof ənənəni, təbii xarakteri və dili önəmli cəhətlərdən hesab edirdi (4.229).

Ə. Ağaoğlunun səyahətnamə üslubunda və xatirələr formasında yazdığı əsəri əslində Fərabi ideyalarının publisistik təzahürüdür. Xalq mənafeyinə xidmət edən ictimai quruluşun əsasında qanunlara əsaslanan seçki və nəzarətin olması Ə. Ağaoğlunun fikrincə, əsas şərtdir. *"... hakimiyyətin xalq əlində olduğu yerlərdə məmləkəti idarə etmək işi xalq arasından çıxan adamlara verilir. Seçki, təbii ki, əxlaqa, ləyaqətə, bacarıq və ixtisasa əsaslanır"* (1.203). Bütün dediklərimizi ümumiləşdirmək istəsək, "Teşkilati-Esasiye kanunu"nun birinci maddəsindən daha gözəl heç bir fikir sözləyə bilmərik: *"Hakimiyet bilakaydüşart milletindir. İdare usulü halkın mukadderatını bizzat ve bilfiil idare etməsi esasına müstenittir"* (7, 1).

Xalq idarəsində dövlət

"Ədalət və xeyirxahlığın hökm sürdüyü şəhərə ədalətli və hamının hörmət etdiyi rəhbər başçılıq edir ki, onun əsas məqsədi başçılıq etdiyi cəmiyyətin bütün üzvlərinin həqiqi xoşbəxtlik içərisində yaşamasını təmin etməkdir" (4, 231). Bu fikirlər zamanın fövqündə durur və IX-cu əsrdə başlayan ideologiyanın XX-ci əsrin başlanğıcında Azərbaycan publisistikasının mükəmməl əsərlərindən biri olan *Sərbəst insanlar ölkəsində* əsərinin bir parçası kimi səslənir. İctimai quruluş haqqında mükəmməl düşüncələrin heç zaman lazımsız olmadığı və yüzilliklər boyunca təkamül keçirdiyi məlumdur. Həmin təkamülün nəticəsi olaraq yaranan "Sərbəst insanlar ölkəsində" əsərində oxuyuruq: *"... azadlığı qorumaq nə qədər çətin imiş! Üzərində çalışmaq, gecə-gündüz durmadan çalışmaq və onu bir iman halına gətirib yeni nəslə çatdırmaq lazım imiş!"* (1, 214).

Ə. Ağaoğlu cəmiyyətdəki ədaləti hər şeydən əvvəl ədalətli seçkilərlə bağlayır. Yaşadığı cəmiyyətin, vətəndaşı olduğu dövlətin "Teşkilati-Esasiye kanunu"nun beşinci maddəsində yazılmışdı: *"... Büyük Millet Meclisi azasının her biri kendini intihap eden vilayetin ayrıca vekili olmayıp umum milletin vekilidir"* (7, 1). Xalqın vəkili olmaq və onun inamını qazanmaq Ə. Ağaoğlunun təqdimatında ən xırda detallarına qədər incələnir:

Xalq seçdiyi vəkillərin əxlaq, ləyaqət, bacarıq və ixtisasına inanmalıdır,

Millətin fəaliyyəti ilə bağlı olan işlər: sağlamlıq və ictimai təminat kimi işlər dövlət fəaliyyətinin başlıca istiqamətləri olmalıdır,

Xalq üsuli-idarəsində istibdaddan fərqli olaraq vəkillər hakimiyyətə deyil, xalqın etimadına arxalanırlar,

Ən əsası isə azadlıq nəzarətə bağlıdır, nəzarət olmayan yerdə azadlıq ola bilməz.

Sərbəst insanlar ölkəsində əsərində gələcəyə inam

Sərbəst insanlar ölkəsində "türk fərd"inin səyahəti həm də müqayisəli və maarifləndirici xarakter daşıyır. Yalnız bu əsərində deyil, bundan öncə yazılmış *Üç mədəniyyət* adlı əsərdə də Ə. Ağaoğlu Türkiyə Cümhuriyyətini və onun Qurucusunu türklük və türkçülük ideallarının inanılmaz irəliləyişinin təməli kimi təhlil edir: *"Qazinin yüksək dühasından fışqıran böyük inqilabımız on il əvvəl Türk aydınlarına ideal və xəyal kimi görünən dəyişiklikləri gerçəkləşdirmişdir. Qazinin əzmli iradəsi ilə başdan-başa Qərb mədəniyyəti çərçivələrinə girmiş olduq. Ailədən dövlət və hökümət şəkillərinə, geyimimizdən yazıya qədər, müəssisələrimiz və keçinmə tərzimiz baxımından Qərb mədəniyyəti zümrəsinə girdik"* (2.26). *Sərbəst insanlar ölkəsində* əsərində istər siyasi, istərsə də iqtisadi qurumların yaranması və inkişaf qanunauyğunlarının təsviri 1924-cü ildə qəbul olunmuş *Anayasa* ilə heyrətamiz paralellik təşkil edir. Azad cəmiyyətin yalnız təməl qaydaları deyil, bütün dünya xalqları və dövlətləri üçün maraqlı cəhətləri "*Sərbəst insanlar ölkəsində*" əsərində təhlilə cəlb olunur. Məsələn, *Anayasa*nın Beşinci bölüm: 68-ci maddəsində oxuyuruq:

"Her Türk hür doğar, hür yaşar. Hürriyet, başkasına zarar vermiyecek her şeyi yapabilmektir. Tabii haklardan olan hürriyetin herkes için sınırı, başkalarının hürriyeti sınırıdır. Bu sınırı ancak kanun çizer" (6, 6).

Sərbəst insanlar ölkəsində əsərinin "Azadlıq bir güldür", "Sərbəst ölkənin ilk hüriyyət qəhrəmanı", "Azadlıq və xarakter" bölümlərində səyahət etdiyi ölkədə qanunlarla qorunan azadlığın bəhrələrini görərək bir anlıq Azərbaycan Cümhuriyyətini xatırlayaraq *"... azadlığın öz-özünə, öz ləyaqəti sayəsində yaşayacağını zənn etdik, halbuki azadlığı qorumaq nə qədər çətin imiş!"* (1, 214) nəticəsinə gəlir.

Hər bir dövlətin yaşamının və inkişafının təməl əsaslarından biri mükəmməl maarif sisteminin qurulmasıdır. Yalnız düzgün qurulmuş və inkişaf istiqamətləri əvvəlcədən müəyyənləşdirilmiş təhsil sistemi dövlətin gələcəkdə demokratik prinsiplər əsasında inkişafının təminatçısıdır. *"Anayasa'nın Beçinci bölüm: 87-ci maddəsində oxuyuruq: Kadın, erkek bütün Türkler ilk ögretimden geçmek ödevindedirler. İlk ögretim Devlet okullarında parasızdır"* (6, 7).

Sərbəst insanlar ölkəsində əsərində səyahətə çıxmış "türk fərdi" onu himayə edən pirlər tərəfindən ibtidai bir məktəbə aparılır və gördükləri onu heyran edir: *"Bizdə altıdan on iki yaşına qədər olan bütün oğlan və qız uşaqları bu məktəblərdə oxumalıdırlar. Kasıb da, dövlətli də - hamı öz uşağını buraya göndərməyə borcludur. Uşaqlar dövlət hesabına oxuyurlar"* (1, 247). Yəni Ə. Ağaoğlu bu parça ilə "Anayasa" maddəsini publisistik dillə təhlil edir, kənardan gəlmiş bir müsafirin bu qanunun tətbiqinin detalları, maddi tərəfləri,

cəmiyyət üçün nəticələrini əks etdirən cəhətlərini "İbtidai məktəbdə və kitabxanada" bölümündə təsvir və dialoqlarda bütün detalları ilə əks etdirir.

Ümumiyyətlə, *Sərbəst insanlar ölkəsində* əsəri ilə 1924-cü il Anayasası arasında paralellər o qədər aydındır ki, 105 maddənin hamısının əsərdə birbaşa və həm də metaforik izahatı vardır. Eyni zamanda əsərin Atatürklə bağlılığı yalnız yuxarıda qısaca qeyd etdiyimiz məqamlarla məhdudlaşmır. Qurtuluş savaşının müxtəlif mərhələləri, bu savaşın məqsəd və nəticələri də əsərdə öz yerini almışdır. Ə. Ağaoğlu Qazi Mustafa Kamal Paşanın ən möhtəşəm əsəri olan Türkiyə Cümhuriyyətinin təməlinin qurulmasına birbaşa işarə edərək "Azadlıq və xarakter" adlı bölümdə "qaranlıq bir yerdə iclas" keçirərək millətini azadlığa qovuşduran qəhrəmandan və onun silahdaşlarından danışır. Zənnimizcə, 1919-cu il 27 dekabrda Ankarada keçirilən və Qurtuluş Savaşının önəmli mərhələsi olan bir hadisədən danışılır. Türk millətinin bu Savaş nəticəsində qurmuş olduğu Cümhuriyyəti Ə. Ağaoğlu belə dəyərləndirir: *"Mən onu da anladım ki, bu diyara başçılıq edən insanlar gecə-gündüz diyara və qurmuş olduqları azadlıq təsisatına iman və məhəbbət toxumu səpməklə və özlərindən sonra diyarı və təsisatı yaşadacaq nəsillər yetişdirməklə məşguldurlar"* (1, 214).

Bəli, önəmli olan yalnız savaşmaq və yaratmaq deyil, həm də dövlətin təməllərini yaşadacaq nəsillər yetişdirməkdir.

Ə. Ağaoğlunun 1921-ci ildə onu Azərbaycana dəvət edən N. Nərimanova yazdığı məktubda maraqlı sətirlər var: *"Türklər üçün qurtuluş imkanının yalnız Osmanlı türklüyündə olduğu... məlumdur. Türklük bölünmə qəbul etməyən bir tamdır... hər şeydən üstün olan türklüyə xidmətdir"*(5, 22).

Məhz türklüyə xidmət etmək üçün Ə. Ağaoğlu 1921-ci ildə var ola bilmək üçün Qurtuluş savaşı verən türk millətinin yanında oldu və Mustafa Kamal Paşanın yoxdan var etdiyi Cümhuriyyəti *Sərbəst insanlar ölkəsində* əsərində bütün əzəməti ilə vəsf etdi.

Qaynaqlar

1. Ağaoğlu, A. (2007). *Seçilmiş eserleri*. Bakı: Şərq-Qərb.
2. Ağaoğlu, A. (2017) *Üç Medeniyet*, Bakı.
3. Gözler, K. (2000) *Türk Anayasa - Hukuku*. Bursa: Ekin. s. 335.
4. Hayrullayev, M. M. (1982). *Abu Nasr* al-*Farabi*. Moskov.
5. Guliyev, V. (2007) *A. Ağaoğlu. Seçilmiş Eserleri*. Önsöz. Bakı.
6. https://www/tbmm/gov/tr/anayasa/anayasa24/htm
7. https://anayasa.tbmm.gov.tr/docs/1921/1921ilkmetin/1921-ilkhali.pdf

Ə. HÜSEYNZADƏNİN PUBLİSİSTİKASINDA QURTULUŞ SAVAŞI DÖNƏMİNİN TARİXİ REALLIQLARININ METAFORİK TƏQDİMİ

*Toğrul YUSİFLİ**

Giriş

İstiqlal mücahidi Əlibəy Hüseynzadə üçün həyatının ən önəmli məqsədi Turan ideyasına xidmət olmuşdur. Bütün əsərləri türklüyə, türkçülüyə əbədi bir himn kimi səslənmişdir. Ə. Hüseynzadə Əcdadımızın müştərəkən mənşəyi Turan (4, 23) deyərək publisistikasında elmi dəlillərlə sübut etdiyi faktları poeziyasında şairanə bir dillə çatdırır. Onun 1905-ci ildə yazdığı *Türklər kimdir və kimlərdən ibarətdir* adlı dərin məzmunlu, maarifçi tədqiqat xarakterli əsərində bütün türk tayfalarının təsnifatı, mənşəyi, əlaqələri haqqında geniş məlumat verilir. 1923-cü ildə "Qərbin iki dastanında türk" adlı müqayisəli üslubda yazılmış məqaləsində isə Ə. Hüseynzadə türk xalqlarına qərəzli münasibətin kökləri haqqında qiymətli fikirlər söyləyir. Çanaqqala boğazını "Arslan ağzı" deyərək tərənnüm edən Ə. Hüseynzadə üçün həmin yerlər xəyalını qurduğu Turanın bir simvolu, metaforik qapısıdır:

Əbədiyyən yaşar türkün bayrağı!
...
Bu yerləri türkə vermişdir Tanrı;
Ey düşmən, burası Turan qapısı,
Təslim etməm sana bən anaxtarı! (4, 37).

Məhz XX-ci əsrin birinci rübündə öz dövlətçilik prinsiplərini bütün dünyaya elan edən türk dövlətlərinin bayraqlarının müqayisəsi ilə başlayan "Azərbaycanda düşündüklərim" məqaləsi də bu baxımdan çox maraqlıdır. Məqalə 1918-ci ilin iyulunda *Hilali-əhmər* qəzetində çap olunmuşdur. 1918-ci ildə Ə. Hüseynzadə və Ə. Ağaoğlu Türkiyə hökuməti tərəfindən milli dövlət quruculuğu məsələlərinə aydınlıq gətirmək məqsədilə Azərbaycana ezam olunmuşdular. Həcmcə o qədər böyük olmayan bu yazısında Ə. Hüseynzadə Qurtuluş savaşı öncəsi Azərbaycanın vəziyyətini riyazi bir dəqiqliklə təhlil edir.

* Azərbaycan, Gəncə Dövlət Universiteti, Tarix fakültəsi; syusifli@mail.ru

Eyni zamanda Türkiyənin Azərbaycanı bu girdabdan xilas etməsinin mərhələ və nəticələrini göstərir. Həmin məqalə tədqiqimizdə bir leytmotiv xarakteri daşıdığından onun üzərində ayrıca dayanmağı lazım bildik.

Anadolu və Azərbaycan

Məqalə beş şüalı (4, 296) qırmızı bayrağın səkkiz şüalı bayraqla şairanə bir müqayisəsi ilə başlayır. Ə. Hüseynzadə üçün ən qürurverici məqam Azərbaycan Cümhuriyyətinin ilk paytaxtı olan Gəncədə müvəqqəti olaraq xəstəxanaya çevrilmiş bələdiyyə binasının üzərində türk bayrağının dalğalanmasıdır. Nə üçün türk əsgəri Azərbaycanın ikinci böyük şəhəri Gəncədədir, niyə yaralıdır və müəllifin yazdığı kimi *"Osmanlı türk əsgəri ilə Azərbaycan türk əsgəri yaralı olaraq yan-yana yatıyorlar"* (4, 296). Səbəb bizlərə məlumdur! Hərçənd hər dəfəsində biz sübut etmək məcburiyyətində qalırıq ki, Azərbaycan türkləri 1918-ci ilin mart ayında bütün ölkə ərazisində dəhşətli qətliamlara məruz qaldılar və qırğının səbəbkarı da, iştirakçısı da ermənilər və ruslar idi. Bütün dünya dövlətləri arasında yalnız özü də qorxunc olaylar qarşısında qalan Türkiyə qardaş Azərbaycanın köməyinə düşünmədən və tərəddüdsüz gəldi. Çünki Ə. Hüseynzadənin tamamilə doğru olaraq qeyd etdiyi kimi *"cahan müharibəsinin doğurduğu bütün çətinliklərə baxmayaraq, iki türk qardaş birləşir."* (4, 297). Məqaləsində proqram xarakterli fikirlərini ifadə edən Ə. Hüseynzadənin gətirdiyi sübutlar və ortaya quyduğu nəticələr qısaca belə yekunlaşdırıla bilər:

Anadolu türkü dünyanın ən dəyərli əsgəri oldu, lakin sənaye və iqtisadiyyatını tərk etdi.

Rusiya imperiyasının müstəmləkəçilik siyasəti nəticəsində döyüş bacarığını itirən Azərbaycan türkü iqtisadi inkişafına rəvac verdi.

Cəhənnəmə dönmüş Azərbaycanı mənfur əsarətdən Anadolu türkü xilas etdi.

Yuxarıda da qeyd etdiyimiz kimi, Ə. Hüseynzadəyə görə nə silahsız istiqlal, nə də sənaye və iqtisadiyyatsız müstəqillik yoxdur. Azərbaycanı qurtaran Anadolu türkü özünü də xilas etdi, çünki *"Fikri, milli və siyasi istiqlalların kökü iqtisadi istiqlaldadır"* (5, 3).

Milli mücadilə və qadın

Ə. Hüseynzadənin publisistik və bədii yaradıcılığının zirvəsi heç şübhəsiz ki, *Siyasətü-fürusət* əsəridir. *"İranın və Turanın, Yaxın və Uzaq islam Şərqinin bütün nəsilləri üçün bir dərslik kitabı, etiraf, tövbə və yaddaş qamusu, qeyri-rəsmi ana yasa kimi"* (3, 12) qiymətləndirilən bu əsərdə Ə. Hüseynzadə türk xalqlarının keçdiyi çətin siyasi-tarixi təkamülü fəlsəfi dərinlik, eyni zamanda tarixi faktlarla təhlil edir. Türk-müsəlman dünyasının ictimai-siyasi

həyatının elə bir məqamı yoxdur ki, Ə. Hüseynzadə bu əsərində onları təhlil etməsin. "*Məcnun və Leylayi-islam*" adlı araşdırmasında olduğu kimi burada da qadının cəmiyyətdəki yeri və fəaliyyəti konkret tarixi faktlar əsasında aydınlaşdırılır. Məsləkdaşı Ə. Ağaoğlu kimi qadın hüquqsuzluğuna üsyan edən ədib onun fikirlərinə şərik çıxır. Ə. Ağaoğlu qadının cəmiyyətdəki yeri haqqında nə düşünürdü? Onun fikrincə, qadın cəmiyyətin təməli olan ailənin yaradıcısı, gələcəyin qurucusu olacaq vətəndaşın tərbiyəçisidir və əgər qadın hüquqsuz və bədbəxtdirsə, onun yaşadığı cəmiyyət sağlam təməl üzərində qurula bilməz. *"Türk cəmiyyətinin dayanağı olan türk ailəsi mənəvi və hüquqi əsarətdən xilas olmalı, türk ictimai quruluşunun da gərəkdirdiyi üzrə, bu ailə kişi və qadının hüquqca bərabərliyi üzərində qurulmalıdır"* (2, 117). Qurtuluş savaşında kişilərlə çiyin-çiyinə döyüşərək qəhrəmanlıqlar göstərmiş qadınları Ə. Hüseynzadə tanımamış deyildi. Və əslində məşhur *Siyasətü-fürusət* əsərində qadın hüququ ilə bağlı fikirlərini bölüşərkən gələcəkdə qurulacaq demokratik türk dövlətlərində qadının cəmiyyətdəki yeri haqqında fikirlərini bölüşmüşdür. *Siyasətü-fürusət* əsərinin 17-ci bölümündə qadınların islam alimlərinə etirazını təsvir edən Ə. Hüseynzadə hər şeydən öncə dinin qadına verdiyi qiymət və islam cəmiyyətində qadının yeri haqqında fikirlərini ifadə edir. Lakin Ə. Hüseynzadə sadəcə təsvirlə kifayərlənmir və qadının cəmiyyətdə və milli mücadilədə yerini müəyyənləşdirir:

Bakı islam xanımlarının hüquqi-nisvaniyyeyi-islamiyyənin müdafiəsini tələb yollu Türkiyə məclisi-məbusanına teleqraf etdiklərini söyləyərək 1908-ci ildə Gənc türklər hərəkatında Türkiyə qadınlarının fəallığına işarə etmişdir

Fətəli şahın 158 xanımının metaforik obrazları ilə Ə. Hüseynzadə qadının təhsil almasına münasibətini ifadə etmişdir. Həmin xanımlar *"... siz dəmi hürriyyət və müsavata talibsiniz?"* (4, 410) sualına cavab olaraq üsuli-cədid üzrə ünas məktəbləri (yəni yeni üsullu qadın məktəbləri) tələb edirlər.

Ə. Hüseynzadə hesab edir ki, gələcək aləmi-islamın mərkəzi olan Türkiyənin paytaxtında yaşayan Cövdət paşanın qızı Fatimeyi-Aliyə xanım kimi təhsilli və savadlı xanımlarındır.

"Otuz yaşını bitiren kadın, erkek her Türk milletvekili seçilebilir." (8, 2) sözlərini 1924-ci il Anayasasında görə bilmək Ə. Hüseynzadənin həyata keçmiş arzularından biri idi.

Xilas yolu

Məcnun və Leylayi-islam əsərində Ə. Hüseynzadə islami-siyasi coğrafiyanı tədqiq edərək islam aləmini metaforik bir şəkildə bənzərsiz bir gözəl kimi canlandırır. Eynən "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" adlı məqaləsində təsvir etdiyi kimi islam onu sarmış qırmızı-qara qaranlıqların içərisində parlayır. Bir həkim kimi bu gözəli, yəni islamı müayinə edən şəxs – Ə. Hüseynzadə bu

gözəlin paltarlarını böyük təəccüblə müşahidə edir: *"...başında osmanlı bayrağına bənzər ay-yıldızla müzəyyən bir qırmızı örtü vardı. Geyindiyi ruba isə yeşil olub köksündə sırma ilə işlənmə bir şiri-xurşid əlaməti görünüyordu"* (4, 246). Bu gzəlin – siyasi coğrafiyanın başı Türkiyədirsə, ürəyi Hicaz və Ərəbistandır. "İngilis mikroblarının" ucbatından bu qəlbi kişilmiş görən həkim onu "firəng stetoskopu" ilə yoxlamaq qərarına gəlir və heç bir səs eşidə bilmir. Nə qədər kəskin, eyni zamanda rəmzi təhlildir. Qurtuluş savaşından 12 il öncə yazılmış bu məqalədə Ə. Hüseynzadə baş verən proseslərə kəskin siyasi qiymət verir. Qərbin və Şərqin hücumlarına, saysız xəyanətlərinə dözməli olan, tədricən "sağlamlığını" yəni siyasi-iqtisadi sabitliyini itirən, torpaqları kiçilən Türkiyənin həkimlərə ehtiyacı var. Bu həkimlərə türk aydınlarını birləşdirən "İttihad və tərəqqi" təşkilatına mənsubdurlar. Bu məqalədə islam dünyasının, əsasən də Türkiyənin rəmzi obrazını məhz bir həkim təhlil edir. Əlbəttə, bu cür yanaşma təsadüfi deyildir. Çox sonralar, 1938-ci ildə yazdığı " 'İttihad və tərəqqi' nasıl quruldu?" adlı məqaləsində Ə. Hüseynzadə bu cəmiyyətin əski tibbiyəlilər arasında yaranıb təşkilatlanmasından danışır. Və əlbəttə, söhbət simvolik təsvirdən gedir, xəstəliyə uğramış bir cəmiyyəti yalnız əsl tibbi biliyə malik olanlar, yəni məsələnin mahiyyətini anlayan siyasətçilər xilas edə bilər. İngilislərin Ərəbistanda Türkiyəni parçalamaq uğrunda apardıqları fəaliyyəti də Ə. Hüseynzadə metaforik bir tərzdə təsvir edir. Onların yerə çörpdıqları ingilis lirələri üsyan gurultuları qoparır və Leylayi-islamı narahat edir. Rahatlanmaq və sağala bilmək üçün Leylayi-islam sinəsində bəzək kimi parlayan "şiri-xurşid"dən (yəni İranın rəmzindən) xilas olmalıdır. "Şiri-Xurşidi" bir kənara atdıqdan sonra Leylayi-islam nəfəs almağa başlasa da, rentgenlə onu müayinə edən həkim sinəsində yüzbaşlı əjdaha görür. Belə bir şeyi heç bir tibb kitabında, hətta Ovidinin "İstihalələr" risaləsində görməyən Ə. Hüseynzadə fikrinə sarkastik bir yekun verir: *"Tibb kitablarında olan belə bir qüsurun başlıca səbəbi latın və Avropayi-cədid üləmasının İranın təbabətindən, tarixi-təbabətindən qafil və bixəbər bulunmalarıdır. İran tarixinə aşina olanlara məlumdur ki, hökuməti-müstəbidənin mücəssəməsi olan Zöhhakın (hinduca 'Azidaka'nın) omuzlarında iki əjdərha peyda olmuş idi. İran təbibləri əməliyyati-cərrahiyyə ilə bu əjdərhaları dəfəat ilə kəsib atmışlar, fəqət yenə mərəzi-istibdada çarəsaz olmamışlar idi"* (4. 252). Yəni islamı özünə pərdə edərək türk torpaqlarını parçalamağa çalışan qüvvələrlə mübarizənin çarəsini başqa yerdə aramaq lazımdır.

Ə. Hüseynzadə çarəni belə formalaşdırır: "*Fədai lazımdır, fədai! Yuxarı sıçrayan murdarlıqlardan qorxmayan fədai! Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafətli fədai! İngilis. Amerikan kibi tizrəftar, yeni yaponlar kibi kütahdamən fədai!*" (4, 257).

Nəticə

Ə. Hüseynzadənin Qurtuluş savaşı öncəsi Türkiyə və Azərbaycanın siyasi-iqtisadi durumu ilə bağlı bütün qeydlərini burada təhlil və ümumiləşdirmədən keçirmək mümkün deyil. Lakin böyük istiqlal mücahidinin bizlərə ərməğan etdiyi irs ən yaxşı şəkildə Ə. Ağaoğlu tərəfindən qiymətləndirilmişdir: *"Məqsədimiz gələcək araşdırmacılarımız üçün yeni bir müqayisə zəmini hazırlamaqdır. Belə bir müqayisə 10 il əvvəl ən sərbəst və geniş düşünən türk aydınlarının birər ideal kimi xəyallarında bəsləyərək 10 il sonra tamamilə gerçəkləşmiş olduqlarını göstərməklə bu inqilabı vücuda gətirmiş olan **dühanın** qüdrət və qədrini dəyərləndirmək üçün bir əsas təşkil edər zənnindəyiz. Hələ bir neçə il əvvəl xəyalımıza gəlməyən və ifadəsinə cürət etmədiyimiz əsaslar bugünkü həyatımızn birər prinsipi olmuşdur. Qazinin əzmli iradəsiylə başdan-başa Qərb mədəniyyəti çərçivələri içinə girmiş olduq"* (2, 26).

O müqəddəs savaş aydınlarının dili danışan xalqın arzusu idi və o arzu 100 ildir ki, Qazinin böyük dühası ilə həyatı keçərək türk dövlətlərini müstəqil gələcəyə aparır.

Qaynaqlar

1. Ağaoğlu, A. (2007). *Seçilmiş əsərləri*. Bakı: Şərq-Qərb.
2. ----- (2017). *Üç Mədəniyet*. Bakı.
3. Huseynzade, A. (2007). *Seçilmiş əsərləri.* Önsöz. Bakü: Şərq-Qərb. 392 s.
4. ----- (2007). *Seçilmiş əsərləri*. Bakı: Şorq-Qarb. 392 s.
5. Rəsulzadə, Ə. M. (1990). *Azərbaycan Cümhuriyyəti*. Bakı: Elm. 116 s.
6. https://www/tbmm/gov/tr/anayasa/anayasa24/htm
7. https://anayasa.tbmm.gov.tr/docs/1921/1921ilkmetin/1921-ilkhali.pdf

SONUÇ BİLDİRGESİ

"ULUSLARARASI TÜRK DÜNYASI'NDA MİLLÎ MÜCADELE VE EDEBİYAT" SEMPOZYUMU SONUÇ BİLDİRGESİ

Türk Dünyası görkemli bir ağaç gibidir. Tanrı Dağlarından su içen bu ağaç, dallarıyla Orta Asya'dan başlayarak bütün Türk Dünyası'nı kucaklar. Bu açıdan özelde, Türkiye ile Azerbaycan'ı, genelde ise diğer Orta Asya Türk devletlerini kök olarak birbirinden ayrı düşünmek olanaksızdır. Tarihimiz, özgürlük yolunda bütün güçlüklere karşı durmakla ve her birinin üstesinden gelmekle şerefli bir maziyi temsil eder. Bu açıdan tarihe, kendilik değerleri ile yön vererek topraklarını vatanlaştıran Türkler, kahramanlıkların destansı yüzü olarak bilinirler.

Millet olabilmenin başat değerleri kabul edilen dil, tarih ve millî bilinç unsurlarına edebiyat penceresinden bakarak Sempozyum'umuzu bilim şölenine çeviren katılımcılara özellikle teşekkür ederiz. Azerbaycan'dan 67, Türkiye'den 9 ve Polonya'dan 1 bilim insanının katkı sağladığı bu Sempozyum'da, tarihsel birlikteliğimiz ile Türk Dünyası'nın kurucu unsurlarını yeniden hatırlamak ve bu unsurların hafızalardaki sesine yankı olmak için toplanmış bulunduk.

2018 yılı, Kafkas İslam Ordusu'nun Azerbaycan'ı Rus ve Ermeni işgalinden kurtarışının ve Azerbaycan Halk Cumhuriyeti'nin kuruluşunun 100. yılı; 2019 yılı ise Mustafa Kemal Atatürk'ün 19 Mayıs 1919 tarihinde Samsun'a çıkarak Türk Kurtuluş Savaşı'nı başlatmasının 100. yılıdır. 12-15 Haziran 2019 tarihlerinde gerçekleştirilen "Uluslararası Türk Dünyası'nda Millî Mücadele ve Edebiyat Sempozyumu"; Türk Dil Kurumu, TİKA, Yunus Emre Enstitüsü, Kafkasya Üniversiteler Birliği ve Azerbaycan Millî İlimler Akademisi'nin destek, himaye ve rehberliği ile Bakü Yunus Emre Enstitüsü'nün ev sahipliğinde başarı ile tamamlanmış bulunmaktadır.

Azerbaycan ve Türkiye'de hemen hemen aynı dönemlerde sürdürülen millî mücadele hareketleri, edebiyatçılara ilham vererek pek çok şiir, öykü, roman ve tiyatro eserlerine kaynaklık etmiştir. Sempozyum'da, özelde her

iki ülke halkının, genelde "Türk Dünyası"nı oluşturan tüm halkların tarihleri boyunca vuku bulmuş millî mücadele hareketlerine bilimsel yaklaşımlarla ayna tutulmuş, bu hareketlerin edebiyata yansımaları, alanında yetkin bilim insanlarınca ele alınmıştır. Sempozyum süresince sunulan tebliğlerde, Türk Dünyası'nın yüz yıl öncesine ait değerler dizgesi bir kez daha anılmıştır. Bilindiği gibi, XX'nci yüzyılın başında Türkiye ile Azerbaycan arasında edebî, ilmî, askerî ve siyasi bakımlardan çok yoğun ilişkiler kurulmuştur. Bu çerçevede, 1918 yılında Azerbaycan topraklarını işgal etmiş olan Ermeni-Rus zorbalarını geri püskürtmek için Osmanlı Devleti'nin görevlendirdiği Nuri Paşa komutasındaki Kafkas İslam Ordusu, Azerbaycan topraklarını azat etmiştir. Bu hadise, Azerbaycan Türklüğü tarafından her zaman minnetle anılmıştır. Bu dönemde, Azerbaycan'dan tahsil için Türkiye'ye gelen istidatlı gençler, ülkelerine döndüklerinde birer aydın ve edebiyatçı olarak ortaya koydukları eserleriyle hem iki ülke arasındaki kültürel/ilmî ve siyasi ilişkilerin güçlenmesine hem de Azerbaycan'da millî bilincin ve özgürlük aşkının artmasını sağlamıştır. Yine 1918 yılında, Azerbaycan Halk Cumhuriyeti ilanının arka planında, özellikle Türkiye'de eğitim almış, Türk fikir ve kültür hayatını tanıyarak Azerbaycan'a dönmüş, edebiyat ve maarif adamlarının sürdürdüğü edebiyat ve fikir hareketlerinin önemli rolü olmuştur.

XX'nci yüzyılın başı, Azerbaycan Türkleri gibi Türkiye Türklüğü açısından da mücadele ve savaşlarla geçmiş bir dönemdir. Dağılan Osmanlı Devleti'nin yıkıntıları üzerinde, Anadolu'da, 19 Mayıs 1919'da Mustafa Kemal Atatürk'ün Samsun'a çıkmasıyla başlattığı Türk milletinin özgürlük mücadelesi, bugünkü genç Cumhuriyet'in temelini teşkil etmiştir. 100 yıl önce Samsun'dan çıkılan özgürlük yolculuğu bugün hâlâ devam ediyorsa bu değerlere vesile olan Ulu Önder Atatürk'e sonsuz şükranlarımızı sunarız. Millî kimliği yeniden inşa aşamasında yönlendirici ve yol gösterici rolüyle Mustafa Kemal Atatürk, yıkılmaya yüz tutmuş asırlık çınarı yeni bir filiz hâlinde tekrar canlandırmıştır.

Şanlı tarihimizden bugüne sinen mesajları iyi okumak, doğru anlamak ve geleceğe bu perspektiften bakabilmek her Türk gencinin yegâne görevi olmalıdır. Bu sonuçtan hareketle Türk Dünyası'nın yönünü ve geleceğini, bugünü var eden birliktelik unsurları ışığında belirlemenin önemine dikkat çekmek isteriz.

Kadim şehir Bakü'de, ülkeler ve kurumlar arası dayanışma ve iş birliği ile gerçekleştirilen "Uluslararası Türk Dünyası'nda Millî Mücadele ve Edebiyat Sempozyumu"nda sunulan ve her biri son derece kıymetli olan bildirilerin katılımcılarına, tekrar teşekkür ediyoruz.

Sempozyum Düzenleme Kurulu
Bakü, 13.06.2019